**AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI**

**AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI**

**Ulu öndər Heydər Əliyevin anadan olmasının**

**97-ci ildönümünə həsr olunmuş**

# “MİLLİ TƏHLÜKƏSİZLİYİN İQTİSADİ VƏ SOSİAL-MƏDƏNİ ASPEKTLƏRİ”

Beynəlxalq elmi-praktik konfransın

# MATERİALLARI

**5 may 2020-ci il**

**Bakı-2020**

**Elmi redaktor**: prof. Hüseyn Qaraşov

**Redaksiya heyəti:** dos. Fəhrad Möhbalıyev

i.e.d.Vilayət İsmayılov

dos. Zeynəddin Şabanov

Ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş **"Milli təhlükəsizliyin iqtisadi və sosial-mədəni aspektləri"** mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları.Bakı, ADNSU, 2020, 222 səh.

**Konfransın Təşkilat Komitəsi**

H.T.Qaraşov- Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, professor, sədr

F.F.Möhbalıyev – AƏSMA-nın tədris və elmi işlər üzrə prorektoru, dosent, sədr müavini

S.Ş.Məmmədov - AƏSMA rektorun köməkçisi,dosent, üzv

R.H.Məmmədova - AƏSMA HİK-in sədri, üzv

H.Ə.Mirzəyeva- AƏSMA Maliyyə-iqtisad fakültəsinin dekanı, dosent, üzv

S.O.Məmmədova – AƏSMA Sosial iş fakültəsinin dekanı, üzv

V.İ.İsmayılov – AƏSMA İqtisadiyyat və idarəetmə kafedrasının müdiri, i.e.d., üzv

S.M.Şirinov – AƏSMA Ümumi fənlər kafedrasının müdiri, dosent, üzv

Z.M.Şabanov - AƏSMA HİH və sosial fənlər kafedrasının müdiri,dosent, üzv

N.Y.Məmmədova - AƏSMA Maliyyə və mühasibat uçotu kafedrasının müdiri, üzv

R.S.Maniyeva - AƏSMA Hİ kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması şöbəsinin müdiri, dosent, üzv

M.H.Abdullayeva - AƏSMA kitabxanasının müdiri,üzv

A.Ə.Bağırzadə - AƏSMA TEC-in sədri, üzv

**KONFRANSDA İŞTİRAK EDƏN TƏŞKİLATLAR**

1. AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
2. Azərbaycan Memarlıq-İnşaat Universiteti
3. Azərbaycan Universiteti
4. Gəncə Dövlət Universiteti
5. Azərbaycan Turizm və Menecment Universiteti
6. Azərbaycan Dövlət Pedaqoji Universiteti
7. Dövlət İdarəçilik Akademiyası
8. Bakı Dövlət Universiteti
9. AMEA İqtisadiyyat İnstitutu
10. AMEA Hüquq və İnsan Haqları İnstitutu
11. Bakı Mühəndislik Universiteti
12. Belorus Dövlət İqtisadi Universiteti (Belorus)
13. Daşkənd Dövlət Universiteti (Özbəkistan )
14. "Zaporojskaya politexnika" Milli Universiteti (Ukrayna)
15. Qazax Milli Universiteti (Qazaxıstan)
16. Azərbaycan Neft və Sənaye Universiteti
17. AMEA Elm Tarixi İnstitutu
18. FHN Akademiyası
19. AMEA Qafqazşünaslıq İnstitutu

## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, sosiologiya elmləri doktoru, professor Hüseyn Qaraşovun açılış nitqi

Konfransın keçirilməsində əsas məqsəd milli dəyər, mənafe və məqsədləri, insan, cəmiyyət və dövlətin qarşılıqlı tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial, mədəni və digər tələbatların məcmusundan ibarət olan milli maraqların qorunmasında, milli ideologiyanın təşviqində elmin, iqtisadiyyatın, sosial institutların, həmkarlar ittifaqlarının rolunun artırılması istiqamətində təkliflər irəli sürmək, kreativ yanaşmaları dəstəkləmək, yeni çağırışları müzakirə etmək, əldə olunan bilikləri geniş təbliğ etməkdən ibarətdir.

# BÖLMƏ - I

# MİLLİ TƏHLÜKƏSİZLİYİN İQTİSADİ ASPEKTLƏRİ

**Fəhrad Möhbalıyev**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*prorektor, i.f.d., dosent*
*aesma@edu.az*

## DÖVLƏT MÜSTƏQİLLİYİNİN QORUNMASINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ROLU

***"Azərbaycanı qoruyun, Azərbaycanın müstəqilliyini, iqtisadi təhlükəsizliyini təmin edin, Azərbaycanın daxili potensialından səmərəli istifadə edin"***
***Heydər Əliyev***

***Açar sözlər:*** iqtisadi təhlükəsizlik, iqtisadi inkişaf, milli maraqlar, iqtisadi strategiya, iqtisadi təhlükəsizlik göstəriciləri, qloballaşma prosesi, sosial-iqtisadi tələbatlar.

**Giriş**

İqtisadi təhlükəsizlik bir kateqoriya kimi müasir dövrdə böyük aktuallıq kəsb edir. Çünki, qloballaşan dünyada istər siyasi, istərsədə iqtisadi hərbi rəqabətin güclənməkdə davam etdiyi belə bir cəmiyyətdə iqtisadi təhlükəsizliyin əhəmiyyəti günü-gündən yüksəlməkdə, artmaqda davam edir.

Müasir dünyada müharibələrin lokal səviyyədə baş verdiyini və onların birdəfəlik aradan qaldırılmadığını uzun illərdən sonra öz müstəqilliyini bərpa edən gənc Azərbaycan dövlətinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində praktiki addımların atılması və dövlət müstəqilliyinin qorunub saxlanılmasında iqtisadi təhlükəsizliyin rolu olduqca mühümdür. Bu problemin aktuallığı bir sıra daxili və xarici amillərlə bağlıdır.

Birincisi, bir sıra ölkələrdə daxili iqtisadi və sosial-siyasi problemlərin mürəkkəbləşməsi: dövlət büdcəsinin kəsiri, işsizlik, "kölgə iqtisadiyyatı"nın dağıdılması və digər mənfi hallar, istehsalın tənəzzülə uğraması, siyasi qeyri-sabitlik və cəmiyyətdə sosial gərginliyin kəskinləşməsi. Bunun nəticəsində milli təhlükəsizliyinin təmin edilməsinin iqtisadi əsasları dağılır.

İkincisi, bəzi ölkələrin zəiflədiyi bir şəraitdə digər fövqəldövlətlərin onlara hərbi-texnoloji üstünlük vermək, siyasi maraqlarına nail olmaq üçün "iqtisadi alətlər"dən istifadə etmək cəhdləri güclənir.

Deməli, dünyanın hər bir dövlətinin mühüm şərtlərindən biri daxili sabitliyi, ölkənin beynəlxalq əmək bölgüsündə fəal iştirakını təmin edən, eyni zamanda onun milli təhlükəsizliyinə təminat verən iqtisadi təhlükəsizlik səviyyəsini yüksəltməkdən ibarət olmalıdır.

Iqtisadi təhlükəsizlik anlayışı ümumi və geniş kateqoriyadır. Bu baxımdan o milli iqtisadiyyatın müstəqilliyini, sabitliyini və dayanıqlığını təmin edən, ona daim yenilənməyə və özünü təkmilləşdirməyə imkan verən şərt və amillərin məcmusudur.

İqtisadi təhlükəsizliyin məqsədi ilk növbədə dövlətin milli maraqlarını qorumaqdır.

**Təhlilin metodu və metodologiyası**

İqtisadi təhlükəsizliyin təmin edilməsi və formalaşdırılması mühüm milli üstünlüklər-prioritetlər sırasına aiddir.

Avropa və Qərb iqtisadi ədəbiyyatında iqtisadi təhlükəsizlik adətən dünya iqtisadi böhranları şəraitində milli iqtisadiyyatın dözümlülüyünün təmin edilməsi kimi izah edilir.

Son dövrlərdə, inkişaf etmiş ölkələrin iqtisadiyyatında qloballaşma prosesi ilə əlaqədar baş verən dərin struktur dəyişiklikləri nəticəsində iqtisadi təhlükəsizlik anlayışına milli iqtisadiyyatın və

ya onun aparıcı sahələrinin dünya bazarlarında rəqabət qabiliyyətliliyinin təmin edilməsi kimi vacib amil də əlavə edilmişdir.

Amerika mütəxəssislərinin fikrincə (Bərxudarov, 2006:152) iqtisadi təhlükəsizlik ən azı iki şərtə cavab verməlidir:

1.Ölkənin iqtisadi müstəqilliyini qoruyub saxlamaq. Lakin, bu mütləq xarakter kəsb etmir, çünki, beynəlxalq əmək bölgüsü milli iqtisadiyyatları biri-birilərindən qarşılıqlı asılı vəziyyətə gətirib çıxarır. Bu şəraitdə iqtisadi müstəqillik-milli resurslar üzərində nəzarətə, həmçinin ölkənin rəqabətqabiliyyətliyini təmin edən, dünya təcrübəsində, kooperasiya əlaqələrində və elmi-texniki nailiyyətlərlə mübadilədə bərabər surətdə iştirak etməyə imkan verən istehsal, səmərəlilik və məhsulun keyfiyyəti səviyyəsinin əldə edilməsinə nail olmaqdır.

2.Əhalinin əldə edilmiş həyat səviyyəsi keyfiyyətlərinin saxlanılması və onun imkan daxilində yüksəldilməsi, cəmiyyətin və dövlətin sosial-iqtisadi, hərbi-siyasi birliyinin təmin edilməsi, həmçinin daxili və xarici təhlükənin qarşısının alınması üçün iqtisadi gücə nail olmaq.

Beləliklə, iqtisadi təhlükəsizlik yalnız milli mənafeyi müdafiə etmək deyil, eyni zamanda hökumət orqanlarının ölkə iqtisadiyyatının milli mənafeyə uyğun inkişafına və onun reallaşmasına hazır olması və cəmiyyətin sosial-iqtisadi sabitliyini təmin etməyə hazırlanmasıdır (Олейникова, 1993: 165).

Azərbaycanın müstəqillik tarixi Qərb dövlətləri ilə müqayisədə böyük olmadığına görə onun həm təcrübəsi, həm də imkanları məhduddur. Lakin, müstəqil inkişaf etmiş ölkələrin iqtisadi modelərini, təcrübələrini öyrənməklə Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin olunmasının zəruriliyi, mahiyyəti və məqsədini müəyyən etmək mümkündür.

Məsələn, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən ABŞ, İngiltərə, Fransa, Yaponiya, Rusiya və Çin kimi dövlətlərin iqtisadi təhlükəsizliyinin təmin olunmasında başlıca məqsədi dünya ölkələri üzərində iqtisadi, siyasi və hərbi hegemonluğu saxlamaq, dünyada ağalıqlarını təmin etməkdir. Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin olunmasının isə, əsas məqsədi ölkəmizin müstəqilliyini qoruyub saxlamaq, ərazi bütövlüyünü bərpa etmək və bazar iqtisadiyyatı yolu ilə inkişaf etməkdir. Bir sözlə, bu Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının başlıca istiqamətlərindən biridir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi predmeti eyni zamanda üfuqi səviyyədə olan münasibətləri də əhatə edir. Bura siyasi, hərbi, informasiya, elmi-texniki və s. sahələrin təhlükəsizliyinin təmin edilməsini də daxil etmək lazımdır (Məhərrəmov,2007: 226).

Hər bir ölkənin iqtisadi təhlükəsizliyi onun milli iqtisadiyyatının inkişaf səviyyəsindən, iqtisadi təhlükəsizliyinin təmin edilməsində milli mənafeyin əsas götürülməsindən, millətin mənəviyyatının sağlam və ya qeyri sağlamlığının səviyyəsindən, habelə ölkənin sosial inkişaf istiqamətindən, müdafiə potensialından istifadə səviyyəsindən və s.asılıdır.

İqtisadi təhlükəsizliyin daxili maddi əsası olmalıdır. Bu ölkədə məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə əlaqədardır. Hər bir dövlət çalışmalıdır ki, geniş təkrar istehsalı elə təşkil etsin ki, istehsal olunan milli məhsul ölkənin tələbatının çox hissəsini, ödəmək qabiliyyətində olsun. Bütün bunların təmin edilməsi isə ölkəni idxaldan, xarici dövlətlərdən asılılıqdan azad edə bilər. İqtisadi təhlükəsizliyinin daxili sosial əsası isə ölkə əhalisinin birliyidir. Bu isə dövlətin və onun rəhbərlərinin apardığı ağıllı siyasət ilə bağlıdır. Əgər dövlət ağıllı, düşünülmüş, ədalətli sosial-iqtisadi siyasət aparırsa, milli mənafeni əsas götürürsə əhali onun ətrafında sıx birləşir, əks halda isə xalq öz dövlətinə inamını itirir.

Hər bir dövlət özünün iqtisadi təhlükəsizliyini təmin etmək üçün problemin mahiyyətini dərk etməyə imkan verən bir sıra əsas göstəriciləri təhlil etməyə çalışır. Bu göstəricilərə aşağıdakılar aiddir :

- ÜDM-in artım surəti;
- əhalinin həyat səviyəsi göstəriciləri;
- illik inflyasiyanın səviyyəsi;
- işsizliyin səviyyəsi;
- iqtisadiyyatın strukturu;
- əhali gəlirləri arasında nisbət;

- sənayenin ümumi məhsulda xüsusui çəkisi;
- təsərrüfatda texniki bazanın vəziyyəti;
- rəqabətqabiliyyətlilik;
- idxal asılılığı;
- iqtisadiyyatın açıqlığı;
- dövlətin daxili və xarici borcu və s. (Гордиенко, 2009: 17).

Ümumiyyətlə, hər bir dövlətin iqtisadi təhlükəsizliyinin parametrləri müxtəlifdir və bu onun məxsus olduğu bir sıra təbii amillərdən asılıdır. Bir sözlə iqtisadi təhlükəsizliyin təmin olunmasına təsir edən amilləri iki qrupda birləşdirmək olar:

1.Təbii amillər-bura daxildir:

- Ölkənin malik olduğu təbii ehtiyatlar;
- yerləşdiyi strateji-coğrafi mövqe;
- əmək resursları və s.

2. Mövcud hakimiyyətin yürütdüyü siyasətdən asılı amillər-bura daxildir:

- İqtisadi struktur;
- idarəçilik metodları;
- iqtisadi qanunvericilik;
- zəruri iqtisadi biliklər və informasiya sistemi;
- ölkənin beynəlxalq əmək bölgüsündə yeri;
- inteqrasiya və s. (Bərxudarov, 2006: 130).

Məxsus olduğu təbii ehtiyatların həcmi dövlətin iqtisadi təhlükəsizliyinin təməlində ən başlıca amildir. O ölkə ki, geniş təbii ehtiyatlara malikdir, onun iqtisadi təhlükəsizliyini təmin etmək üçün böyük vəsait tələb olunmur. Məhz bu mənada, Azərbaycan zəngin təbii ehtiyatlara malik olan ölkələr sırasına daxildir.

Milli təhlükəsizlik, onun tərkib hissəsi olan iqtisadi təhlükəsizlik probleminin həll edilməsinin ən mühüm vəzifələrindən biri "İstehsalın aşağı düşməsinin qarşısının alınması və iqtisadi sabitliyin təmin edilməsi" hesab edilir (Орехов, 2014: 31).

Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsində digər həlledici amillərdən biri də mövcud istehsal strukturunun necə formalaşması hesab edilir. Belə ki, hər bir dövlət öz istehsal strukturunu müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirmək yolu ilə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında böyük uğurlar əldə etmiş olur. Məsələn, ABŞ avtomobil, Yaponiya elektronika, Almaniya ağır maşınqayırma sənayesini, Skandinaviya ölkələri kənd təsərrüfatını seçmiş, bu sahənin rəqabət qabiliyyətini artırmış və o sahələrdən əldə edilən gəlirin hesabına iqtisadiyyatın digər sahələrində istehsal strukturunu milli mənafeyə uyğun qurmuşlar. Azərbaycan üçün belə sənaye sahəsi məhz neft-maşınqayırma sənayesi seçilmiş, bu strategiya uğurla hal-hazırda da reallaşdırılır.

Ümumiyyətlə, iqtisadi təhlükəsizlik sistemi göstəricilərinin analitik təhlilindən belə bir nəticəyə gəlmək olar ki, bu göstəricilər ayrı-ayrılıqda deyil, kompleks yanaşma prinsipi əsasında götürülməklə nəzərə alınmalıdır. Ona görə ki, birincisi, iqtisadi təhlükəsizliyin göstəriciləri olduqca çoxdur və onun hamısını bütövlükdə nəzərə almaq mümkün deyildir. İkincisi, dövlətlərin keçdiyi tarixi inkişaf yolu, iqtisadi inkişaf səviyyəsi, geosiyasi mövqeyi müxtəlif olduğundan iqtisadi təhlükəsizlik göstəricilərində yer dəyişmələr də ola bilər. Bunu isə hər bir dövlət öz milli marağına uyğun müəyyən edir.

Beləliklə, müasir dövrdə dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsində mühüm rol oynayan iqtisadi təhlükəsizlik xalqın həyat səviyyəsinin yüksəldilməsi, istehsal proseslərinin təkmilləşdirilməsi, sənaye və kənd təsərrüfatının inkişafı, yeni texnologiyaların tətbiq edilməsi, elmin yeni müasir nou-xau texnologiyalarının nailiyyətlərindən, strateji yeraltı və yerüstü, həmçinin əmək ehtiyatlarından səmərəli istifadə edilməsindən ibarətdir. Məhz buna görə də Azərbaycan dövləti hüquqi qanunlar çərçivəsində iqtisadi sahədə milli təhlükəsizliyin tənzimlənməsinə xüsusi diqqət yetirir. "Milli təhlükəsizlik haqqında"Azərbaycan Respublikasının qanunun 17-ci maddəsində (Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanunu, 2004: maddə 17)

iqtisadi sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri müəyyənləşdirilmişdir ki, bunlara aşağıdakılar aiddir:

- Azərbaycan Respublikasının iqtisadi potensialının artırılması və bazar münasibətlərinin inkişaf etdirilməsi yolu ilə iqtisadi müstəqilliyin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişafını təmin edən təbii ehtiyatların, energetika əsaslarının və tranzit imkanlarının qorunması və möhkəmləndirilməsi;
- ölkə daxili və beynəlxalq maliyyə təsisatları arasında qarşılıqlı sərfəli əməkdaşlığın gücləndirilməsi, daxili və xarici maliyyə ehtiyatlarının ölkə iqtisadiyyatının inkişafına yönəldilməsi;
- Azərbaycan Respublikasının iqtisadi potensialının qorunması məqsədilə büdcə vəsaitlərinin və dövlət ehtiyatlarının səmərəsiz istifadəsinə yol verilməməsi;
- iqtisadiyyatın inkişafının təmin edilməsi məqsədilə bank sisteminin təkmilləşdirilməsi;
- iqtisadiyyatda dövlət idarəetməsinin təkmilləşdirilməsi;
- iqtisadiyyatda qeyri-mütənasib inkişafın qarşısının alınması;
- iqtisadi sahədə həyata keçirilən sosial yönümlü islahatların hüquqi təminatının təkmilləşdirilməsi;
- milli məhsulların rəqabət qabiliyyətinin artırılması məqsədilə yerli istehsalçıların hüquqlarının müdafiə olunması;
- enerji ehtiyatlarının istehsalı, nəqli, nəqliyat dəhlizinin istismarı ilə bağlı layihələrin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası və s.

Ölkəmizin bir sosial dövlət olaraq son illərdə həyata keçirdiyi islahatlar nəticəsində iqtisadiyyatın dinamik inkişafı onu göstərir ki, Azərbaycan Respublikası iqtisadi təhlükəsizlik strategiyasını həyata keçirmək gücünə malikdir və bu istiqamətdə çox mühüm nailiyyətlər əldə etmişdir.

**Nəticə**

Aparılan təhlil onu deməyə əsas verir ki, hazırda Azərbaycan beynəlxalq iqtisadi sistemə tədricən inteqrasiya edərək dünya birliyinin tam hüquqlu üzvü kimi öz fəaliyyətini davam etdirir.

Beləliklə, iqtisadi təhlükəsizlik sahəsində aparılan iqtisadi təhlil nəticəsində əldə olunan nəticələri ümumiləşdirərək ölkədə dayanıqlı iqtisadi inkişafa dəstək ola biləcək iqtisadi təhlükəsizliyin təmin olunması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi səmərəli nəticələr verə bilər:

1. Ölkəmizin milli və iqtisadi maraqları baxımından iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, dayanıqlı inkişafı təmin edən iqtisadi mexanizmlərin qurulması, dünya iqtisadiyyatına səmərəli inteqrasiya və ölkədə əsas sosial-iqtisadi problemlərin həll edilməsi kimi amillər, iqtisadi təhlükəsizliyin təmin olunmasını zəruri edir.

2. İqtisadi təhlükəsizliyin meyarları həm iqtisadiyyatın sistem kimi inkişafını, həm də dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsini özündə əks etdirir. Eyni zamanda iqtisadi təhlükəsizliyin təmin olunması əsasən real sektorun inkişaf etdirilməsindən və iqtisadiyyatın ayrı-ayrı sahələri arasında səmərəli əlaqələrin qurulmasından asılıdır.

3. Azəraycanın xarici iqtisadi əlaqələrində istifadə edilən potensial daha çox təbii resurs amilinə əsaslanır ki, bu da ixrac potensialının inkişaf etdirilməsində ölkənin xarici ticarət fəaliyyətinə müsbət təsir etməklə iqtisadi təhlükəsizliyi təmin edə bilər.

4.İqtisadiyyatın qeyri-neft sektorunun inkişafının təmin olunması xarici ticarətdə azad ticarət siyasətinin aparılması üçün zəmin yaradacaq.

5. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün dünyanın sənayecə inkişaf etmiş ölkələri ilə iqtisadi inteqrasiya əlaqələri qurmaq mühüm şərtdir.

6. Ölkədə iqtisadi təhlükəsizliyin təmin olunması məqsədilə dövlətin elmi cəhətdən əsaslandırılmış “İqtisadi təhlükəsizlik konsepsiyası”və onun həyata keçirilməsi mexanizminin hazırlanması.

Beləliklə, hazırda dünyanın hər bir dövlətinin ən başlıca məqsədi ölkə daxili və beynəlxalq səviyədə sabitliyin qorunması, milli təhlükəsizliyin, onun tərkib hissəsi olan iqtisadi təhlükəsizliyin təmin olunmasıdır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Bərxudarov M., Məmmədov N.İqtisadi təhlükəsizlik. Bakı: "İqtisad Universiteti",2006, 152s.
2.Экономическая безопасность и инновационная политика. Под ред. Е. А. Олейникова, Москва,1993, с.340.
3.Məhərrəmov A., Aslanov H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı:2007, 399s.
4. Гордиенко Д.В. Основы экономической безопасности государства. М:2009, с.17
5. Bərxudarov M. və Məmmədov N. İqtisadi təhlükəsizlik. Bakı:2006, 130s.
6. Орехов В.И. Экономическая безопасность современной России в условиях кризиса. Москва: 2014, с.31
7. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanunu, Bakı:2004, mad.17
8. www.economy.cov.az
9. www.wikipediya.az
10. www.e-ganun.az
11. www.google.az

**Vilayət İsmayılov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*kafedra müdiri, i.e.d.*
*ismaylov1953@mail.ru*

# TƏŞKİLATIN İDARƏETMƏ PROSESİNƏ SİSTEMLİ-TƏŞKİLATİ YANAŞMA

**Açar sözlər:** təşkilati əlaqələr, idarəetmə, təşkilati davranış, təşkilati-sistemli yanaşma

## Giriş

Ölkənin sosial-iqtisadi inkişafı mexanizminin modernləşdirilməsinin vaxtı çatmış zərurəti bizim cəmiyyət qarşısında bir çox irimiqyaslı, qeyri-adi mürəkkəb və müxtəlif planlaşdırılmış təşkilati problemlər qoyur. Təşkilat nəzəriyyəsi təşkilatın fəaliyyətini müəyyənləşdirən ümumi prinsiplərinin, qanunauyğunluqlarının, iş mexanizmlərinin və elementlərinin öz aralarında və xarici mühitlə qarşılıqlı əlaqəsini hərtərəfli əks etdirir.

Təşkilat nəzəriyyəsinin tədqiqat mövzusu təşkilat çərçivəsində baş verən bütün təşkilati əlaqələrin aşkar edilməsi və bu istiqamətdə insanların qarşılıqlı təsirinin öyrənilməsi, onun inkişaf qanunauyğunluqlarının müəyyənləşdirilməsi, həyata keçirilməsi mexanizminin işlənilməsi və realizasiyası, eyni zamanda ona nəzarətin təşkili mexanizminin qurulmasından ibarətdir.

Təşkilatın nəzəriyyəsi sahəsində təkmilləşdirilmiş nəzəri və praktiki biliklər müəssisənin rəhbərliyinə daha peşəkar səviyyədə idarəetməni həyata keçirməyə, təşkilati məqsədlərin müəyyən edilməsi və onlara nail olunması məqsədi ilə metodların seçilməsi zamanı elmi cəhətdən əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir (Ismayılov, 2018: 23-27). Təşkilatın problemlərinin öyrənilməsini öz tədqiqat obyekti kimi qəbul edən elmlərə menecment, sosiologiya, təşkilati psixologiya, iqtisadiyyat və s. aid etmək olar və bu sahələrin hər biri öz spesifik xüsusiyyətlərinə uyğun olaraq təşkilatda baş verən proseslərin bir sıra aspektlərinin öyrənilməsi məsələlərini nəzərdən keçirir.

Yuxarıda qeyd etdiyimiz elmi sahələrdən fərqli olaraq, təşkilatın nəzəriyyəsi bilavasitə təşkilat haqqında biliklərin sistemləşdirilməsi istiqamətində nəzəriyyə və təcrübənin vəhdədinin yaradılmasına olan cəhdi göstərir. Odur ki, təşkilat nəzəriyyəsi çərçivəsində müəssisələrə insanların formal və qeyri-formal qarşılıqlı əlaqələrinin vahid sistemi kimi baxılır. Beləliklə, təşkilatın nəzəriyyəsi idarəetmə ilə əlqəəli elmlərdən biridir, bunun əsasında isə daha geniş mənada ümumi idarəetmə nəzəriyyəsi durur.

## 1.Materiallar və metodlar

Təşkilati davranış-menecmentdə insanların və onların birlikləri fəaliyyətinin və davranışının təşkilati aspektlərini əhatə edən problemlərin öyrənilməsi üzrə elmi istiqamətdir (Ismayılov, 2011: 79-84). Təşkilati davranışın elmi istiqamət kimi yaranması və formalaşması menecment sahəsində mütəxəssislərin müəssisə (təşkilat) əməkdaşlarının davranışının idarə edilməsində sosiologiya və psixologiya biliklərini tətbiq etmək istəyi ilə bağlıdır (Ismayılov, 2019: 86-95).

Menecmentin Bixevioristik məktəbi təşkilati davranışa insanların davranışı haqqında ilkin bilikləri və onunla əlaqəli təsəvvürləri təmin etmiş və bu istiqamətdə tədqiqatların aparılması üçün əlverişli imkan yaratmışdır (Зенкович, 2004: 234-279) .

Bu təsəvvürlərə müvafiq olaraq insanın istənilən hərəkəti xarici stimullara olan reaksiyanı əks etdirir. Bu isə öz növbəsində insanın davranışının müvafiq stimullardan istifadə edilməsi ilə idarə oluna biləcəyi ehtimalını irəli sürməyə bizə imkan verir. Beləliklə, təşkilati davranışın ilkin vəzifəsi bu cür stimulların və onların insanların davranışlarına təsir mexanizmlərinin aşkar edilməsi istiqamətini tədqiq edən bir elm kimi müəyyən edilməsini təmin edir.

Qeyd etmək lazımdır ki, mövcud şəraitdə təşkilati davranış elmi kifayət qədər inkişaf etmiş və aşağıda göstərilən məsələlərin həll edilməsinə istiqamətləndirilmişdir:

- müxtəlif təşkilati proseslər çərçivəsində insanların davranışlarından yaranan və qəbul edilmiş qanunauyğunluqların müəyyənləşdirilməsi, həmçinin geniş tədqiq edilməsi;

➢ və müvafiq situasiya şəraitində insanların davranışını əks etdirən səbəb-nəticə əlaqələrinin müəyyən edilməsi;
➢ təşkilatda insanların davranış reaksiyalarının proqnozlaşdırılması;
➢ müxtəlif təşkilati məsələlərin və problemlərin həlli məqsədilə insanların davranışlarına və onların idarə edilməsi üsullarına təsir mexanizmlərinin öyrənilməsi.

Odur ki, təşkilati davranışın inkişafında təşkilati strukturun da mühüm əhəmiyyəri danılmazdır. Bir sıra tədqiqatçılar müəssisənin təşkilati strukturun qurulmasına müxtəlif səpkidə yanaşır və onlar tərəfindən fərqli metodlar təklif edilir (Andreyeva, 2019: 12-21). Müasir dövrdə təşkilati strukturların qurulmasının müxtəlif metodlarının təklif edilməsinə əsaslanaraq təşkilati strukturların dizayn konfiqurasiyasının əsas parametrlərini iki qruplaşdırma (funksional və bazar) prinsipinə görə müəyyən etmək olar (şəkil 1).




**Şəkil 1. Təşkilati strukturların dizayn konfiqurasiyalarının əsas parametrlərinin müəyyən edilməsi**

Qeyd: Müəllif tərəfindən tərtib edilmişdir.

Qruplaşmanın funksional prinsipi təşkilatın prosesdən və miqyasdan asılılığını müəyyən etdiyi halda ön plana çıxır və bu zaman təşkilat yüksək ixtisaslaşmanın bütün üstünlüklərindən istifadə etməlidir. Bu kontekstdə təşkilat yalnız sabit xarici mühit olduğu halda rahat fəaliyyət göstərə bilər.

Qruplaşmanın bazar prinsipi təşkilatın iş axınının koordinasiyasına üstünlük verdiyi və proses, miqyas kimi meyarların təsirinin azaldılmasına şüurlu şəkildə getdiyi hallarda seçilə bilər. Bununla yanaşı, təşkilat dinamik xarici mühitdə uğurla fəaliyyət göstərmək üçün bütün imkanlara malik olmalıdır.

Yuxarıda qeyd edilənlərlə əlaqədar olaraq, təşkilatın qruplaşdırılması prinsipini müəyyən etmək üçün ondan əlavə faktın iddia edilməsi tələb olunmur, lakin təşkilatın xarici mühitin hansı tipində fəaliyyət göstərməsi haqqında dəqiq təsəvvür olmalıdır. Qruplaşdırma prinsipi ilə sıx əlaqədə dizaynın dominant (üstün) əlaqələndirmə mexanizmi adlanan bir parametri vardır. Hesab edilir ki, əlaqələndirmə mexanizmləri-müəssisədə əmək bölgüsü səviyyəsi və koordinasiya mexanizmlərini müəyyən edən yollardır. Qeyd etmək lazımdır ki, təşkilatın fəaliyyət göstərdiyi xarici mühitin hər bir növünə müəyyən əlaqələndirmə mexnizmi uyğun gəlir və bunlara aiddir

-sadə və dinamik mühitə birbaşa nəzarət uyğundur;

-sadə və sabit xarici mühitə əlaqələndirmə mexanizmi üstünlük təşkil edən iş proseslərinin standartlaşdırılması uyğun gəlir;

-mürəkkəb və sabit xarici mühitə bacarıq və biliyin standartlaşdırılmasını müəyyən edən koordinasiya mexanizmi uyğun gəlir;

- mürəkkəb və dinamik xarici mühitə qarşılıqlı razılaşma kimi mexanizm uyğun gəlir;

- orta dərəcəli mürəkkəb və dinamik mühitə təşkilatda əsas koordinasiya mexanizmi kimi buraxılan standartlaşdırılma uyğun gəlir.

Şəkildən göründüyü kimi, təşkilati strukturların dizayn konfiqurasiyalarının parametrləri içərisində şaquli və üfüqi mərkəzsizləşmə xüsusi yer tutur.

Mərkəzsizləşmə-mərkəzdən və ya idarəetmə orqanından funksiyaların, hakimiyyətin, səlahiyyətlərin yenidən bölüşdürülməsi prosesidir (Беляцкий, 2006: 268).

Ətraf (xarici) mühitin artıq müəyyənləşdirilmiş dərəcə mürəkkəblik və dinamikliyini, onun xarakteristikasını, həmçinin tipini nəzərə alaraq xarici mühit amillərinin təsirini müəyyən etmək üçün bir çox üsullar vardır və bunlara: müqayisə metodu; induksiya metodu; balans metodu, GZİT metodu və əməliyyatların tədqiqat mütodu aiddir.

Müəllifin fikrincə, fərqli metodlar içərisində xarici mühit amillərinin təsirini nisbətən dəqiq müəyyənləşdirən metod ekspert qiymətləndirmələri hesab edilir ki, onun da mahiyyəti intuitiv-məntiqi analizin kəmiyyət metodlarının qiymətləndirilməsi və məlumatların birlikdə işlənməsindən ibarətdir. Ekspert qiymətləndirmələrinin aşağıdakı metodları mövcuddur: assosiasiyalar metodu, cüt (ikili) müqayisələr metodu, vektor üstünlüklərinin metodu, fərdi ekspert sorğusu, orta nöqtə metodu.

Təşkilatın fəaliyyətinin qeyri-müəyyənliyi və aqressiv (kəskin) təsiri kimi xüsusiyyətlər mövcud dinamikliyin (mürəkkəblik nəzərə alınmaqla) səviyyəsinin nəticəsidir, lakin əksi deyildir (Andreeva, 2016: 119-133). Məhz buna görə də, bir qayda olaraq, xarici mühitin tipini müəyyən etmək üçün onun əsas xüsusiyyətləri kimi mürəkkəblik və dinamiklikdən istifadə olunur.

Yuxarıda sadalanan problemlərin səmərəli həlli durğunlaşmış hadisələrin aradan qaldırılmasında ən vacib amillərindən birinə çevrilir və cəmiyyətin keyfiyyətcə yeni inkişaf hüdudlarına çıxışının şərtini təmin edir. Belə bir vəziyyətdə təşkilatın səmərəli fəaliyyətinin elmi əsaslarını təmin edə biləcək universal, ümumiləşdirici nəzəriyyənin xüsusi kəskinliklə qurulması zərurəti yaranmış olur. Burada təşkilatın ümumi nəzəriyyəsinin (TÜN) yaradılmasının vacibliyindən söhbət gedir.

## 2. Təşkilatın ümumi nəzəriyyəsinə sistemli-təşkilati yanaşma

TÜN-nin predmeti müxtəlif təbiətli böyük sistemlərin səmərəliliyinin (qənaətcilliyinin və etibarlılığının) əsasında duran ümumi təşkilati qanunauyğunluqların öyrənilməsi hesab edilir. Bu baxımdan, ümumilik səviyyəsinin təşkilati nəzəriyyəsinin yaradılmasının fundamental əhəmiyyəti iki əsas vəziyyətlə şərtləndirilir:

❖ Birincisi, V. İ. Lenin qeyd edirdi ki, "... kim ümumi məsələr həll edilmədən fərdi məsələləri həll etmək istəyirsə, o, hər bir addımda şüursuzca özü üçün bu ümumi suallara "müdaxilə" etmək məcburiyyətində olacaqdır (Зенкович, 2004: 234-279). Təşkilati problemlərin adekvat olaraq əks etdirilmə vasitələrinə və onların optimal həlli yollarının axtarılıb tapılması üçün birgə strategiyaya malik ümumiləşdirilmiş nəzəri-təşkilati konsepsiyanın mövcudluğu fərdi təşkilati məsələlərin həllində bir çox səhvlərin qarşısını almaqla, konkret təşkilati problemlərlə əlaqəli məsələlərin işlənib hazırlanmasına ciddi təkan və lazımi istiqamət verə bilər (Виноградй, 1989: 336). TÜN-ün yaradılmasına olan tələbat, müasir elmin optimal fəaliyyət göstərən sosial iqtisadiyyat, mühəndis və sosial layihələndirmə, proqnozlaşdırma, ixtiraçılıq nəzəriyyələrində; əməyin və istehsalın müxtəlif sahələrinin təşkili nəzəriyyələrində; erqonomika, ekologiya və s. xüsusilə kəskin hiss olunur.

❖ İkincisi, hazırda məhsuldar qüvvələrin, ictimai təşkilatların (o cümlədən qeyri-hökumət təşkilaytları) və istehsalat münasibətlərinin inkişafı xarakterində baş verən köklü dəyişikliklər cəmiyyət qarşısında getdikcə daha çox təşkilati problemlər irəli sürür ki, bunlar da texniki, sosial-iqtisadi təcrübədən formalaşmış məzmundan fövqəladə mürəkkəbliyinə görə fərqləndirilir. Belə

problemlərə nümunə olaraq qlobal ekoloji tənzimləməyə, iqtisadiyyatda keyfiyyətcə yeni təşkilati mexanizmin yaradılmasına artan ehtiyacı qeyd etmək olar ki, bunlar da elmi-texniki inqilabın nailiyyətlərinin sosialist təsərrüfat sisteminin üstünlükləri ilə üzvi surətdə birləşdirilməsi zəruriliyinə xidmət edir. Bu vəzifələrin fonunda isə təşkilatın optimal formasının qurulması, idarə edilməsi və inkişafı üzrə böyük sistemlərin metodologiyasının yaradılmasının aktuallığı, yəni təşkilatın ümumi nəzəriyyəsinin inkişaf etdirilməsi kimi məsələlər durur. Onu da qeyd etmək lazımdır ki, təşkilatın ümumi nəzəriyyəsinə adekvat sistem aparatının qurulmasında riyazi yanaşmalardan da istifadə etmək imkanının az olması bu sistemin fəaliyyətinin zəifləməsini göstərir.

Bu istiqamətdə aparılmış tədqiqatların nəticələri TÜN-nə sistemli-təşkilati yanaşmanın aparılması üçün geniş inkişaf bazasını yaradır (http://vinogray.narod.ru/articles/mono_1.pdf). Bu təklif edilən sistemlı-təşkilati yanaşma təşkilatın idarə edilməsi istiqamətində keçmişin nailiyyətlərinin unudulmasının və həddən çox atılmasının qarşısını alaraq metodoloji alətin ardıcıl olaraq dərinliyinin, çoxfunksionallığının, tətbiqi səmərəliliyinin artırılması üçün əsas yaradır. Beləliklə, sistemli-təşkilati yanaşmada müxtəlif üsul və metodların tətbiq edilməsi ehtimalının çoxluğu digər yanaşmalara nisbətən mühüm əhəmiyyət kəsb edir, "sistemli hərəkət"ın nəzəri bazasının genişlənməsinə şərait yaradır.

Sistemli-təşkilati yanaşma nəzəriyyəsi və metodologiyasının inkişafının nəticələri çox geniş və çoxplanlıdır. Sistemli təsəvvürlər və yanaşmaların işlənib hazırlanması XX əsrdə bir sıra istiqamətlər və səviyyələr üzrə həyata keçirilmiş, həmçinin sistemlərin ümumi nəzəriyyəsinin son dərəcə ümumiləşdirilmiş konsepsiyalarından başlayaraq sistemli təhlilin tətbiqi texnologiyaları və sistemli texnikalarda da öz əksini tapmışdır. Yuxarıda qeyd edilmiş yanaşmalar davamlarını və dərinləşməsini tələb edirlər. Bu baxımdan, "sistemli hərəkət" in daha da inkişaf etdirilməsi üçün uzun illər ərzində toplanaraq həll edilməmiş ziddiyyətlər, onun daha da artmasına və dərinləşməsinə mane olan deformasiyalar ətraflı, hərtərəfli təhlil olunmalıdır.

Yuxarıda sadalananları nəzərə alaraq, sistemli-təşkilat yanaşmada menecer 3 müstəvidə (məlumatlar, insanlar və təsir müstəvisində) təşkilatın xarici fəaliyyət mühitinin növünü müəyyənləşdirməli və yalnız bundan sonra təşkilati dəyişikliklər prosesinin bilavasitə idarə edilməsi məsələlərinin həllinə başlamalıdır. Beləliklə, təşkilati dəyişikliklərin idarə edilməsi prosesinə yeni metodiki yanaşmanın əsas mərhələlərinə aşağıdakılar aiddir (şəkil 2).

**Məqsəd:** İdarəetmə prosesinin təşkilati dəyişikliklərinin metodoloji əsasının formalaşdırılması

↓

Xarici mühitin tipinin xarakteristikası: mürəkkəblik və dinamikliyin nəzərə alınması ilə **xarici mühit amillərinin təsirinin müəyyənləşdirilməsi**

↓

| | | |
|---|---|---|
| **Məlumatlar bloku:** təşkilati strukturun dizayn konfiqura-siyası paramatrlərinin layihə-ləndirilməsi-əlaqələndirmə mexanizminin mərkəzləşmə dərəcəsi,qruplaşma prinsipi və s. | **Personalla (insanlarla) iş bloku:** təsiredici reformator komandasının yara-dılması –səmərəli təbligat; qiymət-ləndirmə üzrə işçilərin fikri; mane-ələrin müəyyənləşdirilməsi və s. | **Təsir bloku:** yeniliyə maneçiliyin aradan qaldırılması-sistemli planlaşdırma və təminat, korporativ mədəniyyətdə əldə edilənlərin möhkəm-ləndirilməsi və s. |

↓

**Qarşıya qoyulmuş məqsədə nail olma** faktının müəyyən edilməsi

↓

**Təşkilatın yeniləşmiş vəziyyəti** (səmərəli realizasiya edilmiş təşkilati dəyişiklik faktrı üzrə )

**Şəkil 2. İdarəetmə prosesinə təşkilati dəyişikliklərlə metodiki yanaşmanın əsas elementləri**

Qeyd: Müəllifin yaradıcı yanaşması əsasında tərtib edilmişdir

Bizim fikrimizcə, sistemli-təşkilati yanaşma metodologiyasının inkişafını gecikdirən, onun nəzəri səviyyəsini və tətbiqi səmərəliliyini azaldan əsas komponentlərə aşağıdakıları aid etmək olar:

1.Mövcud sistem nəzəriyyələrinin çox az üstünlüyə malik olması və pərakəndəliyi, onlarda fərqli üstünlüyün olmaması, yanaşmaların inteqrasiyasına və nəticələrin qarşılıqlı zəngin sintezinə son dərəcə zəif yanaşmalar.

2.Bu istiqamətdə versiyalarının əksəriyyətinin yaradılması zamanı dialektikanın metodologiyası potensialından kifayət səviyyədə istifadə edilməməsi. Belə ki, sistemli tədqiqatların nəzəri bazasının qurulmasına dialektik yanaşma struktur və dinamik xüsusiyyətlər sisteminin konseptində adekvat birləşməni tələb edir.

3. Obyektin bütün aspektləri, prosesləri, komponentləri bir-biri ilə vahid sistem şəklində qovuşur və məhz aktual ziddiyyətlərin həll edilməsi zərurəti ilə əlaqələndirilir. Sistemli-təşkilat yanaşmanın ən fundamental xüsusiyyəti qeyri-strukturlaşma və qarşılıqlı fəaliyyətin deyil, aktual ziddiyyətlərin üzə çıxarılması və səmərəli variantın həllinə nail olmaqdır.

**Nəticə**

Beləliklə, sistemli-təşkilati yanaşma təşkilatın ümumi nəzəriyyəsinin inkişafının konseptual əsaslarının və sistem metodologiyasının təhlili mövcud struktur-formalizm versiyalarından yeni-dialektik-təşkilati versiyaya keçməyin vaxtının zəruriliyini göstərir.

Təşkilati sistem nəzəriyyələrinin və metodlarının inkişaf təcrübəsinin dərk edilməsi sistemli-təşkilati yanaşmanın ilk növbədə keyfiyyətli tədqiqat metodologiyası olduğunu göstərir. Bizim fikrimizcə, nisbətən mürəkkəb obyektlərin tədqiq edilməsi üçün məhz adekvat keyfiyyətli texnologiyaların inkişafında sistemli-təşkilati yanaşmanın tətbiq edilməsi məsələsi xüsusi əhəmiyyətə malikdir.

**İstifadə ediımiş ədəbiyyat**


[1]Andreyeva T.E. İnnovative technologies and scientific solutions for industries, 2019, №3, pp.12-21 http://vinogray.narod.ru/articles/mono_1.pdf

[2]Андреева Т. Е., Гетьман О. О. Управліния процесом розвитку підприємства в контексті впливу зовнішнього середовища на його діяльність. Вісник економіки транспорту і промисловості. Харків, 2016. № 56. С. 119–133.

[3]Беляцкий Н. П. Основы лидерства. Минск : БГЭУ, 2006, с. 279.

[4]Виноград Э.Г. Общая теория организации. Томск, 1989, с.336.

[5]İsmayılov V. İ. İnsan resurslarının idarə edilməsi sitemi. Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi əsərləri.-Bakı, 2011, №1, s. 79-84.

[6]İsmayılov V. İ. İnsan resurslarının səmərəli idarə edilməsində işgüzar və sosial səmərənin funksional asılılığı. Az.Rr Ə və ƏSMN-nin Sosial problemlər Elmi-tədqiqat mərkəzi. Əmək və sosial problemlər jurnalı. Elmi əsərlər toplusu. Bakı. 2018, №2 (22), səh.23-27.

[7]İsmayılov V. İ. Kadr potensialı və sosial xidmət sferasının inkişafında onun rolu. Az.Rr Ə və ƏSMN-nin 100 illiyinə həsr olunmuş "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, buğun və sabah" mövzusunda Beynəlxalq Elmi-Praktik Konfrans. Bakı, 2019, s.86-95

[8]Зенкович Н.А.Собрание социнений. Т.6. Покушения и инсценировки. Москва, 2004, с.234-279

**Андрей Карпенко**
*Национальный университет «Запорожская политехника» профессор кафедры экономики и таможенного дела, доцент, доктор экономических наук*
*andreykarpenko@ukr.net***(УКРАИНА)**

**Анна Засорина**
*Национальный университет «Запорожская политехника»*
*магистр*
*anna.zasorina0308@gmail.com***(УКРАИНА)**

# ВЛИЯНИЕ COVID-19 НА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ СОСТОЯНИЕ УКРАИНЫ

Ключевые слова: экономическая стабильность, рынок труда, бизнес, карантин, покупательская способность

Начало 2020 года ознаменовалось появлением новой угрозы мировой экономике, которой предрекали очередной кризис еще в течении предыдущих двух лет. Большинство стран мира ощутили на себе пагубное влияние COVID-19. Стремительное распространение пандемии одну за другой стали парализовать национальные экономики, вызывая сворачивание экспортно-импортных операций и изоляцию бизнеса не только в масштабах страны, но и на локальных уровнях. Введение карантина привело к снижению спроса и предложения, падению доходов домохозяйств, переводу большого количества сотрудников, студентов и учеников на дистанционную форму работы и обучения, изменению ценностных ориентаций и взаимоотношений в обществе. Возникла острая необходимость учиться и адаптироваться к новым условиям у государства, бизнеса и населения. Те изменения, которые происходят сегодня свидетельствуют о значительных рисках и о том, что ситуация в скором будущем не вернется к базовым условиям (предкризисным), а все прогнозы предполагают несколько сценариев развития мировой экономики (V, W, U, L).

Сейчас мировые аналитические и консалтинговые компании активно делают прогнозы и обосновывают возможное развитие кризиса и его последствия. Это хорошее подспорье своевременно подготовить пути преодоления негативных процессов, что открывает определенную возможность для государства стать более гибким в принятии решений и адаптации к сложившейся ситуации. Так, компания McKinsey & Company создала 3 сценария развития кризиса от последствий пандемии: оптимистический – предполагает быстрое установление контроля над вирусом при незначительном замедлении роста мирового ВВП с 2,5 до 2% и быстрого возврата к нормальному функционированию экономики; правдоподобный – предполагает замедление мирового роста экономики до 1-1,5% при большом давлении на малый и средний бизнес, развивающиеся страны; пессимистический – предполагает, что COVID-19 будет несезонным явлением и тогда начнется глобальная рецессия при замедлении роста мирового ВВП до 1,5-0,5% [McKinsey & Company, 2020].

Инвестиционная компания Dragon Capital предположила два сценария развития ситуации в Украине. Первый (базовый) сценарий предусматривает сокращение ВВП на 4% и девальвацию гривны до 30 грн. за доллар если эпидемия и ограничительные меры завершатся до конца мая и с третьего квартала экономика начнет работать в прежнем режиме. Второй (пессимистический) сценарий особо не отличается от первого и предполагает, что если карантин продлят до июня-июля, то будет падение ВВП будет на 9%, курс доллара будет колебаться в пределах 30,3-35 грн. [Ю. Григоренко]. Так же эксперты в области экономики, политологии и представители власти, сходятся во мнении, что сейчас

спрогнозировать единственную ситуацию последствий для Украины невозможно, но больше всего пострадает малый и средний бизнес.

Не смотря на то, что есть разные прогнозы последствий пандемии и сроков введенных карантинов, сейчас тяжело спрогнозировать дальнейшее развитие ситуации и то, как сильно она повлияет на социально-экономическое состояние и возможность развития не только Украины, но и мировой экономики в целом. Наверняка, последствиями COVID-19 для Украины будет снижение роста ВВП, девальвация гривны, рост задолженности по международным кредитам, уменьшение экспорта товаров, снижение производительности труда и прибыльности предприятий, сокращение поступлений от трудовых мигрантов, снижение деловой активности, которая может привести к увеличению безработицы.

Наибольшее влияние COVID-19 из-за карантинных мер осуществляет на рынок труда и бизнес среду, особенно на малые и средние предприятия. С введением карантина и его дальнейшим ужесточением многие сферы деятельности были лишены возможности нормального функционирования, часть осталась вообще без возможности получать прибыль (преимущественно тот бизнес, который закрылся на время карантина и не смог перейти в online): гостинично-ресторанный бизнес, туризм, сфера перевозок и транспортировки, частично продажа вещей и продуктов питания. Введение карантина уже сейчас привело к существенному разогреву и разбалансированности рынка труда (увеличился спрос на медицинских сотрудников, курьеров, водителей, IT-специалистов, психологов, репетиторов, маркетологов и других специалистов, которые могут работать дистанционно); возвращение большого количества трудовых мигрантов. Соответственно существует большая вероятность, что эти факты сильно ослабят малый и средний бизнес и повлияют на его значительное сокращение. Указанные изменения негативно отобразятся на финансовом состоянии домохозяйств, которые не имеют долгосрочных сбережений.

Данные опросов компании Info Sapiens [Info Sapiens, 2020] и социологической группы Рейтинг [Rating Group Ukraine, 2020], проведенного в период 25-29 марта подтверждают осложнение социальной ситуации. Было выявлено, что почти 60% украинцев понесли финансовые потери из-за введения карантина, 4-16% – полностью потеряли работу, 45-60% – утверждают, что им хватит доходов только на март месяц или уже не хватает, 16-35% – хватит средств на 2-3 месяца, а 2-6% – на 6 месяцев. Стоит отметить, что введение карантина повлияло и на сокращение заработной платы, что и без того снизило невысокий уровень доходов украинцев. Поэтому возрастает актуальность материальной поддержки жителей Украины на период карантина и в первые месяцы после его прекращения, снижение или даже отмена платы за коммунальные услуги, содействие повышению объемов кредитования населения по низким процентам для поддержания их покупательной способности и т.д.

Конечно же нынешняя пандемия негативно воздействует на социально-экономические процессы, экономическую активность, бизнес, прибыльность, занятость населения, но с другой стороны, как и любой кризис, позволяет государственной власти, всем экономическим субъектам и населению стать более сильными, уменьшить в системе количество низкоэффективных участников. Прежде всего, у бизнеса возникает возможность увидеть несовершенство своих бизнес-процессов и работать над их оптимизацией, пересмотреть свои сильные и слабые характеристики, которые обострились в период карантина, сформировать и усилить свою корпоративную культуру, подучить свой персонал и так далее. Современным предпринимателям стоит позаботиться о введении антикризисного управления и проведении некой ревизии своих расходов.

Оценивая экономику Украины и ее готовность к современным вызовам, достоверно тяжело спрогнозировать развитие пандемии в Украине и тех последствий, к которым она может привести. Многое зависит от периода карантинных мер, поскольку из-за нестабильного социально-экономического состояния экономики Украины и отсутствия добросовестной конкуренции на многих локальных рынках давление на экономику является очень сильным. Сегодня многие не только мелкие, но и средние предприятия не имеют достаточной финансовой «подушки», которая может служить основой для компенсации

простоев и дальнейшего восстановления бизнеса. Поэтому способность выхода из сложившегося кризиса лежит не только «на плечах» у предпринимателей, но и государства.

Со стороны государства сейчас заметно понимание всей серьезности происходящей ситуации и, в какой-то степени, оперативность принятия решений. К сожалению, украинская власть не может сделать весомую экономическую поддержку отечественных предприятий, как это сделали США, Германия или другие страны. Стоит учитывать, что уровень экономики Украины далек от уровня развитых стран. То, что сейчас делает государство, способствует смягчению ситуации в бизнес среде, частично снижает давление на бизнес, но эти меры не позволяют предприятиям полностью или частично покрыть нанесённые кризисом убытки. Сегодня государство приняло ряд положительных мер: освобождение от единого социального взноса всех физических лиц-предпринимателей на 2 месяца; временный мораторий на проверки бизнеса до 1 июля; отсрочка уплаты земельного налога и налога на недвижимое имущество до конца мая; за вынужденный простой освобождение от уплаты НДФЛ; освобождение от штрафов и пени за просрочку выплат по потребительским кредитам с 1 марта по 30 апреля текущего года и так далее. Однако недостаточный опыт в принятии управленческих решений и антикризисном управлении в похожих ситуациях создают слабую уверенность в легком преодолении кризиса.

Поскольку начало нынешнего кризиса вызвала, прежде всего, пандемия и неготовность медицины к новым вызовам, а не экономические явления, есть предположение, что кризис будет иметь более быстрый тренд по восстановлению экономики. На скорость решения этой проблемы так же влияет и ответственность каждой личности перед всем населением (выполнение норм карантина), уровень доверия между предпринимателями (кооперация, взаимопомощь, потребление прежде всего продукции локального уровня). Важным фактором является уровень консолидации всех субъектов локальной (региональной, национальной) среды, развитие взаимодействий и коммуникаций между бизнесом региона, формированием межрегиональных связей.

Следовательно, ситуация распространения вируса выявила ряд недочетов в государственном управлении, проблемы в разных сферах экономики, низкую социальную защищенность населения и слабую готовность к борьбе с пандемией. Поэтому перед государством сейчас стоит задача улучшить систему антикризисного управления и обеспечить ее реализацию, что позволит быстро адаптироваться под новые условия и, в дальнейшем, быстро реабилитироваться после карантина. Так же, стоит отметить, что пандемия – это хорошая возможность для развития инновационных технологий, популяризации и развития массовой диджитализации всех сфер деятельности (образование, интернет-банкинг, покупка товаров в интернете, развитие цифровых товаров и так далее). Кроме этого, пандемия подталкивает снова объединиться населению страны, создавая и развивая доверие не только в общественных отношениях, но и в бизнес среде, между предпринимателями, что в дальнейшем позволит создавать новые формы инновационных предприятий, интеграционных структур, кластеров, реализовывать кооперацию предпринимателей.

**Список литературы**

Rating Group Ukraine URL:http://ratinggroup.ua
Дослідницька агенція Info Sapiens URL: https://sapiens.com.ua
McKinsey & Company. COVID-19: Implications for business URL: https://www.mckinsey.com/business-functions/risk/our-insights/covid-19-implications-for-business
Григоренко Ю. Толкование предсказаний: обзор экономических прогнозов на 2020 год URL: https://gmk.center/posts/tolkovanie-predskazanij-obzor-ekonomicheskih-prognozov-na-2020-god/

**Andrey Karpenko**
**Anna Zasorina**

## COVİD-19-un UKRAYNANIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİNƏ TƏSİRİ

**Xülasə**

2020-ci ilin başlanğıcı dünya iqtisadiyyatı üçün yeni bir təhlükənin ortaya çıxması ilə əlamətdar oldu. COVID-19 pandemiyasının sürətlə yayılması milli iqtisadiyyatları iflic etdi. Dövlətin, iş adamlarının və əhalinin yeni şəraiti öyrənmək və uyğunlaşmaq üçün təcili ehtiyacı var. Dövlət idarəçiliyində əsas çatışmazlıqlar aydın şəkildə göründü, iqtisadiyyatın müxtəlif sahələrində problemlər meydana çıxdı, əhalinin aşağı sosial təminatı və pandemiya ilə mübarizəyə hazır olmaması aydın oldu. İndi gələcəkdə kütləvi rəqəmsallaşmanı inkişaf etdirməyə, innovativ müəssisələrin, inteqrasiya strukturlarının, klasterlərin yeni formalarını yaratmağa və sahibkarlar arasında əməkdaşlığı həyata keçirməyə imkan verən iş adamları arasında yalnız ictimai münasibətlərdə deyil, iş mühitində də etimad yaradan və inkişaf edən ölkə əhalisini yenidən birləşdirmək vacibdir.

**Hicran Mirzəyeva**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,**
**dekan,i.f.d., dosent**
akademiya_sm@mail.ru

# KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİNİN KONSEPTUAL ASPEKTLƏRİ

**Açar sözlər: kənd təsərrüfatı, aqrar sahə, investisiya, rəqabət**

XX əsrin sonlarından etibarən geniş vüsət almış qloballaşdırma eyforiyası dünyanın müasir siyasi və sosial-iqtisadi həyat reallıqlarında müsbət mənada təsdiqini tapmadı. Yəni, qloballaşma təbliğ edildiyi kimi dünyanı əhatə edəcək "geniş və sürətli" iqtisadi inkişafı, demokratik yüksəlişi və firavan ictimai həyatı təmin etmək funksiyasının əvəzinə siyasi-hərbi çəkişmələrin, qütbləşmənin daha da dərinlişməsinə, ölkələr və millətlərarası münasibətlərin kəskinləşməsinə, zəif inkişaf etmiş ölkələrin siyasi və iqtisadi müstəqilliklərinin itirilməsi risklərinin artmasına gətirib çıxartmışdır.

İqtisadi böhranların baş vermə tezliyinin, yoxsulluğun və işsizliyin daha geniş miqyas alması azmış kimi COVİD-19 pandemiyasının da ortaya çıxması ilə beynəlxalq ictimai-siyasi mühit daha da gərginləşməkdədir. Belə bir şəraitdə ölkənin suveren hüquqlarının qorunması və ərzaq təhlükəsizliyinin təmin edilməsi xüsusi əhəmiyyət daşıyır. Məhz, bu aspektdən yanaşılaraq inkişaf səviyyəsindən asılı olmayaraq istənilən ölkə münasib torpaq və təbii-iqlim şəraitinə əsaslanan öz kənd təsərrüfatı sahəsinin inkişafına diqqəti artırır.

Məlumdur ki, bazar mexanizmi özlüyündə iqtisadi inkişafın bütün problemlərini həll etmək iqtidarında olmur. Azad rəqabət şəraitində məhsuldar qüvvələrin xeyli hissəsi xüsusi mülkiyyətə əsaslanan təsərrüfatçılıq sistemində fəaliyyət göstərsə də dövlət iqtisadiyyatda təbii inhisara malik strateji strukturların saxlanmasını öz üzərinə götürür (1, s. 11).

Bir spesifik sahə kimi kənd təsərrüfatının inkişafı çoxsaylı obyektiv və subyektiv amillərdən asılıdır. Bura eyni zamanda ədalətsiz beynəlxalq rəqabət və monopolizm amillərini də əlavə etsək sahənin inkişafındakı müasir çətinlikləri daha aydın qiymətləndirmək olar. Məhz bu baxımdan indiki halda kənd təsərrüfatının və ümumiyyətlə aqrar sahənin inkişafının dövlət tərəfindən dəstəklənməsi və ya tənzimlənməsi zəruriyyəti daha da mühüm məna kəsb edir.

Dünyanın müasir inkişaf etmiş ölkələrinin təcrübəsi də göstərir ki, aqrar sahənin səmərəli fəaliyyətinə dövlət yardımı onun dövlət tənzimlənməsinə yönəldilən tədbirlər sistemi vasitəsilə reallaşdırılır. Bu tədbirlər sistemi özlüyündə aqrar sahədə səmərəli bazar subyektlərinin formalaşdırılması və onların inkişafına hərtərəfli yardım göstərilməsi, aqrar sahədə səmərəli bazar subyektlərinin əsasən də real mülkiyyətçilər və sahibkarlar ordusunun yaradılması (menecer, satıcılar, vasitəçilər) və digər infrastruktur subyektlərinin formalaşdırılmasını, ərzaq məhsullarına olan tələbatın və yerli sənayenin kənd təsərrüfatı xammalına olan ehtiyacının ödənilməsini, əhalinin gəlirlərinin artırılmasına yönəldilən tədbirlərin o cümlədən - əmək haqqının, dövlət tərəfindən verilən müavinətlərin, pensiyaların və digər transferlərin artırılmasını, əmək qabiliyyətli əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə əlverişli şəraitin formalaşdıırlması, yerli əmtəə istehsalçılarının daxili bazarda əmtəə təklifinin həcminin artırılmasına istiqamətlənən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini əhatə edir.

Məlumdur ki, aqrar sahənin dövlət tənzimlənməsinin ən başlıca prinsipi mülkiyyət formasından asılı olmayaraq, bütün müəssisələrin fəaliyyətinə prioritet-iqtisadi şərait yaradılmasından ibarətdir. Bütün bunlar istehsal edilən məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsinə, sahibkarlığın inkişafında risklər səviyyəsinin aşağı salınmasına, eyni zamanda yerli əmtəə istehsalçılarının beynəlxalq bazarlara çıxış imkanlarının artırılmasına şərait yaradır.

Həmin prinsipləri eyni zamanda aqrar iqtisadiyyatın dövlət tənzimlənməsinin bazis postulatları kimi də hesab etmək olar.

Təhlillər göstərir ki, kənd təsərrüfatının inkişafı birbaşa kənd təsərrüfatının investisiya cəlbediciliyinin artırılması, məqbul vəsait qiymət təminatı; məhsuldarlığın artırılması; sahəyə yeni innovativ texnologiyaların tətbiqi və kəndin sosial-iqtisadi inkişafının təmin olunması kimi prinsipial məsələlərin həlli ilə şərtlənir.

Bütün bu qeyd olunanlar və bir sıra digər təyinedici məsələlərin həlli sahəyə iri həcmli investisiya qoyuluşlarını, stimullaşdırıcı dəstək mexanizmlərini daima yenilənən aqrar siyasət prioritetlərini tələb edir ki, bunlar dövlətin fəal dəstəyi ilə reallaşdırıla bilər. Kənd təsərrüfatı spesifik xüsusiyyətlərə malik olduğundan qısa müddətli dövr və ya sənaye sahələri üçün xarakterik olan bir sıra xüsusiyyətlər, kənd təsərrüfatına mexaniki tətbiq oluna bilməz. Çünki kənd təsərrüfatında yalnız müəyyən vaxt ərzində yüksək səviyyədə qalan qiymətlər kənd təsərrüfatına investisiya qoyuluşlarına və istehsalın genişlənməsinə səbəb olur.

Müasir dövrdə, aqrar sahənin inkişafı bilavasitə yoxsulluq, ərzağa olan əlyetərlilik və ölkənin iqtisadi təhlükəsizliyinin prioritet sahəsi olan ərzaq təhlükəsizliyi ilə bağlı olduğundan, ölkələrin əksəriyyəti, gəlirin səviyyəsindən asılı olmayaraq, kənd təsərrüfatına rasional yardımın zəruriliyini qəbul edirlər. Bu ölkələrdə yoxsulluğun azaldılmasına təsir göstərən rıçaq kimi sosial transferlərdən istifadə edilməsi ilə nəzərə çarpır.

Kənd təsərrüfatının Azərbaycan iqtisadiyyatının ən mühüm sahələrindən biri olmasını nəzərə alsaq, ölkənin gələcək mümkün inkişaf istiqamətləri müəyyənləşdirilərkən, kənd təsərrüfatının prioritet sahə kimi qəbul edilməsi heç də təsadüfi deyildir. Çünki, ölkə əhalisinin 47,2%-ə yaxın kənd yerlərində yaşayır, təbii torpaq və iqlim şəraiti bir çox kənd təsərrüfatı məhsullarını istehsal etmək üçün əlverişli imkan vardır, əməkqabiliyyətli əhalinin 34%-i kənd təsərrüfatında çalışır, yəni ucuz və ixtisaslı işçi qüvvəsi mövcuddur, həm daxili və həm də qonşu ölkə bazarları vardır, ölkənin ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin edilməsində həlledici rola malikdir.

Becərilən torpaq sahələrinin genişləndirilməsi imkanları praktiki olaraq mövcud olmadığı üçün, təbii resurslara əsaslanan kənd təsərrüfatında inkişaf və istehsalın yüksəlməsi yalnız məhsuldarlığın artırılması yolu ilə mümkündür.

Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün bu sahəyə əhəmiyyətli investisiyaların cəlb olunması tələb olunur. Rasional inkişaf nöqteyi-nəzərindən, həmin investisiyalar indiki halda kənd təsərrüfatında əsasən məhsuldarlığın yüksəldilməsinə istiqamətləndirilməlidir.

Kənd təsərrüfatı istehsalının məhsuldarlığının artırılması üçün təkcə fiziki kapitalın deyil, həm də elmi biliklərin və texnologiyaların yayılması, insan amilinin gücləndirilməsi ilə yanaşı kənddə sosial inkişafın müasir tələblərə cavab verməsi də vacib şərtlərdəndir. Bu halda kənd təsərrüfatı istehsalında məhsuldarlığın yüksəldilməsi və zəruri struktur dəyişikliklərinin həyata keçirilməsi üçün tələb olunan münbit investisiya mühitinin yaradılması iqtisadi siyasətin mühüm vəzifəsinə çevrilməlidir. Siyasi və institutsional mühit bütövlükdə özəl investorları, xüsusilə də fermerləri kapital qoyuluşlarına həvəsləndirə bilər. Kənd təsərrüfatının inkişafında dövlət investisiyaları mühüm yer tutur.

Məlumdur ki, hansı ölkədəki dövlət investisiyalarının həcmi aşağı düşür, orada kənd təsərrüfatının inkişafı məhdudlaşır. Çünki infrastruktura, kadr hazırlığına, elmi-tədqiqat işlərinə və s. sahələrə yönəldilən dövlət investisiyaları həm də özəl investisiyaları həvəsləndirmə funksiyasına malikdir (3,стр.57). İqtisadi artım problemlərini araşdırarkən yalnız əmək və kapital sərfinin dəyişməsinə diqqət yetirilməməlidir. İqtisadi artım bu üsulla izah oluna bilmədikdə, digər faktorların təsiri, habelə endogen artım imkanları öyrənilir. Bütün tədqiqatçılar infrastruktur sahələrinə qoyulan investisiyaların iqtisadi artımdakı mühüm rolunu qəbul edirlər.

Araşdırmalar göstərir ki, elmi-tədqiqat müəssisələri və laboratoriyalarında alınmış və ya xarici şirkətlər tərəfindən təklif olunan nəticələrin geniş praktikada tətbiqi bir sıra şərtlər daxilində mümkün olur. Sərbəst bazar münasibətləri şəraitində bu şərtlərə - yeni elmi nailiyyətlər (sortlar, texnologiyalar, heyvan cinsləri, texnika növləri, emal və saxlanma üsulları və s.) haqqında məlumatların fermerlərə vaxtlı-vaxtında çatdırılması və sair daxil edilə bilər.

Bu istiqamətlərin hər biri üzrə idarəedici qərarlar qəbul edilərkən qeyri-müəyyənlik amilindən daha çox, məntiqi amillərə və ən qabaqcıl təcrübəyə söykənmək daha məqsədəuyğundur. Yəni, inkişaf etməkdə olan ölkələrin təcrübəsindən irəli gələn aşağıdakı nəticələri nəzərə almaq lazımdır:

• kənd təsərrüfatı istehsalının təşkilinin rasional sosial-iqtisadi və təşkilati mühiti mövcud olmalıdır;

• ayrı-ayrı investisiya layihələrinin səmərəliyi qiymətləndirilə bilər və bu əsasda həmin layihələrin tətbiqi üçün dövlət və ya özəl maliyyə resursları cəlb olunmalıdır;

• kənd təsərrüfatı mühitinin formalaşdırılmasına yönəldilmiş investisiya layihələri və proqramları həyata keçirilərkən, onların prioritetləri müəyyən edilməlidir.

Bu prioritetlər ölkənin kənd təsərrüfatında mövcud olan problemlərin vacibliyinə uyğun olaraq sıralanmalı və eyni zamanda, məhsuldarlığın artımına maksimum təsir göstərməlidir.

Aqrar sahənin inkişafının təmin edilməsində başlıca məsələlərdən biri də dövlət investisiya və subsidiyalarının səmərəli və məqsədyönlü istifadəsidir. Bu zaman ən başlıca problemlərdən biri də, real ehtiyacların müəyyən edilməsi və xərclərin həmin ehtiyacların ödənilməsinə yönəldilməsidir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlət, kənd təsərrüfatı istehsalına müxtəlif iqtisadi vasitələrlə təsir göstərir. Həmin ölkələrdə istehsal edilmiş ümumi məhsulun dəyərinin təqribən yarısı həcmində subsidiya verilir və kənd əhalisinin humanitar və sosial inkişafı üçün dövlət büdcəsindən vəsait ayrılır, kənd təsərrüfatının inkişafına bilavasitə təsir göstərən ekoloji və digər tədbirlərin ölkə miqyasında maliyyələşdirilməsi həyata keçirilir (2,стр. 27).

Məlumdur ki, dövlətin subsidiya siyasəti makro və mikro səviyyədə həyata keçirilir. Dövlət büdcəsindən köçürmələr, kapitala investisiya subsidiyaları, torpağın yaxşılaşdırılması, istehsal olunmuş malların, aralıq istehlak mallarının qiymətlərinə subsidiyalar və başqa yardım üsullarından da istifadə edilir.

Təhlil göstərir ki, müasir dövrdə kənd təsərrüfatında subsidiya siyasəti əsasən konkret məhsullar bazarının tənzimlənməsinə yönəldilmişdir. Eyni zamanda, kənd təsərrüfatının ümumi problemlərinin (ətraf mühitin mühafizəsi, valyuta məzənnəsinin dəyişməsinə görə kompensasiyalar, məsləhət-məlumat xidmətlərinin təşkili, elmi-tədqiqatlar, təhsil və s.) həllində də dövlət iştirak edir.

Azərbaycan Respublikasında da kənd təsərrüfatına müəyyən subsidiyalar və digər güzəştlər verilir, onların ətalətliliyi və sanballığı getdikcə artırılır. Təkcə onu qeyd edək ki, kənd təsərrüfatı istehsalçılarına edilən güzəştlər arasında suvarma suyuna görə subsidiyalar böyük xüsusi çəkiyə 88%-ə malikdir.

Lizinqə verilən xidmətlərin idarə olunmasının sadələşdirilməsi və elektron kənd təsərrüfatı sisteminin tətbiqi ilə subsidiyalaşdırmanın ünvanlığının təmin olunması sahədə iqtisadi artıma və səmərələliliyin yüksəldilməsinə imkan vermişdir. Aqrar islahatların indiki mərhələsində kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və dayanıqlığının təmin olunması üçün verilən imtiyazlar, maliyyələşdirmə imkanları və bu sahədə gücləndirilmiş dövlət tənzimlənməsi prinsiplərinin ardıcıl reallaşdırılması ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına əsaslı töhfələr verəcəkdir.

Kənd təsərrüfatında aparılan iqtisadi islahatlarla bərabər, güzəştlər və verilən subsidiyalar sektorda sabit iqtisadi artım göstəricilərinə nail olmağa imkan vermişdir. Qeyd etmək lazımdır ki, bu artım əvvəllər əsasən istifadəsiz olmuş torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması hesabına baş vermişdirsə son illərdə sahənin idarə olunmasındakı təkmilləşdirmələr, elektron kənd təsərrüfatı sisteminin imkanlarından istifadə, maarifləndirmə və məsləhət xidmətlərinin gücləndirilməsi, innovasiyalı inkişaf mərhələsinə keçilməsinə real imkanlar açmışdır.

**İstifadə edilmiş ədəbiyyatlar**

1.Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı. 2004, 504 s.

2. Попов А.Г. и др. Государственное регулирование сельского хозяйств, странах с развитой рыночный экономикой. М. 1996, стр. 27

3. Экономика сельского хозяйства. Под редакцией Кузнетсова В.В. Ростов на Дону: Феника. 2003, стр. 57

**Kəmalə Məmmədova**
*AzMİU, baş müəllim, i.ü.f.d.*
*kama.1973@list.ru*

# İNŞAAT SEKTORUNDA RİSKLƏR VƏ ONLARIN STRATEJİ İDARƏ EDİLMƏSİ

***Açar sözlər:** strateji idarəetmədə (Sİ), tikinti şirkətləri (TŞ), risk, idarəetmə, inşaat.*

Müasir dövrdə nəzəriyyə və təcrübə arasında sinergetik əlaqələrin zəif olması səbəbindən nəzəri idarəetmə nəzəriyyələri ilə, onların tətbiqi sahəsində uyğunlaşması qənaətbəxş deyildir. Bu baxımdan, TŞ-lərini qarşıda gözləyən risklərdən nə qədər zərər görəcəyini və mövcud vəziyyətdən necə çıxacağını da konkret şəkildə söyləmək çox çətindir. Təbii ki, ilk növbədə mümkün ehtimallarla bağlı bütün məlumatlar bir araya gətirilərək təhlil olunmalı və onlara qarşı öncədən tədbirlər planı işlənib hazırlanmalıdır. Lakin, qəraralma prosesində fikirlər ayrıla bilər. Bu adətən işverənlər (dövlət, idarə, şəxs) ilə işgörən şirkətlər arasındakı fərqli yanaşmalardan irəli gəlir.

Strateji idarəetmədə (Sİ) risklərin nəzərə alınmaması qeyri-mümkündür. Ancaq, risklərin zaman və məkana görə fərqli formalarda üzə çıxması, onun məhcul bir gələcəyə yönəlməsi, onun mürəkkəb xarakterindən xəbər verir. Məhz, bu səbəbdən Sİ-də risklərin elmi tədqiqinə zərurət yaranmışdır. Sİ-nin bir elm kimi formalaşmasına da bu kimi amillər təsir etmişdir.

Hər hansı bir tikinti layihəsinin hazırlanmasından və həyata keçirilməsinə qədər olan müddətdə istehsalın, heyətin və bir çox müxtəlif xarakterli işlərin kompleks şəkildə idarə olunması və tənzimlənməsi tələb olunur. Lakin, tikinti şirkətlərinin (TŞ) daxili amillərinin idarə olunması və tənzimlənməsi, onun gözlənilməz xarici təsirlərdən qorunmasına zəmanət vermir. Bu bazar mühitində mütəmadi şəkildə ortaya çıxan gözlənilməz iqtisadi böhranların TŞ üçün gətirdiyi risklərlə bağlıdır. Biz əgər belə böhranların bir il ərzində bir neçə dəfə təkrar olunduğunu və hətta böyük iqtisadi güclər tərəfindən süni şəkildə idarə olunduğunu nəzərə alsaq, tikinti şirkətlərinin strateji idarə edilməsi prosesində risklərin öncədən müəyyənləşdirilməsinin, təhlilinin nə qədər mühüm olduğunu dərk edə bilərik.

Tikinti sahəsində risklərin dəyərləndirilməsi mexanizmi maliyyə sahəsinə nəzərən çox zəifdir. Tikinti sahəsində risklərə qarşı görülən ənənəvi yanaşmalarda rasional təhlillərdən daha çox irrasional-intuitiv qənaətlərə üstünlük verilir, bütün mümkün ehtimallar nəzərə alınır, problemləri görməzdən gələrək onların öz-özünə həll olunacağına inanılır, nəzarət altına alınmayan riskin nəticədə zəruri şəkildə nəzarət altına alınacağı ehtimal olunur. Lakin, bu yanaşma ilə müasir bazar şəraitində inkişaf edən hər hansı bir TŞ-ni təsəvvür etmək çətindir.

Əslində, risk TŞ-nin bazarda rəqabət qabiliyyətini artırmağa və onun inkişafının təmin olunmasına şərait yaradır. Bazarda riskə hazır olmamağın özü də bir riskdir. TŞ-də işləyən işçilərin riskə meyli də, onların sənət və vəzifələri ilə əlaqədar olaraq fərqlidir. Tədqiqatlar göstərir ki, memarların yaradıcı insanlar kimi risk ilə qarşılaşmaq ehtimalları daha yüksəkdir. Dizaynerlərin kreativ insanlar kimi dizayn qaydaları çərçivəsində fəaliyyət göstərməyə üstünlük verdikləri üçün, mümkün riskləri öncədən dəyərləndirmək imkanları zəifdir. Ümumiyyətlə, mümkün riskləri dəyərləndirmək üçün sinergetik bilgi qabiliyyəti gərəkir ki, bu da konkret heç bir peşə və vəzifədə öz əksini tam mənada tapa bilmir.

Risklərin müxtəlif formalarda təzahürü, onlara menecerlər, baş podratçılar başda olmaqla, məsuliyyət daşıyan tərəflərin də müxtəlif olmasına şərait yaradır. Bu məsuliyyət qəraralma prosesinin ciddiliyini ortaya qoyur. Buna görə də risk ilə bağlı bəzi əsas qaydaları nəzərə almaq lazımdır:

- heç bir vaxt büdcəni aşan risklərə cəhd etmək doğru deyildir;
- daim ekspertlərin tövsiyələrindən istifadə etmək lazımdır;
- qəraralma prosesində məntiqi və intuitiv bilikləri bir araya gətirmək məqsədəuyğundur;
- riskin nəzarət edilə bilən və edilə bilməyən qisimlərini hesablamaq lazımdır;

- az mənfəətdən ötrü çox mənfəət qurban verilməməlidir;
- hər zaman bir addım öncəni proqnozlaşdırmaq lazımdır;
- daim riskin mənbə və nəticələri təhlil edilməlidir;
- gözlənilməz vəziyyəti nəzərə alaraq alternativ variantları qiymətləndirmək lazımdır;
- şəxsi məsələləri önə çəkərək risk etmək doğru deyildir.

Mümkün riskin qarşısının alınması üçün ehtimalların hesablanması, bilik, təcrübə və təxminlər bir araya gətirilməsi nəticəsində, konkret bilinən və bilinməyən vəziyyətlər arasında qərar verilir. Lakin, konkret bilinən mövcud vəziyyəti doğru dəyərləndirə bilməyən TŞ-lərinin iflası uğraması zəruridir. Gözlənilməz risklərə hazır olmaq üçün, ilk növbədə mövcud vəziyyətin sosial-iqtisadi baxımından elmi dəyərləndirilməsi vacibdir. Bu baxımdan, riskin idarə olunma mexanizminin elmi-nəzəri əsasları inkişaf etdirilməlidir. Riskin idarə olunmasının əsas prinsipləri aşağıdakılardır:

- riskin təhlili (riskin və ya risk qruplarının növü ilə bağlı nəticələr və təhlillər istifadə olunaraq dəyərləndirilir);
- riskə münasibət (risk barədəki qərarın və qərar verənlərin mövqeyi);
- riskə cavab (riskin hansı şəkildə idarə olunması forması müzakirə olunur);
- riskin müəyyənləşdirilməsi (riskin mənbəyi və növü müəyyənləşdirilir);
- riskin təsnifatı (riskin növünün şirkətə təsiri qiymətləndirilir) (Kerzner, 1998: 26).

Müəyyənləşmiş risk artıq risk keyfiyyətini itirir. Əsas məsələ riskin mənbəyinin müəyyənləşdirilməsidir. Tikinti sahəsində mümkün risk mənbələri aşağıdakılardır:

- layihənin gecikməsinə səbəb olan gözlənilməz relyef şərtləri;
- layihənin gecikməsinə səbəb olan əlverişsiz hava şəraiti;
- rəsmi tətillərin başlanması;
- sel, zəlzələ, yanğın və digər bu kimi fors major hadisələrin baş verməsi;
- baş podratçının qarşıya çıxan problemin öhdəsindən gələ bilməməsi;
- layihə qrupunun layihə detallarını vaxtı-vaxtında və yerli-yerində ortaya qoymaması səbəbindən yaranan itkilər;
- əsas tikinti materiallarının təchizatında gecikmələr (məsələn, yanğın ilə əlaqədar);
- inflyasiyanın nəzərdə tutulan həddən artıq olması;
- layihənin, müştərinin büdcəsinin limit sərhədi daxilində yerinə yetirilməməsi;
- öhdəliyə götürülən işin sonadək yerinə yetirilməməsi;
- gerçəkləşdirilən layihənin nəzərdə tutulan müddət ərzində başa çatmaması;
- işçi gücünün və materialların gözlənilməyən qiymət artımları;
- tikintinin təxmin edilən maliyyə məbləğini aşması;
- tikintinin təxmin edilən müddətdə yerinə yetirilməməsi;
- tikintinin nəzərdə tutulan keyfiyyətə uyğun gəlməməsi;
- işin aparıcı güclərindən birinin fiziki yaralanması ilə nəticələnən qəza;
- keyfiyyətsiz işin nəticəsində ortaya çıxan çatışmamazlıqlar və səhvlər.

Risklərin aradan qaldırılmasıyla bağlı bir qərar alınanda, konkret məqsədi ehtiva edən risk strategiyasının olması zəruridir. Bu strategiyada risk reaksiyası, risk təsiri, risk təsnifatı, risk nəticəsi təhlili, qərar matrisası kimi məsələlər, həmçinin Bayesian nəzəriyyəsi, Monte Karlo analogiyası, portfel nəzəriyyəsi nəzərə alınmalıdır.

Tikinti sahəsində nəzarətdə saxlanılan və saxlanılmayan riskləri fərqləndirmək önəmlidir. Nəzarətdə saxlanılan risklərə maliyyə, texnologiya riskləri aiddirsə, nəzarətdə saxlanılmayan risklərə siyasi, ekoloji (hava şəraiti), sosial-iqtisadi (inflyasiya, vergi dəyişmələri) kimi ətraf mühitlə bağlı məsələlər aiddir.

Menecerlər qəraralma prosesində nəzarətdə saxlanılmayan risklərə təsir etmək iqtidarında deyildirlər. Onlar mövcud risklərin təsirini qismən azaltmaq və onların zərərindən maksimum şəkildə qorunmaq yollarını müəyyənləşdirmək iqtidarındadırlar (Məsələn, enerji qiymətlərinin qaldırılması zamanı alternativ enerji mənbələrindən istifadə etmək mümkündür). Lakin, hər iki risk növləri arasında bəzən bir əlaqə ola bilər. Məsələn, bir obyektin xidmət müddəti onun tikintisində istifadə olunan materialların keyfiyyətinə və dizayn səviyyəsindən asılıdır. Bu göstəricilər müəyyən

bir müddətdən sonra tələblərə cavab verməyəndə, müəyyən tədbirlərlə tələbləri qismən təmin etmək mümkündür. Bu, nəzarətdə saxlanılmayan risklərə aiddir.

Binanın keyfiyyətinə təsir edən xarici amilləri və ya dövrün estetik baxışları ilə binanın estetik görünüşü arasında yaranan uyğunsuzluqları nəzarətdə saxlamaq mümkün deyildir. Lakin, hər iki amil arasında bir əlaqə vardır.

Riskin qarşısını almağın əsas yollarından biri onun təsnifatını aparmaq və xarakterini, növünü, təsirini, nəticələrini müəyyənləşdirməkdir. Riskin nəticələri – davamlılıq, təsir və proqnozlaşdırma ilə, riskin təsiri - şirkət, ətraf mühit, bazar, sənaye, layihə, fərd ilə bağlıdırsa, riskin növləri - əsasən iş və maliyyə riskləri ilə bağlıdır. Risklərin təsnifatı portfel nəzəriyyəsi ilə əlaqəlidir. Bu nəzəriyyə çərçivəsində onlar ümumi bazarın davranışı ilə bağlı olan bazar riskləri və müəyyən bir şirkətə məxsus xüsusi risklər arasında bölünürlər. Demək olar ki, bütün hissələr, bir nöqtəyə qədər bazardakı hərəkətlərə reaksiya göstərir və bu reaksiya beta əmsalı ilə ölçülür.

Risklərin idarə olunmasının əsas şərtlərindən biri risklərə olan adekvat münasibətdir. Məsələn, bir yeraltı tikinti layihəsinin qiymətləndirilməsi zamanı, podratçı sahə müayinəsi, qazma hesabatları və mümkün olan hər cür geoloji məlumatlara sahib olmalı, qarşılaşacağı hər cür relyef şəraitində qazıntı əməliyyatı üçün lazımi məbləği ayırmalıdır. Sahənin sahib olduğu geoloji xüsusiyyətlər barədə zəif məlumatlar və layihədə öncədən göstərilməyən relyef şərtlərinin sonradan ortaya çıxma ehtimalı podratçının və digər məsuliyyətli işçilərin üzərinə böyük risklər əlavə edər. Bu şəraitdə riskin azaldılması və ya köçürülməsi yolları araşdırılmalıdır.

Bir investisiya portfelinin yaradılmasını təmin edən bu nəzəriyyə, daşınmaz əmlak, inşaat və inşaat sənayesi üçün də bəzi müşahidələri də ortaya qoyur. Bu nəzəriyyəyə görə ümumi risk, bazar riski və özəl riskdən meydana gəlmişdir. Heç bir şirkət bazar riskindən sığortalanmamışdır. Çünki bazar qanunlarından kənarda fəaliyyət göstərən şirkət mövcud deyildir.

Bütün şirkətlər mövcud layihələr çərçivəsində bazar paylarını qorumaq üçün daima rəqabət və qiymət səviyyələri üzərində qiymətləndirmə aparmaq və xüsusilə, böyük şirkətlər risk ehtimalını daha dərindən təhlil etmək məcburiyyətindədirlər. TŞ həyata keçirdiyi layihələrin riskindən sığortalanmamışdır. Podratçı tərəfindən həyata keçirilən layihədə baş verən böyük maliyyə zərərləri, şirkətin maliyyə strukturuna da böyük ziyan vuracaqdır. Bu böhran özünü ilk növbədə şirkət iyerarxiyasının ən alt təbəqəsində biruzə verəcəkdir.

Yaranan hər hansı bir riskin nəticələrini ələ alarkən riskin təsirləri və mənbələri ilə əlaqədar müəyyən amillər nəzərə alınmalıdır. Onları görməməzlikdən gəlmək əvəzinə, görüləcək tədbirlərin ümumi risk idarəetmə sistemi daxilində nəzərdən keçirilməsi lazımdır. Burada ilk növbədə mümkün olan maksimum itkilər dəyərləndirilməli, mümkün itkilərin maliyyə dəyəri müəyyənləşdirilməli və onların daha da dərinləşməsindən sığortalanma yolları araşdırmalı və bütün mümkün alternativləri əhatə edən risk təhlilinin nəticəsində təhlükəsizlik tədbirləri görülməlidir.

Riskin köçürülməsi risk mənbəyi təhlükəsini ortadan qaldırmır və yalnız bunu bir başqa tərəfin üzərinə transfer olmasına şərait yaradar. Bəzi hallarda isə transfer əməliyyatı riski daha da artırar. Çünki əksər hallarda riskin köçürüldüyü tərəf buna hazır olmur. Məsələn, baş podratçı digər bir tərəflə müqavilə bağlayanda, mümkün zərərin qarşısını almaq üçün müqavilədə risk ehtimalını qarşı tərəfin üzərinə qoyan zərərin kompensasiyası ilə bağlı bir maddə əlavə edə bilər. Riskin transfer olunduğu qarşı tərəf nə maliyyə, nə də struktur baxımından bu riskə hazır olmaya da bilər. Buna görə də TŞ-ləri üçün naməlum risklərdən qorunmağın ən optimal yolu sığortalanmaqdır.

İnşaat layihələrində qüsursuz inşa əməliyyatına zəmanət verilə bilməz. Səhvlər layihənin yekunlaşmasından uzun müddət sonra ortaya çıxa bilər. Bir inşaatın yekunlaşma mərhələsində və ya müqavilədəki səhvlərin məsuliyyətinin daşındığı müddət ərzində məntiqli bir şəkildə gizlədilən qapalı səhvlərin mənfi nəticələri ilə üzləşməmək üçün, elmi-hüquqi tədbirlərin öncədən alınması zəruridir. Əks təqdirdə, tikinti prosesində məsuliyyət sahibi olanlar tez-tez məhkəmələrdə bir-birləri ilə qarşılaşmaq məcburiyyətində qalırlar.

Layihələrdə ən çox qarşılaşan vəziyyət öncədən hesablanan xərclərin sonradan artması problemidir. Bir obyektin genişləndirmə və dəyişdirmə ilə bağlı təmiri üçün nəzərdə tutulan məbləğin 80.000 manat olduğunu təxmin edək. Hər biri təxminən 10.000 manat dəyərində təxminən səkkiz ədəd iş paketi vardır. Ancaq, layihə hələ tam olaraq hazırlanmamışdır. Bu iş paketləri şirkət

təklifləri verilənədək təxminən bir neçə faiz (- və ya + 10 %) dəyişə bilər. Bu səkkiz iş paketinin bir-birindən tamamilə müstəqil olduğunu nəzərə alsaq, ayrılan məbləğ 72.000 manat ilə 88.000 manat arasında dəyişə bilər. Yekun xərcin isə 76.000 manat ilə 84.000 manat çərçivəsindən çıxması mümkün deyildir. Risk ilk anda nəzərə alındığı məbləğ qədər yanlış deyil. Çünki bütün səkkiz paketin hamısında səhv etmə ehtimalı zəifdir. Paketlərin hər birinin mümkün risklərinin ortaya qoyulması üçün təhlil edilməsi və bu risklərin idarə olunması vacibdir (Kerzner, 1998: 37). Tikinti şirkətlərinin strateji idarə edilməsi ilə məşğul olan menecerlər risklərin idarə olunmasını mərhələli şəkildə həyata keçirməlidirlər. Risklərin idarə olunmasının mərhələləri aşağıdakılardır:

- bütün alternativlərin diqqət mərkəzinə alınması lazımdır;
- qərar alanların riskə münasibəti ortaya qoyulmalıdır;
- müəyyənləşdirilən, nəzarətdə saxlanılan risklər və onların təsirinin nəticələri ehtimal edilməlidir;
- keyfiyyət və kəmiyyət baxımından mümkün risklərə qarşı tədbirlər görülməlidir;
- təhlil nəticəsində risklərlə əlaqədar bir strategiya hazırlanıb inkişaf etdirilməlidir (Kerzner, 1998: 37).

Risklərin strateji idarə olunmasında şirkətlərdə çıxarılan qərarların təhlili xüsusi önəm daşıyır. Qərar təhlili bir sıra mərhələni təqib edir:

- problemin mahiyyətinin dərk olunması və qurulması;
- mümkün nəticələrin dəyərləndirilməsi və ehtimalların müəyyənləşdirilməsi;
- optimal seçimin edilməsi;
- qərarın tətbiq edilməsi.

Qəraralmanın alqoritm, nəticələrin təhlili, qərar matrisası, ehtimal qərar ağacı təhlili kimi texnikaları mövcuddur. Qərar matrisası, qəraralana açıq olan variantların, əlaqədar faktorların və nəticələrin bir göstəriş formasıdır. Məsələn, bazara öz məhsulunu çıxaran bir TŞ-nin satış və marketinq direktoru irəlidəki 12 ay müddətində məhsulun istehsalının 15 % artacağını ehtimal edir. Şirkətin tələbdə baş verən bu dəyişikliyə müvafiq qərar verməsi lazımdır. Tətbiqi düşünülən üç müxtəlif strategiya qarşıda dayanır:

- yeni iş sistemi ilə bağlı məhsuldarlığı artırmaq üçün yeni avadanlıqların quraşdırılması;
- fəaliyyətin artırılması və həftə sonu işinin tətbiq olunmağa başlaması;
- mövcud şəraitdə işə başlayıb rəqiblərin və ya yeni şirkətlərin artan tələbi qarşılamalarına icazənin verilməsi (Асаул, 2007: 34).

Hər bir strategiyanın qarşıdakı 12 ay müddət ərzində nə qədər gəlir gətirəcəyi təxmin edilir. Hesablamalara görə yeni avadanlıq quraşdırılması 240.000 manat, əlavə əmək fəaliyyəti 210.000 manat, mövcud potensial ilə işə davam etmək (12 ay ərzində) 170.000 manat mənfəət gətirəcəkdir. Bu dəyərlər, əslində bazarın 15% artması ehtimalı ilə əlaqədar meydana çıxdı. Ancaq marketinq direktoru bazara yüksək texnologiyalı yapon TŞ-nin girməsi nəticəsində tələbin 10 % düşəcəyini və ya tikinti tələbinin artmayacağını irəli sürdü. Bu məlumatın təqdimatı üçün bir qərar matrisası hazırlanır (Экономика, 2007: 59).

Bazarla əlaqədar mümkün dəyişikliklərə görə, tələbin 15% artımı 0.6, sabit durum 0.3, tələbin 10% düşməsi isə 0.1 ehtimalını mümkün edir. Müəyyən bir strategiya üçün gözlənilən dəyərlər, hər bir bazar nəticəsinin ödəməsi ilə bunun ehtimalının hasili və bütün nəticələrin toplanması ilə əldə edilir. Bu nöqtədə diqqət edilməsi gərəkən məsələ, ehtimalların subyektiv mühakiməyə bağlı olaraq müəyyənləşməsidir. Bu səbəblə, yeni quraşdırılması ehtiva edələn 1 nömrəli strategiya üçün gözlənilən dəyər aşağıda göstərilmişdir

Eyni prosedur ikinci və üçüncü strategiya üçün də məqbuldur. Bütün strategiyalar üçün gözlənilən ümumi maliyyə dəyəri 183.000 m (S1), 178.000 m (S2), 154.000 m (S3) olacaqdır. S1, ən yüksək gözlənilən dəyərə malikdir və həm də ən riskli strategiyadır. Riskdən mümkün olduqca çəkinən menecer "heç bir şey etməmə" S3 strategiyasını seçə bilər (Kerzner, 1998: 54).

Korporasiyanın bir sıra meyarlar əsasında araşdırılması üsullarından və müasir risk idarəetməsinin vasitələrindən biri SWOT analizidir. Bu metod sayəsində şirkətin mövcud vəziyyəti, fəaliyyət səviyyəsi təyin oluna bilər. O, şirkətlərin strukturu, rəqabət gücü, sektordakı mövqeyi, bazardakı xarici təhdidlərin mövcudluğu və digər bu kimi daxili və xarici qiymətləndirmə

metodlarından biridir. Onun vasitəsilə qiymətləndirmənin ilk qismi olan mövcud vəziyyətin güclü və zəif cəhətlərini təyinetmə prosesində qiymətləndirməsi gərəkən amillərin seçimi və bunlara aid dəyərlərin doğru olaraq təyin olunması çox önəmlidir.

**Ədəbiyyat**


- Kerzner H. Project Management: System Approach to Planning, Scheduling and Controlling.-N.Y., Van Nostrand Reinhold,1998.
- Асаул А.Н., Грахов В.П. Маркетинг-Менеджмент в строительстве. Санкт-Петербург.: Гуманистика, 2007
- Экономика в строительстве. Строительные материалы, оборудование, технологии XXI века № 9, 2007 (54-62 s).

**Səkinə Hacıyeva**
*i.ü.f.d.,ATMU-in "İqtisadiyyat" kafedrasının dosenti*
*hajiyevasakina@yahoo.com*
**Aişə Qasımova**
*ATMU-in magistrantı*
*aisagasimova@mail.ru*

# TURİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNİN İNSTİTUSİONAL ASPEKTLƏRİ

**Açar sözlər:** turizm, investisiya, investisiya cəlbediciliyi, turizm investisiyaları, xarici investisaya həcmləri

## Giriş

Turizm sənayesinin inkişafı üçün sərf olunan xərclər səmərəliliyinə görə yeyinti, maşınqayırma və neftçıxarma sənayesindən sonra 3-cü yeri tutur. Dünyada turizm sektoruna qoyulan investisiyaların həcmi getdikcə sürətlə artır (Əlirzayev,2020: 493). Buna səbəb odur ki, dünya iqtisadi sistemində ənənəvi turizm ölkələri kimi tanınan dövlətlər sırrasına bir çox yeni ölkələr daxil olmağa başlamışdır.

Turizm sahəsində tədqiqat aparan ekspertlərin verdikləri rəyə görə turizm üç mühüm prosesi özündə əks etdirir və bu proseslərə aşağıdakılar daxildir:

-turistin yerləşdirilməsi prosesi (otelçilik);
-turistlərin qidalandırılması prosesi (qida sənayesi);
-turistlərin daşınması – transfer prosesi (nəqliyyat sənayesi).

## Təhlilin metod və metodologiyası

İqtisadiyyatda turizmi inkişaf etdirmək, onu əsas sahəyə çevirmək məqsədi ilə xarici investisiyaların ölkəyə cəlb edilməsi və onun bölüşdürülməsi mexanizmində əsaslı dəyişikliklərin aparılmasi çox önəmli məsələlərdən biri hesab edilir. Çünki, hal-hazırda dünyanın bəzi ölkələri ilə müqayisədə Azərbaycanda turizm sahəsinə qoyulan investisiyaların həcmi kifayət qədər çox deyildir. Bu onu göstərir ki, Azərbaycanda və iqtisadi rayonlarda turizm sektru inkişaf edir. Ölkəmizin regionlarında fəaliyyət göstərən turizm müəssisələrinin illik xərclərini əks etdirən göstəriciləri nəzərdən keçirək (cədvəl 1).

Cədvəlin məlumatlarından göründüyü kimi Azərbaycanda turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin ümumi xərcləri artım dinamikasına malikdir.

Turizm sektoruna cəlb olunan investisiyaların iqtisadi səmərəliliyinin daha əlverişli olmasını Azərbaycanla ərazi və əhali sayı göstəriciləri təqribən eyni olan Avstriyanın timsalında daha aydın görmək üçün müəyyən müqayisələr etmək mümkündür. Bir mənalı olaraq təbii-coğrafi baxımından daha sərfəli və turistləri cəlb edən ərazilərdə kiçik və böyük bazarlar yaradılır və həmin ölkəyə investisiya qoyuluşu həyata keçirilir. Düzdür, bu cür yanaşmaya haqq vermək doğru deyildir. Çünki təbiətin istənilən güşəsinin insanlar üçün xeyri vardır. Bu qeyd edilən amillərin əksəriyyəti gəzinti turizmi, alpinizm, kurort-sanatoriya, qış turizmi və digər turizm formalarının fərqli yerlərdə inkişafı üçün əlverişlidir. Bu dediklərimizi

***Cədvəl 1.***
***İqtisadi rayonlar üzrə turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin ümumi xərcləri (min manat)***

| İqtisadi rayonlar | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| Ölkə üzrə cəmi | 25292,5 | 27081,1 | 30811,6 | 29101,8 | 36734,6 | 46085,1 |
| Bakı şəhəri | 20809,2 | 22504,5 | 26304,2 | 23780,3 | 29819,8 | 37369,5 |
| Abşeron iqtisadi rayonu | 121,5 | 115,5 | 59,2 | 570,0 | 221,6 | 538,6 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Gəncə-Qazax iqtisadi rayonu | 14,4 | 57,7 | 99,0 | 139,7 | 951,8 | 2003,4 |
| Aran iqtisadi rayonu | 56,6 | 29,7 | 31,3 | 16,6 | 49,9 | 92,4 |
| Naxçıvan iqtisadi rayonu | 4290,8 | 4310,7 | 4317,9 | 4593,3 | 5556,6 | 5586,6 |
| Dağlıq-Şirvan iqtisadi rayonu | - | - | - | 2,0 | 0,6 | 15,0 |
| Quba-Xaçmaz iqtisadi rayonu | - | - | - | - | 11,1 | - |
| Lənkaran iqtisadi rayonu | - | - | - | - | 35,8 | 6,5 |
| Şəki-Zaqatala iqtisadi rayon | - | - | - | - | 87,4 | 473,1 |

*Mənbə:* https://www.stat.gov.az/

aşağıdakı faktlar əsasında nəzərdən keçirək. Bildiyimiz kimi, təbii rekreasiya ehtiyatı baxımından, Türkmənistan Azərbaycanla müqayisə edilməzdir. Lakin Türkmənistanda səhrada çox da böyük olmayan Bayraməli şəhərində ürək-damar və asma xəstəliklərinin müalicəsi üçün kurort – sanatoriya şəbəkəsi fəaliyyət göstərir ki, həmin əraziyə MDB və digər ölkələrdən turistlər axın edirlər. Yayın ən qızmar vaxtlarında 45-50 dərəcə istilikdə Rusiyadan, Bolqarıstandan, Ukranyadan və digər ölkələrdən məhz bu sanatoriyaya insanlar üz tuturlar. Məhz bura gələnlərin hesabına ölkə büdcəsinə küllü miqdarda maliyyə vəsaitinlərinin daxilolmalarında artım müşahidə olunur. Təssüflər olsun ki, Azərbaycanda təbii-coğrafi baxımdan istər dövlət, istərsə də özəl oxşar investisiyalar əsasında bu cür sanatoriya və kurortların yaradılmasına lazimi diqqət göstərmirlər. Qeyd etmək lazımdır ki, Regionların İnkişafı Üzrə Dövlət Proqramlarında bütün regionlarda dayanıqlı inkişafa kömək edən, ehtiyyatlardan düzgün istifadə etmək üçün hüquqi bazanın yaranması üçün güclü üsulların tətbiqi də nəzərdə tutulur. Xarici kreditlərdən istifadə etməklə regionların rekreasiya ehtiyyatlarının ölkənin iqtisadi dövriyyəsinə daxil edilməsi turizmin bazasının genişlənməsinə kifayət qədər müsbət istiqamətdə yardım göstətmək qabilyyətinə malikdir.

Aparılan statistik tədqiqatlar və məlumatlar göstərir ki, ölkəmizdə turizmin inkişaf etməsində nəinki investisiya qoyuluşunun, habelə kreditlərdən istifadənin vəziyyəti heç də arzuolunan səviyyədə deyildir. Turizmin inkişafı və aparıcı sahəyə çevrilməsi prossesində xarici investisiyalarla birgə, daxili investisiyalardan da istifadəyə geniş yer verilməlidir. Ümumiyyətlə, gələcəkdə iqtisadiyyatın bəzi sahələrinin kapitalizasiyasında yerli investisiyalar üstünlük təşkil etməlidir (Əliyev, 2004: 192-195). Azərbaycan iqtisadiyyatına cəlb olunan investisiyaların müasir vəziyyətinin təhlili göstərir ki, xidmət sahələrinə, o cümlədən turizmə qoyulan investisiya hal-hazırda aşağı səviyyədədir.

Xüsusilə də özəl sahibkarların vəsait qoyuluşları hesabına yenidən qurma üçün ciddi işlər həyata keçirilməlidir. Əgər ölkəmizdə turizmin investisiya təminatının səmərəliliyini artırmaq üçün xarici investisiyanın cəlbi və büdcədən müvafiq həcmdə kapitalın ayrılması müəyyən çətinliklər yaradırsa, bu problemin həlli üçün başqa yollar axtarılmalıdır. Yuxarıda adını çəkdiyimiz turizm üçün yaralı olan iqtisadi rayonlarda investisiyaya olan tələbatı müəyyən etmək, onun ödənilməsi üçün bu obyektlərin daxili investisiya bazarlarına çıxarılması daha əlverişlidir.

***Cədvəl 2.***

***İqtisadiyyata yönəldilən investisiyalar***

| İllər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla): | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| mlyn.manat | 21448,2 | 21890,6 | 20057,4 | 22706,4 | 24462,5 | 25877,0 |
| mlyn.dollar | 27340,0 | 27907,5 | 19547,2 | 14228,0 | 14213,3 | 15221,7 |
| Xarici investisiyalar: | | | | | | |
| mlyn.manat | 8269,3 | 9175Ş6 | 10998,9 | 16216,1 | 15697,3 | 14002,1 |
| mlyn.dollar | 10540,9 | 11697,7 | 10719,1 | 10161,1 | 9120,5 | 8236,5 |
| Daxili investisiyalar: | | | | | | |
| mlyn.manat | 13178,9 | 12715,0 | 9058,5 | 6490,3 | 8765,2 | 11874,9 |
| mlyn.dollar | 16799,1 | 16209,8 | 8828,1 | 4066,9 | 5092,8 | 6985,2 |

*Mənbə:* https://www.stat.gov.az/

Cədvəl materiallarından göründüyü kimi, ölkəmizdə investisiya qoyuluşlarının həcmi ildən ilə artmış, 2013-cü ildə 21448,2 mlyn manat olan göstərici 2018-ci ildə 1,21 dəfə və ya 21% artaraq 25877,0 mlyn manat həcmində olmuşdur. Həmçinin, xarici investisiyanın həcmi müqayisə edilən dövrdə 1,69 dəfə artmış, daxili investisiyanın həcmində isə 10,0% azalma müşahidə edilmişdir.

Bir çox ölkələr turizm sferasını iqtisadiyyatın əsas sahələrindən birinə çevirmək və inkişaf etdirmək üçün böyük həcmdə investisiyalar qoyurlar. Həmin ölkələrin arasında Böyük Britaniya, ABŞ, və Almaniya liderlik təşkil edir. Son dövrlər aparılan araşdırmalara görə turizmə qoyulan xərclərin səmərəliliyini artırmaq üçün bir çox Afrika,Şərqi Asiya və Avropa ölkələrində təxirəsalınmaz işlər həyata keçirmişdir.

Azərbaycanın dünya turizm bazasında payı 0,05%-dən də aşağı səviyyədədir. Buna baxmayaraq son 10 ildə ölkəmizdə turizmin inkişafı üçün dövlət səviyyəsində çox ciddi işlər həyata keçirilmişdir. Bu dövr ərzində ölkəmizdə turizm sferasının maddi-texniki bazası yaradılmış, sosial infrastruktur sistemi dünya standartları səviyyəsində inkişaf etdirilmiş, bu sahəyə qoyulan maliyyə təminatı getdikcə daha da yüksəlmişdir. Lakin, bir faktı nəzərə almaq lazımdır ki, xarici investisiyaların cəlb olunması və onların iqtisadiyyatın sahələri arasında bölüşdürülməsində uyğunsuzluq amilləri özünü göstərir (Sadıxov, 2013: s.15-22). Bu uyğunsuzluq isə turizm sahəsinin inkişafında öz mənfi təsirini göstərir.

Azərbaycanda mövcud olan rekreasiya ehtiyatlarından səmərəli şəkildə istifadə turizm sferasını dövlət büdcəsinin ümumi gəlirlərinin formalaşmasında mühim mənbəyə çevrilməklə ölkəmizdə büdcə gəlirlərinin artmasına səbəb ola bilər (Qurbanov, 2007: 28-37). Bu sahənin inkişafı üçün ölkədə müxtəlif turizm növlərinin inkişafının investisiya təminatı əsaslı şəkildə artırılmalıdır. Bu proses ölkənin maliyyə təhlükəsizliyinin təmin olunmasında əsaslı rol oynaya bilər.

**Nəticə**

Turizmin maliyyələşdirilməsinin institusional aspektlərini elmi cəhətdən araşdıraraq aşağıdakı ümumiləşdirilmiş nəticələrə gəlmək olar:

1. Müasir dövrdə qloballaşma və inteqrasiya proseslərinin artdığı bir zamanda turizmi inkişaf etdirmək, investisiyanın cəlb olunmasını təmin etmək və mövcud potensialdan səmərəli istifadə etmək, turist axının lider mövqeyinə nail olmaq, beynəlxalq turizm əməliyyatlarında daha çevik və fəal olmaq istənilən milli dövlətin dinamik, dayanıqlı və uzunmüddətli inkişafında vacib şərtlərdən biridir.
2. Ölkəmizin qlobal iqtisadi məkana daha tez inteqrasiya olunması, turizmin inkişafı və beynəlxalq əməkdaşlığın sürətlənməsi gələcəkdə qarşıda duran əsas istiqamətlərdən biridir. Turizmi iqtisadiyyatın daha çox gəlir gətirən sektoruna çevirmək üçün sosial və ekoloji tələblərə, səmərəli və rəqabətə davamlı müasir standartlara cavab verən turizm sənayesinin

formalaşması, bu sahədə yeni iş yerlərinin açılmasının təmin edilməsi qeyri-neft sektorunun inkişafında qarşıya qoyulan əsas məqsədlərdən biridir.

3. Beləliklə, turizm sahəsinin inkişafı bir sıra amillərdən asılıdır:

- rəqabətə davamlı turizm infrastrukturunun və turizm sektorunun formalaşması;
- mövcud turizm müəssisələrinin beynəlxalq standartlara uyğunlaşdırılması;
- turizmin xidmət sektorunda mütərəqqi üsullar və standartların formalaşması və tətbiqi;
- ölkənin regionlarında turizm-rekreasiya sahələrinin hüquqi statusunun formalaşması, həmçinin turizm zonaları və marşrutlarının müəyyənləşdirilməsi;
- daha zəngin təcrübəyə malik olan ölkələrin təcrübəsini öyrənməklə kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığa üstünlük verilməsi.

Beynəlxalq təcrübədən göründüyü kimi, bir çox dövlətlərdə ( ABŞ, Cənubi Koreya və s. ) bəzi iqtisadi sahələri inkişaf etdirmək üçün dövlət büdcəsindən, müxtəlif kreditlərdən, özəl sektor və sahibkarların maliyyə imkanlarından, yerli sığorta şirkətlərinin maddi ehtiyyatlarından istifadə edilir. Hal hazırda Azərbaycanda kifayət qədər maliyyə imkanları yüksək olan sığorta şirkətlərinin fəaliyyət göstərməsinə baxmayaraq milli iqtisadiyyatımızın inkişafında onların rolu yox səviyyəsindədir. Azərbaycanda formalaşan geniş miqyaslı layihələrdə sığorta şirkətlərinin vəsaitlərindən, investisiya keyfiyyətindən istifadə edilməsinə şərait yaradan hüquqi və iqtisadi mexanizmin yaradılmasının məqsədləri nəzərə alınmalıdır. Eyni zamanda, regional turizmin maliyyə vəziyyətini formalaşdırmaq üçün bu sığorta şirkətlərinin vəsaitlərindən də bir mənbə kimi istifadə etmək olar.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATLAR

Əlirzayev Ə.Q. “Turizmin iqtisadiyyatı və idarə edilməsi”. Bakı. 2010: “İqtisad Universiteti” Nəşriyyatı, 493s.

Əliyev.A.A. “Azərbaycan sənayesində xarici və daxili investisiyalardan səmərəli istifadə”. Bakı, 2004, s.192-195

Sadıqov.E.M.“İnvestisiyaların maliyyələşdirilməsinin səmərəliliyinin yüksəldilməsi”. Bakı, 2013, s.15-22

Qurbanov F.İ.“Azərbaycanda turizmin inkişaf problemləri”. Bakı. 2007, s.28-37

“Azərbaycan regionlarında iqtisadiyyatın dayanıqlı inkişafı”. Ə.X.Nuriyevin, R.P.Sultanovanın redaktəsi ilə, AMEA İqtisadiyyat İnstitu. Bakı, Elm-2009;

https://www.stat.gov.az/

**Vüsalə Kərimova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*v_kerimova@bk.ru*

# AZƏRBAYCANDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ MEXANİZMİ

**Açar sözlər:** iqtisadi təhlükəsizlik, resurs potensialı, iqtisadi rəqabətqabiliyyətlik, təhlükəsizlik kriteriyaları

## Giriş

İqtisadi təhlükəsizlik anlayışı mürəkkəb, çoxtəbəqəli struktura malikdir və ölkənin iqtisadi inkişafında mühüm rol oynayan problemlərin həlli üçün əlverişli şəraiti təmin edir:

- ölkənin suverenliyinin və dünyada geosiyasi vəziyyəti dəstəkləməklə onun iqtisadi siyasətini müstəqil təyin etmək imkanı;

-ölkənin milli maraqlarını müdafiə etmək baxımından iqtisadiyyatın vəziyyətinin sistemli qiymətləndirilməsi;

-qanunvericilik və məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi, həmçinin müasir dövlətin fəaliyyətində beynəlxalq standartlardan istifadə olunması.

İqtisadi təhlükəsizlik Azərbaycanın milli təhlükəsizliyi ilə əlaqəli sahələrinin təmin olunmasının əsasını təşkil edir. Bu sahələrə enerji təhlükəsizliyi, qida, texnologiya, müdafiə sənayesi, ekologiya, sosial, informasiya və s. aiddir.

Hər bir ölkənin iqtisadi təhlükəsizlik strategiyası mövcuddur. Müxtəlif proqramlar və sənədlər bu problemin həllində tənzimləyici rol oynayır. Bəs, dövlətin iqtisadi təhlükəsizliyi hansı metod və üsullarla təmin edilir?

## Təhlil

Hər bir dövlətin iqtisadi təhlükəsizlik strategiyasının hazırlanmasında makroiqtisadi, demoqrafik, xarici iqtitisadi, ekoloji və texnoloji keyfiyyət meyatları nəzərə alınır. Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizmindən danışarkən ərzaq təhlükəsizliyi məsələsinə də ciddi diqqət yetirilməlidir. İqtisadi təhlükəsizlik strategiyasının tərkib hissəsi olan ərzaq təhlükəsizliyi ilə bağlı əksər ölkələrin konsepsiya və proqramları vardır.

Azərbaycan Respublikasında da qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı hazırlanmışdır. Bu proqrama əsasən dünyada qida təhlükəsizliyi sahəsində idarəetmə və nəzarət tədbirlərinin həyata keçirilməsində son dövrlərdə konseptual dəyişikliklərin baş verməsi və bəzi inkişaf etmiş ölkələrdə qida təhlükəsizliyini tənzimləmək üçün resursların yüksək riskli sahələrə və spesifik problemlərin həllinə yönəldilməsi məsələsi öz əksini tapır. Müasir qida təhlükəsizliyi sistemlərinin işlənib hazırlanmasında, onların strukturunda, tətbiqində və fəaliyyətində bir sıra fərqli prinsiplər nəzərə çarpır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı qida məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin olunmasında kompleks yanaşmanın tətbiqi məqsədilə qida təhlükəsizliyinə nəzarət sisteminin əsas hədəflərini hazır məhsulun yoxlanılmasına deyil, qida zəncirinin bütün mərhələlərinə, yəni ilkin istehsal, istehsal, emal, dövriyyə və utilizasiya proseslərinə nəzarətin həyata keçirilməsini tövsiyyə edir. Bu prinsipin tərəfdarları qida zəncirinin bütün mərhələlərində profilaktik tədbirlər görülməsinin son mərhələdə yoxlamalar aparılaraq normalara uyğun olmayan məhsuldan imtina edilməsindən daha səmərəli və effektiv olduğunu bildirirlər (2, 2019: 3-4)

Qida təhlükəsizliyinin təmin olunmasında əsas məqsədlərdən biri də ölkənin ümumi iqtisadi təhlükəsizliyinin inkişaf perspektivlərinin yüksəldilməsi və onun beynəlxalq səviyyəyə çatdırlması imkanlarının əldə olunmasından ibarətdir.

Bazar iqtisadiyyatı şəraitindən görünür ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi problemi bütün ölkələr üçün xasdır və iqtisadi təhlükəsizliyin təmin olunmasında Azərbaycan Respublikasının iqtisadiyyatının beynəlxalq səviyyədə davamlı tənzimlənməsinə kömək edə biləcək hərətərəfli dövlət strategiyasının işlənilməsi vacib məsələlərdən biridir. Dövlətin bu strategiyası Azərbaycan Respublikasının beynəlxalq iqtisadi təhlükəsizliyinin təmin olunmasında makroiqtisadi parametrlərə, həmçinin struktur dəyişikliklərinin və pul-maliyyə axınlarının məqsədyönlü tənzimlənməsinə dövlətin təsir etməsi imkanlarını yaradacaqdır. Ölkə iqtisadiyyatını müasirləşdirmək, texnoloji və elmi-texniki yenilikləri tətbiq etmək üçün ölkə başçısının və hökumətin müvafiq göstərişləri artıq özünü göstərir. Ölkədə innovasiya yönümlü iqtisadiyyatın yaradılması, elmi-texniki yeniliklərdən istifadəyə üstünlük verilməsi özünü biruzə verir. Bəzi mövcud çətinliklərə baxmataraq, Azərbaycanda orta və yüksək ixtisaslı kadrların mövcudluğu, perspektiv elmi-təcrübi və sənaye potensialı, zəngin təbii resurslar, əlverişli coğrafi şərait qeyri-şərtsiz inkişafa real baza yaradır. Bu baxımdan ölkənin iqtisadi təhlükəsizliyinin tədqiqat obyekti olaraq əmtəə və xidmətlərdən əldə edilən gəlir, xərclər və digər makroiqtisadi göstəricilər seçilir. Buraya həm müxtəlif mülkiyyət formaları, həm də bir-biri ilə əlaqəsi olmayan bir çox məhsul çeşidlərini və istehsal həcmini eyni vaxtda inkişaf etdirən istehsal növləri daxildir. Çünki, mülkiyyətin formasından asılı olmayaraq, əmtəə istehsalı və xidmətlərin inkişaf etdirilməsi makroiqtisadiyyatın inkişafına və iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsinə kömək edir. Təhlükə və zərərə qiymət vermək üçün iqtisadi təhlükəsizliyin kriteriyası anlayışı var. Bu anlayış kəmiyyət göstəricilərinə və keyfiyyət əlamətlərinə malikdir. Kriteriya iqtisadi təhlükəsizliyin bütün göstəricilərini öz məzmununda ehtiva edir.

Beləliklə, iqtisadi təhlükəsizliyin mahiyyəti onun kriteriya və göstəriciləri sistemində reallaşdırılır. İqtisadi təhlükəsizlik kriteriyası iqtisadiyyatın vəziyyətini qiymətləndirən bir anlayışdır. Çünki ölkənin iqtisadi təhlükəsizliyi iqtisadi inkişaf səviyyəsindən asılıdır. İqtisadi təhlükəsizliyin mahiyyəti burada əks olunur. Təhlükəsizliyin kriterial qiyməti aşağıdakıları özündə birləşdirir:

- resurs potensialı və onu inkişaf etdirmək imkanı;
- əmək, kapital və digər resurslardan səmərəli istifadə səviyyəsi, onun inkişaf etmiş ölkələrlə müqayisədə hansı səviyyədə olması, habelə daxili və xarici təhlükəni minimuma endirmək imkanı;
- iqtisadiyyatın rəqabət qabiliyyəti;
- suverenlik, müstəqillik və xarici təhlükənin qarşısını almaq imkanı;
- sosial sabitlik və sosial ziddiyyəti həll etmək qabiliyyəti.

Göründüyü kimi, ölkənin sosial-iqtisadi inkişafının dinamikliyi onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün ilkin zəruri şərtdir. Belə ki, ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin etmək üçün inkişaf prosesində qarşıya çıxan problemlər öz həllini vaxtında tapmalıdır. Bu problemlər mərhələli şəkildə həll olunmalı, mütəmadi olaraq yeniləşən iqtisadi mexanizm vasitəsilə və inkişafın təkamül yolu ilə daha yüksək mərhələyə qalxmalıdır. İqtisadi təhlükəsizliyin yuxarıda göstərilən kriteriyaları tələb edir ki, iqtisadi təhlükəsizliyin müəyyən göstəriciləri seçilərək onun keyfiyyət və kəmiyyət səviyyələri dünya statistika sistemi ilə müqayisə edilsin və ölkənin iqtisadi təhlükəsizliyini təmin edən iqtisadiyyat formalaşdırılsın.

Dünya təcrübəsi göstərir ki, əgər ölkə iqtisadi islahatlar yoluna qədəm qoyursa, o bu prosesin üç sadə fazasından keçməlidir:

Birinci faza-köhnə iqtisadi modelin dağılması və prinsipcə yeni təsərrüfat mexanizmlərinin formalaşdırılması. Bu islahatlar fazası infilyasiya və istehsalın kəskin azalması ilə müşaiyyət olunur.

İkinci faza-maliyyə sabitləşməsi. Onun məhsuldarlığı ölkə rəhbərliyinin siyasi iradəsindən asılıdır, nailiyyətlər isə müəyyən dərəcədə iqtisadi strukturun (məsələn, büdcə sferasının dövlət xərclərinin maliyyələşməsi üzrə dövlət öhdəlikləri və onların təmin edilməsi imkanı arasındakı disbalans dövləti büdcə və emissiya siyasətində uyğunsuzluğa, pul-kredit məhdudiyyətlərinə və s. gətirib çıxara bilər) tənəzzülü ilə müşaiyyət olunur.

Üçüncü faza-artım və inkişaf. O, iqtisadiyyatın sağalmasının başladığını bildirir və cəmiyyətin əsas iqtisadi institutlarının formalaşması başa çatdıqdan sonra meydana gəlir (Степашина, 2001: 72).

Beynəlxalq bazarlar sistemində ölkə iqtisadiyyatının rəqabətə davamlığını təmin etmək üçün istehsal texniki və texnoloji baxımdan daim yenilənməlidir. Bu tədbirləri həyata keçirmək üçün inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrlə, həmçinin yeni sənaye ölkələri ilə əməkdaşlıq genişləndirilməli və paralel olaraq ölkənin özünün qabaqcıl elmi-texniki məhsullar bazarı formalaşdırılmalıdır. Torpaq, əmək resursları, maliyyə resursları və çox qiymətli resurs kimi qiymətləndirilən sahibkarlıq qabiliyyəti inkişaf etdirilərək iqtisadi fəaliyyət prosesinə elə bir formada cəlb edilməlidir ki, bu tədbirlər iqtisadi artıma birbaşa təsir etsin. Yeni sənaye ölkələrinin iqtisadi təcrübəsinin araşdırılması göstərir ki, bu ölkələr sözügedən tədbirləri həyata keçirmək üçün bir qayda olaraq dünya iqtisadiyyatının ən mənfəətli iqtisadi sahələrində innovasiya xarakterli iqtisadi fəaliyyət sistemini təşkil edərək aşağıdakı istiqamətlərdə kompleks tədbirlər həyat keçirmişlər:

- iqtisadiyyatın korporativləşdirilməsi, o cümlədən kiçik və orta biznes subyektləri ilə iri biznes strukturlarının iş birliyinin yaradılması;
- daxili və xarici investisiya mənbələrindən maksimum istifadə edərək yüksək gəlirli biznes sahələrinin inkişaf etdirilməsi;
- bir qrup ölkələrdə idxalı əvəz edən iqtisadi sahələrin, digərlərində isə ixracat yönümlü iqtisadi sahələrin inkişaf etdirilməsi üzrə xarici iqtisadi strategiyanın həyata keçirilməsi;
- ixracatın stimullaşdırılması, daxili bazarın qorunması, həmçinin onun daxili və xarici təhlükədən qorunması sisteminin yaradılması.

Yuxarıda qeyd olunan tədbirlərin həyata keçirilməsi ilə yanaşı bu ölkələrdə səmərəli fəaliyyət göstərən vergi, gömrük və büdcə sistemləri, eyni zamanda əhalinin sosial müdafiə sistemi formalaşdırılmışdır. Göründüyü kimi, iqtisadi təhlükəsizliyin təmin edilməsinin ən zəruri şərti dayanıqlı iqtisadi inkişafa nail olmaqdır.

İqtisadi təhlükəsizlik ölkənin maddi ehtiyatlarının uçotunu nəzərdə tutan qanunların, strategiyaların yaradılmasını şərtləndirir. Hazırda Azərbaycanın iqtisadi siyasətinin əsas strateji məqsədləri aşağıdakılardır (Əlirzayev, 2012: 120):

- şəxsiyyətin inkişafı, iqtisadiyyatın sabitləşməsi, tənəzzülün dayandırılması və infilyasiya proseslərinin təmin edilməsi;
- böhrandan çıxmanı təmin edəcək və gələcəkdə iqtisadiyyatın əsası olacaq aparıcı sahələrdə artımın stimullaşdırılması;
- sosial-iqtisadi və hərbi-siyasi sabitliyin təmin edilməsi və s.

**Nəticə**

Azərbaycanın sosial-iqtisadi təhlükəsizliyi sahəsində neqativ halların qarşısının alınmasına yönəldilmiş dövlət sənədi, iqtisadi təhlükəsizlik strategiyası olmaqla yanaşı, təhlükəsizliyin təmin olunması sahəsində şəxsiyyətin davamlı iqtisadi vəziyyətinin, cəmiyyətin sosial-iqtisadi və hərbi-siyasi sabitliyinin, insanların və vətəndaşların konstitusiya hüquq və azadlıqlarının təmin edilməsinin normativ bazasının formalaşdırılmasını təmin etməlidir. Həmçinin dövlətin iqtisadi təhlükəsizlik strategiyası iqtisadi siyasət çərçivəsində işlənib hazırlanmalı və həyata keçirilməlidir.

## İstifadə edilmiş ədəbiyyat

Allahverdiyev Ə. Bazar iqtisadiyyatının təşəkkülü prosesində makroiqtisadi dinamika və struktur dəyişikliklərin tənzimlənməsi problemləri. Bakı, Elm, 2001

Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 29 aprel 2019-cu il tarixli Sərəncamı.

Balayeva E.O. İqtisadi təhlükəsizliyin konseptual məsələləri. Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan, 2007
Dövlətin iqtisadi təhlükəsizlik strategiyası. S. Səfərov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, Xalq qəzeti, 2009 – 16 oktyabr
Əlirzayev Ə.Q., Əlirzayev E.Ə. "Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri, konseptual yanaşma, maliyyə-büdcə və sahələarası proqnozlaşma mexanizmləri", Bakı, 2012
Экономическая безопасность Российской Федерации: Учебник для вузов. Ч. I, II /Под общей редакцией С.В. Степашина. М.: СПБ. Лань, 2001, 230

http://www.azerbaijan-news.az

http://apa.az

**Mahayət Nəbiyev**
*Azərbaycan Universitetinin dissertantı*
*javidazizov86@mail.ru*

# AZƏRBAYCANDA İNŞAAT SAHƏSİNDƏ ŞİRKƏTLƏRİN KREDİT QABİLIYYƏTLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər***: *tikinti sektoru, valyuta riski, valyuta məzənnəsi, investisiya, maliyyə.*

1990-ci illərin sonundan etibarən ölkədə başlayan iqtisadi artımın əsəs amili neft hasilatının artması və əldə olunan neft gəlirlərinin büdcə sektoru vasitəsilə tikinti işlərinə yönəldilməsi olmuşdur. Neft bumu həmçinin mənzil tikintisi, telekommunikasiya və rabitə, ticarət, nəqliyyat, turizm və digər xidmət sahələrində sürətli artım ilə müşayiət olunurdur. Belə ki, 2005-ci ildə xidmət sahələrinin ÜDM-də xüsusi çəkisi 34% olmuşdursa, 2015-ci ildə bu göstərici 52%-dək artmış və sonrakı illərdə azalaraq 2018-ci ildə 43% təşkil etmişdir (diaqram 1). Beləliklə 2005-2018-ci illər ərzində xidmət sahələrinin ÜDM-də xüsusi çəkisi 34%-dən 43%-dək, yəni 9 faiz bəndi artmışdır. Qeyd edək ki, neft bumu dövründə xidmət sahələrinin sürətli artımı təbii prosesdir və bu artım resurs bumu nəticəsində milli valyutanın möhkəmlənməsi ilə əlaqədardır (Edwards, 1983: 219)

Xidmət sahələrində müşahidə olunan artım xidmət sektorunun kreditləşməsinin artımı ilə müşayiət olunur: 2005-ci ildə 571,4 mlyn. manatdan, 2018-ci ildə 4139 mlyn. manatadək, bu da bu sektorda borc defoltu riskinin artmasına gətirib çıxardı. Onu da qeyd etmək lazımdır ki, kreditlərin böyük hissəsi xarici valyutadadır ki, bu da valyuta riskini artıraraq borc defoltu riskini daha da gücləndirir. Belə ki, 2018-ci ilin sonuna xidmət sahələrinə xarici valyuta ilə verilmiş kreditlərin həcmi 2430,4 mlyn. manat olmuşdur və bu, xidmət sahələrinin kredit borcunun 59%-ni təşkil edir.

Diaqram 1. Diaqram. Xidmət sahələrinin ÜDM-də payı, % ilə (DSK)




Xidmət sektorunda ÜDM-də ən böyük paya ticarət, nəqliyyat vasitələrinin təmiri və tikinti sektorları malikdir. 2018-ci ildə bu sektorların ÜDM-də xüsusi çəkisi müvafiq olaraq 9,6% və 8% təşkil etmişdir. Qeyd edək ki, 2007-2014-cü illər ərzində tikinti sektorunun ÜDM-də xüsusi çəkisi 6,4%-dən 12,6%-dək, yəni təqribən 2 dəfə artmış, sonrakı illərdə neft qiymətlərinin enməsi nəticəsində azalmağa başlamış və 2018-ci ildə 8%-dək, yəni 2014-cü illə müqayisədə 4,6 faiz bəndi azalmışdır. Üçüncü ən böyük xidmət sahəsi olan nəqliyyat və anbar təsərrüfatının xüsusi çəkisi 2018-ci ildə 6,3% olmuşdur.

Neft bumu illərində tikinti ilə yanaşı daşınmaz əmlakla əlaqədər əməliyyatlar sahəsi də sürətlə inkişaf etmişdir. Belə ki, 2005-ci ildə daşınmaz əmlakla əlaqədər əməliyyatlar sahəsinin ÜDM-də xüsusi çəkisi 0,6% olmuşdursa, 2015-ci ildə onun ÜDM-də payı 3,4%, sonrakı illərdə isə azalaraq

2018-ci ildə 2,6%-dək enmişdir. Beləliklə, 2005-2015-ci illər ərzində daşınmaz əmlakla əlaqədər əməliyyatlar sahəsinin ÜDM-də xüsusi çəkisi 2,8 faiz bəndi artmiş, 2015-2018-ci illərdə isə 0,8 faiz bəndi azalmışdır.

Ölkə əhalisinin məşğulluğunda da xidmət sahələrinin xüsusi çəkisi böyükdür. Məşğul əhalinin 44%-i xidmət sektorunun payına düşür. Belə ki, topdan və pərakəndə ticarət, nəqliyyat vasitələrinin təmirində 706,1 min, təhsil sahəsində 380,2 min, tikintidə 354,5 min, nəqliyyat, anbar təsərrüfatı sahəsində 203,2 min adam çalışır.

Ölkədə xidmət sahələrinin inkişafını iki mərhələyə bölmək olar. Birinci mərhələ neft bumu dövrüdür ki, bu dövrdə xidmət sahələrinin sürətli inkişafı müşahidə olunurdu. İkinci mərhələ kimi isə ölkənin neft gəlirlərinin azaldığı dövrü göstərmək olar ki, bu dövrdə xidmət sahələrində artım tempinin azalması müşahidə olunur.

Qeyd edək ki, xidmət sahələrinin ÜDM-də xüsusi çəkisinin artması təbii prosesdir və bu, əhalinin gəlirlərinin artımı ilə əlaqədardır. Məlum olduğu kimi, xidmətin gəlirə görə elastikliyi sənaye məhsulları ilə müqayisədə daha yüksək olduğu üçün əhalinin gəlrləri artdıqca istehlakda xidmətin xüsusi çəkisinin artımı baş verir.

Ölkəmizdə də neft bumu dövründə əhalinin gəlirlərinin artması xidmət sahələrinin ÜDM-də xüsusi çəkisinin artmasına gətirib çıxarmışdır. Azərbaycanda xidmət sahələrinin ÜDM-də xüsusi çəkisinin artmasının digər səbəbi neft bumu dövründə neft gəlirlərinin artması nəticəsində manatın möhkəmlənməsi olmuşdur: 2005-2014-ci illər ərzində manatın qeyri-neft sektoru üzrə real effektiv məzənnəsi təqribən 70% artmışdır ki, bu da ticari sektorların (emal sənayesi və kənd rəsərrüfatı) rəqabət qabiliyyətliliyini azaldaraq resursların qeyri-ticari sektorlara (tikinti, ticarət, nəqliyyat və s. xidmət sahələri) axınına gətirib çıxarmışdır.

2005-2014-cü illər ərzində tikinti işlərinin dəyəri 1558 mlyn. manatdan 8591,9 mlyn. manatadək, o cümlədən binaların tikintisi 885,1 mlyn. manatdan 4429,5 manatadək, mülki təyinatlı inşaat işlərinin dəyəri 114,5 mlyn. manatdan 1666,5 mlyn. manatadək, ixtisaslaşdırılmış tikinti işlərinin dəyəri 558,5 mlyn. manatdan  2495,9 mlyn. manatadək artmışdır. Tikinti bumu tikinti müəssisələrinin mənfəətinin artımına gətirib çıxarmışdır. Tikinti müəssisələrin ümumi mənfəəti 2005-ci ildə 92,9 mlyn.manatdan 2014-cü ildə 308,9 mlyn. manatadək artmışdır.

Tikinti sektorunda canlanma bu sektora verilmiş kreditlərin həcminin artması ilə  müşayiət olunmuşdur. Tikinti sektoruna kredit qoyuluşlarının həcmi 2005-ci ildə  82,2 mlyn. manatdan 2014-cü ildə 2555,1 mlyn. manatadək artmışdır, bu da kredit qoyuluşlarının mənfəətə nisbətini 2005-ci ildə 0,82-dən 2014-cü ildə 8,3-dək artıraraq (diaqram 2) tikinti müəssisələrinin defolt riskinin artmasına gətirib çıxarmışdır.

Diaqram 2. İnşaat və əmlak sektorunda kredit qoyuluşlarının mənfəətə nisbəti (DSK)



Neft bumu həmçinin daşınmaz əmlakın tikintisinə və alınmasına (ipoteka krediti daxil olmaqla) kredit qoyuluşlarının artması ilə müşayiət olunmuşdur: 2006-cı ildə 63,3 mlyn. manatdan 2014-cü ildə 1219,1 mlyn. manatadək.

2015-ci ildə dünya bazarında neft qiymətinin azalması nəticəsində Azərbaycanın neft gəlirlərinin azalması, həmçinin manatın dəvalvasiyası xidmət sektoruna ciddi təsir etmişdir. Belə ki, əvvəl qeyd etdiyimiz kimi 2005-2015-ci illər ərzində xidmət sahələrinin ÜDM-də xüsusi çəkisi 34%-dən 52%-dək, yəni 18 faiz bəndi artmış, lakin 2015-ci ildə neft gəlirlərinin azalması və baş vermiş manatın dəyərdən düşməsindən sonra azalmağa başlamış və 2017-ci ildə 47%-dək enmişdir.

Neft gəlirlərinin azalması və manatın dəyərdən düşməsindən sonra inşaat sahəsinin inkişaf meyillərini tədqiq edək.

Diaqram 3. İnşaat və əmlak sektorunda kredit qoyuluşlarının mənfəətə nisbəti, 2015-2018 (DSK, AR-nın MB)




Neft gəlirlərinin azalması nəticəsində ən çox zərər çəkən sahələrdən biri tikiti sahəsidir. Belə ki, 2015-ci ildə tikinti işlərinin dəyəri 16,4% azalmışdır. 2016-ci ildə tikinti işlərinin dəyəri 2,3% artsa da, bu artım xarici investisiyalar hesabına baş vermişdir (2016-cı ildə xarici investisiyalar hesabına tikinti işlərinin dəyəri 2434,4 mlyn. manatdan 3388 mlyn. manatadək artmışdır), yerli vəsaitlər hesabına tikinti işlərinin dəyəri isə 3712,4 mlyn. manatdan 3322,5 mlyn. manatadək azalmışdır. 2017-ci ildə tikinri işlərinin dəyəri 5,4% azalmış, 2018-ci ildə tikinti işlərinin dəyəri 5,3% artsa da, bu artım əsasən dövlət vəsaiti hesabına baş vermişdir: dövlət vəsaiti hesabına tikinti işlərinin dəyəri 1152,2 mlyn. manatdan 1719,5 mlyn. manatadək, qeyri-dövlət vəsaiti hesabına tikinti işlərinin dəyəri 6609,9 mlyn. manatdan 6728,9 mlyn. manatadək artmışdır.

Diaqram 4. İnşaat və əmlak sektoruna kredit qoyuluşlarında xarici valyutada kreditlərin xüsusi çəkisi, dövrün sonuna (AR-nın MB)




Tikinti sektorunda fəallığın zəiflənməsi tikinti firmalarının kredit qabiliyyətliliyinin azalması ilə müşayiət olunur. İnşaat və tikinti sektorunda fəaliyyət göstərərn hüquqi şəxslərə verilmiş kreditlərin həcmi 2015-ci ilin sonuna 3063,2 mlyn. manatdan 2018-ci ilin sonuna 388,8 mlyn. manatadək, yəni təqribən 10 dəfə azalmışdır. Bunun nəticəsində baxılan dövr ərzində inşaat və tikinti sektorunun kommersiya banklarının kredit portfelində xüsusi çəkisi 14,1%-dən 3%-dək azalmışdır. Tikinti sektoruna kredit qoyuluşlarının həcminin azalması həmin sektorda kreditlərin mənfəətə nisbətinin 2014-cü ildə 8,3-dən 2018-ci ildə 0,38-dək azalmasına səbəb olmuşdur (diaqram 3). Beləliklə tikinti firmalarına kredit qoyuluşlarının azalması onların ödəmə qabiliyyətliliyinə müsbət təsir etmişdir. Lakin qeyd etməliyik ki, tikinti sektoruna kredit qoyuluşları azalsa da, kreditlərin böyük hissəsini xarici valyuta ilə verilmiş kreditlər təşkil edir (2018-ci ildə 43%) (diaqram 4), bu da tikinti sektorunun valyuta riskinə məruz qaldığını göstərir.

**Ədəbiyyat**


- Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (DSK) (https://www.stat.gov.az/)
- Azərbaycan Respublikası Mərkəzi Bankı (AR-nın MB) (https://www.cbar.az/)
- Biznes riskləri və onların idarəolunmasının səmərəli təşkilinin davamlı inkişaf baxımından əhəmiyyəti, http://ser.az/az/pages/26/, 16 oktyabr 2018
- Edwards S., Aoki M. Oil Exports and Dutch-Disease: A Dynamic Analysis // Resources and Energy. 1983. P. 219-242

**Azər Əliyev**
*AMEA İqtisadiyyat İnstitutu, elmi işçi*
*e-mail: azer-aliev-67@mail.ru*
**Ramil Əliyev**
*AMEA İqtisadiyyat İnstitutu, a.e.i., i.f.d.*
*e-mail: ramil-turkel@mail.ru*

# SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ VERGİ NƏZARƏTİNİN VƏ VERGİ MƏDƏNİYYƏTİNİN İQTİSADİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *iqtisadi aspektlər, vergi qanunvericiliyi, vergi islahatları, vergi nəzarəti, vergi mədəniyyəti.*

Son illər Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə davamlı olaraq həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasəti iqtisadiyyatın tələblərinə uyğun olaraq təkmilləşdirilməkdədir.

Vergi sistemi dövlətin mühüm ünsürlərindən biridir və dövlətin iqtisadi inkişafa təsirinin, sosial-iqtisadi inkişaf prioritetlərinin müəyyən edilməsinin başlıca vasitəsidir. Məhs bu baxımdan da ölkənin vergi sistemində yeni ictimai münasibətlərə, inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğunlaşdırılması istiqamətində əhəmiyyətli işlər görülür.

Son illər ölkənin vergi nəzarəti və vergi mədəniyyətinin təkmilləşdirilməsi məqsədilə əsaslı islahatlara təkan verilmişdir. Ölkədə sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi qanunvericiliyinə dəyişikliklərin edilməsi prioritet məsələ hesab edilir. [1] Nəzərinizə çatdırım ki, vergi sistemində ən mühüm dəyişikliyin göstəricilərindən biri ölkəmizdə (KOB) bizneslə Vergilər Nazirliyi arasında vergi partnyorluğunun başlanmasınana təkan verilməsidir. Qeyd etmək lazımdır ki, yüzlərlə sahibkar “vergi partnyorluğu sazişi” bağlayaraq Vergilər Nazirliyin tərəfdaşına çevrilib. Belə ki, müəssisələrdə ardıcıl vergi yoxlamaları ilə üzləşməmək və ən əsası vergilərin ödənilməsinə dair riskləri minimuma endirmək imkanı yaradılıb.

Nəzərinizə çatdırım ki, Vergilər Nazirliyi ilə partnyor olmaq heç də asan iş deyil. Bu baxımdan ölkəmizdə vergi partnyoru olmaq istəyən sahibkar ilk növbədə mədəni və intizamlı olmağa borcludurlar. Məsələn, vergi borcu və yaxud vergidən yayındığı barədə vergi orqanında məlumat olduğu halda vergi ödəyiciləri ilə partnyorluq sazişi bağlanmır.

Son illər müasir elektron hökumətin qurulduğu vaxtda onlayn qeydiyyat, pos-terminal ödəniş sistemi və bu kimi rəqəmsal əməliyyatlar xüsusən yaşlı təbəqənin vergi ödəyicilərinə ziddiyyətlər törədir. Bu baxımdan demək olar ki, vergi ödəyiciləri özlərini dövlət tərəfindən sığortalanmamış hesab edirlər. Belə ki, vaxtında vergiləri, rüsumları ödəmək, nəzarət kassa, çek, hesabat dövrü, maliyyə sanksiyaları barədə anlayışları olmadığından vergi ödəyiciləri çətinliklərə məruz qalırlar. [2]

Ümumiyyətlə ölkəmizdə vergi nəzarəti və vergi mədəniyyəti prioritet məsələlərindən biridir. Bu baxımdan vergi ödəyicilərinin mənafelərinin qorunması çox ciddi və vacib məsələlərdən biri hesab olunur. Belə ki, əsasən kiçik və orta sahibkarlıq (KOB) fəaliyyətilə məşğul olan ödəyicilərin sadələşdirilmiş sistem üzrə vergidən əziyyət çəkdiyini müşahidə etmək mümkündür. Nəzərə alsaq ki, vergi orqanları tərəfindən yoxlama və təftişlər hədsiz dərəcədə çox və mənasız olduğundan ödəyicilər vergilərdən yayınmaq məcburiyyətinə qalırlar. Bu cür şəraitdə dövlət büdcəsinə və sahibkarlara küllü miqdarda maddi ziyan dəymiş olur. Belə bir təqdirdə tərəflər arasında ziddiyyətlər və məhkəmə çəkişmələri baş verə bilər. Bu cür hadisələr qaçılmazdır və səbəbi bir mənalı olaraq sahibkarların maarifli olmadığından irəli gəlir.

Qeyd etmək lazımdır ki, əksər zaman sahibkarlar elə özləri qaydaları çox kobut şəkildə pozur, vergiləri ödəməkdən yayınır, vergi qanunvericiliyinə zidd hərəkətlər edir və nəhayət vergi cinayətləri törədirlər. Əlbəttə bu cür yaranan hallar çox pis dəyərləndirilir və belə sahibkarlarla

mübarizə aparmaq çətinliklər yaradır. Dünya ölkələrinə nəzər salsaq bu cür hadisələr qaçılmazdır. Belə bir şəraitdə dövlətin nəzarət orqanları tərəfindən bu cür sahibkarları göz altına alır və qanuna uyğun olaraq tədbirlər görülür. Hətta bəzi sahibkarlar öz işlərini yüngülləşdirmək üçün işçilərin əmək fəaliyyətini gizlədir və əmək müqaviləsi bağlamadan onları çalışdırırlar belə şəraitdə işləmək isə qanuna ziddir. Nəzərə almaq lazımdır ki, ölkəmizdə vergi sistemində çalışan əmədaşların, sahibkarların maarifləndirilməsində öz marağı olmalıdı. Çünki maarifləndirilməmiş sahibkarlar (KOB) vergiləri hansı prosedurla və hansı qaydalarla necə əməl etmələrində çətinlik çəkirlər.

İnkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlar (KOB) üçün xüsusi treninqlər keçirilir, bukletlər və təlimat kitabçaları paylanılır. Belə ki, vergi ödəyicilərinin vergiləri hansı qaydada ödəmək, vergi qanunvericiliyinə necə riayət etmək və keçirilən vergi prosedurlardan xəbərdar olması məqsədi daşıyır.

Müasir dövlətlərdə vergi mədəniyyətini, vergi qanunvericiliyini və vergi məsuliyyəti anlayışını dərk etmək üçün müəssisələrə xüsusi təlimçilər dəvət olunur ödəyicilərlə qarşılıqlı dostluq əlaqələri qurub mövzuya aid bigə monitorinqlər aparılır. İnkişaf etmiş dövlətrdə olduğu kimi, Azərbaycanda da vergi yığımının əsas amillərindən biri ölkədə ki, vergi mədəniyyətinin yüksək səviyyəsinin olmasıdır. [3]

Ümumiyyətlə qeyd etmək istəyirəm ki, ölkəmizdə aparılan vergi islahatları çox proqressiv həyata keçirilir. Bununla belə son bir neçə il ərzində vergi sistemində yaradılmış müasir standartlara uyğun təkmilləşdirilmiş sistemlər, proqramlar, layihələr və nəhayət yeni texnologiyaların yaradılması ölkə iqtisadiyyatında çox böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ölkə iqtisadiyyatının əsas məqsəd və vəzifələrindən biri sahibkarları iqtisadiyyatın ayrı-ayrı sahələrinə cəlb etməkdən ibarətdir.

Respublikamızda sahibkarlığın inkişafına mane olan süni maneələrin aradan qaldırılması istiqamətindəki fəaliyyətinin ardıcıl və davamlı səciyyə daşıdığını Prezident İlham Əliyevin 30 aprel 2007-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı bir daha təsdiqləyir. Bu Fərmanla indiyə qədər çoxpilləli biznesə başlamaq sahəsində mövcud problemlərin həlli, o cümlədən, süründürməçilik hallarının, bürokratik əngəllərin aradan qaldırılması nəzərdə tutulubdur. Bu məqsədlə vahid kodlaşdırmanın aparılması, biznes strukturlarının "bir pəncərə" vahid qeydiyyat orqanı tərəfindən qeydə alınması məsələləri əksini tapmışdır. [4]

Ölkəmizdə vergi qanunvericiliyinə edilən dəyişikliklərin əsas hədəflərindən biri də kiçik və orta sahibkarlığın (KOB) inkişafının stimullaşdırılması olduğu üçün bu yöndə tətbiq edilən yeniliklər vergi yükünün azaldılmasına yönəlmişdir. vergiödəyicilərinin hüquqlarının genişləndirilməsi və sahibkarlığın inkişafının dəstəklənməsi məsələləri də diqqətdən kənarda qalmayıb. Belə ki, sadələşdirilmiş vergi dərəcəsinin bütün ölkə ərazisində 2 faizə endirilməsi, pərakəndə ticarət və iaşə sahələrində nağdsız ödənişlər üzrə güzəştlərin verilməsi və inzibati şikayət zamanı bank hesabından və ƏDV-nin depozit hesabından pul vəsaitinin silinməsinin dayandırılması bu istiqamət üzrə edilən dəyişiklilərə aiddir.

Azərbaycanda davamlı olaraq aparılan uğurlu iqtisadi islahatlar vergi sistemində də öz əksini tapmışdır. Vergi Məcəlləsinə vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə də bir sıra dəyişikliklər edilib. Bunların sırasında yeni nəsil nəzarət-kassa aparatlarının quraşdırılması, vergiödəyicisinin iqtisadi maraq mərkəzinin olduğu yer üzrə uçota alınması, elektron qaimə-faktura verməli olan şəxslərin əhatəsinin dəqiqləşdirilməsi, ƏDV-nin əvəzləndirilməsi mexanizminin təkmilləşdirilməsi və s. dəyişikliklər yer alır. Ölkəmizdə sahibkarlar özləri könüllü olaraq vergi ödəyicilərinə çevrilməlidirlər. Bu proseslərin arxasında yenə də vergi mədəniyyəti durur. Bu baxımdan da vergi ödəyicilərlə maariflənmə işləri dövlət və qeyri hökumət təşkilatları tərəfindən davamlı olaraq keçirilməlidir.

Qeyd etmək azımdır ki, sahibkarlar özləri çox zaman kobut şəkildə qaydaları pozur, vergidən yayınır vergi cinayətləri törədirlər. Bu əlbəttə çox pis haldır. Dünya ölkələrinə nəzər salsaq hər yerdə belə hadisələr olur və dövlət nəzarət orqanları tərəfindən tədbir görülür. Hətta bəzi vergi ödəyiciləri öz işlərini yüngülləşdirmək üçün işçilərin əmək fəaliyyətini gizlədir və əmək müqaviləsi

bağlamadan onları çalışdırırlar bu da qanuna ziddir. Gəlir vergisi hesablanarkən öz gəlirlərini gizlətmək məqsədilə mühasibat işlərində işçinin əmək haqqını minimum dərəcə ilə göstərir yada heç göstərmirlər. Belə neqativ hallar dövlət büdcəsinə yetərincə ziyan vurur. Bilmək lazımdır ki, yenə də belə hallara səbəb olan amil vergi mədəniyyətinin və maariflənməməsinin zəif olmasıdır.

Bildiyimiz kimi ölkənin iqtisadi gücü, əsasən, dövlət büdcəsinə daxil olan vəsaitin həcmi ilə müəyyən edilir. Büdcənin formalaşmasında isə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən vergilər mühüm rol oynayır. Hər bir şəxs qazandığı gəlirdən, mənfəətdən vergi qanunvericiliyinə uyğun olaraq vergi ödəməlidir. Hər hansı bir ölkədə vergi intizamı və vergi mədəniyyəti olmayan yerdə buna nail olmaq qereyri mümkündür.

Ümumiyyətlə, vətəndaş yaşadığı dövlətin zəngin və azad olmasında maraqlı olmalıdır. Sivil ölkələrdə vətəndaşlar cəht göstərirlər ki, vergi qanunvericiliyini pozmasınlar qanunlara hörmətlə yanaşsınlar və onlara əməl etsinlər. Buradan da vergi mədəniyyəti anlayışı yaranıb. Mədəniyyət bütövlükdə cəmiyyəti xarakterizə edir və vətəndaşların bilik səviyyəsi də vergi mədəniyyətinin formalaşmasına birbaşa təsir göstərir.

Nəzərə alsaq ki, vergi ödəyiciləri ilə vergi orqanları arasında sıx əlaqələrin yaranması vergi orqanlarının fəaliyyətindən birbaşa asılıdır. Vergi orqanları ödəyicilərdə inam yaratmaq məqsədilə bu sahədə maarifləndirmə işlərinə daha çox diqqət yetirməlidirlər. Maarifləndirmə işinin aparılmasında uğurlu nəticələrə sosial video çarxları çəkməklə, kütləvi informasiya vasitələrində (KİV) və sosial şəbəkələrdə ödənilən vergilərin cəmiyyətin rifahı üçün hansı səviyyədə əhəmiyyətli olduğunu çatdırmağa çalışmaqla, sahibkarlarla mütəmadi görüşlərin keçirilməsi ilə, ödəyicilərin ödədiklərin vergilərin hansı istiqamətlərə ayrıldığını bilməsinə şərait yaratmaqla nail olmaq olar. [5]

Hər bir dövlət öz vergi sistemini ölkəsinin mövcud iqtisadi potensialına uyğun formalaşdırır. Qeyd etmək istəyirəm ki, vergi sistemi formalaşarkən beynəlxalq təcrübə də öyrənməli və ölkəmizdə tətbiqi istiqamətləri genişləndirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI

**1.**www.taxes.gov.az
**2.**www.economy.gov.az
**3.**www.cbar.az
**4.** www.e-qanun.az
**5.** www.modern.az

**Pərvin Məmmədova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, müəllim*
*p.q.memmedova@gmail.com*

# KLASTER SİYASƏTİNİN BÖLGƏLƏRİN İNKİŞAFINDAKI ROLU VƏ ƏHƏMİYYƏTİ

## *Giriş*

Hər hansı bir regional sistemin sosial-iqtisadi inkişafı onsuz da mövcud olan və yaradılan bir çox amillərlə müəyyən edilir. Bununla yanaşı, bölgədə davamlı sosial-iqtisadi inkişafa nail olmaq vəzifəsi həll olunmamış qalır. Ümumiyyətlə, bölgənin sosial-iqtisadi inkişafının prioritetləri təbii, coğrafi, tarixi, iqtisadi amillərin nəticələrində öz əksini tapmışdır, buna görə də müəyyənləşdirilmiş prioritetlər problemlərin aşkarlanmasında və aradan qaldırılmasında mühüm rol oynayır. Sosial-iqtisadi inkişaf üçün prioritetlər müəyyən edildikdən sonra effektiv hökumət tədbirlərinin həyata keçirilməsi bölgələrin sosial-iqtisadi inkişafının müsbət istiqamətdə mühüm amilinə çevrilir.

Son on ildə dövlət infrastrukturun yaxşılaşdırılması üçün səmərəli investisiya layihələri həyata keçirmiş, peşə təhsili və təliminin inkişafı, o cümlədən kənd təsərrüfatı sənayesi, maşınqayırma və logistika kimi sektorlarda klasterli inkişaf yanaşması qəbul etmişdir[Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi səh.88].

Klaster icra etdikləri funksiyalara əsasən bir-birinə yaxın olan qurumlar arasında məhsul və məlumat axını nəticəsində yaranır. Klaster anlayışı ilk dəfə M. Potter (1991) tərəfindən istifadə edilmişdir. Porterin sözlərinə görə, istehsalçıların, alıcıların, bu və ya digər sahədəki rəqiblərin qarşılıqlı əlaqəsi iqtisadi fəallıq və ixtisaslaşmanı artırır. Müəyyən bir sahədə rəqabət yeni texnologiyalara ehtiyacı artırır, lakin öz növbəsində klasterlərinin formalaşmasına səbəb olur.

Klasterlər ölkənin rəqabət qabiliyyətini artırmaq, əlaqələrin formalaşması üçün vacib amillərin qarşılıqlı əlaqəsi nəticəsində yaranır. Porter, milli rəqabət qabiliyyəti ideyalarında klaster anlayışından geniş istifadə etmişdir. [Porter, M.E. “The competitive advantage of nations”. New York 1990].

Klaster birbaşa əlaqəli kommersiya qurumlarından ibarətdir. Klaster siyasəti rəqabətli iqtisadi fəaliyyətin əsasını təşkil etməklə yanaşı əməkdaşlıq və rəqabətin birləşməsi ərazilərin ixtisaslaşmasında və ixrac imkanlarının genişlənməsində mühüm rol oynayır. Klasterlər bölgələrin dinamik inkişafı üçün şərait yaradır. Buna görə klasterdə əsaslı bölgələrin inkişafı aktualdır və böyük praktik əhəmiyyət daşıyır.

## *Klaster siyasəti və regional klasterlərin yaradılması zəruriliyi*

Klaster siyasətinin inkişafı çox vaxt diqqətdən kənarda qalsa da, bu yanaşma son illərdə bölgələrin strateji inkişafının tərkib hissəsinə çevrilmişdir. Hal-hazırda klaster siyasəti bölgə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsində çox vacib rol oynaya bilər. Bu, çoxsaylı sektorlarda idxalı əvəz edə biləcək və qlobal məhsul istehsal edə biləcək daha rəqabətli kommersiya sektorunun yaradılması baxımından çox vacibdir. Klasterin meydana gəlməsi ilə əlaqəli üç əsas amil var:

1. Coğrafi amillər. Məhsulun maya dəyərində nəqliyyat xərclərinin həcmi və regional tələbatın vəziyyəti sahibkarları müəyyən bir coğrafi ərazidə cəmləşdirməyə təşviq edir.
2. Tarixi keçmiş. Bir bölgənin cəlbediciliyi ümumiyyətlə tarixi keçmişi ilə əlaqələndirilir. Məsələn, Lənkəranın iqtisadi rayonu həmişə ecazkar təbiəti və subtropik bitkilər ənənələri ilə məşhur olmuşdur.
3. İnstitusional mühit. İnsanlar arasındakı münasibətləri tənzimləyən hüquqi, siyasi və sosial quruluşdur. İnstitusional mühit iki formada mövcuddur: rəsmi və qeyri-rəsmi. Rəsmi strukturlar konstitusiya, qanunlar, məhkəmələr və sosial-iqtisadi münasibətlər kontekstində yarana biləcək

mübahisələri tənzimləyən qurumları ehtiva edir. Qeyri-rəsmi mühit mədəni normaları, davranış qaydalarını, həmçinin sosial-iqtisadi münasibətlərdə ümumi qəbul edilmiş prosedurları əhatə edir.

İnstitusional mühitin yaxşılaşdırılması zamana, təşəbbüskarlığa və s. məsələlərə nüfuz etməklə sahibkarlığa birbaşa təsir edir, problemlərə nüfuz edir. Xüsusilə bir çox hadisələrin həyata keçirilməsinə və hüquqi dəyişikliklərə baxmayaraq, institusional quruluşdakı boşluqlar, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilə və haqsız rəqabət sahibkarlığın inkişaf tempini ləngidən əsas amillərdir.

Regional klasterlərin yaradılması iqtisadiyyatın idarə olunmasında bir çox üstünlüklərə malikdir, o cümlədən:

1. Vergi bazasının artması;
2. Region əhalisinin məşğulluğunu təmin edən sənaye klasterlərinin yaradılması,
3. Bölgədəki az gəlirli təşkilatların yenidən qurulması imkanı;
4. İnvestisiyaların tənzimlənməsi və investisiyaların səmərəliliyini qiymətləndirmək imkanı;
5. Bölgədə sahibkarlıq fəaliyyətinin inkişafı;

Ümumiyyətlə, klaster siyasəti ölkə (və ya bölgə) iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq üçün dövlət orqanları tərəfindən həyata keçirilən dövlət tənzimləmə tədbirləri planıdır, buna görə klaster siyasətinin əsas vəzifələri bunlardır:

1) Klasterlərin səmərəli təşkilati inkişafı, o cümlədən klaster üzvlərinin müəyyənləşdirilməsi, məhsulların rəqabət qabiliyyətinə təsir göstərən maneələrin aradan qaldırılması və müxtəlif inkişaf strategiyalarının hazırlanması;
2) yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, həmçinin klaster siyasətinin həyata keçirilməsi üçün ticarət əlaqələri;
3) regional və sektor səviyyəsində klaster siyasətinin həyata keçirilməsi üçün effektiv metodoloji, məlumatlandırıcı, məsləhət və təhsil dəstəyindən istifadə etmək;
4) Aşağıdakı sahələrdə inkişaf prioritetləri, iqtisadi siyasət tədbirləri nəzərə alınmaqla klaster üzvlərinin rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş layihələrə effektiv dəstək:
   - kiçik və orta sahibkarlığın inkişafına dəstək;
   - texnoloji və innovativ siyasət;
   - təhsil siyasəti;
   - İnvestisiya cəlb etmə siyasəti;
   - ixracın inkişafı siyasəti;
   - nəqliyyat və enerji infrastrukturlarının inkişafı;

Hazırda icrası davam edən "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" proqnozlaşdırıldığı kimi həyata keçirilsə, ölkə iqtisadiyyatı neftdən, investisiyalardan və biznes mühitindən daha az asılı olacaq, vətəndaşlar, xüsusən gənclər arasında kiçik biznes inkişaf edəcəkdir. Eyni zamanda ölkədə təhsil səviyyəsinin, ixtisaslı kadr sayının və vətəndaşlara göstərilən sosial xidmətlərin səviyyəsinin artıması da gözlənilir [Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərman].

Məlumdur ki, ölkəmiz əlverişli coğrafi mövqedə yerləşir və təbii sərvətlərlə zəngindir. Ancaq ölkəmizin sosial-iqtisadi inkişafını dəstəkləyən bölgələrdə kəskin fərqlər var. Belə ki, iqtisadi resuslar regionlar arasında qeyri-bərabər paylanmışdır və nəticədə regionlar arasında inkişaf səviyyəsində böyük fərqlərə səbəb olmuşdur. Xüsusən də, əsas infrastruktur sahələrinin paytaxda yerləşməsi bölgələrdən şəhərlərə əhalinin axını sürətləndirir. Qeyd olunan bu amil bölgələrin iqtisadi inkişafına mənfi təsir göstərmişdir. Bununla əlaqədar olaraq, dövlət bölgələrin sosial-iqtisadi inkişafının tənzimlənməsini vacib bir vəzifə kimi qarşıya qoymuşdur.

***Regionda klaster siyasətinin həyata keçirilmə alqoritmi***

Hazırki mərhələdə regional iqtisadi inkişafdakı fərqləri aradan qaldırmaq və iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq ölkəmiz üçün prioritet məsələdir. Klaster yanaşması kontekstində bu iki prioritet problemin həllində müsbət nəticələr əldə etmək mümkündür. Son illərdə Azərbaycan hökuməti müxtəlif regional inkişaf proqramlarını həyata keçirir, lakin statistik məlumatların təhlili

göstərir ki, bölgələrin iqtisadi inkişafa verdiyi töhfələr hələ də məhduddur. Regional baxımdan ölkəmizdə Bakı, Gəncə, Sumqayıt və Lənkəran şəhərlərini klasterlərin yaranması üçün ən əlverişli iqtisadi mərkəz hesab edilə bilərik.

Ölkələrdə dövlət dəstəyi klaster iştirakçılarının birgə layihələri üçün tenderlərin təşkili seçmə yolu ilə təmin olunur. Buna görə klaster siyasətinin nəticələri aşağıdakı kimidir:

- müxtəlif iqtisadi fəaliyyət növlərini təmin edən korporativ qurumların yeni əməkdaşlıq formalarının tətbiqi prosesini sürətləndirmək;
- təşkilatların məhsuldarlığının artması və innovativ fəaliyyət;
- kiçik və orta sahibkarlığın inkişaf intensivliyini artırmaq;
- ixrac potensialının və birbaşa investisiyaların artması;
- klaster siyasəti vasitəsilə bölgələrin sürətli sosial-iqtisadi inkişafını təmin etmək.

Bölgədə klaster siyasətinin formalaşması və həyata keçirilməsində əsas məqsəd klasterlərin inkişafını stimullaşdıran prioritetləri (bölgənin əsas inkişaf nöqtələrini nəzərə alaraq), habelə klaster layihələrinin seçiciliyini, resursların cəlb edilməsini və klaster siyasətinin nəticələrinin qiymətləndirilməsidir. Regional klaster siyasəti klasterlərin yaradılması və inkişafının bütün mərhələlərini əhatə edir. Klaster tətbiqinin ümumi alqoritmi Şəkil 1-də göstərilmişdir.




**Şəkil 1. Regionda klaster siyasətini həyata keçirmək üçün alqoritm**

**1)Klaster siyasətinin formalaşması və inkişafı üçün yüksək potensiala malik sahələrin müəyyənləşdirilməsi.**

Regional klaster siyasəti seçimi asan olmayan və klaster inkişafı üçün ən böyük potensiala malik olan sahələrə yönəlmişdir. Dünyada klaster siyasətinin getdikcə populyarlaşması ilə bir çox bölgədə innovasiya, biotexnologiya və ya informasiya texnologiyaları kimi sahələr inkişaf etdir.

Klaster bölgənin ixtisaslaşmasını təyin edir və ya bölgənin əhəmiyyətli müqayisəli üstünlüyə sahib olduğu sahələri müəyyən edərək mümkün qrupları müəyyənləşdirir.

Böyük şirkətlər, ixtisaslaşmış infrastruktur, ixtisaslaşdırılmış ali təhsil müəssisələr, peşə məktəbləri, tədqiqat institutları və s. mövcud olmadığı halda, çoxluq qrupunun yaranması üçün perspektiv yoxdur.

**Birgə layihələrin həyata keçirilməsi üçün öz-özünü maliyyələşdirmə**

Klaster siyasətinin əsasını bütün maraqlı tərəflərin qarşılıqlı əlaqəsi və komanda üzvlərinin özünü maliyyələşdirməsidir.Ümumiyyətlə, kollektiv fəaliyyətlə bağlı problem odur ki, uğursuzluq halında xərclər aparıcı şirkətin çiyninə düşür, ancaq özünü idarəetmə quruluşunda xərclər və gəlirlər iştirakçılar arasında bərabər

bölünür və təşəbbüskar müəssisə öz xərclərini ödəyir. Klaster siyasəti kiçik və orta sahibkarlıq mühitində baş verərsə, iştirakçı kifayət qədər texniki və maddi resursların olmaması səbəbindən təşkilati gecikmələr riski var. Belə bir vəziyyətdə dövlət xarici inteqrator rolunu (xüsusən avtomatik kompüter) birləşdirməlidir, müəssisələrin özünü təşkili, maraqların əlaqələndirilməsində, ümumi layihələrin hazırlanmasında və əməkdaşlığın rəsmiləşdirilməsində iştirak etməlidir.

**Birgə (çoxsaylı) layihələrin rəqabətli seçimi**

Xarici təcrübədə ən çox yayılanı ortaq qrup layihələrinin rəqabət seçimidir. Seçim prosesində nəzərə alınmalı bir neçə vacib meyar var:

- Layihələr seçərkən həm inkişaf etdirilən layihənin xüsusiyyətlərini, həm də çoxluqun mövcud istehsal, elmi və texniki potensialını nəzərə almaq lazımdır;
- Problemli şirkətləri deyil, ən yaxşı və perspektivli şirkətləri dəstəkləmək;
- İnkişaf edilmiş birgə layihələr "Pareto- effektiv " olmalıdır. Bu vəziyyət qrup üzvlərinin rəqabət qabiliyyətini artırır və bəzi iştirakçıların vəziyyətini pisləşdirir;
- Layihələr kiçik və orta müəssisələr, elmi və təhsil təşkilatları da daxil olmaqla çox təşkilatı əhatə etməlidir.
- Birgə layihələrin innovativ istiqamətili olması;

**4) Ortaq layihələrə dövlət dəstəyi**

Bəzi təşkilatlar, rifahları dövlət dəstəyindən asılı olduqda bir-biri ilə sıx işləməkdə maraqlıdırlar. Həqiqətən, aşağıdakı "ortaq layihələrə" dəstək vermək daha məqsədəuyğundur:

- Məhdudiyyətlərin aradan qaldırılmasını təmin edən qrupların səmərəli təşkilati inkişafı üçün şərait yaradan şərtlər;
- Klaster üzvlərinin rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş layihələrin effektiv dəstəklənməsi;
- Regional və sənaye səviyyəsində klaster siyasətinin həyata keçirilməsi üçün effektiv metodoloji, məlumatlandırıcı, məsləhət və təhsil dəstəyi təmin etmək;

**5) Monitorinq və qiymətləndirmə. Dəstəklənən qrupların portfelini idarə etmək**

Dövrümüzdə klaster siyasətinin inkişafına baxmayaraq, on illərdir davam edən problemlər və bu problemlərin həll edilə bilməməsi dövlət üçün yeni risklər yaradır, Buna görə də riskləri zərərsizləşdirmək üçün mütəmadi olaraq monitorinq və qiymətləndirilmə aparmalıdırlar.

**Nəticə**

Monitorinq və qiymətləndirmə ilk növbədə aşağıdakı vəzifələri həll etməlidir:

- dövlət tərəfindən maliyyələşdirilən qruplar üçün məlumat toplama yolu ilə göstərilən dəstəyin miqdarının tənzimlənməsi;
- Hər bir fəaliyyət və bölgə üçün klaster siyasətinin səmərəliliyi barədə məlumat toplanması əsasında klaster siyasətinin təkmilləşdirilməsi.

Monitorinq və qiymətləndirmə klaster siyasətini inkişaf etdirmək üçün ən dinamik inkişafa sahib qrupları seçmək və onları dəstəkləmək, təsirli vasitələr yaratmaq üçün müasir bir vasitədir.

## ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Fərman, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Bakı şəhəri, 29 yanvar 2019-cu il
2. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”, 6 dekabr 2016-ci il;
3. Mahmudov M.M., Mahmudova İ.M., “Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi”, Bakı-2011
4. Mahmudov M.M., Mahmudova İ.M., “Region iqtisadiyyatının tənzimlənməsi”, Bakı-2001;
5. Nuriyev Ə., “Regional siyasət və idarəetmənin əsasları”, Bakı -2011;
6. Əhmədov M.A.,Hüseyn A.C. “İqtisadiyyatının dövlət tənzimlənməsinin əsasları”, metodik vəsait, Bakı, 2011.

7. Porter, M.E. "The competitive advantage of nations". New York 1991, Harvard Business Review

**Мир Фарадж Абасов**
*Азербайджанский Университет туризма и менеджмента, д.ф.по полит.н.*
farik16@mail.ru

# ПРОБЛЕМЫ БЕЗОПАСНОСТИ В ЭПОХУ ЦИФРОВОЙ ЭКОНОМИКИ

**Ключевые слова**: *цифровая экономика, безопасность, малые страны, риски и угрозы развития.*

На международной политической арене, раздираемой масштабными угрозами, вызовами и рисками, в последнее время все активнее формируется новый фактор межгосударственного противостояния – цифровая экономика. В этой связи идет перегруппировка сил ее ведущих акторов, стремящихся адекватно реальности оценить ситуацию и выработать потребные ей новые технологии расширения зон своего влияния по всему миру. Строительство новой мировой политической системы вновь осваивает технологию резкой поляризации государств, стремительно сокращающую число стран сохраняющих возможность поддерживать свой нейтралитет. Мир продолжает развиваться путем перманентного роста интеграционных военно-политических и экономических блоков, совершенствуя и порождая новые образования: Европейский Союз, Евразийский Союз, БРИКС, НАФТА, ШОС и т. д. Эта общемировая тенденция, по всей видимости, будет нарастать, охватывая все новые и новые государства. Значительную роль в ускорении этой тенденции играет цифровая экономика. Ближайшей целью интеграции остается постсоветское пространство, государства которого продолжают хаотический поиск магистральной внешнеполитической ориентации в условиях неразрешенных противоречий основных внешних акторов.

Достойным отдельного внимания в этом контексте является ситуация в государствах Южного Кавказа, имеющих на своих территориях «замороженные» конфликты, определяющие в той или иной мере все многообразие внешне- и внутриполитических реалий этих стран. Пройдя череду военных столкновений, состоявшихся и несостоявшихся «цветных революций», силовой и конституционной смены власти, государства данного региона пребывают в состоянии, аналогичной ситуации старта национальной независимости. Казалось бы, за исторический промежуток длиной в четверть века были испробованы все доступные варианты внешнеполитической ориентации, способные преодолеть нестабильность, царящую в регионе.

Государства Южного Кавказа в разное время стали членами СНГ (Грузия его уже покинула); Армения вступила в экономические и военно-политические структуры под эгидой России (ЕврАзЭС, Таможенный союз, ОКДБ и т.д.); Азербайджан и Грузия вместе с Украиной и Молдовой создали ГУАМ и активно сотрудничают в трехстороннем формате с Турцией; все три страны ЮК завершили программы НАТО («Партнерство во имя мира») и ЕС («Ближнее соседство» и «Восточное партнерство»), Грузия и Армения подписали документы об ассоциированном членстве с ЕС. Государства Южного Кавказа в основном перешли на западные стандарты регулирования экономики и функционирования финансово-банковской сферы.

И все же западные наблюдатели полагают, что эти государства пока еще не совершили необходимые шаги на пути развития, как политических, так и социокультурных институтов современного демократического образования, достаточных для интеграции с Европой. Эта мысль не перестает дебатироваться и в отечественной аналитике. Важно понять, откуда идут импульсы, формирующие такую точку зрения, поскольку все постсоветские государства, несмотря на их существенные различия, оказались примерно в одинаковой ситуации. В этой связи, вероятно, необходимо задастся вопросом об

адекватности применяемой методологии исследований актуальным политическим процессам. Вполне вероятно, что ее нарастающая неадекватность начинает препятствовать такому анализу.

О новом понимании политики и ее процессах написано немало: традиционный подход должен быть дополнен концептами риска и вызовов, возникающих в условиях принципиальной неопределенности; место причинно-следственных моделей должна занять новая методология многообразия вероятностных сценариев, фундируемых постнеклассическими, постмодернистскими подходами, исследующими нелинейные процессы с точками бифуркации и последующей неопределенностью нового состояния политических систем. Современный политологический анализ требует необходимости учета максимально большего числа внешних факторов, так или иначе влияющих на процессы. Особенно тех из них, которые в условиях глобализации позволяют внешним силам трансформировать внутриполитические процессы в государствах, не сделавших окончательный выбор внешнеполитической ориентации. В странах Южного Кавказа это направление находится в зачаточном состоянии, хотя все эти государства в свое время, да и сейчас, подвергаются нетрадиционному воздействию, трансформирующему их институты и организации.

В этой связи весьма интересны представленные С. Чернявским основные приоритеты стратегии России в отношении государств Южного Кавказа:

- обеспечение национальной безопасности, нахождение адекватных ответов на новые угрозы и вызовы;
- недопущение создания на Кавказе альтернативных систем безопасности без участия России;
- противодействие попыткам закрепления военного присутствия третьих стран;
- сохранение и усиление экономической привязки стран Южного Кавказа к России, расширение позиций российского капитала в ключевых отраслях их экономики, обеспечение доступа к сырьевым, материальным и интеллектуальным ресурсам (*Чернявский С. Политика России на Южном Кавказе*).

Проблема вступления государств ЮК в единое политическое и экономическое пространства все еще не решена, окончательный выбор ими в альтернативе ЕС – ЕврАзЭС откладывается, хотя и на весьма ограниченный срок. В этих условиях, естественно, запаздывает складывание стабильной геополитической ситуации, способствующей формированию действенной концепции национальной безопасности, как региона Южного Кавказа, так и отдельных государств, входящих в него.

Складывающиеся риски и угрозы национальной безопасности рассмотрим в контексте цифровой экономики. Термин «цифровая экономика», введенный в употребление в 1995 г. Н. Негропонте, сегодня используется во всем мире, ООН посвящает ей свои ежегодные отчеты, последний из которых охватывает ситуацию 2019 года. Это связано с тем, что пришло осознание того факта, что сегодняшний рост ВВП стран мира во многом зависит от развития цифровой экономики. Как отмечают специалисты этой области: «В ближайшее десятилетие 70% новых ценностей в экономике будет создаваться именно на базе цифровых платформ» (*Аллахвердиев Ф. Цифровая экономика: Возможности, открывающиеся перед Азербайджаном*).

Что же понимается под термином цифровая экономика? Реальная экономика представляет собой систему производства, распределения, обмена и потребления. Цифровую же экономику считают «виртуальной средой, дополняющей реальность» (*Цифровая экономика: как специалисты понимают этот термин*), однако «раньше виртуальная часть мира, которая располагалась в мыслительной реальности человека, не была производительной силой, не была той средой, где создаются новые продукты». «Теперь виртуальная часть совмещена с реальной: можно создать «основанный на реальных событиях» мир, который сам же будет «экономикой в экономике». Этот новый мир важен «для испытания, совершенствования, апробирования новых продуктов» в виртуальной среде, что затем без существенных потерь можно использовать в мире реальном, вписать

«в систему производства, распределения, обмена и потребления» (*Цифровая экономика: как специалисты понимают этот термин*).

Противоречия заключаются в том, что цифровая экономика порождает множество политических и социальных проблем. Как отмечает Генеральный секретарь ООН А. Гутерриш: «В небывало короткие сроки прогресс в цифровых технологиях привел к созданию колоссального богатства, сосредоточенного, однако, у небольшой группы лиц, компаний и стран» (*Доклад о цифровой экономике 2019. Создание стоимости и получение выгод: последствия для развивающихся стран. Обзор. ООН Женева, 2019 год*), что ведет к увеличению неравенства.

В Докладе о цифровой экономике 2019, подготовленном ООН, отмечается, что сегодня размер этой новой экономики «составляет, по оценкам, от 4,5 до 15,5% мирового ВВП. Почти 40% добавленной стоимости, создаваемой в мировом секторе информационно-коммуникационных технологий (ИКТ), приходятся на Соединенные Штаты и Китай… Число занятых в секторе ИКТ в мире выросло с 34 млн. человек в 2010 году до 39 млн. человек в 2015 году, при этом наибольший процент занятых (38%) работает в сфере компьютерных услуг. За этот же период доля сектора ИКТ в общей занятости увеличилась с 1,8 до 2%. В 2018 году объем экспорта услуг, предоставляемых с использованием цифровых технологий, достиг 2,9 трлн. долл. США, что составляло 50% мирового экспорта услуг» (*Доклад о цифровой экономике 2019. Создание стоимости и получение выгод: последствия для развивающихся стран. Обзор. ООН Женева, 2019 год*).

Таким образом, цифровые данные превращаются в новый экономический ресурс, необходимый для создания стоимости и получения выгод, а контроль в области данных позволяет превращать их в «цифровой интеллект». Сбор, хранение, анализ и преобразование данных становится фактором усиления влияния на рынке, создавая конкурентные преимущества. Поскольку данные лежат в основе всех развивающихся цифровых технологий и в значительной мере контролируются лишь несколькими глобальными платформами, в глобальной «цепочке создания стоимости данных» развивающиеся страны могут оказаться в зависимом положении, превращаясь лишь в поставщиков необработанных данных для таких цифровых платформ. В качестве снижения такой зависимости предлагается развивать такие цифровые продукты, которые «с трудом поддаются копированию в других местах, которые необходимы на местном уровне и которые можно транспортировать или воспроизводить в определенном месте при относительно низких затратах» (*Доклад о цифровой экономике 2019. Создание стоимости и получение выгод: последствия для развивающихся стран. Обзор. ООН Женева, 2019 год*).

Как видно, внедрение цифровой экономики, как и любая другая новация, порождает множество социальных, экономических и политических проблем. Рассмотрим основные риски и угрозы, формируемы цифровой экономикой.

Прежде всего отметим, что как и в случае глобализации, основные противоречия складываются между ценностями, интересами и установками национального и глобального уровня. Решение этих противоречий в пользу малых государств затруднено из-за несимметричного распределения в мире ресурсов, власти, права принятия решений, сосредотачивающихся в руках мировых держав и транснациональных корпораций. Более того, в самих развитых странах под воздействием процессов цифровой экономики складываются опасные тенденции в социальной сфере, затрагивающие жизненные интересы среднего класса – опоры западных стран. Так, основатель Всемирного Экономического Форума Клаус Шваб пишет, что в новых условиях хорошее образование из-за своей дороговизны становится предметом роскоши, добавляя: «за последние два десятка лет традиционно четыре атрибута статуса среднего класса (образование, здравоохранение, пенсия и жилье в собственности) не поспевают за темпами инфляции» (Шваб Клаус. Четвертая промышленная революция. 2019: 153). Такая тенденция способна негативно повлиять на основные демократические институты западного общества. «Рыночная экономика, действующая по принципу «победитель получает все», к которой средний класс

имеет все более ограниченный доступ, может подорвать демократичность в устройстве общества и привести к нарушениям, чреватым многосторонними социальными проблемами» (Шваб Клаус. Четвертая промышленная революция: 153-154).

Современный капитализм не привел к уничтожению патриархального общества: «По данным Всемирного экономического Форума, при сохранении нынешних темпов женские зарплаты сравняются с мужскими через 170 лет» (Филд Джейкоб. Есть ли будущее у капитализма? Введение в XXI век. 2019: с. 131).

Кроме того, цифровые технологии ведут к сворачиванию целого ряда профессий, порождая угрозу безработицы и изменяя сложившуюся стратификацию общества. Они открывают новые горизонты для международного терроризма за счет процедур кибервойны, тем самым меняя природу конфликтов, специфику их протекания характер безопасности и мер ее защиты.

Очевидно, что одним из факторов, подрывающих безопасность государств и стабильность их функционирования, становится масштабная миграция, охватившая почти все западные страны. В ходе этого нескончаемого процесса осуществляется перманентная трансформация личной, этнической, национальной, семейной и гендерной идентичности.

Но изменения этим не исчерпываются, поскольку современные цифровые медиа совершенно новыми путями выстраивают связи «человек – человек» и «человек – общество», разрушая традиционнее отношения, складывавшиеся веками.

Человеку все труднее развести между собой реальность и виртуальность, поскольку и та, и другая искусственно формируется и подается в качестве инструмента манипуляции. Все труднее становится человеку сохранить индивидуальность в мире массовой культуры, как из-за постоянной подключенности к цифровым технологиям, так и из-за манипулирования общественной и частной информацией.

Современные мыслители все чаще задумываются над вопросами – что несет с собой цифровая экономика: новый культурный ренессанс или варварство? Куда ведут человечество кибернетические технологии имплантации?

Некоторые из этих мыслителей полагают, что неравенство ведет к образованию олигархии, подавляющей любые попытки изменений, пытаясь сохранить столь благоприятную для себя систему.

В этих условиях определение основных рисков и угроз малым странам со стороны процессов цифровой экономики, выработка технологий их прогнозирования и преодоления – актуальная задача современности.

**Литература**:

1. Аллахвердиев Фуад. Цифровая экономика: Возможности, открывающиеся перед Азербайджаном - https://1news.az/news/cifrovaya-ekonomika-vozmozhnosti-otkryvayuschiesya-pered-azerbaydzhanom

2. Доклад о цифровой экономике 2019. Создание стоимости и получение выгод: последствия для развивающихся стран. Обзор. ООН Женева, 2019 год - https://unctad.org/en/PublicationsLibrary/der2019_overview_ru.pdf

3. Филд Джейкоб. Есть ли будущее у капитализма? Введение в XXI век – М., Ад Маргинем Пресс,2019, - 144 с.

4. Чернявский Станислав. Политика России на Южном Кавказе - http://www.mgimo.ru/users/document67922.phtml

5. Шваб Клаус. Четвертая промышленная революция. М., Эксмо, 2019 – 288 с.

6. Цифровая экономика: как специалисты понимают этот термин - https://ria.ru/20170616/1496663946.html

**MirFərəc Əli oğlu Abasov**

# RƏQƏMSAL İQTİSADİYYATIN TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

**Xülasə**

Dövrümüzün geniş miqyaslı təhdidləri, çağırışları və riskləri ilə bürünmüş beynəlxalq siyasi arenada son vaxtlar dövlətlərarası qarşıdurmanın yeni bir amili - rəqəmsal iqtisadiyyat getdikcə daha fəal formalaşmaqdadır. Bu baxımdan, vəziyyətin reallığını lazımi dərəcədə qiymətləndirməyə və dünyada təsir sahələrini genişləndirmək üçün ehtiyac duyduğu yeni texnologiyaları inkişaf etdirməyə çalışan aparıcı aktorlarının qüvvələrinin yenidən qruplaşması mövcuddur. Yeni bir dünya siyasi sisteminin qurulması, neytrallığını qoruma qabiliyyətini saxlayan ölkələrin sayını sürətlə azaldan dövlətlərin kəskin qütbləşmə texnologiyasını bir daha mənimsəyir.

Rəqəmsal iqtisadiyyatın tətbiqi, hər hansı digər yenilik kimi, bir çox sosial, iqtisadi və siyasi problemləri qaldırır. Məqalədə rəqəmsal iqtisadiyyatın yaratdığı əsas risk və təhdidlər nəzərdən keçirilir.

**Açar sözlər**: *rəqəmsal iqtisadiyyat, təhlükəsizlik, kiçik ölkələr, inkişaf riskləri və təhdidləri.*

**Asəf Kazımov**
*Azərbaycan Universiteti,*
*doktorant*
*asaf.kazimov@au.edu.az*

# MÜƏSSİSƏLƏRDƏ İNSAN RESURSLARI MENECMENTİNİN KOMPETENSİYALARI VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *insan resursları, kadr potensialı, kompetensiya, performans qiymətləndirilmə, işgüzar mühit.*

***Giriş***

Müəssisələrin idarə edilməsində insan resurslarının idarə edilməsi anlayışının iqtisadi kateqoriya kimi formalaşması prosesi tarixi inkişaf yolu keçmişdir ki, bu gün də ayrıca olaraq hər bir istiqamət üzrə komponent təhlil edilir və öyrənilir. Real günümüzdə isə iş yerində hər bir nailiyyətə bağlı olan addım insan resursunun birbaşa davranışı kompetensiyalar ilə ölçülür və tədqiq olunur. Kompetensiya latın sözü (“competentia”) olub “mühakimə etməyə səlahiyyətli”, eləcə də “danışmağa hüququ olmaq” mənasını verir. Kompetensiyalar–əməkdaşın öz iş öhdəliklərini vəzifə təlimatına uyğun həyata keçirə bilmələri üçün lazım olan təcrübə, bilik və bacarıqların məcmusudur. İş mühiti vəzifə öhdəliklərini, bilik vətəcrübəyə olan tələbatları, icra standartlarını, uğur kriteriyalarını, davranış nümunələrini, əməliyyatların yerinə yetirililməsi bacarıqlarını formalaşdırır. Professional kompetensiya eyni zamanda–iş tələblərinə uyğunolaraq işi yerinə yetirmək üçün peşə fəaliyyəti subyektinin qabiliyyətidir. Professional kompetensiyalara korporativ ruh, təşkilatdaxili mədəniyyət, şəxsi keyfiyyətlər, iş fəaliyyətinə qoyulan tələblər, kadrların inkişafının təmin edilməsi şərtləri birbaşa təsir göstərir. Əsas kompetensiyalar öz imkanlarının həyata keçirilməsində və inkişafında, fəal vətəndaşlığında, social fəallığında, ümumiyyətlə, əmək məşğuliyyətində hər bir insana vacib olan kompetensiyalar əsas kompetensiyalar hesab olunur. Peşəkar kompetensiya–professional fəaliyyət subyektinin gördüyüişin vəzifə öhdəliklərinə uyğun yerinə yetirə bilməsi bacarığıdır. Müasir dövrə işgüzar həyatda işçilərə qoyulan tələblər gündən-günə artır. Buna görə də hər bir insan uğurlu fəaliyyəti təmin etmək üçün daima öz üzərində işləməlidir. Kompetensiya anlayışı dəqiqi anlayış olmaqla yanaşı eyni zamanda müəyyən mücərrəd məna kəsb edir. Mücərrədlik dəyişən gözləntilərə uyğun çevik adaptasiya olmağı bacarmaqdan irəli gəlir. Buna görədə kompetensiyaların zamanla dəyişməsi məqsədə uyğundur. [İsmayılov Ç, Abdullayev Ə, Qurbanova G . 2018 : 252]

## 1. Kadr potensialının gücləndirilməsində kompetensiyaların rolu

Müəssisədə insan resurslarının məqsəd yönlü peşəkar inkişafı, mövcud və ya əldə edilən məlumatların bütövlüyü, dəqiqliyi və aktuallığından asılıdır. Eyni zamanda müəssisədə əməkdaşların potensial inkişafını təmin edən qaydaların təkmilləşdirilməsi şəraitində heyətin idarə olunması həyata keçirilir. İşçinin idarəetmə ixtisasının yüksəldilməsi əsasında peşəkar kompetensiyalar durur, onlar da zəngin bilik, sosial və şəxsi səriştə ilə fəaliyyət prosesində təkmilləşir. Müəssisədə peşəkar idarəetmə işçisini digərlərindən fərqləndirən amillər bunlardır:

1. İdarəetmə heyətinin üzvü bütün sahələrə dair biliklərə malik olmalıdır;
2. Başqalarından fərqli olaraq o daha yüksək bacarığa malik olmalıdır;
3. Müəssisə fəaliyyəti ilə bağlı geniş təcrübəyə malik olmalıdır;
4. Bütün hallarda öz davranışı ilə başqalarına nümunə olmalıdır;
5. Ən müasir idarəetmə üsullarını tətbiq etmək bacarığını göstərməlidir;

İdarəetmə heyəti üzvünün səriştəliliyinin başlıca keyfiyyətləri isə aşağıdakılardır:

1. Sosial inkişaf istiqamətlərini əsaslandırmaq;
2. Konstruktiv dəlillərlə sosial şəraitin mahiyyətini işçilərə inandırıcı surətdə izah etmək;
3. Komunikativlik qabiliyyəti olan müxtəlif səlahiyyətli işçilərlə eyni münasibətdə olmaq;

4. İdarəetmə heyətinin hər bir üzvünün işdə özünə reaı qiymət verməklə və tabeliyində olanlarla qarşılıqlı inam şəraitində işləmək.

Müəssisəyə təzə gəlmiş işçi əldə edilmiş müəyyən təcrübəyə, biliklərə, baxışlara malik olsa da həmin funksiyalar təşkilatın fəaliyyət normasına bəzən tam surətdə uyğunluc təşkil etmir. İşçinin yeni iş yerində gözlədiyinin həmişə reallıqla üst-üstə düşmədiyi şəraitdə işçiyə bir neçə müddət adətetmə və uyğunlaşma lazımdır. Bunun nəticəsi olaraq təşkilatın ondan nə istədiyini işçi yaxşı başa düşməli, rəhbərlik isə işçinin nəyə can atdığını və məqsədlərinin nə ilə bağlı olduğunu dəqiq bilməlidir. İşçinin adaptasiya prosesinin az zərərli olması üçür müxtəlif fəndlər və üsullardan istifadə etmək olar. Ona görə şəxs haqqında həqiqi, məqsədəuyğun məlumatlar əldə etmək hər şeydən əvvəl əməyin ödənilməsi dərəcəsi haqqında, həmkarın işə və idarəetmə heyətinə münasibəti bütün mərhələlər üzrə ciddi surətdə düşünülmüş idarəolunma qərarları çevik surətdə tənzimlənməlidir. [İsgəndərov R. 2003: 404 ]

Məlum olduğu kimi, iqtisadi ədəbiyyatlara istinadən kompetensiyaları aşağıdakı 3 kateqoriya üzrə sistemləşdirmək olar:

1. Korporativ – təşkilatın missiya və dəyərlərini özündə cəmləşdirən və bütün vəzifələrə aid edilən kompetensiyalar.
2. İdarəetmə – bütün idarəetmə səviyyələrində vəzifələrə tətbiq edilən kompetensiyalar. Bu kompetensiyalar rəhbərlərin qiymətləndirilməsi üçün istifadə edilir.
3. Xüsusi – müxtəlif departamentlərin müəyyən qrup vəzifələrinə tətbiq edilən kompetensiyalar.




**Şəkil 1. Kompetensiyaların təhlili**

Bütün vəzifələrdə vacib hesab edilən kompetensiyalardan biri nizam-intizam qaydaları və onlara riayət olunmasıdır. Nizam-intizam həmişə bütün uğurların başlanğıcı hesab edilib. Hərtərəfli inkişafa da nizamintizam olan yerdə nail olmaq mümkündür. Harada nizam-intizam varsa, mütləq orada ağıl və düşüncə, vəzifə və vətəndaşlıq borcuna məsuliyyət hissi var. Odur ki, insanda intizam qaydalarına əməl etmək kimi müsbətbir kompetensiyanın (keyfiyyətin) formalaşması həmişə onu xoşbəxtliyə aparıb. Cəmiyyətdə insanların əsas göstəricilərindən biri yüksək davranış normalarına riayət və mənəvi dəyərlərə hörmət etmələridir. Nizam-intizam deyəndə ilk olaraq ağıla cəza və ya dəyənək gəlir. Amma nizam-intizam bir mənada nizamı təmin edən qaydalardır. Nizam-intizam fərdlərin mənsub olduğu toplumun ümumi düşüncə və davranış qaydalarına riayətini təmin etmək məqsədilə qəbul edilən qayda-qanunlar toplusu kimi dəyərləndirir. Nizam-intizam hər bir kəsin tutduğu vəzifədən, çalışdığı sahədən asılı olmayaraq, daşıdığı məsuliyyət hissinin əsas göstəricisidir. Nizam-intizam qaydalarına aşağıdakı vacib kateqoriyaları aid edə bilərik:

- Əmək və icra intizamına əməl etmə;
- İş vaxtından səmərəli istifadə;
- Məsuliyyət;
- Yaradıcı və vicdanlı yanaşma;
- Kollektiv dəyərlərə hörmət;
- Ümumi maraqların təmin edilməsi;
- Şəxsi gigiyena;
- Səliqəli, klassik geyim;
- Kosmetik vasitələrdən istifadə;
- Zinət əşyalarından istifadə;

- Qadınlar üçün geyim limitləri;
- Saç düzümü;
- İcazələr.

Davranış və nizam-intizam prinsipləri aşağıdakılardır:

- Humanizm;
- Ədalətlilik;
- Şəffaflıq;
- Qərəzsizlik;
- Cavabdehlik;
- Təşəbbüskarlıq.

Təlim-tədris (təlimlər, seminarlar, distansion təhsil, kouçinq və s.) adətən əməkdaşlarda texniki bacarıqların olmaması səbəbindən həyata keçirilir. Buna görə də təlim-tədris hər zaman, tapşırıqların yerinə yetirilməsi və işdə nəzərdə tutulan nəticəyə çatmaq üçün kompetensiyalara istiqamətlənir. Bundan əlavə təlim-tədris, konkret məqsədə çatmaq üçün texniki kompetensiyalara aid edilir. Professional kompetensiyaların formalaşdırılması konkret vəziyyət, dəyərlər, bacarıq və biliklər ilə müxtəlif təlim-tədris metodlarının uyğun tətbiqinin nəticəsidir. Dar məna daşıyan "texniki təhsil" tam olaraq kompetensiyaya yox, onun ayrı-ayrı hissələrinə aid edilir. [İsmayılov Ç, Abdullayev Ə, Qurbanova G. 2018 : 133]

## 2. Kadr potensialının gücləndirilməsində kompetensiyaların əhəmiyyəti

Aparılan təhlilləri nəzərə almaqla müəssisələrdə menecerlər üçün lazım olan kompetensiyalara isə aşağıdakıları aid etmək olar:

- Verbal və qeyri-verbal kommunikasiya,
- Vaxtın idarəedilməsi,
- Stresin idarəedilməsi,
- Qərarların qəbul edilməsi,
- Problemlərin həlli yollarının tapılması,
- Başqalarını stimullaşdıra bilmək,
- Vəzifələrin bölgüsü,
- Məqsədlərin qoyulması və gələcəyi görə bilmək,
- Şəxsi analiz,
- Komanda yarada bilmək,
- Konflikt vəziyyətlərinin idarəedilməsi.

Peşəkar kompetensiyaların təhlil edilməsi mərhələləri sxemdə göstərilmişdir. Kadr potensialının gücləndirilməsi işi kifayət qədər zəhmət və məsuliyyət tələb edir. Bu baxımdan hansı kompetensiyaların tələb olunması əməkdaşın gördüyü işin xüsusiyyətindən və növündən bilavasitə asılıdır. [İsmayılov Ç, Abdullayev Ə, Qurbanova G. 2018: 134]

Digər bir yanaşma isə qrup işində yüksək kompetensiyanın və uyğunlaşmanın təmin edilə bilməsi fərdi keyfiyyətə, qrup keyfiyyətinə və rəhbərlik keyfiyyətinə bağlıdır.Qrup çalışması üçün əhəmiyyət kəsb edən digər bir mövzu isə "komanda" sözü ilə "qrup (dəstə)" sözünün qarışdırılmamasıdır. Çünki bu iki sözün mənaları arasında böyük fərqliliklər vardır. Bir qrup içində; fərdlər arasında güvən tam olaraq yoxdur və rəqabət vardır, vəzifə tərifiylə məhdud rəftar və münasibətlər müşahidə edilər, hədəflər, reallaşdırıla bilməyəcək qədər yüksək qoyulduğu üçün məqsədə nail oluna bilməz və qrup üzvləri mövcud mühitdən məmnun deyillər. Amma komanda işində; rol və məsuliyyətlər açıqdır, açıqlıq, dürüstlük və güvən duyğusu hakimdir, açıq və həyəcan verən məqsədlər söz mövzusudur və üzvlər, o qrupun üzvü olmaqdan məmnundurlar. [Həmidov H, Əliyev M., 2013: 254]

Eyni zamanda qeyd etmək zəruridir ki, Hay Qrupun (2003). təklif etdiyi modelə görə səriştəlikləri bir neçə səviyyəyə ayırmaq mümkündür.




**Şəkil 2. Hay Qrupun (2003) təklif etdiyi modelə görə kompetensiyaların səviyyələri**

Biliklər işçinin hər hansı bir istiqamət üzrə məlumatlı olub-olmamasını göstərir, nümunə olaraq kompüter biliklərini göstərmək olar. Bacarıqlar işçinin hər hansı bir fəaliyyəti edib-etməməsi ilə əlaqədardır, nümunə olaraq ünsiyyət və ya komanda ilə işləmək bacarıqlarını göstərmək olar. Sosial rol işçinin digər insanlarla münasibətdə mövqeyini göstərir, nümunə olaraq lider rolu. Özünə yanaşma isə bir işçinin özünə olan baxışını və yanaşmasını əks etdirir, nümunə olaraq özünü hər hansı bir sahənin mütəxəssisi kimi qəbul etməyi göstərmək olar. Dəyərlər bizim insanın təsvir etmək üçün istifadə etdiyimiz xüsusiyyətlərdir, nümunə olaraq biz insanı təsvir edərkən məsuliyyətlidir, nəticəyəyönümlüdür kimi ifadələrdən istifadə edirik. Motivlər işçinin davranışına təsir edən və onun şüuraltında mövcud olan düşüncələridir, nümunə olaraq işi ən yüksək keyfiyyətdə görmək istəyi və ya digərlərindən daha yüksək nəticə sərgiləməyi göstərmək mümkündür. [Əsgər M., 2017: 121-122]

## Nəticə

Aparılan təhlilləri nəzərə alaq müəssisələrin idarə edilməsi zamanı insan resurslarına bağlı olan və insan resurslarının inkişafını özündə əks etdirən kompetensiyaların xarakterik olaraq üstünlüklərini aşağıda qeyd olunan formalarda təsdiq etmək olar. Bu üstünlüklər:

1. Ortaq baxışın formalaşması.

Şirkətdə bütün işçilərin səriştə haqqında oxşar yanaşmasını formalaşdıra bilər. Nümunə olaraq, ünsiyyət üzrə səriştəliklərin təsviri nəticəsində şirkətdəki bütün işçilərin onunla bağlı yanaşmaları eynilə bilər.

2. İşə qəbul və yerləşdirmə prosesində şəffaflığın artırılması.

Verilmiş qərarlar namizədin əvvəlki fəaliyyəti üzrə sərgilədiyi səriştəliklərə əsaslanır. Daha sonradan bu məlumat şirkətin səriştəliklər üzrə tələbləri ilə müqayisə edilir.

3. Davranışların daha hədəfli və məqsədyönlü inkişafının təmin edilməsi.

Zəruri davranışlar aydın şəkildə ifadə edildiyindən onların cari vəziyyəti və gələcəkdə tələb olunan inkişaf səviyyəsi ilə bağlı "əks əlaqə" yaratmaq daha rahat olur.

4. Performansın qiymətləndirilməsinin dəstəklənməsi.

Performansın qiymətləndirilməsi zamanı səriştəliklər üzrə qiymətləndirmə aparılır və əldə edilmiş məlumat əsasında davamçıların yetişdirilməsi prosesinin istiqamətlənməsi həyata keçirilir.

5. Karyera xəritəsinin inkişaf etdirilməsi.

Bir neçə pozisiyalar üzrə oxşar və ya eyni səriştəliklərin tələb edilməsi işçilərə onlara sahib olduqları zaman bu vəzifələr üzrə karyera dəyişikliyi etmək üçün imkanlar yaradır. Bu isə karyera xəritəsinin təkmilləşdirilməsinə səbəb olur.[ Əsgər M., 2017: 124]

Aparılan təhlillərə əsasən, qeyd etmək olar ki, müəssisələrdə kadr hazırlığı prosesində insan resurslarının kompetensiyaları müəssisənin inkişafı üçün əsas səbəblərdən birinə çevrilməsi və bu istiqamətlərdə davamlı təkmilləşdirmələrə zərurət yaratmaqdadır.

## Ədəbiyyat

**Əsgər M**. "İnsan resursları menecmenti". Bakı 2017. 292 səh.

**Həmidov H,  Əliyev M.** "Biznesdə insan resurslarının idarə edilməsi". Bakı 2013. 532 səh.
**İsgəndərov R.** "Heyətin idarə edilməsi". Bakı,  2003, 404 səh.
**İsmayılov Ç, Abdullayev Ə, Qurbanova G . və başqaları. "**Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli." Bakı 2018. 252 səh.

**Nahid Almasov**
*Azərbaycan Neft və Sənaye Universiteti, doktorant*
*nahid.almasov@mail.ru*

# TİKİNTİ SƏNAYESİNİN İNKİŞAFINA ÖZƏL TİKİNTİ-İNVESTİSİYA ƏMƏKDAŞLIĞININ CƏLB EDİLMƏSİ

**Açar sözlər:** tikinti, şirkət, struktur, formalaşma, tikinti-investisiya şirkətləri, cəlb edilmə.

**Giriş.**

Müvcud şəraitdə regionların iqtisadi sərbəstliyinin yüksəldilməsi tikinti komplekslərinin idarəedilməsinin yeni prinsipial mexanizminin işlənilməsini şərtləndirir. Tikinti komplekslərinin prinsipial idarəetmə mexanizmi bilavasitə tikinti müəssisələrinin səmərəli fəaliyyətini təmin etməklə tikinti komplekslərinin strukturunun yeniləşdirilməsini, onun təşkilati quruluşu və idarəetmə strukturunun transformasiyasını, əsas istehsal fondlarının bərpasını, təsərrüfat subyektlərinin bir-biri arasında qarşılıqlı əlaqənin qurulmasını prinsipial şəkildə yeni iqtisadi münasibətlərin formalaşması ilə şərtləndirir. Tikinti şirkətlərinin iqtisadi mexanizmi bir tərəfdən gəlir əldə edilməsi şəraitini yaradan daxili əlaqələri, digər tərəfdən müəssisə daxilində istehsal şəraitinin inkişaf etdirilmə istiqamətini təmin edir. Müəssisələrin iqtisadi mexanizmi mürəkkəb quruluşa malik olur və onun təşkiledici elemetlərinə resursların (kapitalın) bölüşdürülməsi və formalaşması; əsas fondaların idarə edilməsi; dövriyyə fondlarının idarə edilməsi; əmək resurslarının idarə edilməsi; xərclərin idarə edilməsi; maliyyənin idarə edilməsi; motivasiya və bazarla qarşılıqlı əlaqə mexanizmləri daxildir. Daxili iqtisadi mexanizmin strukturu təşkilati-texniki sistem və onun bütün bölmələrlə əlaqəsi, bölmələrin fəaliyyətinin planlaşdırılması, onların fəaliyyətinə nəzarət və qiymətləndirilmə sistemləri, bölmələrin material cavabdehliyinin yaradılması və fəaliyyətin motivasiya mexanizmləri vasitəsi ilə müəyyən edilir.

**Tədqiqat üzrə mövcud ədəbiyyatların təhlili**

Tikinti müəsisələri material istehsalı və bazarın sərbəst subyekti olan hüquqi şəxs hüququna malikdir və texnoloji, sosial və iqtisadi münasibətlərin sərbəst birgə sistemi olmaqla tikinti məhsulları istehsal edən təsərrüfat vahididir. Təsərrüfat subyekti kimi tikinti təşkilatlarına sənaye və texniki birliklər, təşkilati-inzibati və iqtisadi müstəqilliyi olan subyektlər aid edilir (Eynullayev, 2001:322).

Müasir şəraitdə tikinti təşkilatlarının normal fəaliyyətini təmin etmək üçün onların tərkibində əsas istehsal (tikinti-quraşdırma işlərini yerinə yetirən), köməkçi istehsal (yarım fabrikattların hazırlanması) və əsas tikinti istehsalına xidmət göstərən (nəqliyyat, təchizat bölmələri və s.) bölmələr olmalıdır. Tikinti təşkilatının strukturu iki əsas amillə müəyyənləşdirirlir və o, texniki-iqtisadi konyuktur, elmi-texniki tərəqqi və sisial-iqtisadi proseslərin təsiri ilə daimi korrektirovka edilir:

-tikinti təşkilatının ölçüsünə görə;

-sahə və texnoloji ixtisaslaşmaya görə.

Tikinti təşkilatlarının bütün struktur bölmələri idarəetmə sistemi vasitəsilə öz aralarında əlaqələndirilir ki, bu da onun əsas orqanı hesab edilir. Tikinti-quraşdırma idarəsi (TQİ) və tikinti işlərinin idarə rəisi (İİR) bilavasitə bina və qurğuların tikintisinin gedişatında resursları istifadə etməklə investisiya layihələrinin və ya onların ayrı-ayrı hissələrinin realizasiyası ilə məşğul olurlar. Tikinti təşkilatının yeni təşkilat quruluşunu seçdikdə, onun idarəetmə aparatını formalaşdırdıqda

təşkilatın qarşısında duran vəzifəni və işin yerinə yetirilmə şərtlərini dəqiq müəyyənləşdirmək lazımdır. Administrativ-təsərrüfat xərclərinin azalmasına tikinti müddətinin azaldılması, əmək məhsuldarlığının artırılması, tikintinin konsentrasiyası, tikinti təşkilatlarının təşkilati strukturunun yaxşılaşdırılması (yeniləşmə və ixtisaslaşma, tikinti istehsalının idarə edilməsində lazımsız əlaqələrin aradan qaldırılması), tikintidə uçot və hesablaşma sisteminin sadələşdirilməsi və s. əsas amillər səbəb olur (Qolubova, 1989: 180).

Bazar iqtisadiyyatı təşkilatların, o cümlədən tikinti kompleksi təşkilatlarının istehsal fəaliyyətinin yaxşılaşdırılması ilə birbaşa əlaqəlidir. Bazardakı dəyişikliklərlə əlaqəli problemlər tikinti təşkilatlarının idarə edilməsinin təkmilləşdirilməsində xüsusi aktuallıq kəsb edir və bu da yeni təşkilati quruluşa keçilməsini tələb edir. Xarici təcrübədən göründüyü kimi, tikinti firmalarının təşkilati quruluşu, istehsal prosesinin səmərəliliyinə və əlverişli nəticəsinə nail olmaq üçün daim təhlil olunan və şüurlu şəkildə dəyişdirilən çox çevik bir elementdir.

Ümumilikdə, investisiya və tikinti kompleksinin (İSK) inkişafı təşkilatlar arasındakı daxili qarşılıqlı münasibətlər sistemində əhəmiyyətli dəyişiklikləri müəyyənləşdirir. İSK-nın texnoloji səviyyəsinin artması, tikinti və tikinti istehsalının yüksək konsentrasiyası tikinti təşkilatlarını yeni təşkilati strukturda fəaliyyətə qərar qəbul etməyə şərtləndirir. Məlumdur ki, hazırda tikinti kompleksinin bir çox təşkilat və müəssisələri bazar münasibətlərini uğurla mənimsəmək və işin səmərəliliyini artırmaq, tikintinin təşkilati-texniki səviyyəsi və keyfiyyətini artırmaq üçün müxtəlif yollar araşdırır və tapırlar. Tikinti təşkilatlarının funksiyalarının yerinə yetirilməsi özündə müxtəlif məsələlərin həllindən ibarətdir və onların aşağıdakı mərhələlərə ayrılması məqsədəuyğundur:

-təşkilati strukturun formalaşması və korrektirovkası;

-təşkilati strukturun bölmələri arasında qarşılıqlı əlaqənin yaradılması;

-nəzarət və onların fəaliyyətinin tənzimləməsi yolu ilə təşkilatın və bölmələrinin daxilində bölmələr və işçi heyət arasında qarşılıqlı əlaqələrin təmin edilməsi (Lıtkina, 2007: 171).

Tikinti təşkilatlarının inkişaf etdirilməsində dövlət-özəl tərəfdaşlığının xüsusi əhəmiyyəti danılmazdır. Tikintidə dövlət-özəl tərəfdaşlığı (DÖT) layihələrinin tədqatçıları L. Tang, Q. Shen və s. əldə etdiyi nəticələr əsasında gələcək tədqiqatların bu istiqamətdə aparılmasının zəruriliyini təklif etmişlər (Tang, 2010: 683-694).

P. Bloomfield tədqiqatlarından belə bir nəticəyə gəlmişdir ki, populyar "dövlət-özəl tərəfdaşlıq" nişanına sahib olan geniş yayılmış müqavilələrə bələdiyyələr və özəl şirkətlər arasında mürəkkəb uzunmüddətli müqavilələr daxildir. Nəzəri cəhətdən, bu yenilikçi müqavilələr, xidmət keyfiyyətinin yaxşılaşdırılması, özəl sektorla paylaşılan risklər və xərclərin azaldılması da daxil olmaqla əhəmiyyətli ictimai faydalar təqdim edir. Bununla birlikdə, praktikada uzunmüddətli müqavilələrin yaratdığı problemlər yerli səviyyədə onların uğurlu icrasına xələl gətirə bilər (Bloomfield, 2006: 400-411).

**Azərbaycanın tikinti sektorunda islahatlar və əldə edilmiş nəticələrin təhlili**

Azərbaycanda tikinti sektorunun inkişaf etdirilməsi məqsədi ilə müvafiq islahatlar aparılır ki, bu da dövlətin həyata keçirdiyi sosial siyasətin tərkib hissəsi hesab edilir. Dövlətin sosial siyasətinin əsas məqsədlərindən biri də vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Tədqiqat göstərir ki, ölkə əhalisinin sayının artması onların mənzilə olan tələbatının təmin olunması məsələsini, xüsusilə az və orta təminatlı əhali təbəqəsinin, gənc ailələrin mənzil probleminin həll edilməsini prioritet vəzifə kimi müəyyən edir və aktuallaşdırır. Ölkədə həyata keçirilən islahatlar nəticəsində tikinti sektorunun inkişaf etdirilməsi məqsədilə dövlət başçısının 11 aprel 2016-cı il tarixli 858 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) yaradılmışdır. Agentliyin yaradılmasının əsas məqsədi Azərbaycan

Respublikası vətəndaşlarının yaşayış sahələrinə olan ehtiyacını ödəmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müasir memarlıq üslubunda ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli binaların tikilməsini təmin etmək, habelə bununla bağlı şəhərsalma və tikinti sahələrində dövlət idarəetməsini təkmilləşdirməkdən ibarətdir.

"MİDA" MMC-nin səmərəliliyi fəaliyyətinin təşkilinin məqsədi ilə ölkə ərazisində tikilməsi təklif edilən dövlət-özəl tərəfdaşlığını əks etdirən layihələrin təşkilinə Azərbaycanda da başlanılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi" ilə müəyyən edilən tədbirlər planına uyğun olaraq Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi dövlət-özəl tərəfdaşlığı layihələrinin inkişafını genişləndirir ("Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi", 2016). Dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi və özəl tikinti-investisiya şirkətlərinin əməkdaşlığa cəlb edilməsi məqsədilə keçirilmiş investisiya müsabiqəsində "Enerji qrup" MMC ilə "Elektrikquraşdırma" müəssisəsi, "19 saylı Tikinti Təmir İdarəsi" MMC ilə "İnşaat İstehsalat-Tikinti Quraşdırma İnşa" müəssisəsi və "Kristal Abşeron MTK" investor kimi iştirak edərək investisiya qoyuluşu müqabilində "MİDA" MMC-nin sifarişi ilə hazırlanmış və müvafiq qaydada dövlət ekspertizasından keçirilmiş layihə-smeta sənədlərinə uyğun olaraq yaşayış kompleksinin tikintisini aparmaq imkanını əldə etmişlər.

Keçmiş sovetlər ittifaqı ölkələrinin təcrübəsində tikintinin təşkili və idarə edilməsində "ənənəvi" başpodratçı yanaşmasından istifadə edilir. Bina konstruksiları və xidmətləri bazarında təkliflər, bina və tikililərin müasir tələblərə cavab verən dizaynlarının seçimi və həlli artan tələblərə cavab verə bilmədiyindən yeni tikinti materiallarından, avadanlıq və texnologiyalarından istifadə edilməsi məqsədəuyğun hesab edilir. Tikintidə mərtəbə və döşəmələrin qaldırılması metodu ənənəvi ardıcıllıqla yerinə yetirilən metodun tərsidir. Binaların bu üsulla tikilməsi, ənənəvi metoddan özünəməxsus xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, ənənəvi metodda bina aşağıdan yuxarıya doğru qurulur və müvafiq yüksəklikdə monolitik dəmir-beton konstruksiyalardan istifadə edilir. Baxılan metodda isə böyük ölçülü bina konstruksiyaları əvvəlcədən hazırlanır və bütün işlər mərtəbələrdə yerinə yetirilir. Tikinti müddətinin azaldılması əlaqəli tikinti-quraşdırma proseslərinin maksimum birləşməsi hesabına əldə edilir.

Son illərdə xarici ölkələrdə tikinti müəssisələrinin müqavilə şərtlərinə uyğun və strukturundan asılı olaraq idarəetmənin müxtəlif təşkilati formaları aktiv inkişaf etmişdir. Inkişaf etmiş ölkələrdə tikinti sektorunda istifadə edilən müqavillələri beş əsas qrupu ayırmaq olar: sabit qiymət müqaviləsi (Lump Sum Contract); zəmanətli maksimum qiymət müqaviləsi (Guaranteed maximum or upset price control); "qiymət-plyus" müqaviləsi (Cost-Plus); layihə-tikinti müqaviləsi (Design-build); tikinti idarəetmə müqaviləsi (Construction management). Qeyd edilmiş bu beş tikinti layihələrinin idarə edilməsini ənənəvi və idarəetmə yanaşmalarında onlara təsir göstərən əsas amillər müəllifin məqaləsində verilir (Almasov, 2019: 125-135).

İstehsalın təşkili funksiyası ictimai əməyin funksiyası olmaqla yalnız fəaliyyət dövrində deyil, həmçinin onun yaranma (layihələndirmə və tikinti) mərhələsində də yerinə yetirilir. Belə ki, tikintinin layihələndirildiyi mərhələdə müəyyən texnologiya bazasında müəssisənin tərkibi, strukturu, ölçüləri və bölmələri, istehsalın bütün bu elementlərinin birləşməsi və qarşılıqlı təsiri modelləşdirilir, tikilmə mərhələsində isə bu model (layihə) maddi cəhətdən yerinə yetirilir. Bu baxımdan, fəaliyyət göstərən müəssisələrdə istehsal prosesinin müəyyən edilmiş təşkilati parametrlərinin saxlanılmasında onun alt sistemlərinin idarəedilməsi əsas rol oynayır ki, bu da müəssisənin nisbətən səmərəli fəaliyyətinin təmin edilməsini nəzərdə tutur.

**Nəticə.**

Beləliklə istehsalın təşkili funksiyası layihə-tikinti və idarəetmə təşkilatları arasında bölüşdürülür. İnşaat proseslərinin səmərəliliyini və keyfiyyətini daim artırmağa yönəldilmiş yüksək mütəşəkkil istehsalat qruplarının çatışmazlığının vacib səbəblərindən biri bazar iqtisadiyyatının dayanıqlı inkişafı şəraitində istehsal qurğularının formalaşması və istifadəsinin nəzəri və praktik

aspektlərinin kifayət qədər inkişaf etməməsi və son nəticələrin əldə edilməsinə istiqamətlənmiş tikinti istehsalının sistemli şəkildə fəalyyəti hesab edilir.

Qeyd etmək lazımdır ki, təşkil və idarəetmə tikintinin sərbəst prosesidir, bir-biri ilə sıx əlaqəlidir və bir-birinə təsir göstərir, lakin qarşılıqlı əvəzedilə bilmirlər. Elə bu aspektdən də tikinti müəssisəsinin təşkili və idarəedilməsi üzrə təkmilləşdirilmənin əsas məsələləri onun ölçüsünün optimallığı, yəni tikinti təşkilatının gücü, tikinti sənayesinin bazasının mərkəzləşdirilməsi və qeyri-mərkəzləşdirilməsi, təşkilati strukturun ixtisaslaşmasının dəqiqliyi və tikinti prosesinin idarə edilməsinə nəzarət hesab edilir.

Fikrimizcə, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq Azərbaycanda tikinti müəssisələrinin strukturunun formalaşmasında dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi məqsədilə dövlət-özəl tərəfdaşlığı çərçivəsində özəl tikinti-investisiya şirkətlərinin tikinti sahəsinə cəlb edilməsi məqsədəuyğunluğun hesab edilir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


"Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli 1138 nömrəli Fərmanı.

Almasov N.,N. Tikintinin inkişafında dövlət özəl tərəfdaşlığının inkişafının rolu. Əmək və Sosial Münasibətlər jurnalı, Bakı, № 2, s.125-135

Eyniyev T., Qeybullayev Q., Məmmədov M. Tikintinin iqtisadiyyatı və idarə edilməsi. Bakı. Nurlan, 2001, 322 s.

Голубова О. С., Валицкий В. С. Экономика строительства. Минск. 2009, 180 с.

Лыткина Ю.А. Формирование и развитие организационных структур управления в процессе реструктуризации строительных предприятий. Диссертация на соискание ученной степени кандидата экономических наук. Пенза, 2007, 171 с.

Bloomfield P. The challenging business of long-term public–private partnerships: Reflections on local experience. Public Administration Review. 2006,66(3), pp.400-411.

Tanq L.Y.,Shen Q., E.Cheng. A review of studies on Public–Private Partnership projects in the construction industry. Journal of project management, Oct. *2010, v. 28, no. 7,* pp. *683-694*

https://mida.gov.az/documents/MIDA_FS_2018_AZE.pdf

https://www.mida.gov.az/mmc/?/az/newsread/419/692/

**Gülnarə Fətəliyeva**
*AMEA İqtisadiyyat İnstitutu, elmi işçi*
*feteliyevagulya@gmail.com*

# AZƏRBAYCANIN İKT SEKTORUNDA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *İKT sektoru, dövlət və qeyri-dövlət müəssisəsi, xarici və yerli şirkət, mikro, kiçik və orta sahibkarlıq.*

## Problemin qoyuluşu

İnformasiya-kommunikasiya texnologiyaları (İKT) sektoru Azərbaycan iqtisadiyyatının gələcək inkişafı baxımından qeyri-neft sektorunda prioritet sahə kimi qeyd edilir. İKT sektorunun inkişafı isə, öz növbəsində, bu sahədə sahibkarlığın tərəqqisindən birbaşa asılıdır. İKT sektorunda sahibkarlığın inkişafı ölkə iqtisadiyyatına yüksək təsir imkanlarına malikdir və bu sahənin inkişafı zəruri bir məsələ kimi qarşıda durur.

Respublikamızda son dövrlərdə həyata keçirilmiş iqtisadi islahatlar İKT sektorunda sahibkarlığın formalaşmasına, ölkə iqtisadiyyatındakı rolunun artmasına imkan yaratmışdır. Hazırda Azərbaycanda İKT sahəsində dövlət sektoru ilə müqayisədə özəl bölmənin payı böyük çəkiyə malikdir. 2018-ci ildə adı çəkilən sektorda özəl sektorun payı 82% olmuşdur. Bu rəqəm 2019-cu ilin sonuna bir qədər də artaraq 82,4% təşkil etmişdir (ARDSK,2019: 625).

Sektorda gəlirlərin əksər hissəsi sahibkarlar tərəfindən yaradılır. Bu baxımdan ölkəmizdə İKT sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin kateqoriyalara bölgüsünə əsasən, həmçinin dövlət müəssisələri ilə müqayisəli olaraq qeyri-dövlət müəssisələrinin, bu müəssisələr tərəfindən işlə təmin edilən işçilərin sayı, investisiya qoyuluşu, malların və göstərilmiş xidmətlərin dəyəri haqqında məlumatların təhlil edilərək qiymətləndirilməsi aktullıq kəsb edir.

## Azərbaycanda sahibkarlıq subyektlərinin bölgü meyarı

Ölkəmizdə sahibkarların kateqoriyalara bölünməsi ilə bağlı dəyişikliklər edilmişdir. Belə ki, əgər əvvəllər **sahibkarlıq subyektləri üç meyara görə (kiçik, ora və iri) müəyyən edilirdisə, artıq yeni bölgüyə əsasən dörd qrupa** (mikro, kiçik, orta və iri**) ayrılır. Bunun** üçün “işçilərin orta siyahı sayı” və “illik gəlir” meyar göstəriciləri əsas götürülür.

**Cədvəl 1.**

**Sahibkarlıq subyektlərinin ölçüsünə görə bölgü meyarları**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları | İşçilərin orta siyahı sayı, nəfər | İllik gəliri (ig), min manat |
|---|---|---|
| Mikro sahibkar | 1-10 | ig ≤ 200 |
| Kiçik sahibkar | 11-50 | 200 < ig ≤ 3 000 |
| Orta sahibkar | 51-250 | 3 000 < ig ≤ 30 000 |
| İri sahibkar | 251 və ondan yuxarı | 30 000 < ig |

Mənbə: (3, 2018)

**Nazirlər Kabineti tərəfindən təsdiq edilən “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”na** görə, illik gəliri 200 min manata qədər olan və maksimum 10 işçiyə sahib olanlar mikro sahibkar, illik gəliri 200 min manatdan 3 milyon manata kimi və 11-50 işçiyə sahib olanlar kiçik sahibkar, illik gəliri 3 milyon manatdan 30 milyon manata kimi və 51-250 işçiyə sahib olanlar orta sahibkar, illik gəliri 30 milyondan çox və 250-dən çox işçiyə sahib olanlar isə iri sahibkar hesab olunur (Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları, 2018:2). Qeyd etmək lazımdır ki, yeni bölgüyə əsasən, fərdi sahibkarlar, yəni fiziki şəxslər mikro sahibkarlıq subyekti hesab olunurlar.

Bundan əlavə, müəssisələr mülkiyyət növünə görə dövlət və qeyri-dövlət olmaqla iki yerə ayrılır. Qeyri-dövlət sahibkarlıq subyekləri xüsusi, xarici və birgə mülkiyyətli müəssisələri özündə cəmləşdirir.

**Azərbaycanın İKT sektorunda sahibkarlıq subyektlərinin mövcud durumunun təhlili və qiymətləndirilməsi**

ARDSK-nın statistik məlumatlarına əsasən, 2018-ci ildə İKT sektorunda fəaliyyətdə olan sahibkarlıq subyektlərinin sayı 3398 vahid olmuşdur ki, onların da 91%-ni mikro, 5,7%-ni kiçik, 3,3%-ni isə orta müəssisələr təşkil etmişdir. Mikro və kiçik sahibkarlıq subyektlərinin tərkibində mülkiyyət növünə görə xüsusi müəssisələr üstün olduğu halda, orta sahibkarlıq subyektlərinin əsas hissəsi dövlət müəssisələrindən ibarət olmuşdur. Xarici və birgə mülkiyyətli müəssisələrin əksəriyyəti mikro sahibkarlıq subyektləri formasında fəaliyyət göstərmişdir.

**Cədvəl 2.**

**İKT sektorunda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı (2018-ci il)**

| Mülkiyyət növü | Mikro | Kiçik | Orta |
|---|---|---|---|
| dövlət mülkiyyəti | 39 | 30 | 62 |
| qeyri-dövlət mülkiyyəti | 3055 | 162 | 50 |
| xüsusi mülkiyyət | 2998 | 145 | 42 |
| xarici mülkiyyət | 42 | 12 | 4 |
| birgə mülkiyyət | 15 | 5 | 4 |
| **Cəmi** | **3094** | **192** | **112** |

Mənbə [1, s.16] məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Qeyd edilən ildə yeni yaradılmış sahibkarlıq subyektlərinin sayı (750) ləğv edilmiş müəssisələrin sayından (210) 3,6 dəfə çox olmuşdur. Yeni yaranan və bağlanan müəssisələrin çoxu mikro müəssisələrə aiddir. Belə ki, qeyd edilən dövrdə 744 mikro müəssisə fəaliyyətə başlamış və eyni zamanda 206 belə növ müəssisə fəaliyyətini dayandırmışdır. Belə hal mikro müəssisələr üçün xarakterik xüsusiyyətidir.

Fərdi sahibkarlıq subyektlərindən fərqli olaraq, kiçik və orta müəssisələr daha davamlı xarakterə malikdir. Belə ki, təhlilin aparıldığı il ərzində ləğv edilmiş kiçik və orta müəssisələrin sayı 2 vahid olmuşdur. Sahibkarlar tərəfindən 5 kiçik və 1 orta müəssisə açılmışdır.

**Diaqram 1.**







Mənbə [1, s. 25,28] məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

İKT sektorunda yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin 498,3 milyon manatı orta, 209,7 milyon manatı mikro, 118,4 milyon manatı isə kiçik müəssisələr tərəfindən reallaşdırılmışdır. Ümumi həcmi 826,4 milyon manat təşkil edən xidmətlərin böyük

hissəsi xüsusi müəssisələrin payına düşmüşdür. Dəqiq desək, özəl müəssisələr işlərin 71,2%-ni həyata keçirmişdir. Bu sahədə dövlət müəssisələrinin xüsusi çəkisi 18% olmuşdur.

Həmçinin qeyd etmək lazımdır ki, 2018-ci ildə işçilərin 9611 nəfəri orta, 2869 nəfəri kiçik, 1403 nəfəri isə mikro müəssisələrdə çalışmışdır. Təhlillər göstərir ki, mikro müəssisələrdə kiçik sahibkarlıq subyektləri ilə müqayisədə çalışanların sayı 2 dəfə az olsa da, xidmətlərin göstərilməsindən əldə olunan gəlirlərin həcminə görə fərdi müəssisələr kiçik müəssisələri 1,8 dəfə üstələmişdir (Diaqram 1).

Orta müəssisələrdə muzdlu işçilərin 61,9%-i dövlət, 34,7%-i isə özəl müəssisələrdə işləmişdir. Mikro və kiçik sahibkarlıq subyektlərində isə əksinə olaraq, çalışanların müvafiq olaraq 82,3%-i və 65%-i xüsusi müəssisələrdə fəaliyyət göstərmişdir.

Ümumilikdə isə, sektorda məşğul əhalinin 49,3%-i, daha doğrusu 6839 nəfəri dövlət mülkiyyətli müəssisələrdə, 50,7%-i yəni 7044 nəfəri qeyri-dövlət müəssisələrində çalışmışdır. Qeyri-dövlət müəssisələrinin tərkibində isə xüsusi müəssisələrdə çalışanların sayı 6352 nəfər, xarici müəssisələrdə 345 və birgə müəssisələrdə 347 nəfər olmuşdur.

**Cədvəl 3.**

**İKT sektorunda mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən əhaliyə göstərilmiş xidmətlərin dəyəri, min manat (2018-ci il)**

| Mülkiyyət növü | Mikro | Kiçik | Orta |
|---|---|---|---|
| **dövlət mülkiyyəti** | 78,2 | 5345,6 | 61047,6 |
| **qeyri-dövlət mülkiyyəti** | 5238,2 | 22232,6 | 62274,1 |
| **xüsusi mülkiyyət** | 4546,3 | 19423,5 | 60135,6 |
| **xarici mülkiyyət** | 306,3 | 136,9 | --- |
| **birgə mülkiyyət** | 385,6 | 2672,2 | 2138,5 |
| **Cəmi** | **5316,4** | **27578,2** | **123322** |

Mənbə [1, s.39] məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Əhaliyə göstərilmiş xidmətlərin ümumi dəyərinə gəldikdə, bu göstərici 156,2 milyon manat təşkil etmişdir ki, onun da 42,6%-i dövlət, 57,4%-i isə qeyri-dövlət müəssisələrinin (o cümlədən, 53,8% - özəl, 3,3% - birgə, 0,3% - xarici müəssisələr) payına düşmüşdür. Ölçüsünə görə orta müəssisələr daha çox paya sahib olmuşdur. Dövlət mülkiyyətli orta sahibkarlıq subyektləri bu növ xidmətlərin 49,5%-ni, özəl orta müəssisələr isə 48,7%-ni reallaşdırmışdır. Qeyri-dövlət mülkiyyəti üzrə müəssisələrin payına görə, mikro sahibkarlıq subyektlərində xidmətlərin 85,5%-i özəl, 5,8%-i xarici, 7,3%-i birgə müəssisələr tərəfindən yerinə yetirilmişdir. Kiçik sahibkarlıq subyektləri üzrə bu göstəricilər müvafiq olaraq, 70,4%, 0,5% və 9,7% təşkil etmişdir.

2018-ci ildə İKT sektorunda sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri 318,7 milyon manata bərabər olmuşdur. İnvestisiyaların böyük qismi orta müəssisələr tərəfindən yatırılmış və bu rəqəm 314,4 milyon manat təşkil etmişdir. Kiçik sahibkarlıq subyektləri əsas kapitala 4318 min manat sərmayə yönəltmişdir.

**Nəticə**

Aparılmış təhlillərin nəticəsi göstərir ki, İKT sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin əksər hissəsini ölçüsünə görə mikro, mülkiyyət formasına görə isə xüsusi müəssisələr təşkil edir. İKT sektorunda işlərin yerinə yetirilməsi, əhaliyə xidmətlərin göstərilməsində özəl sahibkarlıq müəssisələri böyük paya sahibdir. Özəl müəssisələrin yüksək məhsuldarlığı öz növbəsində sektorda sahibkarlığın inkişafını şərtləndirir.

**İstifadə edilmiş ədəbiyyat**

1.ARDSK 2019. Azərbaycanda mikro, kiçik və orta sahibkarliq. Statistik Məcmuə. Bakı 2019. [https://www.stat.gov.az/source/entrepreneurship].
2.ARDSK 2019.Ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı. [https://www.stat.gov.az/source/system_nat_accounts].

3.“Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. Bakı şəhəri, 21 dekabr 2018-ci il, № 556. [http://www.e-qanun.az/framework/41048].

**Mətanət Cəfərova**
*AMEA İqtisadiyyat İnstitutu, elmi işçi*
*matanatyunisqizi@gmail.com*

# MİLLİ TƏHLÜKƏSİZLİK və İQTİSADİYYAT

**Açar sözlər:** *təhlükəsizlik, iqtisadi təhlükəsizlik, milli təhlükəsizlik, iqtisadi güc, iqtisadi böhran, pandemiya*

İqtisadiyyat siyasəti müəyyən edir yanaşması hər zaman özünü doğrultmuşdur. Buna əsasən iqtisadiyyatı güclü olan ölkənin digər sahələri də, həmçinin təhlükəsizliyi də güclü olacaq. Təhlükəsizlik sahəsinin iqtisadi gücü nədən asılıdır? Hansı amil və göstəriciləri vardır? Bu suallara cavab verməzdən öncə təhlükəsizlik nə deməkdir ona nəzər salaq.

Milli təhlükəsizlik anlayışı ənənəvi olaraq bir ölkənin xarici hərbi təhlükədən qorunmasına istinad edərək hərbi təhlükəsizlik anlayışına çevrilmişdir. 20-ci əsrin ikinci yarısında sürətlə inkişaf edən beynəlxalq təhlükəsizlik mühiti yeni təhdidlər və risklər doğurdu, bu isə yeni çağırışları əhatə etmək üçün milli təhlükəsizlik konsepsiyasının genişləndirilməsinə ehtiyac duydu. Beləliklə, milli təhlükəsizlik yalnız hərbi təhlükəsizlik deyil, iqtisadi təhlükəsizlik, dövlət və ictimai təhlükəsizlik, ərzaq təhlükəsizliyi, kiber müdafiə, insan təhlükəsizliyi, ekoloji təhlükəsizlik və s. kimi sahələri əhatə edir. Bu təhlükəsizlik sahələrində iqtisadi təhlükəsizliyin əhəmiyyəti artdı, xüsusilə 2008-ci ildə baş verən iqtisadi böhrandan sonrakı illərdə qlobal miqyasda özünü büruzə verdi.

İqtisadi təhlükəsizlik konsepsiyası, GATT (Tariflər və Ticarət haqqında Baş Saziş) yarandığı zamana təsadüf edir. GATT üzv ölkələrini sərbəst ticarəti qarşılıqlı sərfəli əsasda qurmaq üçün bəzi tarifləri və ticarət maneələrini azaltmağa həvəsləndirsə də, bəzi tənqidçilər daxili müqavimətləri ortaya qoyaraq Sazişi ölkələrin iqtisadi rifahına təhdid kimi qiymətləndirdilər. Nəticədə bəzi ölkələr milli təhlükəsizliyin təhdid altında olduğunu düşündükləri hallarda sərbəst ticarətin genişləndirilməsini məhdudlaşdırmaq üçün addımlar atdılar.

Milli təhlükəsizlik məsələsinə daha geniş yanaşmaya əsasən, xarici şirkətlərin rəqabətinin milli iqtisadiyyatın fəaliyyətinə və inkişafına təsirini də əhatə edir. Bu mənada, qabaqcıl rəqabətin milli sənayelərə təsiri və həmçinin "hər hansı bir əhəmiyyətli işsizlik, hökumətin gəlirlərinin azalması, bacarıq və ya investisiya itkisi yaxud hər hansı bir yerli məhsulun həddindən artıq idxal məhsulu ilə yerdəyişməsi nəticəsində yaranan digər ciddi təsirlər" (1962-ci il ABŞ Ticarət Genişləndirilməsi Qanunu, bölmə 232) milli təhlükəsizliyin iqtisadi aspektini təmin etmək üçün təhlil edilməli və qarşısı alınmalı olan amillər hesab olunur.

Polşa Milli Təhlükəsizlik Strategiyasında iqtisadi artım daxili müdafiə sənayesinin inkişafı, enerji təhlükəsizliyinin təmin edilməsi və strateji mal və xidmətlərin ticarəti ilə yanaşı milli təhlükəsizliyin əsas komponenti hesab olunur.

Milli təhlükəsizlik özündə fiziki, iqtisadi təhlükəsizliklə yanaşı, milli dəyərləri cəmləşdirir. Bu amillərin güclü qalmasına iqtisadiyyat təsir edir. İqtisadiyyatın gücü Pul, maliyyə və sənaye siyasəti və inkişafından, insan resursları, təhsil və immiqrant məsələlərindən innovasiya, elm və texnologiyalardan eləcə də dünya iqtisadiyyatı, ticarət və kapital axınından formalaşır. Eyni zamanda müdafiə sənayesi bazası və rəqabətə dayanıqlı sənaye sahələri iqtisadiyyatın amilləridir. İqtisadiyyat isə öz növbəsində sərt gücə (milli təhlükəsizlik, ərazinin toxunulmazlığı), iqtisadi imkanlar, iş yerləri, gəlirlilik təhlükəsizliyi və yumşaq gücə (diplomatiya, media) təsir edir. Təbii ki, qeyd edilən kompenentlər də milli təhlükəsizliyin elementlərinə aşağıdakı kimi təsir edir:

- Sərt güc (milli təhlükəsizlik, ərazi bütövlüyü) – fiziki təhlükəsizliyə təsir edir.
- İqtisadi imkanlar, iş yerləri, gəlir təhlükəsizliyi – iqtisadi təhlükəsizliyə təsir edir.
- Diplomatik gücə (diplomatiya, media) – milli dəyərlərə təsir edir. (Economics and National Security: Issues and Implications for U.S. Policy Dick K. Nanto, Coordinator Specialist in Industry and Trade January 4, 2011)

Bəşəriyyətin bütün tarixi boyu təbii sərvətlərin nəzarəti və əlçatmazlığı üzərində saysız-hesabsız münaqişələr aparılmışdır və bu tendensiya müasir dünyada hələ də mövcuddur, çünki milli

təhlükəsizlik, potensial gərginliklər və hətta münaqişələr və təbii mühit arasında mürəkkəb qarşılıqlı əlaqə mövcuddur. Milli təhlükəsizlik mövzusunu şərtləndirən ən vacib mənbələrdən biri iqtisadiyyatın fəaliyyət göstərməsi üçün əhəmiyyətli olan enerji mənbələrinə (əsasən neft və təbii qaz) çıxışın təmin edilməsi aiddir.

Enerji təhlükəsizliyini təmin etmək zərurəti, enerji təchizatının xarici hücumdan qorunması, kritik infrastrukturun qorunması, enerji idxalından asılılığı azaltmaqla yanaşı, lazımi enerjini münasib qiymətlərlə təmin etmək cəhdi ilə də özünü göstərə bilər. Bu baxımdan, münasib qiymətlər, məhsuldarlığın azalması, artan inflyasiya, istehlakın azalması, istehsal xərclərinin artması və s. kimi iqtisadiyyata mənfi təsir edən amillərin qarşısını almaq üçün müvafiq olaraq qiymətlərin səviyyəsini qorumaq gərəkdir. Yanacaq, xam neft və təbii qazın emalı, idxalı və ixracına çəkilən xərclər bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin qarşılaşdığı ən vacib məsələlərdən biridir, çünki bu, iqtisadiyyatda maliyyə sərfiyyatıdır və milli təhlükəsizlik problemlərinin mənbəyidir.

Makroiqtisadi aləmə eyni dərəcədə düşən mikroiqtisadi bir məsələ bütün iqtisadiyyatın iqtisadi artım tempidir. İqtisadi artım tempi həm tələb, həm də təklifdən irəli gəlir. Tələb tərəfi ümumi ev istehlakına, biznes sərmayələrinə, dövlət xərclərinə və ticarət balansına təsir edən makroiqtisadi siyasətlərdir. Təchizat tərəfinə isə əmək məhsuldarlığına, yeniliyə, əmək və kapitaldan səmərəli istifadəsinə təsir edən mikroiqtisadi siyasətlər daxildir. İqtisadiyyatın tədarük tərəfinə təsir göstərən hökumət siyasəti vergilərdən təhsilə, tədqiqat və inkişafa, immiqrasiyaya qədərdir. Qlobal əsasda iqtisadi artımın milli təhlükəsizlik üçün əhəmiyyəti 2008-2009-cu illərdə baş verən qlobal maliyyə böhranında özünü göstərdi.

İqtisadi artım işçilərin məhsuldarlığının artırılmasından çox asılıdır. Biliklərə əsaslanan iqtisadiyyat dövründə bu məhsuldarlığın artması, avadanlıq və avadanlıqlara qoyulan ənənəvi investisiyalarda olduğu kimi, təhsildən də asılıdır. Bilik yalnız alına və satıla bilən bir məhsul deyil, həm iqtisadi, həm də təhlükəsizlik baxımından faydalana biləcək bir vasitədir. Bu, işçilərin istehsal prosesində bilik yaratmaq və istifadə etmək qabiliyyətindən çox asılıdır, bu da öz növbəsində işçilərin bacarıq və təhsildən asılıdır.

Ümumilikdə iqtisadi təhlükəsizlik ilə iqtisadi güc anlayışlarına da nəzər salmaq lazımdır (The Economic Dimention of National Security, C.R. Neu, Charles Wolf Jr, 1994).

İqtisadi təhlükəsizlik geniş mənada aşağıdakı elementləri ehtiva edir:

- Xarici bazarlara çıxışın təmin edilməsi.
- Stabil beynəlxalq maliyyə mühiti:
    - Məzənnə idarəetməsi.
    - Beynəlaxlq kapital axını və iqtisadi siyasət koordinasiyası
- Bazar yönümlü iqtisadi siyasətini təşviq etmək.
- Beynəlxalq kommersiya və maliyyə infrastrukturunun qorunması.
- Ədalətli gəlir bölgüsü.

İqtisadi güc isə aşağıdakıları ehtiva edir:

- İqtisadi təhlükəsizlik, təhlükəsizlik siyasəti və iqtisadi siyasət.
- İqtisadi və müdafiə alətləri arasında sinerjinin mövcudluğu.
    - Müdafiə resurslarından iqtisadi məqsədlər üçün istifadə etmək.
    - Müdafiə resurslarından iqtisadi məqsədlər üçün istifadə etmək.

Cari dövrdə isə COVID 19 pandemiyası dövlətlərin iqtisadi və digər təhlükəsizliklərinə yeni yanaşmalar, yeni mexanizmlər gətirməsinə səbəb olacaq. Belə ki, dünya ölkələri ilk baxışdan bütün resurslarını bu pandemiya ilə mübarizəyə yönəldib. Dövlətlərin diqqəti bu pandemiya ilə mübarizəyə yönəldiyindən, cari təhlükəsizlik məsələləri nisbətən diqqətdən kənarda qalmış kimi görsənir. (https://www.foxnews.com/us/how-the-coronavirus-pandemic-threatens-u-s-national-security)

Ümumiyyətlə, 2008-2009-cü il iqtisadi böhranından sonra dünya ölkələri iqtisadi stabillik uğrunda bir sıra addımlar atsa da, hazırki pandemiya bu stabilliyi yenidən pozdu. Dünya iqtisadyyatı böhran təhlükəsindədir, belə ki, istər qiymətli kağızlar bazarında, istərsə də neft qiymətlərindəki qeyri stabillik və hazırkı durğunluq dövlətlərin iqtisadi cəhətdən çətin bir

mərhələyə qədəm qoyduğuna işarətdir. Bütün dünya ölkələrinin turizm xidmətləri dayanıb, beynəlxalq ticarət və daşımalar durğunluq dövrünə başlayıb. Əsasən həyat əhəmiyyətli iş yerlərinin fəaliyyəti mövcuddur. Xidmət sektoru, qeyri qida satışları, kafe, restoran kimi sahələrin fəaliyyəti dayanıb, yalnız online ticarəti edə bilənlər müəyyən satış ilə məşğul ola bilirlər, ümumilikdə bu sahələrin gəlirliliyi aşağı düşdüyündən, onların ödəyəcəyi vergilər də azalacaqdır.

Bu proseslərdə yalnız tibb, qida məhsullarının istehsalı və satışı kimi sahələrə tələbat artmaqdadır, lakin onlarla isə ölkə iqtisadiyyatını ayaqda saxlamaq çətin məsələdir.

Bu səbəbdən, ölkələr və şirkətlər krizisə adekvat reaksiya verməlidirlər. Belə ki, krizis özü ilə dəyişiklik gətirir (How to Manage in Times of Crisis Ichak K. Adizes, Ph.D. 2009). Pandemiyanın gətirdiyi ən böyük dəyişiklik, proseslərin elektronlaşması və internet üzərindən aparılan əməliyyatların artmasıdır. Bura elektron təhsil, elektron mübadilə və ödəmə, sifarişlərin elektron edilməsi və evə çatdırılması kimi sahələr daxildir. Bunun üçün infrastukturu mövcud olan öılkələrin vəziyyəti daha rahat olacaq, lakin online sistemlərdən istifadədə məhdud və ya istifadəsi mümkün olmayan ölkələrdə vəziyyət daha da kritikləşəcək. Bu isə iqtisadi böhranın dərinləşməsinə, təhlükəsizlik məsələlərinin isə çətinləşməsinə gətirib çıxardacaqdır.

**Ədəbiyyat siyahısı:**


1. 1962-ci il ABŞ Ticarət Genişləndirilməsi Qanunu, bölmə 232
2. Economics and National Security: Issues and Implications for U.S. Policy Dick K. Nanto, Coordinator Specialist in Industry and Trade January 4, 2011
3. How to Manage in Times of Crisis Ichak K. Adizes, Ph.D. 2009
4. https://www.foxnews.com/us/how-the-coronavirus-pandemic-threatens-u-s-national-security
5. The Economic Dimention of National Security, C.R. Neu, Charles Wolf Jr, 1994

**Nicat Musayev**
*Azərbaycan Texniki Universitetinin doktorantı*
*Nijat_musayev@mail.ru*

# TURİZMİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ VƏ STRATEJİ ƏHƏMİYYƏTİ

**Açar sözlər:** turizm, fərqli xüsusiyyətlər, multiplikasiya səmərəsi,srtategiya, prioritet istiqamətlər.

**Giriş**

Turizm fəaliyyəti iqtisadiyyatın güclü amili olmaqla bərabər, eyni zamanda həm təsirli sosial institut, həm də cəmiyyətin hərtərəfli inkişaf etdirilməsində, o cümlədən ictimai rifah və mədəniyyət səviyyəsini müəyyən edən göstərici kimi insanların yaşayış səviyyəsinin yüksəldilməsində, onun mənəvi zənginləşdirilməsində həlledici rol oynayır. Turizm o yerdə intensiv inkişaf edə bilir ki, burada turizmin resursları yüksək cəlbedici, əlçatan, ekoloji təmiz və təhlükəsiz olsun, onların əsas xarakteristikası səyahətlərin məqsədinə cavab versin və əhalinin müxtəlif sosial qruplarının tələbatını təmin etsin. Turizm fəaliyyəti yalnız təbii ehtiyatların ələ keçirilməsi və sonra onların emalı ilə müşayiət edilmir, əksinə, onların qorunması, tələbatının tənzimlənməsi və yenidən istehsalında olduqca maraqlıdır.

Turizm "görünməyən" ixrac xüsusiyyətinə malikdir, belə ki, o, turizm-istirahət resurslarının konsenrtasiya edilmiş yerlərinə insanların çoxlu miqdarda miqrasiyasına səbəb olur. Turizmin, xalq təsərrüfatı kompleksinin digər sferalarından fərqli cəhəti, onun yalnız bir istehlakçı xidmətinə-turistə malik olmasıdır. Turist istehlak məhsullarının istehlakçısı olmaqla yanaşı, həm də turizm firmalarının fəaliyyət obyektidir.

Xalq təsərrüfatı kompleksinin digər sferalarında əmtəə və maliyyə bazarlarından mallar alıcıya çatdırıldığı halda, turizmdə isə əksinə, alıcı, yəni turist, turizm məhsulları və xidmətlərinə çatdırılır. Turistin istehlakçı kimi qəbul edilməsi onun bu qeyd edilən fərqli xüsusiyyəti ilə izah olunur.

Bu baxımdan, turizm sferası inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da milli turizm sferasının inkişafı iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamətlərindən biri kimi qiymətləndirilir.

**Mövcud ədəbiyyatların təhlili**

Turizmin daha dəqiq müəyyən edilməsi aşağıdakı iqtisadi xüsusiyyətlərə əsasən bazalaşdırıla bilər: turizm insanların müxtəlif turist marşrutlarında hərəkətinin nəticəsidir; turizm həmişə özünə iki elementi daxil edir: müəyyən edimiş məntəqəyə səyahət və orada dayanmaq; səyahət, turistin daimi yaşadığı ölkədən digər ölkəyə getməsi başa düşülür; turizm-turistlərin turist marşurutu ilə müvəqqəti hərəkət etməsidir; turizm-səyahətdir, buraya gəlir gətirmə ilə məşğul olma fəaliyyəti daxil deyildir (Doljenko, 2008: 320).

Turizm fenomeni insanların tələbatının gücləndirilməsi vasitəsi kimi təbii və mədəni abidələrə olan estetik maraqla birgə fiziki və mənəvi gücün bərpası üçün müasir dövrdə yaranmışdır. Kütləvi hal kimi turizm, modernləşdirmə dövründə sənaye cəmiyyətinin yaranması sayəsində formalaşmışdır. Sənayedə əldə edilən nailiyyətlər nəticəsində həyat səviyyəsi və keyfiyyəti kəskin yüksəlmiş, işçilər beş günlük iş həftəsinə keçmə, eyni zamanda istirahət hüququ əldə etmişlər. XX əsrin 50-ci illərində turizmin kütləvi hal alması beynəlxalq turizm təşkilatlarının yaranmasına səbəb olmuşdur. Beləliklə, turizm beynəlxalq münasibətlərin bir növü olmuş və ayrı-ayrı ölkələrin ictimai həyatında mühüm tərəflərə toxunmuşdur (Boxanov, 2007: 28).

XX əsrin sonunda, turizm beynəlxalq xarici iqtisadi əlaqələrdə öncül yerlərdən tutaraq ayrı-ayrı ölkələrin, ümumiyyətlə dünya təsərrüfatı iqtisadiyyatının inkişafına ciddi təsir göstərməyə başladı. Ümumi daxili məhsulun (ÜDM) formalaşmasında onun təsiri ildən-ilə artır və hazırda dünya ÜDM-nin 10%-i, dünya ticarətinin 7%-i turizm sektorunun payına düşür. Dünyada əmək qabiliyyətli əhalinin 10%-i turizm sənayesində və onun əhatısində olan iqtisadiyyatın digər sahələrində məşğul olurlar (Zorin, 2006: 255).

Son dövrlərdə baş verən maneələrə (təbii fəlakətlər, texnogen hadisələr, terror aktları və s.) baxmayaraq, turizm hal-hazırda da aktiv inkişaf etməyə davam edir. Səyahətlərin forma və təşkili metodları dəyişir, tirizmin yeni növləri yaranır, turizmin dayanıqlı inkişaf şəraitləri işlənilir və yaradılır.

Hazırda turizm güclü dünya sənayesi sferasıdır, buraya böyük işçi kütləsi və iri kapitallar cəlb edilmişdir. Ümumdünya məhsulunda turizmin həcmi tədricən artır və turizm sənayesi xidmət fəaliyyəti üzrə dünyada iri sferalardan biri hesab edilir. Bütün bunlara isə dövlətlərarası sərhədlərin hərtərəfli açılması, əhali gəlirləri səviyyəsinin yüksəlməsi, nəqliyyat infrastrukturunun aktiv inkişafı əsasında nail olunur. Yuxarıda qeyd edilənlər insanların səyahətinin kütləviləşməsinə, turizm məhsulunun lüks elementdən gündəlik həyat amilinə çevrilməsinə imkan yaratmışdır. Turizmin bu çür transformasiyası onun inkişafının həqiqətən sərfəli olduğunu göstərir.

Turizmin spesifik xüsusiyyətlərindən biri də turistlərin istehlakının orijinallığı hesab edilir. Turizm xidmətlərinin satın alınması üçün gəlirlərin formalaşdırılması ölkədə daimi yaşayanlarla tənzimlənir, lakin turizm məhsulunun istehlak prosesi ölkəyə müvəqqəti gələnlərə görə reqlamentləşdirilir. Turizm əsas spesifik xüsusiyyətini milli iqtisadiyyatın: nəqliyyat, ticarət, rabitə, məişət xidməti, istehlak məhsullarının istehsalı, kənd təsərrüfatı və s. kimi digər sahələrinin iqtisadi və sosial inkişafına güclü təsirini əks etdirən multiplikasiya səmərəsi vasitəsilə ifadə edir. Turizmin spesifikasına hətta nisbətən ən yüksək riskli fəaliyyət növünü də aid etmək olar ki, bu da ölkədəki birbaşa iqtisadi, siyasi və sosial sabitlikdən, inkişaf etmiş infrastrukturdan və turizm sənayesindən, turizm resurslarından və s. asılıdır (Məmmədova, 2018: 112-119).

Turizmin sosial-iqtisadi təbiəti birbaşa və əksinə transformasiyanın (çevrilmənin) xüsusi prinsipi ilə əlaqəlidir. Turizm iqtisadi fenomen kimi ona ciddi diqqət göstərilməsini tələb edir, ölkə iqtisadiyyatına təsir göstərir, eyni zamanda ondan asılıdır. Turizmin sosial-iqtisadi mühitə göstərdiyi müsbət təsir amillərinə bir çox müəlliflər (Açmiz, 2010: 59-68) aşağıdakıları daxil edirlər: işçilərin sayının artması; turizm öz inkişafı dövründə digər sahələrə dolayı yolla təsir göstərir; turizmə qoyulan pul sürətli dövriyyə tendensiyasına malikdir; turizm sənayesi yüksək dinamikaya malikdir, turizmdən valyuta daxilolmaları hər il 8-12% artır; milli əmtəə istehsalı və xidmətlərin struktur hərəkəti baş verir; xarici kapital cəlb edilir və valyutadan gəlir əldə olunur; ölkənin sərhəddən kənarda iqtisadi imici formalaşır; milli parklar və qoruqlar yaranır; adət-ənənə və mədəniyyət qorunub saxlanılır.

## Tədqiqatın metodologiyası

Turizm sferası ərazinin xüsusiyyətlərindən, o cümlədən ətraf mühit, iqlim, tarixi əhəmiyyətli dəyərlər və mədəniyyət səviyyəsindən təbii asılılıdır. Bununla yanaşı, bir sıra amillər ölkədə turizmin inkişafına tormozlayıcı təsir göstərir: infrastrukturun inkişafının kifayət edici səviyyədə olmaması; yüksək ixtisaslı işçilərin çatışmazlığı və nəticədə servis xidməti səviyyəsinin aşağı olması; kütləvi informasiya vasitələrinin, daxili və xarici bazarların zəif informasiyalaşması; turizm sferasında korrupsiyanın varlığı və s.

Turizm xidmətlərinə aid olan xüsusiyyətlər turizm sənayesi təşkilatlarının da fəaliyyətini əks etdirir. Turizm sənayesi-yerləşdirmə vasitələrinin, nəqliyyat vasitələrinin, ictimai iaşə obyektlərinin, əyləncə, idrak, işgüzar, sağlamlaşdırma, idman və digər təyinatların, o cümlədən turoperator və turagent fəaliyyətini həyata keçirən təşkilatların, ekskursiya xidmətləri və gidləri-tərcüməçiləri təqdim edən təşkilatların məcmusunu özündə əks etdirir (Novikov, 2006: 92-108).

Turizmin ehtiyatlari-təbii, tarixi, sosial-mədəni obyektlərdir, bunlara həm turistlər üçün göstəriləcək obyektlər, həm də turistlərin rifahının yaxşılaşmasına olan tələblərini ödəmək, fiziki qüvvələrin bərpasına və inkişafına müsbət təsir etmək qabiliyyətli obyektlər daxil edilir.

Turizm sənayesində əsas və əlavə istehsal amillərinin nümunəsində iqtisadiyyata, sosial sferaya və ideoloji sahələrə turizmin nəzarətetmə funksiyalarınn təsirini izləmək mümkündür.

İqtisadi nöqteyi nəzərdən turizm sənayesi vahid istehsalat-əmlak kompleksidir və material-texniki bazanı, xammalı və işçi qüvvəsini birləşdirir.

Turizm sənayesi əhalinin miqrasiya prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir, planetin demoqrafik vəziyyətini optimal dərəcədə müəyyənləşdirir, həmçinin qlobal miqyasda cəmiyyətlər arası sosial-mədəni məlumatların bölüşdürülməsinə köməklik göstərir (Qalperina, 2004: 54).

Beləliklə, qeyd etmək olar ki, Azərbaycanda turizmin inkişafında müsbət dinamika müşahidə olunsa da, bu sahədə bir sıra problemlər mövcuddur. Bu problemlərin həlli isə turizm sferasının həm dövlət, həm də qeyri-dövlət müəssisələrinin birgə fəaliyyəti nəticəsində yerinə yetirilə bilər. Fikrimizcə, son illərdə ölkəmizdə turizmin inkişaf etdirilməsi ilə bağlı görülən işlər, bu sahədə qəbul edilən müxtəlif dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi həmin problemlərin birbaşa həllinə istiqamətləndirilməsini sübut edir. Qeyd etmək lazımdır ki, ölkə rəhbərliyinin müxtəlif regionlarda həyata keçirdiyi sosial siyasətdə turizmin rolu danılmazdır və bu məsələlərin həllində turizm strateji əhəmiyyətli məsələ kimi çıxış edir. Bu qeyd edilənlər ölkə iqtisadiyyatının inkişafında ixtisaslaşmış turizm sənayesinin inkişaf etdirilməsinin strateji əhəmiyyət kəsb etdityini göstərir.

**Nəticə**

Beləliklə, Azərbaycan yüksək turizm potensialına malikdir. Regionlarda turistəri cəlb edən potensiala malik obyektlər üçün geniş imkanlar yaranır ki, bunların da inkişafı bütün növ infrastrukturun yaradılması həyata keçirilmədəm mümkün deyil və ölkədə turizm potensialından tam mənada istifadə edilə bilmir. Yaranmış vəziyyətin dəyişdirilməsi üçün dövlətin turizmin sənayesi problemlərinin həllində aktiv iştirakı vacib şərtlərdəndir və bunlara da yaradılacaq turizm-rekreasiya komplekslərinin mühəndis infrastrukturunun tikilməsinə böyük xərclərin tələb edilməsi, uzunmüddətli investisiya qoymağa marağı olan investorların azlığı və ya olmaması, müvafiq kadr hazırlığının və göstərilən xidmətin yüksək səviyyədə olmaması daxildir. Odur ki, milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamət kimi ixtisaslaşmış turizmin formalaşdırılması turizm sənayesinin davamlı inkişafını təmin etməyə, ölkənin mövcud turizm potensialından səmərəli istifadəyə, bu sektora daxil olan müəssisələrin qarşılıqlı əməkdaşlığının və xidmət keyfiyyətinin yüksəldilməsinə istiqamətləndirilməlidir.

İstifadə edilmiş ədəbiyyatlar

Məmmədova Ü. İ. Tutizm sektorunun dövlət tənzimlənməsi sahəsində beynəlxalq təcrübə. AMEA İqtisadiyyat İnstitutu. “Elmi əsərlər” toplusu. Bakı. 2018, №3, səh.112-119

Ачмиз А. К. Туризм как социально-культурное явление. Электронный ресурс / Ачмиз А.К. II Теория и практика общественного развития: 2010. №1, с. 59-68

Боханов В. В. Организационные и экономические аспекты развития историко-культурного туризма в регионе (на примере Смоленской области) : автореф. дис. на соиск. учен, степ: канд. экон. наук . М. : МГУС. 2007. - 28 с.

Гальперина Т. И. Актерское мастерство в деятельности менеджера туристкой анимации. М. : РИБ «Турист». 2004, 54 с.

Долженко Г. П. Основы туризма. М. : ИКЦ «Март». Ростов н/Д : Издательский центр «Март». 2008, 320 с.

Новиков В.С. Характерные черты туризма XXI века – устойчивое и инновационное развитие [Текст]. Сборник научных статей МАТ и ГРБ. Москва. 2006, №10, с. 92-108

Зорин, И. В. Туризм как вид деятельности. М. : ЮНИТИ-ДАНА. 2006, 255 с.

**Aygün Səmədova**
*Azərbaycan Kooperasiya Universiteti, dissertant*
*aygün.samedova@yahoo.com*

# TURİZM POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİNDƏ KƏND ƏRAZİSİNİN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİNİN ROLU

**Açar sözlər:** turizm, resurs, istehsal, iqtisadi potensial, qiymətləndirilmə

## Giriş

Turizm sferasinin inkişafında perspektivli sahələrin müəyyənləşdirilməsi və regional rəqabətqabiliyyətli turizm məhsulunun formalaşdırılması məqsədilə ilk öncə "turizm potensialı" və "turist-istirahət" anlayışlarını aydınlaşdırmaq, həm də regionun turizm potensialının qiymətləndirilməsinə kompleks yanaşmaların sistemləşdirilməsini təmin etmək vacib şərtlərdən biri hesab edilir. Odur ki, ölkədə turizm sferası fəaliyyətinin təşkili məqsədi ilə turizmin potensialının kompleks araşdırılmasına ehtiyac vardır.

Turizm sferası fəaliyyətinə kompleks yanaşma ilk növbədə turizm müəssisələrinin fəaliyyət mexanizmini qiymətləndirmək üçün əlverişli şərait yaradır, bu zaman kompleks ön şətrlərin nəzərə alınması onun hərtərəfli qiymətləndirilməsinə imkan yaratmış olur.

## Turizm potensialının tədqiqinin konseptual əsası

Turizm sferasının prioritetlərinin inkişafını müəyyənləşdirmək üçün ölkənin turizm resurslarının mövcudluğu potensialının araşdırılması mühüm şərtlərdən biridir. Svyatoxonun fikrincə ölkədə turizm potensialının tədqiqinin konseptual əsasını, təbii şərait və ehtiyatların birləşməsi vasitəsilə, onun təbii potensialı müəyyənləşdirir (Svyatoxo, 2007: 30-36). Bu konsepsiya bütövlükdə regionun təbii potensialının hərtərəfli qiymətləndirilməsini təmin edə bilir. Fikrimizcə, müəllifin təklif etdiyi konsepsiyanın əsas üstünlüyü ondadır ki, o, hər bir regionun ayrı-ayrılıqda turizm potensialının qiymətləndirilməsi istiqamətində aparılmış ən əlverişli metod hesab edilir. Həmin metodun tətbiqi həm ayrılıqda regionların turizm potensialını, həmçinin turizm müəssisələrinin turizm məhsulu istehsalını, realizasiya edilməsini öncədən müəyyənləşdirməyə əlverişli şərait yaradır.

Turizm biznesinin inkişaf etdirilməsi bir çox səbəblərə görə əsaslandırıla bilər: turizm fəaliyyətinə başlamaq üçün çox da böyük həcmli investisiyaya ehtiyacın olmaması; turizm xidmətlərinə tələbatın artmasını şərtləndirən imkanıların mövcudluğu; turizmin digər xidmət sahələri ilə müqayisədə rentabellik səviyyəsinin yüksək olması; turizm sferasına qoyulmuş xərclərin özünü ödəmə qabiliyyətinin az müddət tələb etməsi və digər sahələrlə müqayisədə qısa müddətdə gəlir gətirmə ehtimalının yüksək olması və s.

Turizm sənayesində göstərilən xidmətlərin həcminin artım dinamikası yeni iş yerlərinin sayının digər müəəsisələrə nisbətən daha da çox artmasına gətirib çıxarır. Bu baxımdan turizm xidmətlərinə tələbatın artması və bu sferada yeni iş yerlərinin yaradılmasının vaxt aralığı minimumdur. Lakin çox əfsusluqla qeyd etmək lazımdır ki, Azərbaycana turist axınının davam etməsinə baxmayaraq turizm sənayesinin ölkə iqtisadiyyatına təsiri hələlik əhəmiyyətli dərəcədə hiss edilmir. Bu məqsədlə də, turizmdə real investisiyaların artırılması, mehmanxana tələbatı səviyyəsinin yüksəldilməsi, mehmanxanalarda yerli və beynəlxalq turistlərin nisbətən aşağı qiymətlərlə yerləşdirilməsi, bu sahədə ixtisaslaşdırılmış kadr çatışmazlığının aradan qaldırılması və s. turizm sənayesini bu sahənin inkişafına dövlətin qoyduğu xərclərlə adekvat edir

Fikrimizcə, turizm potensialını daha da kompleks müəyyən edən anlayış material və qeyri-material resursların məcmu halında istifadə edilməsi hesab edilir və burada turizm sferasının fəaliyyətindəki fərqli risklərin müəyyən çərçivədə olması əsas şərtdir (şəkil 1).




**Şəkil 1. Turizm potensialı kompleksini müəyyənləşdirən resurslar və risklər**
Qeyd: (1;5) materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Beləliklə, müəlliflərin əksəriyyət hissəsi turizm potensialını regionun resurs (təbii) potensialı əsasında müəyyənləşdirməyi təklif edirlər. Bu təkliflərlə razılaşmaq mümkündür, belə ki, onun realizasiyası turistlərin tələbatını təmin etmək məqsədi ilə turizm məhsulunu formalaşdırır. Həmçinin qeyd etmək lazımdır ki, iqtisadi rayonun (ərazinin) turizm potensialı yalnız onun resursları hesabına formalaşmır, burada rəqabətqabiliyyətli turizm məhsulunun yaradılmasına imkan verən resursların səmərəli istifadə edilməsi əsas rol oynayır.

Azərbaycanda və iqtisadi rayonların ərazilərində turizmin inkişafı büdcəyə əlavə gəlirlərin daxil olmasını, kiçik biznesin aktivləşməsini, turizmlə əlaqəli infrastrukturun (nəqliyyat, rabitə, ictimai iaşə, ticarət, xalq sənətləri) işlə təmin edilməsini şərtləndirir. Ölkədə turizm məhsullarının yeganə istehsalçısı kimi turizm müəssisələri çıxış edirlər.

Yuxarıda qeyd edilənlərə əsaslanaraq, regionun və ya ərazinin resursları baş vermə təbiətinə görə təbii-formalaşmış və idarəedilən-formalaşmış halında sistemləşdirilmiş-dir. Təbii-formalaşmış resurslara təbiətin həqiqi qüvvəsinin təsirindən formalaşan regionun turizm resursları-təbii, tarixi, mədəni, iqlim, demoqrafiki, ekoloji potensiallar aiddir (Vedenin,1969: 8-23). İdarəedilən-formalaşmış turizm resurslarına isə iqtisadi, sosial, infrastruktur və istehsal potensialı, yəni insanın səmərəli-istehsal fəaliyyətinin təsirindən formalaşmış potensial aid edilir. Bu növ turizm potensialından istifadə regionun turizm məhsulunun yaradılması üzrə inkişaf etdirilməsinə təkan verir. Bu baxımdan hər hansı bir regionda turizm fəaliyyətinin təşəkkülü yalnız xidmət sənayesinin inkişafını deyil, eyni zamanda iqtisadiyyatın qarışıq sahələrinin də inkişaf etdirilməsini, turizm xidməti bazarının təşəkkül tapmasını, bütünlükdə regional turizmin qiymətləndirilməsinə kompleks və sistemli yanaşılmasını tələb edir (Bəhərçi, 2012:304]. Regionun turizm potensialının qiymətləndirilməsində müxtəlif tədqiqatçıların fərqli yanaşmaları vardır. Rusiya Federasiyasında turizm potensialının qiymətləndirilməsi üzrə təklif edilən metodikalarda 51 göstəricidən istifadə olunur və bunlar dörd qrup resurslarda birləşmişdir: sağlamlıq, infrastruktur, mədəni və təbii. Təklif edilən bu metodikanın üstünlükləri ondadır ki, çoxlu həcmdə göstəricilərdən istifadə edilməsinə

imkan verir və bu da onun tətbiqi zamanı tədqiqatın obyektivlik dərəcəsini yüksəldir (Pşeniçnikova, 2008: 117-125).

Yuxarıda göstərilmiş metodikalarda universallıq prinsipinin olmaması onlardan xüsusi rejimli təsərrüfatçılığın spesifik şəraitinin və ya ərazinin (iqtisadi zonanın) regional xüsusiyyətlərinin nəzərə alınması ilə turizm potensialının qiymətləndirilməsində istifadə edilməsinə imkan vermir və bu da həmin sahədə digər təkliflərin tətbiq edilməsinin vacibliyini şərtləndirir.

Tədqiqar işində qarşıya qoyulmuş məsələlərin həll edilməsi məqsədi ilə regionun dayanıqlı inkişafı əsasında kənd turizminin inkişaf etdirilməsinə xüsusi diqqətin artırılması şəraitində bizə elə gəlir ki, regionun turizm potensialını formalaşdıran kənd turizminə aid resurslarının aşkar edilməsi çox vacib şərtlərdən biridir.

Kənd turizmi turizm fəaliyyətinin bir növü olub bir sıra xüsusiyyətlərə malikdir. Bu sahədə xarici ölkələrdə aparılmış elmi tədqiqatların təhlili əsasında öz fikirlərimizi cəmləşdirərək qeyd edə bilərik ki, kənd turizmi Azərbaycanın turizm xidməti bazarı üçün bu sahədə nisbətən yeni bir istiqamətdir və bunun genişləndirilməsi həm regionların inkişafına, həm də orada məskunlaşmış əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təkan verməklə yerli və xarici vətəndaşların regionlara axınını şərtləndirir.

Azərbaycanda kənd turizminin cəlbediciliyinin qiymətləndirilməsinə metodiki yanaşmanın tətbiqi məqsədi ilə kənd yerlərində turizmin təşəkkülü və formalaşmasına təsir edən əsas amillərin aşkar edilməsi vacib şərtlərdən biridir. Kənd turizmi elə bir turizm fəaliyyətidir ki, burada turist bilavasitə kənd sakininin qonaq evində yaşayır, odur ki, kənddə turistin yerləşməsi vəziyyətinin vacibliyi kənd əhalisinin sayı və sıxlığını əks etdirir və kənd turizmi bazarının həcminin müəyyənləşdirilməsinə imkan verir. Kəndin turizm sahəsinin potensialı qiymətləndirildikdə ərazinin ekoloji cəhətdən əlverişli olmasına xüsusi fikir verilir, belə ki, turizmin bu növü yalnız kənd ərazisinin inkişaf xüsusiyyəti ilə tanış olmağa deyil, həmçinin turistin rekreasiyasına da istiqamətləndirilir. Kənd turizmində də turistin sağlamlaşdırılması ilə əlaqəli şəraitin yaradılması turizm məhsulunun formalaşmasında vacib məsələlərdən biridir. Eyni zamanda kənddə turistin yerləşdirilməsi ərazidəki ətraf mühitin təsiri şəraiti nəzərə alınmaqla həyata keçirilir. Ekoloji cəhətdən təmiz və natural ərzaqdan istifadə edilməsi turistin yalnız qidalanma rasionunun dəyişdirilməsinə deyil, eyni zamanda onun sağlam həyat tərzi sürməsinə də imkan verir. Odur ki, kənd ərazilərinin qiymətləndirilməsində ətraf mühitin çirklənmə səviyyəsi və vəziyyətinin nəzərə alınması vacibdir və bütün bunlar yeni növ turizmin, kənd turizminin formalaşmasında turistlərin marağını cəlb edir.

Fikrimizcə ərazinin kənd turizmi potensialının qiymətləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərən yuxarıda qeyd edilmiş xüsusiyyətlər özündə bir sıra amillərin yığımını əks etdirir ki, bunlar da müxtəlif baş vermə təbiətinə malik olmaqla kənd turizminin inkişafı baxımından turistlərə kənd ərazisinin cəlbediciliyinin qiymətləndirilməsinə imkan verir və bu da həmin məsələnin həllində kompleks yanaşmanın vacibliyini əks etdirir. Belə bir şəraitdə regionun kənd ərazisinin turizm səviyyəsinin qiymətləndirilməsində taksonometrik metodların tətbiqi mövcud məsələnin həllində vacib şərtdir. Taksonometrik metodun tətbiqi kənd turizminin potensialı səviyyəsinə təsir edir amillər əsasında müqayisəli təhlilə əsaslanır. Bu metod tətbiq edildikdə müxtəlif kənd turizmi potensialına malik olan kənd ərazilərinin reytinq səviyyəsi tərtib olunur. Beləliklə, turizm məhsulunun formalaşdırılması regionun kənd ərazilərinə imkan verir ki, onlar yeni inkişaf traektoriyasına çıxsınlar və istehsal etdikləri turizm məhsullarını kənd təsərrüfatı istehsalında yerləşdirməklə turizm xidməti bazarlarının inkişaf sferasına istiqamətləndirə bilsinlər. Əvvəldə qeyd edildiyi kimi, ərazinin rəqabətqabiliyyətliliyi dayanıqlı inkişafa keçid zamanı öncədən qabaqlayıcı əhəmiyyətə malikdir. Odur ki, dayanıqlı inkişaf ərazisinə malik Azərbaycanın rəqabətqabiliyyətlilik səviyyəsinin müəyyənləşdirilməsi vacibdir.

Fikrimizcə, müasir şəraitdə kənd ərazilərində turizm potensialının qiymətləndirilməsinə vahid yanaşma metodikası yoxdur və müəlliflərin çoxu fərdi metodiki hesablamalar təklif edirlər ki, bunlar da kənd ərazisinin inkişaf xüsusiyyətlərinin nəzərə alınmasına imkan vermir. Beləliklə, kənd turizminin çox aşağı səviyyədə tədqiq edilməsi regionun (ərazinin) turizm potensialının qiymətləndirilməsində vahid yanaşma metodikasının olmadığını göstərir. Qeyd etmək lazımdır ki,

bütünlükdə iqtisadi rayonların rəqabətqabiliyyətinin formalaşdırılmasında kənd ərazisinin sosial-iqtisadi vəziyyəti mühüm yer tutur.

**Nəticə.**

Tirizm sənayesinin ölkəmizin iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsirinin təmin edilməsi məqsədi ilə bu sahədə ilk növbədə aşagıdakı işlərin yerinə yetirilməsini vacib hesab edirik: turizmdə real investisiyaların artırılması; mehmanxana tələbatı səviyyəsinin yüksəldilməsi, mehmanxanalarda yerli və beynəlxalq turistlərin nisbətən aşağı qiymətlərlə yerləşdirilməsi, bu sahədə ixtisaslaşdırılmış kadr çatışmazlığının aradan qaldırılması və s. kimi problemlərin həlli bu sahənin inkişafına dövlətin qoyduğu xərclərlə adekvat edir; dövlət və turizm sahəsində çalışan müəsisələrin işlərini birgə fəaliyyət çərçivəsində yerinə yetirməklə xarici ölkələrin iqtisadi inteqrasiya aktivlərinin turizmin inkişaf etdirilməsinə istiqamətləndirməsi.

**İstifadə edilmiş ədəbiyyatlar**

[1]Андреев В.Е. Конкурентоспособность региона и методика ее оценки.-М: Финансы и статистика.2001,165 стр.

[2]Bəhərçi T.,Mehdiyeva V. Azərbaycan Respublikasının təbii şəraiti, təbii ehtiyatları, onların iqtisadi-ekoloji qiymətləndirilməsi. Bakı: ” İqtisad Universiteti” nəşriyyatı. 2012. 304 s.

[3]Веденин Ю.А. Оценка природных условий для организации отдыха// Известия АН СССР. Сер: географическая.1969, №4. стр.8-23

[4]Пшеничникова Р.И.Развитие туристско-рекреационной особой экономической зоны «Байкал» в республике Бурятия-подготовка кадров// журнал СвВС и за рубежом. М.2008,№2,стр.117-125

[5]Святохо Н.В. Концептуальные основы и исследования туристского потенциала региона // Экономика и управление.2007.№2,стр.30-36

**Sevda Həsənova**
*Bakı Avrasiya Universiteti, doktorant*
*sevda.hesenova.73.mail.ru*

# STRATEJİ YOL XƏRİTƏSİNDƏ VƏ DİGƏR DÖVLƏT PROQRAMLARINDA REGİONLARDA MƏŞĞULLUQ VƏ İŞSİZLİYİN TƏNZİMLƏNMƏSİNİN İQTİSADİ İNKİŞAFDA YERİ

**Açar sözlər: milli iqtisadiyyat perspektivi, innovasiya fəallığı, məşğulluq imkanı, kadr hazırlığı, sosial-iqtisadi inkişaf**

**Giriş**

Ölkəmizdə sosial-iqtisadi inkişafın davamlılığının təmin olunması istiqamətində qəbul olunmuş Strateji Yol Xəritəsinin və regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının həyata küçirilməsinin müstəsna əhəmiyyəti vardır. 2004-cü ildən başlayarq bu günkü günə kimi uğurla icra olunan Dövlət Proqramları regionlarda əsaslı dəyişikliklər etmiş, sosial-iqtisadi inkişaf potensialının artmasına, investisiya mühitinin genişləndirilməsinə, turizmin inkişafının təmin olunmasına, infrastrukturun inkişaf etdirilməsinə, məşğulluğun səviyyəsinin artırılmasına, insan resurslarının inkişaf etdirilməsinə, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaratmışdır. Son illərdə Azərbaycan Respublikasında əmək bazarı siyasəti əlverişli beynəlxalq iqtisadi meyllər, tələbə əsaslanan makroiqtisadi idarəetmə və əhəmiyyətli nəticələr əldə etmək üçün bir araya gələn məşğulluq məsələsinə siyasi yanaşma şəraitində inkişaf etmişdir. İnnovativ inkişafla iqtisadiyyatın modernləşdirilməsi ixtisaslı kadrlara tələbatı formalaşdırmış, yüksək məhsuldarlıq və layiqli əməkhaqqı ilə səciyyələnən səmərəli iş yerlərinin yaradılması ilə nəticələnmişdir. Əhalinin məşğulluğu və insan kapitalının inkişafı istiqamətində aparılan məqsədyönlü dövlət siyasəti məşğulluq sahəsində dövlət siyasətinin səmərəliliyinin artırılmasını, sahibkarlıq imkanlarının genişləndirilməsini, əmək bazarında işçi qüvvəsinin keyfiyyətini müasir iqtisadiyyatın tələblərinə uyğunlaşdırılmasını, rəqabətə davamlı kadr potensialının formalaşdırılmasını, gənc işçilərin və mütəxəssislərin sosial müdafiəsinin gücləndirilməsinə istiqamətləndirilən tədbirlərin həyata keçirilməsini, inklüziv məşğulluğun stimullaşdırılmasını təmin etmişdir.

**Təhlil**

Azərbaycan Respublikasında Regionların sosial-iqtisadi inkişafına dair 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə dövlət proqramları ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, iqtisadi sabitliyin təmin olunması, regionlarda sahibkarlığın inkişafı üçün münbit şəraitin yaradılması, yeni müəssisələrin və iş yerlərinin açılması, irimiqyaslı infrastruktur layihələrinin icrası və nəticə etibarilə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və məşğulluğun səviyyəsinin artırılmasında müstəsna əhəmiyyət kəsb etmişdir. Qəbul olunmuş Dövlət Proqramlarının məqsədi Azərbaycan Respublikasında daxili potensialdan səmərəli istifadə edilməsi, iqtisadiyyatın liberallaşdırılması, əhalinin sosial rifahının gücləndirilməsi, yoxsulluğun azaldılması, məşğulluğun artırılması, ümumilikdə ölkədə insan potensialının qorunması və inkişaf etdirilməsi olmuşdur.

**Uğurlu sosial-iqtisadi inkişaf strategiyası ölkənin dinamik tərəqqisi şəraitində yeni iş yerlərinin açılmasının daimi xarakter almasına, əhalinin səmərəli məşğulluğunun təminatı istiqamətində dövlət siyasətinin güclənməsinə şərait yaratmışdır.** Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında bütün regionlarda mövcud potensialdan daha səmərəli istifadə etməklə qeyrineft sektorunun inkişafı, kommunal xidmət və digər infrastruktur obyektlərinin, yeni istehsal və emal müəssisələrinin yaradılması, mövcud müəssisələrdə istehsal fəaliyyətinin genişləndirilməsi, sosial infrastrukturun yaxşılaşdırılması, eyni zamanda müasir standartlara uyğun təhsil, elm, səhiyyə, mədəniyyət və idman obyektlərinin yenidən qurulması üzrə kompleks tədbirlər nəzərdə tutulmuşdur. Dövlət Proqramının tədbirlər planına ölkə əhəmiyyətli tədbirlər və ölkənin iqtisadi rayonları səviyyəsində

həyata keçiriləcək tədbirlər daxil edilmişdir. Həyata keçirilən məqsədyönlü dövlət proqramının nəticəsi olaraq 2017-ci ildə 177 mindən çoxu daimi olmaqla, 221 min yeni iş yeri yaradılmışdır. Yaradılmış yeni müəssisələrin çox hissəsi təhsil, ticarət, nəqliyyat vasitələrinin təmiri, tikinti, peşə, elmi və texniki fəaliyyət, inzibati və yardımçı xidmətlərin göstərilməsi, emal sənayesi, kənd təsərrüfatı, informasiya və rabitə sahələrini əhatə etmişdir.

Bu Dövlət Proqramlarının davamı olaraq regionların, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlərin növbəti illərdə də davam etdirilməsi, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, yerlərdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikası regionlarının 2019-2023- cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilmişdir. Bu proqramlar çərçivəsində ölkədə infrastruktur və sosial layihələrin icrasına, həmçinin yeni müəssiələrin və iş yerlərinin yaradılmasına diqqət ayrılmışdır. Bakı şəhəri və onun qəsəbələri, eləcə də Şamaxı, Qobustan, Beyləqan, Ağsu rayonlarında və Sumqayıt şəhərində 30-a yaxın obyekt üzrə - yeni müəssisələr fəaliyyətə başlamış, elektrik təchizatı obyektləri, su təchizatı layihələri həyata keçirilmiş, səhiyyə, təhsil və sosial xidmət müəssisələri istifadəyə verilmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrasının əsas uğurlu nəticələrindən biri də yeni iş yerlərinin yaradılması olmuşdur. 2004-cü ildən 2019-cu il də daxil olmaqla ölkədə 2,3 milyon yeni iş yeri yaradılmışdır. “Azərbaycan Respublikası regionlarının 2019-2023- cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası çərçivəsində 2019-cu ilin 6 ayı ərzində 92 min yeni iş yeri açılmışdır. Nəticə etibarilə hesabat dövründə ölkə üzrə 7198 yeni müəssisə yaradılmışdır. Bu da ölkədə məşğulluğun səviyyəsinin yüksəldilməsinə öz töhvəsini vermişdir. Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması məqsədilə 2004-2018-ci illər ərzində də innovasiya xarakterli texnologiyaların tətbiqi davam etdirilmiş, müəssisələrin istehsal potensialı artırılmış, ölkə sənayesində 2,6 dəfə real artım qeydə alınmışdır (“Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, 2019:7).

Ölkəmizdə məşğulluq və işsizliyin tənzimlənməsi istiqamətində ardıcıl olaraq Dövlət Proqramları qəbul olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası” 2006-2010-cu illəri əhatə etmişdir. Onun davamı olan “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı” qəbul edilmişdir. Məşğulluq istiqamətində həyata keçirilən bu proqramlar işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, işsizlərin, sosial həssas əhali təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə, əmək bazarının təkmilləşdirilməsinə, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşmasına, rəqabət gücünün artırılmasına, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılmasına əsaslı təsir göstərmişdir. Dövlət Proqramları insan kapitalının inkişaf səviyyəsinin yüksəlməsinə, səmərəli işgüzarlıq mühitinin formalaşmasına, işçi qüvvısinə tələbatın stimullaşdırılmasına, investisiya fəallığının artırılmasına şərait yaratmışdır. Proqramların icra olunmasında əsas məqsəd əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən sosial, iqtisadi, siyasi və institusional mühitin formalaşdırılması idi. Regional iqtisadi əlaqələrin genişləndirilməsi, ədalətli rəqabət mühitinin formalaşdırılması və inkişafı, əmək bazarının tənzimlənməsinin təkmilləşdirilməsi, işsizlərin sosial müdafiəsinin təmin edilməsi, işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə kömək edən xüsusi tədbirlərin həyata keçirilməsi, peşə təhsilinin əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması, məşğulluq və işsizlik səviyyəsinin real vəziyyətinin qiymətləndirilməsi, əmək bazarının tələblərini nəzərə alaraq rəqabət qabiliyyətli ixtisaslar üzrə kadrların hazırlanması istiqamətində peşə təhsili sisteminin təkmilləşdirilməsi, insan amilinin inkişafına yönəldilmiş investisiyaların cəlb edilməsi dövlət proqramlarının əsas vəzifəsi olmuşdur. Nəticə etibarilə ölkədə əmək ehtiyatları keyfiyyətcə yaxşılaşdırılmış, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şərait yaradılmış, kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılmışdır. Əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş institusional mühit təkmilləşdirilmişdir. Beynəlxalq standartlara uyğun işgüzarlıq mühiti formalaşdırılmışdır. Məşğulluq Strategiyasının

icrası dövründə işsizlik səviyyəsi 7,3 faizdən 5 faizədək, yoxsulluq səviyyəsi 29,3 faizdən 4,9 faizədək azalmış, əhalinin gəlirləri 5,2 dəfə, minimum əməkhaqqı 3,5 dəfə, orta aylıq nominal əməkhaqqı 3,8 dəfə artmışdır (“2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”, 2019:1).

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli Sərəncamı ilə Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün tədbirlər planı təsdiq edilmişdir. **“Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı” növbəti beş ildə məşğulluq sahəsində mühüm irəliləyişlərə imkan yaradır.** Aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin əmək bazarına inteqrasiyasının gücləndirilməsi tədbirlər planının əsas bölməsi hesab olunur. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi işinin gücləndirilməsi məsələsi tədbirlər planında vacib məsələ kimi öz əksini tapmışdır. Əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi, qeyri-formal əmək münasibətlərinin qarşısının alınması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin əmək bazarına inteqrasiyasının gücləndirilməsi, işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi tədbirlər planına daxil edilmişdir. Eləcə də həmin dövr ərzində əlilliyi olan şəxslər üçün inklüziv əmək şəraitinin yaradılması məqsədilə müvafiq təkliflərin hazırlanması, işə düzəlmədə vasitəçilik edən hüquqi şəxslərin vahid reyestrinin yaradılması, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazələri verilməsi sisteminin tam elektronlaşdırılması, Mərkəzləşdirilmiş Karyera Portalının işə salınmasının təmin olunması qeyd edilmişdir. Ölkəmizdə qeyri-formal məşğulluğa qarşı mübarizə əsas fəaliyyətlərdən hesab olunmuşdur.

**Nəticə**

Aparılan təhlillər göstərir ki, regional dövlət proqramları ölkə iqtisadiyyatında mühüm prioritetə çevrilən əsas inkişaf istiqamətlərinin reallaşdırılmasını sürətləndirir. Ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasət dövlətimizin iqtisadi qüdrətini daha da artırmaqla bərabər regionların da sosial-iqtisadi durumuna, infrastrukturunun inkişafına güclü təsir göstərir. Sosial-iqtisadi inkişafın davamlılığının təmin olunması istiqamətində qəbul olunmuş Strateji Yol Xəritəsinin və regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının həyata küçirilməsi **əhalinin məşğulluğunun təminatı, işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsi sahəsində aparılan dövlət siyasətinin və məşğulluq xidmətlərinin fəaliyyətinin təkmilləşməsinə xidmət edir. Dövlət proqramları eyni zamanda bu sahədə innovativ yanaşmaların tətbiqi ilə səmərəli iş mexanizmlərinin formalaşdırılmasına, aktiv əmək bazarı proqramlarının genişləndirilməsinə istiqamət verir.**

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri ölkəmizdə davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycan dünya iqtisadiyyatında mövqeyini gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, 2016:4).

Regionların inkişafını eyni səviyyəyə gətirmək və onların davamlı inkişafına nail olmaq Azərbaycan Respublikasında qəbul edilmiş dövlət proqramlarının vacib məsələlərindəndir. Bu məqsədlə proqramda ölkə iqtisadiyyatının neft sektorundan asılılığını azaltmaq bununla yanaşı ölkənin mövcud iqtisadi potensialından səmərəli istifadəyə nail olunması üçün qeyri-neft sahəsinin inkişfı ön plana çəkilmişdir. Bunun üçün də regionların iqtisadi və sosial inkişafına istiqamətlənmiş tədbirlərin maliyyə təminatının artırılması diqqət mərkəzində olmalıdır. Milli işçi qüvvəsinin rəqabətqabiliyyətliliyi artırılmalı, ixtisaslı kadr potensialı inkişaf etdirilməlidir.. Əmək ehtiyatlarının əsas hissəsi paytaxt Bakıda və Abşeron yarmadasında cəmlənmişdir. Bu həm ölkənin iqtisadi inkişafına mənfi təsir göstərir, həm də regionların inkişafına zərbə vurur. Belə halda əmək qüvvələrinin də coğrafi bölgüsündə bərabərsizlik get-gedə daha da dərinləşir. Ona görə də əmək ehtiyatları regionlar üzrə düzgün bölüşdürülməlidir. Regionlarda investisiya cəlb ediciliyinin

artırılması məqsədilə investorlar üçün münbit şərait yaradılmalıdır. Əgər investorların hüquq bərabərliyi təmin edilərsə daha çox sosial-iqtisadi səmərə əldə etmək olar. Regionlar üzrə resurs potensialını nəzərə alaraq məhsul istehsalı ilə məşğul olan müəssisələrin yaradılması da məqsədə uyğun hesab edilə bilər. Sosial-məişət infrastrukturlu obyektlərin tikilməsi regionlarda iş yerlərinin artmasını və eyni zamanda həmin məhsullara tələbatının ödənilməsini təmin edər.

## ƏDƏBİYYAT


“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”, 2016:4

“Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, 2019:7

“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (2004-2008, 2009-2013, 2014-2018)

“2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”, 2019:2

# II PANEL
# SOSİOMƏDƏNİ ASPEKTLƏR VƏ HƏMKARLAR İTTİFAQI

**Нигинахон Шермухамедова**
*доктор философских наук, профессор кафедры "Философии и логики"*
*Ташкентского государственного университета* **(Узбекистан)**

## ГУМАНИЗАЦИЯ ОБРАЗОВАНИЯ

**Ключевые слова:** *гуманизм, образования, гуманитаризация образования, развитие человечества, философия*

В истории развития человечества центральной проблемой общественных отношений было познание индивидуального бытия, социокультурная природа человека. Ибо, как говорил Ж. Румий «Человек - говорящее животное, ему присуще и добро и зло. Но желание творить зло преобладает над желанием творить добро, и это является его таинственной природой» (Румий, 2013:184). Являясь субъектом познания человек, начинает свою деятельность с познания самого себя, и все равно он так и не может понять собственное бытие.

В настоящее время развитие человечества столкнулось с очередным кризисом, который отражается в его духовно-нравственном отчуждении. Чем больше наука вторгалась в изучение природы человека (клонирование, открытие генома человека, генная инженерия, стремление создать искусственный интеллект), тем больше она становилась тайной. И вопрос «Что есть человек» до сих пор остаётся открытым. И поэтому не удивительно то, что тема очередного Конгресса философии который будет проводиться в Пекине называется «Учится быть человеком». Это соответственно приводит к антропологизации всех сфер деятельности человека, ибо человек хочет понять окружающую действительность понимая самого себя, пропустить все через призму своего видения, а это, следовательно, требует спецификации образовательного процесса.

Система образования - это не только составляющие ее образовательные институты, но и государственная политика образования, проводимая соответствующими государственными ведомствами, а также материальное обеспечение педагогического и научно-исследовательского персонала.

Как известно система образования для любого общества является базой культурного и духовного самовоспроизводства. Именно через образование закладывается путь в будущее. Еще Пифагор говорил о значимости образования и воспитания. Он утверждал, что для того, чтобы человек претворил в жизнь свою цель, ему нужны глубокие знания. Для освоения этого знания необходимо специальное образование и воспитание (Трубецкой,1997:68). И поэтому образование по своей воспитательной сути обращено к формированию мировоззренческого начала у подрастающего поколения. Необходимо отметить и то, что трансформация системы образования применительно к новым реалиям стала глобальной проблемой, а понимание этого - доминантой отношения к системе образования со стороны государства, что положило конец представлениям о системе образования лишь как потребляющей свою долю национального продукта. Поэтому в настоящее время в Узбекистане все больше проявляется тенденция к превращению образования в крупнейшую отрасль общества, которая, с одной стороны, формирует и развивает главную производительную силу - самого человека, а с другой - является источником формирования мировоззрения, показателем степени культурности общества. Становится ясно, что могущество страны может укрепляться прежде всего системой образования. Поскольку высшее образование есть та часть системы национального образования, которая наиболее чутко реагирует на происходящие в мире изменения и тенденции развития, ему принадлежит

наиболее ответственная роль. Следовательно “антропологизация бытия человека в целом невозможна без гуманизации образования” ( Наливайко,2010:89).

И не случайно в конце XX века в рамках общего образования появилось такое понятие как гуманизация образования и основным фактором её реализации стала гуманитаризация образования.

Во-первых гуманитаризация образования была основана на идее увелечения объема гуманитарных дисциплин, которая должна была способствовать улучшению качества образования и воспитания человека нового мышления и нового отношения к реалиям. Однако на практике пришлось столкнуться с другой ситуацией, при которой сократились часы преподавания классической дисциплины – философии, более того, она была объединена с такими дисциплинами как этика, эстетика, логика, что пагубно повлияло на качество преподавания и восприятие глубинной сущности самой философии.

На наш взгляд, гуманитаризация образования - это не просто увеличение числа преподаваемых дисциплин социально-гуманитарного цикла и отводимого на них времени, а проникновение ценностей, норм гуманитарного познания в структуру естественнонаучной и технической деятельности, т.е. изменение внутренних ориентиров естествознания и технознания. Гуманизация означает, что наука должна ориентироваться не только на получение истины, но и на использование ее во благо человека. Это значит, что наука в число своих внешних ориентиров должна включать также вопросы и о своей смыслообразующей деятельности, о сущности человека, его предназначении, гуманистическом смысле человеческой цивилизации. При этом акцент должен быть сделан не просто на знание, а на умение им пользоваться. Это означает значительное смещение значимости от обучения к воспитанию - речь идет не об отмене значимости узко профессионального образования, а о погружении его в контекст мировоззрения, в поле культурной исторической ответственности. Быстрый рост знания, смена научных картин мира требуют усиления прогнозных компонентов знания. Речь, таким образом, идет о необходимости все большего ценностного ориентирования профессиональной деятельности, о введении внутрь обучения глобальных критериев - культурных, этических, экологических и т.д. Научить человека жить в соответствии с реалиями современного мира - важнейшая задача системы образования. Особая ответственность за это лежит на гуманитарном образовании, ибо от него зависит характер мировоззрения нового поколения.

В условиях, когда удельный вес гуманитарного знания в системах принятия решений в самых разных сферах деятельности резко возрастает, необходимость гуманитарной подготовки специалиста оказывается прямо пропорциональным высоте занимаемого им поста (чем выше человек находится на ступени социальной иерархии, тем сложнее и ответственнее ему приходится решать задачи, требующие широкого угла зрения на них). Поэтому гуманитаризация и гуманизация образования становятся вызовом времени, а вложения в эту сферу - экономически самыми выгодными. Система образования должна не только чутко реагировать на все достижения научной мысли и потребности общественной практики, но и быть постоянно нацеленной на будущее. Чем полнее и гибче система образования реагирует на запросы жизни, тем мощнее ее влияние на развитие других сфер жизни общества. Поэтому одной из очередных задач высшего образования является ликвидация образовавшегося разрыва между наукой и системой образования. Отсюда становится ясно, что высшее образование предполагает творческое развитие мышления, ибо только на его основе можно решать нестандартные задачи, постоянно выдвигаемые жизнью. Следовательно, важнейшей составляющей высшего образования является воспитание стремления к постоянному обновлению знания и творческого потенциала. Это, в свою очередь, предполагает формирование глобального видения мира.

Второй путь в решении проблем гуманизации образования был обозначен как переход от субект-объектного обучения к личностно-ориентированному. Этот переход предполагал формирование новой мотивации в получении образования, функционирование образовательной системы в режиме доминирования самостоятельного усвоения знаний,

непрерывного самосовершенствования личности обучающегося. Но к сожалению, и это направление гуманизации образования не получило должной реализации. Во-первых, мотивация в основном вытекает из рыночных отношений, господствующих в обществе. В сознание молодого поколения доминирует прагматический и меркантильный интерес в получении образования, что приходит в противоречие с целью формирования всесторонне развитой личности, обладающей мировоззренческой и гражданской позицией. Отсутствие идейного содержания мотивации приводит к деформации сознания в сторону потребительской психологии, нигилизма и отсутствия духовности. Во-вторых, упор на самостоятельное овладение знаниями трубует наличия соответствующей материальной базы (специальные учебники, ТСО), организационных решений (уменьшения количества студентов в потоках, в группах) овладение самими преподавателями и студентами методиками личностно-ориентированного обучения.

Третье направление в гуманизации образования было обозначено как формирование национальной модели. Здесь особое внимание было уделено повышению количественного и качественного уровня обучения на государственном языке, что привело к утрате знания иностранных языков. А также, была поставлена задача обновления содержания гуманитарных дисциплин по пути деидеологизации (устранения штампов советского времени и наполнения образования национальным компонентом). Следующая предпринятая попытка была направлена на создание собственной модели образования, которая учитывала бы национальную специфику и исторические сложившиеся его формы. Если первая и вторая задача успешно решались, обновлялись программы, учебники, то третья задача по сути свелась к реформированию всей системы образования по пути принятия западных стандартов в рамках решения проблемы интеграции в мировое образовательное пространство. При всей необходимости и позитивности процесса интеграции механическое заимствование определенных образцов западной системы образования, не подкрепленное соответствующей материальной, методологической, организационной базой, приводит как к дискредитации самой идеи, так и к болезненому разрушению всего позитивного, что было исторически нарабонано в самой национальной системе образования.

Следовательно, систему образования, возникшую и развившуюся в одной стране, нельзя механически переносить в другую страну, в другие исторические условия. Поэтому для республики Узбекистан приоритетным является сохранение положительных традиций накопленного опыта сложившихся научных школ в ведущих отечественных вузах и научно - исследовательских институтах.

Любая система образования предполагает собственную ментальность, которая продиктована национальными, культурными, цивилизационными особенностями. Любая система образования прошла определенное историческое развитие, выработала свои определенные идеалы, формы и традиции. “Развитие человеческой цивилизации в своей природе предполагает многообразие образовательных систем на основе разнообразия ментальных основ образования, что и признают все международные документы по реформированию мировой системы образования (Яценко,2010:147). Интеграция в мировую образовательную систему должна быть не слепым копированием чужих моделей образования, а вхождением в нее с собственной моделью, отвечающей международным стандартам, собственными идеями, выработанными многими поколениями. Эффективной может быть лишь интеграция, основанная на четком представлении всех плюсов и минусов собственной системы образования, система учета роли заимствований и их последствий

Как видно, вышеуказанная парадигма развития системы образования не решает всех проблем, стоящих перед обществом, особенно в сфере формирования духовной культуры подрастающего поколения. Поэтому нужна комплексная программа по развитию национальной системы образования, одной из составляющих которой была бы программа духовного воспитания подрастающего поколения. Нужен новый парадигмальный подход, учитывающий особенности цивилизационных процессов, вызывающих кризис в духовном обновлении человеческой культуры.

На наш взгляд, и гуманитаризация и гуманизация и интеграция являются частью более общей проблемы, которую можно, как раз и назвать “антропологизацией” образования. Вся история образования позволяет говорить об “антропоцентричности” как сущностном начале и наполнении образования.

Сегодня в условиях структурных преобразований всех сфер человеческой деятельности, когда уровень интеллектуальной подготовки населения становится не менее важной составляющей страны, совершенствование системы образования, повышение его уровня и качества становится основополагающей составляющей, ведущей к повышению международного имиджа нации, ее морального авторитета, а также качеству ее человеческого потенциала. Ибо наличие образованных кадров в стране может стать стратегической прерогативой дальнейшей модернизации общества.

**Литература**

Румий Ж. Ичиндаги ичиндадир.-Т.: Янг и авлод. 2013

Трубецкой С.Н. Курс истории древней философии. – М., 1997

Наливайко Н.В. Специфика модернизации образования.- Москва, 2010

Яценко. Стратегические аспекты в модернизации конкурентоспособности современного вуза. Москва, ИНИОН РАН, 2010

**Neginaxon Şermuhammedova**

# TƏHSİLİN HUMANİSTLƏŞMƏSİ

## Xülasə

Məqalədə müasir təhsilin müxtəlif problemləri, o cümlədən, onun humanistləşmə zərurətləri müzakirə olunur. Təhsilin formalaşan xüsusiyyətlərini və onun tarixi tiplərini nəzərə alan milli təhsil modelinin formalaşması humanizmin tərkib hissəsi kimi çıxış edir. Bildirilir ki, dünya təhsil sisteminə xarici təhsil modellərinin sadəlöbh kopyalanması ilə deyil, beynəlxalq standartlara cavab verən öz modelimizlə, bir çox nəsillərin inkişaf etdirdiyi fikirlərimizlə inteqrasiya olunmalıyıq.

**Еркин Байдаров**

*ведущий научный сотрудник Института востоковедения им. Р.Б. Сулейменова Комитета науки МОН РК, доцент факультета востоковедения Казахского национального университета им. Аль-Фараби, кандидат философских наук, профессор Российской Академии естествознания* **(Казахстан)**

# АНАЛИЗ БЕЗОПАСНОСТИ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ ГОСУДАРСТВ ЦЕНТРАЛЬНОЙ АЗИИ

*Ключевые слова: национальная безопасность, политика, глобальные процессы, современность, многовекторная внешняя политика*

Кардинальные социально-экономические и политические преобразования, происходящие сегодня в Республике Казахстан, приводят к росту национального сознания, научному осмыслению прошлого исторического опыта, дают возможность по-новому осмыслить те процессы, происходящие в настоящее время и предвидеть будущее, являясь тем самым основой осмысления нами феномена цивилизации и диалектики глобальных процессов современности.

Это тем более важно, когда в эпоху перемен в жизни общества неизбежно возникают вопросы о причинах и смысле совершающегося, попытки хотя бы теоретически наметить выход из кризисной ситуации, оправдать или отвергнуть настоящее, обосновать свои исторические цели, социально-политические программы на будущее, формируемые в терминах, адекватных времени. Все это вместе приводит к оживлению той области знания, которая названа Вольтером «*философией истории*» и является осмыслением социальной действительности, основанной на ретроспекции прошлого и иногда конструировании будущего с целью «упорядочить» историческое пространство и время.

К тому же процесс осмысления своеобразия современного мира, его целостности актуален для всех стран мира и их сообществ. В условиях образования многополярного мира особый интерес представляет изучение внешней политики восточных стран, участие которых в глобальной мировой политике сегодня становится все более активным. В данном контексте обращает на себя внимание политика многовекторности и безопасности Республики Казахстан, которая с самого начала обретения независимости превратила ее в главный принцип внешней политики, **определив как «развитие дружественных и предсказуемых взаимоотношений со всеми государствами, играющими существенную роль в мировых делах и представляющими для нашей страны практический интерес»** **(**Ертысбаев, 2001:510).

Несмотря на довольно значительный имеющийся материал по внешнеполитической деятельности Республики Казахстан с момента обретения независимости в конце XX в. **(**Токаев, 1997:594**)**, следует отметить, что до сих пор не был осуществлен социально-философский анализ политики многовекторности и безопасности внешней политики страны. Такой анализ необходим, поскольку многовекторность и безопасность внешней политики РК основываются на историческом прошлом страны, политических традициях и практике**, уходящей своими корнями в XV век, к моменту образования Казахского ханства (1465), одной из правопреемниц Золотой орды, крупнейшего государственного образования Евразии эпохи средневековья.**

Философия исторических событий на евразийском пространстве и, в частности, на территории одного из его крупнейших регионов Центральной Азии, показывает, что многовекторность во внешней политике, а также связанные с ней вопросы безопасности и прежде и ныне были направлены именно на основные географические направления, став

следствием «географического расположения» (Ертысбаев,2001:462). Такая интерпретация содержит в себе базовый элемент современной внешнеполитической доктрины стран региона.

В данном контексте многовекторная внешняя политика государств Центральной Азии на современном этапе их развития наряду с физической рефлексией на географическое окружение, является своего рода «ответом» нового субъекта международных отношений на «вызовы» сложной, непредсказуемой среды.

*С чем это связано?*

Во-первых, необходимость проведения многовекторной внешней политики была обусловлена расположением Казахстана и других стран региона на обширной территории между двумя крупными государствами, такими как Россия и Китай.

Во-вторых, особенности внешней политики объясняются и тем, что на протяжении веков и на современном этапе выход на мировые рынки для Казахстана и стран Центральной Азии из-за отсутствия морских границ возможен только через территории сопредельных государств.

В свою очередь, небольшая численность и малая плотность населения в Казахстане при обладании большой территорией также вынуждает решать проблемы сохранения суверенитета и территориальной целостности, сохраняя компромисс в отношениях с соседями.

И, не в последнюю очередь, интерес мировых геополитических и геоэкономических центров силы к Казахстану и центрально-азиатскому региону в целом, немалая часть которого связана с ресурсным потенциалом республик, также способствует многовекторному выбору внешнеполитических приоритетов **(**Лаумулин, 2004**)**.

Соглашаясь с мнением казахстанского политолога М. Лаумулина, что многовекторность означает балансирование между различными геополитическими центрами силы, оказывающими влияние на Казахстан и на Центральную Азию, отметим, что государствам Центральной Азии сам Всевышний велел использовать систему координат Global Politics так, как необходимо для сохранения своих национальных интересов. В этом аспекте, многовекторность стран региона необходимый инструментарий в дипломатических отношениях с остальным миром, который позволяет сбалансированно и одновременно равномерно поддерживать отношения с важными центрами сил и основными мировыми и региональными игроками.

Таким образом, многовекторность во внешней политике Республики Казахстан и стран Центральной Азии означает проведение тонкого и сбалансированного геополитического курса, искусную игру на противоречиях между важнейшими центрами силы современного мира, направленную на то, чтобы обеспечить национальные интересы страны и максимально ослабить свою зависимость **(**Калишевский, 2007**)**.

Соседство с двумя гигантами – Россией и Китаем, как уже было отмечено выше, вынуждает Казахстан и страны Центральной Азии маневрировать и балансировать между различными геополитическими центрами силы.

Естественно, чтобы выжить в окружении более сильных соседей, приходится принимать «правила игры» или же вести «свою игру».

У Казахстана, как и у его соседей по центрально-азиатскому региону имеются свои национальные интересы, которые необходимо решить с пользой для стран региона, и эта задача во многом будет зависеть от способностей руководства стран. В данном контексте государствам Центральной Азии важно найти общий баланс интересов и выступать единым фронтом, чтоб не оказаться пешками в чужой игре и не попасть в костер конфликтов, зажженный руками тех, кому регион нужен только для достижения собственных геополитических выгод **(**http://sayasat.org/tribune/928-o-mnogovektornosti-kazahstana-analitike-vneshnej-politike-rk,2014**)**.

Из так называемой неореалистической теории международных отношений нам известно, что страны, оказавшиеся зажатыми между сильными державами, выбирают

стратегии балансирования или присоединения к сильному (bandwagoning), стремясь обеспечить свою безопасность. На деле мотивация может быть более нюансированной и различной – балансирование, мотивированное «самосохранением и защитой уже существующих ценностей», или «присоединение к сильному лагерю, как «самовозвышение» для получения желаемых ценностей» (Randall, 1994:72-107). Если есть внешняя угроза, то выбирается стратегия балансирования во избежание потерь, если фон более позитивный, то выбирается присоединение к сильному лагерю с целью получения выгод.

Как отмечает Никола Контесси (Contessi, 2015:299-311), для небольших государств великие державы представляют собой как возможность, так и угрозу: возможность, потому что привлечение их может стать источником помощи, покровительства, престижа или других преимуществ; угрозу, поскольку очевидные диспропорции меньших стран делают их уязвимыми для усугубления зависимости от кого-то.

Согласно Контесси, страны Центральной Азии стали классическим примером «мультивекторности», которая варьируется между четырьмя типами. *Первый тип* устанавливает главную задачу многовекторной внешней политики: обеспечение национальной безопасности и утверждение и сохранение суверенитета и независимости перед большой силой. В регионе это приобретает особое значение в свете стремления России восстановить «сферу привилегированных интересов». Поэтому, несмотря на сильные культурные, лингвистические и исторические привязанности, многовекторная внешняя политика государств Центральной Азии направлена на предотвращение этого подчинения, одновременно избегая зависимости и от Запада или Китая.

*Второй тип* направлен на то, чтобы изолировать режим от системного давления, подрывающего его легитимность. Будучи недемократическими государствами и оставаясь по большей части авторитарными, страны Центральной Азии, тем не менее, декларируют свою приверженность ценностям демократии, вступив в такие западные региональные организации, как Организация по безопасности и сотрудничеству в Европе (ОБСЕ). Но одновременно страны Центральной Азии подчеркивают приверженность принципам суверенитета и невмешательства, будучи членами таких «евразийских» организаций, как Шанхайская организация сотрудничества (ШОС) и Организация Договора о коллективной безопасности (ОДКБ), используя их как параллельный источник международной (ре) легитимации.

*Третий тип* относится к диверсификации покупателей природных ресурсов. Для стран-экспортеров энергетических ресурсов цель состоит в разработке альтернативных маршрутов экспорта для диверсификации клиентской базы и увеличения прибыли. *Четвертый тип* направлен на содействие социально-экономическому развитию через диверсификацию инфраструктуры и интеграцию в глобальные транспортные маршруты(Contessi, 2015:299-311).

Какие именно интересы и тактики стоят за многовекторной политикой? Так, Елена Гнедина (Elena Gnedina, 2015), объясняет некоторые основы многовекторности с точки зрения переговорной теории, где многовекторность, это политика сотрудничества и сосуществования со всеми региональными державами. Другие, однако, считают «многовекторную» внешнюю политику как «непостоянное, бессвязное и идеологически пустое» (Taras Kuzio, 2006:89-108), поведение, что помогает постсоветским государствам воздерживаться от систематического и плодотворного сотрудничества с теми или иными странами. Например, с Россией или ЕС.

Главный аргумент Гнединой состоит в том, что «многовекторность» не является ни балансирующей стратегией, ни выбором присоединения к сильному лагерю – постсоветские элиты используют переговорную стратегию с конкурирующими внешними участниками в отношении условий сотрудничества (Elena Gnedina, 2015:1007-1029). Поскольку их способность к переговорам ограничена, постсоветские государства стремятся усилить переговорную позицию (bargaining power) посредством тактического маневрирования, преследуя свои собственные цели.

Кроме того, есть несколько предпосылок для успешной «многовекторной» внешней политики. Во-первых, внешние субъекты могут осознать стратегическое намерение более мелкого государства и в конце концов отказаться от переговорной игры. Тогда меньшее государство потеряет преимущество в переговорах и, возможно, игра окончится. Во-вторых, успех «многовекторной» политики также может зависеть от темы переговоров. Чем теснее меньшее государство переходит к формальному сотрудничеству с одним внешним субъектом, через заключение юридических соглашений о торговле, энергетике или политической интеграции, тем быстрее сужается поле для маневра для него самого. Многовекторная внешняя политика, следовательно, представляет собой результат совокупного коллективного выбора политическими элитами, действующими под значительными внутренними и внешними ограничениями. Аналогичным образом, т.е. логикой конкуренции руководствуются Россия и ЕС, США или Китай, хотя не всегда признавая это на официальном уровне (http://caa-network.org/archives/12951http://caa-network.org/archives/12951http://caa-network.org/archives/12951).

Если же рассуждать о проблеме национальной безопасности, то они всегда находились в центре внимания руководства стран Центральной Азии. Например, в Стратегии «Казахстан-2030» национальная безопасность сформулирована в качестве первого, самого главного долгосрочного приоритета социально-экономического развития страны в XXI веке. Это и не удивительно, так как национальная безопасность жизненно важна для любого государства. Для создания эффективной системы обеспечения безопасности государства необходимо иметь четкое представление о методологических основах концепции безопасности. Понятийный род концепции должен иметь свою логику «течения» понятий, которыми мы в настоящее время пользуемся. Для этого первоначально нужно определиться и раскрыть родовое понятие «безопасность», а затем ее систематику видов. Если родовое понятие сущности «безопасность» на сегодняшний день остается довольно устойчивой, то по уточнению его содержания ведутся споры. Например, в контексте нашей проблематики: 1) безопасность – это состояние защищенности важных интересов государства; 2) безопасность – это способность государства защитить свои жизненно важные интересы; 3) безопасность – это свойство государства противодействовать угрозам опасности и 4) безопасность – это система мер государства, направленная на предотвращение опасности. Однако любое вышеназванное определение безопасности является по сути вторичным, так как состояние защищенности, способность к защите, свойство предотвращать угрозы, система мер и прочие категории безопасности сами по себе не возникают. Во-первых, защищенность важных интересов государства необходимо сформировать, во-вторых, способность защитить эти интересы, всего лишь есть одна из сторон объективной реальности и, в-третьих, система мер, также создаваемая и формируемая доминанта социально-политического бытия.

Каким же образом Казахстану и его соседи по региону должны решать противоречие современной глобализации и национальной безопасности? На какую из сторон этого противоречия им следует сделать акцент? Эти вопросы имеют судьбоносное значение для развития стран Центральной Азии на ближайшую и отдаленную перспективу.

На наш взгляд, национальная безопасность в условиях глобализации – есть, прежде всего, защищенность государства и людей, населяющих его, от любых неприемлемых для них изменений: геополитической среды обитания, материальных и духовных потребностей, ресурсов, технологий, информации, научно-образовательного потенциала страны, идейно-нравственных идеалов, взаимоотношений с другими государствами и народами.

Они основаны на совокупности трех аспектов:

1. Защищенности личности, собственности, интересов;

2. Политической, экономической, социальной, культурной защищенности социума, его материально-духовных интересов;

3. Безопасности страны, целостности её территории, а также сохранности основных политических, социальных, культурных, экономических, военных, экологических институтов и материально-духовных ценностей.

Они в свою очередь базируются на трех основных принципах:

1. Самосохранении государства как гаранта безопасности личности, общества и страны;

2. Как целостной системы сложных структурных факторов по организации и осуществлению защиты государства по его физическому, нравственному сохранению и самосовершенствованию.

3. Безопасности – непременного условия обеспечения защищенности поставленных перед обществом задач.

Парадигмами национальной безопасности стран Центральной Азии в политическом аспекте могут быть:

– национальная безопасность как функция и обязанность государства;

– геополитический и цивилизационный моменты национальной безопасности;

– проблемы новой геометрии безопасности;

– международная, региональная и национальная безопасность;

– военно-политический аспект национальной безопасности;

– социально-экономическая, образовательная и культурная составляющие национальной безопасности.

Таким образом, национальная безопасность Казахстана и стран Центральной Азии, в контексте процессов, которые происходят сегодня в мире, может быть проявлена как сохранение его базовых потенциалов, таких как:

– физическое здоровье, численность населения, процент в его среде трудоспособного населения (популяционные ресурсы);

– богатство территории проживания природными ресурсами (природные ресурсы);

– качество технической и технологической системы общества (цивилизационные ресурсы);

– качество образования и науки в обществе (цивилизационные ресурсы);

– характер и качество нравственной системы ценностей (духовно-культурные ресурсы).

При этом мировоззренческий фактор может стать решающим в борьбе народов за свое сохранение. Причина этого в том, что именно он является наиболее подверженным чувствам и эмоциям, являясь самым коротким путем к достижению целей общественного развития, исповедуемых социальными группами.

**Литература**:


Ертысбаев Е.Е. Казахстан и Назарбаев: логика перемен. – Астана: Елорда, 2001. – 576 с.

Токаев К.К. Под стягом независимости. Очерк о внешней политике Казахстана. – Алматы: ИД «Жибек жолы», 1997. – 594 с.;

Лаумулин М.Многовекторность внешней политики Казахстана – плюсов больше, чем минусов [Электронный ресурс]: Режим доступа: // http://www.centrasia.ru/newsA.php?st=1078126740, 01.03.2004.

О многовекторности Казахстана, аналитике, внешней политике РК (Интервью с Булатом Султановым) // http://sayasat.org/tribune/928-o-mnogovektornosti-kazahstana-analitike-vneshnej-politike-rk, 08.06.2014.

Randall L. Schweller. Bandwagoning for Profit: Bringing the Revisionist State Back // International Security, 1994. Vol. 19, No. 1 (Summer). Pp. 72-107.

Nicola P. Contessi. Foreign and Security Policy Diversification in Eurasia: Issue Splitting, Co-alignment, and Relational Power // *Problems of Post-Communism*, 2015. Vol. 62, Issue 5. Pp. 299-311.

Elena Gnedina. ‘Multi-Vector’ Foreign Policies in Europe: Balancing, Bandwagoning or Bargaining? // *Europe-Asia Studies*, 2015. Vol. 67, Issue 7. Pp. 1007-1029.

Taras Kuzio. Is Ukraine Part of Europe’s Future? // *The Washington Quarterly*, 2006. Vol. 29, Issue 3. Pp. 89-108.

Многовекторная дипломатия в теории и на практике (часть 1) [Электронный ресурс]: Режим доступа:// http://caa-network.org/archives/12951, 19 апреля 2018 г.

**Erkin Baydarov**

## Mərkəzi Asiya ölkələrinin xarici siyasətində təhlükəsizliyin təhlili

### Xülasə

Məqalədə siyasi təhlil əsasında Qazaxıstan Respublikası və Mərkəzi Asiya ölkələrinin siyasətində təhlükəsizlik məsələləri təhlil olunur. Qazaxıstan və digər Orta Asiya ölkələri xarici siyasətinin əsas prinsipi kimi öz məqsədyönlülüyünü sübut edib və müasir geosiyasət sahəsində qalmanın yeganə doğru metod olmasını nümayiş etdirir. Mərkəzi Asiya ölkələri bundan sonra da milli maraqları və dünya regional inkişafın dinamikasını nəzərə alan balanslaşdırılmış xarici siyasət kursu yürütməlidir. Ancaq belə bir siyasət suverenlik və dövlətçiliyin möhkəmlənməsinə, beynəlxalq münasibətlər və dünya təsərrüfatı əlaqələrinə daxil olub gəlir əldə etməsinə yardım edə bilər.Məhz belə siyasət Mərkəzi Asiya birliyinin təhlükəsizlik və stabil inkişafını təmin edə bilər.

**Али Абасов**
*Институт философии и социологии НАНА*
*kila50@mail.ru*

# НОВАЯ МЕТОДОЛОГИЯ ИССЛЕДОВАНИЯ ПРОБЛЕМ БЕЗОПАСНОСТИ

**Ключевые слова**: *геополитика, национальная безопасность, методология, хаос, порядок.*

Современное исследование социальных систем обогатилось мощными средствами формализации, позволившей производить компьютерную обработку данных и создавать саморазвивающиеся программы, моделирующие ход социальных процессов и способствующие получению о них нового знания. Это открыло путь к манипуляциям, связанным с возможностью влиять на социальные системы, менять характер, направление и даже сущность протекающих в них процессов. Социальные науки получили импульс развития благодаря освоению постнеклассических представлений, что привело к революции в понимании сущности предмета таких наук, распространяемой и на геополитику – направлению, неразрывно связанному с функционированием государств и их безопасностью. В современных условиях глобализации, способствующей нарастающей проницаемости границ государств, формирующей их критическую открытость, идеи геополитики приобрели исключительное значение.

В статье изложена методология приложения геополитики к теории и практике сохранения (или разрушения) устойчивого развития государства, нашедшее свое органичное применение в концепциях национальной безопасности. Геополитика, оперируя синергетическими процессами политической действительности, неуклонно наращивает потенциал нелинейной рефлексии, наиболее адекватно отражающей неустойчивые, подверженные бифуркации социальные системы современности. Все неустойчивые, так называемые *самоорганизующиеся адаптивные системы* подвержены эволюции. Современное понимание эволюции подвергает ревизии модель осевой линейной динамики, поддерживающей перманентный прогресс эволюционирующих систем. Новое осмысление эволюции связано с синергетическими воззрениями порядка и хаоса, бифуркации и аттрактанта, нелинейности, неустойчивости и т.д., что, с одной стороны, значительно усложняет понимание ее природы, с другой – наделяет эволюцию универсальностью, открывающей путь к междисциплинарности. Междисциплинарный подход и универсальный эволюционизм способствовали переходу системных исследований в их современное состояние, получившее многозначное название *сложности*. В рамках сложности познавательные возможности определяются развитием мощности компьютерной техники, пока еще решающей простейшие нелинейные задачи с ограниченным числом взаимодействующих объектов. Это направление, получившее название *компьютинг*, в самое ближайшее время может радикально изменить наши представления о мире и способах познания его человеком, поскольку оно оперирует новым типом программ, способных подобно живым системам самоорганизовываться и порождать многообразие идеальных и реальных систем, «предсказывать» технологии, ориентирующие социальные процессы в необходимом направлении. Наглядными примерами управляемых социальных процессов в период после завершения блокового противостояния и временного торжества однополярного мира стали «цветные» революции и гибридные войны, представляющие собой новые технологии воздействия на государства и общества мира путем формирования гражданского пространства информационной войны (*Почепцов Г. Новое гражданское пространство информационной войны.1916: 16*).

В условиях развивающейся глобализации мировое развитие пошло по критическому сценарию: увеличилось число разнообразных конфликтов, описание характера протекания которых потребовало привлечения постнеклассической парадигмы.

В унисон новой геополитике концепция «столкновения формаций» стала замещаться концепцией «столкновения цивилизаций», описывающей в качестве причины исторического развития конкуренцию доминирующих этно-конфессиональных ценностей государств и обществ мира. Конкуренция политических и экономических систем и их идеологий стала постепенно перетекать в конкуренцию культур, превратившихся в центральный атрибут цивилизаций, детерминирующих их уникальность.

Параллельно произошло усложнение понимания сущности основных (и становление новых) категорий, образующих аппарат неклассического познания. Раньше в социальных науках категории политики, экономики, культуры и идеологии включались в структуру линейных процессов, подверженных причинно-следственным отношениям и подчиняющихся казуальному описанию. Теперь эти важнейшие понятия социальной картины мира стали атрибутами концепций нелинейности, неравновесных, неустойчивых, вероятностных процессов, синергетических представлений; словом – составили концептуальную и категориальную базу мировоззрения, сегодня называемого постмодернистским.

Новые идеи постнеклассического этапа познания наделяют социальные системы факторами сложности и открытости к внешнему взаимодействию, способностью спонтанно впадать в состояния порядка, хаоса, «неравновесного порядка» и «детерминированного хаоса».

Как и любое другое направление постнеклассики «наука о сложности является примером качественно иной формы организации науки. Её объектами являются не традиционные объекты, а абстрактные паттерны отношений, референции, существующие в разных науках. Языковое отображение таких паттернов-переносов схватывается понятием «метафора», именно этим в известной мере объясняется всплеск интереса к подобным исследованиям в мире» (*Леонов А. М. Эпистемология сложности в контексте компьютерных наук*). Напомним, что постнеклассика в целом способствовала переносу интереса познания с вещей (предметов, объектов) на возникающие ансамбли отношений между ними.

Существующее многообразие определений сложности (свыше 30) свидетельствует, что это понятие остается неоднозначным, а его интерпретации объединяют ряд подходов из различных наук, не всегда логически связанных. Но именно неоднозначность является характеристикой постнеклассической науки, и именно с такими понятиями предстоит работать новому типу познания.

Так, к примеру, понятие сложности описывается «широким классом называемых нелинейной наукой междисциплинарных научных направлений, лежащих в основе современных высоких технологий, образующих ведущую часть постнеклассической науки, заметно превосходя включенную в них *синергетику»* (*Леонов А. М. Эпистемология сложности…*).

Машинная техника современности – компьютинг - изменила все сферы человеческой деятельности, освоила новый способ производства, вызвав новую культуру постмодерна, решительно меняющую традиционный характер науки и философии.

Кроме того, уже неклассика отвергла редукцию сложной системы, функционирующей на принципах самоорганизации, к ее элементарным составляющим. При системном, сложностном подходе объяснения требует нечто большее, чем сумма составляющих.

В условиях постмодерна широкое применение приобрел принцип конструктивизма, согласно которому знание не является пассивным элементом, а на практике активно конструируется познающим субъектом. Этот подход приводит к интересному выводу: «познавательные функции человека адаптивны и обеспечивают организацию опытного мира

субъекта, а вовсе не стремятся к открытию для него объективной онтологической реальности» (*Леонов А. М. Эпистемология сложности…*).

Постмодернизм провозгласил абсолютизацию плюрализма, легитимизировав тем самым различные картины мира (многогранность мира) и упразднив диктатуру монизма в различных типах познания. Вместе с тем, «в условиях плюрализма мнений и релятивизма представлений, в том числе и научных, компьютинг поддерживает единую картину мира и редуцирует разнообразные его картины к одной, виртуальной, интегрирующей все остальные. Он же обеспечивает надежное функционирование государственных институтов. Именно компьютинг подвел реальные основания под идею глобализации. Де-факто он реализует известную платонистскую мечту о приведении всех знаний к той ясности, которая характерна для математики, наглядно демонстрируя, что сложные проблемы могут быть сведены к простым манипуляциям с цифрами» (*Леонов А. М. Эпистемология сложности…*).

Формирование идеи сложности прошло ряд взаимосвязанных этапов: системные исследования (1950-х гг.); синергетический подход (60-е гг.); применение принципа эволюционизма во всех сферах природных и социальных процессов (вторая половина (XX в.); зарождение идеи сложности в глобальном контексте (конец XX – начало XXI в.).

В наше время проблема сложности стала едва ли ни центральной проблемой современного познания. Так, Гелл-Манн выдвигает идею проблему *бесконечной сложности* Вселенной в ее совокупности.

Принципы синергетики и сложности значительно обогатили технологии, влияющие на социальные системы и их трансформацию. В плане практической трансформации таких систем используются эффекты, которые даже при слабых воздействиях могут перевести социальную систему из неравновесного порядка в состояние хаоса, а «детерминированный хаос при таких воздействиях», напротив, обладает потенцией самоорганизации и подведения такой системы к новому устойчивому порядку. Спорадическое впадение социальной системы в состояние порядка или хаоса опреде-ляется наличием в ней специфичных аттракторов – «точек притяжения», которые можно формировать искусственно, изменяя внешним воздействием ее свойства или структуру (*Хаос и порядок*).

Подобная технология использует существующие в любой динамической системе внутренние противоречия, точки порядка и хаоса, детерминирующие ее саморазвитие. Целесообразно применяемая такая технология способна на выбор подвести систему к разрушению или же к подъему на новый, более высокий уровень организации. Точки хаоса и порядка внутри системы играют роль аттракторов, искусственное притяжение к которым, позволяет регулировать (изменять) процесс ее саморазвития. Открывающиеся возможности на практике стали использоваться в процессах управления социальными системами, существующими государствами и обществами мира. «Управляемая критичность» превратилась в мощное оружие геополитики, проводимой мирными и военными средствами. С этой точки зрения все государства можно разделить на три неравномерные группы: «управляющие», «управляемые» и те, которые, с одной стороны, управляются, а с другой – управляют. Что же является «предметом обмена» в этом субъект-субъектном взаимодействии? В первую очередь конкурирующие и противостоящие друг другу ценности, поскольку именно на них зиждется стабильность любого государства, его безопасность.

В систематизированном виде впервые эти идеи были изложены Стивеном Манном (*Манн С. Теория хаоса и стратегическое мышление*), рассматривающим «мир социума как островки порядка в океане хаоса, порожденном разнообразием целей и ценностей, выдвигаемых в диапазоне от индивидуума до общества в целом». Разнообразие целей и ценностей провоцирует постоянное складывание конфликтов, которыми можно управлять за счет искусственного перераспределения и направления их энергии. Эта задача описывается С. Манном следующим образом: «Изменение энергии конфликта людей уменьшит или направит их по пути, желательному для наших целей национальной безопасности, поэтому нам нужно изменить программное обеспечение» (*Манн С. Теория хаоса…*). Смена «программного обеспечения» представляет собой процедуру постепенного или внезапного

изменения целей и ценностей государства, в которой предполагается произвести изменения, ведущие ее к распаду или переустройству. По аналогии с функционированием компьютера смена программного обеспечения обеспечивается за счет внедрения «вируса новых целей и ценностей» (*Манн С. Теория хаоса…*). Формированием процедур противостояния такой разрушительной практики должны заняться те страны, против которых она направлена. Важно, что: «Обеспечение безопасности социальных субъектов – это обеспечение их способности к социальному воспроизводству и развитию в условиях динамично изменяющейся среды, а также защищенность их проектов жизнедеятельности и развития. Обеспечение национальной безопасности – это обеспечение способности граждан, общества и государства к совместному социальному воспроизводству и развитию в условиях динамично изменяющейся среды, а также защищенность стратегических и обеспечивающих национальных проектов» (*Лепский В.Е. Технологии управляемого хаоса - оружие разрушения субъектности развития*). Россия вот уже некоторое время активно занимается этой проблемой. В принятой новой военной доктрине Российской Федерации отмечается: «Современные военные конфликты – комплексное применение военной силы, политических, экономических, информационных и иных мер невоенного характера, реализуемых с широким использованием протестного потенциала населения», включая «использование финансируемых и управляемых извне политических сил, общественных движений. Россия учитывает среди форматов иностранного вторжения и организацию «цветных революций» (*Мальцев В. «Управляемый хаос» против России*). Созданный независимый экспертно-аналитический центр «Эпоха» исследует, как «в результате целенаправленного внешнего вмешательства под благовидными целями стабильные государства оказываются ввергнутыми в хаос, в гражданскую войну» (*Мальцев В. «Управляемый хаос»…*).

Отдельно представлена концепция гибридных войн, характеризуемых отсутствием в них четкого начала и конца, явного нападения одной стороны на другую; эти войны не имеют определенной линии фронта; в военных действиях наблюдается возрастание роли иррегулярных формирований и частных военных компаний.

Итак, основой технологии создания управляемого извне хаоса является вытеснение традиционных для атакуемого государства (общества) ценностей и идеологий путем внедрения новых парадигм. Это направленные воздействия находят в атакуемом обществе и государстве необходимые аттракторы хаоса и порядка с учетом существования в них наиболее уязвимых точек, прибывающих в состоянии, близком к критической неравновесности.

Новизна, неопределенность, риски всегда являлись сущностными составляющими исторического процесса жизни человечества и каждого индивида. Однако по ходу развития исторического процесса, особенно в последнее время, неопределенность и риски приобретают системный характер и значительно изменяют характер социальной жизни. «Человек оказался в состояние новой, более тяжелой беспомощности перед «второй природой» - социальной, которую он сам сотворил и которая, стремительно обновляясь, предельно напрягает его адаптационные возможности» (*Романов В.Л. Инновационный прорыв в будущее: диспозиция государственного управления*).

Прерывность в развитие так называемых «опоздавших государств» – главная причина, разделяющая мир на две непропорциональные части. В то время как Запад живет в условиях постмодерна, информационного общества и нового, довольно жесткого неолиберализма, остальной мир только прокладывает себе путь в это состояние. Между тем новым испытанием, задерживающим темпы развития, стала глобализация, совершенно по-разному воздействующая на развитые страны Запада и, скажем, постсоветские страны. Вывод, к которому приходят некоторые из западных философов, весьма любопытен: глобализация под эгидой Запада порождает хаос, но это не продуктивный хаос, ведущий к новому порядку, поскольку создаваемые Западом аттракторы не способны преобразовать хаос в порядок.

Итак, новые технологии трансформации социальных систем эпохи глобализации основаны на комплексе целенаправленных и взаимосвязанных воздействий, направленных

на максимально возможную для каждого государства и общества либерализацию всех ее атрибутивных составных частей, за счет использования преимущественно внешнего опыта, разрушающего традиционные и внедряющего новые ценности и стандарты жизни в то время как ни один из институтов данной системы не готов применить к ним практику селекции, проявить критическое отношение.

**Литература**:


1. Леонов А. М. Эпистемология сложности в контексте компьютерных наук. Автореферат диссертации на соискание ученой степени доктора философских наук по специальности 09.00.01 - «Онтология и теория познания». Якутск, 2006 г., - Научная библиотека диссертаций и авторефератов disserCat http://www.dissercat.com/content/epistemologiya-slozhnosti-v-kontekste-kompyuternykh-nauk#ixzz3PuYqEF9E - дата обращения: 20.02.2018.
2. Лепский В.Е. Технологии управляемого хаоса - оружие разрушения субъектности развития - http://maxpark.com/community/ politic/content/2764150 - дата обращения: 18.08.2019.
3. Мальцев Владислав. «Управляемый хаос» против России – http://svpressa.ru/politic/article/108640/?mra=1- дата обращения: 04.03. 2020.
4. Манн Стивен. Теория хаоса и стратегическое мышление - http://4as.info/pub/970 - дата обращения: 09.06. 2017.
5. Почепцов Г. Новое гражданское пространство информационной войны – журнал «Світ», 2016, № 3, с. 12-27.
6. Романов В.Л. Инновационный прорыв в будущее: диспозиция государственного управления - http:// spkurdyumov. narod.ru/romanovvle.htm - дата обращения: 14.05.2019.
7. Хаос и порядок - http://gazeta.eot.su/article - дата обращения: 16.07. 2018.


**Açar sözlər**: geosiyasət, milli təhlükəsizlik, metodologiya, xaos, nizam.

**Əli Abasov**

## TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİNİN YENİ TƏDQİQAT METODOLOGİYASI

### Xülasə


Məqalədə geosiyasətin milli təhlükəsizlik konsepsiyalarında üzvi tətbiqini tapmış dövlətin dayanıqlı inkişafının qorunması (və ya məhv edilməsi) nəzəriyyəsi və praktikasına tətbiqi metodologiyası müəyyən edilmişdir.

Blok qarşıdurmasının bitməsindən və birqütblü dünyanın müvəqqəti zəfərindən sonrakı dövrdə idarə olunan sosial proseslərin illüstrativ nümunələri informasiya müharibəsinin sivil məkanının yaradılması ilə dünya dövlətlərinə və cəmiyyətlərinə təsir etmək üçün yeni texnologiyalar olan "rəngli" inqilablar və hibrid müharibələrdir.

Xarici xaos yaratmaq texnologiyasının əsası yeni paradiqmalar tətbiq etməklə hücum edilmiş dövlət (cəmiyyət) üçün ənənəvi dəyərlərin və ideologiyaların yerdəyişməsidir. Belə dağıdıcı praktikaya qarşı duracaq prosedurların formalaşdırılması ilə bu praktikanın yönəldiyi ölkələr məşğul olmalıdır.

**Əbülhəsən Abbasov**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun baş elmi işçisi,*
*fəlsəfə elmləri doktoru, professor*

# MİLLİ TƏHLÜKƏSİZLİYİN PRAKSİOLOJİ TƏMİNATI

**Açar sözlər:** *fəlsəfi sistem, geosiyasi realizm, beynəlxalq münasibətlər, milli maraqlar, – postneoklassik epistemologiya*

Hər bir fəlsəfi sistem öz praktiki (əməli) əhəmiyyətinə, yəni, insan fəaliyyətinə, ictimai həyata verdiyi töhfəyə görə dəyərlidir. Özü-özü ilə əlləşən, öz daxili xırdalıqlarında ilişib qalan, yalnız özünü düşünən və özü üçün çalışan "fəlsəfə", əslində, heç fəlsəfə də deyil; xeyirdən çox, ziyan yetirən, dolaşıqlıqları və bulanlıqları artıran nəsnədir. Belə "fəlsəfə", bir qayda olaraq, sosial zamanın, elmin və tarixin inkişaf tələblərindən uzaq düşən, məntiq və ədəb meyarlarına, nizam-intizam hədəflərinə, insanın təbii arzularına cavab verməyən, necə deyərlər, barmaqdan sorulmuş söz yığımından başqa bir şey deyil.Son nəticədə, belə "fəlsəfə" insanları, cəmiyyətləri, bütövlükdə bəşəriyyəti ağır duruma salır, həyatın işıqsaçan mənbələrini söndürür, nəfəsliklərini tıxaclayır, öz zəhərli tullantıları ilə boğucu, dözülməz mühit yaradır. Bir sözlə, bu cür fəlsəfəçilik xalqlar və millətlər üçün bir bəlaya, böhran və fəlakətləri artıran ciddi amilə çevrilir. Bu da danılmaz həqiqətdir ki, başabəla fəlsəfəçilik bəşəriyyətə qənim kəsilmiş mənfur qüvvələr üçün olduqca sərfəli, əlverişli təsir alətinə, işğal və qarət silahına çevrilir – hal-hazırda olduğu kimi! Ən başlıcası – yanlış və yaxud məkrli fəlsəfəçilik vasitəsilə ölkələrin milli təhlükəsizliyi zəiflədilir, etibarsız hala salınır.

Bəli, indiki xoşagəlməz, dramatizmlərlə zəngin, xalqların və millətlərin taleyini sındıran, onların təhlükəsizliyinə zərbə vuran və gələcəyini əlindən alan durumun yaranmasında məhz bu cür filosofluğun və fəlsəfəçiliyin (habelə, onlardan qidalanıb-törəyən politoloji, siyasi və iqtisadi fikrin) rolu heç də az olmayıb. Bunu konkret misallar, faktlar əsasında kifayət qədər təsdiq edib, sübuta yetirmək olar. Yetər ki, məsələn,müasir qlobal kapital oliqarxatının tamamilə tükənmiş, öz yaxşı-pis missiyasını başa vurmuş, artıq çoxdan bəşəri inkişafın buxovuna çevrilmiş "**geosiyasi realizm**" doktrinasını rəhbər tutaraq addımbaşı fəsadlar, böhranlar yaratmaq ənənəsini-vərdişini göstərəsən.

Qəribə, bəlkə də, paradoksal haldır ki, indinin özündə də həmin doktrina nəinki adi siyasətçi və politoloqlar, hətta dünya miqyasında yaxşı tanınan, siyasi-iqtisadi və geosiyasi proseslərə böyük təsiri olan şəxslər tərəfindən hər vəchlə və açıq-aşkar dəstəklənir. Deyərdim ki, sadəcə dəstəklənmir, bilavasitə həyata keçirilir.Bu mənada, məsələn, hələ də (96 yaşında) ABŞ-ın beynalxaq siyasətini müəyyənləşdirən, Nobel mükafatı laureatı (1973) Henri Kissincerin adını birincilər sırasında qeyd etmək olar. Yüksək mövqeyə və təsir gücünə sahib bu şəxs, vaxtilə (1969-1975) Nikson və Fordun milli təhlükəsizlik üzrə müçaviri, habelə, ABŞ-ın Dövlət katibi (1973-1977) vəzifələrində çalışmışdır. Onun 2014-cü ildə nəşr edilmiş "Dünya nizamı" adlı son fundamental kitabı da məhz "geosiyasi realizm" mövqeyindən yazılıb (**Г. Киссинджер, 2018**).

Əsərdə dünya siyasətinin hazırki vəziyyətini təhlil edən müəllif güclər balansının vahid sisteminin çökdüyü qənaətinə gəlir və beynəlxalq münasibətlər sisteminin yenidən qurulması zərurətini göstərir. Onun bu yekun fikirləri ilə, əlbəttə ki, razılaşmamaq qeyri-mümkündür. Hər şey göz qabağındadır, heç xüsusi təhlilə də ehtiyac yoxdur. Yeni bir sistemə ehtiyac danılmazdır və bu mənada köklü rekonstruksiya hyata keçirilməlidir. Lakin, maraqlı və ən vacib olan problem budur: beynəlxalq münasibətlər sisteminin rekonstruksiyası nəyə əsasən, hansı fəaliyyət fəlsəfəsini rəhbər tutaraq, yəni, aksioloji məzmunu və imperativləri nədən ibarət praksioloji zəmində həyata

keçirilməlidir? Əgər Henri Kissincerin birmənalı rəhbər tutduğu "geosiyasi realizm" fəlsəfəsi yenə də dominantlıq təşkil edəcəksə, aparılacaq rekonstruksiyanın heç bir pozitiv nəticələri olmayacaq. Bunu artıq mövcud gerçəklik, bəşəri durumun günbəgünşiddətlənən turbulentliyi sübut etməkdədir. Müasir dünyada durmadan artan xaos, geosiyasi ziddiyyət və çəkişmələr, bəşəri ədalətsizliyin və sosial qütbləşmənin dərinləşməsi, sosial-iqtisadi və maliyyə böhranlarının silsilə xarakter alması və s. – bütün bu əlamətlər məhz "geosiyasi realizm"ə söykənən və artıq çoxdan aparılan "rekonstruksiya"nın nəticələridir.

Bu, əslində, pozitiv nəticələr verəcəkrekonstruksiya yox, dünyanın qəddarcasına yenidən bölüşdürülməsi, mənimsənilməsi, istismarı və qarət edilməsidir. Özü də - ən güclülərin, artıq öndə olanların xeyirinə! Konkret desək, ilk növbədə, ABŞ və Qərbi Avropanın aparıcı ölkələrinin xeyirinə! Bunu hələ illər öncə ABŞ siyasətinin qızılquşu sayılan mərhum Zbiqnev Bjezinski"Amerika milli maraqlarının prioritetliyi" deyə-deyə nümayişkarcasına, tam çılpaqlığı ilə bəyan etmişdir.Yetərlidir ki, onun keçən əsrin 90-cı illərində çap olunmuş məşhur əsərlərinə, o cümlədən, "Böyük şahmat lövhəsi" (1997) kitabına nəzər-diqqət yetirəsiniz(**З. Бжезинский, 2010**). Kitabın tam şəkildə adına fikir verin: "Böyük şahmat lövhəsi: Amerikanın başçılığı və onun geostrateji imperativləri"! Necə deyərlər, artıq şərhə ehtiyac yoxdur. Bjezinskini qətiyyən dünyada ümumi sülh, bütün xalqların rifahı, onların təbii və zəruri maraqlarının ədalət, bərabərhüquqluq prinsipləri əsasında balanslaşdırılmasını düşündürmür. Ümdə olan – dəyişən dünyada ABŞ-ın öz hegemonluğunu saxlaması və daha da möhkəmləndirməsidir. Kapital imperiyasının bu tip dövlət xadimi, siyasətçi, politoloq və ekspertləri üçün yeni dünya nizamı uğrunda çarpışması məhz belə rekonstruksiyanı nəzərdə tutur ki, "geosiyasi realizm" fəlsəfəsi məhz buna cavab verir. Və heç də təsadüfi deyildir ki, "Böyük şahmat lövhəsi" kitabında ABŞ-ın geosiyasi möhtəşəmliyindən bəhs edən Z. Bjezinski, XXI əsrdə bu möhtəşəmliyin saxlanması ilə bağlı strategiyalar haqqında düşünür, mülahizələr irəli sürür.Artıq biz bu strategiyaların həyata keçirildiyini və nə kimi yeni-yeni fəsadlar törətdiyini görürük.

Əlbəttə ki, Z. Bjezinskinin bir amerika siyasətçisi kimi ABŞ-ın təəssübünü çəkməsi, öz ölkəsinin milli maraqlarını öndə tutması təbii və anlaşılandır. Etiraz, narahatçılıq doğuran başqa şeydir – demokratiya, bəşəri nizam, insan haqlarının qorunması pərdəsi altında yenidən, XXI əsrdə də "geosiyasi realizmi" davam etdirmək, üstəlik də, daha qəddar və amansız tərzdə! Həmin siyasətin nəticəsidir ki, bu gün dünyanın bir çox yerlərində insanlar faciələr yaşayır, xalqlar və ölkələr "ölü ilmə"lərin məşum torundan azad ola bilmir, tənəzzül və deqradasiya, tarixdən silinmə təhlükəsi ilə üzləşiblər. Bu cəhətdən ən ağır, faciələrlə dolu mövcudluğu müsəlman ölkələri və xalqları yaşamaqdadır. Müsəlmanların hətta öz torpaqlarında, öz tarixi ərazilərində öldürülüb, məhv edilməsi, özü də kütləvi halda, sanki sanksiyalaşdırılıb və tamamilə məqbul, gündəlik-adi praktikaya çevrilib. O dərəcədə ki, döyülüb-söyülüb, öldürülənlərin özləri məşəqqətlərdən baş itirərək, həmin öldürənlərdən (kapital imperiyasının yırtıcılarından!) nəinki imdad diləyir, üstəlik, onların vasitəsi və dəstəyi ilə demokratiya, sivil cəmiyyət qurmaq arzusunda bulunurlar. Aldadıla-aldadıla məşəqqətlər yaşadan hiyləgərlərin tələsində çarpışır-çabalayır və can verirlər.

Hiyləgərliyi isə gizlətmək, pərdələmək bu yırtıcılar üçün elə ən böyük hiyləgərlikdir, "geosiyasi realizm"in fəaliyyət üsullarından biridir. Bunun üçün əllərinin altında kifayət qədər beynəlxalq statuslu qurumlar, müxtəlif növ ictimai-siyasi cərəyanlar, etno-milli və dini-mədəni məktəb, dərnək və hərəkatlar, habelə, casus-kəşfiyyat şəbəkəsi, iqtisadi-maliyə resursları var. Ən vacibi və betəri – həmin əzilən xalqları güya təmsil edən siyasətçilər, "milli" elita ordusu var ki, bu başaldatmada həvəslə iştirak edir, bəzən də – özləri bilmədən, məna-mahiyyəti anlamadan, qeyri-iradəvi, kimlərinsə əlində bir alətə çevrilərək.

“Geosiyasi realizm” beynəlxalq münasibətlərin praksioloji fəlsəfəsi olaraq heç vaxt ümumi sülhə, hamı üçün rifaha, bərabərhüquqlu mövcudluğa, haqqa və ədalətə xidmət etməyib. Tarixin acı təcrübəsi buna əyani sübutdyr. Siyasətin və geosiyasətin bu praksioloji fəlsəfəsi, əslində, sosial darvinizmin öz daxili qəddarlığı, qeyri-insaniliyi ilə daha da kəskin tərzdə fərqlənən bir formasıdır. O, güclünün, imtiyazlı-istismarçı qüvvələrin əlində ən təhlükəli, antiinsani və antibəşəri silahdır ki, bütün varlığı ilə “qızıl milyarda” xidmət edir və bu səbəbdən də dünya xalqlarına qənim kəsilib. Nə qədər ki, bu mənfur geosiyasi fəlsəfə öz total təsirini və hegemonluğunu saxlayacaq, bir o qədər də insanların, xalqların ülvi arzuları əlçatmaz olacaq, demokratiya frazeologiyası altında onların ən elementar hüquqları tapdalanacaq, o cümlədən – sərbəst seçmək və seçilmək, öz hakimiyyətlərini milli iradə və maraqlar əsasında formalaşdırmaq haqları.

Bəli, vəziyyət belədir və heç kim də özünü aldadaraq müasir “mədəniyyətlərin dialoqu” müstəvisində multikulturallığı, tolerantlığı özünə bayraq edərək xoşbəxt olmaq eşqinə düşməsin! Kapital imperiyası bu xoşbəxtliyə qovuşmaq arzusunun qarşısını almaq üçün çoxdan tədbir görüb, iş aparıb; adı-şöhrəti dəftər-kitaba sığışmayan bədnam “mütəfəkkir”lərin fəaliyyət fəlsəfəsinə (praksiologiyasına) yeni nəfəs verib, don geyindiriblər (**Ə. Abbasov, 2019**). Onu da qeyd edim ki, bu kapital imperiyasının mövcudluq və fəaliyyət düsturu-matrisası, mütləq olaraq, transmilli korporasiyaların sirli və məşum şəbəkəsi tərəfindən müəyyənləşir. Bu şəbəkə hətta ABŞ, İngiltərə, Almaniya, Fransa kimi ölkələrin “milli” hakimiyyətlərinin, dövlət idarəetmə formalarının necə olmasında təsirli yerə və gücə malikdir. Aydındır ki, digər ölkələrin, xüsusən də müstəqilliklərini əldə etmiş postsovet respublikaları kimi kövrəkdövlətlərin həyatına transmilli korporasiyalar şəbəkəsinin təsiri ifrat dərəcədə daha da güclü ola bilər. Bir fakt da nəzərə alınmalıdır ki, bu şəbəkədə erməni əsilli şəxslər kifayət qədər özlərinə yer ediblər və onlar hadisələrə təsir etmək baxımından əhəmiyyətli rola malikdirlər. Ayrı-ayrı aparıcı ölkələrdə fəallıq göstərən erməni diasporlarının proseslərə təsiredici gücü, ilk növbədə, məhz bu faktla bağlıdır ki, öz ifadəsini Qarabağ probleminin həlli məsələsində də göstərir.

Bəşəri inkişafa təsir gücü baxımından önəmli olan bütün beynəlxalq təşkilatlar (BMT, ATƏT, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı və s.) məhz geosiyasi realizmin aparıcı qüvvələrinin maraqları çərçivəsində fəaliyyət göstərirlər. Təsadüfi deyildir ki, hətta Rusiya kimi ərazicə böyük, güclü nüvə-raket arsenalına malik, təbii sərvətlər və insan resursları baxımından zəngin bir ölkənin Mərkəzi Bankı indinin özündə də, faktiki olaraq, Beynəlxalq Valyuta Fondunun direktivləri əsasında işləyir və onun Rusiya dövlətinin təbeçiliyində olmaması 1993-cü ildə qəbul olunmuş “Yeltsin Konstitusiyası”nda təsbit olunub. Başda görkəmli iqtisadçı alim, akademik, yaxın vaxtlara qədər prezident Putinin iqtisadi məsələlər üzrəmüşaviri işləmiş Sergey Qlazyev olmaqla, Rusiyanın bir çox nüfuzlu (əsasən, solçu) siyasi və iqtisadi dairələrinin belə vəziyyətə ciddi etiraz etməsinə baxmayaraq Beynəlxalq Bankın statusu dəyişdirilməyib. Bəlkə də, deyərdim ki, ölkənin maliyyə siyasətinin müəyyənləşməsində və həyata keçirilməsində BVF-dən asılılığı daha da artıb. Bu mənada Rusiyanın özünü xarici kapitalın idarəetməsində olan ölkə kimi xarakterizə edənlər az deyil (iqtisadçı Valentin Katanosov, politiloq Maksim Şevçenko və b.).

“Geosiyasi realizm” sosial darvinizmin ən mürtəce formasıolduğuna görə aksioloji baxımdan həddən ziyadə qüsurlu və ziyanvericidir. Bu fəaliyyət fəlsəfəsi kökündən ifrat dərəcədə eqoistik mahiyyətlidir; burada, əslində, hansısa altruistikliyə, humanistik motivlərə yer verilmir. Eqoist adamın öz məqsədlərini həyata keçirmək üçün minbir hiyləsi, fəndgirlik üsulları olduğu kimi, bu fəlsəfəni rəhbər tutaraq hərəkət edənlər də, eynilə, çeşidli üsul və vasitələrdən istifadə edirlər. İstər ikitərəfli, istərsə də çoxtərəfli münasibətlərdə başlıca niyyətlərini gizlədirlər, ikinci, üçüncü dərəcəli

niyyətlərini üzə çıxarır və əks tərəfi laqeyd olmağa, ehtiyatsız tərpənməyə sürükləyirlər. Ola bilsin ki, bu üsul diplomatiyanın bir zəruri davranış forması, zəruri elementi kimi qəbul edilsin, ancaq heç bir vicdanlı adam onun əxlaqi-etik normalarla həmahəng olduğunu söyləyə bilməz. Hər halda, belə fəaliyyət düsturunun nəticələri kifayət qədər ağır olur – əlbəttə ki, ilk növbədə, aldadılaraq sadəlövhcəsinə hərəkət edənlər üçün! Bunun təsdiqini biz Qarabağ problemi ilə bağlı onilliklər boyunca aparılan danışıqların nəticəsi olaraq da görürük. Düşünürəm ki, aparılan "sülhməramlı danışıqlar"ınarxasında məhz böyük güclərin məharətlə gizlədilən niyyətləri dayanır. Onların dillərində bir, beyinlərində isə tamam başqa şeydir. Mən hətta bu qlobal şəbəkənin Azərbaycanı, ümumiyyətlə, bir ölkə-dövlət olaraq perspektivini əlindən almaq, ağır tənəzzülə duçar etmək, param-parçalamaq və son nəticədə bir türk dövləti qismində tarixdən silmək kimi niyyətdə bulunduğunu da istisna etmirəm. Belə bir niyyətin olduğunu sübuta yetirmək üçün artıq baş vermiş və davam edən hadisə-proseslərin mahiyyətinə varmaq, təhlil və ümumiləşdirmələr aparmaq kifayət edər.

Hesab edirəm ki, Qarabağ məsələsindən söhbət gedərkən, ilk növbədə, məhz bu kontekstən qarşıda duran məqsəd və vəzifələrə yanaşılmalı, nəzəri və praktiki fəaliyyət qurulmalıdır. Əks təqdirdə problemin həlli daha da dolaşıq, çıxılmaz vəziyyətə düşər və biz böyük itkilərə məruz qala bilərik. Anlamalıyıq ki, Azərbaycana, onun ərazi bütövlüyünə və milli təhlükəsizliyinə qarşı qəsdin təməlində yalnız erməni məkri dayanmır. Burada birləşmiş kapital oliqarxatının (rus, ingilis, fransız və digər mənşəli mürtəce qüvvələrin!) öz mənfur yeri və rolu var. Reallıqlarla uzlaşmayan mülahizələrlə, ibtidai hislərdən, xüsusi subyektivlik və emosiyalardan qaynaqlanan vətənşüvənliklə problemin həllini öz ziyanımıza bir qədər də dərinləşdirə, mürəkkəbləşdirə bilərik. Əsassız, məntiq tələblərinə və zamanın çağırışlarına cavab verməyən, kimlərinsə şəxsi-qrup maraqlarına xidmət edən uydurma-yalançı imperativlər kənara atılmalı, psevdodemokratik frazeologiyaya söykənən siyasətbazlığa son qoyulmalıdır. Əvvəldən-axıra, bu cür yanlış, ikrah hissi doğuran bədnam yanaşmanın nə kimi fəsadlar doğurduğu artıq göz qabağındadır və əlavə arqumentasiyaya ehtiyac yoxdur. Bir sözlə, problemin doğru-düzgün həlli istiqamətində qaneedici fəaliyyət fəlsəfəsi, yəni, müvafiq praksioloji zəmin yaradılmalıdır. Belə ki, olduqca ciddi problemə elə ən yüksək ciddilik, qüdrətli fəlsəfi zəka səviyyəsindən də yanaşılmalıdır. Bu, həm də, o deməkdir ki, müasir elmi-intellektual potensiala, ondan səmərəli istifadəyə ciddi münasibət göstərilməlidir.İlk növbədə də saxta fəlsəfə doktorları, eımlər doktorları, müxbir-üzvü və akademiklər istehsalına birmənalı son qoyulmalı, elmin idarəçiliyi elmi bilənlərə və ona həqiqi töhfə verənlərə həvalə edilməlidir.

Ortaya məntiqi-zəruri sual çıxır: bəs, konkret olaraq, vacibliyi şübhə doğurmayan praksioloji sistemin məzmun-mahiyyəti, fəlsəfi nüvəsi və əsas daşıyıcıları, səciyyəvi xüsusiyyətləri nədən ibarət olmalıdır? Burada nə kimi məntiqi-qnoseoloyizəminlərə söykənməli, metodoloji üsul və vasitələrdən istifadə olunmalı, aksioloji tələblər ödənilməlidir. Son nəticədə: siyasi və geosiyasi, sosial-iqtisadi və mənəvi fəaliyyət sahələrində, hərbi və milli təhlükəsizlik, hüquq-mühafizə istiqamətlərində prioritet imperativlər nəyi ehtiva etməli və bunların üzvi bütövlüyü necə, hansı prinsiplər və strktur üzrə qurulmalıdır?

Bu önəmli sualları cavablandırmağa çalışaraq, mən ən məqbul çıxış yolunu **postneoklassik epistemologiyaya və ümumən, postneoklassik fəlsəfəyə**müraciətdə görürəm. Və vurğulamaq istəyirəm ki, burada əsas vəzifə siyasətçi və politoloqların yox, filosofların üzərinə düşür. Necə deyərlər, söz filosoflara verilməlidir! Dövlət adamları, siyasətçi və politoloqlar isə bu işdə öz hərtərəfli dəstəyini, yardımını əsirgəməməlidirlər. Pafoslu səslənməsin, Qarabağ kimi mürəkkəb, taleyüklü problemlərin həlli istiqamətində, ilk növbədə, **fəlsəfə** öndə olmalı, hərəkətə keçməli və öz üzərinə düşən missiyanın öhdəsindən gəlməlidir. Təəssüflər ki, indiyə qədər belə olmayıb,

fəlsəfənin yeri və rolu arxa planda tutulub, Qarabağ probleminin, ümumən, milli təhlükəsizlik məsələlərinin həlli işinə professional fəlsəfə yetərincə cəlb edilməyib. Ortada olan acı nəticələrin bir mühüm səbəbi məhz bundadır. Çoxşaxəli mürəkkəb, köklü problemlərin həlli həmişə möhtəşəm bir mütəfəkkirliyə, yüksək zəkalılıq nümayişinə ehtiyaclıdır ki, bunu da yalnız inteqrasion gücə malik fəlsəfənin öndə olması ilə əldə etmək mümkündür. Qarabağ probleminin qaneedici həlli möhtəşəm bir fəaliyyət fəlsəfəsinə təşnəlidir.

Bəşər elmin tarixi inkişaf prosesində epistemoloji paradiqmal bölgüyə görə sonuncu (dördüncü) mərhələ olan **postneoklassik epistemoloji paradiqma** özündə yeni və ən yeni (sinergetika, qeyri-səlis məntiq və qeyri-səlis riyaziyyat, variatsion hesablamalar nəzəriyyəsi, qruplar və qraflar nəzəriyyəsi, tenzor və vektorhesablamaları, fluktuasiyalar və bifurkasiyalar nəzəriyyəsi, kritik anlar nəzəriyyəsi, yenidənqurmalar nəzəriyyəsi, refleksivlik nəzəriyyəsi, idarəolunan xaos nəzəriyyəsi, yeni təqdimatda entropiya və fəlakətlər nəzəriyyəsi, neyrokompütinq və s.) elmi sahə və istiqamətləri üzvi surətdə ehtiva edən bir sistemdir.Söhbət zəmanənin, müasir elmin tələblərinə cavab verən daha funksional, çevik, gerçəkliyin dialektikasına adekvat olan paradiqmadan gedir ki, mən onu elmi-ictimai mühitdəartıq qərarlaşmış adla – **postneoklassik epistemologiya** kimi təqdim edirəm. Bu epistemoloji sitemdə ontologiya (varlığın mənzərəsini qurmaq, təsvir etmək), qnoseologiya (məntiqi-idraki zəminlərin, təfəkkür texnologiyasının və koqntiv fəzaların məzmun-mahiyyəti), metodologiya (istifadə olunan üsul və metodların səciyyəsi, onların fəaliyyət funksionallığı), aksiologiya ( dəyərlər sisteminin məzmun-mahiyyəti, onun təkamül və təzahür dinamikası) və hətta leksika və prosedurlar xeyli dərəcədə qeyri-ənənəvi xarakter daşıyır. Və bu qeyri-ənənəvilik, obyekt – subyekt nisbətlərində daha yüksək, mükəməl vahidlik, harmoniya yaratmaqla yanaşı, determinasiya (səbəb-nəticə əlaqələrinin dialektikası), inikas və özünəinkas, superpozisiya və təşkilatlanma, funksional strukturlaşmaqanunauyğunluqlarının, zaman-məkan əlaqələrinin ifadə və təqdimatında özünü göstərir. Postneoklassikada, faktiki olaraq, zaman-məkan təsəvvürləri xeyli dərəcədə həm Nyuton (mütləq, metafizik), həm də Eynşteyn (nisbi, relyativist) zaman-məkan konsepsiyalarından fərqlənir. Bu mühüm təfərrüatların incəlikləri, burada təqdim edə bilmədiyim bir çox mətləblər vaxtilə nəşr olunmuş mənim bir sıra kitab və məqalələrimdə ətraflıışıqlandırılıb (**А. Аббасов, 1991; А. Аббасов, 2007**).

Multidissiplinar təbiətli postneoklassikepistemoloji paradiqmanın nüvəsini mürəkkəb sistemlər və ümumən mürəkkəblik nəzəriyyəsi, təfəkküri əsaslarını isə tənqidi-sinergetik təfəkkür konsepsiyası təşkil edir. Hər iki mühüm daşıyıcılar barədə həm AMEA Fəlsəfə İnstitutunun "Müasir fəlsəfə problemləri" şöbəsinin buraxdığı silsilə məqalələr toplusunda, həm də ayrı-ayrı monoqrafik əsərlərdə kifayət qədər əhəmiyyətli bilgilər ortaya qoyulmuşdur. Belə ki, mürəkkiblik fenomeninin mahiyyəti, səciyyəvi xüsusiyyətləri açıqlanmış, mürəkkəb sistemlərin təşkili, fəaliyyəti və idarə olunması ilə bağlı elmi yenilik elementləri ilə zəngin araşdırmalar həyata keçirilmiş, atributiv qanunauyğunluqlar, aparıcı prinsip və şərtlər müəyyənləşdirilmiş, müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür.Çox istərdim ki, məsuliyyət daşıyıcıları olan müvafiq instansiyalar bu elmi nəticələrə, biganə qalmayaraq, yaxından diqqət yetirsinlər. Yetirərlərsə, xeyiri çox olar.

**Ədəbiyyat:**

Генри Киссинджер. Мировой порядок. – Переводчики: Желнинов В., Милюков А. – М.: АСТ. 2018.
Збигнев Бжезинский. Великая шахматная доска. М.: Международные отношения, 2010.
Ətraflı bax.: Abbasov Ə.F. Yeni dünya nizamı: siyasət və idarəetmə. Bakı: "Zərdabi – Nəşr". 2019.
Məsələn, bax.: Аббасов А.Ф. Сложность. Время. Синергетика: Общетеоретический анализ проблем сложности и развития сложных систем. Баку: «ЭЛМ». 1991; Аббасов А.Ф. Философия сложности. Баку: «МВМ». 2007.

**Zeynəddin Şabanov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akadmiyası,*
*kafedra midiri, f.f.d., dosent*

# ƏMƏYİN TƏHLÜKƏSİZLİYİNİN QORUNMASI HƏMKARLAR İTTİFAQLARININ ƏSAS VƏZİFƏSİ KİMİ

**Aşar sözlər: əmək, təhlükəsizlik. cəmiyyət, müəssisə, insan, sağlamlıq,hüquq**

Müasir dövrdə əməyin təhlükəsizliyi işçinin həyatının və sağlamlığının müəssisənin istehsal fəaliyyətinin nəticələrinə nisbətən daha üstün tutulması, onların iqtisadi və sosial, texniki-təşkilati, sanitar-gigiyenik, müalicə-profilaktik və digər tədbirləri özündə əks etdirən sistemidir. Bütün müəssisələrdə sağlamlığın mühafizəsi və əmək şəraitinin təhlükəsizliyinin təmin olunması rəhbərliyin əsas vəzifələrindən hesab olunur. Hər bir müəssisədə həmkarlar ittifaqları özünün əsas funksiyalarından biri olan əməyin təhlükəsziliyinin təmin olunmasını rəhbərlikdən tələb etməlidir. Belə ki, işçilərin könüllü birliyi olan həmkarlar ittifaqlarının bu istiqamətdəki fəaliyyəti nəticəsində rəhbərlik bu qaydaların qorunmasına xüsusi əhəmiyyət verir.

İşəgötürən tərəfindən sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması öhdəlikləri müəssisələr haqqındakı əsasnamələrdə, kollektiv müqavilələrdə, daxili əmək qaydalarında öz təsdiqini tapır. Burada bildirilir ki, əməyin təhlükəsizliyinin hüquqi-normativ tənzimlənməsi müvafiq qanunlar, qaydalar çərçivəsində həyata keçirilməli və müəssisənin bütün işçiləri təhlükəsizlik şərtlərinə əməl etməlidirlər.

Əməyin təhlükəsizliyinin normativ-hüquqi tənzimlənməsi:ağır əmək şəraitli, insan orqanizmi üçün təhlükəli və zərərli olan iş yerlərinin; işləri yerin altında görülən yeraltı istehsalatların, şaxtaların, tunellərin, qurğuların və digər iş yerlərinin; işçinin yüksək həssaslığı, zehni və fiziki gərginliyi tələb olunan avadanlıqların, qurğuların və iş yerlərinin; qadınların, yaşı 18-dən az olan işçilərin əməyindən istifadə olunması qadağan edilən iş yerlərinin;əmtəələrin istehsalı, işlərin görülməsi zamanı istifadəsi qadağan olunan kimyəvi, radioaktiv və digər yüksək təhlükə mənbəli maddələrin; işçinin peşə xəstəliyinə tutulmağı ehtimalı yüksək olan iş yerlərinin; işçilərin istehsalatda bədbəxt hadisələrdən icbari şəxsi sığorta edilməli olan həyat üçün yüksək təhlükə mənbəli istehsal və qeyri-istehsal sahələrinin respublika üzrə vahid, əhatəli siyahılarını və onların tətbiqi qaydalarını təsdiq edir.

Əmək müqaviləsi üzrə işçinin əsas hüquqlarından biri də həyatının, sağlamlığının və əməyinin təhlükəsizliyinin təmin edən ləyaqətli əmək şəraitində çalışmasıdır. Bəzi hallarda əməyin təhlükəsizliyi ilə bağlı qanunvericilikdən irəli gələn tələblərə riayət olunmasına, əməyin mühafizəsi üzrə xidmətin yaradılmasına biganə münasibət işçilərin həyat və sağlamlığının itirilməsi ilə nəticələnən istehsalat qəzalarının baş verməsinə səbəb olur. Ona görə də hər bir işəgötürən Əmək Məcəlləsində əksini tapan əməyin təhlükəsizliyi normaları, qaydaları və prinsiplərinə əməl etməyi gündəlik fəaliyyətinin əsas tərkib hissəsi kimi qəbul etməlidir. İşçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin mövcud olması yalnız işçinin həyat və sağlamlığının qorunması baxımından deyil, əməyin səmərəliliyinin artırılması, keyfiyyətli məhsul istehsalı üçün də xüsusi önəm kəsb edir.

Əməyin təhlükəsizliyi ilə bağlı işəgötürənlər tərəfindən görülməli olan tədbirlər sırasına əməyin təhlükəsizliyi üzrə standartların, normaların və qaydaların bütün tələblərinə əməl olunması, binaların, qurğuların, texnoloji proseslərin və avadanlığın təhlükəsizliyinə riayət edilməsi, bilavasitə iş yerlərinin sağlam sanitariya-gigiyena şəraitinin və əməyin mühafizəsinin qüvvədə olan normativlərə uyğunlaşdırılması və s. daxildir. Həmçinin onlar işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin verilməsini, işçilərin əməyin mühafizəsi normaları və qaydaları üzrə təlimatlandırılmasını təmin etməlidirlər(https://az.trend.az/azerbaijan/society/2865858.html).

Əməyin təhlükəsizliyi üzrə işçilərin də bir sıra vəzifələri vardır. Belə ki, onlar əməyin təhlükəsizliyi, gigiyenası və yanğına qarşı mühafizə tələblərini öyrənməli və onlara əməl etməli, əmək funksiyasını özünü və başqa işçiləri təhlükəyə məruz qoymayacağı bir şəkildə yerinə

yetirməli, əməyin mühafizəsi üzrə normalarda, qaydalarda və təlimatlarda nəzərdə tutulmuş fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməlidirlər.

Azərbaycan Respublikasının Əmək Məcəlləsi əməyin təhlükəsizliyinin dövlət tərəfindən, icra hakimiyyətləri, bələdiyyələr, mülkiyyətçinin və işəgötürənlərin tənzimlənməsini və bu yöndə onların səlahiyyət və vəzifələrini müəyyən edir.

Bununla yanaşı qanunvericilik müəssisədə əməyin təhlükəsizliyinin təmin olunması ilə bağlı işçinin də üzərinə öhdəliklər qoyur. Belə ki, işçi:

-əməyin mühafizəsi üzrə norma və təminat qaydalarına əməl etməli;
-əmək funksiyasını özünü və başqa işçiləri təhlükəyə məruz qoymayacağı təqdirdə icra etməli;
-müntəzəm olaraq əməyin mühafizəsi normaları və qaydaları barədə biliklərini artırmalı;
-verilmiş xüsusi geyimdə və ayaqqabıda işə gəlməli;
-əməyin mühafizəsi sahəsində rəhbərliyin tapşırıqlarına və tövsiyələrinə əməl etməlidir.

Qanunvericilik əməyin mühafizəsi sahəsində ayrı-ayrı kateqoriyalı işçilərə yüksək təminatlar verilməsini nəzərdə tutur. Həddi-büluğa çatmamış qadınların və ümumiyyətlə, 21 yaşa qədər şəxslərin, həmçinin, sağlamlığı ilə bağlı qadağan olunanların ağır işlərə, zərərli və təhlükəli işlərə cəlb olunması qadağandır(https://kayzen.az/blog/menecment/7876/%C9%99m%C9%99yin-m%C3%BChafiz%C9%99si.html)

Nazirlər Kabinetinin 2019-cu il 27 sentyabr tarixli 423 nömrəli Qərarına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dövlət Əməyin Mühafizəsi Fondu yaradılıb. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli Qanununun tətbiqi barədə 2019-cu il 24 iyul tarixli 1347 nömrəli Sərəncamına əsasən belə bir Fondun yaradılması ölkəmizdə işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsinin dövlət siyasətinin mühüm tərkib hissəsi olduğunu göstərir.

Əməyin mühafizəsi üzrə elmi tədqiqat işlərinin maliyyələşdirilməsi Fondun vəsaitindən istifadənin istiqamətlərindən biri kimi müəyyən olunub. Bu da əməyin mühafizəsi sisteminin təkmilləşdirilməsinə yönələn yeni elmi araşdırmaların aparılmasını və geniş miqyas almasını stimullaşdıracaq. Ölkədə əməyin mühafizəsi üzrə kadr potensialının artırılması, iqtisadiyyatın müxtəlif sahələrində əməyin təhlükəsizliyi üzrə mütəxəssislərin hazırlanması kimi mühüm istiqamətdə də Fondun vəsaitindən istifadə olunacaq.

Qeyd edilən vəsait həmçinin əməyin mühafizəsi normaları, standartları və qaydalarının hazırlanmasına, əməyin mühafizəsi sahəsində təbliğat və maarifləndirmə işlərinə, bu sahədə fəaliyyət göstərən dövlət orqanlarının maddi-texniki bazasının yaradılmasına və inkişafına yönəldiləcək. O cümlədən müvafiq sahədə müasir tələblərə cavab verən və əməyin mühafizəsi üzrə fəaliyyət sferasında tətbiqi zəruri olan texnoloji qurğuların, cihazların, avadanlıqların və s. alınmasında yeni yaradılan Fond mühüm dəstək rolunu oynayacaq.

Əməyin mühafizəsi sahəsində nəzarət və monitorinqlərin təşkili və həyata keçirilməsi, əmək münasibətləri, məşğulluq, sosial müdafiə və təminat istiqamətdə dövlət və regional proqramların hazırlanması və yerinə yetirilməsi, habelə digər istiqamətlərdə Dövlət Əməyin Mühafizəsi Fondunun maliyyə dəstəyi təmin olunacaq.

Yeni Fond ölkəmizdə əməyin mühafizəsi tədbirlərinə sistemli şəkildə maddi-texniki dəstəyi təmin etməklə, işçilərin həyat və sağlamlığının qorunması kimi vacib məqsədə xidmət edəcək. İş yerlərində əməyin mühafizəsi norma və standartlarının təmin olunmasının istehsalatda əmək məhsuldarlığının artımına da müsbət təsiri nəzərə alındıqda, yeni Fondun iqtisadi əhəmiyyəti də özünü göstərəcək (https://benefisiar.org/xeberler/8717/-gor%C9%99c%C9%99k.html)

Bir sıra ölkələrdə əməyin təhlükəsizliyinə əməl olunmasının zəruriliyi hələ ötən əsrdən gündəmə gəlmiş, müxtəlif qanunlar qəbul olunmuş, tövsiyələr irəli sürülmüşdür. Belə ki, 1970-ci ildə Əməyin Təhlükəsizliyi haqqında Qanun qəbul edilməzdən əvvəl, bəzi kömür mədən təhlükəsizliyi qanunları istisna olmaqla Amerika Birləşmiş Ştatlarında sağlam və təhlükəsiz bir iş mühitinin təmin edilməsinin hüquqi tərəfini tənzimləyən heç bir milli tənzimləmə sistemi yox idi. Buna baxmayaraq peşə xəstəlikləri və xəsarətləri qeydə alındı, onların statistik işlənməsi aparıldı.

Sənaye təhlükəsizliyi, gigiyena və sanitariya, toksikologiya və peşə xəstəlikləri sahəsində elmi araşdırmalar aparıldı.

Xüsusi tənzimləyici sənədlərin olmaması, işçilərin həkimlərə, daha sonra məhkəmələrə müraciət etməsinə və bəzən işəgötürənlərə qarşı məhkəmə iddialarında qalib gəlməsinə mane olmurdu. 1934-cü ildə sahibkarlar və işçilər arasındakı münasibətləri tənzimləyən ilk qanun qəbul edilsə də (Waish-Healey Public Contracts Act), bu qanun ancaq dövlət sifarişlərini 10.000 ABŞ dollardan çox yerinə yetirən işəgötürənlərə şamil edildi və bunun sahibkarlara ciddi təsiri olmadı.

XX əsrin əvvəllərindəki elmi tədqiqatlar, hərbi məhsul istehsalını kəskin şəkildə artırmağın zərurəti ilə stimullaşdırıldı və (hökumət sifarişçi olduğu üçün) iri şirkətlər əməyin mühafizəsi tələblərinə cavab verdi və onların inkişafını və tətbiqini təşviq etdi. ABŞ-ın başqa bir xüsusiyyəti də o dövrdəki tədqiqat mərkəzlərinin - institutların (Yale Universiteti, John Hopkins Universiteti və s.) sənaye gigiyenası sahəsində işlərə geniş yer verməsi idi(Рыжук, 2015:66).

Mədənlər Bürosu yaradılsa da, lakin bu büronun sahibkarların fəaliyyətini məhdudlaşdırmaq hüququ yox idi. 1970-ci ildə Əməyin Təhlükəsizliyi və Sağlamlığı Qanununun konqres tərəfindən təsdiqlənməsindən sonra, Əməyin Təhlükəsizliyi İnstitutu və Əməyin Təhlükəsizliyi və Sağlamlığı İdarəsi olmaqla iki müstəqil təşkilat yaradıldı. Birincisi elmi tədqiqatla məşğul olmuş və alınan məlumatlara əsasən işəgötürənə tələblərin inkişafı ilə bağlı elmi əsaslandırılmış tövsiyələr vermişdir. İkincisi, bu tövsiyələri işəgötürən üçün məcburi olan hər iki xüsusi normativ sənədləri yaratmaq üçün istifadə etdi və bu tələblərə uyğunluğunu yoxlayan müfəttişlər üçün təlimat hazırladı. Sözügedən qanunun qəbulu və işəgötürən üzərində əlavə dövlət nəzarətinin yaranması dərhal peşə xəstəlikləri, xəsarətlər və ölümlə nəticələnən qəza hallarının sayında əhəmiyyətli dərəcədə azalmaya səbəb oldu. Hazırda isə Mütəxəssislər, tədqiqat mərkəzləri, hökumət və iqtisadiyyat sahələri arasında sıx əlaqələr inkişaf etmiş və gücləndirilmişdir ki, bu da əməyin mühafizəsi sahəsində irəliləməyə kömək etmişdir (Рыжук, 2015:34).

İşəgötürən-işçi münasibətlərini və birincinin iş yerindəki təhlükəsizlik və sanitariya ilə bağlı öhdəliklərini tənzimləməyə cəhd edən ilk qanun Böyük Britaniyada 1795-ci ildə Sağlamlıq və Əxlaq Qanunu qəbul edildi. Dövlətin sahibkarların şəxsi həyatına müdaxiləsi olan bu qanunun qəbulu, sonuncunun heç bir müqaviməti ilə qarşılaşmadı. Səbəb qanunun icrasını izləmək üçün ən azı bir mexanizmin olmaması idi və sahibkarların gözlədikləri kimi, tamamilə təsirsiz olduğu ortaya çıxdı.

Fabriklərdə uşaqların dəhşətli yaşayış və iş şərtləri, ictimai rəydəki dəyişiklik və ən insani işəgötürənlərin təşviqatından bəhs edən qəzetlərdə dərc olunan məqamlar, 1819-cu ildə yeni toxuculuq fabrikləri haqqında qanunun qəbul edilməsinə səbəb oldu (Pambıq Fabrikləri və Fabriklərinin Tənzimlənməsi Qanunu). Bu qanun və ona edilən sonrakı düzəlişlər də işəgötürənin fəaliyyəti üzərində dövlət nəzarəti mexanizminin tamamilə olmamasına görə təsirsiz oldu(Рыжук, 2015:44). Daha sonra mətbuatda ABŞ-da kölələrin dəhşətli iş şəraiti haqqında nəşrlər oldu və İngilis fabriklərindəki şərtlərlə paralellər özünü göstərdi.

1833-cü ildə iş şəraitinə nəzarət etmək hüququ olan kral müfəttişi vəzifəsi quruldu. Uşaqların işə başlaya biləcəyi yaş 13 ilə məhdudlaşdı; 18 yaşınadək şəxslərin gecə işi qadağan olundu və iş həftəsi 48 saat ilə məhdudlaşdı. İlk qanunların çatışmazlıqlarını nəzərə almağa çalışdılar - indi müfəttişlər sərt səlahiyyətlərə sahib idilər və pozuculara qarşı polis tədbirləri almaq hüququna sahib oldular(Рыжук, 2015:42). Qanunun ciddi qüsurları var idi, amma qəbul edilməsi irəliyə doğru böyük bir addım idi. 1864-cü və 1878-ci ildə əməyin təhlükəsizliyinin təmini üçün yeni qanunlar qəbul edildi.

1901-ci il qanunu yalnız tələbləri deyil, həm də onların həyata keçirilmə üsullarını da təsvir etmişdir. Sənəddə sənaye işçilərinin bəzi zəhərli maddələrə məruz qalmasını məhdudlaşdıran tələblər də var idi. İstifadəsi qadağan edilən ilk zərərli maddə sarı fosfor oldu.

XX əsrin əvvəllərindən bəri peşə xəstəlikləri üçün tibb və əməyin mühafizəsi sahəsində elm sürətli bir şəkildə inkişaf etmişdir. 1937-ci ildə əməyin mühafizəsi tələbləri ilə kifayət qədər təfərrüatlı bir qanun hazırlandı və qəbul edildi və dövlət müfəttişlərinin heyəti 30 nəfərdən ibarət idi. İkinci Dünya Müharibəsi bu sahədəki inkişafı ləngitdi. Daha sonra, 1950-60-cı illərdə, sənayedə istifadə olunan kimyəvi maddələrə daha çox diqqət yetirildi.

İş şəraitində davamlı bir geriləmə özünü biruzə verir: 1990-cı illərin əvvəllərində işçilərin 18% -i əlverişsiz şəraitdə işləyirdisə, 2011-ci ildə isə rəsmi məlumatlara görə bu rəqəm 30%-dən yuxarıdır. Rusiya Federasiyasında qeydə alınan peşə xəstəliklərinin tezliyi Danimarka ilə müqayisədə 40 dəfə az, ABŞ-dan 38 dəfə az, Finlandiya ilə müqayisədə 13 dəfə az, Yaponiyada olduğundan 7,3 dəfə az və Almaniya Federativ Respublikasına nisbətən 3,5 dəfə azdır (Фролов, 2015:22). Məsələn, Yeni Zelandiya Əmək nazirinin 2012-ci il hesabatına görə bu ölkədə 17-20 min peşə xəstəliyi qeydə alınmışdısa (2012-ci ildə əhali - 4,6 milyon), o zaman Rostov vilayətində - 66 hadisə (əhali 4.2 milyon) fakt olmuşdur(*Фролов,* 2015:23). Əlbəttə ki, rəqəmlərin obyektivliyi müəlliflərin üzərinə düşür.

Qeyd etkək yerinə düşər ki, əmək vasitəsilə insan özü və təbiət arasındakı qarşılıqlı münasibətləri tənzimləyir. Əmək prosesində təbiətə təsir etməklə, onu dəyişməklə insan özünü də dəyişir, yeni imkanlarını üzə çıxardır. Əmək insanı təbiətdən təcrid etsə də, təbiətlə xüsusi münasibətlərini daima saxlayır. Əmək iqtisadi kateqoriya kimi istehsalat faktorlarından biri sayılır. Həmçinin əmək prosesində xüsusi münasibətlər - istehsal münasibətləri yaranır. Əmək kollektiv fəaliyyət olduğundan onu təşkil etmək üçün əlaqə vasitələri lazım olur. Əməyin təhlükəsizliyi dedikdə, iş yerlərində zərərli və təhlükəli istehsalat amilləri olmayan, işçilərin sağlamlığına təsir etməyən, əmətin mühafizəsinə riayət olunan əmək şəraitinin vəziyyəti nəzərdə tutulur.

İşəgötürən iş yerinin əməyin mühafizəsi normaları və qaydalarının tələblərinə uyğun olmasına, işçi üçün sağlam və təhlükəsiz, layiqli əmək şəraitinin təmin olunmasına cavabdehlik daşıyır və işçinin həyatı, sağlamlığı müəssisənin iqtisadi mənafeyindən yüksək tutulmalıdır. Əmək müəssisələrində təhlükəsizlik qaydalarına dair təlimatın keçirilməsi, müəssisədə ümumi təhlükəsizlik qaydalarını öyrətmək, xüsusilə də istehsalatın təhlükəsizlik dərəcəsindən, xarakterindən, işçilərin peşələri və dərəcələrindən asılı olmayaraq, bütün işçilərin əməyin təhlükəsizliyi qaydalarını aşılamaq, təhlükəsiz iş metodları üzrə təlimatları təlqin etmək məqsədilə aparılır (AR Əmək Məcəlləsi, 2015:32). İnsanın əmək fəaliyyəti istehsal prosesi ilə, istehsalın ayrı-ayrı fazaları ilə əlaqədardır.

Əməyin intensivliyi aşağıdakı faktorlardan asılıdır:sosial şərait (kollektivdə əməyin xarakteri, texnikanın səviyyəsi və təhlükəsizlik şəraiti, maddi maraq), xarici şərait (iqlim və sanitar-gigiyena şəraiti), yaşayışın sosial-iqtisadi şəraiti (sağlamlıq, qida ev və s.) və bəzi fərdi faktorlar. Əmək şəraitini düzgün təşkil etmədikdə, işçi tez yorulur, onun diqqəti azalır və xəsarət alma təhlükəsi artır. Normal iş şəraitinin yaradılmasında əsas təsir göstərən faktorlar: iş yerinin işıqlandırılması, havanın vəziyyəti (nəmlik, temperatur, təzyiq, təmizlik), avadanlıqların yaratdığı səs və vibrasiyalardır. Əgər istehsalatda ətraf mühit təhlükəsizlik normalarına cavab vermirsə və işçilərin sağlamlığına zərərli təsir göstərirsə, belə mühit zərərli mühit sayılır.

İşçilərin sağlamlığını qorumaq, onların təhlükəsiz əmək şəraitini təmin etmək, istehsalat zərərçəkmələrinin qarşısını almaq məsələləri dövlətin başlıca qayğılarından biridir. Əmək mühafizəsi qarşısında duran əsas məsələlər müstəqil Azərbaycan dövlətinin qüvvədə olan konstitusiyasına uyğun, qanunvericilik əsasları, Əmək Məcəlləsi xüsusi qayda və normalar əsasında tənzim edilir. Azərbaycanda əməyin mühafizəsi ilə bağlı milli qanunvericiliyin əsasını Konstitusiyanın 35-ci maddəsi, yəni "Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ vardır" müddəası təşkil edir. Azərbaycanın qoşulduğu, Beynəlxalq Əmək Təşkilatının əsas işçi hüquqları ilə bağlı 57-ci konvensiyasının (o cümlədən əməyin mühafizəsi və təhlükəsizliyinə dair 21-ci konvensiyasının) prinsipləri Əmək Məcəlləsində öz əksini tapmışdır. Əməyin mühafizəsi haqqında hər bir işçi maarifləndirilməlidir, bundan əlavə, hər bir gənc işləməzdən öncə bu mövzuda hər hansı bilgiyə sahib olmalıdır. Yalnız bu zaman peşəsini yerinə yetirən şəxslərin təhlükəsizliyi qorunar. "Əmək mühafizəsi"nin metodiki əsası əmək proseslərində istifadə olunan maşınların, alətlərin, avadanlıqların, materialların və başqa texniki və canlı obyektlərin elmi təhlili nəticəsində təhlükə və zərərlərin aşkara çıxarılmasını təşkil edir. Bunun nəticəsində istehsalın təhlükəli sahələri, təhlükəli vəziyyətlər aşkar edilərək onların aradan qaldırılması üçün elmi əsaslarla tədbirlər hazırlanır (https://kayzen.az/blog/menecment/7876/%C9%99m%C9%99yin-m%Chafiz%C9%99si.html).

Konstitusiyaya əsasən əməyin qorunması məsələləri ümumdövlət əhəmiyyətinə malikdir, müəssisənin tipindən asılı deyil. Fəhlə və qulluqçulara onların təhsilindən, ixtisasından, peşə və vəzifə üzrə iş stajından asılı olmayaraq giriş təlimatından başqa, iş yerində də ilkin təlimat keçirilməlidir.

Əgər istehsalatda ətraf mühit təhlükəsizlik normalarına cavab vermirsə və işçilərin sağlamlığına zərərli təsir göstərirsə, belə mühit zərərli mühit sayılır. Zərərli istehsalat təsirlərə qeyri-kafi meteoroloji şərait, xoşagəlməyən işıqlanma, radioaktiv şüalanmasının və elektromaqnit sahələrinin mövcudluğu, istehsalatda olan toz, zərərli buxarlar, qazlar, səs, vibrasiyalar və nəhayət bədəndə yaranan ümumi fiziki gərginlik (məsələn, əzələlərin artıq yüklənməsi, əsəblərin həddən artıq gərilməsi və s.) aiddir.

Müəssisələrdə, təşkilatlarda sağlam və təhlükəsiz əmək şəraitinin təmin olunması, təhlükəli və zərərli istehsalat amillərinə nəzarətin təşkil edilməsi və nəzarətin nəticələri haqqında əmək kollektivlərinə vaxtında məlumat verilməsi müdiriyyətə tapşırılır. İşçilərə təhlükəli və zərərli istehsalat amillərinin təsiri olmayan əmək şəraiti yaradılmasına əmək təhlükəsizliyi deyilir. Müdiriyyət əmək şəraitinin yaxşılaşdırılmasına, əməyin mühafizəsinin təmin edilməsinə və işçilərin sağlamlığının qorunmasına yönəldilmiş perspektiv və illik tədbirlər planları hazırlayır və həyata keçirir. Müdiriyyətin və işçilərin müəssisədə sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi üzrə qarşılıqlı öhdəlikləri kollektiv müqavilədə (sazişdə) nəzərdə tutulur. Əmək şəraiti zərərli və təhlükəli olan istehsalatlarda, həmçinin xüsusi temperatur şəraitində aparılan və ya çirklənmə ilə bağlı işlərdə çalışan işçilərə müəyyən edilmiş normalara müvafiq surətdə pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələri, yuyucu və dezinfeksiyaedici materiallar verilir (AR Əmək Məcəlləsi,2015: 37)

Hər bir müəssisədə əməyin təhlükəsizilyinə əməl olunmalı, işçilərin layiqli əmək şəraitində fəaliyyət göstərməsi üçün bütün imkanlardan istifadə edilməlidir. Belə olarsa insanların həyatı daha yaxşı qorunar, əminlikdə olar, təsadüfi qəzaların sayı azalar. Əmək təhlükəsizliyinin qorunması həm fərdi, həm də kollektiv müqavilələrdə öz ifadəsini tapan əsas maddələrdəndir. Zira beynəlxalq statistika göstərir ki, əmək təhlükəsizliyinə əməl olunmamasına görə, həyatını itirənlərin sayı qanlı müharibələr zamanı həlak olanların sayından daha çoxdur. Beynəlxalq Əmək Təşkilatının mütəxəsislərinin hesablamalarına görə, son beş ildə əmək təhlükəsizilyi qaydalarının pozulması üzündən ölənlərin sayı 176 milyon nəfərdən çoxdur. Eyni zamanda, xəsarət alan,əlil olan və peşə xəstəliyinə mübtəla olanların sayı milyonlarla ölçülür. Sağlam cəmiyyət, normal inkişaf üçün təhlükəsizliklə bağlı prinsiplərə hər yerdə riayət olunmalıdır. İctimai həyatın bütün sahələrində təhlükəsizlik tədbirlərinin görülməsi əsas prioritet verilən məsələdir.

## İstifadə olunmuş ədəbiyyat

https://az.trend.az/azerbaijan/society/2865858.html
Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı,2015
https://benefisiar.org/xeberler/8717/-gor%C9%99c%C9%99k.html
kayzen.az/blog/menecment/7876/%C9%99yinm%C3%BChafiz%C9%99si.html
Фролов О. Охрана труда и национальная безопасность // Охрана труда. Практикум (внутренний журнал «Социальное страхование». ЗАО Редакция журнала "Охрана труда и социальное страхование", 2015, № 9
Рыжук Ф. Охрана труда на предприятии. - ООО «Лабораторные измерения и охрана труда», 2015

**Südabə Hüseynova**

*AMEA Qafqazşünaslıq İnstitutunun*
*elmi katibi,*
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*sudabeaskerova@gmail.com*

## TERRORİZMİN TƏHLİLİNDƏ SOSİAL SİNERGETİKA NƏZƏRİYYƏSİNİN ROLU

**Açar sözlər:** sosial sinergetika, sosial gerçəklik, terror, terrorçu qruplaşmalar, sosiallaşma, sosial identifikasiya.

Terrorun yaranmasına əsas olan sosial mühitin və bu mühitin övladı olan terrorçunun psixologiyasının və təfəkkür tərzinin açılması, digər tərəfdən isə terrorizmin bir proses olaraq qarşısının alınması tələbatı problemin nəzəri araşdırılması zərurətini doğurur.

Zənnimizcə, sosial sinergetika konsepsiyası terrorizmin mahiyyətinin açılması və metodologiyasının qurulması baxımından istifadə edilməsi xüsusi əhəmiyyətə malikdir.

Sosial sinergetika özünütəşkilatlandıran və vahid qarşılıqlı fəaliyyət və qarşılıqlı təsir prosesində formalaşan sistemlərin, o cümlədən cəmiyyətin, şəxsiyyətin və fərdi Mən-in formalaşması imkanlarının açılması baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Burada birgəyaşayış prosesində yaranan sosial və psixi xaosun, həmçinin dayanıqlı sosial və psixi nizamın yaranması imkanlarının təhlilinə şərait yaranır. Sosial sinergetika qlobal problemə çevrilmiş terrorizmin sosial-siyasi və psixi fenomen kimi öyrənilməsinə, həmçinin terrorçunun formalaşmasına şərait yaradan sosial reallığın təsiri imkanlarının açılmasına köməklik edə bilər.

Sosial sinergetikanın metodoloji əsas kimi seçilməsi zərurətini əsaslandıran A.İ.Zelenkov "sosiumun başlıca alt sistemlərinin inkişafı prosesində qeyri-sabitlik və böhranlı vəziyyətlərin fasiləsiz artmasının təşkili yaxud konstruksiya olunması"nı "sosiodinamikanın müasir mərhələsinin əsas xüsusiyyəti" kimi xarakterizə edərək vruğulayır ki, "yalnız lokal-milli seqmentlərdə deyil, qlobal miqyasda da təzahür edən destabilizasiya və tənəzzül fenomenləri" ..."sosiumun zəruri alt sistemlərini davamlı qərarsızlıq, xaos və nizamın hüdudlarında funksiyalaşmağa təhrik edir" və "risklərin bu özünəməxsus universializasiyası lokal, regional və hətta qlobal proseslərin inkişafına xas atributiv vəziyyətin konstruktiv olaraq aradan qaldırılması, risklərin sosiomədəni nəticələrinin minimallaşdırılması zərurəti" metodoloji yanaşma olaraq sinergetikanın aktuallığını üzə çıxarır (Зеленков, 2016:11).

V.P.Branskiyə görə: "sosial sinergetika sosial özünütəşkilatlandırmanın ümumi qanunauyğunluqlarını, yəni sosial xaos və sosial nizamın qarşılıqlı münasibətlərini tədqiq edir". Müəllif "nizam deyərkən hər cür təbiətə malik çoxsaylı elementlər arasında dayanıqlı, zamanda və məkanda təkrarlanan münasibətləri" nəzərdə tutur. V.P.Branski xaosu "qeyri-dayanıqlı, təkrarlanmayan münasibətlər" toplusu kimi şərh edir və göstərir ki, "özünütəşkilatlandırma obyektiv reallığın keyfiyyət və həm də struktur dəyişikliyi ilə bağlı olduğundan, sinergetika inkişafla bağlı nəzəriyyədir" (Бранский, 1999:119).

Bu mənada sosial-siyasi şəraitin araşdırılmasında sosial sinergetik yanaşmanın imkanları genişdir. Sosial sinergetika mürəkkəb sosial sistemlərin, o cümlədən qlobal dünya nizamının, lokal cəmiyyətlərin, cəmiyyəti təşkil edən ayrı-ayrı alt sistemlərin özünütəşkilatlandırması imkanlarının təhlili baxımından böyük əhəmiyyət kəsb edir. Cəmiyyətdə nizamsızlığın və xaosun yaradılmasına yönələn alt sistemlərin formalaşmasının sosial əsaslarının və destruktiv fəaliyyətinin qayəsinin müəyyənləşdirilməsində sosial sinergetika geniş imkanlar aça bilər. Onu da qeyd edə bilərik ki, dağıdıcı davranış meylli terrorçu qruplaşmalar sosial gerçəkliyin qeyri-xətti inkişafına təsir göstərən kontr sistemlər kimi qəbul edilə bilər. Sinergetika qeyri-xətti inkişafı cəmiyyətin özünütəşkilatlandırması bacarıqlarının əsas göstəricisi kimi təqdim edir. Özünütəşkilatlandırma prosesində mürəkkəb sistemlər, o cümlədən cəmiyyət inkişafı ləngidən, onun yeni istiqamətlərini müəyyənləşdirməyə yönələn konrt sistemləri ya tamamilə təcrid yaxud tam zərərsiz etməyə, ya öz

maraqları baxımından digər kontr sistemə qarşı çevirməyə, ya da sosial dialoqa nail olaraq konstruktiv münasibətlər yaratmağa çalışır.

Sosial sinergetikanın əsas anlayışlarından biri fluktasiya (təsadüfi dəyişikliklər) ilə bağlıdır. A.M.Ulanovskiyə görə: "inkişaf edən yaxud sabit zonalara yaxın olan gözlənilməz dəyişikliklər qeyri-xətti sistemlərin taleyində böyük rol oynayır. Məhz fluktasiyalar bu sistemləri çevik və adaptiv olmağa, gözlənilməz dəyişikliklərə, nizamın pozulmasına hazır olmağa təhrik edir, onlar sürətli formalaşma mexanimlərinə yiyələnirlər" (Улановский, 2005:18).

Terror hadisəsinin nəticəsini cəmiyyətin nizamını pozan fluktasiya olaraq qəbul edib, ayrı-ayrı cəmiyyətlərin və meqa sosiumun bundan əsaslı şəkildə təsirləndiyini, bir çox hallarda siyasi sistemlərdə böyük dəyişikliklər baş verdiyini söyləyə bilərik. Terror aktına məruz qalan cəmiyyətlərdə həm dövlət, həm sosium, həm də şəxsiyyət səviyyəsində sinergetikanın özünütənzimləmə və özünü yenidən təşkilatlandırma mexanizmləri tətbiq edilir.

Sosial sinergetikanın digət üstün tərəflərindən biri də münaqişəli vəziyyətlərin və tərəflərin analizinə geniş imkanların açılması ilə bağlıdır. Terrorizmin ölkə daxilində etnik, siyasi, mədəni və s. qarşıdurma və münaqişələrin nəticəsi olaraq genişləndiyini nəzərə alaraq E.Q.Puqaçova və K.N.Solovyenko tərəfindən təqdim edilən münaqişəli vəziyyətin sinergetik modelini təqdim etdiyimiz metodologiyanın mühüm hissəsi olaraq qəbul edə bilərik. Müəlliflər münaqişəli vəziyyətin sinergetik modelini şərh edərkən göstərirlər ki, müəyyən zaman müddətində baş verən münaqişə hər iki münaqişə tərəfində gərginliyin toplanmasının nəticəsi olaraq meydana çıxır. Narahatlıq doğuran amillər münaqişənin başlanmasına təkan verir. Münaqişə tərəfinin daxili motivasiyası münaqişənin gedişinə əsaslı təsir göstərir. Müəlliflərin fikrincə, sistemin özündə hər zaman qeyri-sabitlik izlənirlir. Münaqişənin sakitləşdirilməsi üçün münaqişə tərəfləri ilə heç bir əlaqəsi olmayan neytral mövqelər münaqişəni aradan qaldırmağa kömək edə bilməzlər. Əksinə əgər sabitləşdirici tərəflərin münaqişə tərəflərindən hər hansı bir asılılığı varsa aşağıdakı sabitləşdirici variantların tətbiqi mümkündür:

"-sülhyaradıcı cəhdlər hər iki münaqişə tərəfinin gərginliyini ayrı-ayrılıqda yumşaltmağa yönəlir;

- sülhyaradıcı cəhdlər münaqişə tərəflərinin məcmu gərginliklərinin yumşaldılmasına yönəlir.

Baxmayaraq ki, birinci variant daha rasional yanaşmadır, belə ki, münaqişə tərəflərinin münaqişəyə gətirən fəaliyyətlərinin köklərini və istiqamətlərini müəyyənləşdirmək imkanları açır, lakin praktikada demək olar ki, hər zaman ikinci variant tətbiq edilir. Münaqişənin aradan qaldırılması üçün sülhyaradıcı qüvvələr hər iki münaqişə tərəfinə eyni qüvvə sərf etməlidirlər. Əgər onlar hər iki tərəfdə münaqişənin törənməsinə səbəb olan amilləri olduğu kimi dərk edərlərsə müsbət nəticə əldə edə bilərlər. Belə ki, münaqişə tərəflərindən hər hansı biri münaqişənin aradan qaldırılmasına yardım etməyə çalışacaq. Əks təqdirdə qeyri-sabitlik hər zaman davam edəcək, çünki münaqişəyə gətirən daxili səbəblər xarici səbəblərin üzərində dayanır" (Пугачева, Соловьенко, 2013:99-102).

E.Q.Puqaçova və K.N.Solovyenkonun ümumi şərhini təqdim etdiyimiz münaqişənin sinergetik modeli sosial sinergetikanın tətbiqi imkanlarının genişliyi meydana çıxır. Terrorun tərəflər arasında yaranan açıq və gizli münaqişənin nəticəsi olaraq müxtəlif səviyyərdə təzahür etdiyini nəzərə alaraq münaqişənin sinergetik modelindən bəhrələnmək mümkündür. Belə ki, münaqişəli tərəflərin davamlı olaraq bir-birinə qarşı törətdikləri terror aktları qarşılıqlı sosial və siyasi narazılıqlar və tələblərlə bağlı toplanmış gərginliklərin nəticəsi olaraq təzahür edir. Hazırda dünyanın bir çox ölkələrində idarə edilən münaqişə və müharibələrin örtülü formaya keçərək zamanla terror hadisələrilə davam etdiyini görə bilirik. Bu mənada terroru yeni müharibə üsulu və ya forması adlandırmaq olar. Müasir terrorun ən geniş formalarından biri ölkənin müharibə və ya münaqişə zonası kimi müəyyənləşmiş hissəsində aparılmasıdır. Belə demək olarsa, terror davamlılıq xüsusiyyəti almış və proqnozlaşdırılması mümkün olan bir fəaliyyətə çevrilmişdir. Sosial sinergetik proqnozlaşdırma münaqişə tərəflərinin daxili motivasiyasını, münaqişənin davamlılıq müddətini və bu müddət ərzində baş vermiş terror aktlarının intensivliyini və xarakterini nəzərə alaraq terrorçu qruplaşmanın gələcək dağıdıcı fəaliyyətini proqnozlaşdıra və beləliklə də

müəyyən mənada idarə edə bilər. Terrorçu qruplaşmaların böyük siyasi qüvvələr tərəfindən maliyyələşdirilməsi və idarə edilməsi məsələsi bir çox ölkələrdə terror hadisələrinin davamlılıq və bəzən də "dayanıqlılıq" xüsusiyyəti qazanmasına səbəb olmuşdur. Bu isə siyasi qeyri-sabitliyin qorunub saxlanmasına, terrorla üzləşən dövlətlərin har zaman digər daha güclü siyasi qüvvələr tərəfindən təzyiqə məruz qalmasına gətirir. Belə şəraitdə həm terrora məruz qalan ölkələr, həm də terrorçu təşkilatlar siyasi alətə çevrilmiş olurlar, sülh yaratmaq cəhdləri də bu prizmadan aparılır.

Göründüyü kimi münaqişənin sinergetik modeli həm siyasi, həm sosial, həm də psixi hadisə olan terrorun açılmasına köməklik edə bilər. Digər tərəfdən bu model əsasında terrorun sosial sinergetika üzərində qurulan modelini təqdim etmək mümkündür.

Beləliklə, terrorun sosial sinergetik təhlili terror fenomeninin siyasi və sosial məqamlarının açılmasına, terror təhlükəsinin qarşısının alınması üçün proqnozlaşdırılmasına və yönləndirilməsinə şərait yaratmış olur. Sosial sinergetika terrorizmin mahiyyətinin açılması və metodologiyasının qurulması baxımından istifadə edilməsi zənnimizcə çox zəruridir.

Təqdim edilən sosial sinergetik metodologiyanın üstünlüklərini aşağıdakı kimi şərh etmək olar:

1. Özünütəşkilatlandıran sistemlər sosial dəyişikliklərə açıq və şəraitə uyğunlaşmaq qabiliyyətinə malik olur. Sosial mühitin qeyri-xətti inkişafı onların özünütəşkilatlandırmasını stimulə edir. Eyni zamanda özünütəşkilatlandıran sistemlər böhranlı vəziyyətlərdə özünütənzimləmə və özünüyönləndirmə bacarıqları əsasında yeni nizamın qurulmasına nail olurlar.

Sosial sinergetik yanaşmanın bu ideyasını terrorçu qruplaşmaların, terrorçunun və terrora məruz qalan sosial gerçəkliyin araşdırılması baxımından tətbiq edək. Terrorçu təşkilatlar davamlı olaraq sosial gerçəkliyin dəyişdirilməsinə çalışan anti-cismlər kimi qəbul edilə bilər. Bu qruplaşmalar böhran vəziyyətinin yaranmasına səbəb olur və özləri də davamlı olaraq dəyişmə şəraitində təşkilatlanır, belə ki, terror aktlarında öz qrup üzvlərini itirir, yenilərini öz sıralarına cəlb etməyə, özlərini davamlı təşkilatlandırmaya və yönləndirməyə meylli olurlar. Terrora məruz qalan və daim terrorizmlə mübarizə aparmalı olan sosial birliklər və sosiumlarda da eyni proseslərin baş verdiyini müşahidə etmək olar. Terror hadisələrinin müəyyən mənada dərk edilmiş və dərk edilməmiş, məqsədyönlü və bəzən kor-təbii nəticələrinin yaratdığı sosial, siyasi və psixoloji xaos innovasiyaların tətbiqini və özünü yenidən təşkilatlandırma imkanlarının genişlənməsi zərurətini meydana çıxarır. Belə demək olarsa, terror sosial, siyasi sistemdə struktur dəyişikliklərinə səbəb olur.

2. Terror törədən tərəf çox zaman qarşı tərəfə münasibətdə müxtəlif aspektli iddialara malik olur. Bu iddialar çox zaman din və mədəniyyət pərdəsi altında siyasi rejimə qarşı çevrilmiş olur. Terror təşkilatlarının fəaliyyəti yalnız terror törədilməsi və yönləndirilməsilə bağlı olduğundan onların hakimiyyəti ələ almaq yaxud mövcud olanı dağıtdıqdan sonra yerinə nə qurmaq və bunu necə etmək kimi planları olmur. Bu mənada terror təşkilatlarını siyasi qüvvələrin təhlükə və qorxu yaratmaq, cəmiyyəti davamlı qeyri-sabitlik vəziyyətində saxlamaq, planlaşdırılmış idarəedilən gələcəyə yönəltmək üçün istifadə etdikləri alətə çevrilirlər. Bu fikirdən çıxış edərək terroru sosial, siyasi və mədəni xaosa səbəb olan attraktor olaraq qəbul etmək olar. Mövcud siyasi quruluşun böhranına səbəb olan terror digər tərəfdən özünütəşkilatlandırmaya sövq edir. Bu özünütəşkiltlandırma hər iki tərəfə - həm terrorçu qruplaşmaya, həm də destruksiyaya məruz qalmış sosiuma aid olur. Çünki hər iki tərəf terrorun nəticələri haqqında ehtimali biliklərə malik olurlar, hər iki tərəfin itkiləri özünü yenidən təşkilatlandırma tələb edir. Bu özünütəşkilatlandımanın fərqli tərəfi burada tərəflər arasında dialoqa nail olmağın mümkünsüzlüyü ilə bağlıdır. Sinergetik vəhdət tərəflərin bir-birini stimullaşdıraraq birgə mövcud olmasını ehtiva edir. Belə ki, terrora məruz qalan cəmiyyət dayanıqlı dəyişikliklərə adaptasiya etməli olur, davamlı olaraq təhlükədən yayınma yolları və metodları axtarışında yaşayır. Terrorçu qruplaşmalar isə dağıntılar törətmək üçün yeni yollar və vasitələr əldə etməyə, cəmiyyəti gözlənilməz mövqedən və gözlənilməz zamanda "silkələməyə", yəni yeni böhranlı vəziyyətə sürükləməyə səy göstərirlər.

M.Maruyama sosial sistemlərdə baş verən gerləmələri, dağıntıları sürətləndirən prosesləri "morfogenezis" (diferensial, yaxud iyerarxik struktur quruluş) adlandırır. N.Luman isə sosial diferensiasiyanın və sosial bərabərsizliyin səbəblərini sosial sistemlərin alt sistemlərində

sosiallaşma prosesilə bağlı olan fərqliliklərlə əlaqələndirir. Sosial bərabərsizlik, ayrı-ayrı insanların, region və bölgələrin inkişafındakı fərqlilik sosial sistemin mürəkkəbləşməsinə və burada mürəkkəb münasibətlərin, o cümlədən bir-birinə qarşı dağıdıcı münasibətlərin formalşmasına gətirir. Sinergetika sosial, psixi, fiziki, mədəni, siyasi və s. fərqliliklərin nəticəsi kimi "avtopoezis" (özünüyaratma) və "özünəreferent" (özünəyönəlmə) insanların, qrupların, birliklərin yarandığını qəbul edir. Bu əsasda deyə bilərik ki, terror hadisəsi etnik, mədəni, dini, sosial, siyasi fərqliliklərin nəticəsi olaraq meydana çıxan dağıdıcı davranış, daxili və xarici münaqişənin nəticəsidir.

Beləliklə, sosial sinergetika sosial gerçəkliyin, cəmiyyətin və ayrı-ayrı sosial qrupların inkişaf qanunauyğunluqlarının açılmasına yönəlir. Belə demək olarsa, bu yanaşma şəxsiyyətin, o cümlədən terrorçu şəxsiyyətinin sosial-psixoloji portretini müəyyənləşdirməyə, həmçinin sosial qrup olaraq terrorçu qruplaşmaların yaranmasının və destruktiv fəaliyyətlərinin sosial, siyasi və psixoloji köklərini analiz etməyə, terror hadisəsi nəticəsində cəmiyyətdə yaranan kütləvi psixoloji, sosial, siyasi böhranın mümkün nəticələrini proqnozlaşdırmağa geniş imkanlar açır. Bu mənada, belə zənn edirik ki, terrorizmin araşdırılmasında sosial sinergetik nəzəriyyə xüsusi əhəmiyyətə malik ola bilər.

## ƏDƏBİYAT SİYAHISI


1. Бранский В.П. Социальная синергетика как постмодернистская философия истории // Общественные науки и современность. 1999, № 6, с. 117-127
2. Зеленков А.И. Социальная синергетика: методологические возможности и пределы в эпоху глобальных рисков // Философия и социальные науки. Минск, 2016, № 4, с. 11-15
3. Пугачева Е.Г., Соловьенко К.Н. Самоорганизация социально-экономических систем. 2013, с. 99-102
4. Улановский А.М. Синергетическая метафора сознания. Вестник Московского Университета. Серия 14. Психология. 2005, № 1, с. 17-29

**Ağasəlim Həsənov**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*a.e.i. , fəl. f. d. , dosent*
*:aghasihasanli@gmail.com*

# QLOBALLAŞMA VƏ VİRTUAL REALLIQ

**Açar sözlər:** *Qloballaşma,Virtual rellıq, Sosiallaşma, Təsir ,Ünsiyyət.*

Çağdaş dövrdə baş verən qloballaşma prosesləri, texnoloji, kommunikativ və sosial-mədəni dəyişikliklər fərdin cəmiyyətdə rolu, eləcə də cəmiyyətin fərdə çoxaspektli təsiri məsələlərini son dərəcə aktuallaşdırır. Yeni yaranmış virtual reallıq insanların həyat şəraitini yaxşılaşdırmaqla yanaşı fərd-cəmiyyət münasibətlərində müəyyən gərginlik də yaradır, canlı ünsiyyətin azalması, şəxsiyyətin özgələşməsi, fərdin cəmiyyətdən təcrid olması, ekstremizmə yuvarlanması kimi halların artmasına da gətirib çıxarır. Bir sözlə, indiki virtual reallıq fərdin sosiallaşması, cəmiyyətə inteqrasiyası üçün yeni imkanlar yaratsa da, onun mənfi tərəfləri də vardır.

Qloballaşma prosesi insanın dünyada yeri və rolu haqqında təsəvvürləri müəyyən qədər dəyişdi. Dəyişikliklər sosial, etnik, iqtisadi, texniki, siyasi və s. olmaqla müxtəlif istiqamətləri əhatə edir. Belə şəraitdə fərd-cəmiyyət münasibətlərində yeni təsirlər, meyillər müşahidə olunur, baxışlar tədricən dəyişir. Qlobal xarakterli dəyişikliklər fərdlər üçün öz düvrünün yeniliklərini mənimsəmiş şəxsiyyətə çevrilmə şəraiti yaradır.

Qloballaşma bir termin olaraq XX əsrin 80-ci illərində elmi dövriyəyə daxil edilmişdir. Həmin dövrdə dünyada formalaşmaqda olan yeni sosial münasibətlər sistemini xarakterizə etmək üçün qloballaşma anlayışı işlənməyə başlandı. İlk olaraq, tanınmış ABŞ alimi R.Robertson və tanınmış sosioloq K.Omaya qloballaşmaya dair fikirlər irəli sürmüşlər. Bundan başqa, F.Fukuyama, Z.Bjezinski , E.Giddens və digər tanınmış alimlərin də qloballaşmaya dair maraqlı elmi yanaşmaları vardır. Eyni zamanda, S.Hantinqton, A. Panarini, P.Bükenen və s. kimi nüfuzlu tədqiqatçılar isə qloballaşmaya əks mövqedən yanaşaraq onun müsbət bir proses olmadığına dair fikirlər yürütmüşlər.

Qloballaşmanın keyfiyyətcə yeni bir fenomen kimi başa düşülməsi R.Robertson tərəfindən nümayiş etdirilir. O, əsas diqqəti qeyri-qərb sivilizasiyalarının, cəmiyyət və mədəniyyətlərinin qloballaşma prosesindəki roluna yönəldir [Robertson,1994:33] . Ümumiyyətlə, Robertson qloballaşmaya tarixi aspektdən yanaşır və onu dünyanın bütöv sistem olaraq yenidən normalaşdırılması ilə bağlı olan dəyişikliklərin məcmusundan ibarət proses kimi səciyyələndirir.

Tanınmış sosioloq K.Omayanın da qloballaşma ilə bağlı fikirləri maraq doöurur. Onun fikrincə, "Qloballaşma erasında dünyada gedən əhəmiyyətli proseslər liberal bazar mühitinə tabe edilir. Bəşəriyyət tarixində yeni era başlayır, elə bir era ki, milli dövlətlər öz əhəmiyyətini itirir və biznes tərəfdaşları kimi lazımsız olurlar" [ Ohmae, 1995: 214] .

Qloballaşma ilk öncə milli dövlətin inkişaf perspektivləri, mill identiklik haqqında olan təsəvvürlərə yenidən baxmağı şərtləndirdi. Belə ki, bir ölkəyə və ya etnosa mənsub olmaq fərdin hər-hansı bir cəmiyyətdə tamhüquqlu üzv sayılması üçün əvvəlki normativ əhəmiyyətini itirir. Nəticədə milli dövlətin dayanıqlı istinadları zəifləyir, sosial cəhətdən əhəmiyyətli və zəngin həyat oriyentirlərinin axtarışı prosesi gedir. Həmçinin, qloballaşma transmilli korporasiyalar kimi birliklərin rolunu artırır və onların inkişafını stimullaşdırır. Ola bilsin ki, istehsal və texnologiya, sənaye kimi vacib sahələri öz təsir dairəsinə salan transmilli korporasiyaların rolu daha da artacaqdır.

Müasir cəmiyyətlərdə informasiya qloballaşma prosesinin əsas hərəkətverici qüvvəsidir. Müşahidələr göstərir ki, informasiya cəmiyyətində yeni kommunikasiya texnologiyaların inkişafı sayəsində fərdin intellektual inkişafı üçün daha geniş imkanlar yaranmışdır. Bununla əlaqədar, M.Delyaginin fikirləri maraq doğurur: "Qloballaşma ilk növbədə kompyüter texnologiyalarına əsaslanan vahid ümumdünya informasiya institutunun formalaşmasıdır" [Делягин,2003:12] .

Qloballaşma prosesinin mühüm amillərdən biri olan İKT insalara yeni və daha sürətli imkanlar təqdim edir. Özəllkilə, internet dünyanın müxtəlif regionlarında insanlar üçün qarşılıqlı informasiya mübadiləsi aparmaq imkanı yaradır. Məsələn, müxtəlif ölkələrdə yaşayan insanlar internet üzərindən əlaqələr yardır, özləri üçün aktual olan ictimai, siyasi, sosial-mədəni və s. məsələlələ bağlı müzakirələr apara bilirlər. Həmçinin, internetin yaratdığı geniş imkanlar virtual olaraq elektron resurslarından istifadə etməyə şərait yardır. Göründüyü kimi, məsafələri qısaldan internet insanlara vaxt itkisinə yol vermədən çoxtərəfli komunikasiya imkanları yaradır və bununla da qloballaşma prosesini sürətləndirir. Deməli , virtual reallıq qlobal xarakter daşıyır və həm də süni şəkildə yaradılan obyektiv reallığı əks etdirir.

Çağdaş dövrdə texnologiyanın inkişafı virtual rallığı formalaşdırmışdır. Cəmiyyətdə baş verən dəyişikliklər insanların həyat tərzlərində dəyişikliyə səbəb olur. Müasir insanın həyatına informasiya-kommunikasiya texnologiyalarının yüksək nüfuz etməsi sosial proseslərə təsir göstərir. Kommunikasiya prosesində internet vasitəsi ilə gerçəkləşmiş virtual reallıq müəyyən yeni davranışlar, norma və qaydalar formalaşdırır. İnformasiya həmçinin yeni təbəqələşmə strukturunu yaradır, başqa sözlə, yeni virtual cəmiyyətin formalaşması prosesi izlənilməkdədir.

Yeni rabitə texnologiyalarına misal olaraq internet televiziyasını göstərə bilərik. Özəllliklə, televiziyanın internetləşməsi dünyanın istənilən bölgələrində bu media növünün öz tamaşaçılarına birbaşa çıxış imkanını yaradır. Gerçəkdən bu cür əlaqələr qloballaşmanı gücləndirir.
Qloballaşma prosesində xüsusi rolu olan televiziya çoxcəhətli və fərqli təqdimatları ilə insanların həyatına təsir edir.Televiziya insanın idrak və davranışına, dünyagörüşünə, nəhayət mədəniyyətinə təsir göstərə bilir.Bununla əlaqədar olaraq BMT-nin sabiq baş katibi Butros Qalinin televiziyanın dünyadakı mühüm rolu haqqında fikirləri maraq doğurur. O deyirdi : "CNN televiziyası BMT Təhlükəsizlik Şurasının altıncı üzvüdür" [Murphy,2003:185.

Qeyd olunanar göstərir ki, televiziyanın ictimai həyata təsir imkanları digər kütləvi informasiya vasitələrindən üstündür. Televiziya qlobal informasiyalaşdırma funksiyasını yerinə yetirir və onun ən mühüm vəzifələrindən biri ictimai, siyasi, mədəni və s. hadisələr barədə gündəlik məlumatları yaymaqdır. Bu, insanlara qlobal və lokal miqyasda baş verən hadisələr haqqında informasiya əldə etməyə, daha düzgün informasiyalar əsasında günün tələblərinə uyğun qərarlar qəbul etməyə imkan verir.Televiziyanın insanların gündəlik həyatına təsiri elə bir səviyyəyə çatmışdır ki, insanlar öz asudə vaxtlarını televiziyanın tərtib etdiyi proqramlara uyğun olarq tənzimləyirlər. Həmçinin, televiziya müxtəlif verilişlər vasitəsi ilə sosial-mədəni dəyərləri təbliğ edə bilər. Bu media novü cəmiyyətdə fərqli baxış və davranışlara malik insanların virtual tanışlığı üçün bir vasitədir. Televiziyanın qlobal əhəmiyyəti həm də ondadır ki, burada hər hansı bir ölkə xalq və ya cəmiyyət haqqında geniş informasiya əldə etmək mümkündür. Bu cür tanışlıqların genişlənməsi isə cəmiyyatlər arasında rəqabət hissini formalaşdırır və bu da gələcək inkişaf üçün güclü motivasiya faktoruna çevrilir.

İKT-nin hazırkı inkişaf səviyyəsi fərdlərarası virtual əlaqələrin yarnmasına şərait yaratmışdır. Son zamanlar texnoloji yenilklər sayəsində fərdlərarası virtual ünsiyyət, sosial-mədəni əlaqələr xeyli inkişaf etmiş və bunun nəticəsi olaraq virtual reallıq formalaşmışdır.Virtual reallıq qlobal xarakter daşıyır, o fərdlərarası əlaqələrin , fəaliyyət növlərinin məhz intrnet üzərindən gerçəkləşməsi ilə reallaşmışdır. Özəlliklə, yeni ünsiyyət və sosial şəbəkə (məsələn, WhatsApp, Facebook, Twitter v.s) proqramlarından istifadə bütün dünyada aparıcı mövqe qazanmışdır. Müşahidələr göstərir ki, fərdlər real ünsiyyətlə müqayisədə virtual ünsiyyətə daha çox meyllidirlər və bunun da bir sıra obyektiv səbəbləri vardır. Məsələn, fərd WhatsApp proqramından istifadə etməklə vaxt itkisinə yol vermədən, heç bir məsafə qət etmədən daha geniş əlaqlər yarada bilir. Bundan başqa, fərd Facebook və ya digər sosial şəbəkə proqramlarının istifadəçisi olmaqla virtual olaraq daha çox insanları tanıma, daha çox informasiya əldə etmə, müxtəlif mövzulara dair müzakirələr aparma və rəy bildirmə imkanı əldə etmiş olur.Məqsədyönlü və səmərəli istifadə edildiyi halda sosial şəbəkələrin fərdlər üçün əhəmiyyətli olan cəhətləri təxminən bunlardır:

-daha çox insanları tanımaq;

-daha çox informasiya əldə etmək;

-bilik və məlumatları artırmaq;

- yeni ideyaları, innovasiyaları yaymaq;
-müxtəlif mövzulara dair müzakirələr aparmaq;
- hadisə və proseslərə rəy bildirmək;
- sosial sifariş və istəkləri dövlətə çatdırmaq;
- dövlətin fəaliyyətini əks etdirmək;
-baxışları, davranışları yeniləşdirmək;
-reallığı öyrənməyə şərait yaratmaq;
-ciddi situasiyalardan xəbərdar etmək;
-milli-mənəvi dəyərləri təbliğ etmək və s. .

Göründüyü kimi, fərdlər virtual məkanlarda özlərini realizə edir, cəmiyyət həyatında baş verən müxtəlif ictimai-siyasi proseslərin aktiv iştirakçısına çevrilirlər. Bütün bunlar bir daha göstərir ki, virtual rallıq artıq müasir insanın həyat tərzinə çevrilmişdir və qeyd olunan bu müsbət məqamlar fərd-sosium əlaqələrində yeni tendensiyalar formalaşdırır.

Dövrümüzdəki nəhəng informasiya axını insanların həyat şəraitini yaxşılaşdırmaqla yanaşı fərdin cəmiyyətə inteqrasiya olmasında müəyyən gərginlik də yaradır və bu işdə sosial şəbəkələrin də rolu vardır. Səmərəli istifadə edilmədiyi halda sosial şəbəkələrin fərdlərə olan mənfi təsirləri təxminən bunlardır:

-virtual aləmdən asılılığın yaranması;
- real-canlı ünsiyyətin azalması;
- şəxsiyyətin özgələşməsi;
-fərdin cəmiyyətdən təcrid olunması;
-fərdin radikalizmə, ekstremizmə yuvarlanması;
-zorakı davranışlara təhrik edən səhnələrin nümayiş etdirilməsi;
-gənclərin təhsildən aralanıb, vaxtını sosial şəbəkələrə sərf etməsi;
-mənəvi dəyərlərə zidd səhnələrin təqdim edilməsi;
-erkən yetkinləşmə həyatının təbliğ edilməsi;
-yeniyetmə və gənclərdə zombiləşmə meyillərinin artması;
-yeniyetmə və gənclərdə diqqətsizlik, unutqanlıq kimi mənfi keyfiyyətlərin artması və s. .

Göründüyü kimi, çağdaş cəmiyyətdə İKT-nin sürətli inkişafı yeni innovasiya və biliklərin əldə edilməsinə geniş imkanlar yaratmaqla yanaşı, insanları həm də ciddi seçim qarşısında qoyur. Belə ki, virtual reallığın yaratdığı imkanlardan məqsədyönlü və səmərəli istifadə fərdin cəmiyyətə inteqrasiya olmasına, onun şəxsiyyət kimi formalaşmasına öz müsbət töhfəsini verə bilər. Əks halda isə, prosesin arzuolunmaz istiqamətdə inkişaf etməsi qaçımazdır.

Yeni sosiomədəni məkan müasir insan qarşısında bir sıra tələblər qoyur. Beynəlxalq münasibətlərin genişlənməsi, mədəniyyətlər arasındakı dialoqun intensiv xarakteri şəxsiyyətdən xarici dil bilməsini, kommunikativ və mədəni əlaqələrə hazır olmasını tələb edir. Çünki, sosiomədəni məkanın inkişafı yeni ideyaların və innovasiyaların yaradılması ilə sıx bağlıdır. Öz dövrünün elmi-texniki yeniliklərini, dəyərlərini mənimsəməyən fərd tədricən sosial-mədəni mühitin fəal aktoruna çevrilir.

Beləliklə, qloballaşma prosesi dünyaya yenidən baxmağı, dəyərləri yenidən nəzərdən keçirməyi zəruri edir. Qlobal proseslərin nəticəsi olaraq dəyərlərin transformasiyası baş verir və bu da yeni sosiomədəni məkanın formalaşmasını şərtləndirir. Müasir sosiomədəni məkanın formalaşması ilə biliklərin ötürülməsində əvəzsiz imkanlar açılır, ictimai inkişafın yeni perspektivləri görsənir və bununla da fərd-cəmiyyət münasibətləri yeni dövrün tələblərinə uyğun olaraq müəyyənləşir. Yenilənən texnologiyaların insan həyatının müxtəlif sahələrinə nüfuz etməsi rellıqdır və mübahisə mövzusu ola bilməz. Hazırda virtual rellıq strukturlaşdırılmış yeni bilik məkanı formalaşdırmaqdadır və internetin yaratdığı geniş imkanlar virtual olaraq elektron resurslarından istifadə etməyə şərait yardır. Bütün bu qeyd olunanlar virtual reallığın sosialllaşmaya edə biləcəyi müümkün təsirlərdir.

## İstifadə edilmiş ədəbiyyat

1. Robertson R. Globalisation or Glocalisation? // Journal of International Communication. 1994, Vol. 1, Issue 1.
http://www.pravo.vuzlib.su/book_z1617_page_23.html, pp.33- 52
2. K. Ohmae, The End of the Nation -State :the Rise of Regional Economies. New York and Schuster Inc. , 1995 , 214 p.
3. Делягин М.Г. Мировой кризис: общая теория глобализасия: курс лекций М., ИНФРА-М, 2003, с. 12.
4. Murphy P. (2003) Global media studies, ethnographic perspective, paperback. p.185.

**Səadət Məmmədova**
*AMEA Elm Tarixi İnstitutu,*
*a.e.i., sos.f.d., dsoent*
saadet.baki@yahoo.com

# SOSİAL ƏMƏKDAŞLIQ VƏ SOSİAL TƏRƏFDAŞLIQ SOSİAL TƏRƏQQİNİN ƏSASLARI KİMİ

**Açar sözlər:** *sosial dialoq, sosial əməkdaşlıq, sosial tərəfdaşlıq*

Vətəndaş – cəmiyyət – dövlət münasibətlərində sosial tərəfdaşlıq və əməkdaşlığın yaranması uğurlu sosial diaoqun əsasıdır. Sosial birgəyaşayışda qarşılıqlı anlaşmaya, qarşılıqlı hörmətə əsaslanan rasional sosial əməkdaşlığın yaradılması sosial gərginliyin qarşısının alınmasına, sosial sabitliyin əldə edilməsinə və dövlətin tərəqqisinə gətirir. Rasional sosial əməkdaşlıq sosial qarşılıqlı məsuliyyətin inkişafını zəruri edir.

Con Stüart Millə görə "sosial əməkdaşlıq – sosial sülh və tərəqqi, səmərəli iqtisadiyyat, zəhmətkeşlərin haqlarının müdafiəsi məqsədilə muzdla işləyənlər, biznesmenlər və icra hakimiyyətilə könüllü və bərabərhüquqlu qarşılıqlı münasibətə əsaslanır. Sosial əməkdaşlığın əsas subyektləri - dövlət və onun təsisatları, biznes, yəni işverənlər və onların birlikləri, muzdla işləyənlər və onların təşkilatlarından ibarətdir" [Qonçarov, 2000:18-20].

Sosial əməkdaşlıq bilavasitə mezo səviyyəli, yəni işəgötürənlərlə işçilər arasındakı əmək münasibətlərini ehtiva edir və dövlətin əmək qanunvericiliyi əsasında tənzimlənir. Müqaviləli münasibətlər üzərində qurulan sosial əməkdaşlıq tərəflərin maraqlarına hörmət, sosial ədalət və bərabərhüquqluluğun təmin edilməsi, qarşılıqlı sosial məsuliyyət, sosial tərəfdaşlığın yaradılması və s. prinsiplərə söykənir.

A.M.Malışevə görə: "sosioloji anlamda sosial əməkdaşlıq – siniflərin, birliklərin, rəsmi və bələdiyyə təşkilatlarının, qeyri-kommersiya strukturlarının və təsisatların maraqlarının müdafiəsinə yönələn sivil ictimai münasibətlər sistemidir" [Malışev, 2012:1-2].

Əməkdaşlıq münasibətləri rəsmi əsaslarda dövlət, ictimai əsaslarda isə həmkarlar ittifaqları tərəfindən tənzimlənir. Dövlət, o cümlədən işlə təmin edən rəsmi və ictimai təşkilatlar, həmçinin işə götürülənlər sosial əməkdaşlığın subyektləri, əməkdaşlıq münasibətləri isə obyekti kimi çıxış edir. Sosial əməkdaşlıq sisteminin başlıca subyekti olan dövlət insan haqlarının zəmanətçisi, istehsalatdakı münaqişələrin tənzimləyicisi, qarşı tərəflər arasında danışıqlar prosesinin təşkilatçısı və əlaqələndiricisi funksiyalarını icra edir. Sosial dövlətin əsas qayəsi işlə təmin edənlər və həmkarlar ittifaqları, həmçinin sosiumun firavanlığına çalışan müxtəlif siyasi qüvvələr arasında əməkdaşlığın yaradılmasıdır. Bu mənada, sosial əməkdaşlıq zəhmətkeşlərin qarşılıqlı münasibətlərinə təsir göstərərək institusional mexanizm rolunu ifa edir.

A.M.Rəhimovanın qeyd etdiyi kimi: "sosial əməkdaşlıq və onun subyektləri dövlətin nəzarətilə formalaşdırılır və dövlət özü də sosial əməkdaşlığın əsas subyektlərindəndir. Sosial əməkdaşlıq sistemində sabitliyin saxlanması dövlətin məsiliyyətlərinə daxildir" [Rahimova, 2015:94-96].

Sosial əməkdaşlıq sosial tərəfdaşlıq problemini aktuallaşdırır, belə ki, öz hüquqlarını, maraqlarını irəli sürən və müdafiə edən, eyni ideya, məram və məqsəd ətrafında həmrəy olan işçilər tərəfdaş olaraq, öz mövqelərini müdafiə etməyə, bu yöndə dövlət qanunvericiliyinə və ayrı-ayrı təsisatların fəaliyyətinə təsir edəcək təkliflər verməyə və təşəbbüs göstərməyə səy edirlər.

Z.Şabanov sosial tərəfdaşlıq, yaxud əməkdaşlıq prosesində sosial qarşılıqlı təsiri əsas məqamlardan biri kimi vurğulayaraq, qeyd edir ki, "sosial qarşılıqlı təsir – fərdin, fərdlər qrupunun davranışında müxtəlif fəaliyyət növlərinin daimi daşıyıcısı kimi öz mövqelərinə və funksiyalarına görə fərqlənən münasibətlərin xarakter və məzmununu ifadə edir" [Şabanov, 2017:126].

Sosial tərəfdaşlıq müəyyən mənada sosial əməkdaşlığın və vətəndaş cəmiyyətinin inkişafına təsiredici amillərdəndir. Ən böyük tərəfdaşlıq sistemi kimi çıxış edən Həmkarlar İttifaqı sosial əməkdaşlığın başlıca subyektlərindəndir.

Azərbaycanda sosial tərəfdaşlıq sistemi daim təkmilləşir. 1,6 milyondan çox həmkarlar ittifaqı üzvünü birləşdirən AHİK işçilərin pozulmuş əmək və sosial hüquqlarının bərpası uğrunda səmərəli mübarizə aparır. Transmilli şirkətlərdə 70-dək həmkarlar ittifaqı təşkilatı fəaliyyət göstərir [AHİ 100 illiyi...].

Sosial tərəfdaşlıq və sosial əməkdaşlıq sisteminin və subyektlərinin formalaşması bazar iqtisadiyyatının inkişafının əsas şərtlərindən biri kimi təzahür edir. Hazırda ölkəmizdə sosial əməkdaşlıq modeli formalaşıb. Hakimiyyət həmkarlar ittifaqları, QHT-lər, sahibkarlıq və d. təsisatlarla münasibətləri əməkdaşlıq səviyyəsində qurur. 1994-cü ildə "Həmkarlar ittifaqları haqqında qəbul edilmiş Qanun"a görə, ölkəmizdə sosial əməkdaşlıqla bağlı "tripartizm" (dövlət – həmkarlar ittifaqı – işçi münasibətləri) sistemi qurulub. Azərbaycan hökuməti səmərəli sosial siyasətin formalaşdırılması mexanizmi kimi sosial əməkdaşlığın inkişafına çalışır.

Azərbaycanda sosial əməkdaşlıq sistemi öz hüquqi əsaslarını A**zərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasının 2016-2017-ci illər üçün imzaladığı Baş Kollektiv Sazişində tapıb** [Azərbaycanda BKS...].

Hər bir sosial fenomen bilavasitə mənəviyyata söykənərək, yüksək mənəvi dəyərlər əsasında tərəqqi edir. Bu mənada sosial tərəqqinin əsaslarını təşkil edən sosial tərəfdaşlıq və sosial əməkdaşlıq cəmiyyətdə uğurlu sosial dialoq yaradır, sosiumda sosial sabitliyin və tərəqqinin davamlılığına zəmanət verir.

## Ədəbiyyat siyahısı

Azərbaycan Həmkarlar Ittifaqlarının 110 illiyi.: [Elektron resurs] URL: http://ahik.org/articles/view/azerbaycan-hemkarlar-ittifaqlarinin-110-illiyi
Azərbaycanda Baş Kollektiv Saziş imzalandı.: [Elektron resurs] // Biznes və İqtisadiyyat Xəbərləri. Aprel 2016. URL: https://az.trend.az/business/economy/2522848.html
Şabanov Z. Müasir cəmiyyətin yeni paradiqmaları. / Z.Şabanov. – Bakı: Avropa. – 2017, - 256 s.
Гончаров П.К. Социальное государство: сущность ,мировой опыт, российская модель // – Москва: Социально-гуманитарные знания: Научно-образовательное издание . – 2000 , N 2 . – с. 18-37.
Малышев М.А. Уровень развития социального партнерства в России // Москва: Государственное управление (Электронный вестник). – 2012, Выпуск № 34. – с.1-12.
Рахимова А.М. Роль государства в становлении социального партнерства (на примере Республики Казахстан) // – Москва: Наука и Мир Международный научный журнал, – 2015, № 2 (18), Том 2. – с. 94-122

**Həcər Abdallı**
*AMEA Fəlsəfə İnstitutu,*
*aparıcı elmi işçi, f.f.d., dosent*
*habdalli@rambler.ru*

# DƏYƏRLƏRİN İTİRİLMƏSİ TƏHLÜKƏ MƏNBƏYİ KİMİ

*Müasirlik, yenilik və eyni zamanda, milli dəyərlərə, milli köklərə bağlılıq – bugünkü Azərbaycanı təsvir edən bu ideya artıq hamıya bəllidir. Azərbaycan xalqı daim öz milli köklərinə bağlı xalq olmuşdur və bizim gələcək uğurlarımız da məhz bu amillərlə bağlıdır. Biz tarixi irsimizin - zəngin mədəni irsimizin əsasında müasir, güclü Azərbaycan qururuq.*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

**Açar sözlər:** cəmiyyət,mənəvi dəyərlər,mədəniyyət, ailə,vətənpərvərlik,tərbiyə

Cəmiyyət daim inkişaf edir, burada müxtəlif sosial-mədəni, siyasi hadisə və proseslər baş verir. İyirmi birinci yüzillikdə dünyada qarşıdurmalar, müharibələr, maliyyə və iqtisadi böhranlar yaşanıldığı zamanda Azərbaycan dinamik inkişaf yolundadır. Bu, ölkə başçısı Cənab İlham Əliyevin apardığı müstəqil, ardıcıl siyasətin məntiqi nəticəsidir. Bütün sahələrdə - kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurları, eləcə də beynəlxalq səviyyədə qurduğu münasibətləri və davamlı inkişafı Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi tanınmasına səbəb olan amillərdir. Bu gün ölkəmiz müxtəlif beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Ölkəmizdə beynəlxalq tədbirlərin keçirilməsi, dinindən, irqindən asılı olmayaraq, saysız-hesabsız insanların Azərbaycana səfəri bu diyarın sivilizasiyaların qovuşuğunda yerləşdiyinə əsaslanır və ölkəmiz mədəniyyətlərarası dialoqa töhfələrini verən məkan kimi bütün dünyada tanınır və hörmət qazanır. Son illərdə ölkəmizdə keçirilən möhtəşəm tədbirlər - Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Avropa və islam ölkələri mədəniyyət nazirlərinin konfransı və başqa onlarla belə beynəlxalq tədbirlər ölkəmizin qısa müddət ərzində əldə etdiyi yüksək inkişaf səviyyəsini, bütün dünyaya nümayiş etdirmək baxımından belə böyük əhəmiyyət kəsb edir. Bütün bu və ya digər beynəlxalq tədbirlərin təşkili Azərbaycan dövlətinin tolerantlığını, sülhsevər olduğunu və multikulturalizm siyasətini, milli-mənəvi dəyərlərini, mədəniyyətini və s. bir daha dünya ictimaiyyətinə təqdim edir. Bu, əlbəttə ki, dövlət siyasətinin uğurla həyata keçirilməsinin nəticəsidir(https://sesqazeti.az/news/social/596076.html). 2015-ci ildə Azərbaycanda keçirilən "Bakı-2015" Birinci Avropa Oyunları, Azərbaycan və Avropa idman tarixinə yeni səhifəni açmaqla yanaşı, dünyanın yüz milyonlarla dinindən, irqindən asılı olmayaraq, televiziya tamaşaçısının diqqətini Azərbaycana yönəltdi. Açılış mərasimində təqdim olunan kreativ şou çərçivəsində Azərbaycan irsi, mədəniyyəti, ədəbiyyatı, mənəvi dəyərləri, tarixi qısa zaman içərisində dünya xalqlarına təqdim olundu. Rəngdən-rəngə düşən səhnənin hər bir guşəsində Azərbaycan çalarları sərgiləndi. Dünya insanında bir neçə dəqiqə ərizində Azərbaycan haqqında, mili-mənəvi dəyərləri, mədəniyyəti, tarixi keçimişi haqqında təssəvvür yaratmış oldu.

"Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu"nda "Mədəniyyət sərvətləri" haqqında deyilir: "Mənəvi və estetik ideallar, normalar və davranış qaydaları, dillər, dialektlər, ləhcələr, milli və etnik ənənələr və adətlər tarixi toponimlər, folklor, tətbiqi xalq sənətləri, mədəniyyət və incəsənət əsərləri, mədəniyyət fəaliyyətinin elmi tədqiqatının nəticələri və metodları, tarixi və mədəni əhəmiyyəti olan binalar, tikililər, əşyalar, tarix və mədəniyyət baxımından unikal ərazilər və obyektlər mədəniyyət sərvətləridir"(Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu, 2018:4). Milli-mənəvi dəyərlər adət-ənənələrlə nəsildən-nəslə ötürülən yazılmamış qayda-qanunlardır, onların mənfi ünsürlərdən qorunması və təbliğində vətəndaşlarımızın üzərinə böyük məsuliyyət düşür.

Müasir dövrdə ən aktual problemlərdən biri qloballaşma prosesi ilə milli adət-ənənələr arasında optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də düşünülmüş şəkildə, ya da qərəzsiz - sirayət etməyə cəhd göstərir. Belə bir şəraitdə ilk növbədə nəyi qorumaq

lazım olduğunu, məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənələri saxlamaq, hansı yöndə isə yenilikləri qəbul edib tətbiqinə nail olmaq düşünülmüş konsepsiya tələb edir. Bunu qəlizləşdirən məqamlardan biri də Qarabağ probleminin sülh yolu ilə həllinə çalışan Azərbaycan dövlətinin qarşısına atılan süni əngəllər, ikili standartlar, ölkənin hər sahədə sürətli inkişafına qısqanclıqdır.

Onu da nəzərə almaq lazımdır ki, ölkəmiz iki əsrə yaxın çar Rusiyasının və Sovet İttifaqının tərkibində qalmaqla bir çox milli və dini adət-ənənələrimizin təzyiqlər altında saxlanılıb və bu, şüurlara təsirsiz ötüşməyib. Müstəqillik əldə etdikdən sonra da dövlətimiz müxtəlif təzyiq vasitələri ilə, ikili standartlarla üzləşməli olur. Mövcud vəziyyət hər cür milli-mənəvi dəyərə sahib Azərbaycan xalqının səbrli, xarici və daxili hiylələrə uymamağı, vahid qüvvə kimi dövlətçiliyin tələbləri kontekstində birləşməyi tələb edir. Bu istiqamətdə hər bir Azərbaycan vətəndaşının üzərinə vəzifə düşür.

Qədim və köklü milli-mənəvi dəyərlər sisteminə malik olan Azərbaycan xalqı özünəməxsuss olan dəyərləri sədaqətlə, hörmətlə qorumuş, əsrlərlə yaşatmış, nəsildən–nəslə ötürmüş və inkişaf etdirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması keçmişdə olduğu kimi bu gün də öz aktuallığını qoruyub saxlayır. Belə ki, milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində, qorunub saxlanmasında və inkişaf etməsində də xüsusi rolu vardır.

Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

“Mənəvi dəyərlər” insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xysusiyyətlər yaranır (Əhmədov,1993:73).

Tədqiqatçı-publisist Ş.Nəzərli isə yazır ki, mənəvi dəyər özünün fiziki və mənəvi varlığını qoruyub saxlamaq, yaşatmaq üçün hər hansı sosial qrup və ya cəmiyyətin əksər üzvlərinin doğru və lazımlı olduğuna inanıb qəbul etdikləri ortaq dünyagörüş, məqsəd, əxlaq normaları və inanclardır. Milli ideologiya, mənəvi yaddaş, milli tarix, milli dil, ənənəvi dini dəyərlər, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə sistemi, dahi şəxsiyyətlərimiz, milli musiqimiz və s. Bir sözlə, milli və mənəvi olan bütün nailiyyət və keyfiyyətlərimiz milli-mənəvi dəyərlər sisteminə aiddir. **(Nəzərli Ş.**https://interaztv.com/society/35127 .

Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olmuşdur ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Azərbaycanın milli dəyərləri orta əsrlərdə formalaşmış və göründüyü kimi, o vaxtdan bəri çox az dəyişmişdir (Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu, 2018:4). Azərbaycanlıların çox vaxt türk-islam dəyərləri adlandırılan əxlaq qaydaları toplusunun özəyi orta əsrlərdəki türk hərbi-feodal şərəf kodeksinin təsiri altında formalaşmışdı. Bu kodeks haqqında məlumatı “Dədə Qorqud” (XI əsr) və “Koroğlu” (XVI əsr) kimi türk dastanlarından almaq olar: Ya hər şey - ya heç nə; Məğlubiyyət - ölümdən pisdir; Kömək diləmək - ayıbdır; Qənaət - xəsislikdir; Ehtiyatlılıq - qorxaqlıqdır; Qonaq - Allahındır; Ailə - müqəddəsdir; Söz verdinsə - əməl elə; Qadının namusu – toxunulmazdır (Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu,2018:5).

Qədim dövrlərdə “Dədə Qorqud”, “Manas”, “Alpamış”, “Koroğlu” dastanları, xalqımıza mənsub olan dahi şairlərimiz, yazıçılarımız - Nizami, Yunus Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Abay və digərləri tariximizi, mənəvi dəyərlərimizi əks etdirən, bizi dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünəməxsus milli-mənəvi dəyərlər o cümlədən, ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir.

Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatmışdır. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz

mərasimləri, yas mərasimləri, İslam dininin təmizlik, düzlük, insanlıq, kimi bəşəri, ali hissləri tərbiyə edən dəyərləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır. Bütün bunların kontekstində Azərbaycan vətəndaşının varlığı göstərilir. Uzun illərin yolu və əsrlərin, qərinələrin sorağı bu ənənələrə bizi bağlamış, dövrümüzə körpü salmışdır (Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu,2018:9). Müasir insanın formalaşması və özünü təsdiqi, məhz milli-mənəvi dəyərlərin aşılanması prosesi ilə bağlıdır.

Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır.

Azərbaycan xalqı azad və suveren dövlət quraraq mədəni iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir.

Müdrik ağsaqqallarımız, söz sahibi olan ziyalılarımız, xüsusilə geniş təbliğat-təşviqat imkanları olan radio-televiziya, dövri mətbuat, digər kütləvi informasiya vasitələri mənəvi dəyərlərimizin təbliği və gənc nəslə ətraflı izah edilməsi işlərinin fövqündə olmalıdırlar. Vətən, ata-ana, el-oba, yurd yeri, doğma ocaq sevgisi, namus-qeyrət təəssübü çəkmək, vətənpərvərlik, halal-haram, böyük-kiçik, ədəb-ərkan, etik dəyərlər, unudulmaz inam və inanclarımız, nəhayət, müqəddəs milli adət-ənənələrimiz ümumən milli mentalitetimizin məhək daşıdır (www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/m-d-niyy-t/item/1109).

Bu gün dövlətin hər cür resurslardan səmərəli istifadə yolları ilə formalaşdırmağa çalışdığı başlıca dəyərlər bunlardır: ədalətli olmaq, ailə birliyinə önəm vermək, vətənsevərliyi aşılamaq, qanunlara hörmət, dinə hörmət, eyni zamanda tolerantlıq, çalışqanlıq, qonaqsevərlik, yardımsevərlik və s. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Bu dəyərlərin itirlməsi xalqın məhvinə səbəb ola bilər. Bu təhlükənin qarşısının alınması üçün hamı çalışmalı, hər bir vətəndaş öz töhfəsini verməlidir, dəyərlərin qorunub saxlanması üçün dövlətə kömək etməlidir.Dəyərlərin qorunub saxlanmasında hər nəslin üzərinə məsuliyyət düşür.Heç kim bu məsuliyyətdən kənar qalmamalıdır.

Milli ideologiya, milli tarix, milli dil, dinimiz, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, fərdi yaddaşı, etnos yaddaşını, millətin, xalqın yaddaşını ehtiva edən folklorumuz bizim milli-mənəvi dəyərlərimizdir. Bir sözlə, milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sisteminə aiddir. Amma bu dəyərlər sistemi xalqın yaddaşında və dövlət səviyyəsində təsbit olunmazdan əvvəl Ulu Yaradan tərəfindən Qurani-Kərimdə təqdim edilib: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. (Hücurat-13).

Yazıçı-publisist Oqtay Əliyevin fikrincə, xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur. Bu gün milli-mənəvi dəyərlərimizə qarşı çıxmaq təşəbbüsləri və halları olduğu üçün, bu vacib məsələnin daim diqqətdə saxlanılması zərurəti yaranıb. Tarixi qürur duyduğumuz meyarların, nailiyyətlərimizin üstündən belə asanlıqla xətt çəkmək, onu aşağılamaq istəyinin bəzən baş qaldırması bizi çox qayğılandırır. İlk növbədə hər bir ziyalı əsrlər boyu cilalanmış, zamanın kəşməkəşli sınaqlarından çıxmış, ələnmiş, saflaşmış, bugünümüzün həyati tələbatına çevrilmiş, xalqımızın özünəməxsus milli mentaliteti meyarlarına çevrilmiş mənəvi dəyərlər xalqımızın yüksək əxlaqi xüsusiyyətlərinin təcəssümüdür, duz-çörək qədər hamımıza əzizdir (Əliyev O.www.respublica-news.az.diger-xeberler-medeniyyet/1109).

Milli-mənəvi, o cümlədən dini dəyərlərimizin, adət-ənənələrimizin, əxlaqi qayda və normaların dərindən öyrənilməsi və araşdırılması, ətraflı təhlil olunması müasir cəmiyyətimizin əsas prioritet istiqamətlərindən biridir. Tarix şahidlik edir ki, öz soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən, dünya xəritəsindən birdəfəlik silinmək təhlükəsi ilə üz-üzə qalmışlar.

Mənəvi dəyərlər dövrün, mövcud şəraitin və ictimai quruluşun ruhuna, tələblərinə uyğun cilalanır, yeni forma və məzmun kəsb edir. Eyni zamanda şəraitə uyğun mənəvi dəyərlər adət və ənənələr yaranır. Əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlər nəinki təkcə müasir milli mövcudluğumuzun, həm də siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantına çevrilməlidir. Milli-mənəvi varlığımızın qorunub saxlanması da dövlətin ən əsas funksiyalarından biri olmalıdır.

Azərbaycan Respublikasının ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsi daha böyük aktuallıq tələb edir. Milli-mənəvi dəyərlərə bağlılıq vətənpərvərlik hisslərini gücləndirir, insanın əsl vətəndaş kimi yetişməsində birbaşa rol oynayır.

Vətənpərvərlik insanın öz vətəninə sevgi və sədaqətindən, onun tarixi, milli və mədəni dəyərləri üçün qürur hissi keçirməkdən, doğma vətənin siyasi, iqtisadi və mədəni tərəqqisi naminə çalışmaqdan və onun müdafiəsinə hər an hazır olmaqdan ibarətdir.Vətənpərvərlik hissi insanda uşaqlıqdan tərbiyə edilməli, kiçik yaşlarından aşılanmalıdır.

İstifadə olunmuş ədəbiyyat

Əhmədov, Ə. İslam əxlaqı. Bakı, Maarif, 1993
Əliyev O. www.respublica-news.digerxeberler-medeniyyet(müraciət tarixi: 22.01.2020)
Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, Qanun, 2018
Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu. Metodik vəsait. Bakı, 2018
**Nəzərli Ş**.https://interaztv.com/society/35127(müraciət tarixi: 30.01.2020)
www.sesqazeti.az/news/social/596076.html (müraciət tarixi: 09.02.2020)
www.respublica-news.digerxeberler-medeniyyet

**Светлана Адыгезалова**
*Азербайджанский Государственный*
*Педагогический Университет, д.ф. по философии, доцент*
asveta53@mail.ru

# КУЛЬТУРНЫЕ АСПЕКТЫ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

**Ключевые слова**: *национальная безопасность, азербайджанизм, национальная идеология, национальная идея, мультикультурализм, социокультурная модель развития.*

Концепция национальной безопасности требует предварительного рассмотрения характерных особенностей истории Азербайджана, специфику современного момента с анализом допущенных ошибок и упущений политического плана. Затем следует определить наше сегодняшнее состояния и четко указать к какой политической системе и к каким социо-культурным ценностям движется или предполагает двигаться общество. Важно выяснить наличие/отсутствие необходимого потенциала для достижения намеченной цели. В этом контексте предполагаемое будущее должно быть связано с настоящим, не вызывая при этом непримиримые противоречия с прошлым, его фундаментальными ценностями.

Межнациональные конфликты, реализация масштабных экономических и коммуникационных проектов, нефтяная стратегия Азербайджана превратили Южный Кавказ в один из важных геополитических регионов, в котором сталкиваются интересы большинства мировых держав.

Концепция безопасности Азербайджана, очевидно, может содержать в качестве своих элементов следующие концептуальные модели: государство как часть Европы; как нейтральная страна; как часть исламского мира; как часть Евразии. Оптимальная доктрина национальной безопасности должна органично синтезировать большинство из этих элементов, поскольку Азербайджан в той или иной мере представлен во всех этих геополитических пространствах.

Известно, что модель политического устройства в целом определяет контуры и характер экономических реформ. Вместе с тем, экономика представляется как взаимосвязанная модель, учитывающая интеллектуальные, трудовые и природные ресурсы страны, традиционные сферы деятельности и возможность внедрения ее нетрадиционных форм. Это в первую очередь модель экономической безопасности страны и она не может ориентироваться только на одну отрасль. Азербайджан вынужден вписываться в мировую геополитическую стратегию, слабо учитывающую наши национальные интересы.

Политический и экономический блоки концепции безопасности должны дать представление населению, что его ожидает в ближайшем и удаленном будущем, что будет с нашим обществом, на какие слои оно разделиться, какие из них станут движущими силами общества. Людям следует показать, каким образом можно построить правовое государство в стране, сбалансировать его сильным гражданским обществом, определить реальные механизмы разделения властей, их взаимные сдержки и противовесы. Как известно, ярко выраженная специфика субъективности общества способствует его устойчивости и противодействует попыткам внедрения в него новых ценностей без их анализа и проверки.

Однако политический, экономический и социальный блоки могут стать бесполезными, если они не будут принимать в расчет духовную сферу, если большинство предлагаемых мер будет противоречить менталитету народа. История, религия, культура, духовная традиция предъявляют главные претензии к концепции, высвечивая ее подлинную сущность.

Итак, концепция безопасности должна быть рассчитана на любого гражданина Азербайджана, в том числе и на проживающих за рубежом - это программа возвращения всех азербайджанцев в политическое пространство, из которого они добровольно или же по принуждению выпали.

В каждую историческую эпоху перед страной и государством встает главный вызов времени, который вне своего решения тормозит реализацию всех остальных преобразований. Для Азербайджана таким вызовом является нагорно-карабахская проблема, тормозящая темпы развития государственности, суверенности, демократии, социально-политических и экономических преобразований. Концепция не вполне доработана, если не предлагает пути национальной инициативы в разрешении конфликта, надеясь исключительно на международные посреднические организации.

Какова специфика политического, экономического, социального и духовно-культурного развития Азербайджана? Азербайджанскому народу за последние 200 лет в силу исторических обстоятельств пришлось четыре раза основательно реконструировать систему ценностей.

В первый раз – в начале XIX века, когда был осуществлен раздел Азербайджана между Ираном и Россией, и северная часть страны подверглась колонизации, радикальной русификации и массовому притоку переселенцев из России и Ирана.

Во второй раз во второй половине XIX века в связи с промышленным развитием и ростом национального самосознания, завершившимся построением АДР и распространением идей всеобщего гражданского равноправия, демократии и парламентаризма.

В третий раз – в ходе советской экспансии (1920г.) и возникновения Азерб.ССР. За годы советской власти (1920 – 1991 гг.) Азербайджан добился успехов во многих областях промышленности, образования, науки и культуры. Вместе с тем трезвая оценка этого периода показывает, что советская система не позволяла народу стать субъектом политического права, препятствовала формированию свободной личности, а советская идеология воспитывала в азербайджанцах полную покорность и зависимость от государства.

В четвертый раз - после обретения независимости (1991г.), когда азербайджанскому народу пришлось осваивать ценности западной цивилизации: демократию, правовое государство и гражданское общество, либеральную экономику, западную систему прав и свобод человека.

Столь резкая смена ценностных ориентиров за короткий исторический период, прерывность последовательности развития, не могли пройти безболезненно для национального сознания. Изменить ситуацию, как уже отмечалось, способна взвешенная программа консолидации азербайджанского общества на общих социокультурных и политических ценностях.

Что же можно и следует изменить? Необходимо объединить идеей азербайджанизма общество в единый организм-нацию с предельно широким плюрализмом мнений его групп и отдельной личности. Необходимо сохранять приверженность общечеловеческим ценностям – всеобщим, неотъемлемым правам и свободам человека; во всех сферах внутренней и внешней политики Азербайджана придерживаться принципов демократии; быть национально ориентированными в своих подходах к культуре и духовным ценностям народов Азербайджана; придерживаться реформизма, отвергая революционную практику радикальных перемен; быть сторонниками умеренного либерализма в подходах к экономике, самоорганизующегося рынка, лишенного чрезмерной опеки государства; придерживаться легитимности власти и исключительно электоральных методов ее смены. Все эти принципы – необходимое условие становления развитого правового государства, способного встать на защиту автономии гражданского общества и его самоорганизующихся групп.

Главным фактором и основным богатством Азербайджана являются сохраняющееся на протяжении веков этно-конфессиональное разнообразие нашей страны. История и культура Азербайджана сформировали поколения людей, живущих на пересечении силовых полей западной и восточной цивилизаций, люди самых разных конфессий находили здесь толерантное к себе отношение, и сегодня иудеи и христиане мирно уживаются с мусульманами.

Политика мультикультурализма, активно развиваемая в последнее время в Азербайджане, должна приобрести форму и содержание азербайджанизма –

общенационального политического сознания и всеобщего политического положения граждан страны вне зависимости от всех разделяющих их факторов.

В таком контексте азербайджанизм позволит нам:

- восстановить историческую преемственность, без чего любая нация обречена на регресс;
- осваивать далее свой цивилизованный путь развития и реализовать в нашей жизни демократические ценности;
- преодолеть патерналистские идеи, столь привычные для сознания наших людей;
- сохранить веру в национальные ценности и национальную мораль, усиливающие жизнеспособность и устойчивость развития в условиях информационной открытости и процесса глобализации;
- избегать сегрегационного деления азербайджанского народа по национальному или религиозному, региональному или клановому признаку. Никакая часть населения не имеет права, наследуя советский «номенклатурный» принцип, объявлять о своих «особых» правах на все национальное достояние, от политики до экономики и культуры.

Сегодня азербайджанизм должен рассматриваться как национальная идеология, национальная идея и социокультурная модель развития.

Все азербайджанцы, где бы они ни жили, какие причины не заставили бы их покинуть Родину, должны знать, что за ними стоит государство, готовое в любой момент защитить их права. Программа демократизации страны должна стать фактором консолидации как азербайджанского общества и азербайджанской диаспоры в отдельности, так и их взаимной консолидации. В различных странах мира представители азербайджанской диаспоры достигли прочного положения в сфере науки, культуры, политики, экономики и т.д., это высокоинтеллектуальные люди, пользующиеся общественным уважением, престижем и влиянием. Именно такие люди должны быть привлечены к обсуждению и созданию программы развития Азербайджана, так как их опыт, влияние и ресурсы способны придать такой программе реалистичность и прагматичность. Кроме того, у них значителен опыт овладения демократическими, правовыми и гражданскими процедурами.

Необходимо уделять особое внимание укреплению в Азербайджане гражданского общества, прежде всего таких его звеньев, как муниципалитеты и неправительственные организации (НПО).

НПО и муниципалитеты - прямые выразители общественных интересов, непосредственные союзники, берущие на себя часть функций, передаваемых им властью. Власть должна видеть в них свое продолжение и развитие непосредственной организации деятельности людей на местах. Хозяйственная деятельность, которой должны заниматься муниципалитеты, предполагает их правовую и экономическую свободу, непосредственную связь с людьми и более оперативную отчетность перед каждым жителем. Муниципалитеты – это школа преодоления иждивенчества населения, школа приобщения людей к самостоятельности и инициативности. Опыт государств, в которых муниципалитеты являются частью властной структуры, демонстрирует значительную эффективность их работы, а потому следует подумать о наделении муниципалитетов Азербайджана определенными властными полномочиями. Исполнительная власть на местах должна формироваться путем выборов, исключительно на основе волеизлияния местного населения.

Государство должно поддерживать за счет собственных средств те виды искусства, которые не обладают массовостью, не в состоянии сегодня перейти на самоокупаемость.

Существенной реформы требует положение нашей системы образования вообще и средней школой в частности. Атмосфера открытости и публичности, общественный контроль, последовательный анализ каждого шага реформ, отказ от единых программ, разумная независимость самих школьных коллективов, поддержка позитивных инициатив, реорганизация существующих косных институтов усовершенствований и прочих методических инстанций в органы, последовательно изучающие зарубежный опыт в сфере образования – это только исходные условия, при которых можно надеяться на постепенное изменение общественного климата в системе национального образования. Следует помнить,

что основной элемент сегодняшнего человеческого капитала составляет именно качество образования.

Самый простой подход к формированию концепции национальной безопасности заключается в членении угроз на внутренние и внешние, их отдельное рассмотрение и дальнейшая попытка свести их воедино, проведя между ними координацию или субординацию. Соответственно расписанная программа ответов и действий на угрозы и вызовы – принимается за концепцию национальной безопасности. Это традиционный путь, от которого отказались многие ведущие страны мира, усматривающие недостатки в этих статичных, механистических отражениях динамичной, не всегда предсказуемой (а, по мнению современных политтехнологов, принципиально непредсказуемой однозначно) политической реальности.

Азербайджанский менталитет в достаточной степени обладает позитивом, опираясь на который можно форсированными темпами модернизировать страну. Однако ментальный потенциал только тогда реализуем, когда люди задаются целью сделать позитив в ментальности преобладающим над негативом.

В странах со сложившейся демократической традицией выборы, хотя и представляют весьма высокий интерес для общественности, в целом являются обыденным событием, в ходе которого люди выполняют свой гражданский долг, выявляя волю своего политического сознания. Развитые и устоявшиеся формы государственного правления, соответствующее им не менее развитое гражданское общество, независимые от этих двух институтов судебные инстанции, превращают выборы в стабильный социально-политический процесс, в ходе которого ни одна из сторон, вовлеченных в избирательный марафон, не может узурпировать часть власти, не принадлежащей ей согласно законодательству. Предполагается, что политическая культура электората и политической элиты, если и не равны, то, по крайней мере, сопоставимы по уровню своего развития. За всеми этими современными реалиями западных демократических стран стоит длительная история развития противоречий между властью и народом, завершившаяся сложившимися компромиссами, системой сдержек и противодействий сторон.

Важнейшим условием сохранения такого положения дел является наличие «информационной прозрачности» общества, беспрепятственного доступа не только всех организаций, но и отдельных людей к любой информации, лишенной грифа секретности по причинам национальной безопасности. В силу всевозрастающего значения ценности информации западные страны буквально наводнены всевозможными государственными и независимыми социологическими службами, непрерывные исследования которых позволяют постоянно держать руку на пульсе общества. Трудно представить себе политическую партию на Западе, идущую на выборы в условиях информационного вакуума о настроениях своих рядовых избирателей, или же игнорирующую сложившиеся на момент выборов ценностные предпочтения электората.

Таким образом, социокультурная составляющая является доминантой формирования национальной безопасности каждого государства и общества.

**Svetlana Adıgözəlova**

## MİLLİ TƏHLÜKƏSİZLİYİN MƏDƏNİ ASPEKTLƏRİ

Milli təhlükəsizlik konsepsiyası Azərbaycan tarixinin səciyyəvi xüsusiyyətlərini, buraxılan səhvlərin və siyasi nöqsanların təhlili ilə müasir zamanın xüsusiyyətlərini əvvəlcədən nəzərdən keçirməyi tələb edir. Sonra hazırkı vəziyyətimizi müəyyən etməli və cəmiyyətin hansı siyasi sistemə və hansı sosial-mədəni dəyərlərə doğru hərəkət etdiyini (və ya keçmək niyyətində olduğunu) dəqiq göstərməliyik. Təqdim olunan məqsədə çatmaq üçün lazımi potensialın olub-olmamasını tapmaq vacibdir. Bu kontekstdə fərz olunan gələcək indiki zamanla əlaqələndirilməli, bu zaman keçmiş və onun fundamental dəyərləri ilə barışmaz ziddiyyətlər törətməməlidir.

Hər bir dövlətin və cəmiyyətin milli təhlükəsizliyinin formalaşmasında sosial-mədəni komponentlər üstünlük təşkil edir.
**Açar sözlər**: *milli təhlükəsizlik, azərbaycançılıq, milli ideologiya, milli ideya, multikulturalizm, sosial-mədəni inkişaf modeli.*

**Nəzakət Salmanova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*aparıcı elmi işçi, f.f.d., dos*
nezaket.salmanova@mail.ru

## YENİ DÖVRDƏ ƏXLAQ NORMALARI

**Açar sözlər:** *şəxsiyyət, mənəviyyat, mədəniyyət,dəyərlər,əxlaq, ailə, naturalizm, kosmizm, qloballaşma.*

Əxlaq cəmiyyətdəki insanların normativ və qiymətləndirmə yönümünün xüsusi bir forması və ictimai iradənin ən vacib forması olaraq təyin edilə bilər. Məcburiyyət, vicdan, şərəf hissləri cəmiyyətdə formalaşır və ictimai münasibətlər vasitəsilə ictimailəşmə və interyerləşmə prosesində bir insanın mülkiyyətinə çevrilir. Əxlaq həyatın bütün sahələrində insanların davranışını və şüurunu tənzimləyir - iqtisadi, siyasi, sosial və mənəvi, cəmiyyətin növü ilə müəyyən bir şəkildə təyin olunur.

Əxlaqın əsasları tayfa sosial sisteminin dövrünə aiddir. Bu dövr təbiətin gücü, hiss təcrübəsi, konseptual düşüncə tərzi və fantastik bir şəkildə gerçəkliyin qavranılması ilə xarakterizə olunur. Müxtəlif sehr, totemizm, fetişizm, qadağalar sistemi, müəyyən ayinlər, rituallar, mifologiya mövcuddur [Polikanova, 2014] . Qohumluq münasibətlərinin ibtidai cəmiyyətdə təşkilati və normativ prinsiplər olduğu ümumiyyətlə qəbul olunur.

İbtidai düşüncə qeyri-iradi və uydurma və xurafata söykənirdi. Müasir dil həmin dövrün zehnini "kollektiv vicdan", "kollektiv şüursuz" kimi anlayışlarla xarakterizə edə bilər. Bütün bunlar cəmiyyətin bütün üzvlərinə xas olan hisslərin məcmusu kimi başa düşülür. [2]. Bu cəmiyyətdəki davranış normaları kollektivizmə və həmrəyliyə şərait yaratdı. Burada insanlar arasında mövcud olan mexaniki həmrəylikdən danışa bilərik. İbtidai cəmiyyətdə nə dini əxlaq, nə də əsas əxlaq normaları yox idi. Qəbilə sisteminin sonunda, patriarxal dövründə meydana çıxdılar. Sonra ibtidai əxlaq normaları var: cannibalizm və incest qadağası, böyüklərə itaət, layiqli iş. Bu mənəvi normalar normativ tənzimləməni həyata keçirdi, sanki müəyyən bir dövlət qurumu tərəfindən yayımlandı. Baxmayaraq ki, "qəbilə cəmiyyətinin əxlaqi tələbləri təkcə ictimai rəylə deyil, həm də fərdi şüurla təmin edildi, həm də klanlar və qəbilələrin quruluşları (qəbilə məclisləri, ağsaqqallar məclisləri) tərəfindən təmin edildi" [Валеев,1981:138] .

Patriarxal cəmiyyətdə yeni əxlaq normaları meydana çıxdı. Kişinin - ailə başçısının, həyat yoldaşının sədaqəti, yalana qadağa və qan ədavəti - nüfuzunun rolu güclənmişdir. Bu dövr mənəvi normanın adi normaya qədər şəxsiyyəti ilə xarakterizə olunur. Qadağalar sistemi (tabu) çox vacib idi. Şəxslərin şüurunu və iradəsini meydana gətirənlərdir. Ədalətin arxaik anlayışı yayılır - talion - bərabər intiqam prinsipi, qan davası. Bu adət "bütün xalqların qəbilə ibtidai inkişaf səviyyəsindədir, bu onların hökmranlıq və təslim münasibətlərinə girməsinə imkan vermir" [4]. Yetkin kommunal-qəbilə münasibətləri sinfi bir dövlətin yaranmasına səbəb oldu və bu sistem kommunal ənənəvi sistemə söykənsə də, bütün gücü ilə mübarizə apardı və onu ləğv etdi. Dövlət qurumları meydana çıxır, cəmiyyətdən kənarda və onun üstündədir, ən qədim qanun məcəllələri yaranır - Hammurapi qanunları, Babil kralı (e.ə. II), Manu qanunları (e.ə. I əsr) və s.

Hammurapi qanunları erkən qul sistemi dövrünə aiddir və kommunal patriarxal sistemin dini və etik normalarından fərqlənir. Əslində, bu əmlak, ailə və cinayət hüququ məcəlləsidir. Əsas yeri əmlakla aparılan əməliyyatlar ("almaq", "satmaq", "mübadilə" və s.) və mülkiyyət hüququnu pozan sonrakı hərəkətlər ("oğurlamaq", "soymaq" və s.) tutur.

Şəxsi mülkiyyətin pozulması, oğurluq qanunla qadağandır və ölümlə cəzalandırılır [Хрестоматия по истории Древнего Востока,1980] . Qanun ailə münasibətlərini (evlilik və boşanma, atalıq tanınması, yenidən ailə qurmaq və s.) müəyyənləşdirir. Qanunlar, məhkəmədə sübuta yetirilmədiyi təqdirdə, oğurluğa, yalana görə ölümü təmin etdi. Digər bir cəza tədbiri özünü öldürmə idi (qulaqların, barmaqların sünnəti və s.). Münaqişələr talion yolu ilə həll edildi. Aydın məsələdir ki, o dövrdə nə universal imperativlər var idi, nə də mücərrəd əxlaqi dəyərlər, Fərdi mənəvi motivasiya yox idi, baxmayaraq ki, kommunal sistemin bir çox əxlaq

normaları (qadağaları) hüquq məcəlləsinə və dini müddəalara keçirildi. Sinif qul əxlaqı fərqlidir - bu hüquq ideyalarına əsaslanır.

Klan icmasından təcrid olunmuş şəxslərin sosial varlığının fərdiləşdirilməsi prosesi sosial tənzimləmə forması kimi şüurun dəyişməsinə səbəb olmuşdur. İnsanı müstəqil fəaliyyət subyekti kimi təsdiqləyəcək yeni normalar lazım idi. Və əxlaqın qızıl qaydası belə idi: başqalarına qarşı istədikləri kimi davran. Qızıl qayda e.ə. 6 - 5 əsrlərdən bəhs olunur. Bu, qədim hind mədəniyyətində, Metyusun İncilində, Konfutsi təlimlərində var: "Özünə nə istəyirsən, başqalarına da istə" [ Хрестоматия по истории Древнего Востока,1980]. Qızıl qayda, erkən sinif cəmiyyətindən başlayaraq geniş yayıldı. Əxlaqi düşüncə tarixində var, Əsasən etik prinsip kimi deyil, gündəlik əxlaqın tələbi kimi qeyd edilmişdir.

Əxlaq insanlıqdır, başqa bir insana layiqli münasibətdir, başqalarından üstün olan ilkin, ən elementar insani münasibətdir.

Yeni mənəviyyat dövründə Avropa mənəviyyatında və mədəniyyətində keyfiyyətcə bir dəyişiklik baş verdi. 1789-cu il tarixli İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində, yalnız bir insanın hüquq və azadlıqlarının bir insanın etməli və etməməsi lazım olan sərhədləri təyin etdiyi elan edildi. Burada yalnız mücərrəd əxlaqi prinsiplər və ya dini xəyallar deyil, bir insanın mənəvi borcu olduğu əsl elan, başqalarının hüquqlarını pozmadan öz həyatını müstəqil şəkildə qurmaqdır.

İnsan hüquq və azadlıqlarının məzmunu çox vacib prinsiplərə - ümumbəşəri insan əxlaqi tələblərinə cavab verən prinsiplərə malik idi. Bu, insanların azadlığı, zorakılıq etməməsi, bir insanın öz müqəddəratını təyin etməsi, şəxsi həyata müdaxilə etməməsi, şəxsi mülkiyyətin toxunulmazlığı, dözümlülük və s.-dir. T.Hobbs, J. Lokk, J.J. Russonun əsərlərində ən yüksək əxlaq normaları müzakirə edildi və elan edildi. Baxmayaraq ki, bu dövrdə insanlar yaxşı, pis, ədalət və s. subyektiv fikirləri fərqləndirməyə başladılar. Beləliklə, vicdan azadlığı və din obyektivlik və universallıq mülkü ilə bəxş olunur və əşyaların təbii nizamının əks olunması kimi göstərilir. Demokratik cəmiyyətdə mənəvi münasibətlərin əsasını insanların bərabərliyi təşkil edir.

İ. Kantda, kateqoriyalı imperativ məzmunun müəyyənedici əlamətləri olan azadlıq və bərabərlikdir: "Elə edin ki, hər zaman başqası qarşısında bir insana münasibətinizi və hədəfinizi özünüzlə əlaqələndirəsiniz və heç vaxt vasitə kimi əlaqələndirməyəsiniz”[Кант,1965: 270].

Əxlaqda ciddi dəyişikliklər kapitalist cəmiyyətində, xüsusən inkişafının indiki mərhələsində baş verir. Kapitaldan qabaqkı cəmiyyətlərdə əxlaq insanın formalaşmasında çox vacib rol oynayırsa, o zaman bazar münasibətləri ilə kapitalizm, mənfəət, sərvət əxlaqi tənəzzül ilə xarakterizə olunur, əxlaqsız və insanpərvər olur.

K. Marks və F. Engels kapitalizmi çox dəqiq və rəngarəng şəkildə təsvir etdilər: “Burjuaziya, dominantlıq qazandığı yerdə, bütün feodal, patriarxal, mənəvi münasibətləri məhv etdi [Маркс: 426].

Qazanc əldə edilmək istəyi xəsisliyə çevrilir və insan münasibətlərinin deformasiyasına, insanın kapitalist cəmiyyətindəki hədəflərinə səbəb olur. Bu vəziyyət insanlar arasındakı əlaqələrin pozulmasına səbəb olur, təcrid və fərdiliyə, əxlaqsızlığa və cinayətə, müxtəlif ölkələrdə varlı və kasıb arasında bölünmənin dərinləşməsinə səbəb olur.

Mənfəət əldə etmək üçün yoxsul ölkələrdəki transmilli korporasiyalar modernləşməyə mane olur, təhlükəsizlik qaydalarına əməl etmir, uşaq əməyindən istifadə etmir və qazanc əldə etdikləri ölkələrin sosial problemlərinə məhəl qoymur. Sahibkarlar üçün başlıcası sərvət və rəqabətdə uğur qazanmaqdır. Bunun üçün əxlaqı qurban verirlər və yalnız hüquqi qanun biznesdəki münasibətlərin tənzimləyicisidir. Lakin bu hüquqi qanunlar çox vaxt həyatdan geri qalır və sahibkarlar özləri hərəkət edirlər, təbiəti ilə yazılmayan əxlaq normaları praktik problemlərə hüquqi qanunlardan daha sürətli cavab verir, lakin sahibkarlar tərəfindən nəzərə alınmır.

Müasir kapitalist cəmiyyətində mənəvi dəyərləri korlamaq və insanları alçaltmaq meylinə sahib olduğunu söyləmək təhlükəsizdir.

Əxlaqın mənəvi mahiyyəti şəxsin, cəmiyyətin sosial qruplarının müəyyən mənəvi dəyərlərə, normalara müəyyən bir yönümündə özünü göstərir. Əxlaq standartlarının özəlliyi ondadır ki, bunlar dövlət qurumları tərəfindən müəyyən edilməmiş və hüquqi standartlar kimi dövlət standartları

deyildir. Bunlar yerinə yetirilir, çünki bu şəxsin daxili özünüdərkidir və bu davranışı başqalarının qiymətləndirməsi təsdiq və ya qınamadır. Əxlaq olmadan cəmiyyətin həyatı mümkün deyil.

Əxlaqı doğrultmağın bir çox yolu var. Yalnız bir neçəsini qeyd edirəm: utilitarizm, mütləqiyyət, naturalizm, kosmizm.

Utilitarizm əxlaqi dəyərlərin xarici sosial təsirlərdən üstün olduğunu güman edir. Əxlaqi fəaliyyət insanların xoşbəxtliyinə səbəb olarsa, haqlıdır. Bu nəzəriyyənin ortaya çıxması üçün bir şərt, məhsuldar qüvvələrin inkişafı və istehlakın daha yüksək səviyyəyə qalxması ilə erkən kapitalizm idi.

Absolutist anlayışlar Tanrı kimi nüfuzlu xarici mənbədən əldə edilir. Beləliklə, İ.Kant özünün "Praktik düşüncənin tənqidi" əsərində Tanrı və ruhun ölməzliyi haqqında yazır. Kant üçün əsas, etibarlı və yeganə meyar ağıl olaraq qalsa da, onları əxlaqi hərəkətlərin həyata keçirilməsi üçün postulat kimi qəbul edir.

Naturalizm əxlaqın fərdin təbii keyfiyyətlərindən - insan psixikasının təşkili xüsusiyyətlərindən və ya bütün canlı orqanizmlərə xas olan əsas instinktlərdən qaynaqlanmasını əhatə edir.

Təkamülçü etikanın nümayəndəsi P. A. Kropotkin idi. İnanırdı ki, ədalət kimi əxlaq normaları, heyvan təcrübəsinin borcu kimi ortaya çıxır. Təbiətdən asılı olan bir ibtidai insan bir-birini öldürməyən, dəstək verən heyvanların davranışlarını gördü və eyni şeyi etdi.

Kosmizm üçün əxlaqın təkamülünün kosmosun inkişafı ilə əlaqəli olduğu göz qabağındadır. Kosmik qüvvələrin təsiri insanın mənəviyyatının və əxlaqının təzahürünə şərait yaradır.

Bütün bu anlayışlar əxlaqın ortaya çıxmasına və insanın ictimai iradəsi və nüvəsi kimi başa düşülməsinə əsaslı cavab vermir. Baxmayaraq ki, çox uzun tarixi bir təcrübə nəticəsində fəaliyyət prosesində sosial ehtiyacların formalaşması və insan həyatının bütövlüyünün qorunması ilə yanaşı mənəvi dəyərlər də formalaşır. İnsanlar onları təqib edir və onlar üçün bu dəyərlər hal hazırda qadağan kimi deyil, verilmiş vəziyyətdədir.

Əxlaq normalarının xüsusiyyətlərini ümumiləşdirsək, bunlar aşağıdakılara qayıdır. Əxlaq standartları həmişə yaxşılığı təşviq edir. Bunlar insanın müstəqil olaraq qəbul etdiyi xoş niyyətin nəticəsidir. Əxlaq normalarının seçimi onların faydalılığı ilə müəyyən edilmir, əksinə, normalar insana rəhbərlik edir və məqsədlərini müəyyənləşdirməyə və ya seçməyə kömək edir. Normalar müəyyən qadağaları diktə edir, eyni zamanda insanları birlikdə yaşamağa məcbur edir. Və nəhayət, insan özü qarşısında əxlaq normaları qoyur və onlara əməl edir.

Aydındır ki, bir toplum əxlaq normaları qoyur və bir qayda olaraq onları həyata keçirir. Əxlaqın insanda bir sosial prinsip olduğu tamamilə həqiqətdir, insanları bir-birinə bağlayaraq bütün digər əlaqələrə bağlayır [ Этика,1999:383–391].

Əxlaqi dəyərlərə yaxşılıq, pislik, sevgi, ədalət, vəzifə, məsuliyyət, vicdan, utanc və sair daxildir. Bunların hamısı əxlaq dilində fərqli məqsədlərə malikdir və əxlaqın fərqli cəhətlərini qeyd edir. Beləliklə, yaxşılıq əxlaqın məzmununun dəyər-normativ tərəfinə, vicdana, utanc hissi insanın davranışını tənzimləyən mənəvi və psixoloji mexanizm və metodlara işarə edir. Mənəvi dəyərlər sistemində xüsusi yer vicdandır.

Əxlaq hər hansı bir münasibət üçün uyğun bir hazır qaydalar toplusu deyil. Bir insanın müəyyən bir vəziyyətdə "vicdanla" hərəkət etməsini diktə edən bir şey var. Özünə sanksiya tətbiq etmək vicdandır. Ancaq yəqin ki, hər insanın bu mənəvi əsası yoxdur. Buna görə də deyin ki, içərisində "lazımdır" tələbi olmadıqda qəhrəmanlıq hərəkəti baş verə bilməz (özünü atəşə atın və uşağı xilas edin).

Vicdan "Yeni fəlsəfi Ensiklopediyası" "tənqidi özünüzü xəbərdar qiymətləndirilməsi və onların çatışmazlıqlar yaşamağa bir şəxsin qabiliyyəti kimi olmalıdır - vəzifə yerinə yetirilməməsi" müəyyən edilir [Новая философская энциклопедия,2010:585].

Bir insanın ictimai inkişaf ölçüsü, onun ictimai fəaliyyəti nə qədər yüksəkdirsə, həyatında vicdanın rolu bir o qədər artar.

Vicdan insanın xüsusi mənəvi qabiliyyətidir, mənəvi keyfiyyətlərin və insan davranışının qorunmasına cavabdeh olan xüsusi bir mexanizmdir. Doğrudan da, vicdan bir insanın özəyi hesab

olunur və onun olmaması çökməyə səbəb olur, insanlar arasındakı münasibətləri pozur, mənəvi dəyərlər sisteminin hamısının məhvinə, mənəvi böhrana səbəb olur.

XXI əsrdə. qloballaşma ilə əlaqədar olaraq, bütün dövlətlərin dünya birliyində bir mənəvi sistemin qurulması, "qloballaşma humanizmi", "mənəviyyatın ilkin qloballaşması" ideyalarını, davranış normalarını, idealları elan edən yeni bir dünya nizamının qurulması üçün təkliflər verilir. Bu hər kəsin iştirak etməli olduğu bir növ ictimai vicdandır.

**İstifadə olunmuş ədəbiyyat:**

Polikanova E.P. Fəlsəfə və cəmiyyət. Sayı 3 (75) / 2014
Леви-Стросс К. Первобытное мышление. – М., 1994 и др.
Валеев Д. Ж. Происхождение морали. – Саратов, 1981. – С. 138.
Гусейнов А. А. Социальная природа нравственности. – М., 1974. – С. 64–65.
Хрестоматия по истории Древнего Востока / под ред. М. А. Коростовцева. – М., 1980.
Кант И. Соч.: в 6 т. – т. 4. – ч. 1. – М., 1965. – С. 270.
Маркс К., Энгельс Ф. Манифест Коммунистической партии / К. Маркс, Ф. Энгельс // Соч. – т. 4. – С. 426.
Этика: учебник / под общ. ред. А. А. Гусейнова, Е. Л. Дубко. – М.: Гардарики, 1999. – С. 383–391.
Новая философская энциклопедия: в 4 т. / под ред. В. С. Степина, А. А. Гусейнова и др. – М.: Мысль, 2010. – С. 585.

**Adil Qurbanov**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*b.e.i. fəlsəfə ü.f.d., dosent*
*adilkurbanov@yandex.ru*

# QEYRİ-ZORAKI MÜBARİZƏ İDEYASININ TOLSTOY FİKRİNDƏ GENEZİSİ

***Açar sözlər:****Lev Tolstoy,qeyri-zorakılıq,ruhani,azadlıq,məhəbbət,həqiqət.*

Qeyri-zorakılıq konsepsiyası barədə siyasi bir nəzəriyyə kimi yalnız M.Gandinin ictimai-siyasi fəaliyyətindən sonra danışılmağa başlanıldı. Bu siyasi taktika ilə ölkəsini azadlığa qovuşduran böyük ruh adamı və harizmatik lider M.Qandi qeyri-zorakılığın Lev Tolstoyun bir növ utopiyası olmadığını sübut etdi (müəllifin, "Qeyri-zorakılıq konsepsiyası siyasi-fəlsəfi ideya kimi" adlı məqaləsində bu haqqda araşdırma aparılmışdır. Qərb Universiteti, Elmi xəbərlər №2, 2015 )

XX əsrin əvvəllərində Rusiyada və dünyada tolstoyçular hərəkatı yaransa da, əslində siyasi nəzəriyyə kimi "müqavimətsizlik" ("şərə zorla müqavimət göstərməmək") utopiya kimi qarşılanırdı. Bir humanist kimi Tosltoyu sevir və dəyərləndirirdilər. Lakin, onun etikasının siyasi davranış kimi tətbiqinə heç kim cəsarət etmirdi. Və hətta daha artıq. Öz vətənində ən böyük inqilabçılar (Trotski, Lenin), dəfələrlə Tolstoyun dinc vasitələrlə şərə qalib gəlmək taktikasını tənqid edir və bunu xəyalpərəstlik adlandırırdılar. Tarix də onu göstərdi ki, Rusiyada mütəfəkkirin fikirləri fikir olarq da qaldı. Və bu nöqteyi nəzərdən, qeyri-zorakılıq ideyasının əsası L.N.Tolstoydan (1828-1910) gəldiyi üçün mütəfəkkirin bu istiqamətdə fikirlərinin genezisini izləməyə çalışaq. Bu rus mütəfəkkirinin fikrincə, insan ekzistensiyasının başlıca faciəsi ölümün qaçılmazlığı ilə yanaşı insanda əbədiyyət yanğısının da olmasıdır. Tolstoy bunu çax sadə bir sualla ifadə edirdi: "Mənim həyatımda qarşısıalınmaz ölümümlə məhv edilməyən bir məna varmı?" ( Лев Толстой т. 15. 1913: 5-53).

Tolstoy hesab edir ki, insan həyatının mənası onun Allahın iradəsinə tabelik dərəcəsilə ölçülür. Allahın iradısi isə sevgidir. Buradan artıq insan xoşbəxtliyinin hədəfində müqavimətsizlik (tabe olmaq) olduğunu sezmək olar. Tolstoyun fikrincə, məhəbbət qanunu insan ürəyinin dərinliklərinə yazılmışdır və əksər dinlər də bu məqamı ətraflı şəkildə dərk etmiş, mənalandırmışlar. Lakin, mütəfəkkir hesab edirdi ki, ən dolğun və tam şəkildə bu məqamı İsanın təlimi və sözləri əks etdirir. Öz qəlibini ölümün özüylə gətirdiyi boşluqdan və virandan qorumaq üçün, bu təlimə əsasən, insan şər iş tutmaqdan çəkinməli, zordan birdəfəlik imtina etməlidir, hətta özü zorakılığa məruz qalsa belə. Şərə şərlə, zora zorla cavab verməmək – Lev Tolstoy təliminin mahiyyəti qısaca olaraq belə ifadə oluna bilər.

Əslində 1878-ci ildən sonra yazdığı bütün əsərlərində Tolstoy bu təlimini şərh etməklə məşğul olur. Ən vacib əsərləri sadalamaqla onları dörd silsiləyə ayıra bilərik:

- etiraf silsiləsi: "Tövbə" (1878-1881), "Mənim inancım nədədir?" (1884);
- nəzəri silsilə: "Din nədir və onun mahiyyəti nədədir?"(1884), "İçimizdəki ilahi səltənət" (1890-1893), "Zorakılıq qanunu və məhəbbət qanunu" (1908);
- publisistik silsilə: "Öldürmə" (1900), "Susa bilmərəm" (1908);
- bədii: "İvan İliçin ölümü" (1886), "Kreyser sonatası"(1887-1889), "Dirilmə" (1889-1899), "Serqiy ata" (1898).

Tolstoyun özünüdərki onun 18 yaşına təsadüf edir. Bu zaman gənc Tolstoy universitetin ikinci kursunu tərk edir, çünki "Tövbə"-də etiraf etdiyi kimi ona öyrədilənlərin heç birinə inanmırdı. Onun 32 yaşına qədərki dövrünü iki bərabər zaman kəsiyinə ayıra bilərik ki, onlar da bir-birindən kəskin surətdə fərqlənir. Onun ruhani (mənəvi) nurlanması bu dövrdə baş verir və bundan sonra onun həyatının mənəvi əsasları formalaşmış olur. "Mənim inancım nədədir?" əsərində Tolstoy yazır: "Əvvəllər mənə yaxşı görünən hər şey mənə pis, pis görünənlər isə yaxşı görünməyə başladı. Mənim başıma belə bir iş gəldi, sanki birisi bir iş üçün yola çıxmışdı, sonra isə yolda fikrini dəyişir ki, bu ona lazım deyil və evinə dönür. Və sağda olanlar solda, solda olanlar isə sağda qalmış olur"( Л.Н.Толстой www.litmir.co/br/?b=71090 ).

L.Tolstoyun həatının ilk yarısı bütün təsəvvürlərə görə, çox uğurlu olmuşdur. Doğuluşundan qraf olan Tolstoy yaxşı təhsil və tərbiyə almış və kifayət qədər zəngin bir mirasa sahib idi. Təbiət ona qarşı çox səxavətli olmuşdur: onun yaxşı fiziki forması, bədii talandı və fəlsəfi refleksiyası vardı. Qraf Tolstoyun həyatnda hər şey vardı: güclü ehtiaslar, ağlagəlməz şöhrət, ailə sevincləri, vətəndaş xidməti, var-dövlət... insan həyatını mənalandırmağa qadir olan bütün dəyərlər.

Həyata atılanda Tolstoy heç kim qarşısında əyilməyəcək qədər azad, "həyatın ağası" sayılan elit təbəqənin nümayənəsi kimi idi. Onun gur bir gəncliyi vardı: şərab, qumar, qadınlar, duel... bir sözlə, gənclik havasını tam olaraq udmuşdu. 1851-1854 illərdə Qafqazda hərbi xidmətdə olmuş, 1854-55 isə Sevastopolun müdafiəsində iştirak etmiş və özünü cəsarətli zabit kimi tanıda bilmişdi. Lakin onun əsas məşğuliyyəti yazıçılıq olmuşdur, o zamankı Rusiyada ən prestijli ruhani yaradıcılıq forması kimi. Artıq ilk hekayə və povestlərindən başlayaraq (onları o Nekrasovun yaratdığı məşhur "Sovremennik" jurnalında çap etdirirdi) ölkədə, daha sonra "Hərb və sülh" və "Anna Karenina" romanları ilə isə bütün dünyada şöhrət qazanmış oldu. Onun dünyada və vətənində ki nüfuzu böyük idi və hamı onu müdrik bir müəllim kimi tanıyırdı. Lakin baxmayaraq ki, şöhrət və böyük qonorarlar Tolstoyun eqosunu məmnun edirdi, onun yazıçılıq inamı zamanla sarsılmağa başladı. O görürdü ki, yazıçılar öz rollarını oynamırlar: nəyi öyrətmək lazım olduğunu bilmədən öyrədir və öz aralarında kimin həqiqəti daha yüksəkdir mövzusunda mübahisə edirlər. Öz fəaliyyətlərində onlar şəxsi merkantil maraqlarından daha çox çıxış edirlər, nəinki cəmiyyəti öyrətmək vəzifəsinə üstlənməyən digər sadə adamlar. Və bu səbədən də yazıçı öz yazarlığını dayandırır. 1857-ci ildə yarım illik xaricə səfərdən sonra o, sadə kəndliləri maarifləndirmək üçün pedaqoji fıaliyyətlə məşğul olur (1858-63). 1861-62-ci illərdə isə kəndlilərin mülkədarlarla mübahisələrində hüquq vasitəçisi rolunda işləyir. Lakin heç nə Tolstoyun qəlbiə tam məmnunluq gətirmir. Hər fəaliyyətdən sonra gələn məyusluq onun daxili çaşqınlığını böyüdürdü. Və bundan onu yeni, 9 aylıq xarici səfər də xilas etmir (1860-61). Hətta bu arada o iki aylığa başqırd çöllərinə də qaçır, özünün dediyinə görə "təmiz hava udmaq, kumis içmək və sadə heyvani həyat yaşamaq üçün" (Лев Толстой т. 15. M., 1913: 5-53).

Yüksələn ruhani böhranı 1862-ci ildə Sofya Andreyevna Berqslə evlənmək bir qədər dondurdu. Ailə və onun daxili sevincləri Tolstoya yeni yaradıcılıq və təsərrüfat fəallığı üçün stimul vermiş oldu.

Tolstoy yeni həyata doğulmuş oldu. Bütün ehtiraslı təbiəti ilə o İsanın mənəvi təliminə vurulur və gücünü bütünlüklə onun təbliği və gerəkləşməsinə sərf edəcəyini yəqinləşdirir.

L.Tolstoyun həyat tərzinin bu cür kəskin dəyişməsinin nə ilə səbəbləndiyi, təbii olaraq, tam olaraq aydınlaşdırıla bilməz. İnsan bir həyat tərzini onunla tamamilə zidd mövqeyə dəyişirsə, burada demək çətindir ki, bir hal o birindən doğur. Burada inkar var. Sintz isə hələ görünmür. "Anna Karenina" romanında bu məqamı Tolstoy özü Levin surətinin təsvirində verir. Levin soyadı Tolstoyun adından götürüldüyü üçün bu obrazın avtobioqrafik olması dərhal anlaşılır. Çoxdan görmədiyi tanışı Levinin xatirinə onun əvvəlki düşüncələrini və əqidəsini xatırlatdıqda Levin sadəcə qızarır. Heç bir cavab vermir. Bu, Tolstoyun pzünə də aid idi. Onun narahat ruhu sanki, ardıcıl olaraq həyatın bütün perspektivlərini (ona maraqlı görünən) tədqiq edir, daha sonra isə məyus olaraq yeni bir istiqamətə doğru can atırdı.

Bir zamanlar ruhani axtarışlarında dolaşıb qalmış Müqəddəs Avqustin də öz "Tövbə" əsərində bu ziqzaqların mahiyyətini aydınlaşdırmağa çalışır. (Qeyd edək ki, Tolstoyun "Tövbə" əsər janr və ad etibarı ilə məhz Avqustindən ilhamlanmadır). Avqustin özündəki inqilabi dəyişikliyi tanrının sübutu və müdaxiləsi kimi anlayır. Avqustinin mülahizələri mənqiti görünür: Savlın Pavelə çevrilərək, xristianlığın təqibçisindən ən böyük təbliğçisinə çevrilməsinin səbəbini anlamaq mümkün deyildir. Bu, səbəb-nticə əlaqələrinin qırılması, azadlıq təzahürüdür. Burada insan ruhunun həyat təcrübəsi üzərindəki dominantlığı özünü göstərir.

Şəxsiyyətinin ruhani yenilənməsi mövzusu Tolstoyun "Dirilmə" (1899) romanın əsas mövzusudur. Onu yazarkən o artıq tam olaraq bir xristian və qeyri-zorakılıq təliminin müəllifi kimi çıxış edir. Əsərin baş qəhrəmanı knyaz Nexlyudov bir fahişənin işi ilə bağlı məhkəmədə andlı iclasçı kimi iştirak etməyə məcbur qalır. Və müttəhimdə bir zamanlar xalalarının evində qaldığı zaman yoldan çıxartdığı qulluqçu Katya Maslovanı tanıyır. Bu fakt Nexlyudovun həyatının altını

üstünə çevirir. O Katya Maslovanın həyatın dibinə yuvarlanmasında özünün və təmsil etiyi sinfin günahını, məsuliyyətini görür. “Onun içində yaşayan tanrı onun şüurunda oyanmış olur”,- yazır Tolstoy. Bu nöqtədən Nexlyudov öz həyatna və ətrafındakı adaların həyatına baxmağa başlayır. Bu nöqtə mütləq əxlaq nöqtəsi olduğundan hər şey ona aydın olmağa başlayır. Necə bir çirkabda olduğunu və daxili aləmini yenidən diriltmək üçün çabagöstərmək lazım olacağını görür. O özünü pis hiss edir, həyatına görə utanır. Sarsılmış Nexlyudov öz ətrafı ilə əlaqəni kəsərək Maslovanın dalıyca katorqaya yollanır.  Nexlyudovun daxilində baş verən bu kəskin dəyişiklik onu yüngül əyləncələr axtaran bir knyazdan ruhani bir insana çevirir. Lakin onun ruhaniyyatı kilsə ruhaniyyatı üslubunda deyildir. Tolstoy qəsdən obu obrazı kilsədən uzaq tutur. O qəti əminlikdə idi ki, din institutu əslində ruhaniyyatı pərdələyir və insan həyatının bu sferasını karikatura halına gətirir. Nexlyudov böük peşmanlıq yaşayır, lakin Tolstoy bu halın yaşanması üçün Nexlyudova iki keyfiyyət verir: iti ağıl və dəyişmək marağı. İkincisi daha önəmlidir: “Hər bir insan özündə bütün insan nəslinin xüsusiyyətlərini daşıyır, bəzən bir xüsusiyyəti aşkarlayı, bəzən digərini, çox zaman da özünə belə bənzəmir və başqası ilə özü arasında qalmış olur. Bəzi insanlarda bu dəyişikliklər daha kəskin olur. Nexlyudov bu tip insanlara aid idi” (“Dirilmə” 2007 LIX)

Ruhani dəyişikliklər barədə Tolstoyun Nexlyudov barədə yazdıqlarını yazıçının özünə transpolyasiya etsək, çox oxşarlığın olduğunu görərik. Tolstoy da həmçinin kəskin dəyişikliklərə meylli idi: özünü ən müxtəlif sahələrdə sınayırdı. Öz şəxsi həyat təcrübəsində o insanların səadət haqqındakı bütün təsəvvürlərini yaşamış və belə bir qənaətə gəlmişdir ki, onların heç biri insan nəfsini sakitləşdirə bilmir. Məhz belə bir yetkin təcrübə ona mkan verir ki, geriyə baxmadan belə bir daxili dəyişikliyə cəsarət edə bilsin.  Tolstoy güclü intellektual potensiala malik idi. Onun iti ağlı daim insan ekzistensiyasının tədqiqinə yönəlmişdi və burada onun şəxsi həyatı laboratoriya rolunda çıxış edirdi.

Həyat və onun barədə düşüncələr Tolstoy bioqrafiyasında o qədər sıx qonşuluq təşkil edir ki, demək olardı ki, o, düşünmək üçün yaşayır və yaşamaq üçün düşünürdü. Həyat seçimi layiqli status alması üçün  ilk öncə idrak tərəfinfən legitimlik qazanmalı və məntiqi əsasa malik olmalı idi. İdrakın belə bir ayıqlığı şəraitində aldanış  və özünüaldatma üçün az yer qalırdı. Mənəviyyatsızlığın üzərini örtən özünüaldatmalara. Onların ifşa olunmasında Tolstoy amansız idi. Ömrünün ikinci yarısında daha kəskin hal alsa da, tənqidçilik onun bütün ömrünə xas idi.

Nexlyudovun qəlbindəbaş verən böhranın Tolstoyun özünün daxili yaşantıları arasında bir paralel mövcud idi. Onlar qeyri-iradi reaksiyalr kimi aşkarlanmağa və daxildə heç də hər şeyin yaxşı olmadığını bildirməyə başladılar: “mənim başıma qəribə işlər gəlməyə başladı: əvvəlcə elə dəqiqələr olurdu ki, mən çaşqınlıqiçində idim, sanki həyat dayanırdı. Sanki necə yaşayacağımı bilmirdim və məyusluğa qapılırdım. Lakin bu, keçib gedirdi və mən əvvəlki kimi yaşamaqda davam edirdim. Sonra bu dəqiqələr təkrarlanmağa başladı və həmişə də eyni suallarla: nəyə görə? Bəs, sonra?” (“Dirilmə” 2007:210).

Bu hallar sonradan intihar kimi qalıcı bir fikrə dönüşür və təfəkkür işinin başlıca predmetinə çevrilir.

Qeyd edək ki, L.Tolstoyun intensiv təfəkkür işi illərə uzandı və bütün dünyəvi dinləri, fəlsəfi hikmət mənbələrini öyrənməli oldu bunun üçün. Bunun üçün o, hətta qədim yəhudi və qədim yunan dillərini belə öyrənməli olmuşdu.  Bu arada o bir il sadə xristian praktikasına da baş vurmuş və oruc tumuş, kilsə ibadətlərini yerinə yetirmişir.

Bu dəyişiklik barədə danışan Tolstoy daima əlli yaşı xatırladır. Və böhran 4-5 il çəkir. Və 1878-ci ildə 13 illik fasilədən sonra Tolstoy gündəlik yazılarını bərpa etmək qərarına gəlir (eyni ilə nurlanan Nexlyudov da gündəlik yazmağa başladığı kimi).

Tolstoyun tanrı barədə düşüncələri əlbəttə ki, kanonik təsəvvürlərdən fərqlənirdi. Onun tanrısı azadlıq kimi dərk olunurdu, kilsə isə onu əsarət kimi təqdim edirdi. “İnsan azad olmayacaqdı, əgər heç bir həqiqəti bilməsəydi. Lakin bu azadlıq o halda da olmayacaqdı ki, insan həqiqəti bütün təfərrüatları ilə adın bilmiş olsaydı” (“Dirilmə” 2007:281). Azadlıq məhz qaranlıqdan işığa doğru irəliləməkdədir.

Azadlıq özbaşnalıq deyil. O həmişə həqiqətlə bağlıdır. Tolstoyun təsnifatına görə,üç formada həqiqət mövcuddur. Birincisi, adətə, vərdişə çevrilmiş həqiqətlərdi ki, insanın ikinci təbiətinə

çevrilmişlər. İkincilər hələ tam olaraq da həqiqt saylmazlar.onlar bulanıq və hələ aydınlaşmamış həqiqətlərdir. Lakin həm birincilər, həm də ikincilər zərurətə daxildirlər. Lakin onlarla yanaşı üçüncü növ həqiqətlər də vardır ki, onlar bi tərəfdən insana tam aydınlığı ilə açılmış olurlar, digər tərəfdən isə onlar avtomatizmə, vərdişə də çevrilmilər, insandan özlərinə qarşı daimi münasibət tələb edirlər. Bu, üçüncü növ həqiqətlərə münasibətdə Tolstoyun fikrincə, insan azadlığı aşkarlanmış olur. Burada hər iki məqam vacib olur: həqiqətin aydınlığı məsələsinin də, onun həyat təcrübəsi nəticəsində qazanılan həqiqətlərdən daha ali olması da. Heç nə insana doğru saydığı kimi davranmağa mane ola bilməz, lakin o, heç zaman attıdığı addımı tam olaraq doğru da saymayacaqdır. İnsanın azadlığı da bundadır. Onun azadlığı və məsuliyyəti eyni zamanda addımlayır. Fikir versək, görərik ki, din institutu bunun əksinə olaraq insan davranışını tam olaraq reqlamentləşdirməyə çalışır ki, nəticədə insan atdığı addıma görə məsuliyyətdən qurtulmuş olur. Zira bu və ya digər mənəvi məsələ din alimlərinin tövsiyyələri ilə reqlamentləşmiş olur və insan məsuliyyətdən azad olmuş olur. Lakin bu, həm də insanın azadlıqdan məhrum olması olur.

Tolstoya görə, digər insanlara düzgün yanaşma onunla müəyyən olur ki, biz hamımız eyni atanın övladlarıyıq. Onlar sənin qardaşlarındırsa, onda sənin insan oğullarını fərq qoymadan sevmənin fəlsəfi əsası yaranır. Tanrı qarşısında hamı eynidir. Onun sonsuzluq perspektivində bütün fərqlər əhəmiyyətini itirmiş olur. Varlılıq və kasıblıq, gözəllik və eybəcərlik, gənclik və qocalıq, qüvvət və zəiflik və s. arasında. Hər bir insanda ilahi mənşəyə hörmət etmək lazımdır. «Bütün insanıar eyni bir ruhla yaşayırlar, lakin hamı bu həyatda bədənlərlə ayrılmışdır. Əgər insanlar bunu anlayırlarsa, onda onlar bir-birilərinə məhəbbətlə can atırlar»

Özünə doğru yanaşmanı qısa şəkildə öz nəfsinin qayğısına qalmaq kimi anlamaq olar. Lakin dooğru yanaşma həm də daima kamilliyə can atma ilə xarakterizə olunur ki, əslində tanrıya doğru irəliləmək başqa cür mümkün də deyildir. “Aşağı pillədə duran insan kamilliyə can atmaqla daha mənəvi yaşayır, nəinki ondan daa yuxarıda duran, lakin kamilləşməyən insan”( Гусейнов А.,2009: 86).

Bu baxımdan incil hekayəsindəki kimi, evinəqayıtmış azmış oğul, evi tərk etməmişdən daha əzizdir ata üçün. Özünün ideal kamilliyə uyğun gəlməməyinin fərqində olmaq – Tolstoya görə insanın özünə ən doğru yanaşmasıdır. İnsanın mənəvi olması bu uyğunsuzluğun dərkinə əsaslanır.

Tanrıya münasibətin proyeksiyası olan bu iki münasibəti – başqalarına və özünə münasibət – götürsək, Tolstoy üçün burada ilkinlik özünə münasibətdir.Özünə mənəvi yanaşma avtomatik olaraq başqalarında da mənəvi münasibəti təmin etmiş olur. Özünün idealdan sonsuz uzaqlığını dərk edən insan bununla ən təhlükəli xurafatlardan azad olmuş olur və başqalarına münasibətdə xidmətçi vəziyyətində hiss edir, nəinki ağa.

Tanrı, azadlıq, xeyir anlayışları həyatın mənasını açmaqla sərhəf anlayışlarıdır, bir-birininə keçir vəəlaqələnir. Onlar insan ekzistensiyasını dünyanın sonsuzluğu ilə birləşdirir. Buradan da onların xüsusi epistomoloji və requlyativ statusu çıxmış olur.

Tanrı, azadlıq və xeyir anlayışları həyata məna vermir, o mənanı ifadə edirlər. Onlar həyatın şüurunun formaları kimi çıxış edirlər. Onların təyinatı da praktiki, mənəvidir. Lakin sual yaranır: “Əgər sonsuzluğun və təbii olaraq tanrının, azadlığın, xeyirin nə olduğunu bilmək mümkün deyilsə, onda necə sonsuz, ilahi, xeyirxah, azad olmaq olar?” Və sonsuzluq da elə ona görə sonsuzluqdur ki, onu heç cürə təyin etmək və təkrarlamaq mümkün deyildir. L. Tolstoy “Kreyser sonatası”əsərinin önsözündə yolda oriyentasiyanın iki üsulundan danışır: birincidə nişan olaraq bir-birinin ardınca görsənməli olan obyektlərdən istifadə edilirsə, ikincisində kompasdan istifadə olunur. Eyni ilə mənəvi hidayətin də iki üsulu mövcuddur: birində insana haram və hallar öyrədilir, ikincidə isə heç zaman çata bilməyəcəyi ideal, kamillik kompas rolunu oynamış olur. Kompasdan yayınmanı müəyyən etmək mümkün olduğu kimi ideal da insanın qeyri-kamilliyinin ölçülməsi üçün hesablama nöqtəsi ola bilər. Tanrı, azadlıq, xeyir anlayışları da bu baxımdan insanı daima töhmətləndirir və ona kim olduğunu xatırladır. İdeala istiqamətlənmiş insan arxada qoyduqları ilə deyil,irəlidəki yolla maraqlanır daima. Çünki kamillik, sonsuzluq və ideal həmişə irəlidə qalır.

Tolstoy mənəvi idealı İsa Məsihin təlimində tapmışdı. Hərçənd ortodoks xristianlardan fərqli olaraq, Tolstoy üçün İsa nə Allahın oğlu nə də Allahdır (“Allaha inanan üçün Məsih Allah ola bilməz”(Лев Толстой. http://www.obretenie.info/txt/tolstoy/bogoslovie.htm)

Yazıçıya görə İsa islahatçı, köhnə, daşlaşmış ənənələri sökməklə həyatın daima yeni əsaslarını aşkarlayan birisidir. Bundan başqa Tolstoy İsanın həqiqi baxışları ilə din institutunda yayılmış yanlış interpetasiyalarını da fərqləndirir. “Onun fikrində İsa təliminin mahiyyəti məhəbbət metafizikasıdır” (А.А.Гусейнов, 1995)

“Bütün təlimlərdə: misir müdriklərində, brahmanlarda, stoiklərdə, buddistlərdə, daoistlərdə və başqalarında, mehribanlıq, mərhəmət, rəhm, xeyriyyəçilik və ümumiyyətlə məhəbbət əsas məziyyətlərdən hesab edilirdi” (10 Толстой Лев Николаевич "Закон насилия и закон любви" https://www.litmir.co/br/?b=71205&p=6)

Lakin Tolstoyun fikrincə yalnız İsa Məsihdə bu məqam xüsusi metafizik başlanğıc dərəcəsinə qədər yüksəldilir.

Həyatın əsas qanunu kimi məhəbbət başlıca mənəvi qanundur. Mənəvi dünyada bu qanun fiziki dünyada cazibə qanunu qədər əhəmiyyətlidir. İsa Məsih bu qanunları kəşf etmir, onlar Əski Əhddə formulə edilmişdilər. İsa onları bir daha diriltmiş olur.

Tolstoyun interpretasiyasiyasında müqəddəs tövsiyyələr on deyil (Əski Əhddəki kimi), beşdir. Onlar Matveyin incilində (V, 21-48) verilir. Bu tövsiyyələri ilə İsa Tolstoyun fikrincə,öz təliminin mahiyyətini ifadə etmiş olur. Bu tövsiyyələr aşağıdakılardan ibarətdir:

1. Qəzəblənmə: “Siz qədimlərə “öldürmə” deyildini eşitmişdiniz...Mən isə sizə deyirəm, nahaq yerə qardaşına qəzəblənən hər kəs mühakimə olunmalıdır”;
2. Arvadını tərk etmə: “Zina etmə deyildiyini eşitmisiniz. Fəqət mən sizə deyirəm: zinadan başqa bir səbəblə arvadını boşayan adam, onu zinaya düçar edər.”
3. Heç kimə və heç nədə and içmə: “Yenə qədim zamanların adamlarına:”Andını pozma və andlarını Rəbb qarşısında yerinə yetir” –deyildiyini eşitmisiniz. Fəqət mən sizə deyirəm: heç and içmə”;
4. Şərə zorla müqavimət göstərmə: “”Gözə göz, dişə diş”, deyildiyini eşitmisiniz. Fəqət mən sizə deyirəm: Pisliyə müqavimət göstərmə; fəqət kim sənin sağyanağına vurarsa, ona o birisini də çevir”;
5. Başqa xalqların insnlarını düşmən hesab etmə: “Siz eşitmisiniz: “öz qonşunu sev və öz düşməninə nifrət et”. Fəqət mən sizə deyirəm: Düşmənlərinizi sevin”.

## İstifadə olunmuş ədəbiyyat

L.N.Tolstoy “Dirilmə” Bakı 2007 480 s.

Лев Толстой ИСПОВЕДЬ Л.Н.Толстой. Полное собрание сочинений. т. 15. М., 1913, с.5-53

Л.Н.Толстой В чем моя вера?// www.litmir.co/br/?b=71090

Лев Толстой ИСПОВЕДЬ Л.Н.Толстой. Полное собрание сочинений. т. 15. М., 1913, с.5-53

Гусейнов А. «Великие пророки и мыслители. Нравственные учения от моисея до наших дней М.: Вече, 2009, 496 с., с.86

Лев Толстой. Исследование догматического богословия// http://www.obretenie.info/txt/tolstoy/bogoslovie.htm

А.А.Гусейнов.Л.Н.Толстой. Непротивление злу насилием // Великие моралисты. М., 1995

Толстой Лев Николаевич "Закон насилия и закон любви"// https://www.litmir.co/br/?b=71205&p=6

**Rabil Mehtiyev**
*Bakı Mühəndislik Universitetinin baş müəllimi*
*fəlsəfə üzrə fəlsəfə doktoru*
*rabil.mehtiyev@mail.ru*

## MULTİKULTURALİZM SİSTEM YARADAN FENOMEN KİMİ

**Açar sözlər:** *multikulturalizm, sistem, milli təhlükəsizlik, dövlətçilik prioriterləri*

Multikulturalizmin dünya təcrübəsi paradoksal və skeptik yanaşmalarla müşayiət olunsa da, Azərbaycanda bu fenomen emansipasiya baxımından aprioridir. Bu da imkan verir ki, Azərbaycan multikulturalizminə sistem yaradan faktor kimi yanaşılsın. Əvvəlcə, qısa baxaq ki, sistem yaradan faktor, ümumiyyətlə sistem yaratmaq nə məna kəsb edir. Sistem oxşar xassəli elementlərin çoxluğudur ki, burada elementlərin məzmunu yaxın, təzahürü isə çoxspektrli ola bilər. Cəmiyyət həyatında sistem dedikdə iqtisadi, siyasi, mədəni və sair yarımsistemlərin yaratdığı ümumi ictimai sistem başa düşülür. Bu nəzərdən tətbiq etdikdə ictimain sistemin sabitliyi, bu konteksdə cəmiyyətin təhlükəsiz sosial-iqtisadi, mədəni tərəqqisi bütün sistemyaradıcı faktorların vəhdətini tələb edir. Multikulturalizmin həyat tərzi olduğu ölkələrdə, o cümlədən Azərbaycanda bu faktorun sistemi təmin edən amillərdən biri kimi nəzərdən keçirmək tamamilə obyektiv yanaşmaya çevrilir.

Odur ki, Azərbaycan multikulturalizminin sistem yardan faktorlarınna ayrılıqda baxmaq daha məqsədəuyğundur. İlk olaraq təkamüldə olan multikultural dəyərlərin ilkin mahiyyətdən uzaqlaşmamasını qeyd etmək lazım gəlir. Məlumdur ki, virtual reallıqın birbaşa təmasları minimuma endirdiyi indiki mərhələdə dəyərlərin məzmun dəyişikliyinə uğramaması mümkün deyil. Bu mənada Azərbaycan mühiti də qlobal trendlərin hücum akvatoriyası olmaqdan qaça bilmir. Lakin təqdirəlayiqdir ki, ölkəmizin tapındığı dəyərlər, o cümlədən multikultural dəyərləri qlobal risklərə qarşı milli immunitet xüsusiyyətini hifz edə bilir. Bu da sistemin sabitliyi üçün zəruri amil kimi çıxış edir.

Digər amil kimi ölkəmizin işğala məruz qalan ərazilərdən məcburi köçkünə çevrilən azsaylı xalqların nümayəndələri olan vətəndaşlarımızın ümumi Azərbaycan ailəsinin tərkib hissəsi kimi yeni yaşayış yerlərində yerləşdirilməsi təmin edilmişdir. Başqa sözlə, azsaylı xalqların nümayəndələri olan məcburi köçkünlər yenidən məskunlaşma zamanı dövlətin qayğısı ilə təmin olunmuş və ölkənin əsas etnik qrupu olan azərbaycanlılar kimi respublikanın müxtəlif guşələrində məskunlaşmışlar. Sosial-iqtisadi şərtlərin o dövr üçün son dərəcə ağır olmasına baxmayaraq bu kateqoriyadan olan məcburi köçkünlər yenə də Azərbaycanda yaşamağa üstünlük vermişlər. Bu bir daha nümayiş etdirir ki, ölkəmizin multikultural mühiti burada yaşayan azsaylı etnik qrupların təhlükəsiz yaşamasına imkan verir.

Başqa bir amil kimi multikultural təhsilin formalaşdırılmasını qeyd etmək lazım gəlir. Onu nəzərdə tuturuq ki, Azərbaycanda multikulturalizm yaşayışın adi praktikası olmaqla yanaşı, həm də təhsil kanalları vasitəsilə yetişməkdə olan nəslə konseptual olaraq öyrədilir. Bu konsepsiya dövlət təhsil siyasətinin tərkib hissəsi elan olunduqdan sonra nəzəri və praktik istiqamətdə yeni addımlar atılmışdır və bu proses davam etməkdədir. "Multikulturalizmə giriş" fənninin respublikanın bütün ali təhsil müəssisələrində məcburi fənn kimi tədrisinə başlanılması bunun təsdiqidir. Habelə təhsilin digər pillələrində bu istiqamətdə atılan digər amillər multikulturalizmin Azərbaycan nümunəsinə yeni impuls vermişdir.

Bu xüsusda bir fikri nəzərdən keçirək: Multikulturalizm siyasi-konstitusional prinsip kimi çıxış edir. Bu zaman etnik kimliklərə dövlətin siyasi təşkilolunması üçün, həmçinin hüquqların və resursların yenidən bölgüsü üçün baza olaraq baxılır. Bu mənada multikulturalizm etnik pluralizmi və muxtariyyəti möhkəmlədirən, assimilyasiyaya qarşı duran amildir. (Nicat Məmmədli Multikulturalizm. Panaseya yoxsa alternativ. Bakı, 2016, səh. 23)

Eyni zamanda Azərbaycana gələn miqrantların sayının tədricən artması ölkəmizin təhlükəsiz məkan, inkişaf etmiş iqtisadi sistemə, eləcə də başqalarına tolerant olan multikultural mühitə malik

olması ilə izah olunur. Diqqətəlayiqdir ki, miqrantlar sadalanan amillərin stabil olmasını əyani müşahidə etdiklərindən burada uzun müddətli yaşamağa üstünlük verirlər. ABŞ-ın Berkli Universitetinin nümayəndəsi Liladhar Pendsenin "Multikulturalizm başqalarını qəbul etmək deməkdir. Və Azərbaycan mənə bu dərsi keçdi. Mən Humanitar Forumun açılışında yəhudi ravvinin, pravoslav keşişin, müsəlman ruhanisinin və katolik kardinalın bir sırada oturduğunu gördüm. Belə bir mənzərəni başqa harada görmək olar? Yalnız Azərbaycanda. Azərbaycan başqa xalqları qəbul etməyi bacarır. Siz bizi burada xoş niyyətlə qarşılamısınız." qənaətinə gəlməsi fikrimizin təsdiqi olaraq görünür. (Multikultural təhlükəsizlik. Bakı. II Dəyirmi masa. 2015. səh 14)

Ölkələrin demokratikliyi səviyyəsinin multikultural dəyərlər baxımından vacibliyini göstərən bu fikrin davamı olaraq deyə bilərik ki, bir sıra Avropa dövlətlərində demokratikləşmə proseslərindən sapmalar məhz multikultural mühitin tam bərqərar olmamasına zəmin yaradır. Professor Etibar Nəcəfovun qeyd etdiyi kimi "Multikultural cəmiyyətin yaranması və inkişafı tarixi inkişafın xüsusiyyətləri ilə, daha konkret sosial faktorlar ilə müəyyən olunur. Qeyd etmək lazımdır ki, multikultural cəmiyyətin yaranması və inkişafında demokratiya həlledici rol oynayır."(Bakı Beynəlxalq Humanitar Forumu. 10-11 oktyabr.2011.)

Qeyd edək ki, multikulturalizmə bir sıra ölkələrdə olan təhdidlərə baxmayarq bu fenomenin XXI əsrdə daha dominant mövqelərə sahib olacağı birmənalıdır. Alternativsiz model olacağı şübhə doğurmayan multikultural mühitin tədricən hətta bu fenomenə qısqanc yanaşan bəzi Avropa dairələrinin də həzm edəcəyi qənaətindəyik. Başqa üfüq görünmür, dünyü qloballaşdıqca multikulturalizm də məzmunca daha da transformasiyaya uğrayaraq hər bir fərdin hesablaşmalı olacağı amil olacaq.

Azərbaycanın dövlət kimi regiondakı geosiyasi üstünlükləri eyni zamanda təzyiqlər də yaradır. Başqa sözlə, SSRİ-nin süqutundan sonra tarix səhnəsinə Cənubi Qafqazda müstəqil mövqeyə sahib respublikanın çıxması qlobal güc mərkəzlərinə əlverişli deyil. Bu mənada Azərbaycanda milli təhlükəsizliyin bir komponenti kimi etnik qrupların dövlət ətrafında monolitliyini saxlamaq üçün optimal siyasət olaraq multikulturalizmin dövlət siyasətinin prioritetliərindən olması konseptual səciyyə daşıyır. 26 noyabr 2015-ci ildə Bakıda keçirilən İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş Konfransının XII sessiyasında çıxış edən Prezident İlham Əliyev demişdir: "Biz tam əminik ki, multikulturalizmin gözəl gələcəyi var. Sadəcə olaraq bəzi siyasətçilər, ictimai xadimlər öz çıxışlarında daha da diqqətli olmalıdırlar. Çünki multikulturalizmin alternativi yoxdur. Alternativ ayrı-seçkilikdir, diskriminasiyadır, islamofobiyadır, ksenofobiyadır. Bu, gələcəyə aparan yol sayıla bilməz. Ona görə, biz bu bölgədə öz siyasətimizlə və təşəbbüslərimizlə dinlərarası münasibətlərin gücləndirilməsi üçün çalışırıq və çalışacağıq." http://multiculturalism.preslib.az/az_a1.html

Azərbaycanın multikulturalizm siyasətinin ölkənin daxili və xarici siyasətinin vəhdətinin bəhrəsi olması haqda bir fikir belədir: Azərbaycan Respublikasının multikulturalizm siyasətindən danışarkən belə bir mühüm qanunauyğunluğa diqqət yetirmək lazımdır: multikulturalizmin ölkənin daxili siyasətində özünü göstərməsi onun xarici siyasətində də yaranmasına səbəb olur. Bu qanunauyğunluq daxili və xarici siyasət arasında olan münasibətdən irəli gəlir və multikulturalizmin ölkənin daxili siyasəti ilə bərabər onun xarici siyasətində də özünü büruzə verməsindən xəbər verir. Bu münasibətdə daxili siyasət xarici siyasətə münasibətdə müəyyənedici rol oynayır. Ölkədaxili sabitlik dövlətin xarici siyasətinin sülhyönümlü, beynəlxalq hüququn prinsiplərinə uyğun olması üçün zəmin yaradır. Və əksinə, ölkədaxili vəziyyətin qeyri-sabit, böhranlı olması dövlətin xarici siyasətinin təcavüzkar olmasına, onun beynəlxalq hüquq normalarına məhəl qoymamasına şərait yaradan əsas səbəblərdən biridır.(Multikulturalizm Azərbaycan Respublikasının daxili və xarici siyasətinin mühüm istiqamətidir)

Qeyd olunanlara əlavə olaraq, Azərbaycan dövlətinin ərazi bütövlüyünün bərpa olunacağından sonrakı mərhələ üçün də ölkəmizin multikultural siyasətə hazır olmasını təsdiq edən bir neçə faktı nəzərdən keçirək. Münaqişə həll olunarsa, Dağlıq Qarabağ Muxtar Vilayətinin yüksək idarəçilik status ilə yenidən bərpa olunacağını bildirməklə dövlət başçısı bir daha əminlik yaradır ki, Azərbaycan dövləti bütün vətəndaşlarına bərabər hüquqlar yaratmağı bir prioritet olaraq həyata keçirir. Həm də nəzərə almaq lazımdır ki, münaqiçə başlayana qədər DQMV ərazisində

azərbaycanlılar və ermənilər ilə yanaşı, digər etnik qrupların, məsələn rusların yaşaması problemin siyasi həllindən sonra polietnik strukturun yarana biləcəyi ehtimalını artırır. Bu baxımdan dövlət başçısının bütün vətəndaşlara bərabər şəraitin yaradılacağı ilə bağlı iradəsi problemin multikultural aspektlərinin irəlicədən təmin edilməsi ilə bağlı əminlik yaradır.

Bu kimi amillər belə yekunlaşdırmaya əsas verir ki, Azərbaycan multikulturalizminin sistem yaradan tərəfləri sosio-mədəni bütövlüyün təmin olunmasında, sosial strukturun poietnik tərkibinin monolitliyində, dövlət siyasəitinin prioritetlərinin müəyyənləməsində təsdiqini tapır. Beləliklə, Azərbaycan multikulturalizmi dövlətçiliyin möhkəmləndirilməsi, bütün vətəndaşların özlərini dövlətçiliklə assosiasiya etmələrinə, bununla da ölkənin milli təhlükəsizliyinin təmin olunmasında sistemli məzmun daşımaqdadır.

**Ədəbiyyat siyahısı:**


1. Nicat Məmmədli. Multikulturalizm. Panaseya yoxsa alternativ. Bakı, 2016
2. Multikultural təhlükəsizlik. Bakı. II Dəyirmi masa. 2015
3. Bakı Beynəlxalq Humanitar Forumu. 10-11 oktyabr.2011.
4. http://multiculturalism.preslib.az/az_a1.html
5. Multikulturalizm Azərbaycan Respublikasının daxili və xarici siyasətinin mühüm istiqamətidir.http://www.dqdk.gov.az/az/view/news/4675/multikulturalizm-azerbaycan-respublikasinin-daxili-ve-xarici-siyasetinin-muhum-istiqametidir

**Müşviq Mustafayev**
*BDU-nun sosial və pedaqoji psixologiya kafedrasının müəllimi, psixologiya üzrə fəlsəfə doktoru*
**Südabə Hüseynova**
*AMEA-nın Qafqazşünaslıq İnstitutunun elmi katibi, psixologiya üzrə fəlsəfə doktoru, dosent*
**Günel Aslanova**
*BDU-nun psixologiya kafedrasının əməkdaşı*

# SOSİAL ADAPTASİYANIN PSİXOLOJİ MƏZMUNU VƏ XÜSUSİYYƏTLƏRİ*

**Açar sözlər:** adaptasiya, sosial adaptasiya, şəxsiyyət, cəmiyyət, mühit

Adaptasiya prosesi şəxsiyyət və mühitin adekvatlığına səbəb olan bu və ya digər orqan, mexanizmlərin funksiyalarının yenidən qurulması, yenilənmiş bacarıq, vərdiş və keyfiyyətlərin qazanılması ilə əlaqədardır.

Adaptasiya prosesi ikili xarakter daşıyır. Bu zaman şəxsiyyət yeni imkanlar qazanmaqla yanaşı eyni zamanda da artıq mövcud olanları yeniləyir. Fəaliyyətin effektivliyinin qorunması digər situasiyalara alışmağa hazırlıq hesabına baş verir. Adaptasiya qabiliyyəti yalnız dəyişən şəraitə uyğunlaşmada deyil, müxtəlif çətinlikləri dəf etməyə imkan verən davranış vasitələrinin inkişafında da təzahür edir. İnsanın adaptasiya prosesi sosial amillərə əsasən müəyyən edilir. Bununla da adaptasiya ikitərəfli proses olub yalnız orqanizm və mühitin qarşılıqlı əlaqəsini deyil, həmçinin mühitin insanın tələbatlarına müvafiq olaraq dəyişilməsini də əks etdirir.

Adaptasiya termini (latın mənşəli adaptation sözündən götürülərək mənası "uyğunlaşma" deməkdir) psixologiyaya təbiət elmlərindən keçib və ümumi şəkildə orqanizmin quruluş və funksiyalarının yaşayış mühitinə uyğunlaşması kimi başa düşülür .

Adaptasiya iki növ: psixofizioloj və sosial-psixoloji olur. Onların arasında qarşılıqlı əlaqə var. Əvvəlcə "adaptasiya" bioloji elmin bir növü idi və orqanizmin ətraf mühitə uyğunlaşması hesab edilirdi. Əgər duyğu üzvlərinə bir müddət ərzində lazımi həddə güclü qıcıqlandırıcılar təsir edərsə, onda o qıcıqlandırıcılara həssaslıq tədricən azalar. Əgər qıcıqlandırıcılar zəif və ya yaxud ümumiyyətlə yoxdursa, onda həssaslıq artır, daha doğrusu, orqanizm bu və ya digər qıcıqlandırıcı mənbələrə adaptasiya olunur.

Psixofizioloji adaptasiya qıcıqlandırıcının orqanizmə təsiri zamanı onun nisbətən sabit funksiyasını təmin edir. Psixofizioloji adaptasiya taktil ola bilər. Məsələn, dərinin hər hansı bir yerinə uzun müddət toxunanda onun təsiri tezliklə azalır. Təcrübə göstərir ki, toxunma anından 3 saniyə sonra təzyiqin hiss edilməsi gücü azalır. Biz əynimzə geydiyimiz paltarın təzyiqini, demək olar ki, hiss etmirik. Belə də olur ki, insan alnına qədər qaldırdığı eynəyini axtarır. Bu ona görə olur ki, dəri eynəyin təzyiqinə tez öyrəşir və onu hiss etmir. Sosial-psixoloji adaptasiya fərdlərin sosial mühitə fəal şəkildə uyğunlaşması prosesidir. Bu insanın müəyyən biososial funksiyaları yerinə yetirmək, adekvat münasibət və başqaları ilə ünsiyyət qurmaq, özünüifadə etmək qabiliyyəti və cəmiyyətin gözləntilərinə uyğun davranması kimi özünü göstərir.

Sosial adaptasiya subyekt və sosial mühitin qarşı-qarşıya yönəlmiş fəallığın gedişi və nəticəsidir. Sosial adaptasiya şəxsiyyət və sosial mühitin eyni istiqamətinə yönəlmiş, bir-birini tamamlayan subyektin sosial davranışını cəmiyyətin məqsədlərinə uyğun inkişaf etdirə bilən prosesdir ( Vəliyeva,2013, s. 41).

* **Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Qrant № EİF/MQM/ ELM-TƏHSİL-1-2016 -1(26)-71/09/5**

Sosial-psixoloji adaptasiya şəxsiyyətin yeni sosial situasiyaya daxil olan vəziyyətdəki rolu deməkdir. Sosial-psixoloji adaptasiya nəticəsinə görə müxtəlif – pozitiv, neqativ, həyata keçirilmə mexanizminə görə isə könüllü və məcburi olur.

Sosial-psixoloji adaptasiya bir neçə mərhələyə bölünür:

a) tanışlıq;
b) rol adaptasiyası;
c) özünütəsdiq. (Əhədov H.M., Həsənov A.B., Bayramov H.B., Məhərrəmov Ə.M. 2000,, s. 131).

Tədqiqatçı F.Z.Meersonun fikrincə isə adaptasiya orqanizmin ətraf mühitə və ya özündə baş verən dəyişikliklərə uyğunlaşması prosesi kimi müəyyən edilir. Onun fikrincə təkamül prosesində qazanılan və irsən ötürülən genotipik adaptasiya ilə yanaşı, fərdi həyat prosesində əldə edilən fenotipik adaptasiya da mövcuddur.

Fenotipik adaptasiya adı altında elə bir proses nəzərdə tutulur ki, onun nəticəsində orqanizm ətraf mühitin müəyyən amilinə qarşı dayanıqlılıq qazanır. F.Z.Meerson bu proseslərin mərhələlərini, yəni zəmanətli, təminatlı adaptasiya sistemlərinin qurulmasını nəzərdən keçirmişdir (Березин,1988 s. 12).

V.Q.Aseyev adaptasiyanın nəzəri cəhətlərini tədqiq edərək hesab edir ki, F.Z.Meersonun fenotipik adaptasiyanın mexanizmləri haqqında konsepsiyası yalnız bioloji əhəmiyyət daşımır. Bu ideya sosial adaptasiya prosesinin bioloji adaptasiya prosesi ilə qarşılıqlı əlaqəsinin tədqiqinə elmi yanaşma kimi istifadə edilə bilər (Дубровин, 2005, s. 16).

Q.Selye daimi adaptasiya prosesini həyat anlayışı ilə eyniləşdirir. Onun tərəfindən stress haqqında əldə edilmiş biliklərin mərkəzini adaptasiya sindromu anlayışı təşkil edir. Adaptasiya sindromu anlayışı mürəkkəb həyat şəraitinə adaptasiya olunmaq üçün orqanizmin psixofizioloji resurslarının səfərbərliyini təmin edir.

Tədqiqatçılar sosial adaptasiyanı “bir şəxsin və ya qrupun yeni bir sosial mühitə aktiv uyğunlaşması” kimi başa düşürlər.

D.V.Olşanskiyin sözlərinə görə, bu fərdlərin və ya sosial qrupların ictimai mühitlə qarşılıqlı əlaqəsinin bir növüdür, bu müddət ərzində iştirakçıların tələbləri və gözləntiləri koordinasiya olunur (Ольшанский,1989, 93).

D.N.Dubrovin fərdin sosial mühitə uyğunlaşdırılmasını ətrafdakı reallığın kifayət qədər qəbul olunması, münasibətlər sistemi və başqaları ilə ünsiyyət qurmağını sosial adaptasiya hesab edir (Дубровин,2005 s. 5).

Beləliklə, sosial adaptasiya fərd tərəfindən ictimai mühiti fəal şəkildə assimilyasiya etmə prosesidir və fərd həm obyekt, həm də uyğunlaşma amili kimi çıxış edir. Sosial mühit həm adaptiv, həm də uyğunlaşa bilən tərəfdir. Buna görə, müxtəlif tədqiqatlarda “sosial adaptasiya” və “sosiallaşma” anlayışları arasındakı əlaqənin vacibliyi göstərilir.

Əksər alimlər adaptasiyanın sosiallaşma ilə əlaqəli olduğunu qeyd edirlər, lakin bu əlaqənin təbiəti fərqlidir. Bir sıra müəlliflər bu anlayışları sinonim kimi şərh edirlər. Bu nöqteyi-nəzərdən adaptasiyanın sosiallaşma mexanizmlərindən biri olduğu göstərilir.

İ.S.Konun sözlərinə görə, sosiallaşma fərdin sosial təcrübəsinin, cəmiyyətin tam üzvü kimi fəaliyyət göstərməsinə imkan verən müəyyən bir məlumat sistemi, normalar, dəyərlər sisteminin assimilyasiyası prosesidir (Кон,1973 s. 128).

B.D.Parıqinin sözlərinə görə, adaptasiya sosializasiyanın bir hissəsidir, “bioloji şərtlər və fərdlərin sosial mühitə daxil olması ilə yanaşı, bir insanın humanistləşdirilməsinin çoxşaxəli prosesidir” (Парыгин, 1980, s. 164).

D.N.Dubrovin sosializasiya prosesində sosial adaptasiyanın meydana gəldiyini yazır. “Sosiallaşma prosesi sosial adaptasiya fenomeninin mənşəyinin və inkişafının əsas psixoloji mexanizmlərindən biridir” (Дубровин, 2005, s. 5).

K.V.Rubçevskinin düşüncəsinin məntiqi belədir: “adaptasiya” konsepsiyası fərdlərin sosiallaşmasının nəticəsi və onun müəyyən sosial şərtlərə uyğunlaşması kimi qəbul edilə bilər (Рубчевский, 2003, s. 147).

N.Ə.Yermolenko haqlı olaraq qeyd edir ki, “sosial adaptasiya xüsusi bir şəraitdə sosiallaşmanın xüsusi forması hesab edilə bilər ... Müxtəlif yollarla sosial adaptasiya sosiallaşmadan daha geniş proses kimi nəzərdən keçirilə bilər.” (Яницкий, 1999, c. 17).

Sosial adaptasiya ümumi olaraq fərdin mövcud olduğu qrupun normalarını, dəyərlərini, mövqelərini əldə etməsi prosesini özündə ehtiva edir. Bu mədəni elementlərin qazanılması əsasında, fərdin şəxsiyyətə çevrilməsi baş verir. Bu baxımdan sosial adaptasiya fərdin sosial-iqtisadi şəraitə, rol funksiyalarına, cəmiyyətin həyat fəaliyyətinin müxtəlif səviyyələrində təşəkkül tapan normalara, qruplara və sosial təşkilatlara və təsisatlara uyğunlaşması kimi təhlil edilə bilər.

Ümumiyyətlə sosial-psixoloji istiqamətdə aparılan tədqiqatlarda sosial adaptasiya, həmişə müəyyən bir cəmiyyət içində fəaliyyət göstərən mexanizm kimi nəzərdən keçirilmişdir. Başqa sözlə desək, sosial adaptasiya zaman və məkanla məhdudlaşan müəyyən bir cəmiyyətdə reallaşır. Bu baxımdan, sosial adaptasiya insanın yaranmasıyla meydana gəlmiş, primitiv cəmiyyətlərdən müasir cəmiyyətlərə qədər hər bir cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etmişdir.

Çünki dünyaya bioloji varlıq kimi gələn insan sosial adaptasiya nəticəsində cəmiyyətin dəyərlərini, normalarını və keçmiş təcrübəsini mənimsəyərək onun bir üzvünə çevrilir. Bu proses vasitəsilə fərd sosiallaşaraq şəxsiyyətə çevrilir. Beləliklə insan, fərdi fərqlərinə baxmayaraq, cəmiyyətlə inteqrasiya olunmağı, cəmiyyətin müəyyən etdiyi davranış və etiket qəliblərinə uyğun olaraq fəaliyyət göstərməyi öyrənir. Digər tərəfdən, sosial sahədə meydana gələn inkişaf (modernləşmə, sənayeləşmə, postmodernləşmə və qloballaşma kimi), cəmiyyət və sosial ətraf şəxsiyyətin formalaşmasına əhəmiyyətli şəkildə təsir göstərir. Bu inkişaf, həyatımızın hər sahəsində dəyişmə və inkişafın sürətlənməsinə səbəb olur. Belə vəziyyət, fərdin sosial adaptasiya təcrübəsini müəyyənləşdirən düşüncələrində bir sıra fərqliliklərin yaranmasına və sosial adaptasiya şərtlərinin dəyişməsiylə də nəticələnə bilər.

Sosial adaptasiya, hər şeydən əvvəl müəyyən bir cəmiyyətdə reallaşmaqdadır. Yəni hər fərd, ancaq doğulduğu və fəaliyyət göstərdiyi cəmiyyət tərəfindən sosiallaşdırılır. Buna görə, sosial adaptasiya özbaşına inkişaf edən bir proses deyil. O, daha çox, cəmiyyəti meydana gətirən, formalaşdıran ailə, məktəb, inzibati vahidlər, dərnəklər, qruplar, yoldaşlar, qonşular kimi müxtəlif sosial amillərin təsiri əsasında yaranır.Bu baxımdan bir sıra tədqiqatçılar şəxsiyyətin sosial adaptasiyasına təsir göstərən amilləri əhəmiyyətinə görə - birincili qruplar (əsas) və ikincili qruplar (köməkçi) olmaqla iki yerə bölürlər. Şəxsiyyətin sosial adaptasiyasına təsir göstərən birincili qruplara ailə, ikincili qruplara isə status, yaşayış və bioloji qrupları aid etmək mümkündür. Hər iki qrup, bir-birindən ayrı deyi, əksinə bir yerdə fəaliyyət göstərir və şəxsiyyətin cəmiyyətə uğurlu adaptasiya olunmasına əhəmiyyətli şəkildə təsir göstərirlər.

Sosial səviyyədə adaptasiya bir sıra xüsusiyyətlərə malikdir. Onları aşağıdakı kimi qruplaşdıra bilərik:

- Sosial mühitə uyğunlaşma prosesi şüurun fəal iştirakı ilə həyata keçirilir;
- Uyğunlaşmanın fiziki şəxslərə münasibətdə meydana gəldiyi mühit tamamilə fərqli bir xarakter daşıyır;
- Şəxs uyğunlaşma nəticələrini passiv qəbul edir və onları sosial şəraitə uyğun olaraq dəyişdirə bilir;
- Sosial adaptasiya prosesi qrupların və kollektivlərin qarşılıqlı fəaliyyəti əsasında baş verir.

Sosial adapdasiyanın mahiyyətini şəxsin davranışının sosial mühitin tələblərinə müvafiqliyi təşkil edir. İnsanın reaksiyaları sosial mühitin təsir və tələblərinə cavab kimi təzahür etsə də, bu, heç də onun öz hərəkət və davranışında azad olmaması demək deyildir. Sosial mühit insana müxtəlif davranış forma və üsulları təklif edir.

İnsan mühit tərəfindən ona təklif edilən müxtəlif davranış formalarından istədiyini seçə bilər. Deməli, davranış formasının seçilməsində insan azaddır, müstəqildir. Onun seçmək, götür-qoy etmək, bu və ya digər davranış üsuluna üstünlük vermək imkanı vardır. Əgər insan müəyyən müddət ərzində hər hansı davranış üsuluna üstünlük verirsə, onun davranışı tədricən səciyyəvi xüsusiyyətlər kəsb edir. Burada bir maraqlı məsələni xüsusi olaraq qeyd etmək lazımdır. Əgər

şəxsin seçdiyi davranış formaları cəmiyyətin tələbi baxımından müsbət keyfiyyət və istiqamətlə səciyyələnirsə, bu zaman onun mühitə uyğunlaşmaq qabiliyyəti artır, çoxalır, güclənir. Həmin şəxs öz hərəkətlərinin, davranışının qarşıya çıxan həyati situasiyalara müvafiqliyini daha bacarıqla təmin edir. Əksinə, şəxsiyyətin seçdiyi davranış formaları cəmiyyətin tələbləri baxımından mənfi xüsusiyyətlərlə səciyyələnirsə, yəni həmin tələblərə ziddirsə, onda normal sosial şəraitə adekvat olmayan davranış tərzi formalaşır. Nəticədə həmin şəxsin cəmiyyət tərəfindən qəbul edilmiş, bəyənilmiş normalara münasibəti dəyişir. Beləliklə, şəxs ilə onu əhatə edən mühit arasında uyğunsuzluq, qeyri-adekvatlıq yaranır. Lakin belə bir vəziyyətdə də bu və ya digər davranış formasını seçməyə imkan vardır (Bayramov Ə.S., Əliyev B.H., 2012: 641).

Ədalətli cəmiyyət insana düzgün yol, düzgün həyat tərzi seçmək üçün hər cür imkan və şərait yaradır. Lakin, bu heç də demək deyildir ki, belə cəmiyyət şəraitində adaptasiya prosesi avtomatik şəkildə baş verir, heç bir qayğı, diqqət, səy və ya tədbir tələb etmir. İnsanın həyata qoşulması, daxil olması həmişə fərdi xaraxter daşıyır.

Bəzən ictimai həyata qoşulmaq üçün insan lazımi davranış forması seçə bilmir və ya seçdiyi davranış forması qüsurlu, nöqsanlı və bəzən də təhlükəli olur. Ona görə də sosial adaptasiya ləng, çətinliklə gedir. Bu çətinlik mənfi şəraitlə birləşdikdə insanı cinayətə gətirib çıxarır. Ona görə də şəxsin törətdiyi cinayət, sadəcə olaraq, başqaları hesabına faydalanmaq deyil, müəyyən sosial-psixoloji mühitə cəmiyyət üçün zərərli bir reaksiya, cavabdırsa, o zaman cinayətin qarşısını almaq üçün fərdi cəmiyyət ilə əlaqəsini, qarşılıqlı münasibət və təsirini yaxşılaşdırmaq lazımdır. Belə hallarda bəzən ailə vəziyyətini yaxşılaşdırmaq, bəzən uşaq klubları açmaq, idman meydançaları düzəltmək, asudə vaxtı düzgün təşkil etmək, avaraçılıq edən, küçələrdə veyillənən yeniyetməni işə cəlb etmək və s. yaxşı nəticə verir (Bayramov Ə.S., Əliyev B.H.2012:642). Beləliklə, sosial adaptasiya probleminin düzgün həllinin böyük praktiki əhəmiyyəti vardlr. Bu problemlərin hamısının deyil, hətta bir qisminin belə düzgün həlli insanları cinayətdən uzaqlaşdıra, onların cinayətə yuvarlanmasının qarşısını ala bilər.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s.
2. Əhədov H.M., Həsənov A.B., Bayramov H.B., Məhərrəmov Ə.M. İdarəetmənin pedaqigikası və psixologiyası. Dərs vəsaiti. Bakı: Maarif, 2000, 386 s.
3. Vəliyeva M. Sosial adaptasiya və peşəyə adaptasiya. Azərbaycan məktəbi jurnalı, 2013, №3, s. 41-45.
4. Березин Ф.Б. «Психическая и психофизиологическая адаптация человека». Л., 1988, с. 13-21.
5. Дубровин Д. Н. Психологическая адаптация как фактор личностного самоопределения: автореф. дис. … канд. психол. наук. М., 2005, с. 5.
6. Кон И.С. Социология личности. М., 1973, 191 с.
7. Ольшанский Д.В. Адаптация социальная. Философский энциклопедический словарь. М., 1989, 142 с.
8. Парыгин Б.Д. Основы социально-психологической теории. М., 1980, с. 164-165.
9. Петровский А.В. Проблема развития личности с позиции социальной психологии // Вопросы психологии. 1984, № 4, с. 15-29.
10. Рубчевский К.В. Социализация личности: интериоризация и социальная адаптация // Общественные науки и современность. 2003, № 3, с. 147-151.
11. Сеченов И.М. Рефлексы головного мозга. М.: Изд. АМН СССР, 1961, 100 с.
12. Яницкий М.С. Адаптационный процесс: психологические механизмы и закономерности динамики. Кемерово, 1999, с. 17.

**İlham Soltanov**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, elmi işçi*
*soltanovilham@rambler.ru*

# TƏHLÜKƏSİZLİKDƏ İDEOLOGİYA AMİLİ

**Açar sözlər**: *cəmiyyət, ideologiya,siyasət,təhlükəsizlik,ədalət*

Sosial fəlsəfi və siyasi fikrin, xüsusilə, XIX əsrdən indiki dövrə qədər olan tarixinə nəzər salsaq burada cəmiyyət, onun təşkili və idarə olunması haqqında müxtəlif nəzəri konsepsiyaların və bu konsepsiyalara əsaslanan müxtəlif ideologiyaların işlənib hazırlanması və həyata keçirilməsinə göstərilən müxtəlif cəhdlər, gərgin və kəskin intellektual mübahisələr tarixi ilə tanış olarıq. Bu intellektual toqquşma və mübahisələr heç də yalnız bu və ya digər ideya çərçivəsində qalmayaraq siyasi və fiziki qüvvə müstəvisinə keçdikdə isə, əhatə dairəsindən asılı olmayaraq fəlakətlərə, dağıntılara, sarsıntılara səbəb olmuş və bütöv ölkələr, xalqlar tənəzzülə məruz qalmışlar. Buna görə də, tarixin verdiyi ilkin dərs bundan ibarətdir ki, heç bir ideologiya özünü reallaşdırmaq üçün hansısa bir zorakılığa, siyasi və fiziki güc tətbiqinə əsaslanmamalıdır. O özünün həyatiliyi, daxili məntiqi, inandıra bilmək gücü və pozitiv nəticələr verə bilən praktik göstəriciləri ilə səfərbər etməyi bacarmalıdır. Belə ideologiya beyinlərə, şüurlara hopduqca, onlara yiyələndikcə hərəkətverici va yaradıcı qüvvəyə çevrilir. Belə ideologiya insanların nəyə isə məcbur etmir, sadəcə olaraq onlanrın fəaliyyət və həyat tərzinə çevrilir(Şirinov, 2008:324-334). Hər hansı bir ideologiyanı aşılamaq üçün indi mövcud olan müxtəlif təsir vasitələrindən, manipulyasiyalardan istifadə etmək isə olsa-olsa müvəqqəti, yaxud yalnız konkret bir situasiya ilə bağlı müəyyən bir effekt verə bilər. Ümumiyyətlə, indiki dövrdə geniş istifadə olunan konsiental texnologiya heç də həmişə müsbət nəticələrə gətirib çıxarmır. İdeologiya ölkənin təhlükəsizliyi istiqamətində ətraflı işlənməlidir.

Adətən ideologiya dedikdə ona daha çox siyasi ideologiya kimi baxırlar. Düzdür, siyasi ideologiya həmişə diqqəti daha çox cəlb edir. Çünki o daha çox hakimiyyətdə olanların, yaxud siyasi böhran zamanı və yaxud seçkilərdə hakfmiyyətə gəlmək üçün daha çox şansı olan siyasi qüvvənin ideologiyası olduğu üçün ictimai diqqətdə olur. Lakin artıq hakimiyyətdə olan heç bir qüvvə öz ideologiyasının müxtəlif yollarla cəmiyyətə sırımamalıdır. Çünki bu öz mahiyyəti etibari ilə bir növ zorakılıq və həm də mənasız və özlüyündə heç bir pozitiv əhəmiyyəti olmayan, açıq və gizli narazılıqla qarşılanan bir işdir. Cəmiyyət həyatında müxtəlif sosial qrupların olması cəmiyyətin yaşaması və inkişafı üçün zəruri olan hadisədirsə, bu qruplann hər birinin öz ideologiyasının olması da o dərəcədə mümkündür.

Möhkəm postulat və prinsiplər sisteminə malik olmayan ideologiya özünü nə qədər təbliğ etsə də, müasir təbliğat vasitələrinin gücündən nə qədər istifadə etsə də o nə beyinlərdə, nə də psixologiayda özünə yer tapa bilməz. Məlumatsızlıqdan, yaxud təsiretmə gücündən asılı olaraq ona inananlar belə tezliklə ayılar və bu ideologiyadan imtina edərlər. Güclü təbliğat maşınının istehsal etdiyi strateji və operativ təbliğatla müşaiyyət olunan keçmiş SSRİ-nin (Rusiyanın desək daha doğru olar) Əfqanıstanda, sonradan isə ABŞ-ın Əfqanıstanda, İraqda və digər yerlərdə apardığı leqal və qeyri-leqal müharibələr onlara hansı forma verilməsindən asılı olmayaraq insanlar tərəfindən təcavüz kimi qiymətləndirilir və heç cürə müsbət hal kimi qarşılanmır. İnsan hüquqları və demokratiya haqqındakı söz-söhbətlər isə bəzi hallarda kinayəli gülüşdən başqa heç bir şey doğurmur.

Əgər cəmiyyət həyatına indi geniş yayılmış olan sosiosinergetik metodologiya əsasında yanaşsaq, bu mürəkkəb və özüinkişaf edən sistemin mərkəzində insan, onun düşüncəsi və mənəvi-əxlaqi keyfiyyətləri durur(Князева,2011:75). Hər bir dövrün, hər bir məkanın hansı problemləri həll etməsi, hansı istiqaməti seçməsi, həyat və fəaliyyət tərzi məhz bu sosial məkanın və sosial zamanın özü ilə müəyyənləşir. Əlbəttə, bu sosial məkanı və sosial zamanı da yaradan insanların özüdür. Burada Hegelin dili ilə desək ümumi ruh fərdi ruhların ümumi cəhətlərinin sintezini təşkil edir və bir qədər də irəli getsək bu ümumiləşmiş ruh mütləq ruhun ayrı-ayrı adamlara bəxş etdiyi ağıldır ki, bu ağıl vasitəsi və onlar təbii, ictimai varlığı və özlərini dərketmə yolu ilə mütləq ruhun özünü dərk etməyə

başlayırlar. Əlbəttə, Hegeldən sonrakı bütün elm və fəlsəfə sübut etmişdir ki, insan zəkası heç vaxt mütləq ruhu, onun sonsuz məzmun və mahiyyətini dərk etmək

Biz "cəmiyyət özüinkişafedən mürəkkəb sistemdir" dedikdə soruşa bilərlər ki, bir halda ki, cəmiyyət özü inkişaf edir: birinci onun mürəkkəb, ya sadə sistem olmasının; ikinci cəmiyyət özü inkişaf edirsə, burada ayn-ayrı subyektlərin (adamların) hansı istiqamətdə və necə düşünüb-düşünməmələrinin məsələyə nə dəxli var. Mahiyyət bundan ibarətdir ki, "cəmiyyət özüinkişafedən mürəkkəb sistemdir" tezisi heç də bu inkişafın nüvəsini təşkil edən insan şüurunun bu inkişafa göstərdiyi təsiri inkar etmir, əksinə, bu təsirin gücü ilə inkişafin düz mütənasiblikdə olduğunu göstərir. Əgər müasir dünya ölkələrinə, orada yaşayan xalqların həyat səviyyəsinə nəzər salsaq, bunu aydın şəkildə görərik. Hərçənd burada təbii-coğrafi mühitin də rolunu inkar etmək olmaz. Onu da qeyd edək ki, təbii-coğrafi mühitin rolu insanların ictimai şüurlarmm inkişaf səviyyəsindən heç də artıq deyildir(Şirinov, 2008:108). Çünki təbii-coğrafi şərait əsasən davamlı olduğu halda, ictimai şüur dəyişkən və dinamikdir. Məsələ bu dəyişkənliyin və dinamikliyin hansı istiqamətdə baş verməsindədir. Bu isə, cəmiyyətdə mövcud olan idarəetmə sistemi, qanunların məzmunu və onların necə işləməsi və s. amillərdən asılıdır.

İdeologiya o zaman güclü olur ki, o kütlə şüuru ilə maksimum dərəcədə birləşir və kütlə şüurunu öz komponentinə çevirir. Əlbəttə, burada sual meydana çıxa bilər ki, kütlə əsasən az savadlı adamlardan ibarətdir və onlann həm şüuru, həm də psixologiyası daha cox məişət qayğıları və fərdi tələbatın nə dərəcədə ödənilib-ödənilməməsi ilə bağhdır. Yaxud, göründüyü kimi, empirik və adi şüur səviyyəsindən kənara çıxmır. İdeologiya isə daha çox rasional prinsiplər sistemindən ibarət olur ki, bu prinsipləri onlanın məzmun tamlığında dərk etmək kütlə üçün çətin olur. Belə olduqda burada kütlə şüura ilə ideologiya arasında uçurum yaranır. Elə bu uçurumun yaranmaması üçün də, ideologiya hamı tərəfindən görünən, müşahidə olunan, özlüyündə aydın olan postulatlara əsaslanmalı və sonra bu postulatlar əsasında ardıcıl prinsiplər sistemi işlənilməlidir ki, onlar mücərrəd, gündəlik həyat və fəaliyyətdən uzaq olmasınlar. Üfüq təsiri bağışlamasınlar. Çünki üfüq effekti insanlar üçün ümidsizlik, inamsızlıq və şübhə əmələ gətirir. Düzdür, insan və cəmiyyət həyatı heç də bütövlükdə həmişə əvvəlcədən planlaşdırılmış, sistemləşdirilmiş rasional əsaslar üzərində getmir. Lakin bu rasionallıq hətta müxtəlif ssenarilər, variantlar halında mövcud olduqda belə: 1) ən optimal olanı seçməyə imkan verir; 2) ehtiyat variantın da olmasını nəzərdə saxlamağa əsas verir; 3) ehtiyat variantların olması zəruri olduqda riskə getmək imkanı verir. Əlbəttə, bu sonuncu daha cox rasional şüur səviyyəsinə aiddir və deməli daha çox idarəetmə sahəsi ilə bağlıdır.

Azərbaycan əhalisi polietnik tərkibdən ibarət olduğu üçün burada mövcud olan siyasi və vətəndaş ideologiyası bu fakta çox həssas yanaşmalıdır. “Siyasi" və "vətəndaş" ideologiyası dedikdə heç də ideologiya iki müxtəlif növə bölünmür. Əslində vətəndaş ideologiyası siyasi ideologiya, siyasi ideologiya isə vətəndaş ideologiyası kimi çıxış etməlidir. Fərq isə bundan ibarətdir ki, siyasi ideologiya daha çox dövlət həyatından, idarəetmə texnologiyasından, idarə edənlərin hakimiyyətdə qalmaq istəyindən və s. çıxış etdiyi halda vətəndaş ideologiyası sadəcə olaraq istədiyi, bacardığı fəaliyyət növü ilə məşğul olmaq, sakit yaşamaq, öz yaxınlarının qayğısını çəkmək və s. mövqedən çıxış edir. Əgər siyasi ideologiya makro miqyaslı hesablamalara, planlaşdırmalara, strukturlararası koordinasiyalara və s. əsaslanırsa, vətəndaş ideologiyası mikro miqyaslı qayğılara, istək və arzulara əsaslanır. Siyasi ideologiyada ölkənin əhalisi onu təşkil edən etnik qrupların müxtəlifliyini deyil, onun vahid dövlət halında olan birliyinə əsaslanır. Başqa sözlə bu ideologiya özündə multikulturalizmi də ehtiva edir. Burada millilik siyasi birlik kimi başa düşülür və Azərbaycanda bu məsələ tarixən öz məcrasına düşmüş məsələlərdən biridir. Buradakı etnos müxtəlifliyi demək olar ki, şərtidir(Şirinov, 2008:46). Çünki bu etnoslar bir-biri ilə qaynayıb-qarışıb, qohum olublar. Talışlar, ləzgilər, avarlar, türklər, kürdlər və başqaları hamısı vahıd Azərbaycanı təmsil edirlər və azərbaycanlılardır. Vətəndaş ideologiyasına gəldikdə isə onların həyat tərzləri, məişətiəri və s. arasında müəyyən fərqlərin olması nəzərdə tutulur. Bunların hamısı bir işə bir yerdə vahid Azərbaycan mədəniyyətinin inkişafına xidmət edirlər. Azərbaycan milləti monomillət yox, polimillətdir. Bu polimillətin içərisində türkdərin sayca çoxluğu onu əsas, aparıcı qüvvəyə çevirir və buna görə də onun dövlət dili Azərbaycan türklərinin dili və bütövlükdə Azərbaycan dilidir.

Milli ideologiyanın əsasında sosial ədalət prinsipi durmalı və bu prinsip özünü praktik həyatda, əməldə göstərməlidir. Ən böyük səhv ideologiyanın insanların əməli, praktik fəaliyyətindən, yaşayış və həyat tərzindən ayıraraq onu güya daha əhəmiyyətli məqsədbrə xidmət edən bir formada təqdim etməkdir.

İndi tez-tez işlədilən "milli ideologiya", "azərbaycançılıq ideologiyası", "dövlətçilik ideologiyası" kimi anlayışlar müəyyn məna çalarlarına baxmayaraq əslində eyni məzmun yükünü daşıyırlar. Bunu Azərbaycan - dövlət - millət triadasında görmək daha asandır. Çünki hər hansı bir əhali kütləsinin millət olması üçün onun özünə məxsus bazisi (ölkə), hansısa formada təşkilatlanması (dövlət) və ümumi mənəvi dəyərləri olmalıdır. Qorunan ərazisi, təşkilatlanmış idarəolunma forması və ümumi mənəvi dəyərləri olmayan etnosdan millət olmaz. Millət bütün daxili ziddiyyətlərə baxmayaraq, əhalinin müəyyən strateji məsələlərdə vahid birliyidir. Bu strateji məqsədlər isə ölkənin bütövlüyünü, onun ərazisinin qorunub saxlanılmasın və inkişafını təmin edən məsələlərdir. Şübhəsiz ki, bunlar ilk növbədə təsərrüfat həyatından: sənaye və kənd təsərrüfatından başlayır. Bu işin hansı formada və hansı istiqamətdə təşkili və gedişi isə lazimi investisiya qoyuluşu, maliyyə yardımı və digər xidmətlərlə bütövlükdə ümumdaxili məhsulun artımına xidmət edən işgüzarlıqla planlaşdırılmalı və həyata keçirilməlidir. Azərbaycanda sovet dövründən qalmış yararsız bir ənənəyə hələ də rast gəlinir. Çünki bu məlumatlann verildiyi obyektbrə aid əhalinin də bir hissəsində məlumatlar olur və onlar veribn hər bir yalruş məlumata qarşı çox sərt reaksiya verirbr. Nəticədə dövbtə və onun müxtəlif strukturlamun apardığı faydalı işlərə qarşı da müəyyən şübhə və inamsızlıq yaramr. Bu, bugünkü ictimai reallığın göstəricilərindən biridir.

Gərək ölkənin hər bir vatəndaşı müstəqil həyata başlarkən hər tərəfdə düzlük və qanunçuluq görsün ki, özünü yazıq, bədbəxt, kimsəsiz görməsin. 0, bilsin ki, onun arxasında dövlət və qanun güclü qüvvə var və bu qüvvəni heç kim əvəz edə bilməz, "Sosial dövlət" anlayışının mahiyyətində də məhz bu prinsip dayanır. Yəni dövlət hər bir vətəndaşın dövlətidir. Əslində vətəndaş cəmiyyəti də elə dövlətin apardığı sosial siyasət nəticəsində, yaxud dövlətin sosiallaşması nəticəsində yaranır.

Milli ideologiyanın nüvəsini isə dövlətin qəbul etdiyi və dövlətin müəyyən strukturlarının gündəlik fəaliyyətində rəhbər tutduğu Konstitusiya *və* müəyyən olunmuş hüquqların tanınması və qorunması təşkil edir. Peşəkarlıq, işgüzarlıq, qanunçuluq və s. keyfiyyətlər yüksək mənəviyyatla işləyən hər bir adamın işinin başlıca göstəriciləri kimi çıxış edir. Bunun üçün isə ilk növbədə cəmiyyətin idarə olunmasında, yuxarıda göstərilən prinsiplər həyata keçirilməlidir.

İndi ədalətlilik prinsipini cəmiyyətin təşkilinin əsas baza prinsipi kimi irəli sürənlər də var (Мурза,2014:60). Müasir cəmiyyətşünaslıqda xüsusi "ədalətlilik nəzəriyyəsi" adlanan nəzəriyyə də vardır və bu nəzəriyyənin əşas prinsiplərindən biri hüquqi şüurun inkişaf edərək əxlaqi şüurla birləşməsidir, yaxud əxlaqı şüura çevrilməsidir. Azərbaycan alimləri tərəfindən də bu problemə dair tədqiqatlar aparılmışdır. (Quliyev,2008:5) Hüquqi şüurun inkişaf edərək, formalaşaraq əxlaqi-mənəvi şüura çevrilməsi, onunla qovuşması isə cəmiyyətin əldə etdiyi ən böyük nailiyyətlərdən biri ola bilər. Çünki ümumiyyətlə sosial tərəqqinin subyekti fərdi varlıq olan insandır, buna görə də fərdin xarakteri sosial tərəqqiyə öz təsirini göstərməyə bilməz (Степин, 2016:10). Deməli, cəmiyyətin bütün mövcud təşkili sistemi elə qurulmalıdır ki, burada fərdin təbii və sonradan əldə etmiş olduğu sosial imkanları (biliyi, bacarığı və s.) reallaşa bilsin.

Elə məsələ də bundadır ki, əgər ideologiya gündəlik praktik bəyatdan, insanların həyati maraqlarından çıxış etmirsə və özünü gündəlik praktik həyatda təsdiqləyə bilmirsə, deməli bu ideologiya özünün funksiyasını yerinə yetirə bilmir.

Ölkəmizdə hazırda azərbaycançılıq ideologiyası və onun müsvət tərəflərindən çox danışırlar. "Azərbaycançılıq" ideologiyası özündə həm vətənpərvərliyi, həm pozitiv millətçiliyi, həm də dövlətçiliyi ehtiva edir. Lakin bu ideologiyanın hər bir Azərbaycan vətəndaşnın ruhuna və şüuruna çökməsi, onun şəxsiyyətinin və milli mənliyinin göstəricisinə çevrilməsi üçün Azərbaycanın təbii mənzərələrini tərifləmək kifayət deyil, onun sosial-mədəni mənzərəsini, ictimai mühitini iftixar olunacaq səviyyəyə qaldırmaq lazımdır. Adamlar öz zəhmətləri ilə rahat yaşaya bilməlidirbr. Belə ki cəmiyyət isə sosial ədalətin barqərar olduğu, hökm sürdüyü cəmiyyətdir və bu cəmiyyət hər bir sosial təbəqənin maraq və mənafelərini ifadə etməklə özünün mütərəqqi ideologiyasını yaradır.

Aparılan tədqiqat belə bir nəticəyə gəlməyə əsas verir ki, cəmiyyət tarixi özünün daxili məntiqindən, obyektiv gedişindən ibarət qanunauyğunluqlara tabedir. Bu qanunauyğunluqların yaranması, formalaşması və fəaliyyəti isə insanların özlərinin düşüncə və həyat tərzlərinin əsas və ümumi cəhətləri ilə müəyyənləşir. Xalqlar, cəmiyyətlər, ölkələr arasındakı fərqlərin mühüm səbəblərindən biri də elə bu qanunauyğunluqdur. Bu qanunauyğunluğun fəaliyyətini yüksəltmək və bu yolla cəmiyyətin dinamik inkişafını təmin etmək üçün bütövlükdə cəmiyyətə və onun vətəndaşlarına onların gündəlik həyatına müsbət təsir edə biləcək praktik əhəmiyyətə malik ideologiya lazımdır. İdeologiya siyasi məzmundan daha çox sosial məzmuna malik olmalıdır. Onun siyasi əhəmiyyəti sosial məzmunundan irəli gəlməlidir. Sosial məzmun ölkə vətəndaşlarının gündəlik həyatı, düşüncəsi, fəaliyyəti və bu fəaliyyətin şəxsi və ictimai faydalılığı ilə bağlıdır. Bilavasitə hansısa bir məhsulu istehsal edən və bu istehsala yardımçı olan hər hansı bir fəaliyyət növü fərdi və ictimai məzmuna malikdir, Xidmət sahəsi, onun məzmun və keyfiyyəti isə maddi istehsal sahəsinin genişlənməsi və real gəlirin artması ilə bağlıdır. Buna görə də, cəmiyyətin bütün təbəqələrinin maraq və mənafelərini ifadə edən vahid ideologiya olmahdır. Belə bir ideologiya cəmiyyətin bütün üzvlərini, bütün vətəndaşlarını əhatə etməli, birləşdirməlidir. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda ictimai və humanitar elm nümayəndələri, eləcə də siyasi xadimlər tərəfindən ideologiya və onun müxtəlif istiqamətlərinə aid xeyli diqqətəlayiq monoqrafiya və məqalələr yazılmış, araşdırmalar aparılmışdır.

Artıq qeyd edildiyi kimi, ideologiya üzvi vəhdətdə olan elə komponentləri birləşdirməlidir ki, bu komponentlər cəmiyyət üzvlərinin böyük əksəriyyətinin can atdığı, arzu etdiyi həyat və fəaliyyət tərzini özündə əks etdirə bilsin. Məhz buna görə ideologiya da konkret zaman və konkret məkan tələbindən çıxış etməlidir və belə bir ideologiyanı qurmaq üçün bizim "öz epistemologiyamızı" yaratmaq lazımdır, Burada digər bir sosial zaman və məkan üçün işlənilmiş olan hər hansı bir ideoloji konsepsiyanı yerli şəraitə uyğunlaşdırmağa cəhd etmək səyi heç də gözlənilən nəticəni verə bilməz. Çünki ideologiya da mövcud sosiomədəni şərait, onun məzmım və səviyyəsi ilə bağlı olan bir fenomendir.

Milli ideologiya ilk növbədə sosial ədalətə əsaslanmalıdır, Sosial ədalət prinsipi onun bünövrə daşı rolunu oynamalıdır. Cəmiyyətin sosiai strukturunu təşkil edən bütün qruplar öz həyat və fəaliyyətlərində hər bir sahədə sosial ədaləti görməli və bu sosial ədalətə xidmət etməlidirlər.

### İstifadə olunmuş ədəbiyyat

Şirinov A. Sosial fəlsəfə və sosial gerçəklik.Bakı: 2008

Князева Е. Спесифика социальной самоорганизация: рол субьективного фактора// Müasir fəlsəfə,elm və mədəniyyət: postqeyri-klassik epistomologiya. Bakı: 2011

Кара Мурза. Управление развитием. Пробудущего. //Свободная мысль, 2014, №12

Quliyev A.İctimai-siyasi fikirdə sosial ədalət ideyası.Bakı: 2008

Степин В.С. Выступление. //Куда идет российская культура? (Материалы «круглого стола») //Вопросы философии, 2016, №9

**Göyərçin Kərimi**
*Şair-yazıçı-publisist,*
*AYB-nin üzvü*

# QADIN VƏ KİŞİ PSİXOLOGİYASININ FƏRQLƏRİ BARƏDƏ

*"Qadın bilməyənə nəfs, bilənə nəfəsdir".*
**Şəms Təbrizi**

**Açar sözlər:** qadın, kişi, psixologiya, ideya, idrak, iradə, təzahür, limbik, kommutativ, subyekt

Bu mövzuya müraciət etməkdə niyyətimiz yazarların gerçək həyatda şahidi olduqları, yaxud olmadıqları hadisələrin bədii təsviri zamanı qarşı cinsin psixologiyasını mükəmməl bilmədikləri üzündən yaşadıqları çətinliklərin uyğun izahına çalışmaq, əks cinslərin oxşar və fərqli anatomiyasının psixologiyaya təsirinin düşüncə tərzilə mütənasib olub-olmadığının fəlsəfi təhlilinə cəhd etməkdir. Məqalə yalnız fizionomiya nöqteyi-nəzərindən əks cinsdən fərqlənən qadının bütün məsələlərdə kişidən geri qaldığını iddia edən neqativ fikirlərə, qadınlar haqqında formalaşan əsassız mülahizələrə münasibət bildirməyi, obrazların psixoloji cəhətdən düzgün ifadə olunması üçün bədii əsərin fantaziyaya nə dərəcədə güvənməli olması məsələsini qarşısında məqsəd qoyur. Öyrənmək istəyirik ki, qadın və kişi psixologiyası qarşılıqlı olaraq nə qədər başa düşüləndir və bu başa düşülənliyin təcrübəyə istinad edən hissəsi böyükdür, yoxsa ehtimala əsaslanan? Amalımız zərif cinsin nümayəndələri haqqında, hətta mütəfəkkirlər tərəfindən söylənilən mənfi fikirlərin məhz psixoloji anlaşılmazlıq üzündən baş verdiyinin doğruluq sərhəddini təyin etmək, qadının feminizmlə heç bir əlaqəsi olmayan düşüncə azadlığından bəhs etməkdir.

**Kişi və qadının anatomik fərqi**

Anatomiyadan bizə bəlli olan biliklərə istinadən onu söyləyə bilərik ki, kişi və qadının bədən quruluşu biri digərindən yetərincə fərqlənir; kişinin bütün daxili və xarici orqanları qadında olduğuna nisbətən həcmcə böyükdür, lakin bu böyüklüyün şüurla, düşüncə tərzilə düz mütənasib olduğunu qeyd etmək, əlbəttə ki, doğru olmaz. Əgər insanın yaradıcılıq qabiliyyəti beyninin həcmindən asılı olsaydı, onda o heç vəchlə öküzdən irəli keçmək imkanı qazana bilməzdi. Deməli kişilərin daha ağıllıolma səbəbi kimi beyin həcmini nəzərə almaq əsaslı mülahizə deyil.

Kişilərin qadınlardan əsas üstün lüyü ölçü vahidi vatt olan gücdür: N=1coul/t. Bioloji mənada cinsiyyət ayrılığını nəzərə almasaq, qalan bütün məsələlərdə onlar arasındakı fərqlilik nisbət əmsalları ilə ölçülür. Əgər kişinin ağciyəri qadının ağ ciyərinə nisbətən 50% həcm böyüklüyünə malikdırsə, bu heç də o demək deyildir ki, kişi qadından əlli il uzun ömür sürməlidir. Deməli daxili və xarici orqanların hər hansı quruluş müxtəlifliyi xüsusiyyət müxtəlifliyilə müşaiyət olunsa da, mahiyyət müxtəlifliyinə səbəb olmamalıdır.

Kişi və qadının əlli təməl fərqindən söz açan mütəxəssislər özləri də yaxşı bilirlər ki, [https://modern.az/az/news/10211] söylədikləri mütləq mənada deyil, çünki ayrı-ayrı şəxslərin timsalında deyilənlərin tam əksini müşahidə edirik. Daha əvvəl qeyd etdiyimiz kimi bu məsələdə də dəyişən nisbətdir. Əgər kişinin bədənində 4,5, qadında 3,6 litr qan varsa, bu, qadının kişidən insan kimi fərqli olması demək deyil. İstənilən xarakterik cəhəti araşdıranda onun bütünlüklə kişiyə, ya qadına məxsus olması haqqında yekun nəticəyə gəlmək müşgül məsələdir.

Yuxarıda sadalananlara onu da əlavə etmək yerinə düşər ki, uzun-uzadı heyvan beyni ilə insan beyninin oxşar və qeyri-oxşar quruluşundan söhbət açan mütəxəssislər heyvanda düşünmə qabiliyyətinin olmaması səbəbini, yaxud insan beyni ilə heyvan beyni arasındakı fərqi hələ də öyrənə bilməyiblər. İnsanı heyvandan fərqləndirən əsas cəhətlərdən biri yaddaş həcmi, digəri nitqin olmasıdır, lakin onu da nəzərə almaq lazımdır ki, doğulan gündən heyvanlar arasına atılmış uşağın danışa bilmə ehtimalı bizim üçün hələlik sual altındadır.

Beynin fərqli anatomik quruluşu fərqli psixologiyanın yaranmasına vasitə olsa da, düşüncə

tərzinə təsir göstərmir. Düşüncə qadın təbiətlidir, qavradığını doğur. Düşüncə azaddır, onun yolunu ancaq düşünən insanın müvafiq xəstəliyi, yaxud ölümü bağlaya bilər. Görünür, böyük Azərbaycan şairi M. Ə. Sabir elə bu mənada yazırdı: "...Qabili-imkanmı olur qanmamaq?" [Sabir,1954:108]

Kişinin qadından üstünlük dərəcəsi kimi neyron sayını əsas götürmək cəhdimiz də yanlışdır, çünki düzənlik filində [https://ru.wikipedia.org/wiki/Список_животных_по_количеству_нейронов] insana nisbətən 168 milyard artıq neyron var.

Deməli heç bir xüsusiyyətini nəzərə alıb qadınla kişini qəti şəkildə bir-birindən fərqləndirmək mümkün deyil, qadın yeganə cəhəti – dünyaya uşaq gətirmək qabiliyyətilə kişidən seçilir və o da məlumdur ki, dünyanı – hər kəsi, hər nəyi dərk edən [A. Шопенгауер, http:/az.lib.ru/s/shopengauer_a/text_0040.shtml] idrak özünü dərk etməkdə acizdir:

"Təxəyyül, xəyala, zövqə görədir,
İdrak özünə də sirrdir həmişə". [Kərimi, 2018: 23]

Əgər idrak özünü dərk edə bilmirsə, onda şüurun hansı cinsdə necə olmağı barədə bir mənalı şəkildə fikir yürütmək cəhdimiz qəbul edilən olmamalıdır. Çünki hamı dünyaya inkişaf etməmiş beyinlə doğulur və sonrakı mərhələ toxumun hansı torpaqda daha məhsuldar ola biləcəyinə oxşar olaraq beyindaxili və beyinxarici proseslərdən asılıdır. Araşdırmaların nəticəsi kimi onu söyləmək olar ki, kamil beyin kişi və qadın beyninin quruluş və xüsusiyyətlərini özündə birləşdirir. Əgər kişi və qadın beyninin üst-üstə düşən quruluşunu «A», üst-üstə düşməyən formasını «B» və «C» ilə işarə etsək, onda ümumi düstur belə olmalıdır: Kamil beyin = [A+B+C], eynən yunan mifalogiyasında deyildiyi kimi: "İnsanlar nə vaxtsa ikicinsli olmuşlar və [https://qafqazinfo.az/news/detail/usagim-ne-qizdir-ne-de-oglan-hermafroditzm-26558] bu səbəbdən qadınla kişi həmişə öz yarısını axtarır". Bu düstur riyaziyyatda toplamanın kommutativliyidir, yəni toplananların yerini dəyişməklə cəm dəyişmir.

Limbik sistemin görünüşcə kimdə necə olmasından asılı olmayaraq o, hamıda eyni funksiyanı yerinə yetirir, fərq, artıq qeyd etdiyimiz kimi, qadının zəif, kişinin güclü təbiətindən irəli gələn xarakterik cəhətlərdədir. Kobud bir müqayisə aparaq. Eyni növdən olan kartof eyni sahədə, lap bir-birinin yanında, amma müxtəlif formalarda – böyük, kiçik, uzunsov, oval və s. yetişir, keyfiyyət isə sabit olaraq qalır. Qida məhsulu kimi bizim üçün mühüm olan, əlbəttə, görünüş yox, keyfiyyətdir. Deməli düşüncə məsələsində də belədir: əsas olan quruluş yox, imkan dərəcəsidir. Təcrübə yolu ilə bizə o da məlumdur ki, kişi elmin, yaxud həyatın müəyyən sahələrində müvəffəqiyyət əldə edirsə, qadın kişinin müvəffəq ola bilmədiyi sahələrdə üstünlüyə imza atır.

5. Artur Şopenhauerin "Dünya haqqında təsəvvür kimi" kitabına istinadən söyləmək olar ki, "idrak ilkin olaraq öz mahiyyətinə görə bütünlüklə iradənin xidmətindədir..." [Əsədov,2011:159] Bu o deməkdir ki, şüur istənilən varlığa ona görə verilib ki, ehtiyaclarını ödəməyə vasitə olsun. İnsan üçün öz mahiyyətini dəyişdirməyən idrak iradənin, başqa sözlə, arzuların xidmətində dayanır və ilkin idrak səviyyəsində kişilərin daha ağıllı olması onların beyin quruluşundan irəli gələn xarakterik cəhətləri, daşıdıqları statusa görədir, lakin iradəyə xidmət etməyən idrak hər iki tərəfdə eynidir, yəni cinslər arasında psixoloji anlaşılmazlıq yaranmır, dərkolunmazlıq idrakın iradəyə xidmət səviyyəsində, yəni Platonun "həmişə yarananlar və məhv olanlar" [Əsədov,2011:154] dünyasında baş verir.

Əgər insanın bütün üstün cəhətləri, dünyanı dərk etməsi, dünyadan kənara çıxması, hansısa böyük elmi kəşfə imza atması düşüncənin məhsuludursa, onda iradəni ideyadan, ideyanı təzahürdən fərqləndirməyi bacaran subyekt üçün dərrakə nöqteyi-nəzərindən qadın, kişi məfhumu yoxdur.

**Əks cinslərin psixoloji fərqləri haqqında**

Qadın və kişi psixologiyası bir-birindən yetərincə fərqlənir, hətta o qədər fərqlənir ki, tərəflər müəyyən şəraitlərdə bir-birinin hansı addımı atacağını təxmin etməkdə çətinlik çəkirlər. Müəyyən hadisələrə mütabiq olaraq kişilərin qadınlar, qadınların kişilər haqqında söylədikləri fikirlərin əsas hissəsi həmişə ehtimaldan asılı olur, baxmayaraq ki, bu ehtimalların həqiqət olma ehtimalı da az deyil.

Psixologiya elmi nə qədər qadın və kişi psixologiyasının üst-üstə düşən, düşməyən cəhətlərindən bəhs etsə də, həmişə gizlində, yəni söhbət açmayacağı, yaxud aça bilməyəcəyi nəsə qalır. İnsanın müvafiq hadisəyə adekvat reaksiyasının necə olacağı öz həmcinsi tərəfindən daha

düzgün müəyyən edilir. Məsələn, kişi cavabın eyni olacağını dərk etmədən eyni üsulla intim münasibətdə olmaq istədiyi əks cinsin nümayəndəsinə illərlə əziyyət edə bilər, lakin cavabın kafi olmasından ötrü özünü, yaxud mühiti dəyişdirməyin zəruriliyini, təzyiq etməkdən çəkinməyin vacibliyini nəzərə almaz və ona elə gələr ki, qadına zor tətbiq etməklə istəyinə qovuşacaq. Əlbəttə, zor tətbiq etməklə nəinki istənilən varlığa, hətta şəhərə, ölkəyə də sahib çıxmaq mümkündür, lakin bu o demək deyildir ki, təcavüzə uğrayan tərəf həmişə taleyilə barışacaq, hətta barışsa belə, ruhən rahatlıq tapmayana qədər əks mövqeyini nümayiş etdirməklə yanaşı ölçüyəgəlməyən mənəvi ağrı da yaşayacaq.

Qarşıya qoyulmuş hansısa tapşırığın həlli üçün kişi və qadın beyinlərinin müxtəlif hissələrindən istifadə etsələr belə, müvəffəq olmaq mənada nəticə dəyişməz olaraq qalmalıdır. Aşağıdakı linkə istinad etsək, qadınla kişinin fərqli xüsusiyyətindən bəhs edən növbəti fikir belədir: əgər yolun üzərində top varsa, kişi ona təpiklə zərbə endirəcək, qadın isə ən yaxşı halda onu əlinə götürəcək və ya sinəsinə sıxacaq. Şəxsən mən özüm ağlım söz kəsəndən indiki yaşıma qədər yolumun üstündə nə vaxt top görürəmsə, özümü qapıya zərbə endirən futbolçu kimi aparmaqdan çəkinmirəm və [Əsədov, 2011] heç vaxt onu əlimə götürmək ağlımdan keçmir.

Fransız yazıçısı Jean Grangenin qadın haqqında söylədiyi fikrə nəzər salaq: “Qadın heç getməyəcəkmiş kimi sevər, amma, yeri gələr, heç sevməmiş kimi gedər”. Yazıçı qadınlar haqqında ona görə belə düşünür ki, sevgilisi qadın olub, lakin bu xüsusiyyət qadınlara aid olduğu qədər də kişilərə aiddir, ümumiyyətlə, insana aiddir. Çünki məhəbbətin cinsi olmur, o, hamıda eyni şəkildə təzahür edir. Fikrimizin təkrar təsdiqi kimi belə söyləmək olar: istənilən hadisə iki tərəflidir və irəli getməyə sərf olunan enerji geri qayıtmaq üçün lazım olan enerjiyə bərabərdir. Bu mənada bütün proseslər istiqamətini dəyişməyə, yaxud öz əvvəlinə qayıtmağa tədricən müvəffəq olursa, sevgini tədricən, düşünülmüş şəkildə nifrətə çevirmək imkan daxilində deyil, hər nə baş verəcəksə, əsasən, bir anda baş verir. Necə ki, hər hansı hündürlükdən itələnən kütlə yerə tədricən düşmür, buna oxşar olaraq sevgi də bir göz qırpımında heç olmamış kimi özünün əksinə yönəlir.

“Bir zamanlar kişinin üstün olduğuna inanırdım, sonra evləndim, həyat yoldaşım bu inancımı məhv elədi” – deyə səslənən amerikalı aktyor Cak Lemmon haqlı olaraq qadınlara qarşı pozitiv münasibətdədir.

Bəzi filosofların qadınlar haqqında neqativ fikirlərinə gəlincə isə onları qınamaq da olar, qınamamaq da. Ona görə qınamaq olmaz ki, dahilər uzağa baxırlar və insanlarda dəyər verdikləri yeganə cəhət zəkaüstü düşüncə tərzidir, lakin eyni fikri bütün qadınlara şamil etməklə, onlar da qınaq obyektinə çevrilirlər. Məgər bütün kişilər eyni ağıldadır? Nəzərdən qaçırmayaq ki, Platon dövlət qoruyucularının güclü və zəif kişilərdənsə, güclü kişi [http://qadinkimi.com/az/platon-feministdir-yoxsa-qadin-dusmeni ] və güclü qadından ibarət olmasının tərəfdarı idi.

Diqqətə cəlb olunası daha bir nüans klassik alman fəlsəfəsinin nümayəndəsi sayılan Georq Vilhelm Fridrix Hegelin qadınlara olan nifrətidir. Oxucunun diqqətini yuxarıda istifadə olunan linkə yönəltməklə, filosofun əks cinsin nümayəndələri haqqında söylədiyi bəzi fikirləri ön plana gətirək: “Qadınla, kişinin fərqi heyvanla bitki arasındakı fərq kimidir: heyvan kişinin, bitki qadının xarakterinə uyğundur... Əgər qadın dövlət başındadırsa, həmin dövlət təhlükə altındadır. Çünki qadınlar bütövün tələblərinə deyil, təsadüfi meyllərə, yaxud rəylərə uyğun hərəkət edirlər. Bilgi qadınlara naməlum yollardan – təhsildən daha çox həyatdan gəlir. Kişilər isə öz mövqelərini, sadəcə, qazanılmış düşüncə və texniki əziyyətlə əldə edirlər”.

Ola bilsin ki, hörmətli Hegel öz fikirlərində qadının zəif təbiətindən irəli gələn “qüsurlar”ı nəzərdə tutur, lakin bu o demək deyil ki, qadın dövlət idarə edə bilməz və yaxud onlar öz bilgilərini təhsildən yox, naməlum yollarla əldə edirlər.

Bu yaxınlarda yazıçı Seyran Səxavətin bir yazısını oxudum. O, qeyd edirdi ki, cümlə qurmaq [12] dövlət qurmaq qədər çətindir. Əgər qadın cümlə qurmağı bacarırsa, niyə dövləti idarə edə bilməsin? Hətta mənə, mənim subyektiv fikrimə görə, cümlə qurmaq işi daha çətindir.

Hegelin fikirlərilə başlanan özümlə mübahisəyə son qoymazdan əvvəl onun arvadı haqqında deyilən bir neçə cümləyə nəzər salaq: “Özünün məşhur səyahətindən Berlinə zəfərlə qayıdan, uğurlu çıxışları ilə, hansı ki, qadınlar arasında daha çox səs-küyə səbəb olan Aleksandr fon Humbolt universtetdə silsiləvi mühazirələr deyirdi. Hətta yeri kilsə, uşaqlarının yanı və mətbəx (alman

konformistlərinin tanınmış üçlüyü:
“K” – Kirche, Kinder, Kuche ) sayılan Hegelin arvadı da ərinin ciddi narazılığına baxmayaraq həmin mühazirələrdə iştirak edirdi”. Göründüyü kimi, həmişə əri ilə qürur duyan Hegelin xanımı mənəvi ehtiyacını təmin etmək məqsədilə Humboltu dinləyirmiş.

Ətrafında, cəmiyyətdə minlərlə alkoqolizm istifadəçisi olduqları üçün şüuru korşalmış, əyyaş, avara kişiləri görməzlikdən gələn Hegel, görünür, bir nəfər də olsa, obyektiv düşüncəli qadına rast gəlməyib.

Fikrimizə görə qadın həm öz dövrünün, həm də dünyaya uşaq gətirdiyi üçün gələcəyin daşıyıcısıdır. Təhlilin bu yerində aşağıdakı misralara nəzər salmaq yerinə düşər:

“Qadın fərəh deyil, ləzzət umula,
Qadın kədər deyil, hər kəs unuda.
Qadın çiçək deyil, açıb-yumula,
Dahi olmasa da, müdrikdir o da”. [Kərimi, 2018: 28]

Mövzumuzun məqsədilə natamam uyğunluq təşkil etdiyi səbəbindən sonuncu misranı təhlil etməyə çalışsaq, dahiliyin sirləri barədə də bir neçə kəlmə söyləməyə məcburuq. Dahilər kimdir? Uzun-uzadı izahata ehiyac yoxdur, lakin bu günə qədər deyilən fikirlərə bir cümlə əlavə etməklə, mövqeyimizin möhkəmliyinə əminlik yaratmaq fikrindəyik: dahi o kəsdir ki, dahi olmağın sərhədlərini tanıyır, yəni heç kimin fikrini sormadan əsərlərilə tanış olduğu müəllifin dahi olub-olmaması barədə təkbaşına qərar verir. Sonuncu cümlə bizə belə söyləməyə imkan yaradır ki, dahiliklə zərif cins arasında tərs mütənasib əlaqə yoxdur; qadınlar da dahi ola, öz fərdiliklərini yox edə bilərlər və mümkün olduqca edirlər də.

İspan yazıçısı Migel de Servantes qadınları zərif şüşəyə bənzədir və tövsiyə edir ki, [https://azadqadin.az/munasibetler/mudrikkelamlar/43109-qadinlar-dahilerin-gzu-ile.html] onun möhkəmliyini sınamağa cəhd etməsinlər, çünki hər an sına bilər. Məlumdur ki, ancaq sevməyi bacaran insan başqaları haqqında belə qayğı ilə danışa bilər.

**Psixoloji anlaşılmazlığın bədii ədəbiyyata təsiri**

Beləliklə, qismən də olsa, əks cinslərin oxşar və fərqli anatomiyasının psixologiyaya təsirinin düşüncə tərzilə mütənasib olub-olmadığının fəlsəfi təhlilinə çalışdıq. İndi isə yazarların gerçək həyatda şahidi olduqları, yaxud olmadıqları hadisələrin bədii təsviri zamanı qarşı cinsin psixologiyasına mükəmməl bələd olmamaları üzündən yaşadıqları çətinliklərin müəyyən təzahürünə nəzər salaq.

Misal üçün bəzi köməkçi sualların əhatəsində dahi rus yazıçısı L. N. Tolstoyun dünya şöhrətli “Anna Karenina” əsərinə müraciət edək. Anna Kareninanın intihar etməsinə səbəb nə idi? O nəyə və hansı neqativ qüvvənin təsirinə görə özünü qatarın altına atdı? Yazıçının qələmə aldığı kimi, Vronskinin soyuq münasibətimi onu bu addımı atmağa vadar etdi? Məgər Anna Vronskinin sevgisindən əmin deyildi, yaxud o bilmirdi ki, artıq bu sevgi ana ilə qızı arasında paylaşılıb?

Anna Karenina düşündüklərini bu sözlərlə ifadə edir: “O, məni sevir, ancaq necə? The zest is gone – Zövqü korşalmışdır. – Bəli, artıq o məndən əvəllər aldığı zövqü almır. Əgər mən ondan ayrılsam o, ürəyinin [Tolstoy,1981:.400] dərinliklərində sevinəcəkdir”. Əlbəttə, Annanı intihar etməyə cəlb edən səbəb söylədiyi bu cümlələrin əhatə dairəsinə aid olan həyati proseslər yox, daha ciddi olmalıdır. Ərz etsək ki, o, böyük məhəbbətin yüksəkliklərindən ailə, məişət qayğılarına düzgün eniş etməyi bacarmayıb, yalan olar. O, bu işi Vronski ilə birlikdə yaşamağa qərar verdiyi gündən ustalıqla yerinə yeirmişdi. Karenina özünü Vronskinin soyuq davranışına görə, əlbəttə, öldürməli deyildi, çünki soyuqluğun sosial durumla, ictimaiyyətlə səciyyələnən o qədər üzürlü tərəfləri var ki... İntiharın isə bir yolu, daha doğrusu, yolun sonu var. Mövcud şəraitdə bütün əməllərilə mühafizəkarlığa, kübar cəmiyyətin qaydalarına qarşı çıxan Anna Kareninanı yolun sonuna gətirən səbəb Vronskinin xəyanət etdiyini, ondan ayrılacağını, atılacağını dərk etmək təhlükəsi və buna bənzər özgə amil olmalı idi. Görünür, Tolstoy ərini, oğlunu tərk etdiyi üçün Annanı günahlandırmadığı kimi Vronckinin xəyanətini də təbii sanmışdır. Lakin bu əsərdə intiharın səbəbdən asılı olmayan nəticə kimi qələmə alınması, çox güman ki, yazıçının mürəkkəb qadın psixologiyasını

bilməməsi üzündən yox, əksinə, daha yaxşı bələd olması səbəbindəndir ki, Tolstoy Annanı öldürməklə qadın haqlarının pozulmasına qarşı üsyançı mövqeyini nümayiş etdirmişdir.

Bədii ədəbiyyatda hadisələr, ya həyatdan götürülür, ya da məqsədə, ideyanın ötürülməsinə müvafiq olaraq uydurulur və bəzən uydurmalar iki cinsin bir-birinin psixologiyasını yaxşı bilməməsi üzündən əsərdə ayrı-ayrı səhnələrin süniləşməsinə gətirib çıxarır. Elə buna görə də Lev Tolstoy: "Mənim qəhrəmanlarım öz istəyimlə [Tolstoy,1981:15] deyil, real həyatın qaydaları ilə yaşamalıdırlar"– deyə səslənəndə özünün əfsanəvi yazıçı təcrübəsinə istinad edirdi və demək istəyirdi ki, psixoloji anlaşılmazlıq baş verməsin deyə hadisələr gerçək həyatdan götürülməlidir. Doğrudur, gerçək həyatdan götürülməlidir, lakin nəzərə almaq lazımdır ki, eyni hadisənin müxtəlif şəraitlərdə təsviri həmişə eyni əks-səda doğurmur və bu mənada səbəb ilə nəticə arasındakı əlaqə zəifləyir.

Heç kimə sirr olmayan bir məsələ var. Aralarında baş tutan intim münasibətdən sonra kişilərin yaxınlıq etdiyi qadınla müaşiqə həvəsi get-gedə zəifləyir, qadınlarda isə bunun əksi baş verir. Eyni xüsusiyyəti eyni qayda ilə bütün kişi və qadınlara şamil etmək caiz olmasa da, əkəriyyət üçün belədir və bu bir daha onu göstərir ki, qadınla kişi psixologiyası istənilən hadisəyə münasibət zamanı bir-birindən fərqlənir.

Bu hadisəni iç tərəfdən öyrənməyə cəhd etsək, görərik ki, insan üçün əldə etmək istədiyi nə varsa, əldə olunandan sonra əvvəlki dəyərində qalmır və düşünən varlığın əsl mahiyyətini məqsədlə məqsədəçatma nöqtələri arasındakı məsafə təşkil edir. Bu xüsisiyyət intim münasibətdən savayı, hər iki cinsin nümayəndələri üçün eynidir. Intim münasibətdən sonra baş verən fərqlilik isə bu məsələdə kişilərin əsas tərəf kimi çıxış etmələrilə bağlıdır. Belə ki, toxumun torpaqsız qalma ehtimalı torpağın toxumsuz qalma ehtimalından dəfələrlə azdır.

Özünə əl qaldırma, ayrılıq kimi fəsadlar da bəzən psixoloji anlaşılmazlıqlar səbəbindən baş verir və çox dəhşətli hadisə olduğuna görə, intiharla bağlı bir mənalı qərarımız həmişə öz hökmündə qalır: "Intiharda qazanc olmasa əgər, boşuna ölməyin nə mənası var?" [Kərimi, 2018: 91]

Məsələnin ümumi mənzərəsini belə ifadə etmək olar: "Qadınlara irad tutula biləcək xüsisiyyətlərin sayı qədər də kişilərin ittiham olunma cəhətləri var, düzgün qərar diqqəti hadisənin təzahürünə yox, səbəbinə doğru yönəltmək bacarığından asılıdır". Necə ki, insan bilicisi, şair-yazıçı-filosof Şəms Təbrizi deyir: "Qadın bilməyənə nəfs, bilənə nəfəs kimidir".

**Nəticə**

Məqalə kişinin qadından fizionomik cəhətdən güclü, güclü olduğu üçün də azad olması məsələsini nəzərdən keçirir. Böyük səs çoxluğu ilə hər kəsin qəbul edəcəyi bir məsələ var: qadınları həmişə idarə edirlər. Doğrudur, qadınlar idarə olunur, lakin bu o demək deyildir ki, onlar özləri idarə etmə qabiliyyətindən məhrumdur? Bəs uşaqları kim idarə edir? Uşaqları idarə və tərbiyə təməl hadisəsi olduğundan daha məsuliyyətli iş hesab olunmurmu? Qadınlardan ağıllı hesab olunan kişilərin də ilk tərbiyəçiləri qadınlar olub. Əlbəttə, əks cinsin qadından daha ağıllı hesab olunmasında həqiqət var və bu artıq qeyd etdiyimiz kimi kişinin güclü olduğu üçün ailə başçısı olmasında, daha çox cavabdehlik yükü daşımasındadır. Ağıl iradəyə, arzuların gerçəkləşməsinə, məqsədin həyata keçirilməsinə xidmət edən idrak olduğuna görə, o, uyğun olaraq kişilərdə daha yaxşı inkişaf edir, daha doğrusu, inkişaf etməyə "məcbur" edilir. Axı bütün ağır işlərin, çətin məsələlərin həllində bilavasitə kişilər iştirak etməli olurlar. Deməli hər hansı məqsədin gerçəkləşməsinə, müəyyən hadisənin təfərrüatına varmağa artıqlaması ilə çalışan idrak, o idrak ki, hələlik iradənin xidmətində dayanıb, söz yox ki, həmin sahədə kamilləşir.

Kiçik bir müqayisə aparaq. Tutaq ki, yola bələd olan və olmayan iki nəfər mənzilbaşına gedir. Bələd olmayan həmsöhbətinə arxayın olduğundan xüsusi cəhd göstərməsə, yolu yadında saxlamayacaq. Hər hansı nabələd yolçunun yolu yadda saxlaması üçün arzu olunan məkana soruşub öyrənə-öyrənə yetişməsi tələb olunur.

Elə bu səbəbdən də kişilər bələdçi olduqları bütün sahələrdə qadınları təbii olaraq özlərindən ağılsız görürlər.

Əks cinsə nisbətən qadının təbiətən zəif yaradılması onun tez yorulmasına, yuxusuz qala bilməməsinə və s. səbəb olduğundan güc sərf olunan bütün məsələlərdə qadınlar kişilərdən az iş görürlər, lakin düşüncə mexanizmi hamıda eynidir.

Qadın obrazları yaradan kişi yazarlar da, yaxud əksinə, tələb olunan xüsusiyyətləri yaxşı bilmədikləri üçün fantaziyanı köməyə çağırırlar, lakin mövzunun aktuallığı naminə mövzu həyatdan götürülməlidir.

Qadınların barəsində mənfi fikirlər söyləyən tanınmışlara gəlincə isə onlar, görünür, daha çox öz şəxsi təcrübələrinə istinad ediblər. Ayrı-ayrı qadının özünə məxsus cəhətlərini bütün qadınlara şamil etmək nə dərəcədə doğrudur? Axı bu kimi ümumiləşdirmə ancaq daxili orqanların öyrənilməsi məsələsində işə yarayır.

Məqalənin yaratdığı ümumi mənzərə ondan ibarətdir ki, kişi ilə qadın arasında güc müxtəlifliyi olsa da, düşüncə fərqi yoxdur.

**İstifadə edilmiş ədəbiyyat:**


https://modern.az/az/news/10211#
Sabir M.Ə.Hophopnamə. Bakı, 1954
https://ru.wikipedia.org/wiki/Список_животных_по_количеству_нейронов
A. Шопенгауер, "Мир как воля и представления",
http:/az.lib.ru/s/shopengauer_a/text_0040.shtml
Kərimi G. Dünya iradə və təsəvvür kimi. Bakı, 2018
https://qafqazinfo.az/news/detail/usagim-ne-qizdir-ne-de-oglan-hermafroditzm-26558
Əsədov A.Dünya iradə və təsəvvür kimi. Bakı,2011
https://banker.az/kisi-v%C9%99-qadin-beyni-arasindaki-%C9%99sas-f%C9%99rql%C9%99r/
https://azadqadin.az/munasibetler/mudrikkelamlar/43109-qadinlar-dahilerin-gzu-ile.html
http://qadinkimi.com/az/platon-feministdir-yoxsa-qadin-dusmeni/https://kirpi.info/news/2327/span-style-colorff173d-font-weightbold-filosoflar-qadinlara-qarsi-span
И. С. Андреева, А. В. Гулыга, "Шопенгауэр", Москва-2003
L.N.Tolstoy, "Anna Karenina", Bakı-1981
http://azpress.az/index.php?lang=az&sectionid=news&id=71694

**Həlimə Qafarova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*elmi işçi*
*helime.qafarova@mail.ru*

## MİLLİ TƏHLÜKƏSİZLİYİN MƏNƏVİ TƏRƏFLƏRİ

**Açar sözlər:** milli təhlükəsizlik, daxili təhdid, xarici təhdid, insan, cəmiyyət, mənəvi dəyər

Milli təhlükəsizlik anlayışına insanın, cəmiyyətin və dövlətin daxili və xarici təhdidlərdən qorunmasını təmin edən inteqral anlayış kimi yanaşmaq olar. İnsan təhlükəsizliyinin əsas komponentləri kimi iqtisadi təhlükəsizlik, ictimai təhlükəsizlik, siyasi təhlükəsizlik, ekoloji təhlükəsizlik, qida təhlükəsizliyi, sağlamlıq təhlükəsizliyi, fərdi təhlükəsizlik nəzərdə tutulur. Ümumiyyətlə, cəmiyyətin müasir inkişaf mərhələsində şəxsin, cəmiyyətin və dövlətin təhlükəsizliyi məsələsinin mənəvi tərəfini əsasən mövcud siyasətin vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına nə dərəcədə töhfə verməsi ilə bağlıdır. Həyat keyfiyyətinin müəyyənləşdirilməsi səhiyyə, yaşayış, təhsil, iş şəraiti, məşğulluq vəziyyəti, istirahət və əyləncə kimi aspektləri əhatə edir. Təhlükəsizliyin mənəvi tərəfi dedikdə, mədəni və mənəvi irsin, tarixi ənənələrin və ictimai həyat normalarının qorunması, əhalinin mənəvi-əxlaqi tərbiyəsi sahəsində dövlət siyasətinin formalaşdırılması nəzərdə tutulur.

Yuxarıda deyilənlərdən də aydın olduğu kimi milli təhlükəsizlik insanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli mühüm maraqlarının, həmçinin milli dəyərlərin və həyat tərzinin daxili və xarici təhdidlərdən etibarlı müdafiəsidir. Bir-birinə zidd maraqların toqquşması əvvəl potensial, sonra isə real təhdidlər yaradır. Təbii ki, maraqların üst-üstə düşən və paralellik təşkil edən digər növləri də olur. Bunlar isə öz məzmununa görə müsbət münasibətlərin formalaşmasına şərait yaradır, qarşılıqlı anlaşmaya nail olmaq üçün baza rolunu oynayır. Milli maraq və milli təhlükəsizliyin təmin edilməsi birbaşa daxili və xarici maraqların düzgün müəyyənləşdirilməsi və təmin olunması mexanizmlərinin yaradılmasından asılıdır. Bu sabit və davamlı inkişafda strateji əhəmiyyət daşıyır, ictimai həyatın bütün sahələrini əhatə edən dinamik dəyişikliklər prosesinə mühüm təsir göstərir.

İnsanların mədəni və mənəvi irsinin qorunması və inkişafı üçün vacib olan şərtlərdən biri də yaradıcı fəaliyyətlərin həyata keçirilməsi və mədəniyyət qurumlarının fəaliyyət göstərməsi üçün sosial-iqtisadi şəraitin yaradılmasıdır. Belə görünür ki, fərdin və cəmiyyətin mənəvi inkişafı üçün əsas məsuliyyət dövlətə aiddir. İmmanuel Kantın sözlərilə desək, "Yaxşı dövlət quruculuguna nail olmağın yaxsı mənəviyyatla deyil, əksinə xalqın yaxşı mənəvi tərbiyəsinin dövlətlə bağlı olmasını ummaq lazımdır " (İ.Kant,2007: 881).

Müasir dünyada iqtisadi inkişafın təmin edilməsinin əsasən iki yolu müəyyən edilmişdir. Bir tərəfdən milli innovasiya sisteminin inkişafı, digər tərəfdən insan kapitalına investisiya qoyuluşu. İstehsalın demək olar ki, bütün sahələrində yüksək əmək intensivliyi insanı həqiqi mənəvi sahədə yeni biliklər və həqiqi dəyərlər axtarmaq istəyini reallaşdırmaq üçün lazım olan enerji yükündən məhrum edir. Müasir insan əsasən maddi zənginlik əldə etməyə çalışır. Maddi rifah məqsədlərinə nail olmaq insan həyatının əsas mənasına çevrildiyindən mənəvi və maddi prinsiplərin ahəngdar birləşməsi və qarşılıqlı əlaqəsinin pozulmasına səbəb olur. Kreativ yaradıcılıq təməllərindən məhrum olan bir insan tədricən ictimai reallığı yaradıcı şəkildə dəyişdirməyə son qoyur, mənəvi cəhətdən pisləşir və sonda cəmiyyətlə qarşılıqlı əlaqədə bir dəyərli subyekt kimi çıxış etmək qabiliyyətini itirir. Öz növbəsində nəticədə cəmiyyət də bu vəziyyətdə ziyan çəkir, çünki təbiətdə mütərəqqi dəyişikliklər gətirməyə qadir olan, cəmiyyətin və dövlətin keyfiyyətcə yeni bir dövlətə çevrilməsinə kömək edə bilən bənzərsiz bir yaradıcısını itirir. Eyni zamanda intellektual və mənəvi cəhətdən qabiliyyəti olmayan fərd və ya qurum cəmiyyətin inkişaf potensialını sarsıdır.

Qeyd etmək lazımdır ki, cəmiyyətdə inamsızlıq faktoru da digər neqativ xüsusiyyətlər arasında insanların təhlükəsizliyini təmin etməyə yönəlmiş birgə fəaliyyətləri sarsıdan arzuolunmaz bir haldır. Məlum olduğu kimi insan hüquq və azadlıqlarının müdafiəsi ilə məşğul olan təşkilatların məqsədi vətəndaşların müxtəlif müasir təhdidlərdən qorumaq üçün tədbirlərin həyata keçirilməsinə imkan verən prosedurları təbliğ etmək və dəstəkləməkdır (Kuznetsov, 2003:53). Bu da müəyyən mənada vətəndaşın milli təhlükəsizliyin əsl subyekti kimi tanınmasına mənəvi dəstək vermiş olur.

E. Giddens cəmiyyətin təhlükəsizliyi ilə bağlı iki anlayışı təqdim edir: əsas təhlükəsizlik sistemi və ontoloji təhlükəsizlik. Əsas təhlükəsizlik sistemi sosial sistemin davamlı bərpasını təmin etmək üçün tipik münasibətlərdir. E. Giddensin "ontoloji təhlükəsizlik" anlayışının tətbiqi xüsusi diqqətə layiqdir, çünki istifadəsi bir insanın qorunmasını təmin etmək baxımından təhlükəsizlik anlayışına yönəlmişdir (Giddens,2005:18). Öz növbəsində, bir insanın ontoloji təhlükəsizliyi bir insanın öz orijinallığına inam duyğusunu ifadə edir. Təsadüfi deyil ki, bir çox filosoflar təhlükəsizlik ehtiyaclarını ekzistensial tələblərlə sinonim hesab edirlər, çünki bunların ümumbəşəri bir məqsədi (gələcəyə inam, yaşayış şəraitinin sabitliyi, ətrafdakı cəmiyyətin müəyyənliyi və müntəzəmliyi) vardır.

Yuxarıda göstərilənlərə əsaslanaraq, "milli təhlükəsizlik" kateqoriyasının fərdi və ümuminin qovuşuğunda yer tutan elementlərə aid edildiyini iddia etmək olar. Buraya şəxs və dövlət arasındakı münasibətlər sahəsinin ontoloji, antropoloji, ekzistensial və fenomenoloji əsasları daxildir.

Azərbaycanın regional və milli təhlükəsizliyi probleminin bəzi aspektləri, o cümlədən, hazırki regional vəziyyəti, milli təhlükəsizliyin özünümüdafiə və müttəfiqlik prinsiplərinin uzlaşdırılması üzərində qurulması strategiyasını aktuallaşdırır (Xəlilov, 2001:46). Ölkəmizdə vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılmasını nəzərdə tutan davamlı inkişaf konsepsiyası ciddi elmi və siyasi yükə malikdir. Bu baxımdan Azərbaycan Respublikasının sabit inkişafı və təhlükəsizliyi problemlərinin bəzi aspektləri yerli müəlliflər tərəfində tədqiqata cəlb edilib.Tədqiqatçı alimlərdən A. Piriyevin "Siyasi strategiya və milli təhlükəsizlik" adlı monoqrafiyasında daha çox dünya dövlətlərinin siyasi strategiyasının əsas istiqamətləri və milli təhlükəsizlik problemləri araşdırılır (Piriyev, 2005). İ. Rzayevin Azərbaycanın iqtisadi təhlükəsizliyinin xarici iqtisadi əsaslarına dair əsərində isə beynəlxalq iqtisadi əlaqələrin inkişaf meylləri öyrənilir və bu meyllərin fonunda ölkənin iqtisadi təhlükəsizliyinə yaranan əsas təhdidlərin müəyyənləşdirilməsinə cəhd edilir (Рзаев, 2006).

Məlum olduğu kimi, tarixən Azərbaycan ərazisi hesab olunan Qarabağı sahiblənmək arzusunda olan Ermənistan dövləti neçə illərdir ərazi bütövlüyümüzü pozmuşdur. Məsələnin sulh yolu ilə həlli üçün bir çox beynəlxalq təşkilat və qurumlar müxtəlif qərarlar qəbul etsə də, bu qərarların effektiv şəkildə yerinə yetirilə bilmədiyinə görə problem öz həllini tapmamışdır. Nəhayət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması barədə sərt mövqeyini qoymuşdur. Göründüyü kimi milli təhlükəsizlik tədbirlərinin mənəvi tərəfi dövlətin bütövlüyünün təminatına yönəlik ali məqsədli fəaliyyətlə təmin olunur. Nəticə etibarı ilə təhlil əsasında "milli təhlükəsizlik" anlayışının sosial-fəlsəfi mahiyyətinin cəmiyyətin mənəvi və mədəni dəyərlərini, xalqın tarixi məkanını və adət-ənənələrini qorumağa göstərdiyi diqqətlə əlaqəli olduğunu iddia etmək olar.

**Ədəbiyyat siyahısı**

**Piriyev A.** Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, BDU nəşriyyatı, 2005.

**Xəlilov S.** Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008.Xəlilov Səlahəddin. Lider. Dövlət. Cəmiyyət. Bakı, "Azərbaycan Universiteti", 2001, 358 s.

**Рзаев И.Б.** Внешнеэкономические аспекты национальной безопасности Азербайджана. Автореф. дисс. на соискание уч.степ. к.э.н., М., 2006.

**Кант И.** Критика чистого разума / (Пер. с нем.; предисл. И. Евлампиева). — М.: Эксмо; СПб.:Мидгард, 2007. — 1120 с.

**Кузнецов В.** О социологическом преодолении фундаментального противоречия между свободой человека и его безопасностью // Безопасность Евразии. 2003. № 2. - С. 51.

**Гидденс Э.** Устроение общества: Очерк теории структурации. 2-е изд.- М.: Академический Проект, 2005. - С. 18 - 19.

**Telli Cabbarova**
*Gəncə Dövlət Universitetinin doktorantı*
*ziyacabbarli@mail.ru*

# EMOSİONAL İNTELLEKTİN İNKİŞAFINDA TƏHSİLİN ROLU

***Açar sözlər:*** koqnitiv, emosional, özünüdərk prosesi, fərd, obyekt, subyekt, şəxsiyyət.

Emosional intellekt (Eİ) təhsilin inkişafında rolu böyükdür. Bu, təhsil sahəsində aparılan onlarla eksperimentlərin nəticəsində təsdiq olunmuşdur. Təhsilin inkişafına Eİ təsiri ilə bağlı eksperimentlərdən bir neçəsini göstərə bilərik:

- 2004-2005-ci illərdə müxtəlif ixtisaslardan olan 6186 Samsun Universiteti tələbəsi arasında MEIS metodu əsasında Eİ ölçülməsi ilə əlaqədar aparılan araşdırmalarda məlum olmuşdur ki, tələbələrin sosial bacarıqları, tədris fəallıqları ilə Eİ arasında müsbət əlaqə mövcuddur (Demet, 2014: 27).
- Villiford elmi qabiliyyət ilə Eİ arasında əlaqəni müəyyənləşdirmək üçün, 500 nəfər 11-ci sinif şagirdi arasında Bar-On Eİ meyarı əsasında araşdırma aparmış və müəyyən etmişdir ki, elmi qabiliyyət ilə Eİ bir-biri ilə pozitiv əlaqədədir (Williford, 2000: 1156).
- Voitaşevski və Aalsma 16-17 yaşarası şagirdlərin tədrisdə əldə etdikləri bacarıqlarında Eİ təsirini müəyyənləşdirərək belə nəticəyə gəlmişlər ki, Eİ onların bilik və sosial qabiliyyətlərinin inkişafında mühüm rol oynayır (Woitaszewski, 2004: 28).
- 2001-ci ildə Corso Qərb Kentucky Universitetinin yay məktəbi proqramında yeniyetmələr (12-16 yaşarası) arasındakı Eİ və qabiliyyət əlaqəsini müəyyənləşdirmək üçün, ədəbiyyat və riyaziyyat bacarıqları olan və olmayan qruplar arasında müqayisəli araşdırma aparmış və belə bir nəticəyə gəlmişdir ki, bacarıqlı qruplarda olan yeniyetmələrin Eİ səviyyəsi digərlərindən üstündür. Deməli, Eİ təhsilin keyfiyyətinin artmasına birbaşa təsir edir. Çünki Eİ koqnitiv resursların fəaliyyətə keçməsini və inkişafını təmin edir (Corso 2001: www).
- 2002-ci ildə Reiff və digər tədqiqatçılar Eİ ilə dərketmə çətinliyi arasında əlaqəni araşdırmış və müəyyən etmişlər ki, dərketmə problemləri olan tələbələrin Eİ meyarlarının (adaptasiya və sosial bacarıq) ölçüləri çox aşağıdır (Reiff, 2001: 70).

Bu və ya digər onlarla belə eksperimentlər təsdiq edir ki, Eİ ilə təhsil bir-biri ilə üzvi şəkildə bağlıdırlar. Araşdırmalar göstərir ki, Eİ səviyyəsinin şagirdlərin dərketmə və koqnitiv funksiyaları birbaşa bağlılığı vardır. Ancaq bu o demək deyildir ki, İQ yüksək olan fərdlərin Eİ səviyyəsi də yüksəkdir. Xeyr, belə deyildir. İQ yüksək olan fərdlərin EQ yüksək ola da bilər, olmaya da bilər. Çünki Eİ ilə EQ çox vaxt bir-biri ilə əlaqədar olmur. Lakin, tədqiqatlar göstərir ki, Eİ səviyyəsi yüksək olanların dərketmə və koqnitiv funksiyaları yüksək olur. Bunu necə başa düşmək olar?

Əvvəlki yarımfəsillərdə bəhs etdiyimiz kimi, İQ dərketmə və koqnitiv funksiyalarda çox kiçik bir yer tutur. İQ - Gardnerin 7 intellekt növündən biri kimi qiymətləndirilir. Lakin, tədqiqatlar göstərir ki, Gardnerin 7 intellektinə çıxış nöqtəsi Eİ inkişafından keçir. Yəni, Eİ inkişafı bütün intellekt növlərinin inkişafını potensial şəkildə təmin edir. Təbii ki, sonrakı mərhələ, bu potensiallardan hansının daha çox inkişaf etdirilməsi ilə bağlıdır. İQ səviyyəsi Eİ ilə paralel şəkildə inkişaf etdirildikdə, kreativlik imkanları daha da genişlənir. İQ səviyyəsi Eİ inkişafından təcrid olunduqda, o, yalnız, süni intellekt kimi bilik toplamaq və onu istifadə etmək mexanizminə çevrilir. Lakin, bu biliklərdən yeni bir bilik istehsal etmək qabiliyyəti, Eİ inkişafı ilə bağlıdır. Əslində, bilik toplamaq və ondan istifadə etmək funksiyasını yerinə yetirən yaddaş aparatı da Eİ inkişafına sıx bağlıdır (əvvəlki yarımfəsillərdə bu barədə bəhs etdik). 2000-ci ildə Ciarroçi, Çan və Caputi tərəfindən Eİ ilə İQ arasında əlaqənin müəyyənləşdirilməsi istiqamətində aparılan araşdırma da dediklərimizi təsdiq edir. Araşdırmanın nəticəsi göstərmişdir ki, Eİ ilə İQ arasında əlaqə əhəmiyyətli deyildir (Ciarrochi 2000: 540, www). Bu baxımdan, təhsil sahəsində Eİ tədqiq olunması və onun inkişafı məsələlərinin müəyyənləşdirilməsi xüsusi əhəmiyyət daşıyır.

Biz əvvəlki yarımfəsillərdə emosiyaların diqqət, qavrayış, təfəkkür və yaddaşa müsbət təsirlərindən bəhs etdik. Araşdırmalar göstərir ki, fərd Eİ qabiliyyətlərini tədricən mənimsəmək iqtidarındadır (Shapiro, 2017: 68). Bu sahədə təhsil müəssisələrinin rolu böyükdür. Araşdırmalar göstərir ki, zəif oxuyan şagird və ya tələbələrin əksəriyyətində Eİ səviyyəsi aşağıdır. Bunun səbəbi nədir?

Beyində cərəyan edən neyrofizioloji funksiyaların fəaliyyətinin tədqiqi göstərir ki, beynə daxildən və kənardan gələn siqnallar beynin sol yarımkürəsində məntiq qisminə daxil olmadan öncə beynin sağ qismində olan emosional sahəyə daxil olur və orada ilk öncə dəyərləndirilir. Bunu, neqativ emosional durumlarda (affekt və depressiya halları, ümidsizlik, qəzəb, qorxu) düşünmək qabiliyyətinin zəifləməsi də təsdiq edir. Çünki daxildən və xaricdən gələn siqnallar beynin affekt halında və depressiya vəziyyətində olan emosional qisminə (limbik sistem-amigdala) daxil olanda bloklanır, beynin koqnitiv qisminə transferi məhdudlaşır və fərdin öz diqqətini bir istiqamətə yönəltməsi, nəyisə xatırlaması problemləri yaşanır (Morris, 2002: 135). Təbii ki, belə bir durumda şagirdin və ya tələbənin diqqətini və təfəkkürünü tədrisə cəlb etmək mümkün deyildir. Çünki onun beyninin emosional qismi koqnitiv funksiyaların fəaliyyətini iflic vəziyyətinə salır. Bunun əksi olaraq, yaxşı koqnitiv göstəricilərə malik olan şagird və ya tələbələrdə pozitiv emosiyalar (sevgi, şəfqət, özünəinam) daha çox üstünlük təşkil edir (Goleman, 2011, 98). Deməli, təhsildə yüksək keyfiyyətlər əldə etməyin birinci şərti, şagird və tələbələrin emosional durumlarının pozitiv olmasının təmin olunmasından keçir.

Eİ inkişafı, sosiallaşma prosesi və pozitiv psixoloji xüsusiyyətlərin inkişafı ilə əlaqədardır. Sosiallaşan, pozitiv psixoloji xüsusiyyətlərə malik olan şagird və tələbələr hərtərəfli şəkildə fəal olurlar. Bu özünü, aparılan araşdırmalar da təsdiq edir. 1990-cı ildə Riggio və digər tədqiqatçılar 121 lisey şagirdinin Eİ meyarları (sosial bacarıq, sosial qayğı, özünəhörmət və tənhalıq) əsasında araşdırma aparmış və nəticəyə gəlmişlər ki, sosial bacarıqlar ilə özünəhörmət pozitiv, sosial qayğı ilə tənhalıq neqativ əlaqədədirlər (Riggio, 1986: 651).

Sosiallaşan şagird və ya tələbələrdə diqqət və qavrama bacarıqları güclü olur. Çünki onun diqqəti və qavrama imkanları sosiallaşma prosesində inkişaf edir. Bu, onun emosional inkişafını təmin etməklə yanaşı, onun intellektual potensialını da artırır. Bu cür insanlarda empatiya duyğusu və digərlərinin qayğısına qalma istəyi daha yüksək olur (Köksal, 2003: 19).

Asosial şagird və ya tələbələrdə diqqət və qavrama bacarıqları zəif olur. Çünki onun diqqəti və qavrama imkanları asosiallaşma ilə bağlı olan daxili problemləri çərçivəsindən uzaqlaşa bilmir və pozitiv emosional inkişafdan məhrum olur. Bu proseslər intellektual inkişafı məhdudlaşdıran neqativ emosiyalara yol açır, xarici mühitə qapalılıq, onun özünəinam, empatiya hissinin zəifləməsinə səbəb olur (Goleman, 2011: 169). Bu cür insanlar, özlərini sərbəst şəkildə ifadə edə bilmir və ətrafdıkaların diqqətini özünə cəlb etmək üçün, bəzən anormal əməllərə əl atırlar. Məsələn, son dövrdə dünyada gənclər tərəfindən qeydə alınan dəhşətli selfi görüntüləri buna misal ola bilər.

Eİ insanda özünəgüvən, maraq, ünsiyyətcillik, əməkdaşlıq etmək, empatiya, məqsədyönlülük, motivasiya kimi sosial qabiliyyətlərini inkişaf etdirir. Bu isə, liderlik qabiliyyətlərinin üzə çıxmasına və güclənməsinə şərait yaradır. Liderlik güclü motivasiya deməkdir. Deməli, Eİ motivasiya ilə sıx bağlıdır (əvvəlki yarımfəsillərdə bundan bəhs etdik). Motivasiya isə, təhsildə mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, təhsildə motivasiya səviyyəsinin yüksəldilməsi, Eİ inkişaf etdirilməsindən keçir. Çünki Eİ inkişaf edən şagird və ya tələbələr özlərini sərbəst şəkildə ifadə edə bilir və ətrafdıkaların diqqətini özünə yönəldə bilirlər. Eİ yaddaş və diqqəti, qavrayış və düşünmə qabiliyyətini gücləndirdiyini nəzərə alsaq, onun təlim və tərbiyə prosesində nə qədər əhəmiyyətli olduğunu göstərə bilərik.

Təhsil sistemi uşaqların Eİ səviyyəsini yüksəltmək iqtidarındadır. Lakin, bunun üçün, təlim və tərbiyə prosesi yalnız zehni deyil, emosional, sosial, əxlaqi, psixoloji inkişaf və tərbiyə məsələlərini nəzərə almalıdır. Bu, təhsil sistemində müəllim-tələbə münasibətlərinin, təhsil mühitinin yenilənməsindən başlayaraq, cəmiyyətdə bir çox sosial-iqtisadi və sosial-psixoloji problemlərin həllindən keçən kompleks bir məsələdir.

2003-cü ildə Türkiyədə 86 məktəb müəllimi və 344 şagird arasında, onların sosial bacarıqlarına və Eİ səviyyələrinə təsir edən amillər araşdırılmış və belə bir nəticə əldə olunmuşdur ki, bəzi şərtlərə (yaş, cinsiyyət, elmi və vəzifə statusu, dövlət və ya özəl məktəbdə işləmələrinə) baxmayaraq, müəllimlərin sosial bacarıqları və Eİ səviyyələrində dəyişiklik olmamış, şagirdlərdə isə, müvafiq şərtlərə (yaş, cinsiyyət, dövlət və ya özəl məktəbdə oxumaları, ailə tərbiyəsi, sosial-iqtisadi durumuna) görə sosial bacarıqları və Eİ səviyyələri fərqli olmuşdur (sinif dəyişməsinə görə fərqlilik olmamışdır). Araşdırmalar göstərmişdir ki, şagirdlərin sosial bacarıqları və Eİ səviyyələrinə ən çox təsir edən ailə, sonra müəllim və digər amillərdir (dost, məktəb, internet, televiziya, kitab, sosial elmlər) (Kara, 2006: 25).

Tədris müəssisələrində pozitiv emosional mühitin yaradılması ilə yanaşı, təhsilin Eİ inkişafına yönəlik sistemə malik olması zəruridir. Yəni, təlim-tərbiyə prosesində uşaqların yalnız koqnitiv bacarıqları deyil, həm də pozitiv emosional inkişafları dəyərləndirilməlidir. Yalnız bu harmonik mühitdə təhsilin əsas məqsədi olan şəxsiyyətin formalaşdırılması prosesi öz strateji məqsədinə çata bilər.

Tədris müəssisələrində təhsil alan şagird və ya tələbələr arasında Eİ səviyyəsi müxtəlif olduğu, onlar fərqli ailələrdə, fərqli sosial-iqtisadi, sosial-mədəni şərtlərdə, fərqli tərbiyə metodları ilə böyüdükləri və gənclərdə münaqişə həlli qabiliyyətləri zəif inkişaf etdiyi üçün, onlar arasında münaqişələrin meydana çıxması təbiidir. Bunun qarşısını almaq üçün, məktəblərdə onlara münaqişə həlli emosional qabiliyyətlərini inkişaf etdirmək lazımdır. Buna nail olmağın yolu, məktəbdə uşaqlara öz emosiyalarını sərbəst ifadə etmək üçün, münbit psixoloji mühit yaradılmalıdır. Bu mühit şagirdin özünəinamını artırmalı, ona fərqli düşüncə və emosiyalarına hörmətlə yanaşılması barədə əminlik yaratmalı, kollektivin ona pozitiv mövqedə olmasına inanmalıdır. Bu mühiti sinifdə və ya auditoiyada təmin edən əsas şəxs müəllimdir. Təbii ki, təhsilin idarəolunması və əlverişli təhsil mühitinin formalaşması sahəsində mühüm rol oynayan şəxslərə həmçinin təhsil menecerləri aiddir. Buna görə də, biz, ayrı-ayrılıqda müəllimlər, şagird və tələbələrin EQ əmsalının hansı durumda olmasını müəyyənləşdirməliyik.

Dünyanın müxtəlif ölkələrində təhsilin idarəolunması sahəsində çalışan şəxslərin Eİ səviyyəsi araşdırılır. Çünki bu şəxslər təhsilin inkişafında mühüm rola malikdirlər. Eİ sahəsində aparılan tədqiqatlar göstərir ki, liderlik və idarəetmə qabiliyyətinə malik olan şəxslər arasında EQ yüksəkdir.

Təhsildə Eİ inkişafı məsələləri ilk növbədə müəllimlərdən asılıdır. Çünki ailədə valideynlər uşaqlar üçün gözəl bir nümunə olduqları kimi, məktəblərdə də müəllimlər Eİ baxımından şagirdlərə gözəl bir model ola bilərlər. Müəllimlər tədris prosesində şagird və ya tələbələrlə empatiya qura bilmədikdə, onların motivasiyalarının aşağı düşməsinə və dərsə maraqlarının azalmasına səbəb olurlar. Onlar, şagirdlərə tənqidi və despotik deyil, tolerantlıqla və sevgi ilə yanaşmalıdırlar. Bu yanaşma, müəllim və şagird arasında qarşılıqlı anlaşmanı gücləndirir və münbit tədris mühitinin formalaşmasına təkan verir. Bu mühit, şagirdin potensialının üzə çıxmasına və Eİ inkişafına təkan verir. Bu aparılan eksperimentlərlə təsdiq olunmuşdur.

Eİ meyarları əsasında müəllimlərin EQ əmsalları istiqamətində fərqli araşdırmalar aparılmışdır. Onlardan bir neçəsini nümunə olaraq təqdim edirik:

- 2011-ci ildə Türkiyədə yeni fəaiyyətə başlayan gənc müəllimlərin Eİ, problem həlletmə, elmi uğur parametrlərinin müəyyənləşdirilməsi istiqamətində araşdırılma aparılmış və məlum olmuşdur ki, gənc müəllimlərin Eİ səviyyəsi yüksəkdir (Tıkır, 2005: 33).
- Türkiyədə 45 ibtidai məktəb müdürü və 909 ibtidai sinif müəllimi arasında tədris prosesində və təhsilin idarə olunması sahəsində Eİ göstəriciləri istiqamətində aparılan araşdırmalarda məlum olmuşdur ki, onların EQ əmsallarının ümumi göstəriciləri orta səviyyədən yuxarıdır (Balcı, 2001: 44).
- 2008-ci ildə 242 müəllimin Eİ səviyyəsi ilə etik mühakimə bacarıqları arasında əlaqənin müəyyənləşdirilməsi ilə bağlı anket metodları (demoqafik məlumatlar, Richmondun etik qərarvermə anketi və Eİ) əsasında araşdırma aparılmış və məlum olmuşdur ki, müəllimin Eİ səviyyəsi ilə etik mühakimə bacarıqları arasında əlaqə mövcuddur və bu əlaqə demoqrafik fərqlilik baxımından ciddi fərq etmir (Doğan, 2009: 128).

- 2005-ci ildə Türkiyədə 38 ibtidai məktəb müdürlərinin və 254 məktəb müəlliminin Eİ anketi (özünüdərk, özünüidarə, sosial səriştə, ünsiyyət) əsasında liderlik davranışları ilə Eİ arasında əlaqəsi araşdırılmış və məlum olmuşdur ki, onların liderlik davranışları ilə Eİ səviyyələri arasında müsbət əlaqələr yüksəkdir (Tıkır, 2005: 20).
- 2008-ci ildə Türkiyədə 200 müəllimin Eİ ilə ünsiyyət bacarıqları Bar-On Eİ meyarı əsasında araşdırılmış və məlum olmuşdur ki, müəllimlərin Eİ ilə ünsiyyət bacarıqları arasında müsbət əlaqə vardır (Gürşimşek, 2008: 80).
- Sosial elmlər sahəsində çalışan müəllim heyətinin texniki elmlər sahəsində alışan müəllim heyətindən Eİ baxımından daha çox inkişaf etdiyi müəyyən olunmuşdur (Ersanlı, 2003: 222). Eynilə, sosial elmlər sahəsində təhsil alan tələbələrin, texniki fənlər (xüsusilə, kompüter mühəndisliyi) sahəsində təhsil alan tələbələrdən Eİ səviyyəsinin xeyli yüksək olduğu da təsdiq olunmuşdur (Göçet, 2006: 26).
- 2008-ci ildə Türkiyədə 424 sinif rəhbəri və 41 məktəb psixoloqu arasında Eİ səviyyəsinin dəyişik şərtlərə (yaş, cinsiyyət, işlədikləri yer və statuslarına) görə parametrləri araşdırılmış və məlum olmuşdur ki, onları ümumi EQ əmsalı və Eİ meyarları (özünütanıma, empatiya, emosiyaları idarəetmə, motivasiya, sosial vərdişlər) orta səviyyədə və bu səviyyəyə dəyişik şərtlərin təsiri yox dərəcəsindədir (Köroğlu, 2006: 56).

Müəllimlərin və təhsil menecerlərinin Eİ səviyyəsinin müəyyənləşdirilməsi istiqamətində aparılan araşdırmalar göstərir ki, dəyişik şərtlərə (yaş, cinsiyyət, işlədikləri yer və statuslarına) baxmayaraq, onların ümumi Eİ səviyyələri normal və ya normadan artıqdır. Xüsusilə, sosial elmlər sahəsində çalışan müəllimlərin Eİ səviyyəsi digrlərindən daha yüksəkdir. Bu ümumi göstəricidir. Təbii ki, fərdi səviyyədə Eİ səviyyəsi aşağı olan pedaqoqlarının da sayı az deyildir. Lakin, pedaqoqların Eİ səviyyəsi normal olsa da, tədris prosesinin və metodlarının Eİ baxımından yüksək olması əsas məsələdir. Bu, şagird və tələbələrin Eİ səviyyəsinin inkişafında özünü biruzə verir.

Şagird və tələbələrin Eİ baxımından inkişafının müəyyənləşdirilməsi istiqamətində bir çox araşdırmalar aparılmışdır. Onlardan bir neçəsini göstərmək olar:

- 2005-ci ildə Türkiyədə incəsənət sahəsində çalışan müəllim və tələbə heyətində Eİ ilə yaradıcılıq prosesi arasında əlaqənin olduğu araşdırma nəticəsində müşahidə olunmuşdur. 360 rəssam-tələbə arasında aparılan araşdırma göstərmişdir ki, onların yaradıcılıqları ilə Eİ arasında sıx əlaqə mövcuddur və Eİ artdıqca yaradıcılıq potensialı da inkişaf edir (Bender, 2006: 33).
- 2005-ci ildə Türkiyədə universitet tələbələrinin Eİ qabiliyyətləri ilə həyat məmnuniyyəti arasında əlaqənin müəyyənləşdirilməsi ilə bağlı araşdırma aparılmış və məlum olmuşdur ki, tələbələrin Eİ səviyyəsi cinsiyyət və sinif dəyişməsi ilə dəyişməmiş, lakin, həyat məmnuniyyəti cinsiyyət və sinif dəyişməsi ilə dəyişmişdir (Deniz, 2004: 50).
- 2005-2006-cı illərdə Türkiyədə MEIS metodu əsasında 316 universitet tələbəsinin Eİ qabiliyyətləri və ona təsir edən amillər araşdırılmış və məlum olmuşdur ki, tələbələrin EQ əmsalı ortadır və onların Eİ inkişafına universitet mühiti mühüm təsir göstərir (Ünsar, 2006: 58).
- 2003-cü ildə Türkiyədə DMSS və MEIS metodları əsasında 384 ibtidai sinif şagirdlərinin Eİ səviyyələri ilə qərarvermə qabiliyyətləri arasında əlaqə araşdırılmış və məlum olmuşdur ki, Eİ səviyyəsi qız şagirdlərdə oğlanlara nisbətən yüksəkdir, Eİ ilə məntiqi qərarvermə arasında pozitiv əlaqə vardır və iradəsiz qərarvermə ilə Eİ arasında pozitiv əlaqə yoxdur (Köksal, 2003: 45).

Aparılan onlarla araşdırmalar göstərir ki, Eİ inkişafı, tələbə və şagirdlərdə oxumağa və öyrənməyə marağı artırır, motivasiya yaradır, müsbət psixoloji hal formalaşdırır, məntiqi qərarvermə qabiliyyətini inkişaf etdirir, yaradıcılıq inkanlarını artırır. Onlarda Eİ inkişafında məktəb və universitet mühitinin də mühüm rolu vardır. Bu mühiti formalaşdıran amillərin başında pedaqoqlar gəlir. Lakin, ənənəvi tədris metodlarında Eİ nəzərdə tutulmur. Buna görə, Eİ inkişafı istiqamtində yeni tədris proqramlarının işlənib hazırlanmasına və inkişaf etdirilməsinə ehtiyac vardır.

**Nəticə**. Təhsil sahəsində Eİ inkişafı məsələsində mövcud durumu və perspektivləri aşağıdakı kimi səciyyələndirmək olar:

- Müəllimlər dəyişik şərtlərdən (yaş, cinsiyyət, işlədikləri yer və statuslarına) asılı olmayaraq, normal və ya normadan artıq Eİ səviyyəsinə malik olurlar. Xüsusilə, sosial elmlər sahəsində çalışan müəllimlərin ümumi Eİ səviyyəsi digərlərindən daha yüksəkdir.
- Eİ inkişafı, tələbə və şagirdlərdə oxumağa və öyrənməyə marağı artırır, motivasiya yaradır, müsbət psixoloji hal formalaşdırır, məntiqi qərarvermə qabiliyyətini inkişaf etdirir, yaradıcılıq inkanlarını artırır. Bu baxımdan, təhsildə Eİ inkişafı mühümdür.
- Tələbə və şagirdlərdə Eİ inkişafında məktəb və universitet mühitinin mühüm rolu vardır. Bu mühiti formalaşdıran müəllim heyətinin özünün Eİ səviyyəsinin mütəmadi şəkildə inkişaf etdirilməsi və tədrisin bu istiqamətdə (ənənəvi tədris metodlarının, tədris proqramlarının, dərsliklərin və metodiki vəsaitlərin) təkmilləşməsi zəruridir.
- Eİ inkişafı ilə bağlı proqramların effektli olduğu təsdiq olunur. Bu proqramların xüsusilə təlim və tərbiyə proseslərində, təhsil sistemində, dərsliklərin və metodik vəsaitlərin hazırlanmasında, təhsil idarəetməsi sahəsində, pedaqoqların davranışlarında tətbiqi mühüm əhəmiyyət kəsb edir.
- Eİ inkişafı ilə bağlı proqramların gənclərin ali təhsil müəssisələrinə daxil olmaq üçün verdikləri qəbul imtahanlarında nəzərə alınması və burada pozitiv emosiyaların mövcud olduğu mühiti yaratmaq vacibdir. Çünki bu pozitiv emosional mühit abituryentlərin bilik və bacarıqlarının daha yüksək səviyyədə ortaya çıxmasına, öz emosiyalarını uğurla idarə etmələrinə şərait yaradır. Əksinə, gərgin emosional mühit, onların özünəinam hissinin azalmasına, yaddaşlarının zəifləməsinə və ümumiyyətlə, koqnitiv fəaliyyətlərinin məhdudlaşmasına səbəb olur.
- Pedaqoqlar təhsil sahəsində inkişafı təmin etmək üçün, tədris prosesində Eİ inkişafı istiqamətində bir neçə şərtlərə əməl etməlidirlər. Onlar, Gardnerin 7 növ intellekt nəzəriyyəsindən çıxış edərək, auditoriyada şagird və tələbələrin müxtəlif intellekt növlərinə bərabər şəkildə önəm verməli, sərbəst özünüifadə mühiti yaratmalıdırlar. Bu mühit şagirdin özünəinamını artırmalı, ona fərqli düşüncə və emosiyalarına hörmətlə yanaşılması barədə əminlik yaratmalı, kollektivin ona pozitiv mövqedə olmasına inanmalıdır. Bu metod, şagird və tələbələrdə həm Eİ, həm İQ, həm də ümumi intellekt səviyyəsinin inkişafına səbəb olacaq, onların bir şəxsiyyət kimi formalaşmasına təkan verəcək və nəticədə təlim-tərbiyə prosesi öz məqsədinə çatacaqdır.
- Eİ inkişafı, təhsilin keyfiyyətini və koqnitiv funksiyaları artırmaqla yanaşı, tələbə və şagirdlərin gizli pozitiv potensiallarının açılmasına və yaradıcılıq inkanlarının genişlənməsinə şərait yaradır.
- Eİ inkişafı, məktəb və universitetlərdə intizamın təmin olunmasına və sosial-psixoloji problemlərin azalmasına səbəb olur.

**Ədəbiyyat**


- Balcı İ. İlköğretim okulu yöneticilerinin duygusal zeka becerilerini kullanabilme düzeyleri konusunda yöneticilerin ve öğretmenlerin görüşleri. Hacettepe Üniversitesi, Ankara 2001. 147 səh.
- Bender M.T. Resim iş eğitimi öğrencilerinde duygusal zeka ve yaratıcılık ilişkileri. Dokuz Eylül Üniversitesi Eğitim Bilimleri Enstitüsü, İzmir 2006. 165 səh.
- Ciarrochi, J.; Chan, A.Y.C.; Caputi, P. A Critical Evaluation of the Emotional Intelligence Construct. Personality and Individual Differences, 28 (2000), s. 539-561. http://josephciarrochi.com/wp-content/uploads/2011/08/2000.pdf
- Goleman, D. Duygusal Zeka Neden IQ'dan Daha Önemlidir? Çeviren: Banu S.Yüksel, İstanbul: Varlık/Bilim Yayınları, 2011, 263 səh.
- Corso, S. M. (2001). Emotional Intelligence in Adolescents, How It Relates to Giftedness. Unpublished Master‟s Thesis www.mhs.com.

- Demet Duman, Rengin Acaroğlu. Hemşirelik yüksekokulu birinci sınıf öğrencilerinin duygusal zekâ düzeyleri ile empati becerileri arasındaki ilişki. F.N. Hem. Dergisi 2014, c 22, sayı I: s. 25-32.
- Deniz E., Yılmaz E. Üniversite Öğrencilerinin Duygusal Zeka Yetenekleri ve Yaşam Doyumları Arasındaki İlişkisi. XIII. Ulusal Eğitim Bilimleri Kurultayı, 6-9 Temmuz 2004 İnönü Üniversitesi Eğitim Fakültesi, Malatya 2004. s. 45-52.
- Doğan Kılıç E., Önen Ö. Öğretmen adaylarının duygusal zekâ düzeyleri ve etik muhakeme yetenekleri. Uluslararası İnsan Bilimleri Dergisi 2009, 6 (1), s. 123-163.
- Ersanlı K., Kalkan M. Evlilik ilişkisini geliştirme programının evli çiftlerin evlilik ilişkilerini değerlendirmelerine etkisi. Psikiyatri Psikoloji Psikofarmakoloji Dergisi 2003, 11 (3): s. 219-226.
- Göçet E. Üniversite öğrencilerinin duygusal zekâ düzeyleri ile stresle başa çıkma tutumları arasındaki ilişki. Sakarya Üniversitesi, Sosyal Bilimler Enstitüsü 2006. 176 səh.
- Gürşimşek I., Ekinci Vural D., Selçioğlu Demirsöz. E. Öğretmen adaylarının duygusal zekâları ile iletişim becerileri arasındaki ilişki. Mehmet Akif Ersoy Üniversitesi Eğitim Fakültesi Dergisi 2008, 8 (16), s. 1-11.
- Kara E. İlköğretim sekizinci sınıf fen bilgisi dersinde büyüme ve gelişme konusunda öğrencilerin başarıları, kavramaları ve tutumları üzerine çoklu zekâ modelinin etkisi. Gazi Üniversitesi, Ankara 2006. 144 səh.
- Köksal A. Ergenlerde duygusal zeka ve karar verme stratejileri arasındaki ilişki. İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü 2003. 162 səh.
- Köroğlu Semiz G. Sınıf rehber öğretmenlerinin algılarına göre psikolojik danışmanların duygusal zeka düzeyleri. Ankara Üniversitesi, Eğitim Bilimleri Enstitüsü, Ankara 2006. 165 səh.
- Morris Elizabeth. Emotional Literacy Training for Educators. Gifted Education International 2002, vol 16, n-2, s. 133-137.
- Reiff H. B., Hatzes N. M., Bramel M. H., Gibbon T. The relation of learning disabilities and gender with emotional intelligence in collage students. Journal of Learning Disabilities, 34, January-February 2001, vol 1, s. 66-78.
- Riggio R. E. Assesment of basic social skills. Journal of personality and Social Psychology 1986, s. 649-660.
- Shapiro L. E. Yüksek EQ’lu Bir Çocuk Yetiştirmek. Çeviren: Ümran Kartal. İstanbul: 2017, s. 288.
- Tıkır N. İlköğretim okulu müdürlerinin öğretimsel liderlik davranışıyla duygusal zekaları arasındaki ilişkinin incelenmesi. Gaziantep Üniversitesi, Sosyal Bilimler Enstitüsü, 2005. 154 səh.
- Ünsar S., Fındık Y., Sadırlı K., Erol Ö., Ünsar S. Edirne Sağlık Yüksekokulu öğrencilerinin duygusal zeka düzeyleri. Bilim Eğitim Ve Düşünce Dergisi 2006, 9 (1). S. 55-67.
- Williford H. Emotional ıntelligence and academic achıevement. Procedia Social and Behavioral Sciences 2000, Vol. 2 (2), s. 1154-1157.
- Woitaszewski S. A., Aalsma M. C. The Contribution of Emotional Intelligence to the Social and Academic Success of Gifted Adolescents as Meaasured by the Multifactor Emotional Intelligence Skale-Adoscent Version. Rooper Review 2004. Vol. 27, s. 25-30.

**Aydan Dadaşova**
*BDU-nun dissertantı*
*aydan.dadasova93@mail.ru*

# GLOBAL GENDER BƏRABƏRSİZLİYİ İNDEKSİNİN STATİSTİK TƏHLİLİ

**Açar sözlər:** *gender asimmetriyası, gender rolları, indeks, dövlət, statistika.*

Gender asimmetriyası - cinslərin sosial və mədəni rollarının (həmçinin, onlar barədə stereotiplərin) ictimai həyatın müxtəlif sahələrində (siyasi qurumlar, hüquq orqanları, elm və təhsil sektoru, mədəniyyət sahəsi, dil, əmək fəaliyyəti və s.) qeyri-mütənasib şəkildə təmsil olunmasıdır. Gender asimmetriyasında həm sosial, həm də mülkiyyət bərabərsizliyi mövcuddur. Sosial bərabərsizlik sosial təbəqələşməyə, mülkiyyət bərabərsizliyi sinfi bölgüyə səbəb olduğu kimi, gender asimmetriyasının dərinləşməsi də, cəmiyyətdə cinslərarası əlaqələrin kəskinləşməsinə şərait yaradır. Bu proseslər, ilk öncə sosial psixoloji səviyyədə və sonra sosial-siyasi proseslərdə özünü biruzə verir.

Cəmiyyətdə gender asimmetriyasının mövcudluğu qlobal problemlərdən olduğu üçün, o, BMT Baş Assambleyası iclaslarının əsas müzakirə mövzularındandır ("2000-ci ildə Qadınlar: Kişi və Qadın arasında bərabərlik, XXI əsrdə inkişaf və sülh"). Ümumdünya İqtisadi Forumu (ÜİF) qeyri-hökumət təşkilatı 2006-cı ildən gender bərabərsizliyi indeksinin (*Gender Gap Index*) kəmiyyət meyarını (0-1 arasında) irəli sürmüş və onun vasitəsilə dünya ölkələrində müxtəlif sahələrdə gender bərabərsizliyi indeksini müəyyənəşdirmişdir. 2006-cı ildən 107 ölkədə aparılan bu təhlillərin mütəmadi şəkildə davam etməsi (2016-cı ildə ölkələrin sayı 144 olmuşdur) və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməsi, dünyada gender asimmetrasiyasının azaldılmasına yönəlmişdir. Ölkələrin gender bərabərsizliyi indeksi göstəriciləri, 2010-cu ildən BMT-nın insan inkişafı indeksinin əsas tərkib hissəsini təşkil edir. Bu göstəricilər, beynəlxalq hesabatlarda hər bir ölkənin hesab kartı hesab olunur.

Son bir neçə onillikdə aparılan gender tədqiqatları göstərmişdir ki, kişilərdən fərqli olaraq qadınlar daha çox az gəlirli və aşağı statuslu sahələrdə çalışırlar. Bu ayrıseçkilik səviyyəsi cəmiyyətlərə görə fərqlənir. Gender asimmetriyası - demokratiya və gender bərabərliyinin inkişaf etdiyi cəmiyyətlərdə daha az, patriarxal qeyri-demokratik cəmiyyətlərdə daha çox özünü biruzə verir.

Cəmiyyətin müxtəlif sahələrində müşahidə olunan gender asimmetriyasının təməlində dayanan əsas amillər, ənənəvi sosial-mədəni dəyərlər (sosial normalar, adətlər) və qanunlardır. Onlar cəmiyyətdə gender rollarını formalaşdırıb istiqamətləndirirlər. Ənənəvi patriarxal dəyərlər sistemi ictimai şüuru steeotiplərlə, sosial normalar vasitəsilə yönləndirir və onların legitimliyinə haqq qazandırırlar. Buna görə də, kollektiv patriarxal dəyərlərin güclü olduğu cəmiyyətlərdə gender rolları təbii qanunlar kimi dəyərləndirilir. Bu cəmiyyətlərdə qadınlar ev-ailə işləri fövqünə çıxa bilmədikləri üçün, təhsildən yayınır və asosiallaşaraq ictimai həyatdan təcrid olunurlar. Bəzi dövlətlərdə qəbul edilən qanunlar gender asimmetriyasının artmasına və diskriminasiyanın dərinləşməsinə şərait yaradır. Fərdlərin ictimai şüuruna nəsildən-nəsilə təlqin olunan və stereotipləşən bu gender rolları, gender asimmetriyasının əsas səbəbi kimi dəyərləndirilə bilər.

Gender bərabərsizliyi indeksi (*Gender Gap Index*) əsasən dörd mühüm sahədə 14 parametr üzrə qadın və kişi arasında bərabərsizlik səviyyəsini araşdırır (cədvəl 1).

**Cədvəl 1.** Gender bərabərsizliyi indeksinin dörd mühüm sahə üzrə 14 parametri

| Sahələr | Göstəricilər |
|---|---|
| İqtisadi fəallıq və iqtisadi imkanlar | Cinslərin məşğuliyyət səviyyələri nisbəti; |
| | Cinslərin eyni əmək qarşılığında ödəniş səviyyələri nisbəti; |
| | Cinslərin gəlir səviyyələri nisbəti; |
| | Yüksək vəzifəli qanunvericilər, məmurlar və menecerlər arasında |

| | |
|---|---|
| | cinslərin nisbəti; |
| | Peşəkarlar arasında cinslərin nisbəti; |
| Təhsil | Cinslərin savadlılıq səviyyəsi nisbəti; |
| | Cinslərin ilkin təhsil səviyyəsi nisbəti; |
| | Cinslərin orta təhsil səviyyəsi nisbəti; |
| | Cinslərin ali təhsil səviyyəsi nisbəti; |
| Sağlamlıq və uzunömürlülük | Cinslərin sağlam həyatsürmə səviyyəsi nisbəti (reproduktiv sağlamlıq: 18 yaşadək erkən analıq, ana ölümləri); |
| | Cinslərin doğuşda say nisbəti (100-106 və ya 0.944-1 nisbəti); |
| Siyasi fəallıq | Cinslərin parlamentdə say nisbəti; |
| | Cinslərin nazir vəzifəsində say nisbəti; |
| | Qadınların dövlət rəhbərliyində qalma müddəti (son 50 ildə) |

Ümumdünya İqtisadi Forumunun 2016-cı il araşdırmalarının ümumi dünya üzrə göstəriciləri təsdiq edir ki, dünyada ciddi gender asimmetriyası mövcuddur. Təhsil və sağlamlıq sahələrində gender asimmetriyası 95% ortadan qaldırılsa da, iqtisadiyyat sahəsində 59%, siyasət sahəsində 23% aradan götürülmüşdür. Dünya üzrə gender bərabərsizliyi indeksinin (*Gender Gap Index*) ümumi kəmiyyət göstəricisi 68%-dir (http://reports.weforum).

Şəkil 1. Gender bərabərsizliyi indeksinin dörd
mühüm sahə üzrə qlobal göstəricisi




Dünya üzrə gender bərabərsizliyi indeksinin 68%-lik göstəricisində regional fərqlilik özünü biruzə verir. Gender asimmetriyasının ən az olduğu ölkələr əsasən Avropada (Norveç, Finlandiya, İslandiya, İsveç), ən yuxarı ölkələr isə, əsasən Ərəb yarımadası, Yaxın Şərq, Afrika, Latın Amerikası ərazilərində yerləşir (Yəmən – 0.516, Pakistan – 0.556, Suriya – 0.567 , Səudiyyə Ərəbistanı – 0.583, Çad – 0.587) (http://reports.weforum).

Dünya üzrə gender bərabərsizliyi indeksi xəritəsinə diqqət yetirəndə (xəritə 1) görürük ki, bu istiqamətdə yüksək göstəricilərə malik olan region və ölkələr (ABŞ, Kanada, Avropa, Avstraliya) əsasən demokratiyanın, bazar iqtisadiyyatının, elm və təhsilin inkişaf etdiyi ərazilərdir. Bu sahədə mənfi göstəricələrə malik olan region və ölkələr isə, adətən avtoritarizm, diktatura, monarxiya rejimlərinin hökm sürdüyü, müharibələrin getdiyi, yoxsulluğun geniş yayıldığı, insan hüquqlarının pozulduğu, elm və təhsilin inkişaf etmədiyi ərazilərdir. Deməli, sadaladağımız mənfi amillərin də gender asimmetrasiyasının meydana çıxmasında və dərinləşməsində təsirləri böyükdür. Dünya üzrə gender bərabərsizliyi indeksinin qlobal göstəricisi 0.685-dir.

Xəritə 1. Dünya üzrə gender bərabərsizliyi indeksi xəritəsi (https://earthjourn 2014)




Dünya üzrə gender bərabərsizliyi indeksində ən aşağı yerləri siyasət (0.241) və iqtisadiyyat (0.582), ən yuxarı yerləri sağlamlıq (0.958) və təhsil (0.957) tutur. Dünya üzrə gender bərabərsizliyi indeksinin (2020-ci il) dörd mühüm sahəsinə regionlar üzrə nəzər yetirdikdə görürük ki, bütün sahələrdə ümumi göstəricilərinə nəzərən liderlik edən bölgə Qərbi Avropadır (0.767). Şimali Amerika (0.729) hər üç sahənin parametrləri üzrə Qərbi Avropanı keçsə də, siyasi parametrlərdə ondan geridə qalır (0.409 – 0.184). Siyasi sahədə ən aşağı göstəriciyə malik olan bölgə Orta Şərq və Şimali Afrikadır (0.102). İqtisadi sahədə ən aşağı göstəriciyə malik olan bölgə Cənubi Asiyadır (0.365). Təhsil sahəsində ümumi durum yüksək olsa da, orada ən aşağı göstərici Sub-Saxara Afrikasındadır (0.872). Sağlamlıq sahəsində ən çox cinsi diskriminasiya Şərqi və Cənubi Asiya, Sakit Okean bölgəsində müşahidə olunur (0.943 – 0.947) (cədvəl 2)

Cədvəl 2. Bölgələr üzrə gender bərabərsizliyi indeksi (Global Gender Gap Report 2020)

| | Ümumi indeks | İqtisadi indeks | Təhsil indeksi | Sağlamlıq indeksi | Siyasi indeks |
|---|---|---|---|---|---|
| Qərbi Avropa | 0.767 | 0.693 | 0.993 | 0.972 | 0.409 |
| Şimali Amerika | 0.729 | 0.756 | 1.000 | 0.975 | 0.184 |
| Cənubi Amerika | 0.721 | 0.642 | 0.996 | 0.979 | 0.269 |
| Şərqi Avropa və Mərkəzi Asiya | 0.715 | 0.732 | 0.998 | 0.979 | 0.150 |
| Şərqi Asiya və Sakit Okean | 0.685 | 0.663 | 0.976 | 0.943 | 0.159 |
| Sub-Saxara Afrikası | 0.680 | 0.666 | 0.872 | 0.972 | 0.211 |
| Cənubi Asiya | 0.661 | 0.365 | 0.943 | 0.947 | 0.387 |
| Orta Şərq və Şimali Afrika | 0.611 | 0.425 | 0.950 | 0.969 | 0.102 |
| Ümumi göstərici | 0.685 | 0.582 | 0.957 | 0.958 | 0.241 |

Mənbə World Economic Forum, Global Gender Gap Index, 2020. 0 1

Dünya üzrə gender bərabərsizliyi indeksində postsovet ölkələrinin əksəriyyəti Avropa ölkələrindən sonrakı orta göstəricilərə malikdirlər. Bu göstəricilərə adətən inkişaf etməkdə ölkələr aiddir. Gender bərabərliyinin təmin olunması və ya gender asimmetrasiyasının minimuma endirilməsi, həm də həmin ölkənin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı, insan hüquqları istiqamətində irəliləməsinin göstəricisidir.

Postsovet ölkələri SSRİ-nin tərkibində modernləşmə prosesini sürətlə qət etdikləri üçün, gender asimmetrasiyasının azaldılması istiqamətində bir çox uğurlara nail olmuşlar. Onlar arasında Avropa sərhədlərində yerləşən ölkələr (Pribaltika respublikaları, Moldaviya, Belarusiya) daha irəli getmişlər (cədvəl 3).

**Cədvəl 3.** Postsovet ölkələrində gender bərabərsizliyi indeksinin dörd mühüm sahə üzrə səciyyələndirilməsi (Global Gender Gap Report 2016. http)

| **Ölkələr** | **İqtisadi indeks-altı** | | **Təhsil indeks-altı** | | **Sağlamlıq indeks-altı** | | **Siyasi indeks-altı** | |
|---|---|---|---|---|---|---|---|---|
| | Balı | Reytinqi | Balı | Reytinqi | Balı | Reytinqi | Balı | Reytinqi |
| Moldaviya | 0, 795 | 15 | 0, 996 | 52 | 0, 979 | 40 | 0, 196 | 58 |
| Belorusiya | 0, 823 | 5 | 1, 000 | 29 | 0, 979 | 40 | 0, 146 | 80 |
| Qazaxıstan | 0, 745 | 31 | 0, 995 | 58 | 0, 980 | 1 | 0, 153 | 77 |
| Ukraina | 0, 722 | 40 | 1, 000 | 26 | 0, 979 | 40 | 0, 098 | 107 |
| Rusiya | 0, 722 | 41 | 0, 997 | 45 | 0, 979 | 40 | 0, 066 | 129 |
| Qırğızıstan | 0, 651 | 83 | 0, 991 | 72 | 0, 973 | 76 | 0, 132 | 87 |
| Azərbaycan | 0, 728 | 38 | 0, 988 | 83 | 0, 950 | 138 | 0, 069 | 124 |
| Gürcüstan | 0, 679 | 61 | 0, 989 | 78 | 0, 967 | 119 | 0, 089 | 114 |
| Tacikistan | 0, 711 | 47 | 0, 937 | 118 | 0, 966 | 126 | 0, 104 | 102 |
| Ermənistan | 0, 671 | 69 | 1, 000 | 27 | 0, 939 | 143 | 0, 068 | 125 |

Postsovet ölkələri də daxil olmaqla 144 ölkə arasında 2016-cı ildə ÜİF tərəfindən gender bərabərsizliyi indeksinin dörd mühüm sahəsi üzrə aparılan bu araşdırmada Ermənistan postsovet ölkələri arasında sonuncu, dünya üzrə Çindən sonra siyasi və iqtisadi indeksinə görə 102-ci yeri tutur. Bu göstərici həm də onun insan kapitalı inkişafı indeksinə görə də aşağı yerdə olduğunu göstərir (Global Gender Gap Report 2016. http).

Azərbaycan 2016-cı ilin ümumi göstəricələrinə görə 86-cı yerdə qərar tutmuşdur. İqtisadi göstəricilərdə 38-ci (0.728), təhsildə 83-cü (0.988), sağlamlıqda 138-ci (0.950), siyasətdə 124-cü (0.069) yerləri tutmuşdur (əlavə: sxem 1.1). Biz bu sahədə dinamikanı izləmək üçün, 2016-cı ilin göstəricilərini 2007-ci il göstəriciləri ilə müqayisə etməliyik. 2007-ci ildə Azərbaycan 128 ölkə arasında 59-cu yerdə qərar tutmuşdur. İqtisadi göstəricilərdə 19-cu (0.732), təhsildə 82-ci (0.971), sağlamlıq və uzunömürlülükdə 127-ci (0.926), siyasətdə 85-ci (0.083) yerləri tutmuşdur. 2007-2016-cı illərdə Azərbaycanın qlobal gender bərabərsizliyi indeksində tutduğu yer (reytinq) ciddi fərq etsə də (50-86), ümumi bal göstəricilərinə görə ciddi fərq etmir (0.678 – 0.684). Çünki 2007-ci il araşdırması 128 dövlət, 2016-cı il araşdırması 144 dövlət arasında aparılmışdır.

ÜİF tərəfindən gender bərabərsizliyi indeksinin dörd mühüm sahəsi üzrə 144 ölkə arasında aparılan 2020-ci araşdırmasında Azərbaycan ümumi göstəricilərə görə 94-cü yerdə (0.687) qərar tutmuşdur (ÜİF-nun 2019 il araşdırmasında 97-ci yerdə idi). Ermənistan isə, 98-ci yerdədir.

2020 araşdırmalarında Azərbaycan qadınlarının iqtisadi sahədə iştirakına görə 33-cü yerdə, təhsildə 60-cı yerdə (qızların ali təhsildə iştirakı yüksəkdir), sağlamlıqda 152-ci yerdə, siyasətdə 140-cı yerdə qərar tutubdur. 2016-2020-cı illəri müqayisə edəndə görürük ki, təhsildə 83-cü yerdən 60-cı yerə, iqtisadi sahədə 38-ci yerdən 33-cü yerə yüksəlmişdir. Lakin, sağlamlıq (138-ci yerdən 152-ci yerə enmiş) və siyasi (124-cü yerdən 140-cı yerə enmiş) sahələrdə geriləmə müşahidə olunur.

ÜİF tərəfindən gender bərabərsizliyi indeksinin Azərbaycan üzrə 2007, 2016, 2020-ci illərdə müqayisəli təhlilini aparsaq görərik ki, Azərbaycanın ümumi bal göstəricilərinin ardıcıllığı belədir: 0.678 – 0.684 - 0.687. Yəni, son 13 illik araşdırma dövründə Azərbaycanın gender bərabərsizliyi indeksində dəyişiklik miqdarı 0.009 bal təşkil edir. Bu ümumi gender bərabərsizliyi indeksinin tərkibini təşkil edən dörd mühüm sahəsinin 14 parametri üzrə göstəriciləri mühüm xarakter daşıyır.

2020-ci ildə Azərbaycan iqtisadi fəallıq və iqtisadi imkanlar sahəsində 33 dərəcədə yer alır. Bu sahədə geriləməyin əsas səbəblərindən biri və ən mühümü hesablanmış mənfəətdə (114 – 0.510) gender assimetriyasının kəskin xarakter daşımasıdır (qadınlar 10.8 – kişilər 21.2). İkinci problem bu sahədə qanunvericilər, yüksək vəzifəli şəxslər və menecerlərin arasında qadınların azlıq təşkil etməsidir (qadınlar 38.1% – kişilər 61.9%).

**Nəticə.** ÜİF-nun əvvəlki illərdəki hesabatlarının təhlilindən məlum olur ki, Azərbaycanda gender assimetriyasının əsas səbəbi ilk öncə siyasət parametləri, sonra iqtisadi parametrlərdir. Təhsil və sağlamlıq sahəsində gender assimmetriyası cüzi xarakter daşıyır. ÜİF-nun araşdırmalarında daima ilk onluqda yer alan ölkələrin (İslandiya, Norveç, Finlandiya, İsveç, Yeni Zelandiya, İrlandiya, İspaniya, Almaniya, Nikaraqua, Ruanda) siyasi və iqtisadi həyatında qadınların rolu kişilərin rolunu üstələməkdədir. Bu cəmiyyətlərdə patriarxal dəyərləri artıq feminist dəyərlər əvəz etməkdədir. Azərbaycanda da ölkənin siyasi və iqtisadi həyatında qadınların rolu bir neçə dəfə artsa (yəni, deputatların, nazirlərin, yüksək vəzifəli şəxslərin, menecerlərin yarısı qadınlardan təşkil olunsa), Azərbaycanın ÜİF-nun hesabatlarında ilk iyirmilikdə olma ehtimalı yüksəkdir. Lakin, ÜİF-nun araşdırmaçılarının proqnozlarına görə, gender assimetriyasından tam qurtulmaq üçün Avropaya 57 il, Azərbaycanın da daxil olduğu Mərkəzi Asiyaya isə 107 il gərəkdir (Global Gender Gap Report 2020. http). Onlar, orta hesabla Mərkəzi Asiya ölkələrinin hər il gender assimetriyasını ortadan qaldırmaq istiqamətində 0.3% irəliləməsini nəzərə alaraq belə bir qənaətə gəlirlər.

### Ədəbiyyat


- Global Gender Gap Report 2016. http
- Global Gender Gap Report 2020
- https://earthjourn
- http://reports.weforum

**Rəşad Eyyubzadə**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, doktorant*
*reshadayyub@rambler.ru*

# QLOBALLAŞMA VƏ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK

**Açar sözlər:** *qloballaşma, təhlükəsizlik, maraqlar, soyuq müharibə, siyasət*

İkinci dünya müharibəsinin sona çatması dünyanın güc balansının konturlarının müəyyənləşməsini təmin etməklə yanaşı, sonradan yeni formalaşmış dünya düzənin mahiyyətini və prinsiplərini özündə ifadə edən digər mühüm bir prosesin başlanmasını şərtləndirdi. Belə ki, özündə iki sistemin qarşıdurmasını əks etdirən Soyuq Müharibə kapitalizm və sosializm düşərgələri arasında mövcudluq uğrunda mübarizə idi. Müvafiq olaraq Soyuq Müharibə ayrı-ayrılıqda iki qütb daxilində iyerarxiyanı əhəmiyyətli dərəcədə gücləndirdi. Demək olar ki, çoxqütblü dünya siteminin heç bir əlaməti qalmadı. Soyuq Müharibənin başlanması ilə ABŞ və SSRİ-nin dünyanın digər dövlətlərindən sürətlə sonuncuların xeyrinə fərqlənməsi müşahidə olundu. Yəni, bu iki nəhəng güc özlərinin siyasi, iqtisadi, hərbi potensiallarına görə digər dövlətləri xeyli geridə qoydular və onların geosiyasi və geoiqtisadi yönlərinin müəyyənləşməsinə birbaşa təsir etməyə başladılar. 1648-ci ildən mövcud olan Vestfal sistemi öz yerini tam olaraq bipolyar dünya sisteminə verdi. İkinci dünya müharibəsindən sonra yaranmış geosiyasi bipolyarlıq ümumi şəkildə "sovet" və "amerikan" təsir zonaları kimi də ifadə olunurdu. Bu təsir zonalarına daxil olan dövlətlər özlərinin xarici siyasətlərini müvafiq hegemon dövlətlərin maraqları ilə dəqiqliklə uzlaşdırmalı idilər. Təbii ki, müvafiq olaraq fərqli qütblərdə yer almış dövlətlər biri-birilərinə qarşı sərt rəqabət mübarizəsinə cəlb olunmuşdular. Elə Soyuq Müharibənin əsas mahiyyəti də bundan ibarət idi. Qərb tədqiqatçılarının özləri də Soyuq Müharibənin mahiyyətini ABŞ-ın başında dayandığı Qərbin Sovet İttifaqına qarşı hərtərəfli mübarizəsi kimi təqdim edirdilər. Məsələn, İngilis tarixçisi K. İnqrem qeyd edirdi ki, yaxşı təşkilatlanmış və ABŞ-ın resurslarına arxalanan Qərb qruplaşması Sovet İttifaqına qarşı qoyulub və məqsədi hər vəchlə kommunizmə qalib gələrək dünya ağalığına nail olmaqdır. (Broors, Wohlworth,2002) Amerikan hərbi ideoloqu Finletterə görə isə Avropada Marşall planı reallaşmaqda idi, NATO-nu yaratmaq heç bir zaman mümkün olmazdı (Bergsten,2003) NATO-nun yaranması isə ümumilikdə qlobal siyasi proseslərin hərəkətverici və müəyyənləşdiricisi elementi rolunda çıxış etdi. Məhz Soyuq Müharibənin ən təsirli silahı olan NATO-nun olduqca təsirli rolu sayəsində sosializm düşərgəsi çökdü. Bunun ilkin əlamətlərindən biri 1989-cu ildə İkinci dünya müharibəsindən sonra ilk dəfə olaraq Polşada qeyri-komunist rejiminin yaranması oldu. Qısa zaman keçdikdən sonra isə Berlin divarları yıxıldı. SSRİ-nin son rəhbəri M. Qorbaçovun "yeni siyasi təfəkkür" yaratmaq cəhdləri iki rəqib sistem arasındakı mübarizəni ifadə edən Soyuq Müharibənin sona çatmasına hesablanmışdır (Brown,2010). Təbii ki, bu sona çatma SSRİ-nin süqutunu şərtləndirməli idi ki, M. Qorbaçov da buna nail ola bildi. Belə ki, vahid Avropa kommunist sistemi çox böyük sürətlə çökdü. Bunun ardınca bütün sovet alyansı sistemi süquta uğradı. Ümumiyyətlə, Qərb tədqiqatçıları da hesab edirlər ki, M. Qorbaçovun yenidənqurması ümumilikdə ABŞ-ın SSRİ-nin dağıtmaq strategiyasının tərkib hissəsi idi. Lakin Soyuq Müharibənin sona çatılmasına nail olunsa da bunu asimmetrik sona çatma kimi qiymətləndirmək olar. Məsələn, Soyuq Müharibədən sonra dünya miqyasında münaqişələrin sayı nəinki azaldı, əksinə, yeni-yeni münaqişə ocaqları meydana gəldi. Məsələn, 2008-ci ildə Rusiya-Gürcütan, 2014-cü ildə Rusiya-Ukrayna münaqişələrini və postsovet məkanından tutmuş, dünyanın ən müxtəlif nöqtələrində baş vermiş və idarəolunmaz şəkildə olan çoxsaylı münaqişələri nəzərə almaq lazımdır. Xüsusilə, 2014-cü ildən başlayaraq dünyanın iri dövlətləri yeni qarşıdurma mərhələsinə qədəm qoydular. Belə ki, müasir mərhələdəki qarşıdurma Soyuq Müharibə dövrünün qarşıdurmasından əhəmiyyətli dərəcədə fərqlənir. Hər şeydən öncə hazırkı qarşıdurmada ideoloji kontekst mövcud deyildir. Bundan başqa, bu qarşıdurma coğrafi məhdudiyyətə malikdir. Digər tərəfdən isə olduqca mühüm amilin də nəzərə alınması vacibdir. Soyuq Müharibə dövründən sonrakı qarşıdurmada qloballaşma amili müəyyənləşdirici rol oynamaqdadır. Soyuq Müharibə dövründən sonrakı qarşıdurmada qloballaşma amili müəyyənləşdirici rol oynamaqdadır. Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, son iyirmi-otuz

il ərzində qloballaşma dünya düzəninin xarakterinə ciddi təsir etmişdir. Müvafiq olaraq dünya siyasətinin prinsiplərinin, istiqamətinin və həyata keçirilməsi vasitələrinin müəyyənləşməsində məhz qloballaşmanın rolu həlledici olmuşdur. Artıq qeyd edildiyi kimi, İkinci dünya müharibəsindən sonra oturuşmuş dünya düzəni sıradan çıxdı. Sonrakı mərhələdə qloballaşma bütün Qərbdə ABŞ-ın hegemonluğunun təmin olunmasını şərtləndirdi. Daha sonra isə dünyada iqtisadi balans inkişaf etməkdə olan dövlətlərin xeyrinə dəyişməyə başladı (Grinin, Korotayev, 2015). Qloballaşma həmçinin, Böyük Britaniyanın da təsir imkanlarının genişlənməsində real rol oynadı. Özünün geosiyasi prioritetlərini həyata keçirməyə çalışan Böyük Britaniya qloballaşmanın təqdim etdiyi yeni imkanlardan məharətlə istifadə etməyə qadir olduğunu göstərdi. İqtisadi balansın dəyişməsi dünyada hərbi-siyasi güc balansının dəyişməsi kimi də başa düşülməməlidir. Lakin qloballaşmanın təsiri altında iqtisadi sahədə əldə olunmuş üstünlüklərin siyasi və hərbi balansdakı vəziyyətin dəyişməsi müşahidə olunmaqdadır. Bu baxımdan, dünya düzənin və dünya siyasətinin formalaşmasında qloballaşmanın təsir gücü artmaqdadır. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, yeni dünya düzəni haqqında ideyalar ötən əsrin 80-ci illərindən etibarən inkişaf etməyə başlamışdır. Təbii ki, yeni dünya düzəni haqqında təsəvvürlər hər şeydən öncə, qərb iqtisadiyyatlarının, institutlarının mütləq hökmranlığı haqqında ideya kimi təqdim olunurdu(Attali, 1991). Hesab olunurdu ki, məhz Qərb iqtisadiyyatı və institutları dünyanı təkmilləşdirə bilər. Bu prosesdə ABŞ-ın və Böyük Britaniyanın fəallığı daha aydın nəzərə çarpmışdır. Belə ki, ABŞ və Böyük Britaniya özlərinin diplomatik və iqtisadi təsirləri, beynəlxalq maliyyə-iqtisadi institutları və müqavilələri vasitəsilə digər dövlətlərin suverenliyini kəskin şəkildə məhdudlaşdırmağa və öz hökmranlığını təmin etməyə çalışırlar. Bu zaman hətta rəngli inqilablar taktikası da geniş tətbiq olunur. Təbii ki, bu prosesdə qloballaşmanın təqdim etdiyi imkanlar daha səmərəli nəticələrin əldə olunmasını şərtləndirmişdir. Belə ki, kapitalın, işçi qüvvəsinin informasiyanın yerdəyişməsinin əhəmiyyətli dərəcədə sərbəstləşməsi ayrı-ayrı regionlarda təsir imkanlarını ciddi şəkildə artırır(Grinin, Korotayev, 2015). Əksər hallarda qloballaşma ABŞ-ın və onun yaxın müttiqlərinin qlobal maliyyə sistemi yaratması və ona nəzarəti tam həyata keçirməsi kimi təqdim olunur. Belə təqdimatın müəyyən əsaslarının olduğunu qeyd etmək olar. Nəzərə almaq lazımdır ki, qloballaşma ilkin olaraq, özünü maliyyə sahəsində büruzə verməyə başlamışdır. Belə ki, qloballşa kapitalın sərbəst yerdəyişməsini məhdudlaşdıran amillərin aradan qalxmasını şərtləndirmişdir. Kapitalın sahibləri rolunda Qərb transmilli şirkətləri və maliyyə təşkilatları çıxış etdikləri üçün onlar dünya iqtisadiyyatının inteqrasiyası ilə qloballaşmanı demək olar ki, eyniləşdirirdilər. Belə maliyyə qloballaşması eyni zamanda, çoxsaylı problemlərin meydana gəlməsini şərtləndirirdi. Belə problemlərə çoxsaylı maliyyə böhranları da aid idi. Əslində, belə böhranlar Qərbdə təsir imkanlarını genişləndirmək imkanları verirdi. Belə ki, Qərbin özünün ayrı-ayrı dövlətlərdə və ya regionlarda yaratdığı maliyyə böhranları zamanı "xilasedici" rolunda da elə özü çıxış edirdi. Bu zaman Qərb öz standartlarını və iradəsini qarşı tərəfə qəbul etdirmək imkanı qazanırdı. Müvafiq olaraq, bir sıra amerikalı politoloqlar qloballaşmanı elə amerikan dünyasının yaradılması kimi təqdim edirlər(Шишков, 2014). Yəni, amerikan həyat tərzindən tutmuş, ABŞ-ın qlobal siyasi, iqtisadi, mədəni təsirinin və nəzarətinin yayılması müasir mərhələdə qloballaşmanın yaratdığı əsas reallıq kimi nəzərdən keçirilir. Bu reallıqların sürətlə formalaşması təbii ki, Soyuq Müharibənin sona çatması şərtləndirmişdir. Təsadüfi deyildir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində sosializm sisteminin çökməsi və Sovet İttifaqının süqutundan sonra Soyuq Müharibənin tarixinə tədqiqatçıların diqqəti əhəmiyyətli dərəcədə artmışdır. Diqqəti cəlb edən məqamlardan biri də ondan ibarət idi ki, rusiyalı tədqiqatçılarla amerikalı tədqiqatçılar ideologiyadan uzaq birgə tədqiqat işlərinin həyata keçirilməsi istiqamətində ciddi fəallıq nümayiş etdirirdilər(Егорова, 2009). İkinci dünya müharibəsindən sonra dünyada qüvvələr balansı əhəmiyyətli dərəcədə dəyişdi. Avrosentrist dünyanın yerini bipolyar dünya tutdu. Öz ərazilərində hərbi əməliyyatlar aparmayan ABŞ müvafiq olaraq böyük dağıntılardan və çoxsaylı insani təlafatlardan da yan keçə bildilər. Bu da onun digər ölkələri iqtisadi və hərbi cəhətdən geridə qoymasını və superderjavaya çevrilməsini şərtləndirmişdir. Təbii ki, Soyuq Müharibə dövründə sosializm sisteminin qarşısında dayanan kapitalist dünyasının başına ABŞ keçdi. İkinci supergüc isə faşizmin üzərində qələbə çalmış Sovet İttifaqı oldu. Müharibədə böyük itkilərinə baxmayaraq SSRİ nəhəng sənaye və hərbi potensiala

malik idi. Sovet İttifaqı Mərkəzi və Şərqi Avropa dövlətlərini nəzarətdə saxlayırdı və Çinin də yaxından dəstəyinə malik idi. Müxtəlif ölkələrdə solçu baxışa malik olan insanlar Sovet İttifaqını böyük fəallıqla dəstəkləyirdilər. Bu da ona təsir və nəzarət imkanlarını sürətlə genişləndirməyə imkan vermişdi. Hər iki superdövlət müvafiq olaraq ayrı-ayrılıqda iki dünyanı, alternativ ictimai inkişafı idarə edirdilər. Bunlar sosial-islahatçı kapitalizm və inqilabçı sosializm dünyaları idilər. Bununla da iki əsas qütbün olduğu dünya sistemi formalaşmışdır. ABŞ-la SSRİ arasında meydana çıxmış qlobal konfrantasiya "Soyuq Müharibə" kimi təqdim olunurdu. Çünki, bu konfrantasiyanın hərəkətverici elementi rolunda əsasən ideologiyalar çıxış edirdilər. Bununla yanaşı, Soyuq Müharibə dövründə müəyyən həyat tərzinin, dünyagörüşünün yayılması və müvafiq rejimlərin yaranması rəqabət aparan tərəflərin hərbi güclərinin dəstəyi fonunda baş verirdi(Colin,2007). Yəni, ABŞ kapitalizm, SSRİ isə, sosializm düşərgəsinin genişlənməsi istiqamətində fəaliyyət göstərən zaman özlərinin hərbi güclərinə istinad edirdilər. Təbii ki, müvafiq olaraq tərəflər hərbi potensiallarının gücləndirilməsi məsələsini xüsusi diqqətdə saxlayırdılar. Lakin SSRİ-də M. Qorbaçovun hakimiyyətə gəlməsi ilə ictimai-siyasi vəziyyətin dəyişməsi və bununla da Soyuq Müharibənin sona çatmasının ilkin əlamətləri görünməyə başlamışdı(Plokhy,2014). London iqtisadiyyat və politologiya məktəbinin professoru V. Zubok sənədlər əsasında yazmış olduğu kitabında açıq şəkildə M. Qorbaçovun qərbpərəstliyini qeyd edir və əsaslandırır ki, o, Qərbin güclənməsinə, həyat tərzinə və mədəniyyətinə tam loyal yanaşırdı. Aydın müşahidə olunurdu ki, M. Qorbaçov öz baxışlarında və fəaliyyətində "Ümumavropa Evi" ideyasına istinad edirdi(Зубок, 2011). Məhz belə məqsədli yanaşma 1991-ci ilin dekabrında SSRİ-nin süqutuna gətirib çıxartdı. Bununla da bipolyar dünya düzənin ideoloji-siyasi əsasları yox oldu və əvvəlki konfrantasiya prinsipləri əhəmiyyətini itirdi. Bundan sonra qloballaşmanın yeni dalğası özünü açıq şəkildə büruzə verməyə başladı. Təbii ki, bu dalğa elə Qərbin, xüsusilə də ABŞ-ın strategiyasına uyğun idi. Çünki, keçmiş sosializm düşərgəsində ideyaların yayılması, təsir imkanlarının genişləndirilməsi hər hansı bir maneəyə rast gəlməməli idi. Kapitalın sərbəst yerdəyişəməsi(təbii ki, Qərb kapiatlı nəzərdə tutulur) eyni zamanda ayrı-ayrı ölkələrdə və regionlarda müvafiq dəyərlərin yayılmasını və dəstəklənməsini, təsir imkanlarının genişlənməsini təmin edirdi. Xüsusilə, də postsovet məkanında, həmçinin, Rusiyanın özündə Qərb dəyərlərinin üstünlüyü və Qərbdə inteqrasiyanın müasirliyin və inkişafın vacib şərti olduğu təbliğ edilirdi. Qloballaşmanın əsas təzahür formalarından biri də məhz bundan ibarət idi. Bu da öz növbəsində ondan xəbər verirdi ki, Soyuq Müharibədən sonra tarixin yeni, münaqişəsiz və konfrantasiyasız bir mərhələsinin başlanması ilə bağlı təsəvvürlər illüzyalardan başqa bir şey deyildir. Xüsusilə, də ideoloji münaqişlərin artıq geridə qalması ilə bağlı fikirlər yanlış idi. Belə ki, ABŞ daha genişmqiyaslı ideoloji mübarizəyə start verdi və kifayət qədər ciddi uğurlar qazana bildi. Çünki artıq qarşısında maneə yox idi. Hazırkı mərhələdə ABŞ-ın və Böyük Britaniyanın geosiyasi və geoiqtisadi fəaliyyətinin əsas hədəfi ondan ibarətdir ki, kapitalist bazar iqtisadiyyatının prinsipləri bütün dünya tərəfindən qəbul olunsun və tətbiq edilsin. Kapitalist bazar iqtisadiyyatının isə ABŞ-a və Böyük Britaniyaya ümumdünya maliyyə sisteminə və müvafiq olaraq siyasi proseslərə təsir etmək və onları maraqlarına uyğun yönləndirmək imkanı verir. Lakin nəzərə almaq lazımdır ki, bu proses Qərbin maraqlarına tam uyğun olaraq müəyyən zaman kəsiyində davam etdi. Belə ki, sosializm düşərgəsinin süqutundan sonra müəyyən zaman kəsiyində qloballaşmanın tam olaraq Qərbin geoiqtisadi və geosiyasi maraqlarına xidmət etdiyini əsaslandırmaq olar.

Qeyd edək ki, "qloballaşma" terminin geniş işlənilməyə başlanmasında amerikalı sosioloq R. Robertsonun böyük xidmətləri olmuşdur. Bu dövrdə qloballaşma prosesinin inkişafı birbaşa transmilli şirkətlərin fəaliyyətlərinin genişlənməsi ilə əlaqələndirilirdi. Transmilli şirkətlər kifayət qədər iqtisadi potensiala malik olmaqla və transmilli faliyyətlərini genişləndirməklə milli tənzimləmənin təsir orbitindən, ayrı-ayrı ölkələrin dövlət və ictimai strukturlarının nəzarətindən uzaqlaşa bilmişlər.

Qloballaşma problemi kifayət qədər böyük aktuallıq kəsb etməklə hər zaman ən müxtəlif elmi dairələrdə ciddi müzakirə obyektinə çevrilmişdir. Alimlər qloballaşma prosesinin başlanması səbəblərini və inteqrasiyanın zəruriliyini izah etmək üçün artıq uzun illərdir ki, ciddi əmək sərf etməkdədirlər. Ənənəvi nəzəriyyədə qloballaşma prosesinin başlanmasını şərtləndirən amillər

sırasında iqtisadi əsaslar, xüsusilə də beynəlxalq ticarətin və beynəlxalq əmək bölgüsünün inkişafını nəzərdən keçirmişlər. Mahiyyət etibarilə bu, qloballaşma prosesinin başlanma səbəbinin ən bəsit formada izahıdır. Zaman keçdikcə qloballaşmanın baş verməsəbəblərini izah etməyə yönəlmiş bir sıra mühüm nəzəriyyələr meydana çıxmışdır. Ən son meydana gəlmiş nəzəriyyələrdə qloballaşma prosesinin başlanması səbəbi dövlətlərin məhdud resurların və xammalın yaratdığı problemləri aradan qaldırmaq cəhdləri ilə izah edilir. Yeni göründüyü kimi, iqtisadi amillər qloballaşma prosesinin başlanmasının hərəkətverici qüvvəsi kimi rolu çıxış edir. Belə ki, ayrı-ayrı dövlətlər sosial-iqtisadi problemlərini səmərəli şəkildə aradan qaldırmaq üçün səylərini birləşdirmək məcburiyyətində qalırlar. Buradan belə qənaətə gəlmək olur ki, resursların və xammalın məhdudluğu amili beynəlxalq ticarətin və innovasiya texnologiyalarının inkişafını şərtləndirmişdir.

Beləliklə, müasir mərhələdə qloballaşma dünyanın müxtəlifliyini artırmaqla, milli, dini, ümummədəni identikliyi zəiflədir. Dünyanın zəngin və yoxsul ölkələri arasında disbalansın güclənməsi dünya siyasətinin xarakterini əhəmiyyətli dərəcədə dəyişməkdədir. Bu siyasət əsasən Qərbin maraqları çərçivəsində həyata keçirilməyə başlayır. Dünyanın bütün sərvətləri və zənginləri əsasən Qərb dövlətlərində cəmləşmişdir. Dünya siyasətinin qloballaşması məhz Qərb kapitalının qorunmasına və güclənməsinə xidmət edir. Qloballaşma prosesi təsir imkanlarının daha da sərhədsiz olmasını təmin etmişdir.

**Ədəbiyyat siyahısı**


**Broors, S., Wohlworth, W.** American Primacy in Perspective//Foreign Affairs, Juny-August 2002, p. 33

**Bergsten, C.F.** America and Europe: Clash of the Titans?//Foreign Affairs, March-April 2003, p.20-34

**Brown, A.** The Gorbachev Revolution and the End of the Cold War//Melvyn P. Leffler and Odd Arne Westad (eds) The Cambridge History of the Cold War,Vol. 3,Cambridge, Cambridge University Press, 2010, chapter 10, p. 224–266.

**Grinin, L., Korotayev, A.** Great Divergence and Great Convergence. A Global Perspective. N. p. : Springer International Publishing, 2015, p.25

**Attali, J.** Millennium: Winners and Losers in the Coming World Order. New York, NY:Times Books, 1991, p.41

**Шишков, В. В.** Становление и развитие гегемонии США: имперское доминирование и глобализация в XX в. // Век глобализации. 2014. № 1, с. 133–146.

**Егорова, Н.И**. Новая история “холодной войны” в современных зарубежных исследованиях//Новая и новейшая история. 2009, № 4, с. 116

**Colin, S.** Gray War, Peace and International Relations. 2007, p. 124

**Plokhy, S.** The Last Empire. The final days of the Soviet Union. L.: Oneworld Publications, 2014, p.89

**Зубок, В.** Неудавшаяся империя: Советский Союз в холодной войне от Сталина до Горбачева. М.: 2011, с.(71)

**Aydan Məhərrəmova**
*Azərbaycan Turizm və Menecment Universiteti.*
*magistr*
*aydan.meherremova.1993@mail.ru*

## DÜNYA ÖLKƏLƏRİ ÜZRƏ İNTİHARLARIN BAŞ VERMƏ SƏBƏBLƏRİ

**Açar sözlər:** intihar, intihara səbəblər, intiharın statistikası, dünyada intihar

İntihar dünyanın əsas problemləri sırasında sadalanmaqda və qarşısı heç bir ölkədə tam alına bilməməkdədir. Ölkələrin fərqli sosial durumu, rifah şəraiti, adət- ənənələri, coğrafi mühiti onlarda intihar səbəblərinin fərqliliyinə səbəb olur. İntiharın ümumi səbəblərini bilmək və araşdırmaq üçün dünya ölkələri nümunələrinə nəzər salınmalıdır, eyni zamanda bu səbəbləri aradan qaldırmağın hansı yollarının mövcudluğu aydınlaşdırılmalıdır.

İntihar ( latın sözü olub "sui" – özünü, "seadere" – öldürmək deməkdir.) müstəqil və könüllü şəkildə bir insanın öz həyatına qəsd etməsidir. (Halil Apaydın-Şuayip Özdemir-Ayşe Z.Ünal, 2012:4-5)

İntihara gətirib çıxaran əsas səbəblər arasında bunlar sadalanır: kəskin problemlər ( məsələn, fərd üçün ona vacib olan insanlarla yaşadığı problemlər, qarşıdurmalar, ailədə birinin ölümünün yaratdığı depressiya, bunlardan başqa əhəmiyyətli itkilər, imtina edilmək, iş itkisi, həbs, ağır xəstəlik diaqnozu, pul problemləri və s), xroniki problemlər ( məsələn, evlilikdən kənar münasibətlərin tərəflərin biri tərəfindən öyrənilməsi, ailədə uşaqlarla bağlı problemlər), sağlamlıqla bağlı problemlər (məsələn, boyun və üz əməliyyatlarının uğursuzluqla nəticələnməsi,amputasiya edilmənin verdiyi umidsizlik,epilepsiya xəstəliyi), psixiatrik pozğunluqlar (məsələn, depressiya,alkoqol düşkünlüyü, ruh düşkünlüyü, tənhalıq duyğusu və s.).

Bu səbəbləri ümumiləşdirsək bu cür sıralamış olarıq: depressiya, iş və ailede olan gərginliklər, xəstəliklər, psixi pozntular və s. (Nevzat YÜKSEL, 2001:6-8).

İntihar nisbəti dünya ölkələri üzrə fərqli görülməkdədir. Bütün dünyaya aid olan intihar problemi 2016-cı ilin göstəricilərinə görə ən yüksək həddini Qayanada göstrərir. Bu göstəricilərə görə ilk beşlikdə Qayana,Lesoto,Rusiya,Litva,Suriyadayanır(10).

Ən yüksək intihar göstəricisinin görüldüyü Qayana Cənubi Amerika ölkəsidir. Qayana Cənubi Amerikanın şimal-şərq sahillərindəyerləşir. Ölkədəintiharın əsas səbəblərini ifadəetsək bunlar sadalanar: yoxsulluq, psixi və stiqma problemləri, alkoqolizm, zorakılıq, həmçinin psixoloji yardım mərkəzlərinin olmaması. Stiqma əsasən ölkədə olan cadugarlara yönəlmişdir,onlara olan inamsızlıq, həmçinin din xadimlərinin onlara qarşı yüksək təzyiqi onları intihara yönəltməkdədir (Алинин С. Ф., Антонов Б. Г., Ицков А. Н .1987: № 12)

Heç bir psixoloji yardım mərkəzinin fəaliyyət göstərməməsi insanların yardım ala bilməməyinə, depressiyaya tab gətirməməyə və intihara gətirib çıxarır.

Ümumi Amerika qitəsinin ölkəri üçün intihar səbəblərini araşdırarkən ortaya çıxan sadalama: 1) genetik faktorlar ( şizofreniya, bipolyar pozğunluğu, travmatik sindrom), 2) depressiv səbəblər ( stress, sevdiyini itirmə qorxusu, 3) ümumi səbəblər ( işsizlik, boşanma, ailə problemləri)

ABŞ-ın intihar göstəricilərində əsas yeri hərbiçilərin intiharı tutur. Əsgərlərin ölümünün ikinci səbəbi intihardır. Əsgərlərin intihar səbəbləri arasında depressiya, alkoqolizm, hərbi əməliyyatların çoxluğu və bunun təsiri altında yaranan stress, həmçinin kəskin iqlim şəraitində xidmət çəkənlərdə yaranan xəstəliklər və bu xəstəliklər qarşısında dözümsüzlük dayanır. Bəzi ərazilərdə xidmət çəkənlərin intihar səbəbi maddi problemlərlə, bəzi ərazilərdə isəhəddən artıq içki asılılığı ilə bağlıdır.Məlumatlara görə ABŞ-da bir ildə 540-dan çox hərbiçi intihar etmişdir.

Yetkinlik yaşına çatmayanların intiharıbaxımından ABŞ dünyada ən yüksək dərəcəni göstərən ölkələrdəndir. Bu intihar səbəblərini araşdıran mütəxəssislərin rəylərinin əsas nəticəsi eroinin dozasının həddən artıq istifadəsidir. Digər səbəblər arasında qarşılıqsız sevgi, ailədaxili problemlər, təhqirlərə,alçaldılmağa məruz qalma və s. daxildir. Amerikalılar xəstəlik qarşısında

zəif, xəstəliyə və bu xəstəliklə yaşamağa dözməyən, xəstəliklə bir ömür yaşamaqdansa intiharı üstün tutan insanlardır. Əgər 20-ci əsrdə Amerikada yetkinlik yaşına çatmayanlar diqqət çəkmək üçün, fəryadlarını hayqıraraq kömək diləmək üçün intihar etməyi seçirdilərsə, 21-ci əsrdə sadəcə həyatlarından tamamilə imtina etdikləri, kömək gözləmədən sadəcə xilas olmağı istədikləri üçün intiharı seçirlər.Ölkədə intiharın çox olmasının digər səbəbi xilas etmə xətlərinin yardım istiyənlərə inanmamalarıdır. (Am J Epidemiol,2013; 2-5)

Qeyd edək ki, Amerikalılar arasında inthar hadisələrinin sayı son 12 ildə 70 % artmışdır. Amerikada intihar göstəricilərinin əsası təhsilsiz əhalidə görülməkdədir. Amerikada intihar məsələsi yalnız məşhurların intiharı zamanı gündəmə yatırılır.Bu məşhurlar arasında Anthony Bourdain və Kate Spade yer alır.

İntihar nisbətinin ən yüksək ikinci göstəricisi Afrika ölkəsi olan Lasotadadır. Lasota timsalında bütün Afrikadakı intihar səbəbləri araşdırılacaq olsa, görülər ki, Afrikada olan intihar səbəbləri tam olaraq tədqiq olunmamışdır, lakin burda görülən əsas səbəb yoxsulluq və heç bir psixoloji dəstək mərkəzinin olmamasıdır. (Татьяна Ускова,2019:1)

Rusiya intihar göstəricisinə görə üçüncü yeri tutmaqdadır. Bu ölkədə kişilərin intiharı qadınların intiharından 6 dəfə yüksək, kənd yerlərində baş verən intiharların sayı şəhərlərdə baş verən intiharlardan 2 qat çoxdur. İntihar edənlərin əksəriyyəti 15-59 yaş arası və əmək qabiliyyətli şəxslərdir. Ölkədə intiharın əsas səbəbi alkoqolizmdir.

Amerikada olduğu kimi Rusiyada da yeniyetmələrin intiharı çoxluq təşkil etməkdədir. Ölkədə yeniyetmələrin intiharının əsas səbəbi bir şeydən əziyyət çəkdikləri halda hislərini açıq şəkildəifadə etmələrinə icazə verilməməsi və nəticədə zehni pozğunluğa və psixoloji travmalara məruz qalmalarıdır. Uşaq intiharı Rusiyada getdikcə artmaqdadır. Buna səbəb valideynlərin və müəllimlərin onlardan yüksək gözləntiləri və bu gözləntilərin qarşılığını verə bilməyən uşaqların intihara meyllənmələridir. Xüsusi ilə damğalanmağa məruz qalan uşaqlar tək çıxış yolunu bunda görürlər. Araşdırmaların nəticəsi göstərmişdir ki, uşaq intiharlarının 20% -i may ayında, yəni Dövlət Yekun Attestasiyasının keçmə vaxtı baş verir. Depressiv hal yaşayan uşaqlar öz fikirlərini ailələri ilə bölüşə bilməyən uşaqlardır və ailə uşaqların bu halına biganə, inamsız yanaşır və bu uşaqlarda intihar istəyi ilə nəticələnir.

Psixoloji travmalara məruz qalanlar əsasən hüquq-mühafizə orqanlarının əməkdaşlarıdır. Onlar davamlı olaraq ağır stress altında çalışırlar və bu ağır psixososial ağırlıqdan qurtulmaq üçün intihardan başqa çıxış yolunun olmadığına qərar verir və bu yola əl atırlar. (Новгородская область, 2012: 20-23)

Baltikyanı ölkələrdə intihar səbəbləri araşdırılarkən ən yüksək intihar nisbətinin aid olduğu Litva daha dərindən araşdırılmışdır. Litva Avropada intihar göstəricilərinə görə birinci yerdədir. Ölkənin yüksək intihar göstəricisinə malik olmasının əsasən iki səbəbi mövcuddur: işsizlik və alkoqolizm. Litvada mövcud olan iş azlığı, şəxsi biznesin inkişaf etdirilə bilməməsi, pensiya yaşından əvvəl işin itirilməsi yüksək depressiyaya, stresə gətirib çıxardır. Bu cür yaşayışı qəbul etməyən əksər LitvalılarSkandinaviya ölkələrinə üz tutaraq orda işqurub həyatlarını nizama salmağa çalışırlar, lakin digər ölkəyə üz tuta bilməyənlər yaşanan stresə dözməyərək intihara meyllənirlər. Litva alkoqol istehlakına görə dünya lideridir. Burada intiharların 80 %-i sərxoşluq zamanı baş verir.

Beləliklə, Litvanın bütün intihar səbəbləri sadalanarkən: psixi səbəblər, həddindən artıq spirtli içki qəbulu, depressiya, şəxsi həyat faciəsi, gözlənilmədən baş verən bədbəxt hadisə vəbunun həyatın sonu hissinin yaratması qeyd olunur. Hətta Litvanın facebook səhvəsində yaranan “İntihar Klubu” səhvəsində intihar etməyin qaydaları, üsulları ətraflı verilmişdir.(V1irnik A,1991: 166)

Bir vaxtlar intiharın ən yüksək göstəricilərinə malik olan Skandinaviya ölkələri artıq intiharın sayına görə liderlik etmirlər. ( Paerregaard G, 1980:3) Skandinaviya ölkələrində intiharın əsas səbəbi dərin depressiyadır. Mövcud iqlim şəraitinin ölkə əhalisinə verdiyi gündüz qısalığı və gecə uzunluğu əhalidə dərin depressiya yaradır və onları intihara sürükləyir. Eyni zamanda bu ölkələrdə“Yante” qanunu mövcuddur, hansı ki, gündəlik həyatda bütün skandinaviyalıların hamı kimi olması fikri irəli sürülmüşdür. Yəni əgər hamı qaçırsa deməli qaçılmalıdır,qaçmamaq ədəbsizlik sayılır, və ya çoxluq ən yeni telefon markası işlədirsə, deməli hər kəs çoxluğa tabe

olmalıdır. Bu qanuna tabe olmamaq sözlə qınanmasa da, qanuna tabe olmayanlar öz beyinlərində özlərini qınağa çəkir və özlərində bunun stress və depresiyasını yaşayır, bu da onlarda intihar istəyi yaranmasına gətirib çıxarır.

Yaponiya intihar göstəriciləri yüksək olan ölkələrdəndir. İntihar nisbəti bir çox ölkədən az görülsə də, ölkə üçün yüksək göstəricidir. Yaponiyada təxminən hər gün 60 nəfər intihar edir. İntiharın əsas qurbanları işini itirməmək üçün çox işləyən, hətta fasiləsiz, tətilsiz, işdən sonraevdə işi davam etdirənlərdir. Yaponiyada intihar səbəbləri yaş qrupuna görə fərqlidir. Yaponiyanın gənc əhalisi arasında ən çox intihar edənlər tələbələrdir. Tələbələr arasında isə qızların intiharı oğlanların intiharını üstələyir. Tələbələrin intihar etmələrinin əsas səbəbləri ünsiyyətdə çətinliklər, məktəblərdə, xüsusi ilə müəllim dərsə cavab verməyi tələb edərkən tələbənin göstərdiyi müvəffəqiyyətsizlik, ailədə valideynlərlə münasibətlərin gərginləşməsi, həmçinin zorakılıq hallarının yaşanmasıdır. Oğlan uşaqlarının intihar etmələrinin əsas səbəbləri isə valideynləri tərəfindən cəzalandırılmaq və onlara töhmət verilməsidir.

Gənc nəslin intiharının digər səbəbi cavabsız sevgidir. Sevgisinin qarşılığını ala bilməyən gənc uzun depressiyadan sonra intihara qərar verir. Gənclər arasında intiharın bir digər səbəbi ailə üzvlərinin itirilməsinə dözümsüzlükdür. Gənc yaşda valideynin itkisini qəbul etmənin çətinliyi intiharla nəticələnir.

Fukusima-1 atom elektrik stansiyasının qəzası baş verdikdə və hətta baş verdikdən illər sonrabu qəzanın verdiyi fəsadlar,psixi pozğunluq,mənfi təsirlər bir çox insanı intihara sürükləmişdir.

Yaponiyada digər böyük intihar qrupu 60 yaşdan yuxarı olan insanlardır. Bu yaşda intihar edənlərin əksəriyyəti yalnız yaşayan yaşlılardır və onlarda tənhalığın təsiri ilə yaranan psixi pozğunluq onları intihara sürükləyir.

Yaponiyada ən çox yayılan intihar növü "Oyaho shinju", yəni "ikiqat" intihardır. Əsasən ruhi xəstəliyi olan qadınların həyata keçirdiyi intihardır. Özlərinin həyatına son verməklə yanaşı övladlarının da həyatına son qoyurlar. (Innov Clin Neurosci, 2012:35–38)

Göstərilən nümunələr bütün dünya ölkələrini əhatə etməsə də, intihara dair yüksək göstəricilər göstərən ölkələri izah etmişdir. İntiharın əsas səbəbləri görüldüyü kimi yoxsulluq, depressiya, alkoqolizm, ailə problemləri və dözümsüzlükdür.

**Ədəbiyyat**


Алинин С. Ф., Антонов Б. Г., Ицков А. Н. Правда о бойне в джунглях Гайаны // Собеседник. — 1987—№ 12

AmJEpidemiol. Firearms and Suicide in the United States: Is Risk Independent of Underlying Suicidal Behavior? 2013; 2-5

Halil Apaydın-Şuayip Özdemir-Ayşe Z.Ünal. İntihar girişiminde bulunan bireylerde bazi değişkenlerle intihar girişimi ilişkisi 2012, 4-5 s

Innov Clin Neurosci. Overwork Suicide in Japan, 2012:35–38

Новгородская область: Специальный доклад «Особенности региональных аспектов суицидального поведения и проблемы его профилактики» 2012: 20-23

Paerregaard G. Suicide in Denmark: a statistical review for the past 150 years. Suicide Life Threat Behav 1980;6-10.

Prof. Dr. Nevzat YÜKSEL. İntiharın Nörobiyolojisi. İSTANBUL 2001 ,6-8 s.

Татьяна УсковаСтраны-лидеры по числу самоубийств. Каковы основные факторы риска, 2019https://mbk-news.appspot.com/suzhet/strany-lidery-po-chislu/

V1irnik A. Suicide in Estonia. Acta Psychiatr Scand 1991: 166

https://fjord.su/article/kolichestvo-samoubiystv-v-skandinavii.html

**Firuzə Əliyeva**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun*
*aparıcı elmi işçisi, f.f.d, dos.*
**Səbirə İsgəndərova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun*
*böyük elmi işçisi, f.f.d, dos*

# MİLLİ TOLERANTIQ VƏ DİNİ SEPARATİZM TƏHLÜKƏSİZLİYİ

**Açar sözlər: informasiya, milli təhlükəsizlik, milli maraqlar, konsepsiya, dövlətçilik**

Azərbaycan dövlətinin ümdə məsələlərindən biri də ölkədə milli tolerantlıq mühtinin qorunmasıdır. Respublikamızda dilindən, dinindən aslı olmayaraq bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər. Azərbaycan Respublikasının milli təhlükəsizlik haqqında konsepsiyasında deyilir: «Hazırkı mərhəbdə ölkədə bərqərar edilmiş milli və dini tolerantlıq mühitinin qorunması və inkişafı dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Azərbaycan dövlətinin milli siyasət kursu Konstitusiyanın əsas prinsiplərindən birinə əsaslanır». (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 2007:6)

Azərbaycan Respublikası həmişə müxtəlif millətlərin və dinlərin sülh şəraitində birgə yaşayışına nümunə olmuşdur. Azərbaycan dövləti cəmiyyətin milli maraqlarına uyğun milli siyasət yeridərək, dini toleranthq mühitinin qorunması və inkişafına xidmət edir, müxtəlif məzhəbli vətəndaşların hüquq və azadlıqlarına, həmçinin bu hüquq və azadlıqlarından sərbəst istifadə etmələrinə şərait yaradır.

Tarixən əsrlərin sınağından çıxmış, mənəvi dəyərlərini adət-ənənələrini qoruyub saxlayan Azərbaycan xalqı eyni zamanda ümumbəşəri dəyərlərə tolerant münasibət bəsləməklə, daim müasirliyə can atmışdır. Son 15 il ərzində Azərbaycan dünyada böyük nailiyyətlər qazanmaqla yanaşı, həm də Avropa dövlətlərindən fərqli olaraq dini sivilizasiyaların qovuşduğu tolerant bir məkan kimi tanınmışdır. 1993-cü ildə mərhum prezidentimiz H.Əliyevin hakimiyyətə gəlişindən sonra respublikamızda milli, dini və etik münasibətlər bərqərar olmuş, vicdan azadlığının təmin olunması üçün bir sıra tədbirlər həyata kecirilmiş, xalqın milli təhlükəsizlik maraqları naminə xeyli işlər görülmüşdür. «Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda hec vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu tarix, boyu Azərbaycanda da Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı xristian dini də yəhudi dini də əsrlər boyu yaşayır və indi də yaşamaqdadır». (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 2007:21) Lakin bizim bu mehriban qonşuluq siyasətimizə qarşı nankor ermənilər bizim torpaqlarımızı neçə illərdir ki, işğal altında saxlayırlar.

Həqiqətən də respublikamızda başqa dinlərin inkişafına tolerant mühitin yaradılması təmin olunmuş, dini konsepsiyalar arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlər yaranmışdır. Milli dini mənsubiyətindən asılı olmayaraq hər bir vətəndaşın Azərbaycan üçün milli qürur hissilə yaşaması tolerantlığın bariz nümunəsidir. Azərbaycançılıq ideologiyası dini tolerantlığın qarantı kimi çıxış edir. Ölkəmizdə müxtəlif din icmalarının fəaliyyətinə geniş imkanlar açılmış və bu sahədə dövlət tənzimləməsinin həyata keçirilməsi məqsədilə Dini işlər üzrə Dövlət Komitəsi yaradılmışdır. Respublikamızda insanların dini inanclarının, vicdan azadlığının əleyhinə heç bir addım atılmamışdır. Dini tolerantlıq azərbaycanlıların qanındadır. Bu özünü milli adət-ənənələrimizdə, başqa dinlərə, milllətlərə dözümlü münasibətdə özünü biruzə verir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, hər bir demokratik ölkədə tolerant durumun formalaşması vacibdir. Tolerantlıq düşüncə tərzi, cəmiyyətin müəyyən inkişaf mərhələsində, müxtəlif mədəniyyət və lokal insan birliklərinin birgə yaşayışı nəticəsində əldə olunmuş tarixi nailiyyətdir. Tolerantlıq bir dövrün deyil, hazırda bütün dünyanın qlobal, sosial-mədəni problemi statusunu almışdır. Azərbaycanda tolerantlıq-etnik, milli və bəşəri müstəviləri əhatə etmək baxımından yekcisliyin təsdiqi deyil, müxtəlifliyin vəhdəti kimi bu günün həm lokal, həm də qlobal tələblərinə cavab verir. Bu gün Azərbaycan tolerantlığın gerçəkləşdiyi bir məkandır. Belə ki, respublikamızda müxtəlif

milli, dini etnik qruplar vardır. Tarix boyu onlar Azərbaycanda yasamış və müxtəlif dünyagörüşlərinə baxmayaraq, şərait onları bir-birindən ayırmamışdır. Bildiyimiz kimi respublikamızda üç dünya dininin nümayəndələri - müsəlmanlar, xristianlar, indiustlər dözümlülük şəraitində yaşayırlar. SSRİ-nin dağılmasından sonra respublika vətəndaşlarının dini hisslərinin gerçəkləşdirilməsinə zəmin yaranmışdır. Belə ki, hər kəs öz dininə münasibətdə tam azad oldular. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda məscidlərin sayı 1300-ə çatmışdır. Azərbaycan dünyəvi dövlətdir. Toleranthq milli eyniyyəti qoruyub saxlamağa və onun postindustrial epoxaya keçməsinə şərait yaradır. Azərbaycanda tolerentlıqla bağlı tez-tez iclas və konfranslar keçirilir. Bu sahədə Qeyri-hökumət təşkilatları xüsusi fəallıq göstərirlər. Məsələn, 2007-ci il noyabrın 16-da “Azərbaycan tolerantlıq nümunəsidir” mövzusunda konfrans keçirilmişdir. Konfransda Beynəlxalq Tolerantlıq gününü xüsusi əhəmiyyəti qeyd edilmiş, göstərilmişdir ki, müxtəlif əqidəli insanların bir araya gəlməsində, dünyanın şər və zorakılıqdan xilas edilməsində, böyük sülhyaratma potensialına malik olmasında, tolerantlıq kimi yüksək bəşəri dəyərlər böyük rol oynayır. (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 2007:2) Azərbaycanda müxtəlif dini əqidəli insanların ictimai şüurundan tolerantlıq ənənələri möhkəm bərqərar olmuşdur. Lakin, qeyd etmək lazımdır ki, işğalçı Ermənistan Azərbaycanın sülhyaratma missiyasını dərk etmir, zorakılıq siyasəti yeridir. Tolerantlıq sahəsində Azərbaycanın uğurları dünya ictimaiyyətinin nəzərində ölkəmizin nüfuzunu qat-qat artırır. Sözsüz ki, bu da bədxah düşmənlərimizi narahat edir.

Bu mənada Azərbaycan dövləti, onun rəhbərliyi milli maraqlara söykənərək, milli təhlükəsizliyimizin qorunmasında mühüm addımlar atır. Azərbaycan iqtisadiyyatının sürətfi inkişafını gözü götürməyənlər milli adət-ənənəlirnizə, dünyagörüşümüzə, zidd olan bir çox rnənfi halları təlqin etməyə çalışırlar. Bu mənada Şərqlə Qərb arasında tranzit yolu kimi mühüm əhəmiyyət kəsb edən Azərbaycana bu ölkələrdən gəlmiş müxtəlif emissarlar təxribat törətməyə çahşırlar. Radikal təriqət nümayəndələrinin təlqin etdiyi dözümsüzlük, vətəndaş qarşıdurmasına çağırışlar, cəmiyyəti daxildən parçalamaq cəhdləri və bütün bunların müqabilində zor, terrora haqq qazandırılması islam dininin dəyərlərinə tamamilə ziddir. Bu mənada radikal vəhabilər, nurçular və digər cinayətkar təriqətlər və onların nümayəndəbri respublikamızda müxtəlif dini ədəbiyyatları təbliğ etməklə ixtişaş törətməyə çahşırlar. Məsələn, Azərbaycanda 1988-ci ildən fəafiyyət göstərən «Şeytan Bibliyası»nın əsgərləri hökumət və dövlət struktuırlarında, yenicə formalaşan gənc demokratik qüvvələrin cərgəsində, güc strukturlarında öz mövqelərini möhkəmləndirirlər. Onlar bir çox ölkələrdə o cümlədən. litvada, Latviyada, Estoniyada, Ermənistanda, Qazaxıstanda, Gürcüstanda və digər ölkələrdə təxribat törədirlər. Bu səpkidə Vaşinqtonda tədqiqat aparan prokoror Con Harrmson yazır: “Təkcə 1992-ci ildən 1999-cu ilə kimi Azərbaycana 73 nəfər (22 nəfər qadın olub) «Şeytan Bibliyasının» əsgərləri qədəm basıb. Sonradan bu əsgərləri dini icma və qurumlarda, ayrı-ayrı məxfi mərkəzlərdə, təbliğat və informasiya vasitələrində, səhiyyə və təhsil sistemində qərar tutublar. Bu əsgərlər az vaxt içərisində az təminatlı həkimləri, tibb bacılarını, din xadimlərini, müəllimləri ələ alır, şirinlikləndirir və istədiklərinə nail olurlar». (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 2007:40) Başqa bir tədqiqatçı Mayki Beyement göstərir ki, «Şeytan Bibliyası»nın Cənubi Qafqazda 9, Orta Asiyada 12, RF-da isə 28 filialı açılıb. Məlumata görə Bakıdakı Erməni kilsəsini (bu kilsə məlum səbəblərə görə indi işləmir) San-Fransıskodakı «Şeytanlar kilsəsini icarəyə götürrnək fikrində olub. Onlar (yəni əsgərlər -FN) Moskvadakı Qavrilov məbədini, Düşənbədəki Əbu-Səlam binasını, Kiyevdəki Qriqori kitabxanasını artıq icarəyə götürüblər”. Göründüyü krnii «Şeytan Bibliyası»-nın əsgərləri bütün dünya üçün təhlükəlidir. Onlar məlum mənbələrə görə 2003-cü ilin sentyabrında Azərbaycanın təhsil sisteminə də nüfuz etmək istəmişlər. Şübhəsiz ki, belə gedərsə bu plan reallaşsa idi bizim milli təhlükəsizliyimizə, insan genofondumuza böyük zərbəbr dəymiş olardı. MTN-i üzvlərinin sayıqlığı nəticəsində belə halların həyata keçirilməsinə imkan verilməmişdir. Tolerantlıq sahəsində Azərbaycanın uğurları dünya ictimaiyyətinin nəzərində ölkəmizin nüfuzunu qat-qat artırır. Heç təsadüfi deyildir ki, 2006-cı ildə Moskvada Dini rəhbərlərin ümumdünya sammitinin keçirilməsi təşəbbüsü məhz Azərbaycan tərəfindən irəli sürülmüşdür. Sonra isə ölkəmiz BMT yanında dünya din xadimlərinin məşvərət şurasını yaratmağı təklif etmişdir. Bu, o deməkdir ki, Azərbaycan bütün xalqların dininə, adət-ənənələrinə hörmətlə yanaşır. Qeyd etmək istərdik ki, tolerantlıq dövlətçiliyi, xalqın birliyini və sıralarını möhkəmləndirən bir amildir. Təbii ki, bu bizim milli sərvətirnizdir və buna görə də düşmənlərimizi bu çox narahat edir. Məhz buna görə də biz var qüvvəmizlə çalışmalıyıq ki, aramıza nifaq toxumu səpənlərə qarşı ayıq və mübarizkeş olaq.

Bu gün Qərb dünyası islamı ekstremizmdə, terrorçuluqda günahlandırır. Lakin tarix göstərir ki, islam sülh və toleranthq dinidir. İslam bütün xalqları birliyə, dözümlülüyə çağırır. Tolerantlıq o demək deyildir ki, başqalarının dini baxış və etiqadlarını özününkü kimi doğru hesab edəsən. Tolerantlıq o deməkdir ki,

başqalarının etiqatları səninkindən fərqlidirsə də, sən onlara səbr və təmkinlə yanaşmalısan. Məsələn, ölkəmizdə müxtəlif dini etiqadlı insanlar yaşayır və çalışırlar. Lakin heç kəs onların dini adət-ənənələrinə pis gözlə baxmır, əksinə hörmət ediriər. Din insanların, inam və iman yeridir, onların bu zəif hisslərinə toxunmaq olmaz. Ona görə də respublikamızda müxtəlif əqidəli, dini etiqadları bir-birindən fərqlənən insanlar mehriban yaşayır və bir-bırlərini yaxşı dərk edirlər. Azərbaycanda dinin xalqın milli maraqlarana cavab olaraq, hər cür xarici müdaxilələrdən qorunması dövlət rəhbərliyinin ümdə vəzifəsidir.

İslam hər cür savaş və hərbi yürüşlərin əleyhinədir. İslam dini nəinki müsəlmanlara ixtiyar insanları, qadın və uşaqları, hətta silhahsız, yaralı düşmən əsgərlərini də öldürməyi qadağan etmişdir. İbadətgahlara, hətta ibadət zamanı ölümdən qaçaraq oraya sığınmış insanlara zərər verilməməsi də islamın başlıca tələblərindəndir. İslamın dini dözümlülük anlayışına çoxlu misallar gətirmək olar. Belə ki, müsəlmanlar məscidin bir tərəfində ibadət edərkən, digər tərəflndə də xristianların ibadət etmələrinə razılıq vermişlər. Bütün bunlara baxmayaraq, bir sıra islam ölkələrində əsas mübarizə üsulu terrorçuluq olan təşkilatlar vardır ki, din pərdəsi altında mübarizə apanrlar.

Məsələn, 1953-cü ildə onlar Fələstində yaradılmış "Hizbut-tehrir" təşkilatının Bakıda gizli şəkildə özəyini yaratmış, həmın partiyanın ideyalarına sadiq qalacaqlarına and içmişlər. Onlar yığıncaqlarında Azərbaycanın Konstitusiya quruluşuna, idarəetmə formasına, siyasi rejiminə, ərazi bütövlüyünə və beynəlxalq imicinə təhlükə törədən üzv olduqlan «Hizbut-təxrir» partiyasının ektremist məzmunlu "Hizbut-texrir" «Proqramına Hizbut-təxrir» və s. ədəbiyyatlarını özək üzvləri və digər şəxslər arasında yaymış partiya ideyalarının təbliğatçıları hazırlamağa baslamış, açıq mübarizə üsulu "Cihad yəni silahlı mubarizə yolunun vacibliyi barədə çağırışlar etmişdirbr, (H. Əliyev və Azərbaycanda din siyasəti gerçəkliklər və perespektivlər,2007:88)

2007;10) Onlar eyni zamanda zor gücünə demokratik hakimiyyəti devirmək, Azərbaycanda islam dövləti qurmaq və onu şəriət qanunları əsasında idarə etməyi qarşılarına məqsəd qoymuşlar. Sözsüz ki, xaricdən dəstəklənən bu ekstremist qüvvələr əsasən gəncləri aldadaraq öz təsirləri altına almış, və parklarda, məscidbrdə, kirayə tutduqlan evlərdə təbliğat xarakterli ədəbiyyatlardan istifadə edərək öz məqsədlərinə nail olacaqlarına ümid etmislər. Məsələn, Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi tərəfindən təqsirləndirilən şəxs Məhəmmədov Elçin Əhməd oğlu bir qrup şəxslərlə Azərbaycanda cinayət əlaqəsinə girib, mövcud olan konstitusion demokratik, dünyəvi dövlət quruluşunu devirib, Azərbaycanı bir dövlət kimi suverenlikdən məhrum edib, şəriət qurumları ilə idarə olunan islam fundamentalizminə əsaslanan yeni yaradılacaq teokratik xilafətin tərkibinə daxil etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmək və bu cür materiallar yaymaqla məşğul olmuşdur. Sonra o, bir sıra şəxslərlə cinayət əlaqəsinə girərək, yuxarıda qeyd etdiyimiz kimi 1953-cü ildə Fələstində yaradılmış «Kuzbutəxrir» təşkilatının Bakıdakı özəyi ilə fəaliyyətə başlamışdır. Azərbaycanın Avropaya inteqrasiyası və sivil dövlətlər səviyyəsinə yüksəlişi prosesində bütün bu təhdidlər sözsüz ki, Azərbaycan dövlətçiliyinə təhlükə yarada bilər. MTN əməkdaşlarının sayıqlığı nəticəsində onların Azərbaycanda dövlət strukturunu dəyişmək planları baş tutmamışdır və onlar məhkəməyə verilmişdir.

Bütün bu hadisələr göstərir ki, Azərbaycanın milli təhlükəsizliyinin qorunması onun ərazi bütövlüyünün, dövlət quruluşunun, suverenliyinin hər cür dini ekstremistlərdən mühafizəsi diqqət mərkəzində olmalıdır. Qeyd etmək lazımdır ki, 2005-ci ildə bir qrup şəxs tərəfindən dövlət quruluşunu silahlı yolla devirməyə çalışan, dinin motivlərə əsaslanan, siyasi cinayətkar dəstə terror törətməyə çalışarkən hüquq mühafizəsı orqanları tərəfindən tutulmuşdur. Onlar Azərbaycandakı sabitliyi pozmaq, rnüxtəlif dini əqidəli insanlar arasında iğtişaş törətməklə respublikamızın suverenliyinə zərbələr endirməyə çalışmışlar. Yadda saxlamaq lazımdır ki, yalnız birgə səylərlə dini qarsıdurmanı, dini ekstrimistlərin qarşısını almaq olar. Biz islamdan bir mübarizə vasitəsi kimi istifadə edən terrorçu təşkilatlara qarşı, islamın sevgi və dini dözümlülük anlayışını təbliğ etməli və sübut etməliyik ki, hec bir dövlətin və ya heç bir şəxsin islam adından çıxış etməyə haqqı yoxdur. Bunu bu gün reallıq göstərir. Məlumdur ki, Azərbaycan ərazisində xristian, yəhudi, lüteran, katolik, provaslav və digər dini, müxtəlif təriqətlərin vətəndaşları neçə əsrdir ki, dostluq şəraitində yaşayırlar. Hələ 1854-cü ildə Azərbaycanın Xanlar rayonunda almanlar tərəfindən tikilmiş lüteran kilsəsi 20-08-ci ildə bərpa edilərək, istifadəyə verilmişdir. Bu onu göstərir ki, Azərbaycan xalqı həmişə digər dinlərə qarsı dözümlük nümayiş etdirmiş və onlara hörmətlə yanaşmışdır. Bu, bizim xalqın milli mentalitetinə xas olan bir xü-susiyyətdir.

Biz XXI əsri tolerantlığın möhkəmlənməsi əsri hesab edə bilərik. Belə ki, məşhur din xadimlərinin-bütün Rusiya Patriarxı II Aleksin iki dəfə, Gürcü Provaslav Kilsəsinin başçısı Katalikos Patriaıx II İlyanın iki dəfə

Azərbaycana gəlmişdir. Bu tolerantlığın bariz nümunəsidir. 2002-ci ildə isə Roma Papası II İohanın Pavel Azərbaycana gəlmişdir. Bütün bunlar, islamın bizə öyrətdiyi müstəqil və azad yaşamaq prinsiplərindən irəli gəlir. Bu mənada mərhum prezidentimiz H.Əliyev 1994-cü il avqust ayının 26-da Məhəmməd Peyğəmbərin mövludu günü münasibətilə Təzəpir məscidində çıxış zamanı demişdi: «İslam dini başqa dinlərə qarşı heç vaxt duşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabər hüquqlu vətəndaşlandır. Çalışmalıyıq, dini milli mənsubiyyətindən aslı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-Talanın buyurduğu bizim yolumuzdur». Prezidentimizin bu çıxışı bir daha sübut edir ki, Azərbaycan dövləti bütün xalqların dininə rəğbətlə yanaşır, dini ayn-seçkiliyə son qoymuşdur.

Bütün bunlara baxmayaraq bəzi ekstremist qüvvələr yuxarıda qeyd etdiyimiz kimi dindən dövlətimiz əleyhinə istifadə edərək, gənclərimizə fanatizm əhval-ruhiyyəsi aşılayır, onları cinayətlər törətməyə təhrik edirlər. Xarici havadarların dəstəyi ilə respublikamızda cinayət xarakterli tenor aktları törədənlər sözsüz ki, islam dünyasının qatı düşmənləridir. Qurani-Kərimdə belə cinayətlər lənətlənir. Bu mənada H.Əliyev deyirdi ki, müsəlman xalqlarının təhlükəsizliyini və ölkəmizin bütövlüyünü təmin etmək, müsəlman azlıqlarının və icmalarının hüquqlarını qorumaq, müsəlman aləminin sabit inkişafını təmin etmək bizim müqəddəs vəzifəmizdir».

Azərbaycan Respublikası miffi təhlükəsizük siyasətində müxtəlif xalqların dini baxışlarına onların milli maraqları mövqeyindən hörmət edir. Bu səpkidə Roma Papası II İohan Pavel 2002-ci ilin mayında Bakıda olarkən demişdir. “Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir”. Həqiqətən də respublikamızdakı bu sabitlik uzun illər müstəqilük uğrunda mübarizə aparan bir dövlətin nailiyyətidir.

Azərbaycan tarixən tolerantlıq, dini dözumlülük ənənəbri ilə fərqlənən bir dövlət olmuşdur. Belə ki, respublikamızda 83 millət və azsaylı xalqlar yaşayır. Bu mənada vaxtilə cənab H.ƏIiyev demişdir. «Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə, dinindən dilindən irqindən, siyasi mənsubiyyətdən asılı olmayaraq azadlıq, hüriyyət imkanlan verir». Göründüyü kimi Azərbaycan xalqı həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə çalışır, insanların dini mənsubiyyətindən asılı olmayaraq onların arasında sülh və əmin-amanlıq siyasəti yaradır. Hal-hazırda müharibə vəziyyətində olduğumuz təcəvüzkar Ermənistanda yalnız, ermənilər və bir də ki, az sayda rus diviziyası əsgərlərinin ailə üzvləri olduğu halda, Azərbaycanda erməni ailələri hələ də yaşayırlar. Bu da ki, bizim dinimizin, humanistliyindən irəli gəlir. Bu gün Azərbaycanda 1300 məscid fəaliyyət göstərir. Onlardan 370-i islam təmayüllü, 204 qeyri islam təmayüllüdür. 406 dini qurum rəsmi olaraq dövlət qeydiyyatından keçib. Hazırda Azərbaycanda müxtəlif xanci ölkələrin səfirlikləri, beynəlxalq təşkilatların nümayəndəlikləri müxtəlif dini əqidəli iş adamlan fəaliyyət göstərir. Bəzi dini cərəyanlar da vardır ki, onlar müxtəlif yollarla insanları ələ alır, onların şüurunu korlayırlar. Bu məqsədlə dövlət milli maraqlara uyğun olaraq, milli təhlükəsizliyin qorunmasında bir sıra tədbiriər görür. Məsələn, Gəncədə, Şamaxıda və Azərbaycanın bəzi rayon və şəhərlərində bəzi dini cərəyanlar zəif xarakterli insanları öz təsirləri altına alaraq düşmənimiz olan ermənilərlə dostluq və qardaşlığa çağırır, mübarizədən əl çəkməyi tövsiyə edir, dini xarakterli ədəbiyyatlar yayırlar.

Bu gün dindən sui-istifadə edərək, bütün insanlığa düşmən kəsilən, terrorizmi dəstəkləyərək, bəşəriyyəti məhvə doğru aparan qüvvələrə qarşı mübarizə aparılmalıdır. Məhz bəşəri mədəniyyətlərin, insanlığın qorunması naminə biz hamımız əlbir olub, ekstrirmizmə, terrorizmə və separatizmə qarşı aqressiv olmalı və onların cəhdlərini puça çıxarmalıyıq. Yaddan çıxarmamalıyıq ki, bizim qan düşmənimiz olan ermənilər və onu dəstəkləyən qüvvələrə qarşı mübarizədə ayıq-sayıq olmalıyıq. Unutmamalıyıq ki, Azərbaycanın müstəqilliyi onun xaricə inteqrasiyası məkrli düşmənlərimizi narahat edir. Bu mənada Böyük ipək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin - «TRASEKA» proqramının həyata keçirilməsi, Xəzərin enerji ehtiyyatlarından birgə istifadəyə dair imzalanmış «Əsrin müqaviləsi» (24.09.1994) kontraktlarının, «Bakı-Tibilisi- Ceyhan” ixrac nefl kəmərinin, «Bакı-Tibilisi-Ərzurum» qaz kəmərinin, “Bakı-Tiblisi-Qars» dəmir yolunun çəkilməsi Azərbaycanın, Gürcüstanın milli təhlükəsizliyinin qorunması mənfur düşmənlərimizi vəlvələyə salmışdır. Ona görə də respublikamıza qarşı hər an xaricdən təxribat törətmək

cəhdləri gözlənilir. Tarixən tolerantlığın mərkəzi olan Azərbaycan bir çox milləttarin və dini konfensiyalıran dinc birgə yasamasının və sərbəst fəaliyyət göstərməsinin unikal nümunəsidir.
Lakin işğalçı Ermənistan bu tolerantlığın əsasları üçün təhlükəyə çevrilmişdir. Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcəvüzkar siyasət nəticəsində, 1 milyondan artıq soydaşımız öz dədə-baba yurdundan qacqın düşmüş, qədim ibadət yerlərimiz dağıdılmışdır. Hazırda bu ölkənin gizli hərbi düşərgələrində minlərlə qoca, uşaq və qadın təcavüzə məruz qalmış, onların üzərində dəhşətli eksperimentlər aparırlar. Ermənistanın bu vandalizm hərəkətləri regionda və dünyada dinlərarası dialoqun möhkəmlənməsinə ciddi zərbələr vurur. Buna baxmayaraq, Azərbaycan dünya ictimaiyyətinə özünün haqq işini nümayiş etdirməyə çalışır və Şərq-Qərb ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə böyük töhfələr bəxş edir. Respublikamızda dövlət-din münasibətləri xalqın milli maraqlanna uyğun olaraq həyata keçirilir. Milli azlıqların, millətlərarası əməkdaşlığın bariz nümunəsi olan Azərbaycan, bütün ölkə vətəndaşlarının milli maraqlarına əsaslanaraq, etnik mənsubiyyətlərini nəzərə alaraq, konstitusiyada nəzərdə tutulmuş hüquq və azadlıqlarla onları təmin edir. Belə ki, tolerant ölkə kimi Azərbaycan ərizisində yaşayan xalqların digər ölkələrlə əlaqələrinə mane olmur. Onlar sərbəst olaraq başqa ölkələrə gedib gəlirlər. Qeyd etmək lazımdır ki, respublikamızda yaşayan yəhudilərin 4 ibadət evi, bazar günü məktəbləri, yəhudi dövlət məktəbi və mədəniyyət mərkəzi fəaliyyət göstərir. Onlar milli dini adət-ənənələrini sərbəst surətdə yerinə yetirirlər. Təsadüfi deyildir ki, Azərbaycanda və bütün regionda ilk dəfə 16 noyabr Beynəlxalq tolerantlıq günü kimi qeyd edilmiş və bu əlamətdar gündə H.Əliyev tolerantlıq anlayışının mənasını acaraq demişdir: «Tolerantlıq dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. O, təkcə dinlərin bir-birinə dözümlülüyunü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərinə dözümlülük deməkdir). (Dini qrumlarla iş üzrə Dövlət Komitəsinin bülletini,2001:20)

Azərbaycan xalqı əsrlər boyu bu tarixi missiyanı yerinə yetirmişdir. Belə ki, xalqımızın əsrlər boyu formalaşdırmış olduğu sosial-siyasi, əxlaqi-mənəvi, dəyərləri, tarixi, din, mədəniyyəti və dini məhz azərbaycançılıq anlayışında öz əksini tapır. Bu aspektlər-milli tarix Azərbaycan dili, ənənələrə və mədəniyyətimizin özünəməxsusluğuna ehtiram, eləcə də dini toleranthq dünya siyasətinin suveren subyekti kimi qlobal inteqrasiya dövründə ayrıca bir vahid kimi Azərbaycan dövlətçiliyinin, bu gününü və gələcəyini formalaşdırır. Bütün bunlar getdikcə daha çox ehtiraslar oyununa çevribn siyasəti canlandırmağa, estetikləşdrməyə, ona dərin məna kəsb etdirməyə imkan verən siyasət və mədəniyyəti birləşdirməyə kömək edir. Bu milli ideya, milli birliyin bərpasına və təbii ziddiyyətlərin birləşdirilməsinə imkan verəcəkdir. Dahi alman alimi A.Moelle demişdir: "millət dedikdə dəyərlərin ümumiliyi, millətçilik dedikdə isə bu dəyərlərin əhəmiyyətinin dərk edilməsi nəzərdə tutulup". (H. Əliyev və Azərbaycanda din siyasəti gerçəkliklər və perespektivlər,2007:88).
Bu gün Azərbaycanda yalnız kilsə və sinaqoqlar deyil, eyni zamanda bir çox xristian yəhudi dini tədris müəssisələri sərbəst, heç bir maneə olmadan fəaliyyət göstərir və onlara dövlət tərəfindən qanun çərçivəsində lazimi dəstək verilir. Çünki dinlərə və dini fəlsəfi cərəyanlara münasibətdə tolerantlığı ilə seçilən Azərbaycan xalqı bu keyfiyyətinə görə nəiniki Şərqdə, hətta bütün dünyada fərqlənmiş və bu gün də fərqlənməkdədir. Bu mənada H.Əliyev deyirdi; «İnsanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan aslı olmayaraq bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, dinlərin bəzən kiməsə xoş gəlməyən adət-enənəbrinə dözümlü olmalıdırlar. Dini nöqteyi-nəzərdən ədavət, münaqişə, müharibə yol verilməzdir". (Dini qrumlarla iş üzrə Dövlət Komitəsinin bülletini,2001:84)

Müxtəlif dini liderlərin, din xadimlərin Azərbaycana səfərləri, ölkədəki tolerantlıq mühiti ilə yaxından tanış olmaları, respublikamızda dinlərə, mənəvi dəyərlərə olan hörmətdən irəli gəlir. Azərbaycanda tolerantlığın yüksək səviyyədə olmasını xarici diplomatlar da etiraf edirlər. Bu mənada ATƏT-in İnsan Hüquqlan və Demokratik Təsisatlar Bürosunun keçmiş rəhbəri Jeror Ştudman etiraf etmişdir ki, «Azərbaycanda dini dözümlülük heç də yeni konsepsiya deyildir. Bu ölkə yüz illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına, dözümlülüyə bariz nümunə ola bilər. Biz onu ümumi mədəni irsimizə münasibətdə nümunə göstərə bilərik». (H. Əliyev və Azərbaycanda din siyasəti gerçəkliklər və perespektivlər,2007:88)

Tolerantlığın Azərbaycan xalqının spesifik keyfiyyəti olduğunu bütün dünya bilir. Vaxtilə dağıdılmış tarixi-dini abidələrimizin mücəssəməsi olan məscidlərimiz, ziyarətgahlarımız indi yüksək keyfiyyətdə bərpa olunur. Açıq etiraf etməliyik ki, Azərbaycan nəinkd öz xalqının, eyni zamanda bütün xalqların mənəvi dəyərlərini yüksək qiymətləndirir. Bu gün ərazisinin 20%-dən çoxunun işğal altında olan Azərbaycan

terrorizmdən, zorakalıqdan və separatizmdən əziyyət çəkir. Lakin dünyada sülhün və tolerantlığın bariz nümunəsi kimi tanınan respublikamız, dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar qarşısında ərazi bütövlüyünün və milli-mənəvi dəyərlərinin qoruyucusu kimi çıxış edir.

## ƏDƏBİYYAT

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası. Azərbaycan 24 may, 2007.
H. Əliyev və Azərbaycanda din siyasəti gerçəkliklər və perespektivlər. B. 2007
Dini qrumlarla iş üzrə Dövlət Komitəsinin bülletini B., 2001, № 1
Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin materialları 2002-2005-ci illər

**Humay Eminova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi*
**Aypara Abbasova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi*

# ƏRAZİ BÜTÖVLÜYÜNÜN QORUNMASI MİLLİ TƏHLÜKƏSİZLİYİN ƏSASI KİMİ

**Açar sözlər:** milli təhlükəsizlik, millət, torpaq, dövlət, suverenlik

Azərbaycan dövlətinin müstəqilliyinin qorunması onun ümdə vəzifəsidir. Müstəqilliyimizin əsasını ərazi bütövlüyünün saxlanılması təşkil edir. Bildiyimiz kimi Azərbaycan torpaqları erməni işğalçıları tərəfindən neçə illərdir ki, zəbt edilmişdir. Axı Ermənistan respublikası qeyd etmək lazımdır ki, kimin ərazisi hesabına və kim tərəfindən bir dövlət kimi yaranmışdır? Əlbəttə ki, tarixi vərəqləsək görərik ki, heç erməni dövləti olmayıbdır. Azərbaycan torpaqlarına ruslar tərəfindən köçürülmüş bu, azsaylı xalq ərazimizdə yerləşdikdən sonra özlərini dövlət elan etmişlər. Əzəli Azərbaycanın qədim xanlıqlarından biri olan İrəvan xanlığında 1918-ci ilə kimi 80%-ə qədər azərbaycanlı yaşamışdır. Erməniləri İran və Türkiyədən ruslar, Cənubi Qafqazda özlərinə bir dayaq kimi yerləşdirmişlər. Onlar bu torpaqlarda yerləşdikdən sonra tədricən azərbaycanlıları sıxışdırmağa başlamışlar. Qeyd etmək istəyirəm ki, Azərbaycan rəhbərliyinin zəiffiyi və yaxud xalqma qarşı laqeyidliyi, etinasızlığı ucbatından qədim dədə-baba yurdlarından xalqımız vəhşicəsinə qovulmuşlar. 1918-ci ilə kimi Azərbaycanın 100-dən çox kəndi ermənilərə satılmışdır. Ermənilər aldıqları kəndlərin adlarını dəyişdirərək erməni adı qoymuşlar. 1988-ci ilə kimi isə bir azərbaycanlı belə Ermənistanda qalmamışdır. 1918-ci ildən etibarən «sapı özümüzdən olan baltalar» qədim azəri torpaqları olan İrəvan və onun ətrafındakı rayonları ermənilərə bağışlamaqla, gələcək həyatımızı təhlükəyə atdılar. Onların etdikləri səhflər indiki dövlətimizin təhlükəsizliyinə səbəb oldu. Qeyd etmək lazımdır ki, o zaman yəqin ki, milli idealogiyamız hazırkı dövrümüzdəki kimi formalaşmamışdır. Milli ideologiya milli təhlükəsizliklə qarşılıqlı əlaqəlidir. İdeologiya anlayışının şərhi dəfələrlə dəyişmişdir. İndi ideologiyaya cəmiyyətin mənəvi həyatının fenomeni, ictimai şüurun spesifik səviyyəsi kimi baxılır. İdeologiya mövcud reallıqlara haqq qazandırır, insanların fərdi və kollektiv davranışı kimi çıxış edir. Bizim ideologiyamız azərbaycançılıqdır. Bu ideologiya Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanmasına xidmət edir. Bu ideologiya bütün xalqlara, etnoslara sülh əmin-amanlıq aşılayır, qarşılıqlı əməkdaşlıq və bərabərliyin əsasını təşkil edir.

Bu ideologiya milli dövlətin suverenliyini qorumağa, milli rifah səviyyəsinin yüksəlməsinə çalışır. Azərbaycançılıq güclü dövlət hakimiyyətinin və milli intizamın, milli maraqların və milli özünüdərkin olmasını istəyir. Azərbacan dövləti öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyə, ölkəni tərəqqiyə, firavanlığa doğru aparmağa qadirdir. Azərbaycançılıq-Azərbaycanın dilini, mədəniyyətini, adət-ənənələrini, milli mənəvi dəyərlərini hər cürə milli təhlükəsizlikdən qoruyur.

Azərbaycan Avropa ilə Asiyanın qovşağında yerləşir. Bu da onun iki sivilizasiyanın təsiri altında formalaşmağa imkan yaradır. Bu, Şərq təməli və Qərb təsiridir. Bu gün Azərbaycana istər Qərbdən, istərsə də Şərqdən təzyiqlər göstərilir, terror aktları hazırlanır. Bu sahədə Azərbaycanın daxilində yaşayan müxtəlik etnik qruplardan istifadə edirlər. Məsələn, 2002-ci ildə Mahacqalada yaşayan bir neçə nəfər ermənilərlə danışıqlar aparmışlar ki, guya avarlar Azərbaycanda sıxışdırılır, onlara muxtariyyət vermək lazımdır. Bunun üçün avarların Azərbaycanda muxtariyyət uğrunda mübarizəyə qalxacağı təqdirdə onlara 300.000 ABŞ dolları məbləğində pul, 1.000 ədəd avtomat silah ilə kömək edəcəyini ermənibr söz vermişdflər. (London Strateji Araşdırmalar Mərkəzinin hesabatı, 2004:7)

Bu kiçik epizoddan göründuyu kimi respublikamıza qarşı ermənilər tərəfindən hər an terror törətmək halları baş vera bilər. Təcəvüzkar Ermənistan öz ərazisini Azərbaycan torpaqları hesabına genişləndirmək məqsədilə respublikamızda yaşayan digər azsaylı xalqlar da öz mənfur siyasətlərinə cəlb etmək istəyirlər. Onlar Zaqatala və Balakən rayonları ərazilərində ictimai təhlükəsizliyi pozmaq, əhalini qorxutmaq, vahiməyə salmaq, adamların həlakı ilə nəticələnən terror aktları, yəni partlayışlar, yanğınlar törətmək istəyirlər. Ermənistan işğal altındakı ərazilərimizdə narkotik bitkilər becərir, xarici şirkətlərlə əlaqə saxlayaraq, Azərbaycanın yeraltı-yerüstü sərvətlərini talan edırlər. Azərbaycanın qədim yer adları dəyişərək erməniləşdirirlər. Belə vandalizm şübhəsiz ki, dinlərarası dialoqun yaranmasma maneçilik törədir. Bu mənada Türkiyə dövlətinin baş naziri RT.Ərdoğan 2008-ci ilin fevralın 9-da Almaniyanın Münxen şəhərində keçirilən 44-cü «Münxen

təhlükəsizlik» konfransında ermənilərin Qarabağı tərk etmələrini büdirmişdir. O, demişdir: «Kimin kimi yurdundan qovduğunu, kimin soyqırım törətdiyini Dağlıq Qarabağ hadisələri açıq-aydın göstərir?» (London Strateji Araşdırmalar Mərkəzinin hesabatı, 2004:10)

Türkiyənin baş naziri Münxen təhlükəsizlik konfransında Ermənistanın xarici işlər naziri V.Oskanyanın verdiyi suala sərt cavab vermişdir. Türkiyə vətəndaşı olmayan 40 min ermənininin bu ölkədə yaşadığını bildirən Ərdoğan, görəsən ermənilər niyə Ermənistandan və başqa ölkələrdən qaçıb mənim ölkəmə gəlirlər? Bu sualı öz-özlüyündən soruşun. Niyə gəldilər? Çünki Türkiyə sülh ölkəsidir? - deyə R,T,Ərdoğan Oskanyanın sualına sərt reaksiya veribdir! Ermənilərdən Dağlıq Qarabağı tərk etmələrini tələb edən Ərdoğan bütün dünyanın Ermənistanı işğalçı dövlət kimi tanıdığını vurğulayıb. Baş nazir Minsk qrupunun Qarabağla bağlı heç bir qərarın verilmədiyini və prosesin ləngidiyini vurğulayıb. Çıxın Qarabağdan! Tərk edin o yerləri! Orada yaşayan minlərlə, on minlərlə, yüz minlərlə azərbaycanlı öz yurduna, yuvasına qayıtsın. Onlar hamısı bizim soydaşlarımızdır. Bu fikrə müsbət yanaşın, sizin də sülh prosesində dəstəyiniz olsun. Ərdoğan daha sonra 1915-ci il qondarma erməni soyqırımı hadisələrindən də bəhs edərək, bununla bağlı əlimizdə hansı sənədlər var? Mən 2005-ci ildən bəri arxivləri açmışam və 1 milyondan yuxarı sənəd ortaya çıxarmışam. Siz də arxivlərinizi açın və tarixçilər bunu qarşılıqlı surətdə açıqlasın demişdir.

Ərdoğan çıxışı ilə bir daha dünya ictimaiyyətinə çatdırmışdır ki, ermənilərin əzəli torpaqları olmamış, onlar türk torpaqları hesabına Ermənistan respublikası yaratmışlar. Həqiqətən də bu belədir. Belə ki, rəsmi məlumatlara əsasən, 1928-30-cu illərdə Şimali Azərbaycana İrandan 40 min, Osmanlı imperiyasından isə 90 minə qədər erməni köçürülmüşdür. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə isə onların sayı 200 mini ötmüşdür ki, bunların da bir qismi İrəvanda məskunlaşmışdır. Faktlara nəzər salsaq görərik ki, Ədirnə sülh müqaviləsinə görə, rusların Ərzurumu boşaltmasından qorxan 14 mindən artıq erməni ailəsi (84600 nəfər) Rusiya ərazisinə köçür. 1928-29-cu illərdə İrandan 6946 erməni ailəsi (35560 nəfər), 1830-cu ilə qədər isə Türkiyədən 3682 erməni ailəsi (21666 nəfər:), rusların yaratdığı erməni vilayətinə köçürülmüşdür. 1928-29-cu illərdə isə bu əraziyə İrandan 4559 ailə (23563 nəfər), Türkryədən isə 3674 ailə (21639 nəfər) köçürülmüşdür. Təkcə iki il ərzində yalnız İran və Türkiyədən İravan xanlığının ərazisində yaradılmış İrəvan əyalətinə 8233 erməni ailəsi (45202 nəfər) köçürülmüşdür. 1830-cu ildə bu vilayətdə erməni ailələrinin sayı 15059-a (82377 nəfər) çatır. Həmin illərdə yerli əhali arasında azərbaycanlı ailələrinin sayı 91% (49875 nəfər), erməni ailələrinin sayı isə 3498 (20073 nəfər) olmuşdur. (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 2007:20)

Beləliklə, ermənilərin İrəvanda azlıqda qalması faktı XX əsrin əvvəllərinə qədər davam etdi. Tarixi mənbələrdən aydın olur ki, İrəvan xanlığının 95%-ə qədəri azərbaycanlı olmuşdur. Belə ki, erməni alimi Zaven Korkotyan 193İ -ci ildən çap etdirdiyi (1931-ci ildə) «Sovet Ermənistanının əhalisi «1831-1931» adlı kitabında göstərirdi ki, 1883-cü ildə isə 27.246 nəfərindən 23.626 nəfəri yəni 85,2% azərbaycanlı olmuşdur». Rus alimi N.N.Şavrov isə 1911-ci ildə Sank-Peterburqda nəşr etdirdiyi «Novaya uqroza russkomu delu v Zaqafqazye» kitabında yazırdı: «1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənisi köçürülmüş və onların Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi. 124 min rəsmi köcürülən erməni ilə yanaşı, qeyri-rəsmi köçən ermənilərin sayı 200 mindən artıqdır. Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənininin bir milyonu yerli erməni deyildir. Onlar vilayətə bizim tərəfimizdən köçürülüb. Erməni alimi Jorj Burmusyan 1983-cü ildə Fransada çap olunmuş «Qafqaz: millətçilik və sosial imkan» kitabındakı «XIX əsrin birinci yarısında Ermənistanın etnik tərkibi və sosial-iqtisadi şəraiti» məqaləsində göstərirdi: «XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan vüayətinin əhalisinin əksəriyyəti müsəlman olub».

1830-cu ildə İrəvan və Naxçıvan xanlıqlarının ərazisi hesabına təşkil edilən «Erməni vilayəti» 1840-cı ilin inzibati islahatları vaxtı ləğv edildi və İrəvan quberniyası adlandırıldı. Erməni vilayətinin ləğvi ermənilərin müstəqil dövlət yaratmaq planlanna ağır zərbə vurdu. Ermənilər XIX əsrin sonlarından başlayaraq Azərbaycan torpaqlarında «böyük Ermənistan» ideyasının reallaşdırılması uğrunda açıq mübarizəyə başladılar. Belə ki, ermənilərin 1890-cı ildə Osmanlı dövlətinə qarşı qaldırdıqları xəyanətkar qiyamlar uğursuzluqla nəticələndi. Buna görə də 400 minə qədər erməni Türkiyədən Qafqaza köçürüldü. Bu o zamanlar idi ki, onların erməni dövləti yaratmaq məqsədi qarşıya qoymuş «Armenian» (1885), «İnçak» (1887), «Daşnakstyun» (1890) kimi siyasi təşkilatlan fəaliyyət göstərirdi. Bu təşkilatların əsas məqsədi azərbaycanlılara qarşı terror törətmək idi. Onların azərbaycanlılara qarşı soyqırım siyasətı həmin dövrdən başlandı.

1918-cu ildə isə Xalq Cumrhuriyyəti tarixi bir səhvə yol verdi. Belə ki, F.Xoyski başda olmaqla Cumhuriyyətin Milli Şurası İrəvanın mərkəzi kimi Ermənistana güzəştə gedilməsinə dair iclas keçirtdi. Bu iclasın qərarı Azərbaycan tarixinə qanla yazalmış qara bir ləkə saldı ki, indi bizim nəsil (XX əsrdə) bunun əziyyətini çəkir. Milli Şura Azərbaycan xalqının rəyini belə bilmədən (16 nəfər) bu qərarı qəbul etmişdir. Bunun nəticəsində azər-baycanlılar tədricən Ermənistandan, öz dədə-baba yurdlarından çıxarıldı.

1988-ci ildə isə birdəfəlik bütün azərbaycanlılar silah gücünə Ermənistandan qovuldu. İndi görəsən kimdir günahkar? Xalq, yoxsa onunla hesablaşmayan dövlət məmurları? Bir də onu qeyd etmək istəyirəm ki, zaman kimin günahkar olduğunu göstərəcəkdir.

Biz həmişə M.Bağırovu tənqid etmişdik. Lakin hər bir insanın mənfi xüsusiyyətləri ilə yanaşı, müsbət xüsusiyyətləri də vardır. Bu mənada M. Bağırov o, vaxtlar, yəni 1945-ci ildə Ermənistanın birinci katibi Q.Arytyunovun və SSRİ Xalq Komissarı Şurası sədrinin müavini Mikoyanın Dağlıq Qarabağın Ermənistana verilməsi təklifi əsasında, Ümumittifaq K(b) PMK-nın katibi Q.Malenkovun təklifinə qarşı, Bağırov cavab məktubunda bu təklifin reallaşacağı təqdirdə, Ermənistan SSR-nin azərbaycanlılar yaşayan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının, habelə Gürcüstan SSR və Dağıstan MSSR-də azərbaycanlıların cəm halda yaşadıqları rayonların da Azərbaycana verilməsinin vacibliyini bildirdi. Biz M.Bağırovun bu tarixi xidmətlərini qiymətləndirməyə bilmərik. O, vaxt M.Bağırovun bu xidməti nəticəsində Qarabağ torpaqları ermənilərə verilmədi.

Vaxtı ilə A.S.Qriboyedov Rusiya imperatoruna məktub yazaraq bildirmişdir ki, əlahəzrət, olmaya, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfalardırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır.

Bu amilləri erməni alimi Zaven Korkotyan etiraf edərək demişdir: «1883-cü ildə İrəvan şəhərinin 18,776 nəfər əhalisinin 15,992 nəfəri, 1886-cı ildə isə 27,246 nəfərindən 23,626 nəfəri, yəni 85,2%-i azərbaycanlı olmuşdur». (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 2007:2)

İlham Əliyev demişdir: Biz heç kimin torpağını zəbt etməmişik. Halbuki, indiki Ermənistan dövləti tarixi Azərbaycan torpağında formalaşıbdır. İrəvan şəhərini Xalq Cumhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək o da böyük bir səhv idi. 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti yarananda İrəvan şəhərini Ermənistana bağışlamışdır.

İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdilər. Ona görə haqq-ədalət, tarixi həqiqət, beynəlxalq hüquq, iqtisadi imkanlar, hərbi potensial bütün bu amillər tərəzinin bir gözündə, Ermənistanın qeyri-kolnstruktiv və heç bir beynəlxalq normalara sığmayan siyasəti tərəzinm başqa gözündədir.

Qeyd etdiyimiz kimi Ermənistan rusların hesabına Ermənistan olmuşdur. Rusiya imperiyasi işğal etdiyi Şimali Azərbaycan torpaqlanında möhkəmlənmək və burada İrana və Osmanlı dövlətinə qarsı bufer zolağj yaratmaq üçün əhalinin erməniləşdirilməsi siyasətini həyata keçirirdi. Hələ 1783-cü il mayın 19-da knyaz G.A.Potyomkin «Yekaterinaya yazdığı məktubda tovsiyə edirdi: «Fürsət tapınca Qarabağı ermənilərin nəzarətinə vermək və bununla da Asiyada bir xristian dövləti yaratmaq üçün lazım olanları etmək vacibdir». (Artsax Televiziyası,2000)

Bəli, lazım olanlan rus dövləti etdi və Azərbaycan torpaqlarına erməniləri köçürməklə, H.Cavidin «İblis» dramında yazdığı kimi öz iblis simasını Rasiya dövləti bir daha açıq şəkildə bəyan etdi.

İblis nədir?
- Cümlə xəyanətlərə bais!
Ya hər kəsə Xain olan insan nədir?

Lakin biz sanki 70 il Rusiyanın ermənilərə havadarlıq edən İblis, aləmini dərk etməmişik. Zahirdə dost, daxildə düşmən olduqlarını təəsüflər olsun ki, gec dərk etmişik.

Qeyd etdiyimiz kimi Ermənistan rusların hesabına Ermənistan olmuşdur. Rusiya imperiyası işğal etdiyi Şimali Azərbaycan torpaqlannda möhkəmlənmək və burada İrana və Osmanlı dövlətinə qarşı bufer zolağı yaratmaq üçün əhalinin erməniləşdirilməsi siyasətini həyata keçirirdi. Hələ 1783-cü il mayın 19-da knyaz G.A.Potyomkin «Yekaterinaya yazdığı məktubda tövsiyə edirdi: «Fürsət tapınca Qarabağı ermənilərin nəzarətinə vermək və bunnula da Asiyada bir xristian dövləti yaratmaq üçün lazım olanları etmək vacibdir». (London Strateji Araşdırmalar Mərkəzinin hesabatı.,2004:2)

Bəli, lazım olanları rus dövləti etdi və Azərbaycan torpaqlarına erməniləri köçürməklə, H.Cavidin «İblis» dramında yazdığı kimi öz iblis simasını Rusiya dövləti bir daha açıq şəkildə bəyan etdi.

İblis nədir?
- Cümlə xəyanətlərə bais!
Ya hər kəsə Xain olan insan nədir?

Lakin biz sanki 70 il Rusiyanın ermənilərə havadarlıq edən İblis, aləmini dərk etməmişik. Zahirdə dost, daxildə düşmən olduqlarını təəsüflər olsun ki, gec dərk etmişik.

**ƏDƏBİYYAT**

London Strateji Araşdırmalar Mərkəzinin hesabatı. Bakı, 2004, № 44
Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 24 may 2007
Artsax Televiziyası, Xankəndi 22 sentyabr 2000-ci il
Независимая газета, 4 ноябрь 2002

**İlhamə Hüseynova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçi*
**Yeganə Bağırova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçi*

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ

**Açar sözlər: Milli təhlükəsizlik, informasiya, strategiya, milli mənlik, milli şüur**

Milli təhlükəsizlik istiqamətində dövlətin daxili siyasətinin apardığı mühüm sahələrdən biri də informasiya təhlükəsizliyi siyasətidir. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına habelə informasiya sahəsində milli maraqlarm müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsindən ibarətdir.
Respublikamızda informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması üçün dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir. İnformasiyanın catdırılmasında KİV böyük rol oynayır. KİY siyasi proseslərin tərkib hissəsi olmaqla sosial-siyasi hadisələrin mərkəzində durur. Siyasi hadisələrdə onun fəaliyyəti çoxcəhətlidir. O, həm təşkilati, həm təbliğatı, həm də maarifçilik vəzifələrini yerinə yetirir. İnformasiyanın düzgün verilməsi şəxsiyyətin siyasi şüurunun və siyasi mədəniyyətinin formalaşmasma müsbət təsir göstərir. İnformasiyanın dəqiq verilməsi bəzi hallarda bir dövlətin ölümlə-dirim məsələsini həll etmiş olur. Məsələn, 1938-ci ildə Stalinə dəqiq məlumat göndərilmişdir ki, 1941-ci ildə Almaniya Sovetlərə qarşı müharibə edəcəkdir. Lakin İ.V.Stalin buna inanmadı və nəticədə qəflətən (1941-1945-ci illər) müharibəsi başlandı. Qeyd etmək lazımdır ki, informasiya ölkənin hərbi-siyasi və iqtisadi gücünü tənzimləyən mühüm məlumatlardır. İnformasiya bəzi hallarda xeyir, bəzi hallarda isə ziyan gətirə bilər. İnformasiya vasitəsilə hər bir dövlətin, onun daxili strukturu, yeritdiyi siyasət haqqında məlumat almaq olar. Həqiqət və dəyərli informasiya kimdədirsə, hakimiyyətdə ondadır. Məsələn, Vaşinqton Azərbaycanla informasiya müharibəsini udmaq üçün «Carnivore» deyilən elektron kommunikasiya və kompüter şəbəkəsindən istifadə edir. Bu şəbəkə vasitəsib ABŞ-ı Azərbaycanın istər daxili, istərsə də xarici siyasəti, dövlət quruluşu haqqında məlumat toplayır. Ayrı-ayrı nazirliklərin, dini idarələrin, diaspor təşkilatlarının iş prinsipləri haqqında məlumatlandırılır. Hər bir dövlət bu və ya digər dövlət haqqında informasiya almaq üçün kompüter şəbəkəsi yaradır. Məsələn, Rusiya Felerasiyası «SORM» və «Sənədli elektro əlaqə» xətti, Yaponiya «Müvəqqəti poçt qutusu» və s. adı ilə həyata keçirilir. Yerevan, Tehran, Ankara, Azərbaycan istiqamətində Öz informasiya və müharibələrini hərbi kommunikasiya sistemində aparır. (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 2007)

Azərbaycanda MTN-ı xarici dövlətlərlə informasiya mübadibsi aparır, lazmi məlumatlar alır. İnformasiyalar bəzi hallarda böhtan xarakteri daşıyır. Məsələn, «Astsax» telekanalında çıxış edən ABŞ konqresinin Beynəlxalq əlaqələr və insan Hüquqları Komisiyasının sədri Kristofer Smit Azərbaycanı ittiham edir.

«Azərbaycan milli maraqları, öz fıkri, məramnaməsi olmayan bir res-publikadır. Azərbaycan liderlərilə (siyasi partiya liderlərlə) etdiyim söhbətlərdə və keçirdiyim görüşlərdə bunun şahidi oldum. Onlar Qarabağ haqqında danışmadılar, Qarabağ haqqmda düşünmədilər”. (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası,2007) bu da yalandır. Respublikamıza, onun siyasi liderlərinə qarşı atılmış növbəti böhtandır, iffiradır. Göründüyü kimi xaricin informasiya agentləri respublikamıza qarşı yalan məlumatlar uydurmaqla məşğuldur. Bu da ki, bizim milli təhlükəsizliyimizə zərbə endirə bilər. Azərbaycanın Milli Təhlükəsizlik konsepsiyasında deylir. «Dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata kecirilməsi məqsədilə obyektiv və mühüm məlumatlar toplanır». (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 2007)

İngilis diplomatı yazıçı Volter Peter «Siyasi portretlər» əsərində yazır. «O dövlətdə ki, şayələr, yalanlar bas alıb gedir, orada həqiqət axtarmaym. Çünki bütün bunlara imkan və şərait yaradanlar var (maliyyə mənbələri: banklara, şirkətlərə, yığılan çirkli və haram pullardır). O müxalifətdə ki, yalan və uydurmalar üçün düşünənlər, proqram yazanlar çoxalır, onlarda səxavət və dəyanət axtarmaym, milli qürur axtarmaym. Yalan və şayələr həm dövləti, həm iqtidarı, həm də müxalifəti və nəhayət xalqı, cəmiyyəti parçalayıb, nəsillərə, tayfalara ayırır». (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası,2007)
Yalan və şayələrə görə müxtəlif partiyalar xaricdən xeyli miqdarda qrant alırlar. Məsələn, Gürcüstanda yalan məlumatların hazırlanmasına 147 min, Ermənistanda 176 min, Azərbaycanda 210 mil dollar xərclənibdir.(Dini qrumlarla iş üzrə Dövlət Komitəsinin bülleteni,2001:7)

Həqiqətən də yalan və uydurma xəbərlər həm dövbtə, həm də onu təmsil edən qüvvələrə xeyir gətirməz. Dövləti daxilindən parçalayır. Buna görə də qərəzli məlumatlar iqtisadi təhlükəsizlik strategiyasını, beynəlxalq neft müqavilələrini, Neft Fondunun strukturlarını, daxili və xarici siyasətimizi təhlükə altına ala bilər. Milli təhlükəsizliyimizin əsas qayəsini milli maraqlar təşkil edir. A.Volfers yazır: «Milli maraqlar, praktiki olaraq milli təhlükəsizliyin sinonimdir. (2001;15)

Milli maraqlar- millətin mənafeyini, müdafiə edən mədəni və genetik ənənələrə əsaslanaraq, dünya miqyasında onun birliyini ifadə edir. Heç bir dövlət öz milli maraqlarını başqa xalqlara zorla təlqin etdirməməlidir.
İlk dəfə «milli maraqlar» termiminini siyasətə gətirən Amerika tədqiqatçısı, filosof C.Smit olmuşdur. O, yazır: «Milli maraqlar o vaxt güclü və məqsədli olur ki, o əsaslı məntiqli və əhəmiyyət kəsb edən məlumat və informasiyalara söykənmiş olur». (Dini qrumlarla iş üzrə Dövlət Komitəsinin bülleteni,2001,) O, informasiyanı milli maraqların və təhlükəsizlik konsepsiyasının mayası adlandırır. Digər politoloq R.Keohan isə qeyd edərək yazır: «Ərazi bütövluyünün saxlanılması, müstəqil siyasətin yeridilməsi, azadlıq ... bütün bunlar milli maraqların resurslandır. Bu resursları tənzimləyən isə informasiyalardır. Əgər bir ərazidə və yaxud bir regionda məlumat satılırsa, informasiya oğurlanırsa, onda milli maraqlar üçün dövlətin yaşaması üçün saydığım komponentlər arasında tarazlıq pozulur, boşluq yaranır. Nəticədə bu boşluğu yalan və şayələr doldurur. Yalan və şayələrin tüğyan etdiyi bir cəmiyyət demokratiyanın ən iyrənc fəslini yaşayır». (Dini qrumlarla iş üzrə Dövlət Komitəsinin bülleteni, 2001) Məhz bu mənada respublikamızın qəbul etdiyi Milli təhlükəsizlik konsepsiyasında deyilir: «Kəşfiyyat və əks kəşfiyyat qabiliyyətinin uzlaşdırılması və səmərəliyinin artırılması, habelə məxfi informasıyaların mühafızə olunmasın koordinasiyası milli təhlükəsizlik sektorunun bu sahəsində əsas məsələlərdəndir. Azərbaycan respublikası öz milli kəşfiyyat və əks kəşfiyyat qabliyyətini artıracaq və dövlət sirrinə aid məlumatların mühafızəsi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsini davam etdirəcəkdir”.( Artsax Televiziyası, Xankəndi, 2000)

Həqiqətən də respublikamızda milli təhlükəsizlik konsepsiyasının müddəalarına uyğun olaraq informasiya təhlükəsizliyi siyasəti ilə həyata kecirilir. Belə ki, MTN-nin əməkdaşlarının çevikliyi nəticəsində dövlətçiliyimizə əngəl törədə biləcək bütün yalan və böhtanların qarşısı vaxtında alınır. Məsələn, 2001-ci ildə MTN-ə belə bir informasiya çatdırılır ki, Azərbaycanda avarları sıxışdırırlar, Şeyx Şamilin abidəsinin azərbaycanlılar tərəfindən partladılmasına cəhd edilmisdir. (2001;26) Bütün bunlar göründüyü kimi dövlətçiliyimizə zərər gətirmis olardı.

ABŞ-ın Federal Tədqiqat Bürosunun mütəşəkkil cinayətkarlığa qarşı mübarizə şöbəsinin başçısı polkovnik Tomas Fuentes belə bir təklif irəli sürür ki, Xəzəryanı ölkələrdə, o cümlədən Azərbaycanda strateji mərkəzlərin məxfilik prinsipi öyrənilsin. (Bura prezident sarayı, güc nazirləri, xüsusi xidmət departamentləri idarələri, komitələri, dıplomatik korpuslar, neft şirkətləri daxil edilir). Aparılan araşdırmalar belə bir nəticə verir: Qazaxıstanda güc nazirlərində məxfılik prinsipinə 26%, dini ekstremizm xristian fundamentalizmilə bağlı informasiyaların məxfilik prinsipinə əməl olunur. Bu rəqəm Özbəkistanda uyğun olaraq 28 (9%), Türkmənistanda 34 (14%), Ermənistanda 33,6 (9%), Gürcüstanda 14.6 (7%) Azərbaycanda isə 21(3%)təşkil edir. (2001;22)
Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, xüsusilə neft və neft məhsullarına tələbatın artması, dünya ictimaiyyətinin bu ölkəyə marağının yönəldilməsinə səbəb olur. Onlar informasiya toplamaq üçün məxfi ; yollarla buraya gəlirlər. Onlar Azərbaycanın neft və ordu quruculuğu, ümumi siyasi və iqtisadi strateji məsələləri haqqında informasiyalar toplayır və bəzi hallarda ölkəmizdə sabitliyi

pozmaq məqsədilə ixtişaşlar törətməyə çalışırlar. ABŞ kəşfiyyat admiralı Tomas Uilson yazır: “Kəşfiyyat materiallarını tapşıranda icraçılara fikir verin. Kəşfıyyat özü məsuliyyətdir. İnformasiyanı məsuliyyət hiss edən adamlara tapşıranda o inforrnasiyanın qiyməti iki dəfə artir. MDB ölkələrində, xüsusən Cənubi Qafqaz regionlarında bu məsələ qaranlıq qalır». (Artsax Televiziyası, Xankəndi 22 sentyabr 2000) Bütün dünya informasiyalarla hərəkət edir və hakimiyyətlər onun üzərində qurulur. Bu gün, XXI əsrdə ilk təhlükəsizlik informasiyasında demokratik prinsiplərin yerinə yetirilməsi regionda sülh və sabitliyin təmin olunması deməkdir. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında deyilir: «İnformasiya təhlükəsiliyini tənzimləmək məqsədilə dövlət sirri təşkil edən məlumatların mühafızəsinin hüquqi mexanizmi təkmilləşdirilir və informasiya azadlığı təmin olunur. Hüquqi və inzibati mexanizmlər vətəndaşların hüquqlarını və dövlət strukturlarının fəaliyyəti üzərində demokratik nəzarəti təmin edəcəkdir». (Artsax Televiziyası, Xankəndi,2000)

Bu gün informasiya təhlükəsizliyi bütün dünyanı bürümüşdür. Çünki yaşadığımız kompüter əsri bəzən yalan və ya doğru məlumatlarla insanların psixikasına təsir edir, onların sağlamlığına zərər vurur. Bəzən bir yalan məlumat bu və ya digər dövlət, onun sosial-siyasəti haqqında yanlış təsəvvür yaradır.

Bu mənada beynəlxalq informasiya təhlükəsizliyi günü I988-ci ilin 30 noyabrıdan qeyd olunur. Həmin ilin noyabrında universitetlar, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olunmaqla ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompüter virusu meydana gəldi və nəhəng itgilərə səbəb oldu. Yaradıcısının adı ilə Morris «Soxulcant» adlandırılan bu virusun vurduğu ziyan təxminən 100 milyon dollar həcmində qiymətləndirilnıişdir. Bütün bunlardan sonra dünya ictimaiyyəti informasiya təlılükəsizliyi haqqında düşünməyə başladı və bir sıra tədbirlər həyata keəçirməyə başladı. Belə ki, 1988-ci ildən etibarən kompüter avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabr beynəlxalq informasiya təhlükəsizliyi günü elan etdi. Ona görə ki, informasiya təhlükəsizliyi bir ölkəni yox, bütün bəşəriyyəti təhdid edən problemdir.

Assosasiya bu üsulla dünya icitimaiyyətinə kompüter sistemləri və şə-bəkələrində informasiyanın etibarlı mühafızəsi zərurətini xatırlatmaq, aparat və proqram vasitələri istehsalıçılarının və istifadəçilərinin diqqətini təhlükəsizlik problemlərinə yönəltmək məqsədi güdürdü. Artıq dünyanın 50-dən artıq ölkəsi bu təşəbbüsə qoşulmuşdur.

İnformasiya təhlükəsizliyi dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsiz-liyinin təmin edilməsinin əsas istiqamətlərindən birinə çevrilmişdır.

Biz informasiya vasitəsi ilə bütün dünyada gedən proseslərin şahidi oluruq. İnformasiya sülhün, təhlükəsizliyin və sabitliyin təmin olunmasında demokratiyanın gücləndirilməsində mühüm rol oynayır. İnformasiya ilə respublikamızda baş verən hadisələr cinayət və terror məqsədli görüləcək işlərlə onların qarşısının alınması, söz azadlığı haqqında müddəalara əməl olunması və s. ilə bağlı taleyüklü məsələlərlə məlumatlanırıq. İnternet də terrorizmin bütün formaları və təzahürlərinə qarşı mübarizənin vacibliyi, dövlətçiliyimizə əngəl törədə biləcək hər hansı məlumata qarşı dözümsüzlüyü işıqlandırılır.

Bildiyimiz kimi müxtəlif informasiya və telekommunikasiya sistemləri cəmiyyətin iqtisadi, siyasi həyatını, elmini, təhsilini və dövlətin inkişaf səviyyəsini əhatə edir. Buna görə də informasiyadan cinayətkar qruplar bəzi hallarda öz məqsədləri üçün də istifadə edirlər. Bu mənada respublikamızın milli maraqlarına uyğun olaraq «Azərbaycan Respublikasının inkisafi naminə informasiya və komnmunikasiya texnologiyaları üzrə Milli Stralegiya (2003-2012-ci illər) ölkə başçısı İ.Əliyev tərəfindən 2005-ci ilin oktyabrında təsdiq edilmiş Elektron Azərbaycan «Dövlət proqramında nəzərdə tutulan fəaliyyət planı» və vəzifələri müəyyən edilir. Elektron Azərbaycan Dövlət proqramında milli informasiya fəzasının təhlükəsİzliyinin beynəlxalq tələblərə uyğun qurulması və idarə olunması sisteminin yaradılmasını, eyni zamanda milli standartlara uyğun proqramların yaraddmasını nəzərdə tutan xüsusi müddəalar vardır. Respublikamızda informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericüik bazasının yaradılması və inkişaf etdirilməsi üçün bir sıra qanun və normativ aktlar, sərəncamlar qəbul edilmişdir.

«İnformasiya, inforsiyalaşdırma və informasiyanın mühafızəsi haqqında», «Dövlət sirri haqqında», «Elektron sənəd və elektron imza haqqında», «Elektron ticarət haqqında», «İnformasiya

əldə etmək haqqında», «Telekommıunakasiya haqqında» qanunlar qəbul edilmiş, kompüter cinayətlər ilə bağlı məsələlər Azərbaycan Respublikası Cinayət-Prosessual məcəlləsində öz əksini tapmışdır. (Artsax Televiziyası, Xankəndi 22 sentyabr 2000)

Araşdırmalar göstərir ki, informasiya təhlükəsizliyinin əsas mənbəyi in-sanlardır. Çünki yalan və şaiyələləri informasiya orqanlarına çatdıran məhz insanlardır. Bu mənada respublikamızdakı yalan və şayələrin mənbələrini təsdiq edən və arasdıran «Post-Sovet prospektsw bülleteni (Vaşinqtondakı Beynəlxalq Araşdırmalar və Strateji tədqiqatlar Mərkəzi) 2004-cü il mayın 7-də yazır: Keçid dövrünü yaşayan MDB ölkələri üçün sağ ekstremist «azarı» təbiidir. Lakin onlara imkan vermək lazım deyil ki, birləşsinlər. Hər hansı bir siyasi məsələni müzakirə etsinlər. Onlar dar düşüncəli, məhəlli fikirli adamlardır. Belə adamlar qruplara ayrılır: birincilər yalan ötürür, ikincilər bu yalanı maliyyələşdirir, ücüncülər isə onu yayırlar. MDB ölkələrinin bir qismi, xususən Cənubi Qafqaz regionları bu kökdədir. Mənim məlumatıma görə, təkcə Tiflisdə 71, Yerevanda 104, Bakıda isə 151 yalan və şayə mənbəyi var. (Toroqon Affaris jurnalı,1992:10)

Bu yalan və şayələrin əksəriyyəti ölkənin iqtisadi infrostrukturlarını əhatə edir. Respublikamıza qarşı yönəldilmiş böhtan xarakterli yalanlar ölkənin daxili və xarici siyasətini təhlükə altında qoyur. Ölkəmizə qarşı qərəzli xarakterli yalanlar, böhtanlar sözsüz ki, onun əlverişli bir iqlim qurşağında yerləşdiyindən, zəngin yeraltı, yerüstü təbii sərvətbrə malik olduğundan irəli gəlir. Son illər müstəqillik qazanan, suveren dövlət olan Azərbaycanın dünyaya inteqrasiyası gözü götürməyənlərin sayını artırır. Bu sahədə müntəzəm olaraq Rusiya, Vaşinqton, İran hər an Azərbaycana diversiya xarakterli məlumatlar yayır, böhtanlar atırlar. Bu dövlətlər millətlər arasında çaxnaşmalar yaratmaq, onlan bir-birinə qarşı qoymaq istəyirlər. Təsadüfi deyildir ki, ermənilərə mafiyyə yardımı göstərərək onları dəs-təkləyən də bu, dövlətlərdir. Belə ki, işğal altmda olan Qarabağ torpaqlannda RF-dan istefaya çıxmış 9 kəşfiyyat zabiti, İrandan 11, Bolqanstandan 5, Çindən 3 hərbiçinin gəlməsi erməni kütləvi informasiyalarının nəzərindən qaçmayıb. (Toroqon Affaris jurnalı. Nyu-York,1992:17)

Ümummiyyətlə qeyd etmək lazımdır ki, böhtan xarakterli informasiyalar milli qüruru olan insanların əsəblərinə toxunaraq, onların səhhətində problemlər yaradır. Milli təhlükəsizliyimizin qarantı olan informasiya təhlükəsizliyi milli şüurun, milli mənlik şüurunun inkişafına təkan verir. Respublikamıza qarşı yayımlanan böhtan xarakterli məlumatlar sözsüz ki, milli mənliyi, vənətpərvərliyi olan hər bir azərbaycanlıda nifrət hissi oyatmalıdır. Bu bizim qanımızda, canımızda olmalıdır. Biz həm daxili, həm də xarici düşmənlərimizə qarşı mübarizədə bir olmalıyıq. Alınan informasiya məlumatlanndan aydın olur ki, işğal altında olan Kəlbəcər, Laçın rayonlarına Hindistandan xeyli işçi qüvvəsi gətirilmişdir. Onlar Kəlbəcərin qızılını, Laçının qədim ağaclarını kəsib aparırlar.

Bildiyimiz kimi müasir dövr kompüter əsridir. Biz internet vasitəsilə dünyanın istənilən yeri ilə çox qısa zaman ərzində informasiya əlaqələri yarada bilirik. informasiya əlaqələri dövlətlər arası münasibətlərin tənzimlənməsində elmi biliklərin yayılmasında, fərdlərarası ünsiyyətin təşkilində böyük rol oynayır. Artıq qloballaşma ilə bağlı dövlət sərhədləri arasındakı sədlər görünmür. Orta əsrlərdə nə ekoloji, nə də informasiya təhlükəsizliyi problemləri aktual deyildir. Haz-hazırkı dövrümüzdə isə KİY cəmiyyətin hər bir təbəqəsinə təsir edə bilir. Burada bəzi hallarda informasiya xarakterli məlumatlar nəinki dövlətçiliyimizə eyni zamanda insanların sağlamlığına, psixoloji durumuna təsir edə bilir. Bəzən bu cur informasiyalar cəmiyyətin sosial sistemində böyük dəyişikliklərə səbəb olur. Buradan isə sosial sistemlərin təhlükəsizliyinin təmin edilməsində informasiya təhlükəsizliyinin rolu məsələsi meydana çıxır. İnformasiya təhlükəsizliyi isə KİV sistemində informasiya dinamizmi anlayışını daxil etməyi zəruri edir. İnformasiya dinamizmi konkret cəmiyyətin struktur özəlliklərinə uyğun gəlməyəndə effektsiz olur. Müasir informasiya savaşında cəmiyyətin təsir edilən sahəsində müqavimət gücü böyükdürsə, istənilən dinamizmin səmərəsi az olacaq. Cəmiyyətin psixoloji və mental hisslərinə az təsir belə sistemi sıradan çıxara bilər. Qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyi cəmiyyətin böyük həyatı ilə bağlı olan cəhətlərin nəzərə alınmasını tələb edir. Bu mənada informasiya təhlükəsizliyi dövlət təhlükəsizliyi, o cümlədən siyasi təhlükəsizliklərlə sıx bağlıdır. Bəzi hallarda məsələn, 90-cı illərdə Azərbaycanda dövlət çevrilişi ilə bağlı KİV-i çoxlu sayda təxribat xarakterli informasiyalar yayırdılar. Həmin

informasiyalar sözsüz ki, mövcud hakimiyyət haqqında xalq kütlələrində yanlış təsəvvür yaradırdı. Burada əsas hədəf dövlətçiliyimizin təhlükəsizliyidir. Dövlətçiliyimizin təhlükəsizliyi isə cəmiyyətin təhlükəsizliyindən qaynaqlanır. Məsələn, internetdə təxribat xarakterli materiallar çıxır. Azərbaycanlıların siyasi mədəniyyəti aşağıdır və s. səpkidə bu kimi sözlər sözsüz ki, respublikamıza onun xalqına qarşı təhqirdir. (Toroqon Affaris jurnalı. Nyu-York,1992:20) Buradan belə çıxır ki, dövlətçililiyimizin, millii mənəvi dəyərlərimizin, mədəniyyətimizin yad ünsürlərdən qorunmasında ölkəmizdə informasiya təhlükəsizliyinin böyük rolu vardır. Dövlətçiliyi qoruya bilmək millətin tarixini, mənəvi dünyasını, əxlaqını və nəhayət bütövlüyünü qorumaq deməkdir.

Milli mənəvi dəyərlərimizə toxunaraq, Qərb mətbuatında Məhəmməd Peyğəmbərin karikaturasının verilməsi sözsüz ki, bütün müsəlman aləmini çaxnaşmaya salmışdır. Bütün bunlar göstərir ki, söz azadlığının da həddi vardır. Belə məlumatlann verilməsi həddin aşdıqda Şərq Qərb arasında ziddiyyətlər yaradır.

Müasir dövrümüzdə, bu kimi qlobal xarakterli informasiyalar, dövlətlər, xalqlar arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb olur. Məhz buna görə də informasiya təhlükəsizliyi müasir Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi ilə bağlıdır.

İnformasiya təhlükəsizliyindən danışarkən kompüterbr vasitəsib törədilən cinayətkarlıqdan danışmamaq qeyri-mürnkündür. Məsələn, 1996-cı il 11 sentyabrın internet sistemi ilə qiymətli kağızların katirovkasmı yayan İnfoart sisteminin istifadəçiləri ekranda iqtisadi informasiya əvəzinə erotik məzmunlu şəkillər almışdılar. (Toroqon Affaris jurnalı. Nyu-York,1992:3)

Qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyi sahəsində baş verən cinayət hadisələri haqqında xeyli sayda misal gətirmək olar. Lakin göstərmək lazımdır ki, yuxarıda misal gətirdiyimiz yalnız rəsmi qeydiyyata alınan cinayətlərdir və bu sahədə qeydə alınmayan cinayətlərin sayı daha çoxdur. ABŞ kompüterləri Müdafiə İnstitutu 1996-cı ildə Federal İstintaq Bürosu ilə birgə kompüter cinayətkarlığının yayılması və onun qarşısının alınması ilə bağlı tədqiqatlar aparmışlar. Sorğularda 428 təşkilat iştirak etmişdir. Bu təşkilatların 42%-i iki ay ərzində kompüter sistemlərindən qanunsuz istifadənin bu və ya digər formasına məruz qaldıqlarını qeyd edirdilər. internet şəbəkəsindən informasiya sistemlərinə icazəsiz müdaxilələr də geniş yayılmışdır. Belə ki, bəzi hallarda internet saytlarında kəşfiyyat xarakterli materiallar dərc olunur. Bundan başqa ölkənin iqtisadi-siyasi, hərbi vəziyyəti ilə bağlı yalan informasiyalar da verilir. Qeyd etmək lazımdır ki, belə informasiyalar geniş xalq kütlələrində çaşqınlıq yaradır. Lakin elə informasiyalar da vardır ki, onu heç internetdə vermək düzgün deyildir. V. Putin (Rusiya Federasiyasının keçmiş prezidenti demişdir: Kimin çox informasiyası varsa, əsl kəşfiyyat və həqiqət də ondadır). (Toroqon Affaris jurnalı. Nyu-York, 1992:9)

Göründüyü kimi elə məsələlər var ki, onu internetə vermək olmaz. Çünki bununla dövlətə xəyanət etmiş olursan. Onu məxfi saxlamaq lazımdır. Qeyd etmək lazımdir ki, informasiya təhlükəsizliyi sahəsində cinayətlərlə mübarizə milli səviyyədə aparılmaqla yanaşı, həm də beynəlxalq səviyyədə həyata keçirilir. Bunu Avropa Şurası tərəfindən 27 aprel 2000-ci ildə qəbul edilmiş «Kompüter informasiyası sahəsində cinayətlər haqqında» Konvensiya təsdiq edir. Bu Konvensiya kompüter informasiyası sahəsində aşağıdakı cinayətlərə görə məsuliyyət nəzərdə tutulur:

1. Məlumata qanunsuz giriş buna hüququ olmadan bütün kompüter sisteminə və ya onun bir hissəsinə qəsdən daxil olma. Bu cinayət kompüterdəki məlumatın dəyişdirilməsi və ya digər cinayətkar məqsəd üçün təhlükəsizlik tədbirlərinin pozulması ilə bağlı ola bilər.

2. Məlumatın ələ keçirilməsi - ictimai yayım üçün nəzərdə tutulmayan məlumatın texniki vasitələrdən istifadə etməklə bilavasitə kompüter sistemində və ya bu cür məlumatı daşıyan elektromaqnit şüalar vasitəsilə qəsdən qeyri-qanuni ələ keçirilməsi.

3. Məlumatın modifıkasiyası - kompüterdəki məlumatların qəsdən qeyri-qanuni zədələməsi, silinməsi, dəyişdirilməsi və ya dağıdılması, yəni onların kompüter sisteminə daxil olmasının qeyri-mümkün edilməsi başa düşüiür.

4. Sistemdə modifikasiya - kompüterdəki məlumatların qəsdən qeyri-qanuni ötürülməsi, daxil edilməsi, zədələnməsi, silinməsi, yararsızlaşdırılması, dəyişdirilməsi və ya dağıdılması yolu ilə kompüter sisteminin fəaliyyətinə ciddi manelərin yaradılması.

5. Qeyri-qanuni qurğuların yaradılması

a) kompüterdəki məlumata qanunsuz giriş məqsədi üçün yaradılan və ya bu məqsədin həyata keçirilməsi üçün uyğunlaşdırılan kompüter proqramlarından ibarət olan qurğuların;

b) məlumata qanunsuz giriş, məlumatın ələ kecirilməsi, məlumatın və ya sistemin madifikasiya məqsədi ilə kompüter sistemınə və ya onun bir hissəsinə giriş hüququ verən parollarının, giriş kodlarının və ya bu kimi məlumatların - qanunsuz hazırlanması, satılması, istifadə olunması, yayılması.

BMT tərəfindən hazırlanmış "Kriminal polisin beynəlxalq təhlili -kompüterlərdən istifadə olunması yolu ilə törədilmiş cinayətlərin qarşısının alınması və onlara nəzarət edilməsi üzrə dərslik" də kompüter informasiyası sahəsində cinayətləri beynəlxalq qlobal problem adlandırırlar. Bu sənəddə göstərilir ki, "qanunvericilik və məhkəmə sistemi texniki proqresin inkişafi ilə ayaqlaşa bilmir. Bu sahədə çox az bir sayda dövlətlərdə adekvat qanunvericilik mövcuddur, lakin onlarda da hüquqi və hüquqi tətbiqedici çatışmazlıqlara rast gəlinir". (2000;12)

Göründüyü kimi informasiya təhlükəsizliyi sahəsində törədilən cinayətlər və onlarla beynəlxalq səviyyədə mübarizə milli təhlükəsizliyimizin ümdə vəzifələrindən biridir.

**ƏDƏBİYYAT**

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası, 24 may, 2007
Dini qrumlarla iş üzrə Dövlət Komitəsinin bülleteni B., 2001,№ 1
Toroqon Affaris jurnalı. Nyu-York, 19 aprel 1992
Artsax Televiziyası, Xankəndi 22 sentyabr 2000-ci il.

## III BÖLMƏ

## MİLLİ TƏHLÜKƏSİZLİK VƏ İKT

**Nurəngiz Mikayılova,**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*kafedra müdiri,i.f.d., dos.*
*nurengiz.mikayilova@mail.ru*

# AZƏRBAYCANDA TƏHSİL SİYASƏTİ VƏ MALİYYƏLƏŞMƏ MEXANİZMLƏRİ

**Açar sözlər:** təhsil siyasəti, maliyyələşmə, insan kapitalı, ali təhsil

Həyatımızın elə sahəsi yoxdur ki, orada Ulu Öndər Heydər Əliyevin əl işləri olmasın. İstər Sovet Hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə təhsilə həmişə önəm verən Öndər qeyd etmişdir: "Təhsil sahəsi nə sənaye, nə kənd təsərrüfatı, nə də ticarətdir. Bu, cəmiyyətin xüsusi intelektual cəhətini əks etdirən bir sahədir" (**Mahmud Qəzənfəroğlu "Təhsil dövlət siyasətinin prioritet istiqamətlərindən biridir", Xalq qəzeti.- 2010.- 18 iyun.- S. 5).**

Müstəqil dövlətin əsas strateji istiqamətlərindən biri insan kapitalının inkişafı, rəqabətqabiliyyətli, dünya əmək bazarında dayanıqlıq göstəbilən kadrların hazırlanmasıdır.

Son illər aparılan sosial-iqtisadi siyasət nəticəsində ölkədə yüksək inkişafa nail olunmuş, əhalinin maddi rifahı xeyli yaxşılaşmış, yoxsulluğun səviyyəsi minimuma enmiş və Azərbaycan Respublikası orta gəlirli ölkələr sırasında yer tutmuşdur. Gerçəkləşdirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı üçün şərait yaratmışdır.

Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir.

Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Hərtərəfli düşünülmüş, millətin gələcəyinin təhsildə oldugunu özündə ehtiva edən bu siyasi xətt bu gün uğurla davam etdirilməkdədir. Qloballaşma proseslərinin fəal iştirakçısı olan ölkəmiz "qara qızılın insan potensialına" çevrilməsi istiqamətində ardıcıl proqramlar həyata keçirməkdədir. Ölkəmizdəki elm və təhsil ocaqları ilə yanaşı mövcud intelektual potensialın zənginləşdirilməsi,

yeni texnika və texnologiyalarla işləyəbilən rəqabətədavamlı kadrların hazırlanması məqsədilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nı imzalandı.

Respublikanın inkişaf perspektivləri ictimai-iqtisadi və elmi-mədəni sahələrdə fəaliyyət göstərəcək kadrlar qarşısında ölkə daxilində və xaricində müxtəlif dövlət qurumlarında, beynəlxalq təşkilatlarda, bank-maliyyə sistemlərində, eləcə də özəl sektorda çalışaraq Azərbaycanda idarəetmənin və mədəniyyətin, elmin, təhsilin və səhiyyənin müasir standartlara cavab verən yeni bir mərhələyə keçidini təmin etmək vəzifəsini qoyur.

Bütün bunlar Azərbaycanda dövlət qurumlarının işinin təkmilləşdirilməsi, iqtisadiyyatın yeni yüksək səviyyəyə qaldırılması, ölkənin elm və təhsil potensialının zənginləşdirilməsi naminə dünyanın qabaqcıl mötəbər təhsil ocaqlarında mütəxəssis hazırlanması zərurətini meydana gətirmişdir.

Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədilə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli Sərəncamı imzalanmışdır. Həmin Sərəncama uyğun olaraq hazırlanmış "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nda istedadlı Azərbaycan gənclərinin xaricdə təhsilinin təşkili istiqamətində vahid sistemin yaradılması nəzərdə tutulur **("2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı", 2007-ci il 16 aprel).**

31 dekabr 2019-cu il tarixinə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı" çərçivəsində 3460 nəfərin təhsili ilə bağlı xərclər ARDNF tərəfindən maliyyələşdirilmişdir, onlardan 2319 nəfər artıq məzun olmuşdur. Proqram çərçivəsində oxuyanların 79%-i bakalavr və ya magistr dərəcələri üzrə təhsil almışdır. 2008-2018-ci illər ərzində ARDNF tərəfindən bu proqramın maliyyələşdirilməsinə ümumilikdə 212,7 milyon manat məbləğində vəsait ayrılmışdır.

Proqram tərəfindən təhsili maliyyələşdirilmiş məzunların 95%-i aldıqları ixtisas üzrə çalışırlar, bu da ixtisasların düzgün seçimi və bölüşdürülməsini təsdiq edir. Proqram vasitəsi ilə məzun olan tələbələrin müəyyən bir hissəsi ölkənin qabaqcıl universitetlərində mühazirələr deyir və yaxud müxtəlif onlayn tədris platformaları vasitəsi ilə öz biliklərini paylaşır. Bu və proqram iştirakçılarının təhsil sahəsində gördüyü digər işlər onların xaricdə qazandıqları bilik və bacarıqlarını yaymağa və Proqramın təsirini daha davamlı və uzunmüddətli edərək çoxaltmağa zəmin yaradır. 2016-cı ildə proqrama tələbə qəbulu artıq dayandırılmışdır, ancaq 2015-ci ildə Proqrama qəbul olmuş tələbələrin 1 387 nəfəri təhsilini davam etdirməkdədir. Proqramın sonuncu məzunlarının isə 2021-ci ildə universitetləri bitirmələri gözlənilir (http://www.socar.az/socar/az/economics-and-statistics/economics-and-statistics/oil production).



**Şəkil 1. Proqram çərçivəsində təhsil alan tələbələrin prioritet sahələr üzrə bölgüsü**

"Qara qızılın insan kapitalına çevrilməsi" ölkənin müasir tələblərə cavab verən kadrlara olan ehtiyacının ödənilməsi prosesində əvəzsiz rol oynamışdır. Proqram çərçivəsində yüksək akademik nəticələr göstərən məzunlar bu gün universitetlərdə və müxtəlif təşkilatlarda əmək fəaliyyətinə başlamışdır. "ADA" Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti və s. ali təhsil ocaqlarında bu məzunlar professor-müəllim heyətinin akademik bacarıqlarının müasirləşməsində, interaktiv metodların təhsil prosesində geniş tətbiq edilməsində, təhsil müəssisələrində inovativ inkişafin sürətləndirilməsində mühüm rol oynayırlar.

"Əsrin müqaviləsi" imzalanarkən müqavilədə əsas diqqət çəkən məqamlardan biri də "Milliləşmə" Proqramı olub, əsas mahiyyəti dünya səviyyəsində rəqabətə girəbilən yüksək ixtisaslı kadrların hazırlanması və onların sayının tədricən artırılması idi. Belə ki, Sazişə görə Əməliyyat şirkəti neft-qaz əməliyyatlarının aparılması üçün Azərbaycan Respublikası vətəndaşlarının işə götürülməsinə üstünlük verməlidir, bu şərtlə ki, həmin vətəndaşlar Əməliyyat şirkətinin tələblərinə cavab verən lazımi biliyə, ixtisaslara və təcrübəyə malik olsunlar. Bu vətəndaşların peşə təlimi keçmək hüququ vardır. İxtisaslı kadrların məhz istehsalatda hazırlanması təcrübəsi inkişaf etmiş ölkələrdə geniş yayılmışdır və bu gün Azərbaycanda da ugurla tətbiq olunmaqdadır. İstehsalatda yüzlərlə ixtisaslı kadrların hazırlanması və bu prosesin bu gün də davam etdirilməsi Azərbaycan dövlətinin "Əsrin Müqaviləsi" imzalanarkən əldə etdiyi bir uğurdur. Qeyd edək ki, bu kadrların hazırlanmasının maliyyələşməsi BP şirkəti tərəfindən həyata keçirilir. Eyni zamanda xaricdə yüksək akademik göstəricilərlə təhsilini başa vuran tələbələr dunyada tanınan xarici və yerli şirkətlərdə asanlıqla əmək fəaliyyətinə başlayır və beynəlxalq əmək bazarına inteqrasiya oluna bilirlər.

24 oktyabr 2013-cü il tarixində imzalanan "Azərbaycan Respublikasında təhsilin inkişafina dair Dövlət Strategiyasında əsas aşağıdakı istiqamətlər hədəf götürülmüşdür: a) təhsil sisteminin bütün pillələrində kurikulum sisteminin inkişafı; b) innovativ təlim metodlarını tətbiq edə bilən səriştəli təhsilverənlərin formalaşdırılması və peşəkarlıqlarının artırılması; c) təhsil sistemində nəticələrə görə cavabdehlik daşıyan, məsuliyyətli, tənzimləmə, saglam rəqabət mühitini formalaşdırmağı bacaran yeni idarəetmə sisteminin formalaşdırılması; d) ömür boyu təhsili və müasir tələblərə cavab verən innovativ təhsil infrastrukturunun yaradılması; e) dayanıqlı maliyyələşmə mexanizmlərinin tətbiq olunması. **("Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə" Dövlət Strategiyası, 24 oktyabr 2013).**

Dövlət Strategiyasında iqtisadi cəhətdən dayanıqlı və dünya standartlarına cavab verən təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulması, mövcud maliyyələşmə mexanizminin təkmilləşdirilməsi və Təhsilin İnkişaf Fondunun yaradılması prioritet istiqamət kimi götürülmüşdür. Bundan əlavə maliyyələşməni əsasən keyfiyyət dəyişliklərinə və stimullaşdırma mexanizmlərinə doğru istiqamətləndirmədə dünya təcrübəsindən istifadə etmək prioritet hədəflərdəndir.

Bu gün Azərbaycan təhsil sistemində Avropa Şurası tərəfindən tövsiyyə olunmuş kompetensiyalar qrupu əsas götürülür. Baloniya prosesi güclənir, dövlət maliyyələşməsi özəl sektorun maliyyələşməsi ilə əvəzlənir. Qabaqcıl təhsil sisteminə malik dövlətlərə nəzər saldıqda görürük ki, bu da müəyyən qədər nisbi xarakter daşıyır. Belə ki, İtaliya, Almaniya, Avstriya kimi dövlətlərdə dövlət maliyyələşməsinin həcmi 80-90% təşkil edirsə, ABŞ, İngiltərə, Avstraliyada bu rəqəm 50-60% təşkil edir. Halhazırda Azərbaycanda 4443 umumtəhsil məktəbi fəaliyyət göstərir ki, bunlardan 25-i özəl sektora aiddir. Müvafiq olaraq orta ixtisas məktəblərindən 56-dan 3-ü özəl, ali məktəblərin 45-dən 12-si özəl sektorda fəaliyyət göstərir. 2019-cu ilin dövlət büdcəsindən təhsilə 2,285.884.349 milyard manat ayrılmışdır ki, bu da icmal büdcənin 9,2%-ni təşkil edir.

Prezidentin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" imzalanmış, strateji baxış və hədəflər, maliyyələşmə mexanizmləri müəyyən edilmişdir. Belə ki, müəyyən edilmiş hədəflərə çatmaq üçün 190 milyon 950 min manat tələb olunur ki, bu da dövlət büdcəsi, yerli büdcələr, mülkiyyət formasından asılı olmayaraq müəssisə və təşkilatların vəsaiti, yerli və xarici investisiya, bank

kreditləri hesabına maliyyələşəcək. Eyni zamanda tələb olunan vəsaitin böyük hissəsi özəl sektor və müxtəlif investorların maliyyəsi hesabına reallaşacaq.

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan vətəndaşlarının doktorantura səviyyəsi üzrə təhsil alanların müxtəlif dövlətlərin yaşayış normaları nəzərə alınaraq aylıq xərc normaları müəyyən edilmişdir. Belə ki, hər bir doktoranta ABŞ-da ştatlardan asılı olaraq 1600-2000 ABŞ dolları, Almaniyada 1500 avro, Avstraliyada 1600 ABŞ dolları, Böyük Britaniyada 1100 funt sterlinq, Çində 1300 ABŞ dolları, Kanadada 1600 ABŞ dolları, Qətərdə 1600 ABŞ dolları, Türkiyədə 1300 ABŞ dolları, Yaponiyada 1900 ABŞ dolları, Rusiyada 1400 ABŞ dolları və s. aylıq xərc normaları müəyyən edilmişdir **("2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" 2018-ci il 16 noyabr).**

Bu Dövlət Proqramının maliyyələşməsi Azərbaycan Respublikası Dövlət Neft Fondu, kredit və qrantlar, beynəlxalq təşkilatların maliyyə yardımları, xarici və yerli hüquqi və fiziki şəxslərin ianələri hesabına baş tutacaq.

Dövlətin apardığı məqsədyönlü təhsil siyasəti nəticəsində "ADA" Universiteti, Bakı Ali Neft Məktəbi, Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Turizm və Mececment Universiteti beynəlxalq ikili diplom proqramlarını həyata keçirməyə başlamış, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı və M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialı açılmışdır.

Ölkənin təhsil sisteminin başlıca vəzifəsi təhsil infrastrukturu və insan potensialını inkişaf etdirmək, müasir texnologiyaları geniş mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, ömür boyu təhsil sisteminə qoşulmaqdır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar cəmiyyətin saglamlaşmasına, nümunəvi vətəndaş və ailə modelinin formalaşmasına zəmin yaradır, təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasını müstəsna dərəcədə əhəmiyyətli edir.

Ədəbiyyat siyahısı

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə" Dövlət Strategiyası, 24 oktyabr 2013
2. (Mahmud Qəzənfəroğlu "Təhsil dövlət siyasətinin prioritet istiqamətlərindən biridir", Xalq qəzeti.- 2010.- 18 iyun.- S. 5)
3. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı" 2007-ci il 16 aprel
4. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" 2018-ci il 16 noyabr
5. http://www.socar.az/socar/az/economics-and-statistics/economics-and-statistics/oil-production

**Пётр Орлов**
**УО «Белорусский государственный экономический университет»**
**petr.orlov99@gmail.com**

# СОВРЕМЕННЫЕ ИНФОРМАЦИОННЫЕ ТЕХНОЛОГИИ В ГОСУПРАВЛЕНИИ КАК ЭЛЕМЕНТ СИСТЕМЫ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

**Ключевые слова:** государственное управление, электронное правительство, открытое правительство, умное правительство, национальная безопасность.

Реформы 90-х годов XX столетия поставили под сомнение «силу» и «минималистичность» государства, утверждая принцип эффективности государства в качестве ядра социальных и экономических процессов, а также катализатора, партнера, помощника деятельности частного сектора и отдельных граждан.

Последняя четверть XX – начало XXI в. является важной вехой на пути интенсивного поиска оптимальных моделей государственного управления, который вылился в проведение т.н. административных реформ, сначала в странах Запада, а потом и в других частях света. Необходимость серьезной трансформации традиционных систем государственного управления может быть объяснена не столько локальными причинами социально-экономического характера, сколько глубинными общественными сдвигами в современном мире: формированием структур постиндустриального общества, развитием глобализационных процессов и глобальной экономической конкуренции, появлением наднациональных институтов и развитием гражданского общества [Красильников, 2014: 45].

На основании вышеуказанных слов мы предлагаем проследить эволюционную модель системы государственного управления опосредованной информационно-коммуникационными технологиями.

Так, зародившийся в 90-х годах XX века New Public Management ставит под сомнение эффективность традиционной модели государственного управления с присущей ей иерархической подчиненностью и централизацией управленческих решений, более того, он провозглашает переход к постбюрократическому, менеджериальному миру.

В этой связи М. Барзлей выделил следующие различия между традиционно-бюрократическими и постбюрократическими моделями управления:

бюрократическая организация фокусируется, прежде всего, на собственных потребностях и перспективах, а постбюрократическая – на потребностях и перспективах потребителя;

бюрократическая организация базируется на четком распределении ролей и ответственности между работниками, постбюрократическая – на сплоченности работников, действующих как одна команда;

бюрократическая организация оценивает свою деятельность по объему освоенных ресурсов и количеству выполняемых задач, постбюрократическая – по результатам, представляющим ценность для потребителей;

бюрократическая организация неукоснительно соблюдает установленные законом процедуры, постбюрократическая способна менять правила при появлении новых требований к производимым ей услугам (цит. по: [Красильников, 2014: 45]).

Таким образом, функции государства в менеджериальной управленческой парадигме сводятся к служащему, цель которого – производство общественно значимых услуг.

Термин «электронное правительство» вошел в политический дискурс в 90-х годах XX века. В основе проектов электронного правительства лежали модель взаимодействия государства, бизнеса и клиента (гражданина) в электронном пространстве и концепция «межсетевого государственного сектора», а также концепция хорошего (качественного) государственного управления (good governance). Последняя включает такие принципы, как

верховенство права, равенство, ориентация на консенсус, участие граждан в процессе принятия государственных решений, оперативность (административные процессы в разумное время обеспечивают вовлечение и дают возможность участия всех заинтересованных лиц), и эффективность (органы власти «производят» результаты, которые удовлетворяют общественные ожидания и, в то же время, наилучшим образом используют ресурсы, находящиеся в их распоряжении, заботясь о воспроизводстве этих ресурсов); прозрачность и подотчетность [UNDP, 1997].

Основными качественными характеристиками электронного правительства являются:

доступность и индивидуализированность услуг, оказываемых государством гражданам, организациям, предприятиям;

подотчетность и прозрачность деятельности правительственных органов;

информирование и результативное участие граждан в политическом процессе;

расширение возможностей представительных учреждений;

свободный обмен информацией (цит. по: [Соколова, 2011]).

В настоящее время концепция «открытого правительства» внедряется в управление государством во всех развитых странах. «Открытое правительство» по праву отождествляют с термином – «открытое государство». Впервые, на достаточно высоком государственном уровне термин открытого государства был рассмотрен герцогом Ланкастером в 1993 году и имел следующее содержание: «"Открытое государство" – это часть эффективной демократии». Граждане должны иметь адекватный доступ к информации и анализу, на основе которого государство работает. Министры и публичные служащие обязаны разъяснять их законы, решения и действия общественности. Государство, тем не менее, нуждается в том, чтобы хранить некоторые секреты и обязано защищать личную жизнь тех, кем оно управляет» [Беттин].

Считается, что примерно в 60-х годах XX в., когда сначала в США, а затем и в большинстве стран мира были приняты законы, гарантирующие свободу информации, началось вступление западных стран в новый период функционирования управления – Smart Governance (умное правление). Это словосочетание было впервые использовано в небольшом и неопубликованном отчете Мирового Банка в 1997 г. («Re-thinking civil service reform: An agenda for smart government (Poverty and Social Policy Working Paper»), автор Б. Нунберг).

Позднее оказалось, что почти одновременно его использовали в Индии в штате Андхра-Прадеш, характеризуя им степень компьютеризации правительства. Его активно использовал Б. Клинтон, формулируя задачи перед новой администрацией.

Учитывая, что целостная концепция Smart Governance еще формируется, назовем ее принципы, сформулированные на данный момент:

применение электронных или цифровых технологий в управлении;

использование информационно-коммуникационных технологий для трансформации жизни и/или рабочей среды;

их внедрение в систему государственного управления;

использование сетей, объединяющих (по сегментам) правительство, бизнес, территориальные структуры государственного и муниципального управления [Меньшикова, 2018: с.302].

Все исследователи Smart Governance указывают на обязательность принятия как данности его сложности и неопределенности, равно как и необходимости создания инфраструктурных условий: формирования компетенций и архивов баз данных. Ими изучается влияние всего агломерата сильных и слабых факторов, таких как нормы, политические курсы, практики, технологии, навыки – на скорость и глубину социальной трансформации. По мере развития инфраструктуры становятся значимыми такие факторы Smart Governance, как нацеленность на реальные социальные проблемы, расширение возможностей и повышение степени реализуемости поставленных задач, участие

стейкхолдеров, постоянное совершенствование, координация, широкий допуск населения к открытому правительству и информационным базам [Меньшикова, 2018: с.302].

Таким образом, подводя итог нашему небольшому экскурсу по моделям государственного управления отметим, что модели государственного управления находятся в перманентном состоянии развития и трансформации, что обусловлено не только внешними факторами (такими как становление постиндустриального общества, глобализация, формированием наднациональных структур), но и внутренними под которыми следует понимать эффективность и результативность системы в деле обеспечения стратегических целей общества, а также поддержания системы национальной безопасности страны.

Список литературы:

Красильников, Д.Г. Современные западные управленческие модели: синтез New Public Management и Good Governance / Д.Г. Красильников, О.В. Сивинцева, Е.А. Троицкая // ARS ADMINISTRANDI. – 2014. – Теории политики, экономики и управления С. 45–62.

Меньшикова Г.А. Режимные сравнения как социальные технологии Smart Governance / Г.А. Меньшикова, Н.А. Пруель // Вестник Санкт-Петербургского университета. – 2018. – №3. С. 301–318.

Соколова, М. Электронное правительство в Беларуси: преодолеть инерцию информатизации [Электронный ресурс] / М. Соколова. – Режим доступа: http://egov.by/wp-content/uploads/bookletsimpa.pdf. – Дата доступа: 08.04.2020.

UNDP. Governance for Sustainable Human Development [Электронный ресурс]. – Режим доступа: http://gis.emro.who.int/HealthSystemObservatory Workshops/WorkshopDocuments/Reference%20reading%20material/Literature%20on%20Governance/GOVERN~2.PDF. – Дата доступа: 08.04.2020.

**Məhəmməd Cəbrayılov**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*a.e.i., f.f.d.*
*mehmetsoltanedu@gmail.com*

# MÜASIR İMPERİALİZM SİYASƏTİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ PROBLEMİ

**Açar sözlər:** imperializm, təhlükəsizlik, informasiya, milli suverenlik

Bugünkü dünyada informasiya üzərində müharibələrin ənənəvi müdaxilə formalarından daha mürəkkəb olduğu bir reallıqdır. Regional və qlobal qüvvələr, xüsusən seçki və kritik dövrlərdə, ölkədəki inkişafa təsir etmək üçün klassik və yeni şəbəkələr vasitəsi ilə müxtəlif manipulyasiya üsullarını tətbiq edirlər. Bütün bunlar onu göstərir ki, informasiya təhlükəsizliyi istənilən dövlət üçün mühüm amildir. Məsələyə bu kontekstdən yanaşdıqda milli təhlükəsizlik məsələsinin necə və harada yarandığını araşdırdıqda aydın olur ki, milli təhlükəsizlik anlayışı ilk dəfə olaraq ABŞ da 1943-cü ildə Valter Lippman kitabında işlədilmişdir. Dünyanın qlobal güc mərkəzində 1947-ci ildə ilk dəfə olaraq "Milli təhlükəsizlik haqqında akt"ın qəbul olunaraq və onun əsasında iki mühüm təşkilat- Milli Təhlükəsizlik Şurası və Mərkəzi Kəşfiyyat İdarəsi yaradılmışdır. ABŞ-ın milli təhlükəsizliyə verdiyi önəm bir daha onu göstərir ki, hər dövrün tələblərinə uyğun olaraq milli təhlükəsizlik məsələsi aktual olmuş və xüsusilə indiki halda informasiya amili nəzərə alınmadan milli təhlükəsizlik məsələlərində qabaqlayıcı tədbirlər görmək səmərəsiz görünür. Məsələn, Akademik Ramiz Mehdiyev qeyd edir ki, "Azərbaycanın milli təhlükəsizlik strategiyası Azərbaycan cəmiyyətinin daimi mənafelərini qorumaq məqsədi ilə real və proqnozlaşdırılan meyllərin idarə edilməsi sahəsində bir-biri ilə qarşılıqlı surətdə bağlı olan ideyaların məcmusundan ibarətdir. ABŞ, Yaponiya, Fransa kimi ölkələrdə milli təhlükəsizlik məsələləri onilliklər ərzində formalaşmışdır və bu zaman dövlətin regiondakı rolu orta müddətli və uzunmüddətli perspektivdə onun beynəlxalq məsələlərdə mövqeyi nəzərə alınmışdır (Mehdiyev, 2005:254).

Ümumiyyətlə yuxarıda qeyd olunduğu kimi milli təhlükəsizlik məsələsi zamanla formalaşma və yenilənmə xüsusiyyətlərini özündə saxlayan strateji tədbirlər planı olmaqla yanaşı, həmdə müasir dövrdə informasiya cəmiyyətinin yaratdığı reallıqları nəzərə almağı tələb edir.

ABŞ və NATO tərəfindən yaradılan "Department's Global Engagement Center" ilə "NATO"s Strategic Communications Center of Excellence" mərkəzləri bu informasiya təhlükəsizliyi sahəsində baş verən müdaxilələrin qarşısını almaq və əks strategiyalar hazırlamaq üçün qurulmuşdur. Bütövlükdə bu mərkəzlər ABŞ-ın informasiya sahəsində Rusiya tərəfindən edilə bilən kiber hücumların, manipulyasiyalarının qarşısını almaq, dezinformasiya və əks təbliğatı aradan qaldırmaq üçün hər il 60 milyon dollar xərcləyir. Dövlətlərin bu sahədəki sərmayələri və təşəbbüsləri ilə yaradılan bu bölmələr yeni kommunikasiya problemlərinə qarşı görüləcək tədbirlər haqqında ip ucları verir.

ABŞ-a milli təhlükəsizlik mövzusunda məsləhət verən "RAND Korporasiyasının yazdığı hesabatda mövzu ilə əlaqəli diqqətimizi çəkən vacib məsələdə qeyd olunur: "...Rusiya mətbuatı tərəfindən yayılan xəbərlərin Qərbin əsas mətbuatında analiz olunmadan yayılmasıdır. İnformasiya sahəsindəki manipulyasiya müharibələrinin Rusiya, Çin kimi ölkələrlə məhdudlaşmadığı və bu istiqamətdə strateji məqsədlər üçün digər ölkələrin də istifadə edəcəyinə şübhə yeri qalmadığı qeyd olunur" (Yerlikaya, 27.10.2018).

Bu hesabatdan aydın olur ki, dünyanın ən böyük informasiya texnologiyalarına sahib olan ABŞ informasiya amilinin öz milli təhlükəsizliyi üçün nə demək olduğunun fərqindədir. Beləliklə, informasiya amilindən istifadə olunmaqla milli suverenliyə qarşı yönələn təhdidlər beynəlxalq konvensiyalara zidd olmasına baxmayaraq, müasir dövrdə belə proseslərin neqativ təsirləri Azərbaycanın işğal olunmuş əraziləri üçün də xarakterikdi. Çünki, Ermənistana lobbiçilik edən dairələrin Azərbaycanın ərazi bütövlüyünü təhdid edən dezinformasiyaların yayılmasında tərəf kimi çıxış etməsi tarixən formalaşan beynəlxalq hüququn norma və prinsiplərinin ciddi pozulması deməkdir.

***Milli suverenliyə qarşı yönələn informasiya amili***

"Millətin suverenliyi çərçivəsində milli dövlətin tarixi tərifi XXII əsrə aid olsa da, Vestfaliya Prosesi bir dönüş nöqtəsi hesab olunur. Məsələn, 1648-ci ildə imzalanan Vestfaliya müqaviləsinin əsas prinsipləri: "bərabər hüquqlu dövlətlər, birgə asayişi saxlamaq ideyası, suverenitet anlayışının meydana gəlməsi, problemlərin sülh yolu ilə həll edilməsi kimi öhdəliklər beynəlxalq hüququn norma və prinsiplərini müəyyənləşdirdi (Karakaya, 12.08.2020).

Milli dövlətlərin suverenliyini yeni təhdidlərlə məruz qoyan amillərdən biri tarixən formalaşan norma və prinsiplər nəzərə alınmadan böyük güclərin geosiyasi toqquşmalarla müşahidə olunan siyasi oyunlarıdırsa, digər tərəfdən dünyanın ayrı-ayrı kontinentlərində ərazi bütövlüyünün pozulmasını həyata keçirən qüvvələrin qlobal informasiya məkanında beynəlxalq aləmi çaşdıran dezinformasiyaların yayılmasını heç bir məsuliyyət daşımadan həyata keçirməsidir. Məsələn, bu gün dünyada baş verən infoimperializmi siyasətinə uyğun olan dezinformasiyalar, yalan məlumatların tirajlanması nəticəsində BMT –nin qəbul etdiyi qətnamələrə baxmayaraq Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonları haqqında beynəlxalq aləmdə tam ədalətli mövqe formalaşmayıb.

H.Babaoğlu qeyd edir ki, "infoimperializmin yaranması və yaxud onun əsaslarının qoyulması XX əsrin ikinci yarısına təsadüf edir. Belə ki, həmin dövrdə bir sıra Qərb nəzəriyyəçiləri, ideoloqları və strateqləri ənənəvi, klassik əsaslar üzərində bərqərar olunmuş mədəni imperializmin lazımi dividentlər gətirmədiyini və kifayət qədər səmərəli olmadığını, həmçinin, həmin dövrdə geniş vüsət almış milli özünüdərk prosesinin mədəni imperializmin üfüqlərini məhdudlaşdırdığını anlayırdılar və özləri də mədəni imperializmin sonunun yaxınlaşdığını etiraf edirdilər. Məhz buna görə də, həmin dövrdə bəhs olunan ideoloqlar və strateqlərin qarşısında iki əsas məsələ var idi: birincisi, imperializmi yeni keyfiyyət ünsürləri əsasında təşkil etmək və onun davamlılığının təmin olunmasına nail olmaq; ikincisi, imperializmə mane olan ünsürlərə, xüsusilə də milli dövlətlərə qarşı mübarizə aparmaq" (Babaoğlu, 2013:12).

İndiki vaxtda dövlətlərin dünyadan təcrid vəziyyətində siyasət qurması qeyri-mümkün olduğu kimi, qlobal informasiya məkanından istifadə etməyən dövlət üçün beynəlxalq əməkdaşlıq məsələlərini zamanın tələbləri ilə uzlaşdırması çətin olur. Həqiqətən beynəlxalq münasibətlərdə çevik qərarlar vermək, müasir geosiyasi proseslərdə rol almaq, milli suverenliyi təhdid edən güc mərkəzlərinin infoimperializm siyasətindən müdafiə olunmaq üçün qlobal informasiya məkanında baş verən dəyşikliklərin dərk ollunmasını zəruri edir. Məhz bu baxımdan dövlətin milli suverenliyini təhdid edən 3 əsas aktoru qeyd etmək olar:

a) Qlobal güc mərkəzləri və onların təsiri altında olan beynəlxalq təşkilatlar
b) transmilli şirkətlər; transmilli medialar
c) qlobal qeyri-hökumət təşkilatları

Bir tərəfdən yuxarıda qeyd etdiyimiz təşkilatlar və qlobal güc mərkəzləri dünya nizamının formalaşmasında iştirak edir, digər tərəfdən bu nizamın pozulmasında iştirakçı olan dövlətlərin qlobal informasiya məkanında yaratdığı deizinformasiyaya birbaşa və ya dolayısı ilə dəstək verilir. Beləliklə qlobal dünyanın siyasi və iqtisadi həyatında fəaliyyət göstərən təşkilatlar səlahiyyətləri istiqamətlərinə uyğun olan məsələlərin ədalətli həllinə töhfə verə bilmir. Məhz bu kontekstdə baş verən proseslərin mahiyyətini dəqiq izah etmək üçün beynəlxalq təşkilatlarda qlobal geosiyasi rola sahib olan dövlətlərin yeni imperializm yaradan informasiya amilini təhlil etmək lazım gəlir. Belə bir təhlildə H. Babaoğlu qeyd edir ki, "...bilindiyi kimi, hərbi, iqtisadi və mədəni imperializmin əsas vasitəsi qismində məhz müharibələr çıxış edir. Və yaxud hərbi, iqtisadi və mədəni imperializmi qurmaq müharibələr nəticəsində mümkün olmuşdur. Belə olan halda, əlbəttə ki, informasiya imperializmini formalaşdırmaq da müharibələr nəticəsində mümkün olmalı idi" (Babaoğlu, 2013:12).

Yuxarıda qeyd olunan yanaşmadan da aydın olur ki, ənənəvi modellər üzərində bərqərar olan bəşəriyyət yeni dünya düzəninə əsaslanan forma və məzmunca infokulturoloji xarakter almağa başlayır. Bütövlükdə bu prosesin anlaşılması üçün qlobal güclərin geostrateji konsepsiyalarında mədəni imperializmdən infoimperializmə keçid təşviq olunur və bu transformasiyanın necə və hansı üsullarla baş verdiyinin dərk olunma zərurəti var. Hələ informasiya cəmiyyətinin aktual olmadığı

dövrdə yeni cəmiyyətlərin formalaşdığını 1973-cü ildə anons edən Daniel Belin və "Yeni sivilizasiya həyatımızda əmələ gəlir, onu görməyə qadir olmayanlar, onu boğmağa çalışırlar" ideyası ilə başlayan "Üçüncü dalğa" kitabını elmi ictimaiyyətin müzakirəsinə çıxan Elvin Tofflerin fikirləri o dövrün elmi fantaziyası kimi qiymətləndirilirdi. Uzaq keçmiş olmayan bu yanaşmalarda cəmiyyətin inkişaf meyllərində baş verən sürətli dəyişmələri nəzərə almadan milli təhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində etibarlı təminat almaq mümkün deyil. Bu istiqamətdə 1993-cü ildə Samuel Hantinqton "Sivilizasiyaların toqquşması" adlı məqalədə mədəniyyətlərin toqquşmasını gələcəkdə yeni fazaya keçəcəyi qeyd olunur. Bu gün dünyanın geosiyasi məkanında belə strategiyaların praktik nümunələrini Yaxın Şərq və Şimali Afrikada müşahidə etmək mümkündür.

XXI əsrin əvvəllərindən başlayaraq Avroatlantik dairələrin beyin mərkəzlərində dünya siyasətinin əsas meyl və istiqamətlərini müəyyənləşdirən geosiyasi məsələlər xüsusi istiqamətlər üzrə inkişaf etdirilərək beynəlxalq münasibətlər sisteminin keyfiyyətcə yeni mərhələyə daxil olmasını şərtləndirir. Bu baxımdan müasir geosiyasi proseslərin yeni mərhələyə daxil olması fonunda informasiya imperializmini özünün strateji məqsədinə yönəldən qlobal aktorlar milli dövlətləri ciddi fakt və seçim qarşısında qoymuşdur. Bütün bu geosiyasi proseslərin fonunda Yaxın Şərqdə, Balkanlarda, Cənubi Qafqazda Avroatlantizmlə Avrasiyaçılığın toqquşmasında istifadə olunan siyasi "alətlər" keyfiyyətcə yenidir və XX əsrdə baş verən toqquşmalardan tamamilə fərqlənir. Buna görə də, dünyanın güc mərkəzlərinin formalaşdırdığı beynəlxalq şəraitin fonunda müasir geosiyasi proseslərə uyğun olaraq informasiya amilindən praqnozlaşdırılması çətin olan manipulyasiyalar edilməsi milli dövlətləri aciz duruma salır. Təəssüf ki, müasir geosiyasi proseslərdə rol alan qlobal güc mərkəzlərinin həyata keçirdiyi strateji kursun real mahiyyətinin bu proseslərdə hədəf kimi seçilmiş dövlətlərin ictimai həyatında dərk olunmaması milli dövlətləri çətin duruma salır. Bu mənada yeni geosiyasi proseslərdə informasiya imperializminin milli dövlətlər üçün yaratdığı təhdidləri bu cür qruplaşdırmaq mümkündür:

- informasiya amilindən istifadə edilməklə milli təhlükəsizlilikdə konfidensiallığın pozulmasına yönələn təhdidlər;
- yumşaq gücdən istifadə olunmaqla tarixən formalaşmış sərhədlər daxilində milli suverenliyə qarşı yönələn təhdidlər;
- milli məsələlərdə konsensusun itirilməsinə yönələn təhdidlər

Yuxarıda qeyd etdiyimiz təhdidləri nəzərə alaraq qeyd etmək lazımdır ki, siyasi-ideoloji vasitələrlə milli identikliyə qarşı informasiya məkanında geniş imkanları özündə ehtiva edən internet resursları mövcuddur. İnternet və sosial şəbəkələr bəşəriyyətin daxil olduğu yeni platformadır. Bəşəriyyətin keçdiyi inkişaf yolunda heç vaxt indiki qədər fərdlərin və cəmiyyətlərin inteqrasiyasına meydan verən bu cür kommunikasiya əlaqələri olmayıb. İnternetin yaratdığı meydan o qədər böyükdür ki, burada hərəkət azadlığının başlanğıc və son nöqtəsini müəyyənləşdirmək çox çətindir. Belə olan təqdirdə qeyd etdiyimiz platforma üzərində siyasi layihələri həyata keçirən güc mərkəzlərinin sosiumun xaosla idarə etməsinə qarşı hər hansı müdafiə və nəzarət etmək mexanizmləri çox zəifdir. Bu isə özlüyündə hər hansı cəmiyyətə tətbiq olunan infoimperializm siyasəti zamanı xaos, tərəqqi və sabitliyin pozulması kimi hadisələrin baş verməsini labüd hala gətirir. Məsələn, Yaxın Şərq və Şimalı Afrikada 2010- cu ildə baş verən "Ərəb baharı", "Ərəb inqilabları" və ya "Ərəb üsyanları" adı altında dünyanın geosiyasi mənzərəsini dəyişən hadisələrin baş vermə səbəbinin və xarakterini aydınlaşdırmağa ehiyac var.

Söz azadlığı, bürokratik əngəllər, işsizlik, ərzaq qiymətlərinin yüksəlməsi və s. problemləri gündəmə gətirməklə sosial şəbəkələri manipulyasiya edən güc mərkəzləri 2010-cu ildə Tunisdə dövlət başçısı Zeynalabdin bin Olinin qurduğu siyasi sistem çökdürməyə nail oldular. İnformasiyadan silah kimi istifadə edərək Tunis inqilabının qələbəsinin xüsusi nailiyyət kimi göstərməklə ətraf ölkələrə yayılmasını təmin edən media imperializmi kütlə üzərində apardığı ilk testlər uğurla nəticələndi. Bu gündə "Ərəb baharı" kodu altında davam edən bu əməliyyatların əhatə olunduğu ölkələrdə 1,5 milyon insanın öldüyü, milyardlarla dollar ziyan dəydiyi, inqilablar nəticəsində ölkələrə qoyulan xarici investisiyaların həcmi 24 %-ə qədər azaldığı" qeyd olunur (Əlisgəndərli, 2013:263).

Yuxarıda qeyd olunan məsələlərə istinad etməyimizdə məqsəd Ərəb baharı adı altında keçirilən əməliyyatların nəticələrinin statistikasını vermək deyil, əsas məsələ informasiyanın bu gün həmin ölkələrin səngərlərindən atılan silahlardan daha təsirli vasitə olmasına diqqəti çəkməkdir.
"...rasional münasibətlər sisteminin formalaşmadığı neqativ yüklü cəmiyyətlərdə bu platforma, bir növ, xaos və destruktiv ziddiyyətlər mənbəyi kimi çıxış edir ki, bu da əlbəttə ki, arzuolunmazdır. Məsələn, "Ərəb baharı" adlandırılan Yaxın Şərq və Şimali Afrika olaylarından sonra bir daha əmin olduq ki, sosial media hər nə qədər inkişaf üçün bir açar əhəmiyyəti daşıyırsa, bir o qədər də tənəzzül mənbəyi və ya vasitəsi kimi də çıxış edir. Sosial medianın bu gücü və keyfiyyəti, heç şübhəsiz, onu yaradanlar tərəfindən əvvəlcədən nəzərə alınmış və məqsədə uyğun şəkildə sistemləşdirilmişdir. Bu isə sosial mediaya idarəetmə keyfiyyəti gətirməklə konkret sosial-psixoloji silaha çevirmişdir" (Babaoğlu, 2013:13).
Müasir geosiyasi proseslər fonunda Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasının və siyasətinin həyata keçirilməsində əsas məsələlərdən biri informasiya təhlükəsizliyidir. Geosiyasi hədəflərə çatmaq üçün informasiyanın gücünü və sürətini nəzərə alan qlobal güc mərkəzlərinin Azərbaycanın informasiya təhlükəsizliyində yarada biləcəyi təhdidlərin yönəldiyi milli maraqlara təsirinə və coğrafi miqyasına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

- sosial-psixoloji kontekstdə
- etnik qarşıdurma kontekstində
- dini qarşıdurma kontekstində

Qeyd etməliyik ki, bir çox hallarda dövlət daxilində dini-etnik, məzhəb, sosial-iqtisadi və digər əlamətlərə görə stratifikasiyaların formalaşmasını həyata keçirmək istəyən infoimperialist mərkəzlər tərəfindən müəyyən modellər və strategiyalar tətbiq olunur. Bu cür model və strategiyanın praktik nümunələri Yaxın Şərq və Şimali Afrika geosiyasi məkanında test edilməkdədir.
ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə köməkçisi işləmiş, daha sonra Dövlət katibi olmuş Henri Kissincer bildirir ki, "Geosiyasəti və tarixi öyrənənlər bu dərəcədə düzxətli yanaşma ilə üzləşəndə özlərini narahat hiss edirlər; ...müasir dövrdə informasiya axınına nəzarət edən güclər dünyaya nəzarət etmək imkanlarına sahib olurlar ki, bu da yeni növ hegemoniyanın-informasiya dominantlığının meydana çıxmasını şərtləndirir" (Kissincer, 2015:674)
ABŞ dünyanın geosiyasi mərkəzi olmaq iddiasını təkcə iqtisadi-hərbi qüdrəti ilə deyil, həm də özünü dünyanın informasiya xabına çevrilməklə təsdiqlədi, digər tərəfdən beynəlxalq münasibətlər sisteminə "rəqəmsal diplomatiya" (digital diplomacy) anlayışını gətirdi. Müasir geosiyasi beynəlxalq münasibətlərdə "rəqəmsal diplomatiya" sadəcə anlayış olaraq deyil, informasiya cəmiyyətinin yeni təzahürləri kimi meydana çıxır. Məhz bu baxımdan müasir geosiyasi əlaqələr mürəkkəb mahiyyətə və çoxçalarlı məzmuna malikdir. Müasir beynəlxalq informasiya sistemi inkişafda olan elə bir sahədir ki, onun həm dünyanın qlobal geosiyasi proseslərinə, həm də dövlətlərarası münasibətlər sahəsinə mühüm təsiri mövcuddur. Nəzərə almaq lazımdır ki, bu gün beynəlxalq münasibətlər müasir geosiyasi proseslərdən ibarət təməl üzərində yaranmış və inkişaf etməkdədir. Tarixi təcrübə sübut edir ki, informasiyanın ötürülməsində texniki innovasiyalar dünyanın geosiyasi sistemində gedən proseslərə həmişə öz təsirini göstərmişdir. Məhz bu amilin təsiri nəticəsində XX əsrin sonlarında sənaye mərhələsindən, postindustrial informasiya cəmiyyətinə keçid alınmışdır.
Postindustrial epoxanın texnoloji innovativ yenilikləri, informasiya inqilabının nəticələrinin qlobal geosiyasi maraqlara tətbiq olunması kimi projelərin həyata keçirilməsi baxımından Azərbaycan dövləti də dünyada baş verən proseslərə uyğun olaraq informasiya təhlükəsizliyinin təmin olunmasında yeni meyarların qəbul olunması prinsipini əsas tutmalıdır.

"Paradiplomatiya" adlanan yeni-virtual diplomatik nümayəndəliklərin geniş şəbəkəsinin tətbiqi və inkişaf etməsi xüsusilə narahatlıq doğuran meyllərdəndir. O mənada ki, bu imkanlardan separatçı rejimlər və beynəlxalq terrorçu qruplaşmalar yararlanmağa səy göstərə bilər. Daha cəlbedici ideya ölkənin paytaxtından çıxmadan ictimai diplomatiyanı inkişaf etdirməkdir. Virtual Xarici İşlər Nazirlikləri və virtual diplomatlar gecə-gündüz yorulmadan hədəf auditoriyaya xidmət etməyə hazır olmalıdır" (Məmmədov, 2013:3).

Elan olunmamış informasiya müharibəsi hər bir dövlət üçün gözlənilməz risklər yaradır. Xüsusilə də, İKT-nin tətbiqinin coğrafiyası, miqyası və formaları bütün təsəvvür edilən sərhədləri aşır və aşmaqda davam edir. Məhz bu baxımdan hər bir dövr özünəməxsus yeni problemlərlə səciyyəvidir, bu da siyasi elmlərdən dinamik inkişaf, baş verməkdə olan proseslərə çevik münasibət və müvafiq cavablar verilməsini tələb edir. Məlumdur ki, bəşəriyyəti informasiya cəmiyyətinə gətirən yolun əsasında sivilizasiya tarixində baş verən informasiya təkamülü (inqilabları) dayanır. Əsrlərin üzərindən yaşadığımız dövrə gəlməyə və hazırkı mənzərəni təsəvvür etməyə çalışsaq, görərik ki, bu gün vəziyyət tamamilə başqa şəkil almışdır. Daha dəqiq desək ənənəvi geosiyasi münasibətlər sistemində informasiya amili indiki qədər güclü təsirə malik olmamışdır. Məhz bu baxımdan qlobal geosiyasi proseslərdə nəhəng informasiya resurslarından xüsusi məqsədlər üçün istifadə olunması tarixən mövcud olan dövlətlərlə meydana çıxan yeni aktorların qlobal siyasi arenada yeri və rolu məsələsində geniş imkanlar açılır.

**Nəticə**

Dünyada baş verən geosiyasi dəyişikliklərin əsaslandırılması, bu dəyişiklikləri həyata keçirən dövlətin (və ya dövlətlərin) informasiya amilindən qlobal miqyasda öz mənafeyinə uyğun istifadə etməsi ilə nəticələnir.

Hər bir dövlət öz milli inkişafında qarşıya qoyduğu hədəflərə çatmaq üçün mütləq olaraq bu proseslərin xarakter və dinamikasını nəzərə almalı, müvafiq tədbirlər həyata keçirməlidir. Belə ki, sadalanan amillər hər bir ölkənin siyasi, iqtisadi, mədəni-elmi, texnoloji və s. istiqamətlərdə reallaşdırdığı fəaliyyətin uğurları, beynəlxalq münasibətlər sisteminin yeni geosiyasi reallıqları və onunla qarşılıqlı təsirləri nəzərə alınmaqla təmin edilə bilər. Bununla belə, onların arasında milli və beynəlxalq siyasi məkanda inkişaf proseslərinə təkanverici təsir edən ən başlıca qüvvə informasiya-kommunikasiya texnologiyalarıdır. Bu gün informasiya amilini və onun geosiyasi məsələlərdə şərtləndirdiyi çoxşaxəli dəyişiklikləri nəzərə almadan, nə səmərəli xarici siyasət yürütmək, nə də sürətlə baş verən qlobal prosesləri önləmək mümkündür. Geosiyasi münasibətlərin qloballaşması, yeni dünya nizamının formalaşması hər bir müstəqil dövlətdən adekvat səylərin göstərilməsini tələb edir.

**Ədəbiyyat siyahısı**

Hikmət Babaoğlu. İnfoimperializm və media “MSA” Bakı:2013, s. 163

Boran Karakaya. Vestfalya ve Ulus Devletin Doğuşu. https://www.academia.edu/5689222/Vestfalya_ve_Ulus_Devletin_Do%C4%9Fu%C5%9Fu 12.08.2020

Henri Kissincer. Diplomatiya. Qanun nəşriyyatı. Bakı 2015 s.873

Cavid Əlisgəndərli. “Ərəb baharı”: geosiyasi və geoiqtisadi maraqların qarşılıqlı təsiri. Tarix və onun problemləri jurnalı. №4 2013 s.374

Mehdiyev Ramiz Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, “XXI-Yeni Nəşrlər Evi” 2005, 464 s.

Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.264

Turkay Yerlikaya. Bilgi savaşları ve uluslararası müdahaleler. https://www.setav.org/bilgi-savaslari-ve-uluslararasi-mudahaleler/ 27.10.2018

**Nurəddin Mehdiyev**
*Dövlət İdarəçilik Akademiyasının dissertantı*
*nuraddin_mehdiyev@yahoo.com*

# İKT-nin İNKİŞAFI VƏ MİLLİ DÖVLƏTLƏRƏ YÖNƏLƏN TƏHLÜKƏLƏR

**Açar sözlər:** *informasiya təhlükəsizliyi, informasiya müharibəsi, kiberhücum, milli dövlət, cəmiyyət.*

"İnformasiya cəmiyyəti" anlayışının nəzəri-konseptual əsasları Z. Bjezinski, D. Bell, O.Toffler tərəfindən qoyulmuşdur. Onlar cəmiyyətin elmi-texniki tərəqqisi paradiqmasından çıxış edərək hesab etmişlər ki, postindustrial cəmiyyətin növbəti inkişaf mərhələsi informasiya cəmiyyətidir. İnformasiya cəmiyyəti konsepsiyalarının inkişafında Avropa İttifaqının "Telekommunikasiya, KİV və informasiya texnologiyalarının konverqensiyası" və "İnformasiyanın ictimai sektoru" sənədləri (Yaşıl kitab) mühüm rol oynadı. Bu sənədlər e-hökumətin yaranmasının, KİV-nin qlobal rəqəmsal sistemə keçidinin əsasını qoydu.

Milli dövlətlər İKT-nın inkişafı ilə siyasi-hüquqi qlobal idarəetmə mexanizminin ayrılmaz hissəsinə çevrilir və öz milli siyasi-ideoloji funksiyalarını tədricən itirirlər. Bir çox siyasi və hüquqi qurumlar öz yerini tədricən transmilli qurumlara təhvil verirlər. Məsələn, blokçeyn texnologiyası əsasında qurulan (2014-cü il) Birnation şirkəti bir çox ölkələrin vətəndaşlarına notarial xidmətlər göstərir. Estoniya 2015-ci ildən bu şirkətlə əməkdaşlıq edir. Bu kimi misalların sayını artırmaq olar. Bunlar bir daha göstərir ki, İKT-nı əlində saxlayan qlobal güclərin əsas hədəfi qlobal idarəetmə sistemini yaratmaqdır. Lakin, bu tendensiya gücləndikcə, ona qarşı çıxan antiqlobal güclər yeni mərkəzlərdə bir araya gəlirlər. Bu isə, qloballaşmanın çoxqütblü dünya sisteminin yaranmasına təkan verdiyini göstərir.

Son dövrdə internet dünyanın əksər cəmiyyətlərinin bütün həyat sahələrinə müdaxilə edibdir. İnternet, KİV-nin qlobal bir məkana daxil olmasına və informasiyaların daha geniş yayılıb, sərbəst hərəkət etməsinə şərait yaradıbdır. Bu informasiyalar yalnız elektron mətbuat, internet televiziya deyil, həmçinin, sosial şəbəkələr vasitəsilə yayılır. Bu imkanlardan nəinki dünyanın sadə vətəndaşları, hətta, dövlət rəsmiləri, xüsusi kəşfiyyat orqanları istifadə edirlər. İnformasiya daima idarəetmənin güclü bir vasitəsi olduğu üçün, onu əldə etmək, fərqli formada auditoriyaya yönləndirmək və geniş auditoriyaları ələ almaq baxımından mühüm rol oynayır. Bu mexanizm, yalnız ölkədə seçki proseslərinə təsir etmək, ölkədəki prosesləri fərqli istiqamətə yönləndirmək baxımından deyil, həmçinin, dövlətlər arasında narazılıq yaratmaq, qarşıdurma meydana çıxarmaq baxımından istifadə olunur. Buna görə də internetin milli dövltçiliyin təhlükəsizliyi və beynəlxalq əlaqələrin idarə olunması baxımından araşdırılması çox mühümdür.

Son dövrdə beynəlxalq terrorizm internet imkanlarından istifadə edərək öz təsir dairəsini daha da genişləndirir. Terroristlər, çox vaxt ölkələr arasında qarşıdurma yaratmaq üçün, internet vasitəsilə süni təxribatlar yaradırlar. Bəzi hallarda, bunlar ölkələr arasında narazılığın yaranmasına və müəyyən müqavilələrin pozulmasına şərait yaradır. Bu məsələlərin ortaya çıxmaması üçün, müəyyən araşdırmaların aparılması və önləyici tədbirlərin alınması mühümdür. Artıq, u amillər, ölkələr arasındakı diplomatik münasibətlərin təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilmişdir.

İKT-nin inkişafı ənənəvi diplomatiya sistemini və dövlət idarəçiliyi institutlarını ortadan qaldırır. Buna görə də, informasiya məkanı qlobal və regional güclərin toqquşma meydanına çevrilir. Toqquşmanın əsas tərəfləri qlobalistlər və antiqlobalistlərdir. Virtual məkanda monopoliyanı ələ alan qlobalistlər, milli dövlətçilik və ənənəvi diplomatiya paradiqmalarından çıxış edən antiqlobalistləri kiberhücumlarla, trollinqlərlə müşayiət olunan informasiya müharibəsində məğlub etməyə çalışırlar.

Bu qarşıdurma özünü internetdə aşağıdakı kimi biruzə verir:

- Təhlükəsizlik (dövlət xüsusi xidmət orqanları) və gizlilik (hüquq müdafiə təşkilatları) tərəfdarları arasında qarşıdurma;
- dövlət süvereniteti və şəbəkə təşkilatları arasında toqquşma;

- açıq (open source) və qapalı proqram təminatı tərəfdarları (Microsoft) arasında qarşıdurma;
- müxtəlif xidmətlərin ödənişli və ödənişsiz olması ilə bağlı qarşıdurma;
- qanunvericilik və proqram tənzimlənməsi praktikasının toqquşması (Arquilla, 1999: 65**)**.

M. Kastels internet kommunikasiyalar əsasında formalaşan sosial təşkilat və hərəkatların mahiyyətini aşağıdakı kimi səciyyələndirir (Песков, 2004: 44**)**:

- Sosial hərəkatlar, təşkilati kimliyi formalaşdıran və paylaşılan mədəni dəyərlər ətrafında qurulmuşdur. İnternetdə müəyyən lokal və qlobal ideyalar ətrafında virtual qruplaşmalar meydana çıxır. Bu qruplar, informasiya məkanında sosial kimlik formaları qazanaraq, virtual məkanda sosiallaşırlar. 21 iyul 2001-ci ildə Genuyada keçirilən "böyük səkkizliyin" 27-ci sammitinə etiraz üçün, şəhərə internet əlaqələri vasitəsilə 100 mindən çox antiqlobalist toplanmışdı. İtaliyanın polisi və dövlət təhlükəsizliyi orqanları bunun qarısını ala bilməmişdi. Əksər hallarda maraqları bir-biri ilə toqquşan güclər bu kimi qrupları öz məqsədləri istiqamətində istifadə edir, onlara maddi-texniki dəstək verirlər.
- İnternet yeni cinayətlərin və beynəlxalq cinayətkarlar qrupunun formalaşmasına şərait yaradır. Virtual məkanda "çirkli pullar", narkotika, uşaq pornoqrafiyası, insan alveri, kardinq (kredit kartlarının kodlarının dağıdılması və yenilərinin hazırlanması) və digər cinayətlərin reallaşması üçün, beynəlxalq cinayət əlaqələri yaradılır. Bu məkanda dövlətlər cinayətkarla təkbaşına mübarizə aparmaq imkanlarına malik deyildir. Onlara qarşı mübarizə qlobal səviyyədə mümkün olduğu üçün, milli təhlükəsizliyin funksiyaları tədricən mexaniki şəkildə transmilli qurumların öhdəliyinə keçir. Bu isə, milli dövlətlərin əhəmiyyətini azaldır. Deməli, belə iddia etmək olar ki, beynəlxalq kibercinayətlərin arxasında dayanan güclər transmilli xarakterlidirlər.
- Onlar vətəndaş cəmiyyətinin ənənəvi siyasət qurumlarına (partiyalar, həmkarlar ittifaqları və rəsmi qeyri-hökumət təşkilatları) itən inamın yerini doldururlar. Dövlətlərin öz daxili siyasətində və beynəlxalq siyasətdə ədalət prinsipləri nə qədər çox pozulursa, bir o qədər fiziki-mənəvi zərər görmüş şəxslərin onlara etimadı azalır. Nəticədə, terror təşkilatları bundan istifadə edərək, bu şəxslərin bir qismini öz ətrafında toplaya bilir.
- Onlar, öz fəaliyyətlərinin qloballaşmasına çalışırlar. Çünki planetar genişlənmə lokal səviyyədə daha effektiv fəaiyyətə imkan verir. Məsələn, əl-Qaidə, DAEŞ kimi terror təşkilatları internet vasitəsilə özləri barədə mif yarada bilirlər. Onlara qarşı hərbi təzyiqlərin sayı artdıqca, onlar öz ətrafında tərəfdarlarının sayını artırmağa müvəffəq olurlar (Песков, 2004: 46**)**.

Kibercinayətkarlığa qarşı mübarizə qlobal transmilli səviyyədə aparılır. Əsasən bu məsələ "Böyük səkkizliyin" 1997-ci il ABŞ-da, 2002-ci ildə Parisdə keçirilən tədbirlərində gündəliyə gətirilmişdir. 2001-ci ildə Budapeştdə 30 ölkənin iştirakı ilə kibercinayətkarlığa qarşı konvensiya qəbul edilmiş və bu sənədə əsasən informasiya məkanında kibertəhlükələrin qarşısını alan beynəlxalq kiberpolis orqanının yaradılması məsələsi gündəmə çıxarılmışdır. Lakin, bu konvensiyanın ölkələr tərəfindən ratifikasiyası ləngidilmiş və təxirə salınmışdır (Information warfare, 2007: 23).

Qarabağda baş verən hərbi qarşıdurmalarda ermənilər dəfələrlə dünya ictimaiyyətinin diqqətinə çatdırmaq istəmişlər ki, Azərbaycan tərəfində DAEŞ terror qrupları vuruşur və ya azərbaycanlı əsgərlər onlarla birgə Qarabağ xristianlarına qarşı vəhşiliklər törədir. Hətta, bununla bağlı müəyyən saxta foto və rolikləri dünya ictimaiyətinin diqqətinə çatdırmaq istəmişlər. Onlar, bununla dünyada Azərbaycan barədə belə bir imic yaratmağa çalışırlar ki, Azərbaycan xristian düşməni olan radikal islamçı bir dövlətdir. Təbii ki, bu kimi təxribatlar Azərbaycanın beyməlxalq imicinə mənfi təsir göstərmək və Azərbaycan ərazisində Qarabağın mövcud olmasının imkansız olduğunu göstərməyə çalışırlar. Lakin, Azərbaycanın dünyada multikulturalizm mərkəzlərindən birinə çevrilməsi bu təxribatların qarşısını alır.

Elektron mətbuatın geniş imkanları və sərbəstliyi, onların fərqli istiqamətlərdə fəaliyyət göstərməsinə şərait yaradır. Lakin, bir çox mətbuat orqanlarının maliyyə mənbələrinin çox fərqli istiqamətlərdən olduğu məlumdur. Buna görə də, mətbuat orqanları əksər hallarda gerçəkliyi deyil, maliyyə dəstəyi aldığı güclərin mənafeyini dəstəkləyirlər. Bunu, beynəlxalq səviyyədə baş verən

hər hansı ciddi bir hadisədə müşahidə etmək olar. Məsələn, Azərbaycanda da Azərbaycanın milli maraqlarından daha çox, İranın, Rusiyanın, Qərbin maraqlarını ifadə edən mətbuat orqanları vardır. Onlar da beynəlxalq əlaqələrin formalaşmasında və pozulmasında müəyyən rol oynayırlar. Məsələn, İran-Azərbaycan, Azərbaycan-Türkiyə, Azərbaycan-Rusiya münasibətlərinin pozulmasında maraqlı olan mətbuat orqanları vardır.
Azərbaycanda İKT-nin inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il Sərəncamı ilə (15 mart tarixli, 2095 nömrəli) Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu yaradılmışdır. **2014-cü ildən bu günə kimi Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) Şurasının üzvüdür. Şərqi** Avropa və MDB regionundan yalnız Azərbaycan və Rusiya **193 ölkə arasından** 48 ölkədən ibarət BTİ Şurasında yer almışdır (https://axar.az/news/toplum/321765.html).

2016-cı ildə e-informasiya, e-məsləhət, e-qərarvermə göstəriciləri əsasında hesablanan "Elektron-İştirak İndeksi"(E-Participation) üzrə Azərbaycan 77-ci yerdən 47-ci yerə yüksəlmişdir. Bu beynəlxalq göstəricilər təsdiq edir ki, Azərbaycanda İKT sürətlə inkişaf edir. Azərbaycan İKT-nin 2017-ci il dünya üzrə inkişaf indeksində 6.20 indeks göstəricisi ilə 65-ci yerdədir. Halbuki, 2002-ci ildə Azərbaycan öz indeksinə görə 100-cü yerdə idi. Yəni, 15 il ərzində 35 pillə irəliləmişdir. 2016-cı ildə BMT-nin 193 üzv ölkəsi arasında "Elektron Hökumət İnkişaf İndeksi" (EGDI) üzrə Azərbaycan 56-ci yerdə qərar tutmuşdur. Çünki EGDI-nin tərkib hissələri olan online xidmət (0.6812), insan kapitalı (0.7158) və telekommunikasiya infrastrukturu (0.4852) subindeksləri "yüksək" olmuşdur **(**diaqram 1**)**.

**Diaqram 1**. "Elektron Hökumət İnkişaf İndeksi"nin (EGDI) üç tərkib hissəsi üzrə Azərbaycanın göstəriciləri (https://www.e-gov.az/az/news/read/450)




Azərbaycanın İKT-nin 2017-ci il dünya üzrə inkişaf indeksində 6.20 indeks göstəricisi ilə 65-ci yerdə qərar tutması onu göstərir ki, Azərbaycanda İKT-nin və kibertəhlükəsizliyin inkişafı arasında qarşılıqlı əlaqələr mövcuddur.

İKT milli dövlətlərin də inkişaf etməsinə və İKT-nin imkanlarından istifadə edərək idarəetmədə operativliyə nail olmağa şərati yaradır. Dövlətlər İKT-nin inkişafı ilə yerlərdə meydana çıxan problemləri müəyyən edib, onların həllinə müdaxilə edə bilər, ictimai şüuru öyrənmək, sosial-psixoloji tendensiyaları müəyyən etmək baxımından, bir çox tədbirlərin vaxtında həyata keçirilməsinə nail ola bilər. İnternet media ən effektiv vasitə kimi, ictimai şüuru daima nəzarətdə saxlamağa imkan verir. Məsələn, 2018-ci il Mingəçevir hadisələri nəticəsində ölkə ərazisində işıqların sönməsi və bu ərəfədə Gəncə hadisələrinin baş qaldırması, ölkədə sosial təşvişin artmasına şərait yaratmışdı. Lakin, internet-media sosial təşvişin qarşısı aldı. Deməli, İKT-nin inkişafının bir tərəfdən qloballaşma təhlükəsi ilə bağlı mənfi tərəfləri varsa, digər tərəfdən, milli dövlətin mütəşəkkiliyini təmin etmək baxımından müsbət tərəfləri də vardır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının xarici əlaqələr şöbəsinin rəhbəri Hikmət Hacıyev deyib: "SSRİ-nin dağılması dövründə və müstəqilliyinin ilk illərindən Azərbaycan Ermənistanın yürütdüyü "informasiya təcavüzü" və "informasiya müharibəsi" ilə üzləşmişdir. Ermənistan BMT Nizamnaməsinə zidd olaraq, gücdən istifadə etməklə Azərbaycana qarşı hərbi təcavüz və işğalı, işğal olunmuş ərazilərdə bir milyondan artıq azərbaycanlıya qarşı törətdiyi qanlı etnik təmizləməni gizlətmək üçün informasiya müharibəsi, propaqanda və dezinformasiya əməllərinə əl atıb. Erməni lobbi dairələrinin dəstəyi ilə bu tendensiya "hibrid müharibə" formasında bu gün də Azərbaycana qarşı davam etməkdədir." (https://big.az/312292-hikmet).

Samvel Martirosyan, Qaqik Ter-Arutyunyan, Suren Movsisyan, Qaregin Xumaryan və başqaları, Azərbaycan və Türkiyənin məhvi üzərində Böyük Ermənistan sivilizasiyası qurmaq kimi təhlükəli və utopik ideyalardan əl çəkmir (Арутюнян, 2009: 24-25) və öz vəzifələrini Azərbaycana və Türkiyəyə qarşı informasiya müharibəsinin nəzəri əsaslarının işlənib hazırlamasında (Атанесян, 185-186), ümumi "erməni informasiya mühitinin" yaradılmasında görürlər (Мартиросян, 2013: 228). Əslində, onların bu fəaliyyətləri, özlərinin milli maraqlarına deyil, onlara siyasi dəstək verən antitürk yönümlü dövlətlərin mənafelərinə xidmət edir. Çünki Ermənistanın iqtisadi inkişafı Azərbaycan və Türkiyə ilə əməkdaşlıqdan keçir. Lakin, əksər ermənilər, özlərinə zərər verən antitürk stereotipindən xilas ola bilmədikləri üçün, bu reallığı dəyərləndirə bilmirlər.

Suren Movsisyan Azərbaycana qarşı informasiya mübarizəsinin əsas istiqamətlərini aşağıdakı kimi səciyyələndirir:

1. Hərbi sahə – Azərbaycanın hərbi üstünlüyü, yüksək hərbi xərcləri, yüksək döyüş ruhu barədə iddiaların yalan olduğunu ortaya qoymaq, onun hərbi-siyasi qurumlarda təmsil olunmasının qarşısını almaq, ordusunun mənəvi-psixoloji durumuna zərər vurmaq;
2. İqtisadiyyat - Azərbaycanın iqtisadi problemlərini qabartmaqla, onun daxildə və beynəlxalq aləmdə iqtisadi imicinə zərbə vurmaq və neft-qaz ehtiyatları barədəki məlumatları yalanlamaq;
3. Siyasət - Azərbaycanda siyasi institutları, diaspora fəaliyyətini hədəf seçmək, separatçılığı dəstəkləmək, siyasi təxribatlar törətmək;
4. Ekologiya - Azərbaycanın Xəzər Dənizi və Cənubi Qafqaz regionunun ekoloji böhranına səbəb olduğunu təlqin etmək;
5. Elm – Azərbaycanda cəmiyyətin parçalanmasını təmin etmək üçün, tarixin öyrənilməsi və araşdırılmasına maneələr yaratmaq, keçmişdən bu günədək olan tarixi şəxsiyyətlərin mənşəyi barədə şayiələr yaymaq və Azərbaycan toponimlərinin erməni mənşəli olduğu ortaya qoymaq;
6. Mədəniyyət - Azərbaycan mədəniyyətinin bütün sahələrinə hücum etmək, azərbaycanlıların qeyri-mədəni bir xalq olduğunu və ermənilərin mədəni nailiyyətlərinə sahib çıxdığını təlqin etmək (Мовсисян http).

*Ermənilər, Azərbaycanın beynəlxalq imicinə və geosiyasi mövqeyinə zərbələr endirirlər. Onların bu istiqamətdə dünyaya çatdırdıqları dezinformasiyaları aşağıdakı kimi səciyyələndirmək olar:*

- Azərbaycanlıları Qarabağ müharibəsində təcavüzkar müsəlman-türk kimi, erməniləri isə, təcavüzə məruz qalan ilk xristianlar və avropa mənşəli bir xalq kimi tanıdırlar;
- Azərbaycan və Türkiyənin birləşib onları məhv etmək və ərazilərini ələ keçirmək istədiklərini, ermənilərin isə müdafiə olunduqlarını dünyaya bəyan edir və bununla da beynəlxalq aləmin siyasi, hərbi, iqtisadi dəstəyinə sığınmaq istəyirlər;
- Erməni soyqırımı uydurmasını dünyanın diqqətinə çatdırır və onun hər yerdə qəbul edilməsinə çalışırlar;
- Azərbaycanlıların xristianlara və özlərindən başqa digər xalqlara nifrət edən xalq kimi tanıdır və bununla, ölkə daxilində separatçılıq amillərinin meydana çıxmasını dəstəkləyirlər;
- Ermənilərin Qafqazda qədim və böyük dövlətə malik olduqlarını, azərbaycanlıların sonradan gəlib onların ərazilərinə yiyələndiklərini, buna görə də, "tarixi faktlarla" Qarabağ, Naxçıvan və başqa Azərbaycan ərazilərini geri qaytarmağa haqq qazandıqlarını iddia edirlər;

- Münaqişənin Qarabağla Azərbaycan arasında olduğunu irəli sürərək, Dağlıq Qarabağda qondarma qurumu müstəqil dövlət kimi tanıtmağa çalışırlar;
- Xocalı soyqırımının azərbaycanlılar tərəfindən törədildiyi və özlərinin günahkar olmadıqlarını bildirirlər;
- Onların uydurma və yalançı təbliğat kompaniyasını ifşa edən şəxs və qruplara qarşı böhtan və qaralama kampaniyası həyata keçirirlər.

Ermənistan və erməni diasporu, Aprel döyüşləri ərəfəsində və sonra, yerli və ermənipərəst xarici mətbuatdan istifadə edərək təxribatlar yayıblar. Onlar Türkiyənin Azərbaycana hərbi yardım etdiyini, bu münaqişənin Türkiyə tərəfindən yaradıldığını, qarşıda Türkiyə-Rusiya toqquşmasının olacağını, İŞİD qruplarının münaqişəyə cəlb olunduğunu diqqətə çatdırmaq istəyiblər. Görünür, bu təxribatların yayılmasında əsas məqsəd, KTMT-nın Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi müdaxilədə iştirak etməsini təmin etmək olubdur. Ermənistan dolayı olaraq bu münaqişəni xristian-müsəlman qarşıdurması kimi qələmə verməyə çalışıbdır. Ermənistan, Türkiyəni münaqişəyə cəlb etməklə regionda Rusiya-Türkiyə qarşıdurması yaratmağa və bu qarşıdurmanı müsəlman-xristian donu geyindərməyə cəhd edibdir.

**Ədəbiyyat**


- Arquilla J., Ronfeldt D. The emergence of noopolitik. Toward an American information strategy. — Santa Monica, 1999.
- Information warfare. Separating hype from reality. Ed. by L. Armistead. — Washington, 2007
- Арутюнян Г. О некоторых проблемах информационной безопасности. Ереван 2009, s. 22-37.
- Атанесян А. Угрозы информационной безопасности РА: трехуровенный анализ См: О некоторых проблемах информационной безопасности. Ереван, 2010, s.183-190.
- Песков Д.Н. Интернет в мировой политике: формы и вызовы. Ответственный редактор – Член-корреспондент РАН, проф. А.В.Торкунов. Учебник. Москва 2004.
- Мартиросян С. Втягиваться в информационную «гонку вооружений» нецелесообразно. Газета «Ноев ковчек» № 13 (219) Июль (16-31) 2013 года.
- Панарин И. Н. Информационная война, PR и мировая политика. — М.: Горячая линия - Телеком, 2006.
- Мовсисян С. Основные направления информационного противодействия РА. http://noravank.am/rus/articles/security/detail.php? ELEMENT_ID=2542
- https://big.az/312292-hikmet
- https://www.e-gov.az/az/news/read/450
- https://axar.az/news/toplum/321765.html

**Əliyar Orucov**
*FHN Akademiyasının Tədris şöbəsinin böyük metodisti,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
orucov.aliyar@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN İDEOLOJİ ƏSASLARI

**Açar sözlər:** ideologiya, milli ideologiya, azərbaycançılıq ideologiyası, ideoloji birlik, milli inkişaf, milli təhlükəsizlik, milli təhlükəsizlik konsepsiyası.

Müstəqilliyimizin 28 illiyinin qeyd olunduğu hazırkı şəraitdə, dünyada baş verən mürəkkəb siyasi proseslər kontekstində ideologiya, milli ideologiya məsələsi xüsusi əhəmiyyət kəsb edir. Milli ideologiya hər bir dövrdə ortaya qoyula bilər. Amma onun milli ideologiyaya çevrilməsi isə hər zaman baş vermir. Qeyd edək ki, ideologiya ideya, milli ideologiya isə milli ideyalar nəticəsində Avropada yaranmışdır. İdeologiya terminini elmi dövriyəyə ilk dəfə fransız filosofu və iqtisadçısı Antuan Destyut De Trassi gətirmişdir. O, istər XVIII əsrin sonunda yazdığı “Düşünmək qabiliyyəti haqqında etüdlər” əsərində, istərsə də 1801-1815-ci illərdə yazdığı “İdeologiyanın ünsürləri” adlı dörd cilddən ibarət əsərində ideologiyanı ideyaların təşəkkülü və insan təfəkkürünün qanunları haqqında elm kimi əsaslandırmağa cəhd etmişdir. Milli ideya anlayışını ilk dəfə Fransada XVIII əsrdə A. Vasyxaunt işlətmişdir. Sonralar J.J.Russo və C. Mişle öz elmi əsərlərində milli ideya məsələlərinə xüsusi yer vermişlər. Rusiyada isə milli ideya əvvəlcə Qərbin əleyhinə olan slavyanofil ədəbiyyatda əsasən N.Berdyayev, A.Danilevski, F.Dostoyevski, V.Solovyov və başqalarının yaradıcılığında öz əksini tapmışdır. Eyni zamanda İ.A.İlyin, A.Soljenitsin və başqaları XX əsrdə rus milli ideyasının inkişafında xüsusi rol oynamışlar. Almaniyada ideologiyanın təşəkkülü, demək olar ki, klassik alman filosofu Hegelin adı ilə bağlıdır. O, öz əsərlərində ideya, ideologiya, mənəviyyat və s. məsələləri şərh etmiş, onların qarşılıqlı əlaqələri məsələsinə toxunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqlarından olan ictimai-siyasi xadim M.B.Məmmədzadə istiqlal, azadlıq, milli ideya və müstəqillik məfkurəsinin inkişafında M.F.Axundovun müstəsna rol oynadığını xüsusi qeyd edərək yazırdı: “Azərbaycan milli xartiyasının xülasəni istiqlal fikrinin təşkilində Mirzə Fətəlidən Üzeyirə kimi, “Əkinçi”dən “Azərbaycan” və “Yeni Qafqaziya” yadək hər birinin olduqca böyük və dəyərli rolları olmuşdur. Siyasi- ictimai fikirlərimizin tərəqqi və təkamül tarixini təşkil edən bu dövr bu gün aydın və parlaq istiqlal məfkurəsinin təməlini təşkil edir. Hətta ən uzaq istiqlalımızı təyin etmək üçün belə keçirdiyimiz fikri-inkişaf tarixinə baxmaq və ondan milli hərəkatın ruh və mahiyyəti haqqında bir fikir almaq kifayət edər.

Zənnimizcə, Mirzə Fətəli və Həsənbəy Zərdabi əlli il sonra dünyaya gəlsə idilər istiqlal fikri, Azərbaycan milli xartiyası da əlli il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardır. Özünün türkçülüyünü və azərbaycanlılığını dərk etməyən xalq belə bir bəyannaməni verə bilməzdi”(Məmmədzadə, 1991:139)

Qeyd edək ki, ideologiya və milli ideya məsələlərinin şərhinə dair dünya və Azərbaycan elmi ədəbiyyatında bir çox elmi-tədqiqat əsərləri yazılmış və yazılmaqdadır.

Milli ideologiya cəmiyyətdə milli birliyi və millətlərarası ümumxalq münasibətləri qorumaq, millətin tarixdə mövqeyini izah və təsdiq etmək üçün yaradılır. Bundan əlavə, milli ideologiya xalqın milli-mənəvi varlığının başlıca əlamətlərindəndir. O, xalqın milli kimliyini göstərən təfəkkür, adət və ənənələr sistemidir. Dil, din, ərazi və ideoloji birlik millət və milli dövlətin tarixi varlığının əsas rəmzləridir. Milli ideologiya xalqımızın milli idealı olan azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına, ərazi bütövlüyünün qorunub saxlanılmasına xidmət edən sosial strukturdur.

1991-ci ilin fevralında dövlətimizin adından “sovet” və “sosialist” sözləri çıxarılaraq o, Azərbaycan Respublikası adlandırıldı. Həmin ilin oktyabr ayının 18-də Azərbaycan Ali Sovetinin

ikinci sessiyası Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bununla da Azərbaycan xalqı özünün siyasi, iqtisadi, mədəni-intelektual potensialından və keçmiş sovetlər birliyinin dağılması ilə əlaqədar yaranan əlverişli tarixi şəraitdən istifadə edərək, 1991-ci ildə öz milli iradəsini ortaya qoydu və yenidən istiqlaliyyətinə qovuşaraq müstəqil dövlətçiliyini bərpa etdi. Nəhayət, 1991-ci ilin dekabrında keçmiş sovetlər birliyinin süquta uğramasından sonra yenidən siyasi varlığa çevrilən Azərbaycan Respublikası dünyada öz layiqli yerini tutmağa başladı və BMT üzvü olan müstəqil dövlətlər sırasına qoşuldu. Bununla da xalqımız sovetlər birliyinin dağılmasından sonra keçmiş SSRİ-nin bütün millət və xalqları kimi azadlıq şəraitində milli ideyanın, milli şüurunun və milli özünüdərk ideyalarının inkişafı üçün geniş imkanlar əldə etdi. Həmçinin bu zaman totalitar Sovet sisteminin iflasından və kommunist rejiminin süqutundan sonra formalaşan milli dövlətçiliyimiz artıq yeni inkişaf yoluna çıxmaq üçün geniş imkanlar qazandı. Lakin məlumdur ki, "milli mənlik ideyalarını həyata keçirmək üçün yeganə vasitə Azərbaycan milli ideologiyası və onun konsepsiyası ola bilər"(Tağıyev, 2000:31) Belə ki, milli ideya, milli özünüdərketmə xalqı və hakimiyyəti birləşdirən bir zəmin olaraq müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan Respublikasına öz tarixi milli özünüdərk ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvi surətdə əlaqələndirmək imkanı verdi. "Milli ideyanın" gücü dövlətdirsə, dövlətin gücü isə milli ideyaya, milli şüurun inkişafına xidmət etməkdədir.

Hazırkı şəraitdə xalqımız bir milli ideya-azərbaycançılıq ideologiyası ətrafında sıx birləşmişdir. Konstitusiyamızda göstərildiyi kimi, milli özünüdərkdən gələn azərbaycançılıq ideologiyası Azərbaycan xalqının dövlətyaratma mənafelərinin ümumiliyi və demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizənin məqsədidir. Onu da qeyd etmək lazımdır ki, azərbaycançılığın tarixi XIX əsrin sonlarına və daha qədimlərə gedib çıxsa da, bu məhfum ölkəmizin ictimai-siyasi və sosial həyatında yaxın illərdən başlayaraq istifadə olunur. Onun mahiyyəti xalqı mənəvi və fiziki baxımdan xarici qüvvələr tərəfindən zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəlmişdir. Azərbaycançılıq müstəqil və bənzərsiz Azərbaycanı sivil dövlətlər sırasına çıxaracaq bir yoldur. Həmçinin azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi və mənəvi, sosial-siyasi sərvətdir. Belə ki, o, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün mənbədir. Bir ideologiya kimi "azərbaycançılıq Azərbaycanın fəlsəfi-sosioloji doktrinasını sosial-mədəni və etnocoğrafi-siyasi cəhətlərini özündə birləşdirir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərlik prinsipidir"(Mehdiyev, 2003:30) Eyni zamanda bu ideya dünya azərbaycanlılarının mütəşəkkilliyidir, vəhdəti və birliyidir. Bu gün Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıq ideologiyasıdır. Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında "Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi və dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi nəzərdə tutulmuşdur" (Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası, 2007)

Qeyd edək ki, Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikası ərazisinin bir hissəsinin işğalı və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində etnik təmizləmə siyasətinin aparması, sosial və iqtisadi infrastrukturun dağıdılması ilə nəticələnmiş təcavüz aktının davam etdirməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinə mənfi təsir göstərən əsas amillərdəndir. Dünyanın gözü qarşısında işğal altında saxlanılan Azərbaycan ərazilərində bütün milli-mədəni dəyərlərə, nəinki islam, eləcədə xristian dövrünə aid abidələrə qarşı aparılan vandalizm hərəkətləri bəşər mədəniyyətinin və tarixinin məhvinə yönələn cinayət kimi pislənilməli və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Və ideoloji cəbhə son illər də səmərəli iş nəticəsində informasiya blokadasını yararaq bir çox ölkələrdə Ermənistanın işğalçı dövlət kimi tanınması artıq bir fakt kimi qəbul olunur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti təkcə müasir dövrü əhatə etmir. Bu siyasətin 300 illik tarixə malik olduğunu desək yanılmarıq. Ona görə də azərbaycanlılar və ermənilər arasında tarixən mövcud olmuş konflikt, həm də ideoloji müharibədir. Qələbə xeyli dərəcədə ideoloji cəbhədəki uğurlardan asılıdır. Ermənilərin

törətdikləri qanlı cinayətlər Cənubi Qafqazın etnik azərbaycanlılara məxsus olan bütün yaşayış məntəqələrini əhatə etmiş və bu cinayətlər nəticəsində son yüz il ərzində iki milyondan artıq azərbaycanlı öz tarixi torpaqlarından didərgin salınmış, xüsusi qəddarlıqla soyqırıma məruz qalmışlar. Erməni qəsbkarları tərəfindən törədilən Xocalı soyqırımı insan hüquq və azadlıqlarının ən kobud və ən qəddar şəkildə pozulmasına bir nümunədir və bu bir çox beynəlxalq səviyyədə qəbul edilmiş sənədlərdə də öz əksini tapmışdı. Bu sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Xocalıda mülki insanların vəhşicəsinə öldürülməsi birmənalı olaraq pislənilir. Azərbaycan Respublikasının ərazi bütövlüyünə dəstək ifadə olunaraq, güc tətbiq etmək yolu ilə ərazi əldə edilməsinin BMT nizamnaməsinə və beynəlxalq hüquqa zidd olduğu bir daha vurğulanır, Xocalı qurbanlarının və onların qohumlarının onlara vurulmuş mənəvi və maddi itkilərə görə ədalətli və hüquqi əsasda təzminat almaq hüququ da tanınır. Bir çox dövlətlərin qanunverici orqanları Xocalı soyqırımının insanlığa qarşı törədilmiş cinayət hadisəsi olması haqqında hüquqi sənədlər qəbul etmişlər.Qeyd edək ki, ermənilərin özünküləşdirmə siyasəti nəticəsində tarixi Azərbaycan torpaqlarında Ermənistan dövləti yaradıldıqdan sonra isə bu soyqırım siyasəti Ermənistan dövləti səviyyəsində bu gündə davam etdirilməkdədir. Azərbaycan Respublikası da milli təhlükəsizliyini təhdid edən, milli maraqlara zərər vura bilən fəaliyyətin qarşısının alınması üçün müvafiq tədbirlər görür. Bu mənada Azərbaycan Respublikasının Milli Məclisinin 8 iyun 2010-cu ildə Azərbaycan Respublikasının "Hərbi doktrina" sını təsdiq etməsi tarixi zərurətdən irəli gələn addım idi. Hərbi doktrina Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici, hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konsteptual əsasını müəyyənləşdirən sənəddir. Azərbaycan Respublikasının "Hərbi doktrina"sında Ermənistanın işğalçılıq siyasəti barədə deyilir: "Ermənistan Respublikasının ərazisində tarixən azərbaycanlıların yaşadıqları yerlərdə və Azərbaycan Respublikasının işğal altında olan Dağlıq Qarabağ və ətraf ərazilərində ümumdünya tarixi və mədəni irsinin tərkib hissəsi olan maddi-mədəniyyət abidələri məhv və talan edilir. Ermənistan Respublikası tərəfindən işğal edilmiş ərazilərin müvəqqəti olaraq Azərbaycan Respublikasının hakimiyyət orqanlarının nəzarətindən kənarda qalması yalnız milli təhlükəsizliyə deyil, regional təhlükəsizliyə də ciddi təsir göstərir. Bu vəziyyət beynəlxalq birliyin problemin həllində göstərdiyi səylərin səmərəsizliyi nəticəsində daha da ağırlaşır" (Azərbaycan Respublikasının Hərbi doktrinası, 2010)

1994-cü ilin sentyabrında BMT Baş Məclisinin 49-cu sessiyasında Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllində BMT-nin rolu barədə çıxış edən Heydər Əliyevə görə "Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olaraq belə hesab edir ki, yalnız Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək yolu ilə təcavüzün nəticələrini aradan qaldırmaq, uzunmüddətli möhkəm sülhün bərqərar edilməsi və bütün əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə sabit və əməli danışıq prosesi aparmaq olar. Eyni zamanda Cənubi Qafqaz regionunda yaranmış vəziyyəti, beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin təmin edilməsi yolunda BMT-nin rolunun artırılması və digər prinsipial məqamlara toxunan Heydər Əliyevin fikrincə Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər" (Orucov, 2012:210)

Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli məsələsindən danışan Heydər Əliyev siyasi kursunun davamçısı cənab İlham Əliyev 24 sentyabr 2010-cu ildə BMT Baş Assambleyasındakı çıxışında demişdir: "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası qəbul etdiyi dörd qətnamədə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə tam dəstəyini vermiş və torpaqların gücdən istifadə edərək ələ keçirilməsinin qəbuledilməzliyini vurğulamışdır. BMT, həmçinin Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımış, işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, tam şəkildə və qeyd-şərtsiz çıxarılmasına çağırmışdır. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi və digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Konfransı Təşkilatı eyni mövqeni tutmuşlar. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyətin yekdil mövqeyinə baxmayaraq, Azərbaycan əraziləri işğal altında

qalmaqda davam edir. Bu günə qədər münaqişənin mümkün qədər tez və davamlı həll variantını tapmaq məqsədi ilə vicdanla danışıqlar aparmaq əvəzinə, Ermənistan vəziyyətin ağırlaşmasına üstünlük verir ki, bu da öz növbəsində gözlənilməz nəticələrə gətirə bilər. Münaqişənin tezliklə həll olunması istiqamətində göstərilən hazırkı səylərə baxmayaraq, Azərbaycanın işğal edilmiş ərazilərində aparılan işlər beynəlxalq hüququ kobud surətdə pozur və işğalın cari status-kvosunun daha da möhkəmləndirilməsinə, etnik təmizləmənin nəticələrinin saxlanmasına, zəbt olunmuş ərazilərdə məskunlaşmanın aparılmasına xidmət edir, o cümlədən münaqişənin dinc yolla həllinə ciddi maneə yaradır" (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Baş Assabmleyasında nitqi, 2010)
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Ermənistan rəhbərliyi ilə dəfələrlə görüşmüşdür. Təkbətək və çoxtərəfli formatda baş tutan bu görüşlərin hamısında Azərbaycan tərəfi münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu qətiyyətlə bildirmişdir. 9-10 noyabr 2001-ci ildə respublikamızın müstəqilliyinin 10-cu ildönümünün təntənə ilə qeyd olunduğu bir vaxtda Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi bir daha azərbaycançılıq ideologiyasına dövlətimizin necə xüsusi önəm verdiyinin şahidi oluruq. Həmin qurultayda ümummilli lider Heydər Əliyev çıxış edərək demişdir: "Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gündə fəxr edirəm ki, mən Azərbaycanlıyam!" (Dünya Azərbaycanlılarının I Qurultayında Heydər Əliyevin nitqi, 2001) Ümummilli lider Heydər Əliyevin bu ifadəsi azərbaycançılıq ideologiyasının daha da inkişafına stimul vermiş oldu. Bu barədə professor Əli Həsənov "Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti" adlı kitabında yazır: "Heydər Əliyev yeni şəraitdə etnik mənsubiyyəti xüsusi qabartmadan birləşdirici azərbaycançılıq ideyasının-ümumvətəndaşlıq, Azərbaycana mənsubluq, vətənə bağlılıq, Azərbaycan dilinə və mədəniyyətinə sevgi,dövlətin sevinci və kədəri,dəyərləri və problemləri qarşısında ümumi və bərabər məsuliyyət hissi daşımaq kimi yeni konfiqurasiyanın- Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsaslarını ortaya qoydu. Həm də xüsusi qeyd olunmalıdır ki, Heydər Əliyev daxili siyasətində vətəndaşların vahid amal və məqsəd ətrafında birləşdirilməsi istiqamətində addımlarını etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə ustalıqla və mükəmməl formada keçirərək, respublikanın əsas vətəndaşları olan türk kökənli çoxluqla digər milli azlıqların, etnik qrupların birliyinə nail ola bildi" (Həsənov, 2011:30) Məhz Heydər Əliyev müasir Azərbaycanda əhalinin əksəriyətini vahid amal, məqsəd və milli ideya ətrafında birləşdirəcək milli ideologiya məsələsini- azərbaycançılıq məfkurəsini ümumdövlət səviyyəsinə qaldırdı və müasir Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin qanuni varisi olduğunu bildirdi. O, azərbaycançılıq ideyasını bütöv bir xalqın-dünyada yaşayan bütün azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün həmvətənlərimizin vahid milli birlik simvoluna çevirdi. Bu zaman azərbaycançılıq ideologiyası Azərbaycanın tarixi keçmişi, xalqın adət-ənənələri, dövlətçiliyinin dünəni, bu günü və gələcəyi ilə sıx şəkildə əlaqələndirildi. "Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil ölkənin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi, elmi, yaradıcı və digər ziyalı dairələrinin gündəminə çıxarıldı. Azərbaycançılıq ideyasına tamamilə yeni məzmun verildi və bu ideya ölkənin milli-etnik xüsusiyyətlərinə, müasir inkişafının tələblərinə və dünyanın yeni şəraitinə uyğunlaşdırıldı" (Həsənov, 2011:31) Dünya Azərbaycanlılarının 16 mart 2006- cı ildə ikinci, 5-6 iyul 2011- ci ildə üçüncü və nəhayət 3-4 iyun 2016- cı ildə dördüncü qurultayın keçirilməsi azərbaycançılıq ideologiyasının dövlət siyasəti olduğuna dəlalət edir. Azərbaycançılıq milli ideologiyası xalqın özünə inamının, əqidəsinin, düşüncəsinin mənbəyi və hərəkətverici qüvvəsi kimi milli dövlətçiliyin qorunmasına xidmət edir. Həmçinin azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən, onlara milli kimliyini tanıdan milli ideologiyadır. Bu milli ideologiyanın inkişaf etdirilməsi dövlətçiliyimizin canlandırılması və zənginləşdirilməsi deməkdir. Azərbaycançılıq ideologiyasının daha da inkişafı milli dövlətçiliyimizin sosial bazasının gücləndirilməsinə və onun uzun illər yaşamasına təminat yaradılması kimi başa düşülməlidir. Qeyd edək ki, müasir Azərbaycan cəmiyəti bütün milli-mənəvi və əxlaqi dəyərlərimizi özündə birləşdirən azərbaycançılıq ideologiyası ilə beynəlxalq aləmə inteqrasiya olunur. Beləliklə, azərbaycançılıq

ideologiyası xalqın özünəinamının, əqidəsinin, düşüncəsinin mənbəyi və hərəkətverici qüvvəsi kimi milli dövlətçiliyin qorunmasına xidmət edir. Müasir dövrdə Azərbaycan dövlətçiliyinin mənəvi dayağı olan azərbaycançılıq ideologiyası əsasında xalqımız özünün varlığını dərk edir, maddi-mənəvi sərvətlərinin sahibi olur. Bu ideyanın sayəsində Azərbaycan cəmiyyətində milli-mənəvi düşüncənin inkişafı psixoloji cəhətdən insanlarda, o cümlədən də gənclər arasında vətənpərvərlik ruhunu gücləndirir. Zənnimizcə, bu sahədə aparılan işlər nəticəsində uğurlar davam etdiriləirək xalqın azərbaycançılıq hissinin zənginləşməsinə və gələcək inkişafına səbəb olacaq. "Hazırda respublika öz inkişafının keçid dövrünü başa vuraraq, sosial-iqtisadi, mənəvi və s. sahələrdə yeni mərhələyə qədəm qoymaqdadır. Keçən illərdə Azərbaycan bütün sahələr üzrə Heydər Əliyevin milli inkişaf siyasətini uğurla həyata keçirərək, nəzərə çarpacaq nailiyyətlər qazanmışdır. İctimai-siyasi həyatın demokratikləşməsi, vətəndaş cəmiyyəti quruculuğunun, siyasi plüralizmin getdikcə dərinləşməsi, iqtisadi həyatın liberallaşması, sahibkarlıq institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi və s. göstəricilər Azərbaycanın gələcək inkişafı üçün geniş imkanlar açmışdır. Müşahidə olunan dayanıqlı inkişaf həm də hakimiyyət qarşısında yeni, uzunmüddətli Milli İnkişaf Konsepsiyasının yaradılması və həyata keçirilməsi vəzifəsini irəli sürmüşdür. Azərbaycanın ictimai, siyasi, iqtisadi, mədəni həyatının bütün sahələrində əldə etdiyi uğurlar Prezident İlham Əliyevə qarşıdakı dövrdə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-ideoloji transformasiyasının yeni mərhələsinin təməlini qoymaq və milli inkişafın növbəti on ilinin vəzifələrini müəyyənləşdirmək imkanı yaratmışdır. Azərbaycan dövləti bütün sahələrdə nail olunan müvəffəqiyyətlərlə kifayətlənməyərək, Qərbin inkişaf etmiş ölkələrinin standartları səviyyəsinə yüksəlməyi və müasir bir ölkəyə çevrilməyi hədəfə almışdır"(Həsənov, 2011:36-37) Həmçinin Azərbaycanın geosiyasi perspektivləri və gələcəyi ilə bağlı mövcud təhdidlər, yarana biləcək hər hansı problemlər, onların aradan qaldırılması yolları günün ən aktual məsələsi olaraq qalmaqdadır. "Eyni zamanda Azərbaycan dövlətinin ölkədə, regionda və dünyada yürütdüyü geosiyasi və geostrateji dövlət siyasətinin və atdığı praktik addımların, dünyanın, regionun və Avropanın təhlükəsizlik, enerji, tranzit-keçid, beynəlxalq daşıma və nəqliyyat-kommunikasiya sistemində iştirakı məsələləri, ölkəmizi təhdid edən qüvvələrə qarşı mübarizəni zəruri edir" (Həsənov, 2010:12)

Qeyd edək ki, erməni təxribatı bu gün də davam etməkdədir. İşğalçı Ermənistanın təxribatı nəticəsində tarixə dörd günlük müharibə kimi düşən aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizin bir hissəsini və bəzi strateji yüksəklikləri düşmən qüvvələrindən təmizlədi. Bu hadisə Silahlı Qüvvələrimizin döyüş əzminin yüksəlməsində və Azərbaycan diplomatiyasının diqtə edən tərəfə çevrilməsində mühüm rol oynadı. Aprel döyüşlərindən sonra münaqişənin həll olunması ilə bağlı 16 may 2016- cı ildə Avstriyanın paytaxtı Vyanada ABŞ, Fransa və Rusiyanın təşkilatçılığı ilə keçirilən Ermənistan-Azərbaycan danışıqlarında əlverişli siyasi-hüquqi şərait yaransa da, təəssüflər olsun ki, öz müsbət bəhrəsini verməmişdir. Vasitəçi dövlətlər tərəfindən Ermənistan-Azərbaycan danışıqları bu gündə davam etməkdədir. Başqa sözlə, Azərbaycan torpaqlarının işğal altında qalmasının müddəti müəyyən qüvvələr və dövlətlər tərəfindən uzadılır. Bu isə status-kvonun saxlanılması deməkdir. Mövcud vəziyyətin dəyişməsi üçün proseslər Azərbaycan Prezidenti İlham Əliyevin dediyi istiqamətdə davam etməlidir və Azərbaycanın 25 ildən artıq işğal altında olan torpaqları azad edilməlidir. Çox təəssüflə qeyd etmək lazımdır ki, ötən illər ərzində keçirilən görüşlər nə Azərbaycanın ərazi bütövlüyünü bərpa edir, nə də qaçqınların öz evlərinə qayıtmasını təmin edir.

Zənnimizcə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün addımlar atılmayanadək və status-kvo dəyişməyənədək keçirilən bütün görüşlər nəticəsiz qalacaq. İşğalçının Azərbaycan torpaqlarından çıxmasının qrafiki razılaşdırılarsa, görüşlər nəticə vermiş olar. Əks halda, danışıqlar işğalçıya və havadarına əlavə vaxt verilməsi deməkdir. Konstitusiyamızda göstərildiyi kimi demokratik, hüquqi, dünyəvi, unitar respublika olan "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir" (Azərbaycan Respublikasının Konstitusiyası, 2009) Qeyd edək ki, Almaniyanın Münhen şəhərində dünyanın aktual geosiyasi problemləri ilə, həmçinin NATO-ya üzv ölkələrin müdafiə qurumlarının nümayəndələrinin iclası kimi 1963-cü ildən keçirilməyə başlayan Münhen Təhlükəsizlik Konfransı dünyanın ən nüfuzlu dialoq platformalarından biri sayılır. 2020-ci

ilin 14-16 fevral tarixlərində 56-cı dəfə keçirilən konfransda dünyanın 40-dan çox ölkəsindən 800-dən artıq nümayəndə, 150 dövlət və hökumət başçısı iştirak etmişdi. Təbii ki, konfrans çərçivəsində qlobal təhlükəsizlik məsələləri müzakirə olunmuş, dünya siyasəti üçün aktual hesab edilən məqamlar üzərində dayanılmışdı. Onların sırasında Yaxın Şərq, İran, Çin, Suriya, Liviya və s. kimi ölkələrdə olan problemlər xüsusi əhəmiyyət kəsb etmişdi. Həmin aktual məsələlərlə yanaşı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar ayrıca panel təşkil edilmişdi. Orada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan açıq debata çıxmışlar. Debatda çıxış edən Prezident İlham Əliyev demişdir: "millətlərin öz müqəddəratını təyinetmə hüququndan Ermənistan süni yararlanmağa çalışır. Çünki erməni xalqı öz müqəddəratını artıq bir dəfə müəyyən edib və Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Əgər ermənilər ikinci dövlət yaratmaq istəyirlərsə, dünyanın başqa ərazilərində bu imkanı axtarsınlar. Azərbaycanda yox!" (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransında nitqi)

Beləliklə, Prezident İlham Əliyev bu çıxışı ilə bir daha bütün dünyaya nümayiş etdirdi ki, rəsmi Bakı ancaq ərazi bütövlüyünün bərpası şərti ilə münaqişənin həlli variantını qəbul edə bilər. İnanırıq ki, azərbaycançılıq ideologiyası ətrafında birləşən Azərbaycan xalqı xalq və dövlətin birliyi nəticəsində düşmən tapdağında olan öz torpaqlarını geri qaytaracaq və Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunacaqdır.

Beləliklə, nəticə etibarilə, XX yüzillikdə dəfələrlə istiqlal savaşına qalxmış Azərbaycan xalqı, nəhayət tarixi torpaqlarımızın bir hissəsində-Şimali Azərbaycanda özünün qədim dövlətçilik ənənələrini dirçəldə bilmişdi. Həmçinin qaynağını bəşər tarixinin ilk dövründən-yaddaşlardan, miflərdən, əsatirlərdən, dastanlardan götürən və getdikcə ədəbi düşüncədə formalaşaraq günümüzə qədər gəlib çıxan azərbaycançılıq məfkurəsi XIX əsrin sonuna doğru ədəbi-fəlsəfi fikir cərəyanı kimi formalaşsa da, XX əsrin əvvəllərində sosial-fəlsəfi varlıq və sistem kimi özünün yeni mərhələsinə qədəm qoydu və ictimai-siyasi həyatda öz təsbitini tapdı. Məhz Heydər Əliyev azərbaycançılığı bir məfkurə, bir mükəmməl milli ideologiya kimi özünün zirvə məqamına çatdırdı. Bu gün prezident İlham Əliyevin hərtərəfli fəaliyyəti azərbaycançılıq ideyalarına xidmətin ən yüksək nümunəsidir.

## İstifadə olunmuş ədəbiyyat:

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası (Azərbaycan Respublikasının prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq edilmişdir).
Azərbaycan Respublikasının Hərbi doktrinası (Azərbaycan Respublikasının Milli Məclisinin 2010-cu il 8 iyun tarixli 1029-III QR nömrəli Qərarı ilə təsdiq edilmişdir).
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Baş Assabmleyasında nitqi. "Xalq qəzeti", Bakı, 24 sentyabr 2010 cu il.
Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: ''Qanun'', 2009, 68 s.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransında nitqi. "Xalq qəzeti", Bakı, 16 fevral 2020 ci il.
Dünya Azərbaycanlılarının I Qurultayında Heydər Əliyevin nitqi// Dünya Azərbaycanlılarının I Qurultayı, Bakı: 2001, 25 s.
Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti, Bakı: "Letterpres" nəşriyyat evi, 2011, 440 s.
Həsənov Ə.M. Geosiyasət. Dərslik, Bakı:"Aypara-3", 2010, 604 s.
Məmmədzadə M.B. Azərbaycan milli xartiyası, Bakı: "Azərbaycan jurnalı", 1991, № 4,139 s.
Orucov Ə.A. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu- XX əsrin əvvəlləri (tarixi- fəlsəfi aspekt), Bakı: "Avropa", 2012, 251 s.
Mehdiyev R. XXI əsrdə milli dövlətçilik, Bakı: "Yeni nəşrlər evi", 2003, 248 s.
Tağıyev Ə. Milli ideya və milli ideologiya: Problemlər və onların şərhi, Bakı"Təbib", 2000,188 s.

**Günel Məlikli**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
*gunelmelikli88@gmail.com*

# MİLLİ TƏHLÜKƏSİZLİYİN QORUNMASI DÖVLƏT SİYASƏTİNDƏ ZƏRURİ AMİL KİMİ

**Açar sözlər: milli təhlükəsizlik, inkişaf, milli maraqlar, milli dəyərlər, siyasət**

Milli inkişafın bilavasitə dövlətin daxili ictimai-siyasi, sosial-iqtisadi və beynəlxalq vəziyyəti ilə bağlı olduğunu nəzərə alsaq, müstəqilliyini bərpa etdiyi gündən Azərbaycanın qarşısında dayanan əsas vəzifələrdən biri öz Milli İnkişaf Konsepsiyasını və ona uyğun olaraq dövlətin praktiki fəaliyyət strategiyasını yaratmaq, daxili-xarici siyasətini, onun istiqamətlərini, prioritetlərini və hədəflərini müəyyənləşdirmək, milli dövlət quruculuğu prosesinin həyata keçirilməsi mexanizmlərini formalaşdırmaq və təmin etməkdən ibarət idi.( Həsənov, 2011: 39).

Milli təhlükəsizlik siyasətinin hazırlanması və bu siyasətin yüksək səviyyədə həyata keçirilməsi hər bir demokratik dövlətin qarşısına qoyduğu vacib məsələlərdən biridir.

Təhlükəsizlik- fərdin, cəmiyyət və dövlətin həyati maraqlarını daxili və xarici təhlükələrdən qoruyan bir vəziyyətdir."Milli təhlükəsizlik" terminindən ilk dəfə ABŞ prezidenti T.Ruzvelt 1904-cü ildə ABŞ Konqresinə göndərdiyi mesajında istifadə etmişdir. Bu mesajda, Panama Kanalının ABŞ zonasına qoşulmasından bəhs olunurdu və bu ABŞ-ın "milli təhlükəsizlik" maraqları ilə izah olunurdu.

Hər bir ölkənin milli təhlükəsizlik siyasətinin səmərəliliyi və müvəffəqiyyəti ölkənin təhlükəsizlik mühiti və beynəlxalq imicindən asılıdır. Dövlətin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin, toxunulmazlığı, milli maraqlarının təminatı, davamlı inkişafı, vətəndaşlarının sosial-siyasi hüquqlarının və rifah halının təmin olunması və milli-mənəvi dəyərlərinin qorunmasına təsir edən əsas amillər məhz təhlükəsizlik mühitini və beynəlxalq imici müəyyən edir. (Həsənov, 2011: 57)

Dövlətlərin milli təhlükəsizliyi konsepsiyaları işlənib hazırlanıb, belə ki, milli təhlükəsizlik adı altında bu və ya digər cəmiyyətin milli maraqlarının müxtəlif təhlükələrdən qorunması başa düşülür.

Bəzi əsərlərdə, çoxmillətli dövlətlərin şərtlərinə tətbiq edilən "milli təhlükəsizlik" termini istifadə qanuniliyi gözlənilir. Eyni zamanda, "milli" sözünün etnik bir xüsusiyyətə malik olduğunu vurğulanır. Bəzi tədqiqatçıların fikrincə, əgər dövlət çoxmillətlidirsə, onda onun milli təhlükəsizliyi barədə danışmağın heç bir mənası yoxdur.Buna görə də "milli dövlət təhlükəsizliyi" terminindən istifadə etmək təklif olunur.

Ancaq bu yanaşma öz növbəsində etirazları artırır."Millət" termini latınca "natio" sözündən yaranıb ki, tərcümədə "insanlar" deməkdir.

Buna görə də, milli təhlükəsizlik dedikdə, ilk növbədə müəyyən bir ölkənin bütün xalqının təhlükəsizliyini nəzərdə tutulur.İkincisi, "milli maraqlar" və "dövlət maraqları" anlayışları eyniləşdirilməməlidir. İdeal vəziyyətdə onlar üst-üstə düşməlidirlər, lakin bu nadir hallarda olur.

Milli inkişaf Strategiyası bir-biri ilə eyni statusda və dəyərdə olan milli inkişaf və milli təhlükəsiyin (daxili və xarici) əsas ölçüləri və tələblərini əks etdirir, hər iki sahə üzrə ayrıca konsepsiyanın yaradılması və həyata keçirilməsini bir vəzifə kimi qarşıya qoyur. (Həsənov, 2011: 19).

Azərbaycanın müstəqillik yolu, milli inkişafı və dövlət quruculuğu prosesi bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı özünün siyasi, iqtisadi, mədəni-intellekyual potensialından və SSRİ-nin dağılması ilə əlaqədar yaranan əlverişli tarixi şəraitdən istifadə edərək, 1991-ci ildə öz milli iradəsini ortaya qoydu, yenidən istiqlal haqqına qovuşaraq müstəqil dövlətini bərpa etdi və BMT üzvü olan müstəqil dövlətlər sırasına qoşuldu. (Həsənov, 2011: 21)

Qeyd edək ki, ABŞ-ın milli təhlükəsizlik strategiyasının əsasını isə milli maraqların qorunması təşkil edir. ABŞ-ın milli maraqları üç kateqoriyaya bölünür:

1. Həyati əhəmiyyətli maraqlar - buraya terrorla mübarizə, nüvə silahlarının yayılmaması, siyasi və iqtisadi cəhətdən qeyri-stabil və konfliktlərin mövcüd olduğu ərazilər və s. daxildir.
2. Əhəmiyyətli maraqlar - bu maraqlar özlərində ölkələrdə antidemokratik hərəkatların qarşısının alınmasını, beynəlxalq narkotik dövriyyəsi ilə mübarizə, keçmiş sovet məkanında müharibələrin qarşısının alınması və s. özündə ehtiva edir.
3. İkinci dərəcəli maraqlar. Buraya ətraf mühitin qorunması, Afrikanın siyasi və iqtisadi dirçəlişi və s. aiddir (Стрельцов, 2001:155).

Qeyd etmək lazımdır ki, ABŞ-ın milli maraqları qlobal xarakteri ilə fərqlənir. BMT - nin Baş Assambleyasının 14 - cü sessiyasında Baş katibin "Beynəlxalq təhlükəsizlik kontekstində informasiyalaşma və telekommunikasiya sferasında olan nailiyyətlər" haqqındakı məruzəsində Amerika belə hesab edir ki, milli informasiya sistemlərinə istənilən qeyri - qanuni müdaxilə milli infrastrukturun əsas obyektlərinə qarşı potensial təhlükə yaradır, başqa sözlə, milli maraqların qorunması çətinləşir.

Dəyərlərə yüksək önəm verən ümummilli lider Heydər Əliyev 1998-ci ildə Bakıda keçirilən «Müasirlik və dini-mənəvi dəyərlər» Beynəlxalq konfransdakı çıxışında demişdir ki, müsir dünyada mənəvi dəyərlərdən səmərəli şəkildə istifadə olunması hər bir ölkə üçün, hər bir xalq üçün, hər bir din üçün çox əhəmiyyətlidir.

Müasir Azərbaycanda demokratik prinsiplərin bərqərar olması, hüquqi dövlətin formalaşması dövlətimizin qlobal beynəlxalq aləmə inteqrasiyası şəraitində dinin, xüsusilə islamın mədəniyyətə təsirinin öyrənilməsi, müasir insanın mənəviyyat prinsiplərinin formalaşmasına, onun daxilən zənginləşməsinə təsirinin öyrənilməsi mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyev mənəvi prinsiplərin rolunu xüsusi qiymətləndirir: «Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracayıq».

Qloballaşma və sivilizasiyaların qarşılıqlı təsiri onların məhvedici toqquşmasının qarşısını almaq, sivilizasiyalar arasında lokal konfliktləri nizamlamaq problemləri alimlərin və ictimaiyyətin diqqətini daha çox cəlb etməyə başladı. Bununla bağlı akademik Ramiz Mehdiyev haqlı olaraq yazır ki, modernizasiya nəzəriyyəsinin əsas komponentlərindən biri də qəbul edilən mədəniyyətə xas olan ənənəvi normalar və dəyərlər ilə yeni təsisatlar arasında zəruri olaraq yaranan toqquşma problemlərini tətbiq etməkdir (Mehdiyev, 2005).

Müasir Azərbaycanın inkişaf strategiyasında Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin qeyd etdiyi kimi modernləşmə və Azərbaycançılıq vəhdət təşkil edir. Daha çox ölkənin daxili potensialına hesablanmış modernləşmə kursunun təməlində Azərbaycançılıq ideyasının dayandığı şübhəsizdir.

Prezident İlham Əliyevin müstəqil Azərbaycanın inkişaf konsepsiyası xalq tərəfindən dəstəklənir və onun fəaliyyətini yüksək qiymətləndirir. Ölkənin inkişaf strategiyasını müəyyənləşdirərkən İlham Əliyev deyir: "Biz hesab edirik ki, regionumuzun gələcəyi cəmiyyətimizin nə dərəcədə uğurla müasirləşdirilməsindən asılı olacaqdır. Yəni demokratik islahatların inkişaf etdirilməsi, iqtisadi islahatların həyata keçirilməsi siyasi sistemin, cəmiyyətimizin müasirləşdirilməsi siyasətində daha fəal olmağımızdan asılı olacaqdır".(Mehdiyev, 2008:185)

Milli təhlükəsizliyin təmin edilməsi bütün təhlükəsizlik subyektlərinin koordinasiyalı səylərini və hərəkətlərini tələb edən məqsədyönlü, bilikli bir tənzimləmə prosesidir.Buna görə də, bu prosesin əsas istiqamətləri milli təhlükəsizlik konsepsiyasında əks olunur.

Dövlətin milli təhlükəsizliyinə konseptual yanaşma əsas məsələlərdən hesab edilir.

Milli təhlükəsizlik konsepsiyası fərdin, cəmiyyətin və dövlətin özünün siyasi, iqtisadi, sosial, hərbi, texnoloji, ekoloji, informasiya və digər xarici və daxili məsələlərdən təhlükəsizliyini təmin etmək üçün dövlətin vəzifələri və strategiyası barədə rəsmi qəbul edilmiş fikirlərin əksəriyyətini əks etdirən siyasi sənəddir.

Dövlətin maraqları konstitusiya quruluşunu, suverenliyini və ərazi bütövlüyünü qorumaq, siyasi, iqtisadi və sosial sabitliyin qurulmasını, qanunları yerinə yetirmək, qanun və qaydaları qorumaq, tərəfdaşlıq yolu ilə beynəlxalq əməkdaşlığı inkişaf etdirməkdir.

Şəxslərin, cəmiyyətin və dövlətin maraqlarının inteqrasiyası iqtisadiyyat, daxili siyasi, beynəlxalq və müdafiə sahələri, mənəvi həyat və mədəniyyət sahəsində milli mənafelərdə ifadə edir.

Əsas milli maraqların həyata keçirilməsi problemlərinin kompleks həlli yalnız keyfiyyətli xammal və avadanlıqlarla, iqtisadiyyatın aparıcı sektorlarını silah, əhali və sosial sahə ilə istehlak və xidmət maddələrinə malik məhsullar, xarici bazarda rəqabət qabiliyyətli məhsullarla ixrac edə bilən diversifikasiyalı və yüksək texnologiyalı istehsalın dayanıqlı işləməsi əsasında mümkündür.

Daxili siyasət sahəsində milli maraqların vətəndaş sülhünün, milli harmoniyanın, dövlət hakimiyyətinin və qurumlarının sabitliyinin təmin edilməsi, qanunun aliliyi və demokratik cəmiyyətin formalaşmasının başa çatması, eləcə də sosial və beynəlxalq münaqişələrin, milli və regional separatizmin yaranmasına səbəb olan səbəb və şəraitin aradan qaldırılmasından ibarətdir.

Ölkədə yaşayan xalqların maraqlarının koordinasiyası, onların hərtərəfli əməkdaşlığının qurulması, məsuliyyətli və balanslaşdırılmış dövlət milli siyasətinin aparılması ölkənin daxili siyasi sabitliyini təmin edəcək, onun sabitliyini və birliyini qoruyacaq ən mühüm vəzifələrdir.

Bu problemlərin hərtərəfli həlli dövlətin daxili siyasətinin əsasını təşkil etməlidir və onun inkişafı çoxmillətli və demokratik olmalıdır. Milli maraqlar cinayətlərin və korrupsiyanın artmasına qarşı mübarizədə səylərin birləşdirilməsini tələb edir.

Fərdin, cəmiyyət və dövlətin maraqları cinayət və korrupsiyanın mövcudluğunun təməlini aradan qaldırmaqdan, bu mənfi təzahürlərin təsirli şəkildə qarşısının alınması üçün tədbirlər sisteminin yaradılmasından ibarətdir

Mütəşəkkil cinayətkarlıqla mübarizə, korrupsiya, terrorizm və quldurluq ilə mübarizə vektoru hər hansı bir cinayətə görə cəzanın qaçılmaz olması və hər bir insanın din, rəng, vətəndaşlıq, fikir və inancından asılı olmayaraq şəxsi təhlükəsizliyə qarşı müdafiə edilməsinə yönəldilməlidir.

Həyat, mədəniyyət və elm sahəsindəki milli maraqlar əsasən davam edən islahatların gedişatını və nəticəsini müəyyənləşdirir. Cəmiyyətin mənəvi canlanması, onun əxlaqi dəyərləri iqtisadiyyatın inkişaf səviyyəsinə və cəmiyyətin bütün sahələrinə birbaşa təsir göstərir.Ən mühüm milli maraqlar cəmiyyətdə yüksək əxlaq, hümanizm və mədəniyyətin təsdiqlənməsi, Vətənin əsrlər boyu mənəvi ənənələrinin inkişafıdır.

Bu marağın reallaşdırılması mədəniyyətə zərər verməyən, milli dəyərlərin və mülkiyyətin qorunması və inkişafını, cəmiyyətin daha da mənəvi və intellektual inkişafını təmin edən bir dövlət siyasətini tələb edir.

Bu siyasi kursun əsas tərkibinə - dövlətlərin inteqrasiya birləşməsinin könüllülük əsasında formalaşması; digər böyük dövlətlərlə, iqtisadi və hərbi güc mərkəzləri ilə bərabər tərəfdaşlıq əlaqələrinin inkişafı; transmilli cinayətkarlıq və beynəlxalq terrorizmlə mübarizədə beynəlxalq əməkdaşlığın inkişafı; dövlətin mühüm rol oynadığı dünya siyasi və iqtisadi proseslərinin mexanizmlərinin gücləndirilməsi daxildir.

Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti milli siyasi məkanın inkişaf inkişaf vektorunun dəyişməsinə şərait yaratmışdır. Ölkədə iqtisadi və siyasi sabitləşmənin zəruri olması tezisi tədricən genişlənərək, vətəndaş cəmiyyəti strukturlarının yaradılması və təkmilləşdirilməsi tezisinə çevrilmişdir.( Mehdiyev, 2008:46)

## İstifadə olunmuş ədəbiyyat

1. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, Letterpres, 2011,

2. Mehdiyev R. Azərbaycan-2003-2008: Zaman haqqında düşünərkən. Bakı, "Şərq-Qərb", 2009, 240

3. Mehdiyev R. Demokratiya dövlət və cəmiyyətin inkişafının prioriteti kimi// «Respublika» qəzeti. 21 may, 2005– ci il, № 99

4. Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: “Şərq-Qərb”, 2008, 216s.
5. Mehdiyev R.Ə. Yeni siyasət: İnkişafa doğru. I cild. Bakı: Oskar” NPM-nin mətbəəsi, 2008 “, 581 s.
6. Mehdiyev R.Ə. Yeni siyasət: İnkişafa doğru. II cild, Bakı: “Oskar” NPM-nin mətbəəsi, 2008 343 s.
7. Məlikli G. Azərbaycan Respublikasının dövlət təhlükəsizliyində sosial siyasətin yeri və rolu. Bakı: İndiqo mətbəəsi, 2018, 208 s.
8. Кастельс М. Информационная эпоха: экономика, общество и культура. МГУ ВШЭ, 2016,с.608
9.Засурский Я. Информационное общество и средства массовой информации //http://intra.rfbr.ru/pub/vestnik /V3_99/2_l.htm;
10.Стрельцов А. Проблемы реализации доктрины информационном безопасности на современном этапе // ≪Право знать: история, теория, практика≫. 2001, №11-12 (59-60) ноябрь-декабрь //http://www.ksdi.ru/right/2001_59_60(1l-12)/strelcov_l l_12.html.
11.Прохожева А.А. Общая теория национальной безопасности. М.,РАГС, 2012
12. Соловьев А.И. Политические коммуникации. М., Политиздат, 2044

**Ceyhun Əhmədov**
*AMEA Hüquq və İnsan haqları İnstitutunun dissertantı*
Ceyhun553@gmail.com

# TRANSPLANTASİYA İNSAN TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ

**Açar sözlər:** transplantasiya, donor, hüquq, insan, təhlükəsizlik

Donorluğun bütün növlərinin fəaliyyətinin əsasını konstitutsion hüquq və azadlıqlar təşkil edir. Donorluq yaşamaq hüququnun reallaşmasının spesifik formalarından biridir.Yaşamaq hüququnun məzmununda donorluğun rolu onun məqsədləri – həyat qurtarmaq və insanların sağlamlığını bərpa etməklə müəyyənləşir. Donor materiallarından istifadə etməklə tətbiq olunan bir çox yeni müalicə metodları ya insan həyatının xilasına, ya da onun istiqamətlənmişdir.

Transplantologiya yarandığı vaxtdan etibarən cəmiyyət qarşısında hələ də həllini tapa bilməyən bir sıra tibbi, hüquqi və etik problemlər çıxarmışdır. Transplantologiya təkcə dar ixtisaslaşmış, sırf tibbi məsələ deyil, həm də ciddi insan təhlükəsizliyi fəaliyyəti problemdir(Поспелова, 5, 2006:198).

1990-cı ildə transplantologiya üzrə konqreslərin birində A.Kaplan demişdir: ”Transplantasiyada əsas olan nə texnologiya, nə də qiymət deyildir, əsas etikadır. Transplantasiya tibbin yeganə sahəsidir ki, ictimai iştirak olmadan onun mövcudluğu qeyri-mümkündür.”

Orqanların köçürülməsi xəstələrin həyatını xilas edir. Canlıdan yaxud vəfat edəndən götürülməsindən asılı olmayaraq donor orqan həyat xilas etdiyi üçün transplantasiya tibbinin vasitəsidir. Cəmiyyətin mənəvi borcu – bu müalicə metoduna ədalətli əlçatımlılığı təmin etməkdir. Transplantasiya üçün orqan çatışmazlığı da həmçinin mənəvi problemdir. Buna görə də insana kömək etmək üçün donor orqanlarının axtarışından imtina etmək qeyri-əxlaqi hərəkətdir. Orqan və maliyyə çatışmazlığı ilə yanaşı daha bir problem mövcuddur – fərdin əlçatan tibbi yardım almaq hüququ ilə cəmiyyətin müdafiə olunmaq hüququ arasında tarazlıq yaratmaq.

Bu cür məsələlər və onların həlli yolları “Transplantasiya turizmi və orqan ticarəti haqqında İstanbul Qətnaməsi”ndə (2008-ci il) və Ümumdünya Səhiyyə Assambleyasının 63-cü sessiyasında (2010-cu il) qəbul olunmuş “Ümumdünya Səhiyyə təşkilatının insan hüceyrə, toxuma və orqanlarının transplantasiyası haqqında” rəhbər prinsiplərində əks olunmuşdur.

Transplantasiyanın keçirilməsi potensial donorun qanuni hüquq və maraqlarının təmin edilməsi məsələləri ilə sıx bağlıdır. Buna görə də ölümdən sonra donorluğun optimal modelinin (razılıq və ya qeyri-razılıq prezumpsiyası) seçimi mövzusunda müzakirələr hələ də davam edir. Bundan başqa, canlı donor praktikası bir sıra səbəblər üzündən bu problemin həlli yolu deyil – potensial donorla resipiyent arasında tez-tez histouyğunluğunolmaması, donorda cərrahi müdaxiləyə əks-göstəriş, həyatı üçün təhlükə yarandıqda donorun müdafiəsizliyi, ayrı-ayrı tək orqanların (ürək, ağciyərlər, “ağciyər-ürək kompleksi”) köçürülməsi üçün transplantasiyanın bu növünün yarasızlığı. Belə vəziyyətlərdə ölü donordan istifadə mütləq hal alır ki, bu da dövlətin bu vəziyyətə dair qəbul etdiyi siyasəti izah edir. Hazırda transplantologiyanın inkişaf etdiyi ölkələrdə transplantoloji xidmətin səviyyəsi səhiyyə sisteminin inkişaf dərəcəsi ilə sıx bağlıdır. Donorluğun sosial əhəmiyyəti insan həyatını xilas etmək və onların sağlamlığını bərpa etməkdir. Donorluq beynəlxalq birliklərin qəbul etdikləri humanist prinsiplərə müvafiq olaraq və insan hüquqlarına qanunvericilik əsasında riayət etməklə həyata keçirilir. Donorluq həm donorların, həm də digər şəxslərin konstitutsion hüquq və azadlıqlarının reallaşması sistemində əhəmiyyətli yer tutur. İlk olaraq donorluq resipiyentin konstitutsion yaşamaq hüququnun reallaşmasının təminatına yönəlmişdir(Поспелова,4, 2006:59). O həm də insan həyatının xilasına və sağlamlığının bərpası üçün vacibdir. İkincisi, bir çox konstitutsion hüquq və azadlıqlar donorun fiziki və mənəvi tozunulmazlığının müdafiəsinin təminatına yönəlmişdir. Üçüncüsü, Konstitusiya donorun özünün maraqları xatirinə öz orqanizmindən istifadə hüququnu məhdudlaşdıran prinsipləri özündə əks etdirir.

Xüsusi tibbi aspektlərlə yanaşı, donorluq insan orqanizminə münasibətə aid olan bir sıra hüquqi və etik problemlərə də malikdir. Xüsusilə, insanın istər sağ, istərsə də ölümündən sonra öz orqanizmi və

onun hissələri ilə rəftarı haqqında olan məsələ resipiyentin yaşamaq hüququ və insanın ölümündən sonra da şəxsi ləyaqətinin qorunması arasında balansın təmin olunması hesabına həllini tələb edir. Donor münasibətlərinin öyrənilməsinin məqsədyönlülüyü təkcə elmi deyil, həm də praktiki əhəmiyyətə malikdir. Donorluğun insanın yaşamaq hüququnun reallaşdırılması forması kimi işıqlandırılması donor orqan və toxumalarına ehtiyac duyan pasiyentlərin həyatının xilas edilməsi, onların hüquq və qanuni maraqlarının təmin olunması məqsədilə olduqca vacibdir.

Donorluq sferasında hüquqi tənzimləmə ilə bağlı problemlər həm yerli, həm də xarici ölkələrin hüquq və tibb sahəsindəki elm xadimləri tərəfindən analiz edilmişdir.

Hüquq elmində donorluq münasibətləri bu günə qədər yalnız cinayət və vətəndaş hüququ tənzimləməsi mövqeyindən tədqiq olunmuşdur. Bu münasibətlərin konstitutsion-hüquqi tərəfləri praktik olaraq toxunulmamışdır.

- Donorluq – ölümə məhkum insanın yaşamaq hüququnun reallaşmasının yeganə mümkün formasıdır, onun reallaşmaması bu hüququn fəaliyyətinin təbii yolla dayanmasına gətirib çıxarır, həmçinin, sonsuzluğun müalicəsində yeni insan həyatının dünyaya gəlməsində sonuncu imkandır.

Subyektiv donorluq hüququnun həyata keçmə mexanizmi insanın yaşamaq hüququnun reallaşması forması kimi özünə aşağıdakı elementləri daxil edir:

a) Fiziki şəxsin aktiv subyekt institutu – burada fiziki şəxs öz orqanizminin ayrı-ayrı hissələrini resipiyentə onun yaşamaq hüququnu reallaşdırmaq məqsədilə vermək hüququnu aktiv və passiv formada reallaşdırır;
b) hüquq münasibətlərinin passiv subyekt anlayışı – burada fiziki şəxs yaşamaq hüququnu həyata keçirmək üçün digər fiziki şəxsin (donorun) köçürülən orqanını passiv formada qəbul edir.
c) Donorluq hüquq münasibətlərinin məzmunu – ayrı-ayrı insan orqanlarının və ya toxumalarının donordan resipiyentə onlardan hər ikisinin və ya heç olmasa birinin yaşamaq hüququnu reallaşdırmaq məqsədilə Konstitusiya və digər qanunvericilik normaları tərəfindən tənzimlənən qaydalardır.

Subyektin donorluq hüququ vətəndaşın ümumi konstitusion-hüquqi statusuna müvafiq olan hüquqları, azadlıqları, vəzifələri və onların təminatını özünə daxil edir. Bu status 4 formada həyata keçir:

-davranış hüququ – donor öz orqanizminin hissələrini müalicə məqsədilə təqdim edir;

-tələb hüququ – donorun həm dövlətdən, həm də insan hüquqları üzrə beynəlxalq təşkilatlardan, həmçinin, digər şəxslərdən (məs, tibb işçilərindən) öz orqanizmi və onun hissələri ilə istədiyi kimi rəftar etməsinə mane olmamağı tələb etmək imkanı;

-iddia hüququ – donor və ya onun nümayəndəsinin həm dövlətdaxili hüquq mühafizə orqanlarına, həm də insan hüquqları üzrə təşkilatlara öz orqanizmindən sərbəst istifadə hüququnu müdafiə etmək, həmçinin, donorluğa məcbur edilməkdən qorunmaq üçün müraciət etmək imkanı;

-istifadə hüququ – həyat və sağlamlıqdan müalicə məqsədilə istifadə səlahiyyəti.

Donorluğa 2 aspektdən yanaşmaq olar: 1) hüquq normaları ilə tənzimlənən sosial institut kimi, 2) insanın öz orqanizmi və onun hissələrindən istifadə səlahiyyəti kimi.

Donorluq yaşamaq hüququnun məzmununa aşağıdakı elementləri daxil edir:

-donorun öz orqanizmi və onun hissələrindən müalicə məqsədilə istifadə hüququ (bu hüquq mövcud qanunvericiliklə əhəmiyyətli dərəcədə məhdudlaşdırılmışdır);

-resipiyentin donor orqan və toxumasının köçürülməsindən imtina etmək hüququ (həyatına son qoyulma təhlükəsi olsa belə);

-donorun həyatına istənilən qeyri-qanuni qəsddən, məcburi donorluğa cəlb edilməkdən qorunmaq hüququ.

Donorluq fəaliyyətində əsas subyektlər olan donor və resipiyentlə yanaşı, donor və resipiyentin qanuni təmsilçiləri, tibb işçiləri, tibb müəssisələri və sosial siyasəti vətəndaşlarının sağlamlığının qorunmasına, donorluğun yayılmasına, donorluq hüququnun reallaşmasının təmin edilməsinə yönəlməli olan dövlət iştirak edir.

Transplantasiya məqsədilə insanın ölümündən sonra ondan orqan və toxumanın alınmasına dair iradənin ifadəsi məsələsi dünyanın bütün ölkələrində 2 yolla həll olunur:

1)”tələb olunan” razılığın fiksasiya edilməsi – Şimali Amerika modeli, donorun özünün həyatda olarkən orqan və ya toxumasının götürülməsinə verdiyi razılıq və ya onun ölümündə sonra qohumlarının razılığının mövcudluğunun vacibliyini nəzərdə tutur. Belə sistemə ABŞ, İsveç, Portuqaliya, Danimarka, Almaniya, Avstraliya, Kanada və s. istinad edirlər(Поспелова,3:.47).

2) “razılıq prezumpsiyası”ndan istifadə - fransız modeli, burada şəxsin özünün həyatda olarkən və ya (ölümündən sonra) qohumlarının meyitin orqan və toxumalarınıngötürülməsinə dair razılıq verməməsi haqqında müraciətin vacibliyi əsasdır. Bu sistemdən Rusuya, Avstriya, İtaliya, Çexiya, Belçika, İspaniya, Fransa, Finlandiya, Norveç, Polşa və s. ölkələr istifadə edir.

Donorun səlahiyyəti donorluğun növündən asılıdır. Orqan və toxuma donoru onun həyatda olduğu müddətdə sağlamlığına bərpa olunmayan zərər vurmadan və ya ölümündən sonra öz orqan və toxumalarını vermək üçün şüurlu şəkildə qərar qəbul etmək hüququna malikdir.

**İstifadə edilmiş ədəbiyyat**


Azərbaycan Respublikasının Konstitutsiyası (Yeni redaksiyada), Bakı: Qanun nəşr., 2009, 68 s.

Поспелова С.И. Правовые проблемы согласия на изъятие органов и тканей человека после смерти для трансплантации // Научные труды II Всероссийского съезда (Национального Конгресса) по медицинскому праву. — М., 2005. — С.250—259. — 0,6 п.л.

Поспелова С.И. Конституционно-правовые аспекты донорства: актуальность исследования // Материалы всероссийской научно-практической конференции. — Новосибирск, 2006. — С.184—190. — 0,4 п.л.

Поспелова С.И. Некоторые правовые и этические проблемы донорства при применении вспомогательных репродуктивных технологий // Материалы всероссийской научно-практической конференции. — Новосибирск, 2006. — С.190—195. — 0,4 п.л.

Поспелова С.И. Принципы правового регулирования донорства // Научные труды Московского гуманитарного университета. — М., 2006. — № 73. — С.135—144. — 0,9 п.л.

Поспелова С.И. Право на донорство органов и тканей человека (конституционно-правовой аспект) // Научные труды Московского гуманитарного университета. — М., 2006. — № 74. — С.30—40. — 0,9 п.л.

**Nərmin Nəbiyeva**
*Azərbaycan Turizm və Menecment Universiteti*
*Narmin.nabiyeva14@gmail.com*

# AİLƏ NİKAH MÜNASİBƏTLƏRİNDƏ YAŞANAN ÇƏTİNLİKLƏR VƏ BOŞANMA PROBLEMİ

**Açar sözlər:** ailə, ailədaxili problemlər, ailədaxili zorakılıq, ünsiyyət, boşanma

Ailə bütün cəmiyyətlər üçün böyük əhəmiyyət kəsb edən bir sosial təsisatdır. Bu qurum bəşər tarixinin başlanğıcından bəri mövcudluğunu və əhəmiyyətini davam etdirir və bundan sonra da edəcəkdir. Sosial inkişaf və dəyişikliklərlə paralel olaraq ailədə bəzi dəyişikliklər baş verdi və məişət problemlərinin müxtəlifliyi artdı. Texnologiyanın nəticəsi olan yeni yanaşmalar, texnologiya nəsli və təhsil fərqləri problemlərin əsas mərkəzindədir.

Ailədaxili münaqişələrin baş verməsindən öncə ailə daxilində psixoloji iqlimin, yəni psixoloji mühitin nə yerdə olduğunu müəyyən etmək lazımdır. Ailə münasibətləri möhkəm təməl - yəni qarşılıqlı sevgi, qarşılıqlı hörmət və rəğbət, qarşılıqlı inam, etibar, vəfa və.s üzərində qurulmayıbsa o zaman ailədaxili psixoloji iqlimin pozulması nəticəsində həmin ailədə ərlə arvad arasında soyuma, bir-birindən uzaqlaşma, bir-birini günahlandırma və evdə yersiz söhbətlərin günlərlə davam etməsi prosesi baş verir. Ailə daxilində ər və arvad bir-birinə qarşılıqlı hörmət bəsləməli və qarşılıqlı etimad göstərməlidirlər. Bu halların mövcud olmadığı ailələrdə xırda məsələlər üzündən yersiz söz-söhbət yaranır, tərəflər bir-birini günahlandırır və hətta bəzən tərəflər bir-birilərinə qarşı təhqirlərdən istifadə edirlər. [4]

Mütəxəssislərin fikrincə, ailədaxili münaqişələrin yaranmasında kişilərin işsizliyi, qadınların cəmiyyətdəki rolunun artması böyük rol oynayır. Bu günə kimi azərbaycanlı ailələrdə adətən əməyin ənənəvi bölgüsü aparılıb. Yəni ər işləyib evə pul gətirir, arvad isə evdə uşaqların tərbiyəsi və ev işləri ilə məşğul olur. Ev işlərində və uşaqların tərbiyəsi ilə kişilərin az məşğul olması və ya heç məşğul olmaması da ailədaxili münaqişələrə, gərginliyə, yersiz söz-söhbətlərə, inciklklərə gətirib çıxarır.

Ailədaxili münaqişələrin baş verməsində özünü qiymətləndirmənin də rolu az deyildir. Çünki tərəflərdən hər hansı biri özünü yüksək qiymətləndirirsə, bu zaman ailədə istər-istəməz narazılıq yaranır. Ər özünü yüksək qiymətləndirirsə, bu halda evdə ancaq onun dediyi fikir, söz və qərarın əsas götürülməsi deməkdir. Yəni ailədə arvadın dediyi ən ağıllı fikir belə ər tərəfindən qəbuledilməz hesab olunur. Bu halda ailədə narazılıq yaranır və münaqişələr olur. Belə halların olmaması üçün hər iki tərəfin özünü adekvat qiymətləndirməsi vacibdir. Kişi heç bir halda özünü qadından üstün tutmamalı, öz fikir və qərarlarını zorla ona qəbul etdirməməlidir.

Evliliyin sonlanmasına gətirib çıxaran səbəblər müxtəlifdir, lakin ən əsas səbəblər bunlardır:

- iqtisadi problemlər,
- tərərflərin sosial mədəni cəhətdən fərqlilikləri,
- cinsi problemlər,
- qarşılıqlı ünsiyyətdə problemlər,
- tərəflərdən birinin xəyanəti,
- ailədaxili zorakılıq,
- həyat yoldaşlarının bir-birinə laqeydliyi,
- ailələrə həddən artıq kənar müdaxilə,
- uşaq olmaması,
- ciddi iqtisadi və sinfi fərqliliklər,
- yaş fərqinin həddindən artıq çox olması,
- erkən nikahlar,
- tərəflərin ailə məsuliyyətini lazımınca dərk etməmələri,
- tərəflər arasında qısqanclıq hissinin güclü olması,

- ailənin təzyiqi ilə evliliklər və müxtəlif psixoloji problemlər.

Lakin, bütün bu problemlərə baxmayaraq davam edən evliliklər heç də az deyildir. Xoşbəxt görünüşlü bəzi evliliklər də vardır ki, sudan səbəblərə görə tez bir zamanda boşanma ilə nəticələnir. Evlilikdə qarşılıqlı gözləntilər vardır. Daim boşa çıxan gözləntilər və uğursuz yanaşma cəhdləri tərəflər arasındakı emosional bağı sarsıdır. Bunun nəticəsində isə boşanma qaçınılmaz olur. Lakin, həyat yoldaşlarından birinin ümidini itirməməsi, tək yaşamaq istəməməsi və uşaqların məsuliyyətinə görə davam edən evliliklər də vardır ki, bu evliliklərdə tərəflər artıq emosional cəhətdən bir-birindən ayrılmış sayılır.

Bəzən oğlan və qızlara elə gəlir ki, ailə qurmaq çox asan və sadə işdir. Lakin bu heç də belə deyildir. Bu cür bəsit fikirləşənlərin aqibəti çox zaman acı nəticələrə gətirib çıxarır.

Ümumiyyətlə, boşanma haqqında ilk məlumata biz hələ Hammurapinin Qanunlar toplusunda rast gəlirik. Təəccüblü deyil ki, bu qanunlarda boşanma hüququ yalnız kişilərə verilmişdir. O vaxtdan təxminən dörd min il keçmişdir. Bəzi dövlətlərdə hətta indiki dövrdə qadınların boşanma prosesində heç şahid qismində də iştirak etmək hüququ yoxdur. Belçikada 1958-ci ildə verilmiş qanuna görə, ər xəyanət aktının harada baş verməsindən asılı olmayaraq arvadından boşanma hüququna malik olduğu halda, qadın isə ərinin xəyanət etməsinə görə boşanma tələbi irəli sürə bilməz. Azərbaycanda da Cumhuriyyət yarananadək qadınların öz ərlərindən boşanmaq hüququ yox idi. Artıq Azərbaycanda boşanma qanun çərçivəsində həyata keçirilir, yəni məhkəməyə hər iki tərəf müraciət edə bilər. Göründüyü kimi, əvvəllər boşanmaya səbəb ən çox xəyanət olmuşdursa da, indi isə boşanmanın səbəbləri artmışdır. [Salmanova, 2013 səh 111]

Boşanma motivlərini 3 yerə bölmək olar:

1. Sosial-iqtisadi motivlər
2. Psixoloji və fizioloji motivlər
3. Sosial-bioloji motivlər

İqtisadi faktorlara – ailə üzvlərinin yaşamağa yerinin olmamsı, ailənin aşağı gəlirli olması, ərin və ya arvadın valideynləri ilə birgə yaşaması, ailənin şəxsi həyatına valideynlərin və başqa qohumların müdaxiləsi aiddir. Sosial faktorlara isə: kişi və qadının nikaha lazımi diqqəti göstərməməsi, ər və ya arvadın heç bir səbəb olmadan evdən getməsi və .s aiddir.

İkinci qrup motivləri isə aşağıdakı kimi qruplaşdırmaq olar:

Psixoloji xüsusiyyətə malik faktorlar, fizioloji xüsusiyyətə malik faktorlar və psixo-fizioloji xüsusiyyətə malik olan faktorlar.

Psixoloji xüsusiyyətə malik olan faktorlar - ər və arvadın xarakterlərinin və həyata baxışlarının düz gəlməməsi. Bu isə onların gələcəkdə bir-birini başa düşməməsinə, qarşılıqlı hörmətsizliyin yaranmasına gətirib çıxarır.

Fizioloji xüsusiyyətlərə malik olan faktorlar – ər və arvadan fiziki uyğunsuzluğu, ər və ya arvaddan hər hansı birinin sonsuzluğu ilə əlaqədardır.

Nəhayət, psixo-fizioloji xüsusiyyətə malik faktorlar – uşaq doğulandan sonra arvadın uşağına daha çox vaxt ayırıb, ərinə etinasız yanaşması (yaxud əksinə), qadınla kişinin yaşı arasında böyük fərq.

Üçüncü qrup motivləri sosial-bioloji faktorlardır:

1. Sərxoşluq və alkoqolizm (qəddarlıqla döymək, öldürməyə səy, ailənin maddi vəziyyətinə mənfi təsir göstərmək, xuliqanlıq, xəyanət və.s).
2. Ər-arvad vəfasızlığı
3. Faktiki nikahdan başqa digər ailənin olması,
4. Xəstəliklər ( vərəm, psixi və əsəb sisteminin xəstəlikləri, əlillik),
5. Ailədən ər və ya arvadın getməsi, saxta nikah
6. Nikaha məhəbbətsiz daxil omaq və yaxud mövcud olan məhəbbətin itirilməsi
7. Tez-tez abort.

Boşanmanı doğuran səbəblərdən biri də gənclərin məcburiyyət qarşısında qalaraq ailə qurmasıdır. Məcburi nikahın digər forması da vardır: valideynlərinin iradəsinin ziddinə gedə bilməyən oğlan (qız) evlənməyə razı olur, lakin illər keçir, gənclər başa düşürlər ki, onlar bir-biri üçün yaranmamışlar.

Boşanmaların sürətlə artmasına gətirib çıxaran müəyyən səbəblər də vardır ki, ictimai və mədəni dəyişikliklər, urbanizasiya buna misal ola bilər. Məsələn, kənd yerlərində boşanmalar azdır. Çünki orada qadınların iqtisadi azadlığı yoxdur. Qadın hüquqlarının inkişafı, təhsil səviyyəsi və ictimai həyatda iştirakı gözləntilərə zidd olaraq nikahda harmoniyanı artırmadı. Ailənin yaşayış səviyyəsi yüksəldi, amma ailədə rol qarşıdurması yarandı. Nəticədə boşanmalar daha da artdı.

Aparılan tədqiqat zamanı: Yoldaşınızda bəyənmədiyiniz, amma evləndikdən sonra dəyişər dediyiniz xüsusiyyətlər var idi? sualına qadınlar 86%-i, kişilərin isə 78,8%-i hə cavabı verib. Bu isə onların evliliklərinin nə vaxtsa boşanma ilə nəticələnəcəyini göstərir. Aparılan tədqiqatlar zamanı boşanmaların 40% - nin evliliyin ilk 5 ilində ortaya çıxdığı məlum olmuşdur. Konfutsi boşanmanı ancaq ən azı bir yerdə beş il yaşayanlar üçün əsaslı hesab etmişdir. [Oxu məni qəzeti, səh 12] Beş il bir-birini tam tanımaq üçün kifayət edəcək müddətdir. Bu müddət ərzində tərəflər özlərinin və qarşı tərəfin müsbət, həmçinin mənfi xüsusiyyətlərinə görə müəyyən nəticə çıxara bilərlər. İnsanlar uzun müddət rola girə bilməzlər. Nə vaxtsa bütün həqiqətin üzə çıxacağı bir vaxt yaranır və onda hər iki tərəfin əsl mahiyyəti üzə çıxır.

Hər bir normal ailə şəraitində boya-başa çatan uşaqlarda yüksək əxlaqi keyfiyyətlər, insanlara hörmətlə yanaşma, özündən kiçiklərə qayğı göstərmək və kömək etmək, yoldaşlarına qarşı rəftar və davranışlarında səmimiyyət hissinin yüksək olması təşəkkül edə bilər. Ümumiyyətlə ailədə uşağın olması boşanmaya mane olan bir səbədir. Belə ki, boşanmaların 43,85%-i uşaqsız ailələrdə baş verir. Boşanmanın uşaqlarda ortaya çıxara biləcəyi bəzi probləmlər; qorxu, kədər, hirs, günah hissi, təklik, yuxu problemləri, özündən razılıq, məktəbdə problemlər, psixoloji və fiziki xəstəliklər və yemək problemləri olaraq qeyd edilə bilər. Xüsusilə də boşanmanın ilk dövrlərinin uşaqlara mənfi təsiri daha çoxdur. Bu dövrdə uşaqlar sosial şərtlər səbəbiylə valideynlərini itirmə və tək qalma qorxusu yaşayırlar. Statistikalar boşanmış ailələrdən olan uşaqların da gələcəkdə qurduqları ailənin boşanma ilə nəticələnəcəyinin yüksək olduğunu göstərir. Belə gənclər evliliklərində ən kiçik fikir ayrılığı olduqda ən asan həlli ana və atalarının yolundan gedərək boşanmaqda tapırlar.

Boşanmaya səbəb olan başqa bir amil emosional əlaqədir. Emosional əlaqə dedikdə ağla ilk olaraq qarşılıqlı sevginin olmaması gəlir. Bundan əlavə tərəflərin bir-birinə hörmətsizliyi, qısqanclığı və inamsızlığı da emosional əlaqəni zədələyən bir ünsür sayılır. Bəziləri qısqanclığı keçmişin qalığı hesab edirlər. Belə hökm vermək doğru deyildir. Çünki alimlər belə qənaətə gəlmişlər ki, insanın beyin qabığının müəyyən hissələri arasında xüsusi qısqanclıq mərkəzləri vardır. Lakin, hər halda qısqanclıq gərək həddində ola, ifrata varmaya. İfrata vardıqda isə əsl xəstəliyə çevrilir.Belə xəstəliyə tutulan adamlar özlərini də ailələrini də bədbəxt edirlər. Qısqanclıq hissi kişilərlə yanaşı güclü və zəif dərəcədə qadınlara da xasdır. Qadın qısqanclığı bəzən daha ifrat formalarda özünü göstərir. Qısqanclığın yaranmasının bəzi səbəbləri vardır ki, bunlardan biri qeyri-sadiqlik, ailədə xəyanət təmayülü nəticəsində yaranan qısqanclıqdır. Özündə olan xəyanət hissini o, mütləq qarşı tərəfə də aid edir. Ona elə gəlir ki, bu xəyanət hissi arvadında da (ərində də) yaranıb və imkan olduqda o xəyanət edəcək. Qısqanclıq itib yox olmuş sevginin və yaxud onun əvvəlcədən də olmaması nəticəsində yaranır. Çünki ər arvad arasında sevgi varsa, başqaları haqqında danışmaq və ya fikirləşmək həqiqətə uyğun gəlməz.

Yuxarıda qeyd olunduğu kimi boşanmaya gətirib çıxaran digər bir səbəb ailədaxili zorakılıqdır. Bu, fiziki, psixoloji, iqtisadi və cinsi formalarda ola bilər. Fiziki zorakılıq hədə-qorxu, qəddar gücdən istifadədir. Yumruq, təpik, kəsici alətlə yaralamaq, sağlam olmayan şəraitdə yaşamağa məcbur etmək, tibb xidmətlərindən istifadəyə əngəl olmaq fiziki zorakılıq əlamətləridir. Bugün ölkəmizdə ailədaxili zorakılıq zamanı fiziki gücə məruz qalan daha çox qadınlar olur. Qadınlar öz hüquqlarını bilmədikdə onlara qarşı zorakılıq üçün şərait yaranır, və çox vaxt qadınlar bele şəraitdə susmağı üstün tuturlar. Yardıma ehtiyacları olduqları halda onu qəbul etməkdən qaçırlar. Çünki yaxınlarından, qohumlarından utanırlar, insanların onlara inanmayacaqlarını və ya boşandıqdan sonra küçələrdə səfalət içində yaşayacaqlarını düşünürlər. Çox az hallarda qurbanlar bu barədə polisə müraciət edir, məhkəmələrdə cinayət işləri açılır. Qadınların öz hüquqlarını bilməməsinin ən əsas səbəbi onların erkən yaşda nikaha zorlanması və təhsil almaq hüququndan məhrum olmalarıdır. Statistikaya görə dünyada hər 3 qadından biri nə vaxtsa zorakılığa məruz qalıb. Hətta son zamanlarda ölümlə nəticələnən zorakılıq hallarının şahidi oluruq. Həyat yoldaşları

tərəfindən zorakılığa məruz qalan kişilərdə vardır ki, tədqiqatlar zamanı zorakılıq tətbiq edən qadınların özlərinin də zorakılığa məruz qaldığı və zorakılığa zorakılıqdan qorunmaq üçün əl atdıqları məlum olmuşdur.

Cinsi zorakılıq fiziki, psixoloji və reproduktiv sağlamlığa ciddi fəsadlar törədə bilər. Cinsi zorakılıq ağır fiziki zədələr və qurbanlara zorakılıqdan sonra uzun illər əziyyət verən psixoloji pozğunluqlarla nəticələnə bilər. Cinsi zorakılıq ölümlə nəticələnə bilər. Cinsi zorakılıq qurbanı olmuş qadınların özünə qəsd etmə riski də artır. Həyat yoldaşı istəmədiyi halda, istəmədiyi zamanda və hətta başqaları ilə cinsi əlaqədə olmağa zorlamaq, uşaq dünyaya gətirməyə və aborta məcbur etmək və cinsi orqanlarına zərər yetirmək cinsi zorakılıq davranışlarıdır ki, bunlar da boşanmaya gətirib çıxaran əsas səbəblərdən biridir.

Psixoloji zorakılıq insana ən böyük travma verən və uzunmüddətli təsir, iz qoyan zorakılıqdır. Verbal təhqir, gözlə və jestlə təzyiq, şantaj psixoloji zorakılıq nümunələridir.

İqtisadi zorakılıq qorxulu bir istismar formasıdır və bu illərlə davam edə bilər. Məsələn bank hesablarını nəzarətə götürmək, tərəflərdən birinin xəbəri olmadan kredit götürmək və.s. İqtisadi zorakılıq da öz növbəsində daha çox qadınlara qarşı yönəlir. Məsələn, ər həyat yoldaşının işləməsinə icazə vermir və belə olduqda qadın ərindən asılı vəziyyətdə yaşayır. Bu, daha çox təhsilsiz ailə quran qadınlarda özünü büruzə verir.

Bu gün boşanma səbəbi kimi maddiyat böyük yer tutur. Maddi cəhətdən imkansız olan ailə kirayədə qalmağa məcbur olur, öz mənzili olmur və bunun nəticəsində də ağır maddi çətinliklərlə üzləşir. Burada bir məsələni qeyd edək. Gənc ailələrin əksəriyyətinin ayrıca mənzilləri olmadığından onların mübahisələrini təklikdə aparmaq üçün imkanları olmur. Deməli, istər-istəməz konfliktə kənar şəxslər də şahid olur. Lakin onlar bu zaman mübahisədə iştirak etməsələr də, mübahisə edənlərdən birinin tərəfini saxlamasalar da, müəyyən bir vaxtdan sonra konflikt və tərəflər haqqında öz fikirlərini söyləyə bilərlər. Münahisə zamanı başqalarının müdaxiləsi konflikti daha da dərinləşdirir. Əgər valideynlər həmin vaxt konfliktə qarışmayıb müəyyən müddətdən sonra bu məsələ haqqında öz fikirlərini desələr, artıq yaddan çıxmaqda olan konflikt yenidən başlana bilər. Ona görə də gənclər çalışmalıdırlar ki, belə mübahisələrə ətrafdakıları qarışdırmasınlar.

Bəs ümumiyyətlə mübahisəsiz, konfliktsiz ailə təsəvvür etmək olarmı? İnamla demək olar ki, mübahisəsiz, konfliktsiz ailə olmur. Hər bir ailədə xırda da olsa söz-söhbət, kiçik münaqişələr olur. Bəzən elə başa düşülür ki, bu münaqişələri asanlıqla həll edə bilən insanların hamısı möhkəm səbrə, güclü iradəyə, geniş dünyagörüşünə malik, cəsarətli şəxslərdir. Ancaq bu hər zaman belə olmur. Buna baxmayaraq 30, 40, 50 il davam edən bir çox ailələr vardır. Deməli, ailədə mübahisələr olur, amma, mübahisə edən tərəflərin hər ikisinin və yaxud heç olmasa birinin mədəni səviyyəsi, bir-birilərinə olan sevgi, məhəbbət hissi bu mübahisənin müəyyən bir çərçivədən çıxmasına imkan vermir.

## Ədəbiyyat


Quliyev H.A - Azərbaycanda ailə-məişətinin bəzi məsələləri, Elm, 1986, 96 səh.

"Oxu məni" qəzeti, 19 mart 1999.

Salmanova Nəzakət – Azərbaycanda ailə-nikah münasibətlərinin inkişafı, Bakı, 2013, 178 səh.

http://inform.az/index.php?newsid=12537

https://jam-news.net/az%C9%99rbaycansayagi-bosanma/?lang=az-AZ

http://ayna.az/news/1141